***Rəşad Ramazanlı***

# *MÜHİTİN FƏLSƏFƏSİ*

***Bakı-2007***

*Ən böyük MÜHİT ALLAHIN adı ilə!*
*Bu kitabı Təbiətə və Təbiilərə ithaf edirəm!*


***ELMI REDAKTORLAR:***
*1.Qüdrət İshaqlı, fizika-riyyaziyyat elmləri doktoru, professor*
*2.Museyib Museyibli, coğrafiya elmlər doktoru, professor*

***RƏYÇİLƏR:***
*1.Fuad Qasımzadə, fəlsəfə elmləri doktoru, akademik*
*2.Mikayıl Bayram, tarix elmlər doktoru, professor*
*3.Telman Xəlil, coğrafiya elmləri doktoru, professor*
*4.Rahib Abış, biologiya elmləri doktoru, professor*
*5.Rasim Osmanzadə, fəlsəfə elmləri doktoru*
*6.Salman Rza, fizika-riyaziyyat elmləri doktoru*
*7.Hüseyn Xəlil, coğrafiya elmləri doktoru*

***REDAKTOR:*** *Əliş Mirzallı, filologiya elmləri namizədi*

***KORREKTOR:*** *Könül İsmayıl, AMEA-nın dissertantı*

*R.Ramazanlı "**Mühitin fəlsəfəsi**" Bakı, Əlincə, 2007, 272 səh.*


*Kitab nəinki Azərbaycanda, mübaliğəsiz demək olar ki, bütün dünyada **MÜHİTİN FƏLSƏFƏSİ** və **MÜHITŞÜNASILIQ** adlı elm sahəsinə dair yazılmış ilk sistemli tətqiqat əsəridir. Kitabda **Mühitşünasılıq** bir elm kimi əsaslandırılır və onun mahiyyəti, inkişaf qanunauyğunluqları, elm və informasiya sistemi kimi xüsusiyyətləri göstərilir və linqvistik təhlili də verilir. Kitabda mühitin ekoloji və fiziki aspektlərilə yanaşı, estetikası, metafizika və qnosiologiyası da üniversal işlənmişdir. Müəllif **«Empriomaterializm»**, **«Məxfi Həqiqətlər»**, **«Məxfi Həyat»**, **«Ekosofiya»**, **«Mühitin metafizikası»**, **«Mühitşünaslıq»** adlı əsərlərindəki fikir və mülahizələrini bu kitabda daha da inkişaf etdirmişdir. Yalan, böhtan və yaltaqlıqdan tamam uzaq, haqsızlığa yağı və məhsuldar müəllif kimi tanınan Rəşad HƏQİQƏT yenə də öz elmi və həyati həqiqətlərilə ürəyimizi oxşayır, ruhumuza dinclik verir. Kitab elm adamları və hikmət sevərlər üçün nəzərdə tutulmuşdur.*


***0301000009***
***AB022004***



*©Ramazanlı R., 2007*

## *Giriş*

*Magistraturada mənə bir akedemik dərs deyirdi. O qədər təkəbbürlü və cahil idi ki, demək olar hər dərsdə bizi səbəbsiz yerə özünəməxsus **"elmi"** formada təhqir edər, alçaldardı. Özünü Azərbaycanın bir nömrəli geoloq, geoqraf və landşaftşünası hesab etməsinə baxmayaraq, ən azı Allah şahiddir ki, istər xarakteri, istər dünyagörüşü, istərsə də elmi səviyyəsi diletant dosentlərdən də çox aşağı idi. Dünyanın ən böyük və ən məşhur geoqraflarını tanımayan bu bədbəxt öz həyat və fəaliyyətilə elmin yurdumuzdakı faciəvi durumunu göstərirdi. Bu faciəni o vaxt gündəliyimdə belə təsvir etmişdim:*

*Yazıq Ratsel, Reklyu, Ritter!*
*Nəinkı dərk, tanımır sizi professor, akademik!*
*Tanıyanlar da "**döşəyir**" dalınızca!*
*Tənqid nədir, təhqir edir doyunca, yorulunca!*
*O gün bir içiboş akademik çaşdı!*
*Vətənimizdə məşhur yerşünasdı!*
*Tanımadı Ratseli, habelə Ritteri*
*"**Bu barədə heç eşitməmişəm!**"- dedi.*
*Təbiətşünas, yerşünas olmaq istəyən!*
*Ölməzliyinə ümüd bəsləyən!*
*Gərək oxusun, anlasın Ratseli, Ritteri!*

*Təsəvvür edin özünü genetik sayan adam Mendeli, filosof sayan adam Kantı tanımamaqda hansı vəziyyətdədirsə, Ratseli, Kropotkini, Reklyunu tanımayan bu cür **"geoqraflar"** da eynilə bu haldadırlar! Belə bir zırramaya akademik titulu vermək elmi və elm adamlarını ən azından təhqir etməkdir. Zırramalığı və savadsızlığı bir tərəfə, bu cür insanlar istedad və qabiliyyət sahiblərinin ən böyük düşməni olurlar! Bu cür içi boş insanlara vəzifə, titul, rütbə, dərəcə verməklə aftoritar rejim həqiqi dövlət qulluqçularını, əsl igid hərbiçiləri və xüsusən əsl alimləri qətl etmiş olur! Abbasqulu Ağa necə də yaxşı demişdi: **"Yaxşılıq etmək yaxşı şeydir. Amma pislərə yaxşılıq etmək yaxşılara pislik etmək kimidir!"(Təhzibi-əxlaq, 19)** Mən isə əlavə edərdim ki, dəyərsizlərə, pislərə yaxşılıq etmək, yer vermək, yaxşılara pislik etməkdən də pisdir! Təkcə məsələn, Ratselin **"Yer və insan"** və **"Xalqşünaslıq"** əsərləri sovet təbiətşünaslarının və onların bu günkü varislərinin bütün kitablarına dəyər! Əgər bizim coğrafiyaşünas*

*professor, hətta akademiklərimiz də Ratseli, Ritteri, dəyəri minlərlə miçurin və sauşkindən artıq olan Reklyunu, Park Roberti, Samner Uilyamı, Kropotkini oxumur nədir, hətta tanımırsa, yalnız keçmiş, artıq çoxdan təkzib edilmiş* ***"biliklərin"*** *təsiri altında yatıbsa, çətin ki, xalqımız bataqlıqdan çıxa bilsin! Postsovet ölkələrinin çoxunda hər sahə olduğu kimi, elm-təhsil sahəsi də neobolşevik rejimin nəzarəti altında, istək və tələblərinə uyğun şəkildə formalaşdırılır. Elə bunun nəticəsidir ki, bizdə coğrafiya dedikdə çox zaman bayağılaşdırılmış fiziki coğrafiya, bəzən də sosial-iqtisadi tərəfləri olan uydurma bir coğrafiya başa düşülür. Çox az adam başa düşür ki, fiziki-coğrafiya coğrafiyanın əsasıdır, amma məzmun və mənası deyil. Coğrafiyanın bir elm kimi yeganə mənası, dəyəri siyasi-coğrafiyadır və ya siyasi coğrafiyadadır. Məhz bu məna, bu dəyər coğrafiyanın əsasını(təbii coğrafiyanı) tamamlayır. Fiziki coğrafiya öz-özlüyündə natamam elmdir. Damı olmayan ev hansı problemləri yaradırsa, siyasi coğrafiya olmadan da coğrafiya elminin halı da belədir. Sovet dövründə bütün elmlər lenin və stalinin əqidə və arzularına adaptasiya edilirdi. İndi də onların varislərinin əqidə və arzuları əsas götrülür! Coğrafi-ekologiya və ya EKOQRAFIYA və siyasi coğrafiya və ya ekopolitika elmləri də buna görə öz həqiqi dəyər və mənasından məhrum edilib. Çünki bu məna, bu dəyər yeganə elmi sistemdir ki, səlim, pyotr, stalin, mao, buş və onların bənzəri, sələfi, xələfi və təqlid və təqibçiləri olan hər kəsi hər tərəfli tanımaq üçün lazım olan bütün infrormasiyaları özündə daşıyır. Sovetlər dağılandan sonra postsovet məkanında(pribaltika xaric) lenin və stalinin siyasi və ideoloji varislərinin hakimiyyətdə olmaları ucbatından elm və mənəviyyatın hər sahəsində olduğu kimi, siyasi-coğrafiya sahəsində də mövcud olan böyük boşluq doldurulmamış qaldı! Mən də içində olduğum bu insan cəmiyyətinin boşalmış mənəvi və elmi dünyasını sadəcə doldurmağa çalışanlardan biriyəm. Bu qiymətli işdən aldığım zövq və həzz bircə anlıq da olsa məni varlığın laciverd zirvəsinə qaldırır. Əgər bilsəydim ki, günü-gündən* ***"çiçəklənən"*** *yurdumuzda fəlsəfənin, dinin və elmin haqqını verənlər var, böyük ehtimalla sırf şəxsi işlərlə məşğul olar, vətənimizdə elm və mənəviyyat sahəsindəki günü-gündən genişlənən nəhəng vakuumun sahəsini daraltmağa və sıxmağa bu qədər cəhd etməzdim. Öz vəzifə borcunu yerinə yetirməyən psevdosof və psevdoalimlərin,* ***"korifeylərin"*** *naşı fəaliyyətləri ucbatından yüküm çox böyükdür. Coğrafi-ekologiya üzrə ixtisaslaşmağıma baxmayaraq*

*qlobal problemlərin həlli yolu və istiqamətində apardığım tədqiqat və araşdırmalar məni istər-istəməz fəlsəfə, din və elmin əsas sahələrini də öyrənməyə vadar etdi. Odlar yurdunda elm və mənəviyyat sahəsindəki böyük boşluğu doldurmaq yolunda ilk addımı 2000-ci ildə yazdığım* ***"Empriomaterializm"*** *adlı əsərimlə atdım. Sırf ekoloji və ekoqrafik fəlsəfə, qlobal və mənəvi problemlərin teoloji təhlili və əsaslandırılması sahəsindəki vakuumu isə 2003-cü ildə yazdığım* ***"Mühitşünaslıq"*** *əsərimlə doldurmağa çalışdım. Sonralar* ***"Mühitin metafizikası"*** *barədə bəzi düşüncələrə daldım və fikirləşdim ki,* ***"Mühitşünaslıq"****ı təkmilləşdirim. Çünki* ***"Mühitşünaslıq"****da yarımçıq qalmış bir-çox məsələlər vardı. Mühitlə bağlı apardığım təhqiq və tədqiqatları, həmçinin bütün ideya və mülahizələrimi* ***"Mühitin Fəlsəfəsi"*** *adı ilə təqdim etməyi uyğun gördüm. Tənqid və rədd etdiyim ideologiya və baxışların, səthi elmi nəticələrin əsasında antroposentrizm, totalitarizm və modernizm durur. Tənqidlər elmin özünü deyil, onun hər cür mənəvi dəyəri və inancı rədd edən pozitivist və materialist tərəflərini hədəfə alır və rədd edir.* [1] *İdeya və mülahizələrim naturasentrizm, ekosentrizm, miniumum ekoanarxizm və maksiumum TEOsentrizmə əsaslanır. Əgər tətbiqi ekologiya sadəcə çirklənmə proseslərini araşdırır və aradan qaldırmağa çalışırsa, ekosofiya, ekopolitika, ekokultura da dərin ekologiyanın əsas sahələri olub praktiki baxımdan modernizmi, ideoloji baxımdan da ateizm və antiteizmi tənqid və rədd edir. Digər tərəfdən bütün bunlar Mühitşünaslıq və Mühitin Fəlsəfəsində(ENVİROMENTOSOFİYA) birləşirlər. Mühitin fəlsəfəsini sistemli şəkildə ortaya qoymaq üçün yüzlərlə qaynaq incələdim, dərin tədqiqat apardım. Ən azından postsovet məkanında belə bir qiymətli işin ilk müəllifi olduğum üçün Allaha sonsuz həmd olsun! Əfsus ki, bizim məmləkətdə elmi mühiti zəbt etmiş danabaş və meşşan zırramalar üçün gözəllik, dəyər və qiymət - titul, rütbə və vəzifədədir. Bizdə kim siyasi rejimə xidmət etmirsə, çox çətin ki, ona layiq olduğu yeri versinlər. Əfsuslar olsun ki,* ***"çar"****, xüsusən də* ***"sovet"*** *parnikinin məhsulları olan(əgər bunlara məhsul demək olarsa!) çox yaşlı və orta yaşlı nəsil, dəyərli və qiymətli ideyalar daşıyıcısı olan cəmi bir ovuc gəncləri başa düşmür,*

---

[1] ***Özdemir, İbrahim, "Çevre Bilincinin Gelişiminde Çevre Ahlakı'nın Önemi", A.İ.F.D. Cumhuriyetin 75. Yıh Özel Sayısı, Ankara, 1999, 297***

*daha doğrusu qəbul etmək istəmirlər! Əlbəttə, burada bizim üçün təəcüblü heç nə yoxdur. Amma bu çox böyük və faciəli problemdir! Bizim **"alimlər"** ən səviyyəsiz əcnəbi alimləri, xüsusilə slavyan-monqol irqinin nümayəndəsi olanları, bizim indiki ən dahi alimlərimizdən də üstün tuturlar! Məsələn, slavyanofil tarixçilər özlərindən qat-qat cılız dandamayev, lunin, stratonovskilərə aftoritet bilərək müraciət etdikləri kimi, slavyanofil yerşünaslar da özlərindən dəfələrlə naşı və diletant olan palınov, soçava, raman, anuçin, ramenski, baranski, milkov və digərlərinə az qala bir büt kimi müraciət edirlər! Vernadski, Qumilyev və bir-iki müəllif istisna olmaqla Sovet dövründə, **"sovet məhsulu"** kimi çap olunmuş kitabları demək olar ki, oxumuram və oxuculara da bu içi boş, mexaniki söz yığını olan zirzəmilik kitabları oxuyub boş vaxt itirməmələrini tövsiyyə edirəm. Axı, luninlərin, dandamayevlərin, sauşkinlərin və ya zvankovaların nəyinə istinad edəsən?! Lakin heyrətamizdir ki, bizim tədqiqatçılar(əgər bunları tədqiqatçı hesab etmək mümkünsə!) özlərindən yüz və bəlkədə min dəfə aşağı səviyyədə olan palınov və abolinlərə, milkov və mostepanenkolara aftoritet və büt kimi müraciət etməkdə yarış keçirir və az qala dəridən qabıqdan çıxırlar! Bu acı həqiqəti söylədiyimiz üçün bizə nifrət edən və ya edəcək hörmətə namizəd elm adamlarımız bir balaca baş işlətsəydilər həm özlərinin, həm də bütlərinin ən yaxşı halda pedant diletantdan başqa bir şey olmadığını anlayardılar! Özümüzü bəyənməmək, başqalarının bizə verdiyi yüksək qiyməti öz elm adamlarımıza verməmək və ya vermək istəməmək sağalmaz xəstəliyə çevrilib! Böyük istedad sahibi alimlərimiz hər sahədə həmişə olub, bu gün də var. Bizim diletant - pedant sürüsünün aftoritet kimi müraciət etdiyi əcnəbi kəslərin biri varmı ki, hüquq sahəsində **İntiqam Əliyə**, puplika fəlsəfəsində **Əlisa Nicata**, nəzəri estetikada **Niyazi Mehdiyə** tay olsun?! Bunların hər biri ən azı öz sahələrinin akademikləri olsalar da meşşan və paxılların hakimiyyəti ucbatından onların da haqları tapdalanır. Təkcə Əlisa Nicat minlərlə fukayama kimisinə dəyər. Neobolşevik sistemdə hətta, sovet məktəbindən çıxmış Səlahəddin Xəlil kimi tək-tük istedad sahiblərinə də yer verilmirsə, bizə, açıq səma altında cücərmiş bitkilərə bənzəyən, cəmiyyətə yeni dəyərlər gətirmək gücündə olan gənc alimlərə heç verilməz! El arasında deyildiyi kimi **"saqqalımız yoxdu sözümüz keçmir!"** İmam Əli necə də gözəl deyir: **"Baxma kim deyir, bax gör nə deyir!"** Pedant və meşşan sürüsü tarix boyu nə*

*deyildiyinə deyil, kimin dediyinə baxmışlar. Amma dərin elm adamları, elmə və mənəviyyata düzgün qiymət verməyi bacaranlar, sözə sahibinə görə deyil, dəyərinə görə qiymət vermiş və verirlər. Buna görə də özlərini alim hesab edən yaramaz cahillərdən 25 yaşlı bir gəncin Allahın bəxş etdiyi düha ilə araya-ərsəyə gətirdiyi bu qiymətli kitaba düzgün və ədalətli qiymət verəcəklərini düşünmək və gözləmək əbəsdir! Lümpen, pedant və meşşanlardan din maskasında olanlar da mənə belə bir irad tuturlar ki,* ***"sən qeyri-müsəlman alimlərdən çox sitat gətirirsən. Halbuki onlar kafirdir!"*** *Mən bu yaramaz zırramalara İmam Əlinin yuxarıda nəql etdiyim məhşur aforizmindən sonra ümmətin ən böyük mütəfəkkirlərindən birinin sözləri ilə cavab vermək istəyirəm. Zamanında təfəkkür sahəsində mücəddid olan Yaqub bin İshaq əl Kindi risalələrindən birində Fəlsəfə və Məntiq kimi elmlərdə Yunan və Romalıların əldə etdiyi elmi və mədəni nailiyyətlərdən istifadə etməkdən bəhs edərkən belə yazır:* ***"Haradan gəlirsə gəlsin, haqqı xoş qarşılamalı, onu mənimsəməliyik! Bizdən uzaq irqlərdən, bizə müxalif ümmətlərdən gəlsə də! Çünki, haqqı axtaran kimsə üçün haqdan daha önəmli heç nə yoxdur! Haqqı dəyərsizləşdirməməli, söyləyəni və ya onu ortaya qoyanı kiçiltməməliyik. Çünki, haqla kiçilən heç kim yoxdur. Əksinə hər kəsi ucaldan elə haqqdır!"***[2] *Kindinin bu sözlərində böyük həqiqət və ibrət var. Haqqı, həqiqəti, yəhidi, xristian, buddist, erməni və digərləri aşkarlayıb və ya gözəl bir formada tərtibləyib deyə rədd etmək hikmətdən və insafdan məhrum axmaqların özəlliyidir. Əfsus ki, ümmət əksəriyyətcə haqqın müəyyən bir toplum və firqəyə mənsub alim və şeyxlərin bir birindən kopyaladağı kitablardan kənara çıxmadığını zənn edən cahil və axmaxlarla qaynaşır. Haqqı axtaran üçün onun kimdən gəldiyi önəmli deyil! Halbuki, hikmət və elm iman və vicdan sahiblərinin ən böyük və ən gözəl zinətidir.*

*Fikirlər çox, arzular sonsuz, amma niyyət və məqsədimiz birdir – kamil insan və kamil mühit formalaşdırmaq, həmçinin etnogenezin ekoqrafik və ekofiziki mahiyyətini açıqlamaq və etnokatarsisin yolunu göstərmək... Bütün bunlar nə qədər çətin olsa da, hər halda mümkün, vacib və lazımdır. Etnoxarakterik proseslər xüsusi tədqiq və təhqiq tələb edir, lakin biz bu prosesin mahiyyətinə vara bilmək üçün ilk öncə*

---

[2] *Yaqub bin İshaq Əl Kindi(185-256 h/805-873 m): Rəsailul Kindi Əl Fəlsəfiyyə: 103 Darul Fikril Arabi: 1369/1950*

*özümüzdən başlamalıyıq və başladıq da. Əgər bu məsələyə başqa cür başlasaydım, onda digər xalqlar barədə nəsə danışmağa sadəcə haqqım olmazdı! Şübhəsiz bizə deyərdilər ki,* ***«öz gözlərində tiri görmürlər, başqalarının gözündə qıl axtarırlar?!»*** *Avropalılar şikayət edə bilərlər ki, onlara asiyalı gözü ilə baxıram. Asiyalılar da şikayət edə bilərlər ki, avropalı olmaq istəyirəm. Lakin mən nə avropalı, nə də asiyalıyam. Nə asiyalı gözüm var, nə də avropalı olmaq istəyim. Mən cərəyançı və ya məzhəbçi olmaqdan da çox-çox uzağam, yalnız və yalnız, yeganə və yeganə mənəm - iztirablı düşüncələr sahibi, bir balaca şənlənən və bir balaca da məzələnən bir «****MƏN****»!*[3] *Mən heç vaxt öz yaradıcılığımı indi üçün hesablamıram. Artıq bilirəm ki, nə olur olsun öz misiyamı yerinə yetirməli, əzilmiş, aldadılmış və azdırılmış xalqıma bacardığım qədər kömək etməliyəm. Ən azından Allah şahiddir ki, heç vaxt yaradıcılığım üçün ekonomik və ya mövqe təmənnası güdməmişəm. İndiyəcən nə çap etdirmişəmsə yalnız şəxsi vəsaitim hesabına olub və xalqın düşünən elitasını formalaşdırmaq niyyətilə etmişəm. Bəzi dostlarım deyir ki, sənin elmi titulun yoxdursa çətin ki, səni dinləsinlər. Mən də onlara cavab verdim ki, Allah yaratdıqları arasında mənəviyyatca, elm və hikmətcə böyük fərq qoyub, danabaş pedant və meşşanlar kollektivi isə hərbi rütbə, elmi dərəcə, vəzifə və başqa meşşan üsullarla bu fərqi yox etməyə çalışırlar! Belələri cari həyatda özlərini və xalqı aldatsalar da, tarix onların masqasını cıracaq! Buna görə də heç vaxt, heç kimdən, xüsusilə də siyasi rejimin xidmətçilərindən nəsə gözləmək əbəsdir. Mənə mane olmasınlar bu mənə də, digər müstəqil alimlərə də yetər! Bilirəm ki, elm və hikmət aləminə özünü soxuşdurmuş elm və hikmət düşmənləri bir balaca orjinal fikir və düşündürücü ideya görəndə və ya hər hansı bir istedadlı yaradıcılıqla tanış olanda çox pis bir şəkildə sıxılırlar. Əgər əllərində yüz faiz imkan olsa, bizi çox böyük çətinliklə əldə etdiyimiz bir qarın yeməyə də möhtac edərlər! Mən bəlkə də bu cəmiyyətin ən yoxsul təbəqəsindənəm, amma bütün sosial-ekonomik və siyasi-ekonomik sıxıntıma baxmayaraq elmi yaradıcılıq davam edir. Böyük Eynşteynin elm mühitinin əsl sahibləri barədə gözəl bir təsbiti var ki, onu burda iqtibas etməyim yerinə düşərdi:* ***"Elm məbədi çox mürəkkəb qurulub. Bura gələnlər də, onları bura gətirən qüvvələr də müxtəlifdir. Bəziləri elmlə intellektuallıq səviyyəsini artırmaq***

---

[3] ***Rəşad Həqiqət, Məxfi Həqiqətlər, 82***

***üçün məşğul olurlar. Bu baxımdan elm idmana bənzəyir, hansı sahədə üstünlük əldə edilirsə şöhrət gətirir. Bəziləri isə öz fikirlərinin məhsullarını fayda əldə etməyə həsr edirlər. Əgər Allah tərəfindən göndərilən mələk hər iki kateqoriyada olanları məbəddən uzaqlaşdırsaydı, onda məbəd kəskin şəkildə boşalar və orda tək-tük adam qalardı. Bunlar o adamlardır ki, onlarsız elm məbədi heç vaxt ucala bilməz. Onlar maddi dünyanın cari qayğılarından uzaqlaşaraq elm məbədinə tam təmənnasız gəlmiş adamlardır!"*** [4] *Mən də elm aləminə heç bir təmənna güdmədən gələn tək-tük insanlardan olduğum üçün çox xoşbəxtəm. Əminəm ki, bu əsər kamil insanlara ən azı yaxşı təsir edəcək və onlar sevinəcəklər. Kamilliyə can atan insan həqiqət görəndə, həqiqət eşidəndə istər-istəməz sevinir, həzz alır və ən azı xoşbəxt anlar, dəqiqələr yaşayır. Əlbəttə,* ***"sovet uşaqlarının"*** *duyma və dərk etmə qabiliyyəti istisna edilir, çünki onlar həqiqəti ya duya bilmir, ya da duymaq istəmirlər! Cəmiyyətimizdə kamil və zəngin daxili mühitə malik insanlar olduqca azdır və günü-gündən azalmaqdadırlar! Cəmiyyətimiz xəbis, riyakar, yaltaq, paxıl, namərd, bir sözlə dəyərsiz insanlarla qaynaşır. Bu cür insanlar həqiqət görəndə və ya eşidəndə özündən çıxıb aqressiv olurlar. Lakin cəmi bir ovuc olan pak, elmli və vicdanlı adamlar – hər tərəfli düşünməyi bacaranlar üçün nə bu kitabdakı fikirlər, nə də bu fikirlərin müəllifi mənfur ola bilməz! Bu kitaba və onun müəllifinə qarşı qərəzli, kinli, paxıl və namərd olmaq yalnız və yalnız xalqımızın maddi sərvətlərini çapıb talayan və mənəvi sərvətləri də aşındıran* ***«bespredel»*** *fərdlərin kəlləsində dolaşa bilər! Təəssüf ki, beləlari yurdumuzun həm elmi, həm də siyasi sferasını işğal etmişlər! Üzdə və sözdə məni elm və hikmətdən uzaq hesab etsələr də, inanın ki, fikir və mülahizələrimi oğurlayan kim, əsərlərimi, xüsusilə mülahizə və ideyalarımı plagiat edib öz adlarına çıxan kim, yaxud böyük zəhmət bahasına dostlarımla incələdiyimiz və tərcümə etdiyimiz qaynaqları kopyalıyan kim?! İdeya və fikirlərimi oğurlayan və talan edən təkcə özümüzkülər deyil, qardaş bildiyimiz osmanlılar arasında da var! Mənim sadəcə bu xalqa, milli xüsusiyyətləri hər gün eroziya və deqradasiya edilən məzlum xalqıma yazığım gəlir ki, içindən hər bir elm sahəsinin mükəmməl mütəxəsisi çıxmasına baxmayaraq, onlar tərəfindən edilən ixtira və kəşflər, söylənilən orjinal və qiymətli fikir və ideyalar hakimiyyətin axmaqlığı*

---

[4] ***А.Эйнштейн. Мотивы научного исследования. Т.4, 1967, 40***

*və xalqın məsuliyyətsizliyi, digər xalq və dövlətlər arasında lazımı hörmətə malik olmaması ucbatından gec və ya tez digər xalqlara məxsus elm banditləri tərəfindən oğurlanır! Mirzə Şəfi, Həsən bəy Zərdabi, Əbu Turxan Axundzadə kimi Azərbaycanlı dühaların başına gələnlər çoxda uzaqda olmayan tarixdir. Ehtimal var ki, məni də eyni aqibət gözləsin. Şair əbəs yerə demirdi:* ***"Yoxdu millətimin imzası imzalar içində****!" Uca Allah hər dövrdə bu xalqa böyük istedad və düha sahibi yeni-yeni oğullar göndərir. Bu insanların haqqının verilməməsi bir tərəfə, acımasızca tapdansa da, hər halda onlar əllərindən gələni edirlər. Hansı ki, mexaniki söz yığını, şablon və plagiat olan kitablarla elmi titul qazanmaq bizdə çox adi, hətta fəxr ediləsi xəstə bir hal alıb!*

*Hörmətə layiq oxucum! Əsərdə insan və etnos xarakterinin qlobal cizgilərini təsvir etdiyim kimi, lokal və regional, həmçinin spesifik cizgilərini də təsvir etməyə çalışdım. Xarici və kosmik mühitlə yanaşı, daxili mühit olan mənəviyyatın da portretini yaratmağa cəhd etdim - xəritəsini çəkdim, sxemini də verdim. Amma bütün bunları yalnız kamil ruh və xalis* ***«mən»*** *sahibləri seyr edə, görə və ya duya biləcəklər. Əlbəttə, gələcəkdə yeni-yeni portretlər, xəritə sxemlər yaradılacaq, lakin bu yeniliklər yalnız formal xarakter daşıyacaq. Çünki bu kitab formallıqdan daha çox substansional xarakter və funksiyaya malikdir. Lakin bu qədər dəyər, keyfiyyət və orjinallığa baxmayaraq bu kitabı danabaş təbəqədə qəbul etdirmək çox çətin ki, mümkün olsun. Axı bu lümpen pedantların bizə qarşı dəlili(əslində dərdi!) nədir?! Bəziləri deyir ki,* ***"sənin yaradıcılığın publisistik-bədii üslubdadır!"****; digərləri deyir ki,* ***"elmdə emosianallıq olmaz!"*** *Başqa pedant diletantlar da başqa cəfəng iddia və ittihamlar irəli sürüb cəmiyyətə, millətə, hətta dövlətə böyük faydalar gətirə biləcək əsərlərimin üstündən necə deyərlər* ***"xaç çəkirlər"****! Hətta, xüsusi aftoritetə malik professorlardan biri üstümə bağıraraq dedi ki,* ***"sənin yazdıqların estetik aniktotdur!"*** *Mən bu zırramalara başa sala bilmirəm ki, estetiklik həm epistomoloji, həm ontoloji, həm aksioloji, həm də sinergetik ölçü və xarakterə malikdir. Başqa sözlə, estetiklik ekoloji və kosmoloji xarakter və miqyasdadır. Deyildiyinə görə bir gün XX-əsrin iki nəhəng alimi Blok və Heyzenberq arasında məkan haqqında münazirə olur. Blok məsləkdaşına məkanın matematik struktura malik olduğunu əsaslandırmaq istərkən, Heyzenberq gözlənilmədən fikrini başqa səmtə yönəldərək hayqırırmış kimi deyir:*

***"göyüzü gözəl və masmavidir və orda quşlar uçuşmaqdadır!"***[5] *XX-ci əsrin başqa bir nəhəngi Eynişteyn isə fiziki dünyanın qanunlarından bəhs edərkən onların rasional, zərif və gözəl olduğunu söyləyir.* [6] *Eynişteyn estetik duyğunun elmi nəzəriyyə və kəşflərdə önəmli rol oynadığını dəfələrlə söyləmişdir. Çoxlu alim və mütəfəkkir də bu görüşdədir. Hegel, Şellinq, Belinski, Darvin, Eddinqton, Plank, Vernadski, Cins bunlardan bəziləridir. Şəxsi təcrübəmdən bilirəm ki, istər dini, istər dini-fəlsəfi, istərsə də profan yaradıcılıqda estetik duyğuya malik olmadan heç bir qiymətli, tarixi dəyəri olan bir şey ortaya qoymaq mümkün deyil. Lakin özlərini filosof sayan şablonçu meşşanlar onların bağlandığı quru və ruhsuz üsluba uymadığım üçün məni çox incidirlər! Mənə dəfələrlə deyiblər ki,* ***"sənin üslubun hədsiz axıcıdır və daha çox bədii xarakter daşıyır!"*** *Axıcı və estetik üslub elm və fəlsəfənin ən əsas üslubudur! Üzdəniraq professorlardan biri mənə deyirdi ki,* ***"sənin üslubun fəlsəfə və fəlsəfi deyil! Belə bir üslub olan yerdə fəlsəfə qurtarır!"*** *Halbuki mənə məxsus olduğunu iddia etdikləri üslub böyük elmi-fəlsəfi məktəbə məxsusdur. Bu məktəbin ən böyük nümayəndələrindən olan Hegelin bu sözləri çox doğru və məşhurdur:* ***"Mən əminəm ki, ağlın məhsulu olan dərin ideyaları əhatə edən yüksək akt estetik aktdır. Həqiqət və xoşbəxtlik səmimi tellərlə gözəlliklə birləşirlər. Filosof da şair kimi estetik qabiliyyətə malik olmalıdır. Estetik hissdən məhrum olanlar, - bizim filosoflar kimi, - hərfgüdəndirlər! Ruhun fəlsəfəsi estetik fəlsəfədir. Estetik hissə malik olmadan heç bir sahədə mənəvi inkişaf ola bilməz, hətta tarix haqqında da ciddi mühakimə yürütmək olmaz!"*** *Şərəfsiz və zorba çar rusiyası totalitarizminin qurbanlarından olan Böyük EKOESTETİK Belinski yazırdı:* ***"Gözəllik hissi – insan ləyaqətinin şərtidir, yalnız onun sayəsində ağıl gercəkləşir, yalnız onunla alim dünyəvi ideyalar səviyyəsinə yüksəlir, təbiəti və hadisələri tam şəkildə başa düşür, yalnız onunla vətəndaş öz şəxsi ümidlərini və özünün şəxsi mənfəətini vətənə qurban verə bilər, yalnız onunla insan həyatda hünər göstərə bilər və onun ağırlığı altında əyilməz! Onsuz, estetik hissiz dahi yoxdur, istedad yoxdur, ağıl yoxdur, onsuz yalnız məişət həyatı üçün eqoizmin əhəmiyyətsiz***

---

[5] ***Victor Weisstopf, "Science and Art: Complementary Views of human Experience", Eranos, 53, 1984, s. 313***

[6] ***C.J. Whitrov, ed., Einsteyn: The Man and His Achievement, New York, 1973, 82***

***niyyətləri üçün yarayan bayağı sağlam düşüncə qalır... Estetik duyğu xeyirxahlığın əsasıdır, əxlaqın əsasıdır!"*** *Şablonları ilə məşhur olan Darvin də həyatının sonlarında deyirdi:* ***"Zehnim bir maşın kimidir. Əgər həyatımı yenidən yaşama fürsəti əldə etsəydim, ən azı həftədə bir dəfə şer oxuyar və musiqi dinlərdim. Bu zövqlərdən məhrum olmaq xoşbəxtliyin itrilməsinə səbəb olduğu kimi, zehnə də zərər verir. O hətta, əxlaqi nizamı da zəifldərək hamarlaya bilər!"***[7] *Böyük alim və mütəfəkkir Vernadski isə deyir:* ***"Deyirlər ki, guya yalnız ağılla hər şeyi dərk etmək olar. Yalandır, inanmayın!..Bir əlaqə ağıl, digər əlaqə isə hissdir. Bu əlaqələr yaradıcılıq prosesində bir-biri ilə kəsişirlər!"*** *İngilis alimi Con Reskin necə də hikmətli və gözəl demişdir:* ***"Gözəlliyi çox sevən insanlar həmişə ürəyi yanan, haqq tərəfdarı və insanları xoşbəxtliyə aparan təməllərin ilk şərhçiləri və qabaqcadan xəbər vərəni olurlar!"*** *Bizim pedant və praqmaqolik danabaşlar bu cür gözəl və müdrik sözləri çətin ki, dərk etsinlər. Bunların gücü,* ***"elmi"*** *və* ***"fəlsəfəsi"*** *ancaq istedad və dühanın qarşısında əngəl olmaqdan və ya əngəl yaratmaqdan başqa nəyə çatır ki?! Hissi və əqli idrakın yaradıcılıq prosesində bir-birindən ayrı olduğunu yalnız yaradıcılıq ruhundan uzaq kəslər söyləyə bilər ki, çox əfsuslar olsun ki, beləəri həmişə, hər yerdə çoxluq təşkil edib elmi və fəlsəfi novatorluğa müxtəlif damğalar vurmuş, elmi və ideoloji naaliyyətlərin vaxtında və yerində cəmiyyətə təqdim və təbliğ edilməsinə böyük əngəl yaratmışlar. Etiraf edim ki, bu gün mən belə bir əngəllə üz-üzəyəm! Halbuki bütün böyük elm adamlarının ittifaqı ilə estetik üsul, üslub və metod fəlsəfənin atributudur. Əminəm ki, çoxda uzaqda olmayan gələcəkdə bu sətirlərin EKOESTETIK olan müəllifi də, onun yaradıcılığı da layiqli qiymətini alacaq! Amma böyük ehtimal ki, bu zaman müəllif bu həyatda olmayacaq! Amma bütün bunlara baxmayaraq ümidsiz deyiləm! Fikirləşir və ümid edirəm ki, nə vaxtsa gözəgörünməz dağların arxasından bizi bu soyuq zülmətdən qurtarıb isindirəcək BÖYÜK GÜNƏŞ zühür edəcək! Bu ümidlərlə sizdən ayrılır və kitabı oxumağa dəvət edirəm.*

***Rəşad HƏQIQƏT***
***Masallı, yay, 2007***

[7] ***Darvin: Life and Letters, New York, 1981, 82***

# *Fəsil I*
# *MÜHİTİN GENEZİSİ, MAHİYYƏTİ və FORMASI*

## *$1.1.Mühit termin və anlayış kimi*

***Süni sistem yalnız o vaxta qədər istifadə oluna bilər ki,***
***daha mükəmməl olan təbii sistem yaradılmış olsun.***
***Karl Linney***

*Elmi ədəbiyyatları açırsan terminlər, ibarələr, kateqoriya və anlayışlar necə deyərlər **"aşıb-daşır"**. Hər iki termindən və ya anlayışdan birinin mənasına diqqət edirsən, görürsən ki, bu məna ağ deməkdirsə onunla qaranı və ya qırmızını nəzərdə tuturlar. Ümumiyyətlə, ifadə etdiyimiz sözlər, terminlər şeylərin təbiətinə, mahiyyətinə uyğundurmu? Dilimiz reallıqla tam uyğun gəlirmi? Yaxud, nə dərəcədə uyğun gəlir? Bu məsələ ilə bağlı nə qədər problem varsa məntiq fəlsəfəsi vasitəsilə çözülür və çözülməlidir. Mən bu elmi qısaca Loqosofiya adlandırıram. Ümumiyyətlə bütün problemlərin kökü dillə bağlıdır. Dildə ifadə olunan söz gerçəkliyə ən azı əsasən uyğun gəlmədikdə, bu artıq gələcək elmi problemin ilk əlamətidir. Söz ifadə etdiyi şeyin mahiyyətindən nə qədər uzaq olarsa elmi problem də bir o qədər böyük olar. Yalnız əqli cəhətdən kor olan kəslər mövcud elmi və həyati problemlərin dillə əlaqəsinə inanmamaq kimi dəli bir təskinliyə qapılırlar. Halbuki bir-çox məşhur termin və məfhumlar dillə reallıq arasındakı təzadı açıq-aydın göstərməkdədir. Mövzumuzun əsası və dəyəri olan və bizi daha çox maraqlandıran Mühit termini də reallığa zidd çəkildə təfsir, təvil, təbliğ və təqdim edilən terminlər arasındadır. Ərəbcə **"əl-Muhit"** böyük Yaradanın mübarək adlarından biri olub hərfi mənası ehtiva edən deməkdir. Quranda deyilir: **"Göylərdə olanlar da, yerdə olanlar da Allahındır. Allah hər şeyi ehtiva etmişdir!"(4\126)** Quran ayələrində bir-çox yerdə bu kəlimə **"kulli şeyin muhit"** şəklində işlənmişdir ki, bu da sırf teosistemi ifadə edən kateqoriya[8] olub mənası hər şeyi, bütün varlığı ehtiva edən deməkdir. Bu elə mühit kəlməsinin istilahi mənasıdır[9].*

---

[8] ***"Şeyin mahiyyətinin ağılla dərk edilməsi prosesində ortaya çıxan mənanın şeyi xarakterizə edən ifadəsinə biz kateqoriya deyirik"(Ал-Фараби. Естестаенно-научные трактаты, 358)***

[9]***Bizim transkripsiyada ərəbcədəki "mu" feli adətən mü kimi yazılır və səslənir. Çünki ərəb dilində ü hərfi yoxdur. Məsələn, ərəbcədə muşrik, munafiq, muşfiq, mudrik və digər bu tip***

*İslam teologiyası Allahın insanı və digər yaratdıqlarını hər tərəfdən əhatə edən sonsuz mühit olduğunu təsdiq edir. Əslində sonsuzluq özü də nisbi anlayışdır. Çünki Son Odur. Doğurdan da insan ilahi mühit içində qərq olmasına baxmayaraq ondan xəbərsiz qalmışdır. Uca Allah buyurur:* ***"Göylərdə və yerdə neçə-neçə dəllilər vardır ki, insanların çoxu onların yanından üz çevirib keçirlər!"****(Yusuf, 105)*

*Mühit haqqında da çox söz deyilib, çox söz yazılıb, amma bunlar tamam formal xarakter daşıdığı üçün çəkinmədən demək olar ki, mühitin həm mahiyyəti, həm sistem olması, həmçinin ekosofik substansiya və ekoloji strukturu barədə dəyəri olan çox az şey deyilib, çox az şey yazılıb. Çünki mühit bir termin və anlayış kimi falsifikasiyaya məruz qalarkən, onunla qohum olan digər termin və anlayışlar da falsifikasiyanın güclü təsirinə məruz qalmışdır. Mühitlə bağlı problemlərin kökü insanın bu böyük həqiqəti – Mütləq və ilahi mühiti inkar etməsindədir. Mühitşünasılıq və ya Mühitin fəlsəfəsinin tədqiqat obyekti mühit olduğu üçün o bütün elmlərin - istər keçmiş, istər bu günkü, istərsə də gələcəkdəki, - elmlərin vəhdətini tələb edir. Digər tərəfdən mühit açıq sistemdir və onun ulduz mühiti, ətraf mühit, vakuum və başqa dinamiki[10] və eksiztensial tərəf və hissələri var. Mühitin fəlsəfəsi və mühitşünaslıq mahiyyət və məzmunca bir-birinə çox yaxın olsalar da, Mühitin fəlsəfəsi Mühitşünaslıqdan daha geniş anlayışdır. Çünki Mühitin fəlsəfəsi həm keçmişin, həm bu günün, həm də gələcəyin Mühitşünaslığıdır. Mühitşünaslıq isə indi ilə məhduddur. Mühitşünaslığı bilmədən mühitin fəlsəfəsini dərk etmək qeyri-mümkündür. Mühitşünaslıq ekologiya və sinergetikanı da özündə ehtiva edən yeni tipli emercent xarakterli elmi dünyagörüşüdür. Mühitşünaslıq kainat və ya təbiət və ya materiya, cəmiyyət və ya etnos və ya populyasiya, ruh və ya can və ya psixika və ya idrak, həmçinin*

---

***kəlmələr bizdə adətən müşrik, münafiq, müşfiq, müdrik kimi yazılır və səslənir. Biz də təbii ki, bu tip kəlmələri öz dilimizdəki kimi işlətməyə üsünlük verdik. Əlbəttə bu kəlmələri müxtəlif dillərdə, müxtəlif forma və məzmunda ifadə ediblər və edirlər. Lakin hər bir kəlimə ilk dəfə həyat meydanına hansı anlamda və hansı xalqın dilində çıxıbsa məhz o cür də tətqiq və təbliğ oluna bilər. Əks halda nəinki formal, hətta substansional falsifikasiya labüddür ki, bu da elmin problemlərinin kökü və əsasıdır.***

[10] ***Dinamizm istər termin, istər anlayış, istərsə də praktiki proses kimi maddəbazların qondardığı sukssesiya və qlobal inkişaf kimi ibarələrdən çox fərqlidir. Mən tərəqqinin varlığını danmıram. Amma dinamika tərəqqi və tənəzzülün vəhdətidir, yalnız tərəqqidən ibarət deyil! Alimlər alimi və mühitlər mühiti Allah materiya-mühit sistemini elə qurub ki, bir yerdə tərəqqi baş verəndə digər yerdə tənəzzül vaqe olur. Bütün bunlar harmonik və sürəkli davam edir.***

*digər ontoloji və epistomoloji dəyərlərin hamısını özündə əks etdirməklə insanın ətraf mühitə, dünyaya, kosmosa və digər proses və şeylər haqqında baxışlar və münasibətlər sisteminin ekoqrafiyasını genişləndirmək qüvvə və qüdrətinə malikdir. Mühitşünaslıq həm də yeni tipli sinergetik metodologiyadır. Bu baxımdan bu elm insanın kainatla, digər canlılarla, hətta Allahla yeni dialoqu və hadisələrə yeni yanaşma üsulu kimi dəyərləndirilə bilər. Mühitşünaslıq bir tərəfdən müxtəlif elmlərin tədqiqat üsullarının inteqrasiyası, başqa tərəfdən də yaşadığımız dünyanın, hətta bütövlükdə kosmosun vahid və sintetik elmi mənzərəsinin yaradılması təşəbbüsüdür. Mühitşünaslıq müxtəlif elm sahələrini mexaniki deyil, ən azı dinamiki şəkildə birləşdirməyə cəhd edən neolinqvistikadır. Nəhayət, mühitşünaslıq ideologiya və ya ideyaşünaslıq olmasına heç bir şübhə olmayan ideya və fikir sinergetikasıdır. Mühitşünasılığı həyatşünasılıq da hesab etmək olardı, yalnız bir şərtlə ki, həyat anlayışı canlı həyat anlayışı ilə məhdudlaşdırılmasın. Mühitşünasılıq həm anlayış kimi, həm də reallıq baxımından elmşünasılıqa ən yaxın elmdir. Elmşünasılıq, Hikmətşünasılıq, Həyatşünasılıq və Mühitşünasılıq bir-birilə bağlı və bir-birini tamamlayan elmi sistemlərdir. Çünki bu anlayışların kökü və substansiyası eyni bir vücud və zata dayanır və onun müxtəlif ad və sifətlərini sistemli ifadə edir. Çox yaxın qohum olan bu kateqoriyaların hər biri teoloji genezis, teoloji xarakter və teoloji substansiyaya malikdir. Həyat kəlməsi ərəb mənşəli söz olub Böyük Yaradanın* ***"əl-Həyy"*** *ismindən törəmişdir.* ***"əl-Həyy"*** *istilahi anlamda daim diri olan elə bir həyat qaynağıdır ki, yaratdıqlarına həyat verir. Həyat kəlməsi Quranda həm ümumi, həm də xüsusi anlamda işlənir. Bizim yaşadığımız geosistem Quranda* ***"həyat əd-dunya"(dünya həyatı)*** *kəlməsilə ifadə edilir və canlı həyatla məhdudlaşdırılmır. Elmşünasılıq isə ərəbcə* ***"ilm"*** *kəlməsindən götrülüb və Allahın "****əl-Alim"*** *ismindən qaynaqlanır. Quranda dəfələrlə* ***"kulli şeyin Alim"*** *sözünün işləndiyinə şahid oluruq ki, bunun mənası bütün varlığı, yəni hər şeyi bilən deməkdir. Hikmətşünasılıq da ərəbcə* ***"hikmət"*** *sözündən götrülüb Allahın* ***"əl-Həkim"****ismindən törəyib. Quranda dəfələrlə Allah üçün* ***"huvəl azizul Həkim"*** *sözünün keçdiyini görürük. Bu söz Allahın ən aziz, yəni ən uca Həkim olduğunu bildirir.* ***"əl-Həkim"*** *şeylərin doktoru, yəni məxluqatı müalicə edən deməkdir. Doğrudan da Həkim, Alim və Muhit olan Allah yaratdıqlarını mənəvi və ruhi müalicə edən*

*həkimdir. Mühitşünasılıq şeylər haqqında elmlərin sistemi olduğu kimi, Hikmətşünasılıq şeylərin həqiqətini, Elmşünasılıq isə şeylər haqqında elmlərin özünü, spesifikasını öyrənir. Həyatşünasılıq isə şeylərin həyatını tətqiq və təhqiq edir. Mühit haqqında elm və ya mühit ideyası ontologiyaya çox yaxındır. Amma bunları eyniləşdirmək olmaz. Mühitşünasılıq ontologiyadır, amma ontologiya Mühitşünasılıq deyil. Çünki ontologiyada metafizika maksiumumdur. Amma mühit haqqında elmdə fizikilik və ya təbiətşünasılıq maksimum, metafizika minimumdur. Mühitşünasılıqda olan metafizik elementlər sırf elmi əsasları olan xalis teoloji və teosofik ideya və reallıqlardır. Amma Ontologiyadakı metafiziki ünsürlər mifdən və dil oyunlardan - sözbazlıqdan xali deyil. Ontologiya əslində ONTOSOFİYA adlandırılsaydı daha düzgün olardı. Ontologiya üstəgəl ontosofiya mühitşünaslığa bərabərdir. Ontologiya, ontosofiya və Mühitşünasılığın bir-birinə bənzəməsinin ən əsas səbəbi hər birinin bir növ ŞEYŞÜNASILIQ olmasıdır. Mühit bütün şeyləri ehtiva etdiyi kimi, mühitşünasılıq da şeylər haqqında bütün elmləri ehtiva edir. Amma bu elmlər sistemini müəyyən sahələrdə xüsusiləşdirmək də olar. Maddənin zərrə və halları arasında əlaqə və əlaqələr sistemi yaradan məkan, zaman, kütlə, enerji, sürət və digər ontoloji və ekzistensial parametrləri də özündə ehtiva edən Mühitdir. Mühit sözün əsl mənasında qarşılıqlı effektlər sistemidir. Mühitin hər hansı bir yerində və ya hissəsində bu effektlərin varlıq dərəcəsi az, başqa bir yerində isə çox ola bilər. Lakin bu dərəcələrin qiyməti nə sıfır olur, nə də son bulur. Elə bu səbəbdən hər zaman və hər məkan mühit var. Onda bəs nəyə görə bu mühiti hər tərəfli tədqiq edən, öyrənən və bunun nəticəsində ortaya çıxarılan biliklərin hamısını özündə ehtiva edən MÜHITŞÜNASILIQ(ENVİROMENTOLOGİYA) mövcud olmasın?! Bu anlayışı elm aləminə 2003 ildə qələmə aldığım* ***"Mühitşünaslıq"****da gətirmişəm. Adından və kosmik xarakterindən sezildiyi kimi MÜHITŞÜNASILIQ nə qondarma geoekologiyadır, nə uydurma bioekologiyadır, nə sovet coğrafiyasıdır, nə də yer və ya canlı maddəylə bağlı xüsusi bir elm deyildir. Mühit haqqında elm böyük ölçüdə etnos və populyasiyaların reformasiyasında daha aydın görünür. Etnos və populyasiyalar da yalnız antropogen faktor və yaxud da canlı madddə ilə məhdudlaşmır. Hər bir şey eyni zamanda həm mühitdir, həm də mühitdədir. Mühitşünasılıq xüsusi olaraq nə yerşünasılıqdır, nə cəmiyyətşünasılıq; nə ulduzşünasılıqdır, nə də*

*qalaktikaşünasılıq; nə də meşəşünasılıq və yaxud gölşünasılıq deyil. Bu elm bir sözlə, elm sahələrinin hamısıdır. Sırf elmi sözlə, maddənin hər bir forma, növ və halını, teokosmoloji sözlə, göyləri, yeri və onların arasında olanları, ontoloji sözlə, bütün mövcudluğu, varlığı özündə ehtiva edən elmlər sistemidir. Böyük filosof ibn Sinanın bu sözləri Mühitşünaslıq və Mühit fəlsəfəsinin(Enviromentosofiya) mahiyyətini dərk etməyə yetər:* ***"Ali elmin predmeti tək şeylər deyil, bütün varlıqdır. Çünki o mütləq elmdir. Onun məşğul olduğu məsələlərin məzmunu varlığın elə halıdır ki, onun özündən yaranır və özünəməxsusdur."*** [11] *İbn Sinanın* **Ali Elm** *dediyi elə mənim Mühitşünaslıq və Mühitin fəlsəfəsi adlandırdığımdır. Lakin fərq bundadır ki, mənim* ***"mən"****imdə ali ilə aşağı, fəlsəfə ilə elm, metafizika ilə fizika arasında keçilməz sədd yoxdur. Unutmaq olmaz ki, bu günün aşağısı dünənin alisi, bu günün köləsi dünənin ağası idi. Bu gün elm hesab etdiyimizi dünən metafizika, mistika, utopiya və ya ümumiyyətlə abstrakt fəlsəfədə öyrənirdik. Eləcə də bu gün bizə qeyb, metafizika və ya qeyri-elmi kimi görsənən çox şey gələcəyin elmidir. Mühitşünasılıq bir elm kimi, ideya sistemi kimi beyinlərdə yatır, amma onu oyatmaq vaxtıdır. Təbiətşünasılığın müxtəlif sahələrinə dair mövcud ədəbiyyatlarda mühit haqqında təbii-ekoloji şərait, ətraf mühit,* ***coğrafi mühit***[12]*, canlı mühit, geoekosistem, geosistem, qlobal mühit, ekoloji mühit və digər bu qəbildən olan anlayışlar kimi bəhs edilir. Halbuki bu anlayışların heç biri mühiti nə termin, nə anlayış, nə də mövcudluq kimi ehtiva edə bilməmişdir. Çünki ehtiva etmək funksiyası hər yönü ilə yalnız mühitin özünə məxsusdur. Mühit bir termin kimi terminləri, şey kimi şeyləri, proses kimi prosesləri, kateqoriya kimi kateqoriyaları ehtiva edən bəlkə də yeganə anlayışdır.*

*Mövcud ədəbiyyatlarda mühitşünaslığa mahiyyət və məzmunca ən yaxın anlayış ekologiyadır. Buna görə yuxarıda mühitşünaslıq haqqında deyilənlər bir növ ekologiya və ya məkanşünaslığa da*

---

[11] ***Ибн Сина. Избранные философские произведения. М., 1980, 105***

[12] ***Coğrafi mühit məfhumu böyük coğrafiyaçı, etnoloq və mütəfəkkir Elize Reklyuya məxsusdur. O bu termini yer qabığına sinonim kimi işlədir. Baxmayaraq ki, sovet və rus coğrafiyaçıları bu cür terminləri oğurlayıb cürbəcür geydirmə anlamlar vermişlər! Reklyu "Təkamül, inqilab və anarxiya barədə fikirlər", "Dünya və adamlar", "İnsan və Yer" adlı əsərlərində coğrafi mühitün, habelə coğrafi landşaftın mahiyyət və xarakterini çox böyük ustalıqla, dəqiq mülahizələrlə açıb göstərir. Reklyunun bu sahədə xidməti misilsizdir.Bizə düşən hər bir anlayış və termini öz əsl anlamı və onu ilk dəfə elm aləminə gətirən alimin doğru anlayışı çərçivəsində ortaya qoymaqdır!***

*aiddir. Ekologiya terminini elm və hikmət aləminə gətirən ilk insan, heç də çoxlarının zənn və iddia etdiyi kimi alman heyvanşünası hekkel deyil, Amerika transsendentalist filosoflarının böyüklərindən olan Toro olub. Xüsusi olaraq yer üzündə yaşasaq da, yer üzü xüsusi yaşayış yerimiz, vətənimiz olsa da, ən ümumi hal və mənada bütün kosmos bizim vətənimizdir. Ən ümumi anlamda bu termin bütün kainata, varlığa şamil edilə bilər. Bu termini ilk dəfə ortaya atan böyük Toro da iki cür yanaşmasından birində ekologiya deyəndə ən azı kosmopolitizmi ifadə etməyə çalışırdı. hekkel isə bu termini Torodan oğurlayıb biologiya adlandırılan, amma əslində canlışünaslıqdan başqa bir şey olmayan məhdud bir elm sahəsinə müncər etdi. Hətta, heyvanşünas hekkelin ekologiya anlayışında yalnız heyvanlara yer verilir. Bu günüdək ekologiya kateqoriyası Hekkel və tərəfdarlarının verdiyi dar anlamda paradiqmaya [13] çevrilmişdir. Özlərini bioloq hesab edən canlışünas və ya psixobioloqlar ekologiya terminini subyektiv despotizmə məhkum edərək deyirlər:* ***«Canlılar varsa ekologiyadan söhbət açmaq olar, canlılar yoxdursa, ekologiya da yoxdur! Ekologiya canlı maddə və onun ətraf mühitini vəhdətdə öyrənən elmdir!»*** *Lakin bu tərif ən yaxşı halda ekologiyanın ən dar məna və ən məhdud xarakteristikası ola bilər. Halbuki buna da layiq deyil. Ekologiyanın sinergetik xarakter və mahiyyətini göz ardı etmək yalnız səthi elm adamlarının fəaliyyətində özünü göstərir. Müxtəlif elm sahələrinə məxsus müxtəlif elm adamları ekologiya kimi universal və sinergetik xarakter və mahiyyətə malik cahanşümul bir kateqoriyanı öz ixtisasları çərçivəsində və məhdud anlamda qəbul etməklə kifayətlənirlər. Halbuki istər* ***eko,*** *istərsə də* **bio** *eksiztensial və ontoloji anlayışdır. Ümumiyyətlə ekologiya, biologiya və sinergetika Kantın “***arxitektonika***”sının modern adlarından başqa bir şey deyil. Əslində hekkelin heyvanlarla bağlı məişət və ev təsərrüfatı kimi əsaslandırmağa çalışdığı və baş-ayaq etdiyi məşhur ekologiya anlayışı əslində məkanşünaslıqdır. Əgər biz məkanı, (özəlliklə də yer məkanını) varlığın xüsusi parametri kimi öyrənsək, onda məkan haqqında elmi ifadə etməyə ekologiyadan daha uyğun anlayış çətin*

[13] ***“Paradiqma – konkret elmi ictimaiyyətin bütün üzvləri tərəfindən qəbul və etiraf edilən baxışlar və qaydalar, dəyərlər və fəaliyyət nümunələri sistemidir!”(Кун Т. Структура научных революции, 279, М., 1975)***

*taparıq. Hal-hazırda ekologiya adı altında paradiqma kimi canlı maddənin növ və populyasiya formasında ətraf mühitlə qarşılıqlı əlaqaqəsi öyrənilsə də, kosmik cisimlərin qarşılıqlı əlaqəsi və məskunlaşma areallarının öyrənilməsi də ekologiya elminə bütün digər elmlərdən daha çox aiddir. Bu baxımdan* **kosmik ekologiya** *anlayışından da istifadə etmək olar. Canlı növ və populyasiyalar spesifik areal və məkana malik oduğu kimi, planetlərin, ulduzlar və qalaktikalar da spesifik yertutumu, areal, bir sözlə məkana malikdir. Amöbdən tutmuş Məhəmməd salavatullaha kimi, protondan qalaktikayədək hər bir şey spesifik ekosistemdir. Hər bir şeyin, fərdin, yaxud şey və fərdlər kompleksinin* ***«mən»****i onun spesifik ekosistemidir. Bu ekosistem şeyin və ya fərdin bütün iç dünyasını özündə ehtiva edir. Ekoloji məsələlərdə iki cür yanaşmanın olması da bundan qaynaqlanır. 1)Müxtəsər yanaşma(reductionism), 2)Bütöv yanaşma(holizm).*[14] *Hər bir halda* **eko** *sözcüyü keçən hər bir söz, termin və cümlənin məkanla həm bilavasitə və həm də bilvasitə əlaqəsi danılmazdır. Məkan da mühitin ən əsas atributlarından biridir. Mühit prinsipcə məkan(ekosistem) və zamandan(xronosistem) təşkil edilib. Mühitə həm kateqoriya kimi, həm də bir mövcudluq kimi yanaşsaq görərik ki, mühit barədə indiyədək deyilmiş nə qədər söz varsa əsasən ətraf və ya xarici mühit adlanmalı olan bir varlıq barəsindədir. Halbuki bu varlıq mühitin yalnız bir hissəsidir. Mühiti yalnız ətraf və ya xarici mühitlə məhdudlaşdırmaq bu məsələdə olan böyük boşluqdan xəbər verir. Ümumi olaraq mühit bütün varlığı ifadə etsə də, prinsipcə iki şeydən ibarət olsa da, struktur baxımından da iki hissədən ibarətdir:*

*1.***Ətraf mühit.** *Ətraf mühit öz növbəsində yaxın(yer səthi) və uzaq ətraf mühitdən(kosmosdan) ibarətdir. Bu və ya digər obyektin qarşılıqlı təsir(effekt) yarada bildiyi, ən azı təsir edə bilməsə də təsiri altında olduğu şeylərin və ya komponentlərin vəhdətini ifadə edən anlayışa ətraf mühit deyilir. (Burada təsir dedikdə həm bilvasitə, həm də bilavasitə təsirlər nəzərdə tutulur.) Məsələn, Günəş bizim planetar sistemdə bütün əsas yükü öz üzərinə götürüb. Bu böyük və qiymətli məxluq bizim planetin bütün coğrafi və ekoloji şəraitini tənzimləyir.*

---

[14] ***Modern elm peyda olana qədər istər elmi, istərsə də praktiki məsələlərə holistik yanaşılırdı. Bütün əski miflər, dinlər və fəlsəfələr mikro və makrokosma aid bütün məsələləri tək bir təməl prinsipdən çıxış edərək izah etməyə çalışmışdır. Elmin sonradan qazandığı pozitiv xarakter bu yanaşmadan uzaqlaşmağa böyük bir yol açdı.***

*Üfüqi və şaquli zonallıqdan tutmuş, ritmik proseslərə qədər Günəşin birbaşa və dolayı təsirilə sistemləşir. Yer üzündə həyat üçün zəruri olan nə varsa həm birbaşa, həm də dolayı Günəşlə bağlıdır. Günəş var, biz də varıq. Amma biz olmasaq Günəş yenə də var. Yəni bizim varlığımız Günəşin varlığının şərti deyil, amma Günəşin varlığı bizim varlığımızın şərtidir, tənzimləyicisidir. Cünəş ətraf mühitdə olan obyektlərdən yalnız biridir, amma ən dəyərli, qiymətli və böyük ətraf mühit obyektlərindəndir. Eləcə də bütün canlı və cansız aləm ətraf mühit obyektidir, lakin bunlar yalnız kompleks halda bizim varlığımızın şərti və tənzimləyicisi ola bilirlər. Hər hansı bir bitki və ya heyvanın varlığının bizim varlığımız baxımından elə bir əhəmiyyəti yoxdur. Ancaq ən azından hər hansı bir bitki və ya heyvan növünün varlığı və ya yoxluğu bizim mövcudluğumuza ciddi təsir göstərə bilər. Ətrafımızdakı digər predmetlər də komleks şəkildə varlığımızı istiqamətləndirə bilirlər. O başqa məsələ ki, bütün bu aləm məhz bizə görə yaradılmışdır. Burda bunu qeyd etməyi vacib görürəm ki, ətraf mühit haqqında elm ekologiyanın hissəsidir, tamı deyil.*

*2.**Daxili mühit.** Ixtiyari obyektin digər obyektlərlə əlaqə yarada bilməsində ümdə rol oynayan, onu təşkil edən və sistemləşdirən komponentlər kompleksini daxili mühit adlandırıram. Burada obyekt yerində həm ixtiyari canlı və həm də cansız varlıq ola bilər. Canlı varlıqlar cansızlardan daha zəngin daxili mühitə sahib olduqlarından onların ətraf mühiti də bu zənginliyə uyğun olur. Ətraf mühitin zənginliyi də birbaşa daxili mühitin zəngin olması üçün potensial şərait yaradır. Cansızla canlı arasında distinksiya (köklü fərq) bundan ibarətdir ki, cansız bir aləmdə yaşayırsa, canlı əlavə olaraq başqa bir aləm həyatı da yaşayır. Çünki canlı cansızın canla vəhdəti nəticəsində formalaşan psixobiosistemdir. Can canlının substansiyası və ya daxili mühiti deyil, amma onu çox zəngin, çox gözəl və çox dəyərli edir. Daxili mühit zənginləşdikcə ətraf mühit sferası da genişlənir. Daha dəqiq desək, daxili mühitin zənginləşməsi ən azı uzaq ətraf mühit elementlərindən bəzilərinin yaxın ətraf mühit elementlərinə çevrilməsi üçün zəmin hazırlayır. Daxili mühitlə ətraf mühit daim vəhdətdədir. Daxili mühit öz keyfiyyətini itirəndə də bəzən ətraf mühitdə genişlənmə ola bilir. Çünki daxili mühiti tərk edən şey yox olmur, sadəcə olaraq ətraf mühit elementinə çevrilərək passiv halda olur, yaxud özünə başqa daxili mühit axtarır. Bizim təcrübədə daxili mühiti ən zəngin olmaq imkanlarına daha çox insanlar malikdir.*

*Baxmayaraq ki, adamların çoxu bu imkanları dəyərləndirmir, heyvani və daha aşağı səviyyəli həyat tərzinə meyl edirlər. Lakin insanlar arasında az da olsa bu imkanları dəyərləndirənlər olur. Belə insanlar da düha adlanırlar. Daxili mühiti ən zəngin və ən kamil olan geosistem subyekti - dühalar təkcə bəşəriyyətin deyil, ümumiyyətlə canlı aləmin, bütün yer üzünün son sözüdür. Həm də əlavə etmək lazımdır ki, güclü nüsxələr ontogenezin son sözü olduğu kimi etnogenezin də son sözüdür. Lakin bu son sözün tam reallaşmasına hələ çox qalıb. Çünki hələlik zəif nüsxələr çoxluq təşkil etməkdə və yer üzündə hakimiyyəti əllərində saxlamaqdadırlar! Adi adam üçün qeyri şüuri və ətraf mühit komponenti və elementi olan bir çox şeylər dahilər üçün şüuri və daxili mühit komponenti və elementidir. Hər bir etnos və ya populyasiya və ya cəmiyyətin daxili səsi və daxili gözü funksiyasını dühalar icra edir. Bu nüsxələrə Allahın yer üzündəki diplomatları kimi də baxmaq olar. Buna görə də hər bir düha hər hansı bir sosial sistemin həyatına, taleyinə müdaxilə edə bilmək qüdrətinə malikdir. Varlığın həqiqətləri və bu həqiqətlərin ən böyüyü olan Allahı dərk etməyə cəhd edənlər də yalnız bunlardır. Daxili mühit məhz bunların sayəsində var olur və zənginləşir. Dühalar olmasa daxili mühit ən yaxşı halda formal xarakter daşıyardı.*

### *$1.2.Mühitin metafizika və ekofizikası*

*Mühitin metafizikası ümumi metafizikanın əsasıdır. Aristotelin sevimli tələbəsi Rodoslu Andronikin elm və hikmət adamlarına hədiyyə etdiyi Metafizika termini haqqında alimlər arasında müxtəlif görüşlər olsa da, hər halda bu termin və anlayışa qeyri-elmi və mifik don geyindirənlərdən fərqli olaraq doğru tərif verən filosoflar da olmuşdur. Məsələn, ABŞ-ın bəlkə də ən böyük filosofu Uilyam Ceyms metafizikaya belə tərif verir:* ***"Büsbütün mövcudluğun səbəbini, mahiyyətini, mənasını və son halını bilməyə edilən bütün cəhdləri metafizika hesab etmək olar. Və ya onu həm apesteriori, həm də apriori olaraq reallığın ən ümumi başlanğıcları, onların bir-birilə və idrakımızla qarşılıqlı əlaqəsi haqqında elm də adlandırmaq olar."***[15] *Metafizika da "**filosofiya**" kimi yalnız termin olaraq antik yunanlara*

[15] ***У. Джеймс, Введение в философию. Б. Рассел. Проблемы философии. М., 2000, 22***

*məxsusdur, mahiyyət və mənasına görə antik Çin və antik hind fəlsəfə məktəblərində də belə bir anlayış olmuşdur. Ərəbdilli filosoflar bu termini fövqəttəbiət sözü ilə əvəz etmişlər. Metafizik və ya fövqəltəbiətçi hər şeydən əvvəl elə bir ekosofdur ki, ətraf mühiti və bütövlükdə varlığı fiziki forma və mahiyyətdə qəbul etməklə kifayətlənə bilmir və bilməz də. Metafizika təbiətdən əvvəlki və sonrakı şey, hadisə və prosesləri ifadə edən anlayış olduğu üçün, ona varmaq istəyən filosof və ekosof da fövqəttəbii düşüncə, xarakter və davranışa malik olmalıdır. Metafizika həm termin, həm də kateqoriya kimi mühit və materiya ilə birbaşa və dolayı bağlıdır. Mühitin metafizikası, həm də maddənin metafizikasıdır. Mühitin ekofizikası əsasən onun məkan xassələrini, qismən də zaman xassələrini özündə ehtiva edirsə, mühitin metafizikası isə gələcəyin paradiqmaları haqqındakı ideya və mülahizələri özündə ehtiva edir. Mühit də materiya kimi ən azından bizim təcrübə baxımından sonsuz sistemdir. Materiya da hərəkətsiz və ya enerjisiz deyil, mühit də; məkan və zamansız materiya olmadığı kimi məkan və zamansız mühit də yoxdur; kütlə materiyanın əsas xassələrindən biri olduğu kimi mühitin də əsas xassələrindən biridir və s. Bir cümlə ilə deyə bilərik ki, materiya və mühit eyni yasılı, eyni miqyasılı, eyni güclü və eyni məzmunlu anlayışlardır. Aralarında olan yeganə fərq bir-çox təbiətşünasın səhvən qəbul etdiyi kimi mühitin materiyada deyil, materiyanın mühitdə mövcud olmasıdır. Çünki yaradan Mühit xalis və bənzərsiz maddə olduğu üçün bizim idrak etdiyimiz maddədən əvvəl var olub. Buna yalnız dinsiz və ağılsız şübhə edər. Amma yaradılan mühit özü də idrakımızın hüdudlarına daxil olan maddədir. Bu baxımdan mühitsiz materiya, materiyasız da mühit ola bilməz. Materiya mühit, mühit də materiyadır. Materiyanın mühitdə mövcudluğu o deməkdir ki, mühit materiyanın mahiyyəti olmaqdan daha çox materiya mühitin mahiyyətidir. Məkan, zaman, ruh, kosmos, həm xüsusi, həm də ümumi formada maddi xarakterə malikdir. Mühit də bunların hər birini həm xüsusi, həm də ümumi formada ehtiva edir. Mühit öz-özlüyündə, riyazi-fiziki metodla yanaşdığında məkana daha çox bənzəsə də onunla məhdud deyil. Hətta bütün maddi parametrlər kompleks halda mühiti ehtiva edə bilmir. Maddə ehtiva olunmursa, mühit heç olmaz. Bu yerdə Faradeyin məşhur sözlərini xatırlamalı oldum:* ***“Maddə hər yerdə***

***mövcuddur, maddənin olmadığı, tutmadığı heç bir aralıq məkan yoxdur!”***[16] *Materiya və mühitin qarşılıqlı əlaqəsi müasir fizikada populyar olan* ***«maddə-sahə»*** *münasibətlərini xatırladır. Əslində maddə və sahə uyğun olaraq materiya və mühitin təbii-tarixi modelindən başqa bir şey deyil. Amma qeyd etmək lazımdır ki, maddə-sahə sistemini bir dəqiq məfhum kimi yox, bu sistemə verilən məna baxımından materiya-mühit sisteminin təbii-tarixi modeli hesab etmək olar. O şeyi və ya prosesi ki, sahə adlandırırlar, əslində real həyatda belə bir şey yoxdur və ola da bilməz! Nə Maksvel, nə Faradey, nə Enişteyn, nə də başqa birisi bizə elə bir cism, elə bir maddə halı və ya bunların ən kiçik əlamətlərindən bircəsini belə göstərə bilməzlər ki, o yalnız uzunluq və enlikdən ibarət olsun! Təbiətdə elə bir şey yoxdur ki, o ən azı nisbi uzunluqdan, nisbi enlikdən və nisbi hündürlükdən ibarət olmasın. Bu isə təbiətin mühit və ya mühitdə olduğunu göstərir. Əgər* ***«sahə»*** *anlayışına unmversal elmi məna verib yüksək səviyəyə qaldıran Maksvel deyirsə ki,* ***«sahə diskret olmayan maddi mühitdir»*** *və o burda sadəcə ifadə və ya ləfz xətasına yol verirsə, biz nə üçün bu cür dahiyanə kəşflərin gözəlliyinə ləkə olan* ***«sahə»*** *kimi qeyri-real məfhumları real ifadələrlə əvəzləməməliyik?! Hər halda biz bu məsuliyyətli işi öz üzərimizə götürərək məzmuna xələl gətirməmək şərtilə formanı dəyişəcək, daha doğrusu, hər bir formaya yalnız öz məzmununu verməyə çalışacağıq. Beləliklə sahə barədəki fikirlərimizə əlavə etmək istəyirik ki, fiziklərin sahə adlandırdıqları əslində mühitdən başqa bir şey deyil və bu mühit anlayışının qarşısında Maksvel kimi sadəlövcəsinə maddi sözünü işlətməyə də heç bir lüzum yoxdur. Çünki mühit zatən maddidir və materiya da elə maddə deməkdir. Bu əsla nəzərdən qaçırıla bilməz! Materiyanı maddə və sahəyə ayırmaq əslində bəsit mexaniki təsəvvürlərin tör-töküntüsüdür. Əslində ənənəvi təbiətşünasların maddə adlandırdıqları daralan və ya sıxılan materiya, sahə adlandırdıqları isə genişlənən materiyadır. Hansı alim inkar edə bilər ki, ənənəvi anlamda sahə adlandırılan arasıkəsilməz tamlıq maddə deyil?! Kimin haqqı var ki, bir sistem və ya prosesin müxtəlif adları olan maddə, materiya, reallıq, gerçəklik, varlıq kimi ifadə və ya anlayışları öz şəxsi hoqqabazlığıyla necə gəldi fırlatsın və nəticədə aftoritet qarşısında məmnuniyyətlə boyun əyən kütləni ram edib geniş miqyaslı çaşqınlığa bais olsun?! Ən yüksək*

[16] ***М. Фарадей, Избранные работы по Електричеству, М., 1939, 212***

*səviyyəli fiziki əsərlərdə belə maqnit sahəsi, elektirik sahəsi, eloktromaqnit sahəsi və başqa bir-çox uydurma anlayışlar görürük! Halbuki maqnit mühiti, elektrik mühiti və başqa bu kimi müvafiq anlayışlar tətbiq edilməliydi. Heç olmasa bunu qəbul etmək vacibdir ki, mühit ən azı həcmdən ibarətdir. Buna görə də həyat həcmi, torpaq həcmi və başqa bu kimi ifadələr işlətmək olar. Sfera, düz xətt, sahə və başqa bu kimi qeyri-real anlayışları isə yalnız xəyalən və ya fikrən tətbiq etmək olar. Bu anlayışlardan linqvistik model kimi subyektivasiya və abstraksiyada istifadə etmək olar.*

*Kosmik mühit yalnız mütləq zamana görə dəyişir və materiyanın hallarının nisbi zamana görə dəyişmələrilə təyin edilir. Biz riyazi modellərdən istifadə etməyi xoşlamasaq da, hardasa istifadə etməyə məcbur oluruq. Çünki hazırladığımız **«şişdikləri»** götürüb **«dişinə çəkənlər»** peyda ola bilər. Kifayət qədər real olmayan riyazi simvol və modellərdən istifadə etmək adi və həmçinin yersiz bir iş olsa da, hər halda bunlara yer verənlər az deyil. Beləliklə materiyanın halları ilə mühit arasındakı qarşılıqlı əlaqə riyazi olaraq aşağıdakı kimidir:*

$$dM/dT=dV/dt+dN/dt+dE/dt+dQ/dt+dH/dt+dB/dt$$

*Burda V-maddənin vakuum halını, N-neytron halı, E-epiplazma halı, P-plazma halı, Q-qaz halı, H-maye halı, B-bərk halını göstərir. T-mütləq zamanın, t isə nisbi zamanın, d isə dəyişmə və çevrilmə prosesinin riyazi simvoludur. M isə materiyanın simvoludur. Qeyd edək ki, düsturumuzdakı + işarəsinin əvəzinə dönər işarəsi qoyulsa düstur reallığa daha yaxın olar:*

$$dM/dT\leftrightarrow dV/dt\leftrightarrow dN/dt\leftrightarrow dE/dt\leftrightarrow dQ/dt\leftrightarrow dH/dt\leftrightarrow dB/dt$$ [17]

*Kainat və ya mövcudluq dinamik sistem olduğundan burada toplama, çıxma, bərabərlik, sahə, düz xətt və başqa stabil ifadələr öz əhəmiyyətini itirir. Bu işarələr yalnız stabil sistemlərdə əhəmiyyətlidir ki, belə sistemlər də reallıqda yoxdur. Əslində stabil sistem dinamik sistemin təsəvvürümüzdə süni şəkildə dondurulmuş formasından başqa bir şey deyil. Çünki insanların ən ağıllı olanları da hər hansı real prosesi öz qafasında dondurub analiz etmədən qavraya bilməzlər.*

[17] ***Rəşad Ramazanlı, Mühitşünaslıq, II-ci fəsil, $1.***

*Insan yalnız psixi dondurma prosesilə ətraf mühitdə baş verənləri analiz edə, mahiyyətinə vara bilər. Psixi dondurma prosesi də insanların hamısında eyni deyil, süräklilik, sürət və zaman baxımından fərqlənir. Toplama, çıxma, bərabərlik, sahə, düz xətt və başqa qeyri-real işarələr də psixi dondurma prosesinin elementləridir. Funksianol sistemlərdə də bu cür işarələr çox zaman aldadıcı olur. Yuxarıdakı düsturumuz yalnız o zaman gerçəkliyi tamam əks etdirər ki, kainat heç olmasa qısa bir zaman da olsa statik funksianol olsun. Bu isə heç vaxt ola bilməz. Əslində kainatda funksianolluqla dinamikilik daim vəhdətdədir. Materiya və ya maddə əsasən funksianol, mühit isə əsasən dinamikidir. Stabil sistemin varlığına gəldikdə isə qətiyyətlə deyə bilərik ki, təbiətdə stabil sistem yoxdur. Bu yalnız xəyali bir uydurmadır. Bəzi riyazi əməlliyatları simvolizə edərkən lazım olur. Bəsit və bayağı baş sahiblərinin dondurulmuş antropogen modifikasiyaları stabil sistem kimi qələmə vermələri isə adamı lap özündən çıxarır. Özlərini alim hesab edən bu cahillər özləri də qəbul edirlər ki,* ***«təbiətdə bölünməz yoxdur»***, ***«hərəkət materiyadan ayrılmazdır»*** *və s. Əgər stabil sistem həqiqətən mövcuddursa bəs niyə Demokritin atom barədəki görüşünü həqiqət kimi qəbul etmirsiz?! Əgər fərziyyəyə əsaslandığınızı söyləyirsinizsə onda biz fərz etsək ki, sizin quyruğunuz var xoşunuza gələrmi?! Sizin köməyinizə Lourens öz "****efiri****", Maksvell də "****sahəsi****"lə gəlsə yenə də xeyri yoxdur! Riyakarlıq və reklamçılıq o dərəcəyə çatıb ki, artıq deyilmiş fikirləri bir az müasirləşdirmək və bir az da termin oyunbazlığı ilə fırlatmaqla novator kimi görsənmək istəyirlər! Bu* ***"alimlər"*** *necə deyərlər* ***«gah nala döyürlər, gah da mıxa!»*** *Maksvelin* ***«sahəsi»*** *və Lourensin* ***«efiri»*** *də bu qəbildən olan problemlərdəndir. Necə ki, ənənəvi təbiətşünaslar bu anlayışlarla hələ də arasıkəsilməz mühiti qəsd edib dururlar! Etiraf etmək lazımdır ki, Lourensin* ***«efir»*** *anlayışı Maksvelin "****sahə****"sindən bizim mühit anlayışımıza daha yaxındır. Amma bu sadəcə yaxınlıq olaraq qalır. Mühiti tam və dolğun şəkildə ifadə edən bir kəlimə, bir ifadə və bir anlayış var ki, bu da mühitin özüdür! Materiya isə bu mühitin mahiyyətini ehtiva edir, formasını deyil. Mühit də maddənin formasını deyil, mahiyyətini ehtiva edir. Mühit və materiya formal (zahiri) olaraq da bir-birini ehtiva edə bilsəydilər, onda bu anlayışlardan yalnız birini işlətmək lazım gələrdi. Hələlik bunu iddia etmək üçün əsas yoxdur. Çünki mühit və materiya həmişə birlikdədir və bir-birini tamalayırlar. Mühitsiz maddəni,*

*maddəsiz də mühiti təsəvvür etmək belə mümkün deyil! Maddə və mühitin halları və tərkib hissələri arasında köklü fərq olmadığı kimi, onların strukturu da demək olar ki, eyni strukturdur. Yalnız bircə fərq var ki, maddənin strukturu sıxılan, mühitin strukturu isə genişlənəndir. Maddə və mühitin halları, tərkibi, strukturu, bir sözlə kainatda var olan hər şey MÜTLƏQ MÜHIT və MÜTLƏQ MADDƏ tərəfindən yaradılıb və daim nəzarət altındadır. MÜTLƏQ MÜHIT kosmik proses və qanunların mənbəyidir. MÜTLƏQ MATERIYA isə həmin proses və qanunların yerini və anını təyin edir, yəni onları formalaşdırır. Daha açıq kəlmələr işlətsək deyə bilərik ki, MÜTLƏQ MÜHIT ilahi mühitdir, Allahı, ərşini, ərşdə olan bütün varlıqları ehtiva edən anlayışdır. MÜTLƏQ MADDƏ isə Allahın zatının sırf elmi adıdır. Vakuumda doğulmalara səbəb olan və maddə-mühit sistemini araya-ərsəyə gətirən MÜTLƏQ MADDƏdir. O, maddənin və mühitin heç bir halından asılı deyil. Sabit və aydındır ki, qalaktikalar metaqalaktikaların, ulduzlar qalaktikaların, planetlər ulduzların, onların peykləri isə planetlərin özlərinin, həmçinin hər bir planetin sakinləri də onun özünün təbii və qanunauyğun hissəsidir. Təbii ki, bütün kosmogenez doğmaq və doğulmaq üzərində bərqərar olub, hətta ilk qadın ilk kişidən doğub - xəlq edilib. Yaranma və ya doğulma prosesi birbaşa MÜTLƏQ MÜHITIN dəstəkləməsilə, yəni yaratma prosesilə həyata keçir. MÜTLƏQ MADDƏ varlıq sistemini özü elə qurub ki, maddə və mühitin hər bir elementi və halı əzəldən vakuuma meyl edir. Bunu hələ Sakyamuni[18] dərk etmişdi. Onun adı ilə bağlı dini-fəlsəfi təlim olan Buddizmdə* ***«şunyata»*** *konsepsiyası bütün məxluqatın yoxdan törəyib yoxa da çevrilməsi barədədir. Bu konsepsiya vakuumun mahiyyətini dərk etmək üçün misilsiz elmi-tarixi sənəddir. Amma etiraf etmək lazımdır ki, sözü gedən konsepsiya bitkin və konkret deyil, mifik və çaşdırıcı tərəfləri var. Maddə və mühitin tamam yox halında olmasına – şunyataya çevrilməsinə mane olan MÜTLƏQ MADDƏdir. Lakin bu maneə əbədi deyil, müəyyən olunmuş vaxta qədərdir. Unutmaq olmaz ki, yox özü də materiyadır. Elə buna görə də varlıq sistemi ənənəvi anlamda qəbul etdiyimiz kimi yox olmur, yalnız yox halında olur. Maddə və mühitin yox halı təbii şəkildə yalnız kainatın periferiyalarında mövcuddur. Lakin vakuum və*

---

[18] ***Bu Nəbi 2500 il bundan öncə yaşamış türk-tatar şəhzadəsidir. Bu Rəsul türkstandan hindistana hicrət etdi. Hindlilər onu Budda, yəni nursaçan adlandırdılar.***

*ya yoxluq yalnız varlığın xüsusi təbəqəsi şəklində deyil, nisbi passiv formada varlıq prosesinin içində də mövcuddur. Mövcud kosmosdakı vakuum və ya boşluqlar onun varlğının əsas və ilkin şərtidir. Kosmos daxili böyük boşluqlar superqlobal fiziki parametrlərin canlı maddənin həyatına uyğun qurulmasının təminatçısıdır. Digər tərəfdən geosistemin kosmik fəzada hərəkət edən saysız-hesabsız nəhəng göy cisimləri ilə toqquşmasının qarşısını alan da kosmos daxili bu böyük boşluqlardır. Lakin bu boşluqlar nisbi vakuumdur. Bizim geosistemdə təbii vakuumun heç bir elementi yoxdur. Insan alimləri nə qədər çalışıb süni surətdə təbii vakuum yaratmaq istəsələr də onların yaratdığı təbii vakuumun yerini verə bilməz!(ümumiyyətlə insan nə qədər ki, kamilləşməyib o heç vaxt təbii orjinalı yarada bilməz!) Təbii və ya mütləq vakuum kainatı MÜTLƏQ MÜHITdən ayıran qabığı və ya pərdəni xatırladır. Bizim təcrübə və ya geosistem baxımından dinamik, MÜTLƏQ MADDƏ və MÜTLƏQ MÜHIT baxımından funksianol olan kainat təbii vakuumla örtülmüşdür. Təbii vakuum kainatın doğum anlarında çox geniş həcmə malik olmuş, kainat genişləndikcə nazilmişdir. Maddənin yeddinci aqreqat halı olan vakuum kainatın genişlənməsinin maksimal nöqtəsində ən nazik qalınlığa malik olacaq, yəni bu zaman yoxdan yaranma prosesi dayanacaq və yalnız vakuumlaşma prosesi mövcud olacaqdır. Həqiqət və novatorluğa qarşı diletant və yağı olan* ***«alimlər»*** *bu aydın həqiqəti nağıl, təzadlı mif və ya uydurma hesab etməkdə davam etsələr də, hər halda maddənin aqreqat hallarının sayının yeddi olmasını və yaradılış mənbəyinin vakuum(yox və ya heç nə) olduğunu dana bilmədilər. XX-ci yüzilliyin əvvəllərində ingilis fiziki Artur Eddinqton* ***"maddə bir xəyalət kimi boş bir məkandır"*** *deyib bu həqiqəti açıqlamışdı. Bu gün ən ateist fiziklər də maddənin 99, (9)%-nin boşluqdan, vakuumdan, başqa sözlə* ***heç nədən*** *ibarət olduğunu qəbul edirlər. Vakuum elə bir mühitdir ki, burda cazibə, elektromaqnit, güclü, zəif və hələlik aydın olmayan daha üç qarşılıqlı təsir növlərindən ikisinin fünksiyası itir, daha doğrusu effektləri sıfıra yaxınlaşır. Təbii vakuumda həndəsi xassələr özünü real olaraq doğruldur. Materiya və mühit vakuumda sırf həndəsi xarakterə malikdir. Materiya və muhitin bütün xassələri məhv olar, amma həndəsi xassələri qalar. Lakin hər bir maddi halın spesifik həndəsi xassəsi vardır. Vakuumun həndəsi xassəsi Evkilid həndəsəsinə bənzəsə də məlum həndəsələrin (Riman, Lobaçevski, Evklid) heç birindən deyil. Biz bu həndəsə barədə hələlik bunu deyə*

*bilərik ki, burada məkan-zaman xassələri yalnız həndəsənin tədqiqat obyekti ola bilər və bu həndəsə bütün digər həndəsələrin, xüsüsən kvant həndəsəsinin kökündür. Xarici təsir nəticəsində məhz bu həndəsədən maddənin digər hallarına uyğun həndəsələr yaranır. Təbii ki, bu xarici təsirin mənbəyi Allahdır. Lakin biz ateistlərin sönmüş qəlbini qırmamaq üçün sadəcə xarici təsir ifadəsilə kifayətləndik. Amma qeyd etmək vacibdir ki, həndəsi xassə anlayışı psixi dondurma və ya psixofoto prosesinin substansiyasıdır. Biz materiya və mühitin halları içində daha çox vakuum üzərində ona görə dururuq ki, vakuum maddənin son halıdır və maddi hallar ierarxiyasının başında gəlir. Həmçinin vakuumun sirlərini bilmək materiyanın, varlığın sirlər aləmində olan bağlı qapıların ən böyüsünün açarını əldə etmək deməkdir. Kainat da insan kimi sonradan yaradılmışdır. Kainatın ilk halı vakuumdur. Əbədi və əzəli olmayan kosmos və ya təbiət sonradan var olduğuna görə heç şübhəsiz ki, ondan öncə bir varlıq var və hər şeyi kontrol edir. Yoxluq varlığın səbəbi ola bilməz. Sözsüz ki, hər şey Demiurqun yaratmasına bağlı olaraq mövcuddurlar. Əksini iddia edənlər boş-boşuna dil və zehin oyunu oynamaqdan başqa bir şey bacarmamışlar! Var olan şeylər yox ikən, yoxluqdan öz-özünə deyil, mütləq var olan bir şeyin yaratması ilə meydana çıxırlar.*[19] *Vakuum fiziki aləmlə metafiziki aləm arasında trans funksiyasını icra edir. Allahın adlarından biri də əl-QAHHARdır. Bu adın mənası qəhr edən, yəni yoxa çevirən deməkdir. Məşhur ifadə olan XAOS Allahın bu ismindən törəmişdir. Allah varlğı yoxdan yaratdlğı kimi yenidən yoxa çevirmək funksiyasına da malikdir. Lakin o kosmik qanunlara sadiq məxluqları yoxa çevirmir, əksinə varlıq dərəcəsini artırır. Yoxa və ya vakuuma çevrilmə prosesi cəhənnəmdə baş verir. Cəhənnəm şeyləri mütləq şəkildə vakuumlaşdırma prosesi olub kosmik dinə və ya teoekosistemə, başqa sözlə Allahın dininə tabe olmayanların doğulduğu sistemdir. Yəni dinsiz və imansız məxluqların materialı cəhənnəmdən hazırlanmışdır. Bunlar psixi kütləsi minimum və seyrək, fiziki kütləsi isə maksimum və sıx olan məxluqlardır. Quranda Qariə adlı bir surə var. Təfsirçilərin çoxu Qariəni qiyamət günü kimi təfsir və təvil etsələr də bu doğru deyil. Belə ki, Qariə qiyamət günü deyil, qiyamət gününün bir hissəsidir. Surənin özündən də bunu görmək olur:* ***“O qariə! Nədir o qariə?! Sən nə bilirsən qariənin nə***

[19] ***Elmalılı Hamdi Yazır, Hak dini Kuran dili, İstanbul, 1994, 1\79***

***olduğunu? O gün insanlar pərvanələr kimi çırpınıb uçuşacaqlar! Dağlar didilmiş yun kimi olacaq! Çəkisi ağır gələn kimsə həyatından razı olacaq! Çəkisi yüngül olanların isə anası haviyyə olacaq! Nə bilirsən nədir haviyyə?! Qızmar oddur!"*** *Bu surədə açıq-aydın psixi kütləsi – ağlı, vicdanı, imanı, əxlaqı, bir sözlə mənəvi parametrləri zəif və ya minimum olan kəslərin anasının cəhənnəm olduğu göstərilir ki, bu da vakuumun teoekoloji mahiyyətini anlamağa imkan verir. Bəziləri Quranda məcaz olduğuna dayanaraq bu cür ayələri dərk edə bilməmişlər. Halbuki Qurandakı məcaz bir növ poetik məcaza bənzəsə də qətiyyən poetik məcaz kimi deyildir. Quranın məcazı da həqiqətdir. Ərşə istiva, Nəbinin qanadlari, Allahın əli, vəchi və digər bənzəri teoloji kəlmələrin hər biri məcaz olduğu qədər həqiqətdir. Lakin bu həqiqətlərin məna, keyfiyyət və parametrləri hər beyinə sığmır, bu səbəbdən konfliktlər yaranır. Cənnət və cəhənnəmin bu günədək elmi izahının verilməməsinin səbəbi də bu ixtilafdır. Quran üzərində Allahın əmrini yerinə yetirib təfəkkür edəriksə ən azı ixtilafları miniumuma endirə bilərik. Kosmik baxımdan yanaşsaq cəhənnəmə ən uyğun və ən oxşar qara dəliklərdir! Siyasi, psixoloji və hüquqi baxımdan isə əzab, işgəncə, hər bir və hər cür virusun alçaldığı, cəzalandığı yerdir cəhənnəm! Məhz cəhənnəmdə viruslar yanır, əriyir və qəhr olur! Lakin təəsüf ki, viruslar cəhənnəmdə yanana qədər yer üzünü neqativ inversiyaya uğradırlar! Cəhənnəm həyatı, o cümlədən mühiti və materiyanı təmizləyən, xarakteri dəyişən, onu müxtəlif hallara salan katarsis prosesidir. Cəhənnəm məxluqları təmizləyir, onlarda təmiz nə varsa onu saxlayır, bütün çirkli maddəni məhv edir. Əgər hər hansı bir məxluq və ya şey tamam və ya əsas etibarilə virusdursa cəhənnəm də onu uyğun olaraq tamam və ya əsas etibarilə məhv edir. Başqa sözlə, cəhənnəm xarakter və ruhu ərimiş və qaynanmış hala çevirmək üçün mövcud olan kosmik temperaturdur. Bir konkret sözlə, bu və ya başqa şey və ya məxluqun xarakterini, ruhunu bir psixi-aqreqat haldan başqa bir psixi-aqreqat hala keçirmək üçün lazım olan temperatur cəhənnəmin əsasıdır. Digər tərəfdən cəhənnəm bu gün fiziklərin leksikonunda aktual anlayış olan antimateriyaya keçidi təyin edir. Cəhənnəmin mənası isə virusları məhv etməkdən ibarətdir. Lakin viruslar hələlik məhv edilməyib tamam, çünki ululardan ulu Allah qiyamət adlanan bir zamana qədər viruslara, xüsusilə baş virus iblisə möhlət verib. Qiyamət gününə qədər viruslar yer kürəsini, yer həyatnı, mühitini, maddəsini*

*deqradasiya, modifikasiya, inversiya, bir sözlə məhv etməyə çalışacaqlar!*

*Kosmik mühitin tərkibinə daxil olan bizim dünya dörd ölçülü olduğu kimi əsasən maddənin dörd halından təşkil edilib. Amma bizim dünya, yaxud bizim təcrübə ənənəvi anlamda qəbul edilən coğrafi təbəqə ilə məhdudlaşdırılıb. Bura bütünlükdə yer kürəsi deyil, yalnız onun qabığı daxildir. Insanın müdaxilə etməkdə aciz qaldığı hər bir yerdə maddə və mühitin başqa hal və təbəqələri mövcuddur. Insan normal halda maddəni üç halda, bəzi parapisxoloji situasiyada da dörd halda duya bilir. Bizim dünya sisteminin nisbi zamana görə dəyişməsi, nisbi məkanın nisbi zamana görə dəyişməsilə nisbi zamanın özünün mütləq zamana görə dəyişməsinin tamlığına uyğundur:*

$$dO\backslash dt \leftrightarrow dx\backslash dt+dy\backslash dt+dz\backslash dt+dt\backslash dT$$

*Bu düsturda O-varlığın və ya mövcudatın riyazi simvolu, T mütləq zaman, t isə nisbi zaman, x,y,z isə nisbi məkan ölçüləridir. Aləmlərin mütləq zamana görə dəyişməsi isə nisbi və mütləq məkanın uyğun olaraq nisbi və mütləq zamana görə dəyişmələrilə nisbi zamanın mütləq zamana görə dəyişməsinin bütövlüyünə müvafiqdir:*

$$dA\backslash dT=dX\backslash dT+dY\backslash dT+dZ\backslash dT+dD\backslash dt$$

*Bu düsturda isə A aləmlərin riyazi simvolu, X,Y,Z isə mütləq məkan ölçüləridir. Unutmaq olmaz ki, hər bir an üçün T≥t. Bu o deməkdir ki, T ilə t müəyyənləşdirilməsi mümkün olan spesifik məkan-zaman kordinatlarında bərabər də ola bilərlər. Biz bu düsturların reallığı kamil şəkildə əks etdirmədiyini qabaqcadan etiraf edirik, lakin bu bizim qüsurumuz deyil, ümumiyyətlə riyazi modelləşmənin zəifliyi və irreallığı ilə bağlıdır. Lakin qeyd etmək lazımdır ki, materiya-mühit sistemində spesifik ölçü və kütləsi olmayan heç bir şey yoxdur. Mendeleyev əbəs yerə demirdi:* ***“Ölçü və çəki – təbiətşünaslıq üçün hər şeydir!”*** *Mendeleyin bu sözü çox böyük həqiqətdir. Belə ki, ölçü və çəki nəinki təbiətşünaslıq üçün, təbiətin özü üçün və bütövlükdə varlıq üçün hər şeydir. Çünki bu iki substansional parametr Allahdan başqa hər şeydə var. Uca Allah Quranda buyurur:* ***“Elə bir şey yoxdur ki, onun xəzinəsi bizdə olmasın. Lakin biz müəyyən ölçü ilə nazil edirik.”(Hicr, 21)*** *Ölçü Quranda ərəbcə* ***“qadar”(qədər)*** *olaraq*

*ifadə edilir. Bu kəlmə sonralar şeytan alimlər tərəfindən məna və anlama falsifikasiyasına məruz qalsa da, üzərində bir-çox azdırıcı əqidə və firqələr bina edilsə də, orjinal anlamı ölçüdən başqa bir şey deyil. Başqa bir ayədə buyrulur:* ***"Veyl olsun ölçü və çəkidə aldadanlara!"(Mutaffifin, 1)*** *Mendeleyevin yuxarıdakı sözü sanki bu ayənin təbiətşünaslıq baxımından təfsiridir. Qaragüruh və firqəçi islam alimlərinin əksəriyyəti zikr etdiyimiz bu ayəni adi ticarət və ya biznes əlaqələrilə məhdudlaşdırsalar da, ayə materiya-mühit sistemində haqqı, həqiqəti gizlədən və ya fırladan, zalimin zülmünə don geyindirən hər kəsə şamildir. Çünki pis əməllərin hamısı ölçü və çəkiyə düzgün qiymət və dəyər verməməyin nəticəsində doğur. Bu baxımdan istər geosistemdə, istərsə də bütün ekosistemdəki problemlərlə yalnız ekologiya və coğrafiya deyil, fizika, riyaziyyat, kimya və digər dəqiq elmlər də məşğul olmalıdı. Qlobal problemlər insanları bir araya gətirdiyi kimi, elmləri də birləşməyə məcbur edəcəkdir. Mən bu aləmlərdə ölçüsüz və çəkisiz bir şey tanımıram. Materiya-mühit sisteminin ölçülməsini Hegel fiziomatematika adlandırmışdı. Hegel deyir ki, təbiətin riyaziyyatı substansiyasına görə ölçü haqqında elmdir.*[20]

*Maddənin hər bir halına uyğun mühit olduğundan, onun digər parametirləri (məkan, zaman, sürət, tempratur və s.) də dəyişkəndir. Məsələn, bərk maddənin maye mühitindəki hərəkətindən doğan məkan-zaman kordinatları ilə həmin maddənin qaz mühitində hərəkət etməsindən doğan kordinatlar arasında təbii fərq var. Bu prosesdə bərk maddənin hərəkət sürəti və kütləsinin sabit qalması fərz edilsə belə yenə də maddənin digər parametrləri dəyişir. Digər tərəfdən maddənin hər hansı bir parametrinin(məsələn, tempraturun) dəyişməsi kifayət edir ki, onu bir haldan digər hala da keçirsin. Çünki maddənin bir parametrinin dəyişməsi kifayətdir ki, onun digər parametrləri də dəyişsin. Məsələn, maddənin tempraturunun dəyişməsi onu bir haldan digər hala keçirə bildiyi kimi, onun enerjisini də dəyişir. Bu isə ardıcıl olaraq sürətin və kütlənin də dəyişməsinə səbəb olur. Yalnız xüsusi və düşünülmüş xarici təsirlə materiyanın bir parametrini dəyişib o birini sabit saxlamaq olar. Təbii halda belə bir hadisənin baş vermə ehtimalı çox azdır. Hər bir maddi hal spesifik tempratur, enerji, sürət və digər maddi parametr*

[20] ***Гегель. Наука Логики. Т.1, М.,1970, 436***

*intervalına malikdir. Maddə özünün bərk halında maksimal kütləyə, minimal sürətə malik olur. Vakuumda isə Albert bəyin dediyi kimi yalnız işıq kvantları deyil, bütün elementlər ala biləcəkləri mümkün sürətlərin ən böyüyünü almaq imkanına sahibdir. Əgər hər hansı bir cismin ətraf mühiti təbii vakuum olarsa və ona (vakuumun təbiiliyinə və spesifikasına xələl gətirməmək şərtilə) xarici təsir nəticəsində müəyyən V sürəti verilərsə həmin cismin sürəti sabit olmaqla bərabər hər cür effektlər nəticəsində ala biləcəyi sürətlərin ən böyüyünü alacaqdır. Həmin cism malik ola biləcəyi kütlələrin də ən kiçiyinə malik olacaqdır. Elə buna görə də ətraf mühiti kamil vakuumdan ibarət olan yeganə varlıq və ya varlıqlar sistemi kainat ən böyük sürətə malikdir. Həm də kainat yeganə varlıqdır ki, ən böyük sürətə malik olduğu halda ən böyük kütləyə də malikdir. Istər kainatın, istərsə də yer mühitinin hər hansı yerində maddi hallardan doğan effektlərin varlıq dərəcəsi çox, başqa bir yerində az ola bilər, lakin heç vaxt nə sıfır, nə də son ola bilməz. Elə buna görə hər zaman və hər yerdə spesifik koordinatları olan mühit var. Materiya və mühit arasındakı əlaqəni belə quruplaşdırmaq olar:*

*1)Materiya və mühit daim fəaliyyətdədir. Lakin material hissəciklər mühitin hissəciklərindən daha aktiv nəzərə çarpır. Mühit materiyadan sürətlidir. Mühit sürəkli və materiyaya nisbətən çox sürətlə hərəkət edən zərrə və hissəciklərə malikdir. Mühit zərraciklərinin minimal sürəti ışıq sürətidir. Amma diskret maddi hissəciklərin ala biləcəyi ən yüksək sürət ışıq sürətidir. Bizim sükunət kimi qəbul etdiklərimiz də minimal hərəkətdən başqa bir şey deyil. Fərabinin də dediyi kimi kosmosun heç bir yerində mütləq sükunət yoxdur.*[21]

*2)Mühitin sürət və enerjisi materiyadan çox olsa da, kütləsi ondan azdır.($M_{mü} \leq M_{ma}$) Kvant prinsiplərinə görə daha sürətli və enerjili olduğuna görə mühit materiyadan ağır olmalı idi, amma mühit-materiya əlaqəsində ümumkainat miqyasında bu prinsiplər pozulur.*

*3)Müasir fizikanın **"sahə"** anlayışı mühitin substansional parçasıdır. Bu baxımdan mühitin nüfuz etmə intensivliyi maksiumum, materiyanınkı isə minimumdur.*

*4)Materiya əsas etibarilə diskiret xarakterdə, mühit isə arasıkəsilməz spesifikaya malikdir. Bu səbəbdən mühitin varlıq dərəcəsi materiyanın mövcudluq dərəcəsindən çoxdur.*

---

[21] ***Естеснвенно-научные трактаты, 297***

*5)Eynişteynin məşhur düsturu olan $E=mc^2$ əslində bu şəkildədir: $E=mc^n$. Enerjinin iki halı var ki, bunlar $n\to\infty$ və $n\to 0$ halında gerçəkləşir. Eynişteynin düsturu əslində 4 ölçülü məkan-zaman kontiniumu üçün sabit olub $n\leq 2$ halı üçün doğrudur.*[22]

*6)Kainatın periferiyalarındakı mütləq boşluqda mühit və materiya büsbütün eyniləşirlər. Metakainatda mühit və materiya büsbütün eyni prosesə çevrilir. Vakuum materiya və mühit arasındakı duyulmaz transı da vakuuma çevirir.*

*7)Teoekosistemdə Mühit və Materiya substansional modifikasiya və inversiya olub absolyut xarakter alırlar. Allah və onun spesifik ətraf mühitində hər şey mütləq xarakter alır.*

## *$1.3.Landşaft mühitin formasıdır*

***O yaradan, yoxdan var edən, forma verən Allahdır.***
***(Həşr, 24)***

*Hər bir prosesin və şeyin spesifik məzmunu olduğu kimi spesifik forması da mövcuddur. Şübhəsiz ki, mühitin də spesifik forma və məzmunu var. Mühitin məzmunu onun mahiyyətilə birbaşa bağlıdır və bu barədə bundan öncəki fəsildə danışmışıq. Burda əsasən mühitin siması landşaft barədə danışmağa üstünlük verəcəyik. Beləliklə mühitin spesifik forması var ki, bu elə landşaftdır. Landşaft barədə deyilən qiymətli fikirlərin qiymətinə xələl gətirmədən deyək ki, landşaft təkcə yer planetinin formasını deyil, bütün kosmik elementlərin formasını ehtiva edən anlayışdır. Yerin forması və ya siması isə geogenez proseslərin nəticəsi olan geolandşaftdır. Başqa planetar landşaftlardan fərqli olaraq geolandşaft diqqətimizi daha çox ona görə cəlb edir ki, onda canlı maddə var və xüsusilə də biz insanlar da onun üzərində aldadaraq, zorlayaraq, öldürərək, lovğalanaraq yaşayırıq! Kosmik baxımdan nə insanın, nə də onun məskunlaşdığı planetin digər səma cismlərindən heç bir üstünlüyü yoxdur. Lakin əfsuslar olsun ki, elm adamlarının, hətta böyük alimlərin çoxu sözdə kosmosentrik olsalar da daxilən və praktiki olaraq ptolomey sayağı geosentriklər olaraq qalırlar! Bir şeyi başa düşmək vacib və lazımdır ki, canlı maddə geolandşaftın mənası və*

---

[22] ***Rəşad Ramazanlı, Empriomaterializm, Bakı, 2000***

*dəyəridir, amma əsası deyil! Yerşünaslar belə bir yalan üzərində ittifaq ediblər ki, "**geomorf və ya relyefin üzərində canlı maddə yoxdursa o heç vaxt landşaft ola bilməz, adi bir geoforma kimi qalar!**" Halbuki landşaft terminin özü bu fikrin və sahiblərinin ya yalançı, ya da cahil olduqlarını ortaya qoyur. Əgər bu alimlər geosisem üzərindəki canlı və cansız maddəni vəhdətdə ifadə etmək istəyirlərsə başqa termin axtarsınlar! Termin və ya ifadə qıtlığıdırmı?! Axı landşaft termini də bir-çox digər terminlər kimi əksəriyyət tərəfindən ona verilmiş mənadan çox uzaqdır! Təbiətşünasların, xüsusən coğrafiyaçıların beynindəki landşaft əsasən yer üzünün quru hissəsinə, bəzən də yer səthinin tamına aid edilən despotimizə məhkum edilmiş anlayışdır ki, bu əslində elə geolandşaftdır. Halbuki slavyanofil təbiətşünaslarımız, xüsusən yerşünaslar landşaft dedikdə yer səthinin quru hissəsinin çox kiçik qalanlığa malik hissəsini nəzərdə tuturlar ki, bu hətta geolandşaftdan da kiçikdir. Halbuki landşaft mühitin forması olub varlığın atributlarından biridir. Landşaft sanki deyir: "**mən surətəm, bütün mövcudluğun simasıyam!**" Landşaftın genezisi həm bir söz, həm də bir reallıq kimi "**land**"dır."**Land**" german mənşəli söz olub bizim dilə yer, məhəl, vilayət, məkan, ərazi, bəzən də torpaq kimi tərcümə edilir. Təbiətşünaslar, xüsusən geoqraflar landşaft anlayışını daha çox torpaq forması kimi qəbul etmişlər. Halbuki planetar və qlobal, hətta kosmik və metafizik anlamda "**land**" yalnız məkan anlayışıyla sinonimdir. Digər mənaları da lokal və regional şəraiti nəzərə almaqla qəbul etmək olar, amma üstünlük vermək olmaz. Məsələn, xalq arasında it deyəndə çox vaxt lənətlənmiş polis və xəfiyyələr nəzərdə tutulur, amma bu sözün heyvan adı olmasında heç bir ixtilaf və şübhə yoxdur. Digər tərəfdən bu iti eldar, ramiz, ramil, vilayət, emil və digər adlar qoyub çağırmaqla da adam etmək olmaz. Eləcə də "**land**" sözcüyünün də orginalı "**eko**" kimi məhz məkan, həmçinin məskən, vətən anlayışına daha yaxın və daha uyğundur. Məkan (həmçinin vətən, məskən və s.) dedikdə yalnız yeri nəzərdə tutmaq geosentrizm xəstəliyinin təsirindəndir. Məkan bütün proses və şeylərə aid kateqoriyadır. Landşaft isə məkan forması və ya ərazi forması anlamını verir. Landşaft planetar baxımdan ən azı relyefdir. Yerin ətraf mühitindəki səma cisimlərinin(Merkuri, Puluton, Ay və s.) relyefi və ya səthi varmı? Şübhəsiz ki, var. Elə landşaft da bu baxımdan ekoformadır. İlk baxışdan adama elə gəlir ki, landşaft nəsə, dairəvi və*

*ya sferik bir şeydir. Lakin bu yalnız subyektivasiyada mümkündür. Çünki obyektiv reallıq subyekti və subyektivliyi də ehtiva edən dinamiki mühitdir. Qlobal anlamda landşaft nəinki mühitin, hətta varlığın atributlarından biri olub maddənin hallarına uyğun olaraq dəyişir. Landşaft varlığın formasıdır. Nə qədər müxtəlif varlıq var, bir o qədər də landşaft var. Landşaft varlığın formalaşması prosesinin nəticəsidir. Həmçinin landşaft informasiya daşıyıcısıdır. Ətraf mühitdə mövcud olan kitablar, adamlar, yarpaqlar, dağlar, çöllər, bir sözlə hər şey informasiya daşıyıcısıdır. Ətraf mühitdə olan informasiyaları bizə təqdim edən məhz landşaftdır. Landşaft Maksvelin "**sahə**" adlandırdığı prosesə, mühitin özündən daha çox uyğun gəlir. Belə ki, landşaft maddilik dərəcəsi ən az olan, ən kiçik çəkiyə malik, açıq, vital və eksiztensial sistemdir. Kainatda yaradılmış ilk maddə psixi maddə olduğundan landşaftın ilk növü də psixi və ya ruhi landşaftdır. Necə ki, mühitin də ilkin və ən saf forması psixi mühitdən ibarətdir. Ümumiyyətlə landşaftın varlığı və rəngarəngliyi maddə və mühitin bircinsli olmadığının sübutudur. Landşaft ən azı bircinsli deyil. Landşaft ona görə landşaftdır ki, bircinsli deyil. Landşaftın bircinsli olduğunu iddia etmək zirvəsiz dağ və ya köksüz bitki olduğunu iddia etməkdən daha absurd və daha məntiqsizdir! Hər bir maddi halın spesifik landşaftı var. Bu baxımdan substansional landşaft sistemli olaraq yeddi tipdir. Təbii ki, bütün bunlar mövcud bir qanunauyğunluğun varlığından xəbər verir. Nəyə görə yeddi? Yer kürəsinin də kosmik qatlar kimi yeddi hissə və ya təbəqədən ibarət olması ilk dəfə Tövrat və Zəburda, sonra İncildə, daha sonra və daha mükəmməl şəkildə Quranda bildirilir: "**Yeddi göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi öz elmi ilə ehtiva etdiyini biləsiniz deyə Allahın əmri onların arasına nazil olar!"(65/12)** İlk dəfə Lambert elmi formada kainatın qatlardan ibarət olduğunu söyləmişdi. Bu gün Lambertin bu fikrilə razılaşmayan çətin tapılar. Biz qətiyyətlə deyə bilərik ki, qat və ya təbəqədən ibarət olan kainatın qatlarının sayı da maddənin hallarının sayı qədərdir. Amma unutmaq olmaz ki, kosmik kitablarda göy anlayışı elm aləmində qəbul edilən kainat anlayışı ilə də sinonimdir. Bu baxımdan uca Allahın yeddi göyünün yeddi kainat olması da mümkündür. Amma göy və ya göylər anlayışının kainatın qatlarını göstərən anlayış olması çox qüvvətli bir ehtimaldır. Amma qeyd etmək zəruridir ki, kainatın qatları bir-birindən substansional tamlıqla*

*fərqlənmirlər. Belə ki, bu qatlar maddənin hallarına uyğun şəkildə standart paylanmamışdır. Maddənin qat və hallarının bir-birinə qismən də olsa qarışması şübhə doğurmur. Bu qat və halların hər biri kosmosun varlığının şərti olub sistemli və dinamiki vəhdət və fəaliyyətdədirlər. Bu mütləq proses kosmik Mühitin özü və özülüdür. Kosmik sistemlərin yeddi qat olması yaradılış prosesinin metod və prinsipidir. Bu ideya ilahi, təbii və kosmik qanunlarla da səsləşir, eynilə mühit və landşafta da aiddir. Landşaft mühitdən asılıdır. Mühit necədirsə landşaft da ona müvafiq görkəm alır. Çünki landşaft mövcudluğun simasıdır. Əgər varlıq yeddilik prinsipinə tabedirsə, şübhəsiz ki, landşaft da tabedir. Bundan başqa landşaftın növləri də olduqca çox və müxtəlifdir. Məsələn, psixolandşaft, ekolandşaft, xronolandşaft, hidrolandşaft, litolandşaft, kosmik landşaft, antropolandşaft, geolandşaft landşaftın növlərindəndir. Hər bir prosesin, şeyin spesifik landşaftı var. Məsələn, təbiət bir cür, tarix başqa cür, insanlar da tamam başqa cür landşafta malikdir. Landşaft məkan forması olduğu üçün landşaftşünasılıq da bu forma haqqında elmdir. Landşaftşünasılıq ekologiyanın tərkib hissəsinə daxildir. Çünki ekologiya məkan proseslərini öyrənir, landşaft da ekosistemin formasıdır. Qarşısında logiya və qrafiya kimi sözlər olan hər bir anlayış ontoloji olmaqdan daha çox qnosiolojidir. Bu baxımdan qnosioloji prosesin nəinki özünü, təzahürünü də obyektiv reallığa müncər etmək olmaz. Landşaft ixtiyari şey və prosesə atribut olan, ixtiyari tamlığın açıqlığını təşkil edən materiya və mühit formasıdır. Landşaft öyrənilmədən maddə, mühit və ekosistem öyrənilə bilməz! Maddə, mühit və ekosistem haqqında ilkin bilgi və informasiya landşaft haqqındakı bilgi və informasiyadır! Landşaft daha çox Maksvelin "***sahə***" adlandırdığı şeyə daha çox uyğun və bənzərdir. Çünki landşaft maddilik dərəcəsi ən az və ən kiçik çəkiyə malik olan açıq vital və eksiztensial sistemdir. Həmçinin landşaft bir növ məkan, bir növ zaman, bir növ də ruh olduğu üçün universal informasiyaya malik təbiət surətidir. Başqa sözlə landşaft mühit, maddə və həyatın təbii-tarixi portiretidir! Bəsit və dayaz elm sahibi təbiətşünaslar canlı maddənin, kosmosun və digər bəzi sistemlərin dayanıqlılıq və stabilliyindən bəhs etdikləri kimi landşaftın da dayanıqlı olduğunu iddia edirlər. Bu fikir təbii və şübhəsiz ki, geolandşaftın dayanıqlığı və stabilliyi iddiası üzərində bina edilir! Halbuki tektonik tekstur və geomorfosistemə dərin və dəqiq nəzər salmaq kifayətdir ki, landşaftın*

*nəinki stabil, ən azı funksianol-struktur xarakterə malik olduğu bilinsin. Dayanıqlılıq da stabillik kimi real bir şey deyil və olsa-olsa yalnız siklik xarakterli proseslərə şamil edilə bilərdi ki, bu da mümkün olmaz! Çünki proses heç vaxt nə dayanıqlı, nə də stabil olmaz! Bir şeyin dayanıqlı və ya stabil olması üçün vacibdir ki, o şey proses və sistem olmasın! Bunun da qeyri mümkülyünü göstərməyə bircə kəlmə də sərf etməyə ehtiyac yoxdur. Sözün əsl mənasında məkan forması olan landşaft təbii-tarixi baxımdan iki cürdür: 1)Qədim landşaft, 2)Müasir landşaft. Bu iki landşaft forma kimi bir-birindən fərqlənsələr də, eyni özül və ya substansiyanın formalarıdır. Bunları fərqləndirən zaman faktoru olsa da, fərqin yaradıcısı hər bir an proqress və reqressə malik kosmogenezdir. Qədim və müasir landşaft arasında fərqin yaranması, artması, azalması, nəhayət yox olması tektonik proseslər vasitəsilə baş verir. Landşaftın müasir formasının əmələ gəlməsi üçün təbii ki, onun inkişaf etməsi vacib və lazımdır. Landşaftın inkişafı üçün də onu zənginləşdirən komponentlər(hava mühiti, minerallar, torpaq-bitki örtüyü və s.) inkişaf etməlidir. Kosmik baxımdan landşaft əsas etibarı ilə yaradıcı və zənginləşdirici komponentlərdən təşkil edilib. Yaradıcı komponentlər olan planetar özül və relyef bütün kosmik elementlərdə demək olar ki, eynidir. Zənginləşdirici komponentlərə gəldikdə isə bunlar yalnız geolandşaftda özünü daha açıq və daha aydın göstərir ki, hava şəraiti, yaraltı və yerüstü sular, torpaq-bitki örtüyü, heyvanlar və nəhayət kamil insanlar geolandşaftı zənginləşdirən komponentlərin əsasını təşkil edirlər. Digər tərəfdən başqa planetlərin landşaft zənginləşdiriciləri haqqında hələlik xüsusi real bilgi mövcud olmadığı üçün biz fərziyyə ilə danışmaq istəmirik. Qədim və müasir landşaft arasında daim enerji və informasiya mübadiləsi gedir. Hər hansı bir orqanizm mənsub olduğu nəslin genetik xüsusiyyətlərini daşıdığı kimi və xüsusən də özündə əcdadlarının xarakterik xüsusiyyətlərini əks etdirdiyi kimi müasir landşaft da qədim landşaftın genetik xüsusiyyətlərinin daşıyıcısı olub yeri və anı gəldikcə bu genetik xüsusiyyətləri energi və informasiya mübadiləsi ilə biruzə verir. Bunu aydın müşahidə etmək asan olmasa da tektonik strukturun fəaliyyətini dərin analizlə tədqiq və təhlil etmək buna geniş imkan yaradar. Lakin formanın miqyasından asılı olaraq zamanın təsiri də dəyişir. Məsələn, geolandşaftın qədim və müasir formaları arasındakı fərq geogenezin təsirilə formalaşır. Geolandşaftın təbii-tarixi tipləri və hissələri də*

*geomorfogenezin nəticəsidir. Geomorfogenezi var edən də orogenez və epeyrogenezdir. Orogenez dağ əmələgəlmə, epeyrogenez isə qitə əmələgəlmə prosesinə verilən addır. Abş geoloqu Hilbert və alman geoloqu Ştillenin elm aləminə gətirdiyi anlayışlardır. Hilbert, Ştille və tərəfdarları orogenez və epeyrogenezi geosistem və geogenezlə məhdudlaşdırırlar. Halbuki bütün səma cisimlərində bu proseslər gedir. Əgər orogenez və epeyrogenezin nəticəsi olaraq müxtəlif relyef formaları yaranırsa, deməli müxtəlif landşaftlar yaranır; müxtəlif iqlim qurşaqları yaranır; rəngarəng torpaq-bitki örtüyü və heyvanlar meydana çıxır. Və bunların mövcudluğunu da yalnız yer üzü və ya geomühitlə məhdudlaşdırmaq olmaz! Bütün kosmik element və ya elementlər sistemində bu zəncirvari hadisə və proseslər ola bilər! Bütün şeylərin və proseslərin formalaşmasına daxili bir qüvvə də təsir edir. Geosistemdə də belə bir qüvvə və enerji mövcuddur. Hələlik bunu geotektonik proses adlandırmaqla yetinəcəyik. Yer mühitindəki epeyrogenez və orogenez məhz geotektonik prosesin əsasını təşkil etməklə yanışı onun nəticəsidir. Qeyd etmək lazımdır ki, tektonik proseslər də yalnız yerdə deyil digər planetlərdə də baş verir. Lakin geotektonik proseslə, digər planetlərdə gedən tektonik proseslər arasında əsasən və mahiyyətcə demək olar ki, fərq yoxdur. Yalnız intensivlik və sürəklilik baxımından fərq var. Belə ki, hər hansı bir başqa planetdə tektonik fəaliyyət yerdəkindən az və ya çox intensiv və sürəkli ola bilər. Geolandşaftın özülü və ya əsası isə aerolandşaft, hidrolandşaft və litolandşaftdan ibarətdir, çünki yuxarıda da qeyd etdiyimiz kimi yer mühiti əsas etibarı ilə maddənin 4 aqreqat halından təşkil edilib. Bunlar əsasən maddənin bərk, maye və qaz, qismən də plazma halının effektləri üzərində bərqərar olub. Yer üzündə maddənin qaz halının əsasını aerolandşaft, maye halının əsasını hidrolandşaft, bərk halının formasını isə litolandşaft təşkil edir. Maddənin 4-cü aqreqat halı olan plazmanın da geosistemin təşkilində böyük rolu var. Amma bu rol katalizator xarakterlidir. Məkan və zaman fərqinə görə hər bir maddi halın landşaftın formalaşmasındakı rolu və təsiri dəyişə bilər. Minerallara gəldikdə isə bilmək lazımdır ki, vakuum istisna olmaqla maddənin hər bir halında spesifik minerallar var. Relyef və landşaft əksər təbiətşünas və yerşünaslar tərəfindən maddənin bərk halının formasıyla məhdudlaşdırıldığı kimi, minerallar da bu cür despotizmə məhkum edilib. vernadski kimi bəziləri isə bir az insaflı və ağıllı davranaraq maddənin maye halında da meneral ola*

*biləcəyini qəbul etmişlər. Vernadski deyir:* ***"Yer üzərində tam halda götürülən orqanizmlərdən daha sabit və öz nəticələrinə görə daha mükəmməl olan biokimyəvi qüvvə yoxdur. Yer qabığının üst hissəsinin bütün mıneralları canlı maddənin təsiri ilə yaranmışdır!"*** *Vernadskinin təsbiti doğrudur, amma tam əhatəli deyil. Çünki canlı maddə ən azı maddənin dörd halında mövcud ola bildiyi kimi, meneral da belə olmalıdır. belyankin kimi bir-çox içiboş və kağız korlayan texnonaturalistlər isə mineral sistemi texniki maddəylə məhdudlaşdırmaqla daha böyük cahillik ediblər. Halbuki maddənin bütün hallarının spesifik relyefi, ladşaftı və mineralı var ki, buna yalnız elmdən və ağıldan nəsibi olmayan kimsələr şübhə edər. Həmçinin demək olar ki, maddə və ya materiya bir növ mineral olduğundan landşaft da bir növ mineral formasıdır. Orogenez və epeyrogenez ixtiyari planetar tektonikanın əsasını təşkil etdiyi üçün üfüqi və şaquli zonallığın strukturunu vəhdətdə təşkil edir. Landşaftı bunlarsız təsəvvür etmək qeyri mümkündür. Əgər biz ruh, məkan, zaman, günəş, yer, hava, od və digər şey, element və proseslərin landşaftlarının nədən ibarət olduğunu aydınlaşdırmaq istəsək bilməliyik ki, yer üzünün landşaftı geozonallığın təsiri nəticəsində müxtəlif kəmiyyət və keyfiyyət göstəricilərinə malik landşaftlara(səhra, yarımsəhra, çöl, meşə-çöl, dağ-meşə, meşə-çəmən və s.) parçalandığı kimi, bütün digər şey, element və proseslərin landşaftları da spesifik zonallıq nəticəsində müxtəlif yerlərə parçalanmışdır. Məsələn, psixi maddənin forması psixozonallığın təsirinə, məkan maddəsinin forması ekozonallığın təsirinə, günəş landşaftları heliozonallığın təsirinə məruz qaldığından müxtəlif və rəngarəng landşaftlara parçalanmışlar. Landşaft planetar özül və relyef üzərində bərqərar olduğundan hər bir şey(günəş, ay, yer, insan, cin, bitki, daş, atom və s.) və ya şeylər kompleksinin(planetlər, qalaktikalar, torpaqlar, etnoslar və s.) landşaftları zaman-məkan dəyişiklikləri nəticəsində spesifik təbii-tarixi formaya malik olur. Landşaft sadəcə forma deyil, funksional və dinamiki formadır. Maddə isə dinamiki invariantdır. Şübhəsiz geomateriya da invariantdır. Lakin onun forması olan geolandşaft hər bir an dəyişır, çevrilmələrə məruz qalır və buna görə də invariantlıqdan məhrumdur. İnvariant anlayışı həm ayrı-ayrı invariant kəmiyyətiərə, həm də bütövlükdə materiyaya xas olan universal invariantlığı ifadə edir. İnvariantlığın mahiyyətini Maks Born belə açıqlayır:* ***"İnvariantlar ixtiyari hesablama sistemi***

***üçün qiymәti dәyişmәz qalan vә bu sәbәbdәn çevrilmәlәrdәn asılı olmayan kәmiyyәtlәrdir."*** [23] *Maksın açıqlamasında invariantlığın yalnız riyazi-hәndәsi mahiyyәti açıqlanır. Halbuki invariantlığın kimyәvi, ekoloji, xronoloji, genetik, psixogenetik, geokimyәvi vә başqa elmi-praktiki tәrәflәri mövcuddur. Әn әsası isә invarintlar sırf teoloji xarakter vә mahiyyәtә malikdir. İnvariantlığı yalnız bununla izah etmәk olar. Landşaftın daim dәyişmәsi, bir şәkildәn başqa şәklә keçmәsi tәbii qanundur vә materiyanm mahiyyәtindә heç bir vә heç cür dәyişiklik yaratmır, çünki maddә yalnız surәtini, tәsir üsulunu zamana uyğun dәyişә bilәr. Әgәr materiyanın substansiyası dәyişkәnliyә uğrasaydı, onda bütün kaınat vә ruhi mühit ümumi materiya dövranından kәnara çıxar, bunun aqibәti bizim hamımızın "**qara dәlik**" lәrin әbәdi sakinlәrinә çevrilmәsinә gәtirib çıxarardı. Buna isә hәlә qalıb!*

*Sovet tәbiәtşünasları vә varislәrinin* ***"landşaftın morfologiyası"*** *kateqoriyasını işlәtmәlәri heç bir mәntiqә sığmır. Landşaft özü morfdur, yәni formadır. Bu baxımdan dәrindәn düşünmәdәn* ***"formanın formasından"*** *söhbәt açmaq profan vә ya antiteoloji xarakter vә düşüncә sahiblәri üçün nә cür vә necә alimlik әlamәtidir bilmirәm, lakin bunu "**tupoy**" luqdan başqa cür adlandıra da bilmirәm! Hansısa teoloq, filosof, teosof vә ya ekosof "formanın forması" vә bu kimi hansısa ifadә vә anlayış ortaya atarsa bunu hardasa başa düşmәk olar. Lakin bu dәrin anlayışlar sovetlәrin sәthi tәbiәtşünaslarının, xüsusilә dә palınov, lunin, soçava, budaqov kimi kolxoz tәfәkkürünә bağlı olanların başının ölçüsünә uyğun deyildir. Bayağılıq o yerә çatıb ki, "**alimlәr**" landşaftın morfoloji vahidlәrindәn tәmtәraqla söz açırlar, Hәm kömәk göstәrmәk üçün, hәm dә dәqiqlik naminә deyәk ki, landşaftın morfoloji vahidlәri әslindә ladşaftın müxtәlif ölçülü xronoekosistem (zaman-mәkan bütövlüyü) elementlәri vә ya hissәlәridir. Landşaftın hissәlәri arasında sәrhәdlәnn tәyini mәsәlәsinә gәldikdә isә qeyd etmәk lazımdır ki, bu hissәlәr arasında sәrhәd yox, sadәcә müvafiq birlik var. Sәrhәd isә landşaft növlәri vә ya mikrofasiyalar arasında özünü yaxşı biruzә verir. Geolandşaft növlәri arasında sәrhәd isә mikrogeofasiyalar arasında qoyula bilәr. Lakin insan tәsiri geolandşaftlar arasına dәqiq sәrhәd keçirmәyә böyük әngәl törәdir.*

[23] ***Физика в жизни моего поколения, М., 1963, 275***

*Bunun da nəticəsində etnoslar arasındakı sərhədləri təyin etmək mümkün olmur. Landşaftlar arasındakı sərhədlər müxtəlif cür təyin edilə bilər. Lakin iki əsas metod var ki, onlarla mühitlər arasındakı fərqləri görmək mümkündür:*

*1)Landşaftlar arasındakı fərqləri ən gec dəyişən komponentlə təyin etmək. Çox zaman və çox yerdə ən gec dəyişən komponent kimi relyev çıxış edir.*

*2)Landşaftlar arasındakı fərqləri ən tez dəyişkənliyə uğrayan komponentlə təyin etmək. Çox zaman və çox yerdə ən tez dəyişən komponent kimi antropogen faktor çıxış edir.*

*Təbii ki, təbii ərazi kompleksləri, yaxud təbii akval kompleksləri bir-birindən fərqləndirmək üçün başqa landşaft komponentlərinin(litoloji özül, iqlim və s.) də dəyişmə dərəcəsini nəzərə almaq olar. Lakin bu zaman ekoqrafik ardıcıllığı gözləmək lazımdır. Məsələn, elə ərazilər ola bilər ki, orada su və ya hava rejimi və ya torpaq-bitki örtüyü əsas fərqləndirici faktor kimi çıxiş edə bilər. Amma bu qısa müddətli ekoqrafik haldır, daimi deyil.*

### *$1.3.1.Geolandşaft yerin zahiri və ya formasıdır*

*Hər bir prosesin, şeyin forma və məzmunu olduğu kimi, yer mühitinin də surəti və məzmunu vardır. Yer mühitinin forması Zyussun təbirilə desək **"yerin simasıdır!"** Yerin siması da geolandşaftdan başqa bir şey deyil! Bunu coğrafi landşaft da adlandırmaq olar, - hərçənd ki, adlandırırlar, - amma geolandşaft termini coğrafi landşaft terminindən daha real və daha praktikidir! Geolandşaft yerin formasıdır və əsas etibarı ilə aerolandşaft, hidrolandşaft və litolandşaftdan ibarətdir. Coğrafi landşaft isə bu real formanın idrakımıza daxil olan qədəridir. Əslində coğrafi landşaft yerin formasının təsvir edilməsi mümkün olan hər bir element və elementlər sisteminin bütövlüyünü ifadə edir. Coğrafi landşaft istər real, istərsə də ideal olaraq coğrafi mühitin formasıdır. Coğrafi mühit də yerin daxili və xarici element və proseslərinin məntiqi təsvirini ifadə edən elmi kateqoriyadır. Burdan da yer mühiti ilə coğrafi mühit arasındakı fərq aydın görünür. Coğrafi mühitin surət və ya forması coğrafi landşaft olduğu kimi, məzmunu da xəritə, qlobus və coğrafi sxemlərdir. Yer mühiti mühitin, geolandşaft da landşaftın mənası və*

*nəticəsidir, amma əsası deyil. Çünkü yer mühiti və geolandşaft yalnız yer sisteminə aid olan söz və anlayışlardır. Yerdən kənarda bu kateqoriyalar, ümumiyyətlə tərkibində yer anlamını verən hər bir söz öz funksiyasnı və əhəmiyyətini itirir. Elm və hikmət dünyasına xidmət etməyi özünə borc bilənlər bunu mütləq nəzərə almalıdırlar. Geosistem, geokompleks, geosfer və geomühit formaca eyni olmasa da, məzmunca bir-birinə çox yaxın anlayışlardır. Məkan baxımından bu anlayışlar sinonimdir. Zamana görə isə bir-birindən fərqlənirlər. Belə ki, geosfer indiki zamana görə təyin olunur, yəni hal-hazırda yer kürəsində mövcud olan təbii-tarixi komponentlərin ekoloji situasiyasını göstərir. Bu bir növ indiki geokompleks və ya geotam, yaxud geosistemdir. Geokompleks yer kürəsində keçmişdə və hal-hazırda movcud olan təbii-tarixi komponentlərin vəhdətdə, qarşılıqlı əlaqə şəraitində yaratdıqları tarixi-ekoloji vəziyyəti özündə ehtiva edir. Nəhayət, geomühit və geosistem kateqoriyaları isə planetimizim bütün zaman meyarlarını, keçmişi, indini və gələcəyi, daim olduqları üç ölçülü məkanla birlikdə ehtiva və ifadə edir. Məsələn, sabah yerin malık olacağı ekoloji situasiya geosistem və ya geo mühitin kiçik modelidir. Geomühit əsas etibarı ilə geosistem, geosistem də əsasən geomühitdir. Coğrafi mühit geomühitin, coğrafi kompleks geokompleksin, coğrafi tam geosistemin, coğrafi təbəqə də geosferanın subyektivasiyasıdır. Bu baxımdan coğrafi mühiti insan faktorundan asılı və insansız qeyri-mümkün sistem hesab edənləri başa düşmək olar. Lakin bu görüşdə olanlar obyektivasiyadan çıxış etməklə sistem xarakteri ala biləcək səhvə yol verirlər. Yəni bizim geolandşaft adlandırdığımızı coğrafi landşaft adlandıranlar bu dəyərli və mükəmməl kateqoriyanı xüsusən insan cəmiyyətindən, bəzən də bitki və heyvanlardan, torpaqdan, iqlimdən asılı hesab etməklə mühitin fəlsəfi mahiyyətini anlamaqdan çox uzaq düşmüşlər. Bitkilər, heyvanlar, torpaq, su və hava, xüsusən də yaramaz insanlar məhv olar, amma geolandşaft yenə də qalar, çünki o kosmik məkan-zaman kontiniumunda mövcuddur. Bunun dolğun izahi irəlidə gələcək. Yerin məkan-zaman sistemi geomaddəyə uyğun qurulmuşdur, Çünki geomühitin varlığını təmin edən əsas faktor GEOMADDƏdir. Bunun subyektivasiyası da COĞRAFİ MADDƏdir. Geomaddə xüsusi hal və formasıyla nə canlı, nə cansız, nə də texnogenetik maddədir. Onda ən azı bunların hamısından var. Geomateriya yer üzündə, yer daxilində və yerin yaxın ətrafında mövcud olan geoelementlərin bütöv və fərdi*

*əsası və sistemidir. Geomaddə nisbi substansiyadır və buna görə də nisbi vahiddir, nisbi bölünməzdir. Lakin elə bir zaman gələcək ki, geomaddə indiki kimi yalnız formasını deyil, mahiyyətini də itirəcək! Yer üzündə olan canlı maddəyə gəlincə bu plazma, aero, hidro və lito element və effektlərdən təşkil edilib ki, spesifik simaya malik olan bəşəriyyət də bu posesin nəticəsidir. Insan spesifik olaraq yaradılmış son maddədir və onun landşaftı da landşaftın son növüdür. Antropolandşaft bütün digər landşaft növlərindən kökündən fərqlənməklə yanaşı həm də ən təhlükəli landşaftdır! İnsan özünəməxsus landşaftı ilə təbiətdə, təbiətə qarşı masqalanır. Çünki totalitar landşaftı yaradan məhz antropolandşaftdır! Quran antropolandşaft və antropomodifikasiya barədə lakonik bunu deyir:* ***"Yaratdıq insanı gözəl formada[24]. Sonra onu səfillərin səfilinə çevirdik! İman edib saleh əməllər edənlərdən başqa ki, onlar üçün tükənməz mükafat vardır!"(Tin, 4-6)*** *Bəli, insanın orjinalı gözəl yaradılıb, amma insan özü həm öz əslini, həm də təbiətin əslini modifikasiya, inversiya etdiyi üçün Allah onu ən səfil vəziyyətə salıb.*

*Landşaft mühitin forması olduğu kimi, geolandşaft geomühitin, coğrafi landşaft da coğrafi mühitin formasıdır. Mühitin əsası, mahiyyəti maddə olduğu kimi, yer mühitinin də əsası, mahiyyəti yer maddəsidir. Yer mühitilə coğrafi mühit arasındakı fərq bundadır ki, yer mühiti obyektivdir, coğrafi mühit isə subyektiv. Yer mühiti ontoloji xarakterlidir, coğrafi mühit isə qnosioloji. Eynilə coğrafi landşaft da yerin xarici görünüşü və ya geolandşaftın beynimizdəki kopyasını xatırladır. Bu baxımdan yer mühiti(geomühit) coğrafi mühitdən daha dolğun, daha geniş və mükəmməl olduğu kimi, geolandşaft da coğrafi mühitdən daha geniş və daha az itkisiz anlayışdır. Geolandşaft lokal və regional şəraitdən asılı olaraq geozonallığın təsirindən rəngarəngliyə malik olub fizioformaların vəhdəti funksiyasının daşıyıcısma çevrilir. Kantın anlayışları ilə desək, geomühit və geolandşaft* ***"özündə şeyə"****, coğrafi mühit və coğrafi landşaft da*

***[24] "Ləqad xaləqnəl insanə fiii əhsəni təqvim" Teotəkamülçü şarlatanlar bu əyəni belə tərcümə edirlər: "Biz insanı ən gözəl biçimdə(formada) yaratdıq!" Bu cahil və sapıqlar gözəli ən gözəl kimi tərcümə və ya təfsir etməklə böyük bir yalanın əsasını qoymuşlar. Halbuki nə bu ayədə, nə də ümumiyyətlə Quranda nə ləfzən, nə də mahiyyətcə insanın ən gözəl, ən üstün, ən birinci (və s.) olması barədə bircə kəlmə keçmir. O ki, qaldı təqvim kəlməsinə, bu kəlmə məkan, zaman və surətin vəhdəti kimi qəbul edilsə Quranın kosmik mahiyyət və məntiqinə daha uyğun olar.***

***"bizim üçün şeyə"** uyğundur. Vintgenişteynin anlayışlarına uyğunlaşdırsaq coğrafi mühit anlayışı yer maddəsinin, coğrafi landşaft da geolandşaftın linqvistik modelidir. Qrafiya(təsvir) sözünü hər hansı bir sözlə bahəm işlətmək kifayətdir ki, o söz sırf qnosioloji xarakter alsın. Təsvir idrak daxili prosesdir. Bu baxımdan geoqrafiya yer mühitinin orjinalının beynimizdəki modeli və ya kopyasıdır. Kopya və modellər də heç vaxt orjinalı tam əhatə edə bilmir. Anlayışlar subyekt-obyekt əlaqəsinin nəticəsi kimi ortaya çıxdığı üçün subyektin obyekti anlamada və ya anlatmaqda informasiya, işarə, obraz və simvol itkisinə yol verməsi qaçınılmazdır! Coğrafiyaçılara üzümü tutaraq deyirəm: siz çox yaxşı bilirsiz ki, **geo** planetimizin, yəni xüsusi vətənimizin adıdır. Qrafiya da təsvir etməkdən başqa mənaya gəlmir. Amma coğrafiya adlı elmin tədqiqat obyekti yeri təsvir etməyin sərdlərini çoxdan keçib. Əgər coğrafiyaşünaslar vətənimizin, evimizin problemlərini çözmək barədə düşünür və ya çözməyə çalışırlarsa özlərini elə geoqraf adlandırmaları kifayətdir. Çünki **eko** elə ən xüsusi mənada **geo** deməkdir və bu iki sözü bir-birinə calaq edib qafa qarışdırmaq lazım deyil! Əgər geoqraflar sadəcə fərqlənmək istəyirlərsə onlara bir termin hədiyyə edirəm ki, indiyəcən heç ağıllarına gəlməyib. Bu termin **ekoqrafiyadır**. Geoqrafiya və ya geolandşaftşünaslıq da Ekoqrafiyaya daxildir. Digər tərəfdən landşaft da maddə və mühit kimi informasiya daşıyıcısıdır. Ətrafımızda olan adamlar, heyvanlar, bitkilər, daşlar, çöllər, torpaqlar, ulduzlar, bir sözlə hər şey spesifik informasiya daşıyıcısıdır. Onları bizə təqdim edən isə landşaftdır. Çünki landşaft Humboltun da anladığı kimi bir növ mənzərədir. Rəngarənglik landşaftın mənasıdır. Landşaftın rəgarənglik dərəcəsi onun informasiyalılıq dərəcəsilə düz mütənasibdir. Rəngarənglik nə qədər çox olarsa landşaftın daşıdığı informasiyalar da bir o qədər çox olar. Vakuum istisna olmaqla maddənin digər aqreqat hallarında landşaftın rəngarəngliyi aydın görünür. Vakuumun isə rəngi yoxdur, çünki vakuumun özü və özülü də yoxdur. Vakuum yeganə sistemdir ki, mahiyyəti, forması, məzmunu, keyfiyyəti, bir sözlə hər şeyi yoxdur. Yalnız ruhi maddə halında olmaqla vakuumun rəngini təyin etmək olar ki, bu da bizim təcrübi biliyin sərhədlərindən kənara çıxır. Naşı və cahillər landşaftı coğrafi vahidlərdən biri hesab edirlər. Halbuki landşaft kosmik vahiddir. Başı boşlar həm də iddia edirlər ki,"**fasiya, mərz, məhəl, bunların arasında olan digər aralıq vahidlər də coğrafi vahiddir!"** Bu qafillər*

*naşılıqla yalnız geolandşaft elementlərini məkan forması hesab etməklə kifayətlənirlər. Biz coğrafi vahidlərin məkan forması olduğunu inkar etmirik, amma naşılıq edib məkan forması anlayışı kimi qlobal və kosmik anlayışa geosentrik məna verə bilmərik! Əslində onlar landşaftla geolandşaft arasında olan həm ideal, həm də real fərqi təyin edə bilmədiklərindən yanlış nəticə çıxarıblar. Əgər yalnız coğrafi vahidlər məkan formasıdırsa, onda coğrafiya, məkan və məkan forması nə deməkdir?! Ona qalsa bütün kainat, kosmik elementlər, bir sözlə hər şey varlıq olduğu üçün onları elə yalnız varlıq hesab etməklə də kifayətlənmək olardı! Sistemə sistem kimi yanaşılmırsa onda necə?! Landşaft yalnız landşaftşünasılıq və mühitşünasılığın vahididir. Landşaft morfosistem olduğu kimi, geolandşaft da geomorfosistemdir. Coğrafiyaşünasların fasiya, mərz, məhəl və landsaftı coğrafi vahid adlandırmalarında kateqoriyal və anlam yanılmaları var. Özlərini coğrafiyaçı və landşaftşünas hesab edənlər də bilir ki, fasiya ən azı qlobal miqyaslı məna daşıyan anlayışdır, ancaq ona da çox dar məna verilir. Əslində mənası üz, sifət demək olan fasiya termini kosmik mahiyyətə malık olub nəinki geolandşafta, ümumən landşaft anlayışına uyğundur. Sima, forma, fasiya və landşaft sinonimdir. Məhəl və mərz anlayışlarnıı isə hardasa qəbul edildiyi kimi qəbul etmək olar, amma bunlar da əsas etibarı ilə subyektivdir. Fasiya və landşaft terminlərini hökmən əsasılı, səhıh, dəqiq və saf terminlərlə əvəz etınəliyik! Biz fasiyanı elementar mikrogeofasiya və ya landşaftın nüvəsi, landşaftın özünü ısə (bir morfoloji vahid kimi) mikrogeofasiya adlandırmağı nəinki məsləhət və ya təklif edir, hətta ixtiyarsız olsaq da təkid edirik! Beləliklə, geolandşaft elementar mikrogeofasiya, mərz, məhəl, mikrogeofasiya adlandırılması zamanında və yerində olan hissələrdən ibarətdir. Əgər biz geolandşaftın növündən danışırıqsa onda nəzərə almalıyıq ki, bunun elementar mikrogeofasiya növü, mərz növü, məhəl növü, mikrogeofasiya növü kimi hissələri var. Əgər geolandşaft tipındən söhbət açırıqsa, bunun da müvafiq olaraq elementar mikrogeofasiya tipindən, mərz tipindən, məhəl tıpindən və nəhayət mikrogeofasiya tipindən ibarət olan hissələri olduğunu nəzərə almalıyıq.*

*Bütün vital və eksiztensial sistemlər ilk növbədə genetik varlıqdır, o cümlədən mühit və onun forması olan landşaft da. Ümumiyyətlə geni olmayan şey və ya proses yoxdur. Sadəcə geni məlum olan və*

*olmayanlar var.*[25] *Canlı olub olmadığı dəqiq məlum olmayan proses və şeylərdən fərqli olaraq, canlı maddə hər şeydən əvvəl və daha çox genetik tamlıqdır. Amma geolandşaft canlı maddədən əvvəl genetik məzmuna malik olduğunu biruzə verir, çünki o bir çox alimin iddia etdiyi kimi canlıdan asılı deyil. Canlı maddə olmasaydı da, biosistem, geosistem(geomühit) və həmçinin geolandşaft var olardı, lakin indikindən fərqli olaraq başqa cür. Geomühit və geolandşaft yalnız yer maddəsindən asılı olaraq mövcud olur. Canlı maddə və ya canlı mühit onun geomateriyanın çox kiçik bir hissəsidir. Bitki və heyvan orqanizimləri, torpaq, su, hava olmasa da geolandşaft mövcuddur. Lakin geolandşaft bu komponentlərsiz var ola bilmir. Çünki subyektin var olması və ən əsası düşünməsi üçün kifayət qədər vital komponentlər olmalıdır. Bu komponentlər(bitki, heyvan, süxur, torpaq, su, hava və s.) geolandşaftı zənginləşdirən komponentlər olsalar da, sovet coğrafiyaşünaslarının və onların varislərinin dirəndikləri kimi geolandşaftın əsası və özülü deyillər. Geolandşaft ən azı geomorfdur, relyefdir. Relyefin olmaması üçün şey olmamalıdır. Mövcud olan bir şey varsa deməli onun relyefi də var. Lakin canlı maddə və onu təmin edən elementlər təmasda olduqları şey və hadisələrin, o cümlədən geolandşaftın rəngarəngliyini, zənginliyini, keyfiyyətini artırırlar. Geolandşaftın əsası planetar özül – nüvə və mantiyadır. Bunlar isə yer landşaftını həm zənginləşdirir, həm də əsasını təşkil edirlər. Nüvə və mantiya vəhdətdə geoloji özülün əsasıdır. Geoloji özül geomaddənin həm substaratı, həm də ən azı fiziki substansiyasıdır. Geomateriyanın forması olan geolandşaft zamandan asılı olaraq dəyişə bilər, amma onun özülü, kökü canlı maddəyə məxsus zaman çərçivəsində dəyişmir. Başqa tərəfdən geoloji özüldəki dəyişkənlik intensivliyindən asılı olaraq geolandşaftda həm qısa, həm də uzun zamanlarda özünü biruzə verə bilər. Geolandşaftın dəyişməsi geomaddəyə heç bir köklü təsir göstərə bilmir və bilməz də. Belə olsaydı onda nəinki geogenezdə, bütün biogenezdə baş verən müəmmalı prosesləri asanlıqla izah etmək olardı. Geolandşaftın zamana görə dəyişməsi, relyefin, torpaq-bitki örtüyünün, zoogeosenozun, suyun, aerosistemin, və nəhayət antropogeosenozun*

[25] ***Anlayış və terminlər arasında da bic və ya bicbala olanları da var. Bəzən dilimizdə elə termin, ibarə və ifadələr olur ki, əslini, hardan gəldiyini bilmədən, araşdırmadan ümumişlək hala gətiririk. Bu da çox vaxt antiəxlaqi və bütvari xarakter daşıyır.***

*və ya bəşəriyyətin zamana görə dəyişmələrinin vəhdətinə və ya dinamiki cəminə uyğun və düz mütənasibdir. Geolandşaft və onun tərkibindəki komponentlərin dəyişmə, çevrilmə dinamizmini aşağıdakı düsturlarla vermək olar:*

*dGeolandşaft/dt=(↔)drelyef/dt+(↔)dtorpaqbitki/dt+(↔)dheyvanat/dt+(↔)dhidrosistem/dt+(↔)dhava/dt +↔dantropoetnos/dt*

*dCanlıMaddə/dt=(↔)dtorpaq-bitki/dt+(↔)dheyvanat/dt+(↔)dhidrosistem/dt+(↔)dhava/dt +↔dantropoetnos/dt*

*d(Geolandşaft)/dt =(↔) dcanlı maddə/dt +(↔) d(relyef)/dt*

*Burda d - dəyişmə, ↔ çevrilmə işarəsi olub dönər çevrilmə və dəyişmə prosesinin rəmzidir. Belə ki, məsələn, bitki və heyvan orqanizmləri ölür və çürüyüb torpağın münbitliyinin artmasına səbəb olur, yəni bu zaman torpağın tərkibindəki canlı maddənin əsasını təşkil edən kimyəvi və ya geokimyəvi elementlərin miqdarı artır! Torpağın münbitliyinin artması da öz növbəsində bitki örtüyünün normal inkişaf etməsinə şərait yaradır. Bitki örtüyünün normal inkişafı da heyvanların normal inkişafı deməkdir. Əlbəttə, əgər antropogen effekflər olmasa bütün bunlar kamil proses kimi tamamlanar! Canlı maddə və yaxud torpaq örtüyünün konkret bir əraziyə məxsus olan hissəsi tektonik proseslər(məsələn, zəlzələ) nəticəsində yerin dərinliklərinə düşüb orada tempratur və təzyiqin təsirindən bir formadan başqa bir formaya keçə bilər və yaxud yerin dərinliklərindən səthinə çıxan maqma müəyyən müddətdən sonra kifayət qədər soyuyarsa, donmuş (bərkimiş) maqmanın üzərində torpaq qatının yarana bilməsi üçün imkan yaranır. Biz etiraf etməyə həm məcbur, həm də borcluyuq ki, geolandşaft yaradıcı komponentlər litomateriya və relyefdirsə, geolandşaftı zənginləşdirən komponentlər hava, su, torpaq-bitki örtüyü, heyvanlar və fövqəlinsanlardırsa, onda coğrafi landşaftı dağıdan (parçalayan), yəni öz təbii görünüşündən məhrum edən komponent(əgər buna komponent demək mümkünsə!) də vardır. Bu, insan adlanır! Geolandşaft olmasaydı geoloji maddə, landşaft da olmasaydı materiya tez bir zamanda məhv olardı. Düzdür, belə bir halın yaranması real deyil, amma əgər belə bir hadisə meydana çıxsa, bu yalnız insanın* ***"xidməti", "qəhrəmalığı","əşrəfliyi"*** *sayəsində mümkün olacaq! Dərimiz olmasa*

*neynərik!?! Geolandşaft canlının üzərindəki dəri kimi qoruyucu və tənzimləyici funksiya və informasiya daşıyıcısıdır. Əlavə edək ki, Geolandşaft (ümumiyyətlə, landşaft) təkcə relyefın mövcudluğu ilə var ola bilirsə də, başqa təbii-tarixi komponentlərin mövcud olması (məsələn, torpaq, hava, su, bitki və s.) ona rangarəng informasiya kimi baxmağa əsas verir. Buna görə də geolandşaftı yalnız relyef kimi təsvir etmək, torpağın, bitkilərin, heyvanlann varlığını nəzərə almamaqla dəyərli elmi nəticələr əldə etmək olmaz! Nə qədər ki, torpaq, bitki örtüyii, heyvanlar, su və başqa fıziki-geoloji komponentlər mövcuddur, biz nəinki geomühit barədə, hətta geolandşaft haqqında da ixtiyari kiçik bir sözdə onların varlığını mütləq nəzərə almalıyıq. İndiyə qədərki təbiətşünasların əsas xətası ondan ibarətdir ki, onlar canlı maddəni geosistemə atribut sayıblar. Böyük sələfimiz Vernadski də eyni səhvi bir-neçə yerdə müxtəlif formalarda təkrarlamışdır. Halbuki yerin siması və ya forması, yaxud geolandşaft canlı struktur olmasa da mövcud ola bilər. Təkcə relyefin varlığı kifayət edir ki, yerin siması və ya geolandşaft müəyyən struktura malik olsun. Relyefin üzərində geolandşaft zənginləşdirən ünsürlərin formalaşması isə yerin dissipativ strukturunu formalaşdırır. Daim formal olaraq təzələnən geosistemin hər hansı bir hissəsi isə zahirən invariantlıqdan məhrumdur. Geokompleksın strukturu, substratı olan geomaddə Riman həndəsəsi baxımdan, simmetriya dərəcəsi ən çox olan ellipsoidin təbii-tarixı modelidir və ya geoiddir. Burası məlumdur ki, yerşünaslar ən yaxşı halda mexanika və ya Nyuton qanunları əsasında fıkir yürüdürlər. Yerşünaslıqda Eynişteynin məkan-zaman konsepsiyasına əsaslanaraq yer, onun ekoloji və xronoloji spesifikası haqqında ideya, fikir və mülahizələr özünü qətiyyən biruzə vermir. Məhz Eynişteynin məkan-zaman konsepsiyası çərçivəsində geosistem qanunlarının mahiyyətinə varmaq vaxtı gəlib çatmışdır. Eynişteyn də Vernadski kimi siyasətdə kütbeyin olsa da, təbiətşünaslıqda da Vernadski kimi elə böyük qüvvənin sahibidir ki, onun bu sahədə olan ixtıyari ideyası "**tupoy**" zak, kobuşkun, mostepanenkoların bütün külliyyatına dəyər! Və buna görə də Albert bəyin nisbilik nəzəriyyəsindəki fıkirlərinə istinad etmək təbiətşünaslara, xüsusi ilə coğrafıyaşünaslara daha çox vacibdir. Çünki orjinal yəhudi Albert bəy babat xristian İsaak bəylə müqayisədə kosmik, həm də geosistem qüvvələrin təsirini daha az ixtisar edir. Əlbəttə, ixtisar etmək hər bir normal alimin işində rahatlıq yaradır,*

*amma BÖYÜKLÜK xırdalıqları(incəlikləri) nəzərdən qaçırmamaqdır. Beləliklə, istər geolandşaftın, istərsə də geomühitin fəaliyyət dinamikasına dərindən bələd olmaq üçün uyğun olaraq geomaddənin xarici və daxili quruluşunun nisbi invariant məkan-zamanla bahəm, mütləq invariant məkan-zamanın daxilində, canlı məkan-zamandan xaricdə mövcud olduğunu nəzərə almaq lazımdır. Əgər nəzərə alınsa, bu artıq yer haqqında yeni nəzəriyyənin yaranması deməkdir. Relyef yer kürəsinin forması, canlı maddə isə dəyəri və mənası olduğundan geodinamika məhz bu iki təbii-tarixi ekosistemin varlığı ilə təzahür edir. Geodinamikanı əmələ gətirən yerin nüvəsi, mantiya və yer qabığı olsa da, geodinamika relyef və canlı maddə vasitəsi ilə kosmosla normal əlaqə yarada bilmək imkanma malikdir. Bu normal və vacib əlaqənin yaranmasına böyük maneçilik törətmək imkanına malik olan yeganə faktor isə vırus maddə - insandır! Yalnız insan kosmos və xüsusilə yerdə təbii tarazlığı, həmçinin dissipativ strukturu dağıtmaga cəhd edir və çox nadir hallarda buna nail ola bilmir! Geolandşaftın malik olduğu xalis informasiyanı təhrif edib strukturunu pozaraq xaotik formada kosmosa yayılmasına bais olan və nəticədə əks əlaqə ilə kosmosdan da yerə yalan və təhrif edilmiş və ya poetik bənzətmələrlə əsl mənası gizlədilmiş dezinformasiyaların göndərilməsinin səbəbkarı olan insan geomühiti sistemli deqradasiyaya uğradır! Amma insanların çoxu deqradasiyanı qradasiya zənn edir! Bu da geosistemin tam, qlobal eroziyaya uğrayacağına gətirib çıxaracaq! Canlı maddədən məhrum ölməsı yeri absurd bütövlüyə bənzədərdi. Təəssüf ki, elə bu günümüz bu katastrofun yaxın zamanlarda,- ən uzağı min ilə,- baş verəcəyni söyləməyə əsas verır! Başqa sözlə min ildən sonra bu bəşəriyyətdən əsər-əlamət olmayacaqdır. Əgər haçansa antropogen faktorun* ***"şücaəti"***, ***"humanizmi"*** *nəticəsində relyefdən başqa bütün geoloji komponentlər təzahür etməkdən məhrum olsalar, bu an və bu yerdə-geolandşaft yalnız relyeflə təsvir edilməli olacaq(məsələn, mars və aydakı kimi). Bu baxımdan, geolandşaftın yaşı heç də bəzi* ***"dahi"****lərin hesab etdiyi kimi, arxey və ya protorezoy erasından, yaxud da son buzlaşma dövründən hesablanmamalıdır. Geolandşaft yerin formal bütövlüyüdür və bu proses nə vaxt başlayıbsa, onun yaşını da həmin vaxtdan hesablamaq lazımdır. Dəyişikliklər isə tamam başqa şeydir. Geomateriyanın çoxlu forması var ki, bu formalar da özündə bir-çox formaları ehtiva edir. Bu formaların ən çox deyişkənliyə uğrayan və*

*uğradanı şübhəsiz ki, insan cəmiyyətidir. Ən gec dəyişən geoforma isə relyefdir. Təbii ki, geolandşaftın komponentlərini dəyışkənliyə uğrama dərəcələrinə uyğun olaraq nizamlayıb coğrafi dəyişkənlik və çevrilmə iyerarxiyasını qurmaq olar, məsələn, relyefdən sonra ən gec dəyişikliyə uğrayan geolandşaft yaradıct fon və ya faktor torpaq-bitki örtüyüdür, sonra heyvanlar aləmi və ya zoogeosenoz, bundan sonra hidrogeosenoz, bundan sonra isə aerogeosenoz (yerin hava təbəqəsi) və nəhayət virusların yaranmasına bais olan antropogeosenoz ən axırıncı pillənin sakinidir! Qeyd edək ki, XX əsrə qədər geolandşaftın ən tez dəyişən komponenti mənim aerosfer*[26] *adlandırdığım hava təbəqəsi idi, lakin, hətta dəyişkənliyinə görə su təbəqəsindən də geri qalan insan cəmiyyəti bir əsrdən də az müddətə geoforma dəyişkənliyi iyerarxıyasında ən çox dəyişən və dəyişdirən fon və faktor kimi çıxış edib liderliyi ələ aldı!. Bunun son aqibəti çox pis olacaq! Geolandşaft insan cəmiyyəti mövcud olana qədər inkişaf edib, amma insanın spesifik mühiti mövcud olandan sonra geolandşaftın fəalıyyətində reqres baş verib, verir və bundan sonra da verəcək. Geolandşaft reqressə məhkum edilibsə, deməli geomaddə və geomühit tənəzzül edir. Bu isə canlı maddənin də tənəzzülü deməkdir. Geolandşaft ən azı dağlıq və ya düzənlik, dağarası və ya dağdaxili çökəkliklərdən, tam halda isə müvafiq olaraq bunların hər birinin üzərindəki, - əgər mövcuddursa, - meşə, çəmən, göl, çay və başqa landşaft zənginləşdirici komponentlərdən ibarətdir. Landşaft da artıq ifadə etdiyim kimi sadəcə forma deyil, tam və dinamiki formadır. Landşaft təkcə bütöv halda deyil, elementar hissələri də funksional və dinamiki formadır. Məsələn, hər bir mərz və mikrofasiya uyğun olaraq mezorelyef mezoinformasiya və mikrorelyef mikroinformasiya xarakterlidir. Geolandşaft landşaftın çox kiçik bir hissəsi olsa da, hər halda ən çox təmasda olduğumuz, ətraf mühit formasıdır. Buna görə də qətiyyətlə demək olar ki, coğrafı landşaftı öyrənmədən landşaftın,*

---

[26]***Atmos buxardan başqa mənaya malik olmadığı halda həm geoqraflar, həm də digər elm adamları atmosfer adı altında bütün hava təbəqəsini nəzərdə tuturlar. Halbuki atmos ən çoxu iki elementin (H və O) birləşməsindən yaranıb. Halbuki havanın tərkibində çoxlu element var. Hava təbəqəsini atmosfer kimi olduqca dar mənalı sözlə ifadə etmək özünü gizlətməyi bacarmış savadsızlıqdan xəbər verir. Əgər «möhtərəmlər» sekulyar və ya beynəlxalq termin axtarırlarsa, burda çətin bir şey yoxdur. Hava təbəqəsinə hərfən uyğun gələn söz var. Aero elə hava deməkdir. Atmosfer adlandırılan sistem əslində aerosferdir. Biz söz və terminin orjinalına sadiqlik prinsipini nümayiş etdirərək indiyədək elm aləminə tanış olmayan yeni yanaşma üsuluna meyl etdik.***

*coğrafı tamı öyrənmədən tamın, coğrafı kompleksi öyrənmədən kompleksin; coğrafı mühiti öyrənmədən də mühitin mahiyyətinə varmaq mümkün deyil. Başqa sözlə əlifbanı öyrənmədən, kitab oxumaq olmaz. Eyni zamanda qeyd elməliyik ki, bu "**əlifbanın**" ilk, öyrənilәsi, "**hərfi**" mikrofasiyadtr, sonra mikrofasiyalar sistemi olan mərz gəlir. Geolandşaft geozonallıq qanunauyğunluğuna tabedir və bunun nəticəsində rəngarəng və müxtəlif surətlərə malik olmuşdur. Lakin əksər landşaftşünaslar tərəfindən, xüsusi ilə **rus-sovet coğrafiyaçılarının** təmtəraqla "**azonallıq**" kimi uydurma termini işə salmaq cəhdləri onların, təbiətin dərkində dar düşüncəli, sözlərlə oynamağı sevən içiboş mühakiməçi olduqlarını bir daha göstərir. Bunu sübut etmək üçün təkcə bunu demək kifayətdir ki, "**azonallıq**" zonallığın nadir və lokal formasıdır. Biz geozonallıq dedikdə sözsüz ki, təbii zonallığı nəzərdə tuturuq və bura geointrozonalığın (yerin daxili zonallığınm) əsası olan vulkanik və tektonik zonallığı da aid edirik. Ümumiyyətlə, bu qanunun geoekosistemin formalaşmasındakı rolu əvəz edilməzdir. Bu qanunauyğunluğun "**pozulması**" isə, onun bır formadan başqa bir formaya keçməçi deməkdir. Yəni, azonal deyilən şey başqa cür zonallıqdır, bizim zonallıq hesab etdiyimiz prosesin əksi, yaxud yoxluğu deyil. Yer üzünün landşaftı, yəni geolandşaft geozonallığın təsirilə müxtəlif kəmiyyət və keyfiyyət göstəricilərinə malik olur. Səhra, yarımsəhra, quru-çöl, meşə-çöl, meşə-çəmən, dağ-meşə və digər geolandşaft növləri məhz bu prosesin nəticəsidir. Zonallıq yalnız yer mühitinə aid qanunauyğunluq deyil. Landşaftın hər bir növü spesifik zonallığa malikdir. Məsələn, psixozonallığın təsirilə müxtəlif psixi landşaftlar, ekozonallığın təsirilə rəngarəng məkan landşaftları, xronozonallığın təsirilə də təkrarsız zaman landşaftları törəyir. Həmçinin məlumdur ki, geosistemdə zonalıq iki cür olur: üfüqi və şaquli. Amma unutınaq olmaz ki, dinamiki və funksional maddəni formalaşdıran proses dinamiki və funksional olmaya bilməz. Belə ki, üfüqi və şaquli ifadələri şərti olub, bir növ eyni şey, hadisə və hərəkətə şamil edilə bilər. Yəni, üfüqi zonallıq bir növ şaquli, şaquli zonallıq da bir növ üfüqi zonallıqdır. Yeri gəlmişkən deyək ki, üfüqi zonallığı enlik, şaquli zonallığı da hündürlük zonallığı ilə eyniləşdirmək də səhv nöqteyi-nəzər olub, geniş magistral yolu dalana bənzətmək kimi bir şeydir. Üfüqi zonallıq, əsas etibarı ilə, uzunluq və enlik zonallıqından, qismən də hündürlük və dərinlik zonallığından və ya introzonallıqdan, şaquli zonallıq isə*

*əsas etibarı ilə hündürlük və dərinlik zonallığından, qismən də uzunluq və enlik zonallığından ibarətdir. Yəni, üfüqi və şaquli proseslər vəhdətdədir, onlan bir-birindən ayrı təsəvvür etmək belə absurddur, nəinki real üfüqi və ya şaquli zonal bütövlükdən söhbət açmaq. Məsələn, hər hansı bir ərazinin törəmə landşaft komponentlərinin müəyyən struktura malik olmasında zonallığın hər dörd aspekti bu və ya digər əhəmiyyətə malikdir. Bu aspektlərin hər hansı birinin əhəmiyyəti, rolu çox və ya az ola bilər, amma nə həddindən artıq çox, nə də olmaya bilməz. Amma qeyd etmək lazımdır ki, geolandşaftın formalaşmasında şaquli zonallığın təsiri daha böyük və daha sürəklidir. Bunu sübut etmək üçün deyə bilərik ki, ekvatordan qütblərə qədər məsafə təxminən 10000 km-ə yaxındır, amma introzonallığı nəzərə almasaq, şaquli zonallığın təsir məsafəsi, yerin mərkəzindən ən uca dağ zirvəsinə qədərdir ki, bu da 10 km dən çox deyil. Bu da onu göstərir ki, şaquli zonallıq coğrafi məkan-zaman sistemində çox kiçik mühitə malik olmasına baxmayaraq, təsir etmə qabiliyyətinə görə üfüqi zonallıqdan dəfələrlə güclüdür.*[27]*Geosistemin formalaşmasına coğrafı enliklər üzrə nəzər salsaq, şaquli zonallığın təsirini nəzərə almasaq, çox uzun məsafələrdə, ən azı regional miqyasda kəskin təbii-tarixi dəyişikliklərin baş verdiyini görərik. Amma dağlıq ərazilərdə təbii-tarixi komplekslər arasındakı təbii-tarixi fərqlər lokal miqyaslarda müşahidə olunur. Bu da, bir daha geomühitin formalaşmasında şaquli zonallığın çox böyük rol oynadığını göstərir. Beləliklə, geozonallıq dəyərli təbii qanunauyğunluq kimi yerin simasına təsir edib ona dinamiki, funksional və mexaniki, həmçinin elektromaqnit struktur bəxş edir. Bu isə geoloji tamın, - insan sivilizasiyasmın təsiri nəzərə alınmazsa, - təbii-ekoloji baxımdan normal inkişafı deməkdir. Geoloji tam normal inkişaf edərsə, geokompleks də normal inkişaf edər və geoloji maddə nəinki tektonik-vulkanik proseslərə, hətta antropogen modifikasiya və effektlərə qarşı da çox davamlı olar. Lakin çox kədərləndiricidir ki, insan faktoru, insanın texnosivilizasiya xəstəliyi geoloji maddəni yalnız formal dəyişkənliyə məhkum etmir, modern insan öz xəstə təxəyyülü ilə getdikcə çalışır ki, ən azından yerin üzərində tam hakim olsun və nəticədə onun mahiyyətinə müdaxilə edə bilsin! XX-ci əsrdə*

[27]***Bizim təqribi hesablamalarımıza görə şaquli zonallığın yer maddəsinin formalaşmasına təsiri, üfüqi zonallığın göstərdiyi təsirdən ən azı*** $10^3$ ***dəfə çoxdur.***

*geomühitdə zonallığın yeni növü antropozonallıq əmələ gəlmişdir ki, bunu başqa cür sivilizasiya zonalığı, yaxud da texnozonallıq adlandırmaq olar. Zonalığın bu növünün təbii əsası ilə əsla uyğunluğu yoxdur. Yerin təbii zonallığı onu təbii ekosistem və təbii psixosistem kimi formalaşdırırsa, antropozonallıq və ya insanın təsərrüfat və texniki fəaliyyəti ən azı təbii coğrafı landşaftı təbiilikdən məhrum edir. Bu, yerin təkinə vurulan ən böyük zərbədir. Geogenez fəaliyyətdə olandan bəri geozonallıq da fəaliyyətdədir, lakin geogenez antropogenezlə, geozonallıq isə antropozonalıqla reqressə məhkum edilir. Nəticədə kosmik zonalıq dəyərdən məhrum olmaq təhlükəsi ilə üzləşir və geoloji mühitə yardım edə bilmir. Geozonallıq kosmik zonallığın zəruri və qanunauyğun parçasıdır. Amma antropozonalıq tamamı ilə artıq, virus axını, heç bir dəyəri olmayan yalançı və dağıdıcı effektlər yığınıdır. Geoloji maddəni adama bənzətsək, geolandşaft olur adamın dərisi, antropozonalıq isə ən azı qotur xəstəliyi kimi olur!*

*Bütün bu məsələləri coğrafiya və landşaftşünasılıq elmləri araşdırır, amma aydınlaşdıraq ki, landşaftşünaslıq heç də coğrafıyanın və ya fiziki-çoğrafıyanın hissəsi deyil, yaxud da landşaft fıziki-coğrafiyanın tədqiqat obyekti deyil. Fiziki-coğrafiyanın, ümumiyyətlə coğrafiyanın kompleks halda iki tədqiqat obyekti var: geomaddə və geolandşaft. Landşaft isə yalnız landşaftşünasılığın tədqiqat obyektidir ki, bu elm də kosmik morfologiya və formalogiyadır. Bunu deməkdə məqsədimiz qriqoriyev və ya kalesniklərin, yaxud da gerasimovların dar və dayaz düşüncələrini bir daha göstərmək, bizim alimlərin də* ***"slavyanofillik"*** *xəstəliyindən qurtara bıləcəklərinə ümid etdiyimizi biruzə vermək istəyindəndir! Landşaftşünasılıq, ekologiya, habelə ekoqrafıya, xronoqrafiya və başqa neçə-neçə elmlər var ki, mühitşünasılığın tərkib hissələridir, lakin landşaftşünaslıq mühitşünasılığın ikinci ən böyük hissəsidir. Coğrafı landşaft isə əsas etibarı ilə coğrafiyada, landşaft isə qlobal miqyasda landşaftsünasılıqda öyrənilməlidir. Landşaftşünaslığın tədqiqat obyektinə planetar landşaftlar, ulduz landşaftları və hətta qalaktik landşaftlar da daxildir. Bunlar eyni zamanda Mühitşünaslığın tərkib hissəsidir. Təəssüf ki, bizim bu elmi arzu və istəklərimiz bir müddət "**dahilər”** və **“korifeylər”** tərəfindən dondurulacaq!*

## *$1.4.Etnosların formalaşmasında ətraf mühitin təsiri və rolu*

***"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq, sonra sizi xalqlara və qəbilələrə ayırdıq ki, bir-birinizi tanıyasız!"***
***(Quran, 49,13)***

*Ətraf mühitin həm fərdin, həm də kollektivin xarakterini nəinki formalaşdırması, ona mahiyyət verməsi, mahiyyətləşdirməsi, hətta bəzən onun mahiyyəti kimi təzahür etməsi məsələsi alimlərin də çoxuna qaranlıq qalmış məsələlərdəndir. Indiyədək bu məsələylə bağlı bir-çox araşdırmalarım olub və bu araşdırmalar sonda məni bu barədə də söz söyləməyə istiqamətləndirdi. Istər yer üzündə, istərsə də bütün kainatda mövcud olan hər bir şey müəyyən və ya qeyri-müəyyən spesifik xarakterə malikdir. Şeyin və ya şeylər komleksinin xarakterini mühit formalaşdırır. Mühit şeylərə bundan da artıq təsir edə bilir. Xarakter və ya xassəyə malik olmayan heç bir şey yoxdur. Xarakter şeyin atributudur. Xarakter olmasa substansiya da olmaz. Lakin bizim təcrübədə xarakter dedikdə daha çox insan xarakteri, onun genetik, psixi və sosial-ekoloji hal və vəziyyəti başa düşülür. Buna görə burda daha çox geomorfoloji mühitin antroposistemə və ya antropoetnosa etdiyi rəngarəng və çox tərəfli təsirlərindən yola çıxaraq məsələni şərh etməyə çalışacam.*

*Hər bir etnos ətraf mühitin əsas meyarı kımi çıxış edə bilir. Hər hansı bir ərazinin geoekoloji şəraitinə nəzər salmaqla həmin ərazidə formalaşan etnosun xarakterini müəyyən etmək olar. Və əksinə hər hansı bir etnosun xarakterini analiz etsək, onun genfondunun hansı geolandşaftın məhsulu olduğunu təyin etmək çətin olmaz. Geoekoloji mühit və ya yerin xronoekoloji şəraiti yerin bütün məxluqlarını, o cümlədən insanları da formalaşdıır. Lakin insan digər canlılardan fərqli olaraq ətraf mühitə adaptasiya olarkən sözün hər mənasında* **"maskirovka"** *olur! Yaşayış uğrunda mübarizədən qalib olmasa belə heç olmasa normal çıxmaq üçün insanın əsas imkanı bundan ibarətdir! Maskirovka olmaqla ömür sürən insan, cürbəcür yollarla maskirovka olur ki, bu yollardan biri, bəlkə də ən birincisi və ən elverişlisi etnos yaratmasıdır. Etnos termini də məntiq müharibəsində işlədilən silalılardan biri olub bizim dildə xalq, tayfa deməkdir, lakin başqa bir yerdə söylədiyimiz kimi yalnız insanların birliyinə aid deyil, bütün canlı növlər, canlı maddə, ümumiyyətlə bütün kosmos, - planetlər, ulduzlar, qalaktikalar, meteoritlər və digərləri, - bütün*

*varlıq növləri etnos əmələ gətirə bilir. Amma təəssüfləndiricidir ki, sözün əsas mənasında kompleks və mühit olan etnosu, biz burda qəbul edilmiş variantda işlətməyə məcburuq! Amma hər bir və hər cür canlı, cansız və neytral növlər etnos və ya populyasiya təsbit edə bilir. Əfsus ki, bir çox anlayışlar kimi etnos da yalnız insanla, onun əməl sferası ilə əlaqədar söz kimi ən geniş mənada eyni xarakterə, genfonduna, temperamentə, irqə, ənənəyə, duyğu spesifikasına, habelə eyni siyasi və iqtisadi rejimə malik olan insan fərdlərinin məcmusu kimi qəbul edilmişdir. Lakin bu baxışın heç bir teoloji və kosmoloji əsası yoxdur. Əksinə teoloji və kosmoloji baxımdan etnos yalnız insanların qruplar halında, sadaladığımız faktorlar əsasında əmələ gətirdiyi tamlıq deyil, o bütün canlı, hətta cansız hesab edilən məxluqlara şamil edilə bilər və edilməlidir! Quranda deyilir: "'**Yerdən çıxan heç bir həşarat, qanadları ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər oldmasın. Biz kitabda heç nəyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna cəm ediləcəklər!"(Ənam, 38)** Ayədəki **"dəəbbətil fil ardi!"** kəlməsi ilk baxışda yerdə gəzən və ya yerdən çıxan, yaxud da torpaqdan qurdalanan anlamındadır. **Dəəbbə** kəlməsini ən dar mənada həşarat kimi tərcümə etmək lazımdır. Səba surəsinin 14-cü ayəsi də mənim fikrimin həqiqiliyinə dəlildir. Lakin bu kəlmənin canlı və daha geniş mənaya malik olması istisna edilməməlidir. Lakin qeyd etmək vacibdir ki, **ard** kəlməsi Quranda məkan, yertutumu və ya sığınılan yer anlayışına sinonim kimi də işlənilsə də, **ard** kəlməsinin ən mükəmməl sinonimi **eko** kəlməsidir. **Uməmun** kəlməsi də qrup, birlik, kollektiv, daha dəqiqi xalq və ya etnos mənasını verir. Bu baxımdan bu ayə ən azı insandan başqa digər canlıların da etnosa(ümmətə) malik olduğuna dəlildir. Təkcə elə bu ayədən görünür ki, ən azı heyvan növləri özünəməxsus etnos yarada blirlər. Elmi ədəbiyyatlarda heyvan və hətta bitki populyasiyalarının varlığından bəhs edilir, lakin təəsüf ki, mənası xalq və ya toplum demək olan populyasiya termini də çox əcaib, yalnız heyvanlara aid mənada qəbul edilir. Çünki özlərini digər canlılardan üstün görənlər onların da etnosa malik olmasını həzm edə bilmirlər və populyasiya deyib keçirlər. Bu halda bütün diskret şeylərin etnosundan söhbət gedə bilər. Ümumiyyətlə, millət, ümmət və xalq anlayışları bütün mövcud növlərin uyğun olaraq ideoloji və genetik tamlığını ifadə edir. Məsələn, şirlərin də öz xalqı var, qarışqaların da, qartalların da, bizim də. Özlərinin bioloq olduğunu zənn və ya iddia edən*

*canlışünasların qəbul etdiyi növ anlayışı ümmət sözünə tam uyğundur, populyasiya anlayışı isə xalq anlayışına mütabiqdir. Populyasiya daxilində nəhəng sürülər tayfaya, kiçik sürülər qəbiləyə, ayrı-ayrı cütlüklər də ailəyə uyğun gəlir. Lakin, özünü heç bir əsası olmadan "**təbiətin əşrəfi**", "**ali məxluq**", "**yeganə şüurlu**" və başqa təmtaraqlı və təkamülçü ifadələrlə qiymətləndirən lovğa, təkəbbürlü, nadan, cahil və zəif məxluq insan bu həqiqəti kor-koranə danır! Halbuki etnos bütün canlı növlərin həyati və xarakterik birliyidir, yalnız insan quruplarına aid edilən tamlıq deyil. Təkamülçü və ya modernist şarlatanlar təkcə etnos anlayışını deyil, mədəniyyət, siyasət, fəlsəfə, iman, bir sözlə hər şeyi antroposentrist ruhda təqdim və təbliğ edirlər. Xüsusilə insanı mədəniyyət və sivilizasiya qurucusu sayıb digər canlıları bundan məhrum saymaqdan vandal və sərsəm görüş çətin tapılar! Həmnövlərim! Gəlin bizdən təbiətən fərqlənən, bizim kimi aqressiv davranmayan, bir sözlə "**mən**"ən bizə oxşamayan canlı, cansız və neytral məxluqlara təkəbbür göstərib yuxarıdan aşağı baxdığımız kimi baxmayaq! Axı, təbiətə və təbiiliyə bizdən dəfələrlə yaxın olan varlıqlara qarşı bu cür münasibət göstərmək heç olmasa-olmasa axmaqlıq və alçaqlıqdır! Əslində onların bizə bu sayaq münasibət göstərməyə, bizi saymamağa, alçaltmağa tam haqqları var, lakin onların natural və orjinal təbiəti və mədəniyyəti hara, bizim "**mədəniyyət**" hara?! Bizim mədəniyyətimiz nə dərəcədə antitəbiidirsə, digər canlıların mədəniyyəti o dərəcədə təbiidir. Bəyəm bəzəkli **geyimlər** geymək, ləziz xörəklər yemək, maşın sürmək, yaxud atom-nüvə-neytron bombası düzəltmək mədəniyyətdir?! Bunlar sadəcə olaraq insan düşüklüyü və yırtıcılığının sivillik və elmi-texniki tərəqqi adında təqdim, təlqin və təbliğ olunmasıdır. Əslində tərəqqi, inkişaf, texnosfer, svilizasiya və digər şey və prosesləri yüksək və ali hesab etmək bizim subyektib uydurmalarımızdır. Təbiət qatında bunların həqiqətən də ali proses olduğunu kim əsaslandıra və ya isbat edə bilər?! Günəş şüası, çiçəyin rahiyəsi, vulkanın püskürməsi, qartalın göydə süzməsi, canavarın ulaması, ilanın fısıltısı, itin hürnəsi, arının vızıltısı, pişiyin miyoltusu, dağların qırışıqları, eşşəyin anqırtısı, qoyunun mələməsi, şirin nərəsi, bülbülün cəh-cəhi, yarpağın xışıltısı və digər təbii elementlərdən hansı biri mədəniyyət deyil?! Bəli, bütün bunlar özünəməxsus mədəni xüsusiyyət, mədəni əlamət və mədəni keyfiyyətlərdir! Lakin bu həqiqəti sərsəm darvinist, boşboğaz marksist, yaxud lovğa dialektık materialist təbii ki, böyük bir*

*həyasızlıqla təkzib edəcək! Təfəkkür sahibi başqa bir şeydir, təkəbbür sahıbi başqa bir şey! Amma etiraf etməyə məcburuq ki, insanlann yaratdığı etnos və mədəniyyət ən azından yer üzündə başqa növlərin yaratdığı etnos və populyasiyalardan parlaq, mədəniyyətlərdən rəngarəng, möhkəm, dözümlü və tez uyğunlaşandır. İnsan etnos və sivilizasiyası, sivilizasiya və etnoslar içində sözün çox mənasında fenomendir. Lakin insanın yer üzündəki cinayətləri bu fenomenin orjinal dəyərini heçə endirib. Etnos əvvəlcə ailə (mikroetnos), sonra qəbilə (mezoetnos), bundan sonra tayfa (makroetnos), daha sonra xalq (meqaetnos) formasına zühur edir. Metaetnos olan millət isə etnogenezin inkişafının kuliminasiya nöqtəsidir. Etnogenezi fıtogenezə bənzətsək, millətin əmələ gəlməsini də çiçəklənməyə bənzətməliyik. Hər bir ağac çiçəklənmək imkanına sahibdir. Sadəcə bunun üçün normal tempratur, normal lendohidroloji şərait tələb olunur. Etnosun çiçəklənməsi üçünsə normal mənəvi tempratur və şəraitin olması lazımdır. Çiçəklənməyən bitkilərin çiçəklənənlərin yanında dəyəri nədirsə, millət olmayan, yaxud milliliyini itirən xalqların da digər millətlərin yanında dəyəri odur. Əfsus ki, xalqımızı çiçəklənənlər sırasında görmürük! Millət o xalqa deyilir kı, spesifik ideya və təbiətə, müstəqil dövlətə, toxunulmaz ərazi bütövlüyünə, qeyrətli, namuslu və imanlı vətəndaşların bolluğuna, inkişaf etmiş siyasi-iqtisadi sistemə malik olsun. Bunlardan birinin olmaması kifayətdir ki, etnos millət əvəzinə kütlə olsun! Millət sözünün orjinal anlamı insan kompleksi ilə bağlı deyil. Millət eyni ideya, din və əqidəyə malik olanların sistemidir. Bu kəlmənin kosmik əsası belədir. Ratsel deyir ki, "**millət çoxmillətli isə bu halda mılliliкdən heç danışmağa dəyməz, yalnız dil və rəngdən sdhbət gedə bılər. Millət deyəndə adətən dil fərqi nəzərdə tutulur, lakin bu çox qeyri-kamil və aldadıcı əlamətdir, hər halda milləti müəyyən etmək üçün bu əlamət qətiyyən kifayət deyil. Baron Kotvonun müəyyən etdiyi kimi millət daha çox hissi anlayışdır!”** Lakin Ratselin çıxardığı nəticə kimi hissiyyat da milləti müəyyən edən əsas amil və ya əlamət ola bilməz. Vodovozov kimi bir-çox etnoloqlar hesab edirlər ki, **"xalq dövlət hüququna aid termindir, millət isə etnoqrafık termindir"** Amma xalq terminində nə dövlətə, nə də dövlətin hüququna aid olan bircə hərf də yoxdur. Buna görə də belə bəsit nəticəyə gəlmək lüzumu varmı? Bəyəm Vodovozov görmür ki,*

*etnos termininin ən böyük və ən dəqiq mənası xalq deməkdir? Belə olan təqdirdə xalq anlayışını etnoqrafik, yaxud da etnologiyaya*[28] *aid olmayan bir söz hesab eləmək, özünü etnoloq, tarixçi, alim hesab edənə yaraşarmı?! Vodovozov deyir ki, almanlar* ***"xalq"(volk)*** *sözü ilə almaniyanın bütün vətəndaşlarını nəzərdə tuturlar, amma dünya almanlarını yox. Lakin Vodovozov unudur ki, almanların heç də hamısı belə düşünmür. Alman etnosunun başbilənləri öz dövlətlərinin ərazisində rəsmən qeydiyyatda olan bütün əcnəbiləri öz xalqının bir hissəsi kimi qəbul edə bilər və o əcnəbilər də özlərini çəkinmədən alman kimi hiss edə bilərlər, amma bunun məsələnin mahiyyətinə nə dəxli?! Bəyəm hansısa dövlətin qanunu təbii qanunları əvəz edə bilərmi!?! Hissə gəlikdə isə təkcə bunu demək kifayətdir ki, mən də özümü ayda və ya günəşdə hiss edə bilərəm, halbuki mən yerdəyəm! Ümumiyyətlə etnoloq və etnoqrafların xalq və millətə verdikləri təriflərin çoxu alayarımçıqdır. Xalq əsas etibarı ilə fiziki, millət isə psixi anlayışdır. Psixi dedikdə mən bura ideya, əqidə və bütün digər mənəvi parametrləri də aid edirəm ki, Ratselin üzərində durduğu hissilik də bunun içindədir. Etnoloq, etnoqraf və etnosofların xalq haqqındakı fikir və mülahizələrini teoloji və ya dini süzgəcdən keçirdikdə elə də ciddi problem nəzərə çarpmır, amma millət anlayışını keçirdikdə çox böyük sapıtmalar olduğu nəzərə çarpır. Beləki dini nöqteyi-nəzərdən mənəviyyat, əqidə və ideya, başqa sözlə psixoloji mühit və dinin özü millət anlayışına sinonimdir. Qurana görə təkallahlıq və çoxallahlıq hər biri spesifik millətdir. Bir teonim kimi millət elə din deməkdir. Buna görə millət bir və ya bir-neçə xalqdan da, bir və ya bir-neçə insandan da ibarət ola bilər. Bu baxımdan camaat və ümmət kəlməsinin də millətlə sinonim olduğunu söyləmək olar. İslam alimlərinin əksəriyyəti müsəlmanları bir millət, qeyri-müsəlmanları da başqa bir millət hesab edirlər. Quranda millətin məzmun və mahiyyətini tam anlamaq üçün bir-çox ayə var. Məsələn, Bəqərə surəsinin 130-cu ayəsində deyilir:* ***"İbrahimin millətindən səfehlərdən başqa kim üz çevirər?!.."*** *Bəqərə surəsinin 135-ci ayəsində isə deyilir****: "Dedilər ki, yəhudi və ya xristian olun ki, doğru***

---

[28]***Qumilyov deyir ki, "etnologiya-coğrafi elmdir!" Lakin bu etnologiyaya verilmiş çox dar tərifdir. Çünki hər şey, o cümlədən ulduz sistemləri, qalaktikalar, planetlər birlikdə etnosistem və ya ümmətdir. Yaxud da hər hansı bir etnosa fiziki-kimyəvi aspektdə və ya canlı maddə kimi yanaşmaq olmazmı?***

***yolda olasız. De ki, əsla! İbrahim hənif millətdəndir və heç vaxt müşrik olmadı!”*** *Ali-İmran surəsinin 67 və 68-ci ayələrində deyilir:* ***“İbrahim nə yəhudi, nə də xristiyan deyildi, hənif bir müsəlman idi. Və müşrik də deyildi. İnsanlardan İbrahimə ən yaxın bu Nəbi, onun yolu ilə gedənlər və iman gətirənlərdir! Allah da möminlərlədir!”*** *Digər bir ayədə deyilir:* ***«Sən onların millətinə tabe olmadıqca yəhudi və xaçpərəstlər səndən razı olmazlar!»***[29] *Misal çəkdiyim bu ayələr millət anlayışının dini əqidə anlayışına sinonim olduğunu açıq-aydın göstərir. Digər tərəfdən bu ayələr millətin kosmik və teoloji substansiyaya malik söz olduğunu göstərir. Bu baxımdan bir millətə məxsus olanlar müxtəlif etnoslara, hətta müxtəlif planet və qalaktikalara da məxsus ola bilərlər. İslam dininə görə bütün müsəlmanlar bir ümmət və bir millətdir. İslami ədəbiyyatlarda bəzən vahid müsəlman xalqı ifadələrinə də rast gəlinir. Bütün Əhli-beyt Imamlarına və malikdən başqa bütün məzhəb imamlarına görə bu ayədəki* ***«millət»*** *bütün kafirlərin(istər yəhudi olsun, istər xristian, istərsə də müşrik) bir millət olduğunu sübut edən açıq bəyyinədir.*[30] *Yəhudi, xristian və bütpərəstlər arasında da özlərini vahid millət hesab edənlər az deyil. Xülasə, monoteistlər bir millət, politeistlər də başqa millətdir; müsəlmanlar bir millət, qeyri-müsəlmanlar da başqa millətdir; yəhudilər bir millət, xristianlar bir millət, bütpərəstlər də bir millət, müsəlmanlar da başqa bir millətdir. Millətin şovinist və etnikçi anlamına gəlincə, bu XX-ci əsrin uydurmalarındandır. Eynişteyn bu uydurmanı əbəs yerə uşaqlıq xəstəliyi adlandırmırdı. Bu,* ***“uşaqlıq xəstəliyi”*** *uydurmanı müsəlmanlar, xüsusi ilə də türk müsəlmanlar arasında pantürkizm qəlibində yayan ilk şəxs ziyasız göyalp olmuşdur. O, milləti sırf etnik mənada dərk və şərh etsə də, real həyatda, praktikada şovinist idi. göyalp kimi modern siyasi qüvvələr, bunlara dəstək verən siyasi-iqdisadi güclər əvvəlcə süni şəkildə sinifi ziddiyyətlər yaratdılar, bu ziddiyyətlərə etnik don geyindirdilər və bunlardan istifadə edib dil cəhətdən vahid və mərkəzləşmiş etatik sistem qurdular. göyalp təliminə dayanan atatük Osmanlı dövlətini məhz bu üsulla etnik və sinifi hissələrə parçaladı və hakimiyyətə gəldi! Necə ki, Musa əleysalam zamanında firon bu cür etmişdi. Bütün diktator zalimlər* ***“parçala və hökm et!”*** *biopolitik*

---

[29] ***Bəqərə, 120***
[30] ***Ümmətimizin ilk fitnəkarları, 247***

*qayda və taktika ilə hərəkət edirlər. XX-ci yüzilliyədək heç bir etnoqrafik və etnoloji lüğətdə etnik millətçilik deyilən bir termin və ya anlayışa rast gəlmək mümkün deyil. Çünki millətçiliyə etnikçilik mənasının verilməsi məhz XX-ci əsrin əvvəllərinə təsadüf edir. Qısa və konkret desək millət etnogenez proseslərin ən inkişaf etmiş halı olub sırf ideoloji və dini anlayışdır, etnik şovinizmlə bu anlayışın heç bir bağlılığı olmamışdır. Ən pis halda millətçilik ideoloji və dini şovinizmdir, etnik və irqi şovinizmlə uzaq-yaxın heç bir əlaqəsi yoxdur. Qərbdən gələn məşhur* ***"nasio"*** *və"****nasionalizm"*** *sözləri isə açıq-aydın doğulan yerlə əlaqədardır və daha açıq şəkildə vətəndaşlıq ifadə edir. Nəyə və kimə dayanaraq nasionalizmi millətçiliklə və etnikçiliklə eyniləşdirirlər anlamıram?! Hətta, millətçilik və etnikçilik də tamam fərqli anlayışlardır. Bu cür qondarma yanaşmalar termin və anlayışları* ***"abort"*** *etməkdən başqa bir şey deyil. Qısası MİLLƏT idrak və ideya ilə bağlı anlayışdır. Millətçilik də idealogiyadan başqa bir şey deyil. Hər bir xalq öz tarixində heç olmasa bir dəfə millət ola bilir. Bunun üçün lazımdır ki, etnos öz ekogenetik enerjisindən tam yararlana bilsin. Hər şey olduğu kimi etnos da hər şeydən öncə genetik tamlıq və varlıqdır, Etnos genetik sistem olsa da, genetik tamlıq özü də mühitin məhsuludur. Əlbətə, söhbət yer genetik tamlığından və yerdəki etnogenezdən gedir. Geomühitin fasiyası və ya siması olan geolandşaft etnogenezin formalaşmasını təmin edən və onda təbii informasiya toplayan genofondur. İnformasiyasız heç bir varlıq olmadığı kimi, etnos da özünəməxsuz informasiyanın daşıyıcısıdır.*[31] *Hər bir etnos öz gensistemindən çox nadir hallarda lazımınca istifadə edə bilir. Bunun üçün müəyyən şərait, ən əsası isə müdrik rəhbər lazımdır ki, etnos öz genfondundan necə lazımdırsa elə də istifadə etsin. Hunlar(qədim türklər) Mode, germanlar Böyük Karl, çinlilər Li-Şimin, ərəblər Məhəmməd (ə), fransızlar Napaleon, antik Yunanstan və Roma İsgəndər, yəhudilər Süleyman, hindlilər Əkbər Şah, biz isə Şah İsmayıl zamanında öz genlərimizdən tam bəhrələnə bilmişik. Bu dövrlər hər bir etnos üçün* ***"qızıl dövr"*** *olmuşdur. Burda Əlinin böyük təsir gücünə malik kəlammı xatırlamaya bilmərəm:* ***"İnsanlar valideynlərindən də, zamanlarından da daha çox öz***

[31] ***Uygun adla bu prosesi etnoinformasiya adlandırmaq olar. Lakin bu daha çox, beynəlmiləl təbirlərə üstünlük verən, bunlardan zövq alan "savadlılar" üçündür.***

***padşahlarına oxşayırlar!"** Hər bir etnos gensistemindən tam olaraq yalnız bircə dəfə istifadə edə bilir, lakin passionar partlayışa nail olmağa kifayət edəcək qədər natamam formada bir neçə dəfə istifadə edə bilər. Lakin bizim kimi bəzi xalqlar var ki, hal-hazırda gensistemindən məhrum olmaq üzrədir, dözülməz totalitarizm bataqlığında sözün həqiqi mənasında çabalayırlar! Lakin bir şey var ki, mübariz və qeyrətli olmayan xalq düşdüyü vəziyyətə layiqdir! Ədalətsiz etnosun imansız rəhbəri, imansız etnosun da, ədalətsiz rəhbəri olar! Millətin formalaşması prosesinə pozitiv katalizator kimi təsir edən yeganə amil imanla, vicdanla, ədalət və sevgi ilə yoğrulmuş mənəviyyatdır. Bu amilin olmaması, neçə-neçə xalqların, qəbilələrin yer üzündən silinməsinə gətırıb çıxarmışdır. Məsələn, atlantidalılar, midiyalılar, lidiyalılar, şumerlər, assuriyalılar, qədim romalılar, qədim yunanlar kimi. Lakin bu gün bu millətlərin təbii-tarixi modelləri qalmaqdadır.*

*Etnosun varlıq meydanında zühur etməsi, etnos yaradan komponentlərin ayrı-aynlıqda yaşaya bilməməsi və ən azı firavanlıqdan məhrum olması nəticəsində baş verib. Bir-çox müfəxəslərin fikrincə dil, siyasi, iqtisadi, dini faktor ayrı-ayrılıqda etnosyaradan komponent rolunu oynaya və azı bir etnos formalaşdıra bilər. Lakin hər bır varlıq, o cümlədən etnos da hər şeydən əvvəl genetik varlıqdır. Nə dil, nə siyasət, nə iqtisadiyyat, nə din, nə də başqa faktor irsiyyəti - genləri əvəz edə və ya üstələyə bilməz. Təbii ki, sadalanan amıllərin hər birinin ernosun formalaşmasında az və ya çox dərəcədə rolu var, amma heç kim irsi amilin etnosun yaranmasında rolunun ən böyük və ən güclü olduğunu dana bilməz! Belə bir fikir məşhurdur ki, **"etnosu yaradan bir nömrəli faktor dildir, dilini itirən etnos məhv olur!"** Əgər etnos yalnız dilin təsiri nəticəsində əmələ gəlirsə, onda biz ingilis dilini ingilislərin özündən də mükəmməl bilən erməni, türk və rusları əsl ingilis hesab etməliyikmi?! Yaxud, rus dilindən ruslara dərs deyən türklər rusdurmu?! Dil hər hansı bir etnosun maskirovka olması ücün hər çür şəraıt yaradan, ən çox yalan təlqin edən aldadıcı və cazibəli amildir. Bütün başqa amillərə nisbətən məhz dil ən çox aldadır! Genlər isə başqa amillərdən fərqli olaraq qətiyyən aldatmır! Dil də, hüquqi və siyasi faktor da etnosu formalaşdıran əsas amil deyil. Belə olsaydı, onda tarixin hər bir dövründə hegemon olan işğalçı etnoslardan(parslar, romalılar, ərəblər, anqlosakslar və b.) başqa yer*

*üzündə heç bir etnos qalmazdı. Ağıl və elm sahibləri bilir ki, Pifaqor, Platon, Aristotel, Fərabi, ibn-Sina, ibn-Rüşd, Lomonosov, Mitkeviç, Lobaçevski, Alyabyev, Çaykovski, Radlov, Puşkin, Səlımovic, Mendeleyev, Gertsen, Aleksandr Fridman, Yum, Valter Skott, Toro, Tesla, Bob Blek, Sədi, Nizami, Lao-Tsızi, Li-Bo, Li-Şimın, Du-Fu və başqa neçə-neçə fövqəlinsanlar vardır ki, onlar sadəcə olaraq ya rus, ya ingilis, ya fars, ya yunan, ya ərəb, ya çin, ya da hər hansı başqa "**ali**" dildə yazıb-yaratmış, yaxud da həmin xalqların içində yaşadıqlarından vətəndaşlıq gəbul eləmiş və tədricən öz genetik irslərini unutmuş və ya itirmişlər. Məsələnin dərinliyinə varsaq dühaların böyük əksəriyyətinin assimiliyasiyaya məruz qalmış hansısa başıbəlalı **"zəif"** xalqların birinə mənsub olduğunu görərik. Bədii və elmi əsərlərin ən gözəl və ən dəyərlilərinin böyük əksəriyyətinin ərəb, fars, ingilis, çin, yunan dilində olması danılması mümkün olmayan həqiqətdir. Əslində həmin əsərləri yaradanlar ya Nizami kimi farsca yazmağa məcbur olmuş azər övladlarından, ya Valter Skot kimi ingiliscə yazmağa məhkum olmuş şotlant, ya Fərabi və ibn Sina kimi ərəbcə yazmağa üstünlük verən orta asiya türkü, ya da dili az inkişaf etmiş hansısa başqa xalqa məxsusdur. Mən ingilis, rus, çin, ərəb və digər **"aftoritet"** xalqların sırf özlərinə məxsus dühalarının olduğunu inkar etmirəm, amma bunlar çox azdır. Bu etnosların özəlləşdirdikləri dühaların böyük əksəriyyəti assimiliyasiya edilmiş şəxslərdir ki, vicdan və ədalətdən az da olsa nəsibi olanlar bunu qəbul ediblər. Heyhat, dil dühanı da ram edir! Dil və mədəniyyət tülkü xüslətli işğalçı xalqların güclü xalqların qəhrəman, dahi övladlarını mənimsəmək, özünküləşdirmək vasitəsidir! Linqvistik aftoritarizm yer üzündəki ən böyük bəlalardan biridir! Elə bu amillərin ucbatındandır ki, bilmək olmur kim kimdir və əslində hara məxsusdur. Təbii ki, ruslar kimi irsi, kökü olmayan xalqlara bu cür qarmaqarışıqlıq tamam ilə sərfəlidir! Bu cür etnoslar digər etnoslar arasındakı münaqişə və müharibələrdən məharətlə istifadə edirlər. Murad Acci **"Qıpçaq çölünün yovşanı"** əsərində rusların bu məharətindən belə bəhs edir: **"Məhz ruslar o zaman qıpçaq xalqını böyük günaha - qardaş qırğınına sürüklədilər. Qardaş qardaşa əl qaldırdı! Biri rus, digəri isə öz doğma bayrağı altında. Məhz bu qardaş qırğınından sonra rusların - kiyev-rus dövlətinin hökmranlığı başlamışdır!"** Çay-göl, dəniz-okean mədəniyyəti, yerli, regional və qlobal inkişaf, mənəvi miras qoymaq qaydası və başqa müsbət keyfıyyətlər oğru və barbar*

*xalqların deyil, məhz qəhraman ari xalqların yer üzünə verdiyi töhfədir. Bu xalqların da hansı xalqlar olduğu kamil şəxslərə bəllidir. Hər hansı bir etnosun mədəniyyətini işgal etmək çətin olsa da mümkündür. Mədəniyyəti işğal edə bilən əsas etnoslar bunlardır: ruslar, farslar, anqlosakslar, gürcülər, yəhudilər, çinlilər, fransızlar. Bu xalqların məşhur muzeyləri(luvr, ermitaj və s.) bizim sözümüzün həqiqət olduğuna şahidlik etməkdədir. Xalqların mədəniyyətini oğurlamaq üzrə yarış keçirilərsə, heç bir xalq, hətta Gəncə darvazasını oğurlayan gürcülər də ruslara çata bilməz! Ratsel əbəs yerə demirdi: **"ruslar anadan müstəmləkəçi(qarətçi) doğulurlar!"** Təkcə ruslar deyil, farslar, anqlosakslar, ermənilər və yəhudilər də aslan etnoslar arasına konflikt salan tülkü etnoslardan sayılmışlar. Tülkü etnosların tülkülük vasitəsi rolunda çox vaxt mədəniyyət çıxış edir. Bu cazibədar taktika digər etnosların mədəni və sivil elementlərini mənimsəmək və assimiliyasiya etməyə hesablanmışdır. Əslində mədəniyyət bütün şeylərə - varlığa məxsusdur. Millətyaradıcı amil və komponentlərin hamısı mədəniyyətdir və ya ən azı mədəniyyətin atributudur. Mədəniyyət yalnız insanların həyat və fəaliyyətilə bağlı proses deyil. Mədəniyyət obyektiv reallıqdır, materiya və mühitin özünütəşkil formasıdır. Ümumiyyətlə yaradılış prosesi - Allahın mədəniyyəti və ya TEOKULTURA, Allahın iqtisadiyyatı və ya TEOEKONOMİKA, Allahın siyasəti də TEOPOLİTİKA adlana bilər. Lakin bu başqa mövzudur.*

*Etnogenez bütün əsrlərdə və bütün ərazilərdə eyni sürət və intensivliklə, eyni süräkliliklə, bir sözlə EYNİ CÜR formalaşırmı?! Müəyyən və hələlik müəyyənləşdirilməmiş, lakin bizim müəyyən etmək istədiyimiz təbii qanunauyğunluqlara görə etnogenez sözün ümumi mənasında etnogenezdir, xüsusi halda bu proses formalaşdığı mühitin xronoekoloji şəraitinə uyğun görkəm alır. Deməli hər bir etnos əsas etibari ilə özünəməxsus xislətə malikdir. Doğrudur, etnoslar arasında həm xaraktercə, həm də digər xüsusiyyətlərə görə oxşarlıq var, lakin bu hardasa keçici, təqlidedici, hardasa da eyni coğrafi qurşaqda formalaşmaqdan qaynaqlanan etnik xassələr olub bizim fikrin doğruluğuna heç bir xələl gətirmir. Əksinə fikirlərimizi duyğularınızdan **"keçirdikcə"** görəcəksiniz ki, xalqlar (tayfalar, ailələr və s.) arasındakı oxşarlıqlar özü də təbii qanunauyğunluqlara tabe olan xüsusiyyətlərdir. Hər hansı individin və ya canlının, yaxud da xalqın xarakteri onun geosistemdəki yerini təyin etməyə imkan*

*verır! Xarakter ruhun təzahürü, nəfsin isə surəti olub mənəvi keyfiyyətin ölçüsüdür. Həm xarakteri, həm də nəfsi keyfiyyəti formalaşdıran təbii mühitdir, ələlxüsus təbii landşaftlardır. Etnosun xarakteri onun ekogenosisteminin təzahürüdür. Etnosun xarakterini hansısa süni yolla dəyişmək qeyri-mümkündür. Bu etnosun məhvinə səbəb olur. Elə buna görə etnosof Lebon deyirdi: "**nə inqilablar, nə də konstitutsiyalar heç bir xalqa onda olmayan xarakteri verə bilməz!**" Etnos məhv olar, amma xarakterini dəyişməz! Fikrimizin canı bundan ibarətdir ki, etnogenez xronoekoloji komponentlərin xarakterinə uyğun olaraq formalaşır. Coğrafi ədəbiyyatlara görə fərd fasiyaya, ailə mərzə, qəbilə məhələ, tayfa da landşafta uyğundur. Bizim terminologiyamıza görə isə fərd elementar mikrogeofasiyaya, ailə mərzə, qəbilə məhələ, tayfa mikrogeofasiyaya, xalq və ya etnosun özü isə geolandşafta uyğundur. Yer üzündə etnosların yeddi törəmə mərkəzi var ki, bu mərkəzlərin hər biri doğduğu etnosa özünəməxsus xislət bəxş edir. Hər bir törəmə mərkəzinin özünəməxsus landşaft növü var. Etnoloqlarımızdan böyük, sözün həqiqi mənasında etnosof Qumilyev haqlı olaraq deyir ki, hər hansı bir etnosun formalaşması üçün ən azı iki landşaft növünün mövcud olması vacibdir. Onun bu fikri istər kosmik, istərsə də yer miqyasında doğrudur, baxmayaraq ki, o, öz fikrini geosistemlə məhdudlaşdırır. Etnos (istər fitoetnos olsun, istərsə də antropoetnos) istər-istəməz ən azı iki cür landşaftda əmələ gəlməlidir. Sözün praktiki mənasında atom olmadığı kimi, vahid, bölünməz, bənzərsiz və təkrarsız mikrogeomorf da yoxdur. Təbii ki, hər bir cəm ilk növbədə iki fərddən ibarət olur və bu tama da ailə deyilir. Ailənin yaranması üçün də heç olmasa iki mikromorfostrukuır və ya sadə bir mərz müvafiq şəkildə mövcud olmalıdır. Yəni, yer üzündə var olan ixtiyari cütlük ən azı iki mikroformanın, daha dəqiq desək, mikrogeomorfosistemin məhsuludur. Antropogen effektləri nəzərə almamaq mümkün olsaydı, onda qətiyyətlə demək olardı ki, hər bir fərd özünə uyğun olan mikrogeofasiyanın məhsuludur. Lakin antropogen effektlər yer üzünə dünya müharibələri, genosid "**bəxş etdiyi**" kimi, geolandşaftları da təbiilikdən demək olar ki, məhrum edib. Belə olmasaydı etnogenez proseslərin fəaliyyəti dayanmazdı. Artıq yüz ilə yaxındır ki, etnogenezdən əsər-əlamət də qalmayıb. Yalnız saxta etnogenezlər, məsələn, istixana və ya parnik bitkiləri, dönmə kompleks insanlar(sovet uşaqları, metislər, mulatlar və s. və i.) mövcuddur. Bunların da çoxu bicbaladır, genlərinin kökü bilinmir.*

*Bütün zamanlarda saxta etnosistemlər mövcud olub, lakin qeyd etdiyimiz kimi artıq bir əsrdir ki, təbii etnosistem yaranmır! Və heç yaranmayacaq da! Çünki ruzveltin maymaqlığı, leninin yırtıcılığı və stalinin, mao-tsezedunun hiyləsi bu möhtəşəm prosesin kökünii kəsmişdir! Etnogenez bəlkə də yenidən cücərərdi, lakin müaviyə, lenin, stalin, mao kimilərin varis və təqlidçiləri olmasaydı!(kral fəhd, fidel kastro, yeltsin, şvarnadze, xristian kərimov, əbu ilo və s.) Etnogenezin formalaşmasına əsas rolu zonallıq qanunauyğunluğu oynayır. Geozonal proseslər etnogenezi, etnofasiyanı, hətta etnosubstansiyanı enerji ilə təmin edir. Təbii ki, geozonallıq da öz növbəsində müəyyən kosmik faktorlardan asılıdır. Lakin bu məsələnin məzmununa varmaq bizim məqsədimizdən kənara çıxır. Zonalıq qanunauyğunluğu da təkcə üfüqi və şaquli zonallığdan ibarət deyil, üfüqi zonalığrn şaquli zonallığa (və ya əksinə) nisbətindən də ibarətdir. Məsələn, eyni coğrafi en dairəsində və eyni hündürlükdə mövcud olan xalqlar xarakterlərinin bütün əsas cəhətləri ilə bir-birinə bənzəyirlər, lakin qütbətrafı vilayətlərdə və ekvatora yaxın ərazilərdə okean səviyyəsindən maksimum yüksəkliklərdə yerləşən coğrafı rayonlarda formalaşan etnoslar arasında da xaraktercə oxşarlıq mövcuddur. Məsələn, tibet tayfaları ilə eskimoslar, yaxud basklarla həbəşlər arasında olan oxşarlıqları kim dana bilər? Bu cür oxşarlıqlar adət-ənələrdə, məişətdə, sosial-siyasi vəziyyətdə, geopolitik davranışda, qonşu etnoslara münasibətdə, hətta mətbəxdə belə özünü göstərərir. Buna bir daha əmin olmaq üçün təkcə Hitlerin "**slavyan-monqol bici**" hesab etdiyi ruslarla yəhudi və fars etnosları arasındakı geopolitik, politoxarakterik, habelə genopolitik oxşarlığı görə bilmək bəs edərdi. İnsan mühiti formalaşmamışdan qabaq geomühiti yalnız geozonallıq qanunauyğunluğu idarə edirdi, fəqət son yüz ildə antropozonallıq adlandınlması uyğun olan bir "**qanunauyğunluq**" peyda olub ki, bununla da geolandşaftın eroziya və deqradasiya edilməsi açıq və kütləvi şəkil almışdır. Təbii ki, parazit xarakterli insanlar, parazit xislətli xalqların, bunlar da öz növbəsində deqradasiya və eroziya olmuş coğrafı landşaftların məhsuludur. Təbii ki, planetimizdə orogenez və epeyrogenez proseslər nəticəsində dağlıq, çökəklik, düzənlik, dağarası düzənlık, dağarası çökəklik, platforma və başqa relyef formaları meydana çıxmışdır. Bu da öz növbəsində hər bir relyef formasının spesifik iqlim, torpaq-bitki örtüyü, zoosistem və etnogenezə malik olması deməkdir. Belə ki,*

*orogenezin etnogenezin formalaşmasındakı rolu artdıqca doğan və doğulan, həmçının doğduran, yəni bir növ mamalıq edən etnoslar sərt, dözümlü, mətin xarakterə malik olurlar. Məsələn, alp-himalay geosinklinalının yaxın ətrafina adaptasiya olmuş xalqlarla, Böyuk Səhra, Tar, Dəşt-Kəbir və Dəş-Lut səhralarının periferiyalarına adaptasiya olmuş etnoslar arasında xarakterlərinin bütün əsas cəhətləri baxımından çox böyük fərq olduğu görünür. Alçaq dağlıq və daşlı və ya qumlu səhralığın destruktiv təbii şəraitinə adaptasiya olan etnoslar yer sakinlərinə köləlik və əsarətdən başqa heç nə verməyən əhəməni və ssri imperiyasının, orta-dağlıq və dağ-meşə geolandşaftlarına uyğunlaşan etnoslar isə dünyada elm, hikmət və mənəviyyatın beşiyi sayılan Antik Yunanıstan kimi şərəfli bir sivilizasiyanın doğulmasına səbəb olmuşlar. Siz heç bir isveçli, yaxud norveçlidə - əgər o həqiqətən genetik isveçli və ya norveçlidirsə,- yəhudi, fransız, rus, erməni, fars və ərəbin malik olduğu xəbislik, fahişəlik, sadizm, xəyanət, riya və bədəvilik görə bilməzsız! Qadın və körpələri zorlamaqdan həzz alan, qonşu xalqlara təcavüz edib genosid törədən, öz təcavüzünə dini və ya siyasi don geyindirən bu günkü etnoslar Kosmik Kitablarda lənətlənmiş qövmlərin varisləridirlər. Əlbəttə, hansısa səbəblər ucbatından istisna labüddür, amma bu bizim fikrin dəqiqliyinə şübhə etməyə əsas vermir. Çünki yer üzündə mövcud olan bütün parazitar, virusogen və totalitar sistemlər əsasən alçaq dağlıq, səhra və yanmsəhra landşaftlarda doğulur. Çinlilər, misirlilər, uyqurlar və anqlosakslar da genetik baxımdan büsbütün səhra, yarımsəhra və alçaq dağlığın quru çöl komplekslərinin məhsullarıdır. Lakin aparizit və ya sözün yaxşı mənasında passionar nüsxələri olduqca çox olan etnoslar(hunlar, etrusklar, hindular, karluqlar, tarduşlar, göytürklər, şotlandlar, karaçaylılar, dağ kürdləri, qədim tatarlar və b.) dağ-meşə, dağ-çəmən, meşə-çəmən, dağ-meşə-çəmən, dağ gölləri və dağ çayları təbii komplekslərinin əsas yer tutduğu ərazilərin məhsullarıdır. Bu pozitiv etnosların çoxu destruktiv və apozitiv etnoslar tərəfindən məhv edilmişdir! Təəssüf ki, nəinki yaxın və ya uzaq keçmişdə, hətta bu gün də ari etnosların əksəriyyəti slavyanların, ermənilərin, anqlosaksların, farsların, yəhudi və çinlilərin təcavüzü nəticəsində öz yurd-yuvalarından çıxarılmış və çıxarılmaqdadırlar! Çox az adam dərk edir ki, altay xalqları və ya müasir hunlar və yaxud monqollar, yaxud da hindular (amerika türkləri) hal-hazırda da səhra, yarımsəhra və ya bataqlıq ətrafında*

*yaşamağa məcbur və məhkum olsalar da, onların genləri dünyanın cənnətində, dağ-meşə-çəmən-çay-göl landşaftlarında formalaşıb. Lakin əfsus ki, qədim məsəllərdə deyildiyi kimi "**yersiz gəldi yerli qaç!"** tüğyan edir. Destruktiv etnosların bir-çoxunun(məsələn, ermənilərin) hal-hazırda dağ-meşə, dağ-çayları, meşə-çəmən-göl təbii-ərazi komplekslərində məskunlaşması aldadıcı görünüşdür. Bu etnoslar dünyanın cənnətinə sonradan gəlmiş, çox vaxt da cənnəti təcavüzlə ələ keçirmişlər. Destruktiv etnosun genfondu heç bir zaman dağ-meşə geolandşaftında formalaşa bilməz! Çünki bu mikrogeosistemlərdə desruktiv olmağa enerji yoxdur. Etnosun ətraf mühitdəki həyat və fəaliyyəti ona spesifik xarakter verir. Əgər ətraf mühit torpaq-bitki örtüyündən nə dərəcədə yoxsuldursa təbii ki, belə bir mühitdə formalaşan xalqın da xarakteri pozitiv xüsusiyyətlərdən o dərəcədə yoxsuldur. Başqa tərəfdən hər hansı bir əraziyə uyğunlaşmaq üçün, - istər individ olsun, istərsə də kompleks, - ömrün ən azı üçdə iki hissəsini həmin mühitdə yaşamaq lazımdır. Parisə gəlmiş və ya gətirilmiş ixtiyari papuas uzun müddət elə yalnız papuas olaraq qalacaq; maorilərin arasına düşmüş centilmen şotland uzunmüddətli adaptasiya prosesini uğurla keçiməsə özünü heç vaxt əsl maori kimi apara bilməz. Təbii ki, adaptasiya üçün zaman və məkan uyğunluğu lazımdır, yəni müəyyən vaxt və yer. Vaxtın gərəkliyi aydındır, amma yerin gərəkliyi o deməkdir ki, etnos əgər təbii səbəblər ucbatından yerini dəyişibsə, o gec-tez əvvəl formalaşdığı və ya adaptasiya olduğu geolandşafta oxşar və ya uyğun yer tapmağa çalışacaq. Əgər etnos süni səbəblər ucbatından(işğal, köç və s.) yerini dəyişibsə ya hökmən yerinə qayıtmalı, ya da müəyyən müddətə xarakterinin bütün atributlarını itirəcək ki, bu da hər bir xalq üçün məhvə bərabərdir! Yerini tapmayan etnos ya dağıdıcı olur, ya da heysiyyat və qeyrətini tamam itirir! Bu məhv olmaqdan da betərdir! Məsələn, yaxın tarixin ən böyük faciələrindən olan Xocalını görən, o faciənin ağrı-acılarını yaşayan azəri qaçqınların çoxunun bu günkü lyuks həyat, eyş-işrət və əyləncə hərisliyi xarakterin itrilməsinə bariz nümunə ola bilər. Xarakterini itirən xalq bütöv "**mən**"ini itirir. Xarakteri itirməmək üçün hər bir etnos ya doğan, ya doğulan, ya da doğduran - mamalıq edən etnos olmalıdır. Lakin qeyd etdiyimiz kimi artıq bir əsrə yaxındır ki, xalq əmələ gəlmə prosesi total siyasətlər vasitəsilə süni surətdə dayandırılmış və ya minimuma endirilmişdir. Buna görə də hər bir etnos yalnız özünü qorumaq naminə fəaliyyət*

*göstərməyə məcbur və məhkumdur. Ta qiyamətə qədər hər hansı ümmət(etnos və ya makrokollektiv) özünü qorumaq üçün təkcə adaptasiya olduğu geolandşaftları qoruyarsa kifayətdir. Geolandşaft mühafizə edilərsə etnos öz-özünü tənzimləyəcək. Çünki hansı miqyasdan baxırsan bax, geolandşaft etnogenezi təmin edən ən əsas faktordur.*

*Məlumdur ki, planetimiz həm üfüqi, həm də şaquli istiqamətdə bir-birindən fərqli xüsusiyyətlərə malik geomühit və ya geomorfoloji qurşaqlardan ibarətdir. Bu mühitlərin hər biri spesifik olduğu qədər oxşar xüsusiyyətlərə də malikdir. Eyni zamanda bu mühitlərin hər birinin spesifik insanları mövcuddur. Lakin bu insanların böyük çoxluğu təbiət və ya mühit üçün təhlükə mənbəyidir. Bunlar sözün praktiki mənasında ikiayaqlı parazitdirlər! Əslində parazitdən də betərdirlər! Şübhə etmirəm ki, bu insanları(insan deməyə də dilim gəlmir!) parizit hesab etməklə parazitləri də təhqir etmiş oluruq. Lakin istər parazitlər olsun, istər digər canlılar, istərsə də güclü nüsxələr normal və həlim mühitlərdə daha çox olurlar. Çünki normal geoekoloji şərait üfüqi zonallıq baxımdan iki mühitə xasdır: subtropik və mülayim. Şaquli zonallıq baxımından da iki mühit normal şəraitlidir: dağ-çəmən və dağ-meşə landşaftları. Dahi insanların da böyük əksəriyyəti bu mühitlərin məhsuludur. Riyakar və xəbis insanlar da bəzən bu mühitlərdə formalaşırlar. Amma zəiflərin genfondu əsasən bitki örtüyündən məhrum olmuş və ya bitki örtüyü zəif inkişaf etmiş mühitlərdə formalaşır. Planetimizdə elə bir dövlət yoxdur ki, onun ərazisində parazitogen və ya virisogen landşaftlardan heç olmasa biri mövcud olmasın. Elə buna görə də yalnız aparazit və saf nüsxələrdən ibarət etnos yoxdur. Parazitogen və ya virusogen landşaftları yaradan isə yalnız insan sivilizasiyasıdır! Planetimizdə ilk dəfə zühur edən parazitogen landşaft çöllüklər olub. Bu çöllükləri insan sivilizasiyası meşə-çöl və meşə-çəmən-çöl geolandşaft komponentlərini sisitemli deqradasiya etməklə formalaşdırmışdır. Bununla da yanmsəhralıq və səhralıqların hər tərəfli əsası qoyulmuşdur. Təbii ki, çöllüklərin üzərindəki torpaq-bitki örtüyü inkişafdan dayanarsa, əvvəlcə yanmsəhralığa, sonra isə səhralığa deqradasiya olmaq labüddür! Hərçənd ki, adamlar birbaşa təsir etməklə də çəmən və meşəlikləri ekstraarid zonalara çevirə bilirlər. Amazoniya meşələrinin timsalında bu çox aydın görünür! Ən dəhşətlisi odur ki, adamlar parazitar ve ya totalitar mühiti*

*formalaşdırdıqdan sonra (məsələn, böyük səhra və ya əhəməni imperiyası) bir növ sərməst* olurlar *və bu zaman geolandşaft zənginlikdən məhrum* olur, *torpaq-bitki örtüyü və mənaviyyat ölür, yaxud köləliklə əvəz* olunur. *Təbii ki, köləlik elə* virusdur *ki*, onun *bəxş etdiyi* ***"nəşəni"*** *daim xatırlayırsan! Çünki köləlik psixi tiryəkindən başqa bir şey deyil! Nəticədə ən böyük zərbə* geosistemə *dəyir! Hər hansı bir mikroxronoekosistemi(məsələn, dağ-çəmən-meşə-gol təbii komplekslərindən ibarət geolandşaftı) səhralığa və ya yarım səhralığa, yaxud quru çöllüyə döndərən ixtiyari etnos ya artıq* parazitar xaraktere *malikdir, ya da az bir müddətə viruslaşacaq. Belə etnosların miqrasiyası, - xüsusi ilə* milli park *və ya qoruqların ətrafına, - ən azı regional miqyasılı təhlükə yaradır. İnsan sivilizasiyasmın tarixi belə* hal *və* hadisələrlə doludur. *Teoloji baxımdan ekstraarid ərazilər sözün həqiqi mənasında lənətlənmiş ərazilərdir.* Quranda bu *barədə* deyilir: ***"Saf məmləkətin bitkisi Rəbbinin iznilə məhsul verər. Çirkli məmləkətin bitkisi isə məhsul verməz, versə də yaramaz. Belə açıqlayırıq ayələri şükür edən etnos üçün!"(7, 58)*** *Bu ayənin orjinalında keçən* **bələd** *kəlməsi* etnosun *törəmə* mərkəzini *göstərən* termindir. *Allah* bu *ayədə açıq-aydın* torpaq-*bitki örtüyü* zəngin olan *ərazinin*, torpaq-*bitki örtüyündən* yoxsul olan *ərazidən dəyərli*, qiymətli *olmasını göstərməklə yanaşı,* onlarda *əmələ gələn etnoslar arasındakı böyük fərqləri də göstərir. Heç bir şübhə* yoxdur *ki*, torpaq-*bitki örtüyü yoxsul olan ərazilərdə törəyənlər əsasən* destruktiv *və aqressiv,(Quranın təbirilə* mufsid) torpaq-*bitki örtüyü* zəngin olan *ərazilərdə formalaşan etnoslar isə əsasən* liberal *və konstruktiv(Quranın təbirilə* muslih) olurlar. *Meşəsiz, az sulu, düzən ərazidə yaşamağa uyğunlaşmış xalq, heç vaxt normal geoekoloji şəraitdə sakit yaşaya bilməz.* Belə bir xalq(məsələn, *çöl kürdləri) qısa bir müddətdə ya ən azı çöllük formalaşdırmalı, bunu* bacara bilməsə bu ərazidən də köçüb getməlidir. *Əgər* miqrasiya edən *xalq təbiilik dərəcəsi çox olan landşaftda formalaşıbsa, onun hər hansı bir səbəbdən* antropogenlik *dərəcəsi çox olan landşafta miqrasiyası* gec-tez *mənəvi* deqradasiya *və ya əqli* eroziyaya *gətirib çıxaracaq. Semit xalqlarının, xüsusi ilə uzaq şərq və* orta asiya *türklərinin bu günki vəziyyətinə nəzər* salmaq *bu fikirin açıq-aşkar bir həqiqət olduğunu dərk etınəyə* kafi ola *bilər. Məsələn, Çingiz Xan dövrünün Monloq-Tatarları və ya* antik uyqur *və altay xalqları hara,* indiki monqol-tatar, uyqur *və altay xalqları hara. Etnologiyadan başı*

*çıxmayan adam bunlara müxtəlif genfonduna malik xalqlar kimi baxardı. Halbuki, bu xalqlar demək olar ki, eyni genosistemə malikdir. Elə bir etnos yoxdur ki, ömründə heç olmasa bir dəfə miqrasiya etməsin. Lakin miqrasiya prosesinin də öz nomaları var. Çox miqrasiya edən etnoslar öz mənəvi və əqli keyfiyyətlərini itirirlər. Məhz bu miqrasiyalar "**mən**"i qarışdırır, tarazlıqdan çıxarır. Endemizm, yaxud hər hansı bir ərazinin müasir sakininə çevrilmək etnosun və individin qarşılaşdığı ilk ən böyük fəlakətdir. Amma buna baxmayaraq miqrasiya nəticəsində yarana biləcək mənəvi dağınıqlığın qarşısını ala biləcək imkan vardır əlimizdə! Bu imkan iman tələb edir! Allaha inam və iman! Yer üzü bötövlükdə insanın vətəni olsa da, etnik və idealoji konfliktlər ucbatından mübarək geopolit və pangeya ideyası falsifikasiyaya məruz qalmış və eleqant geyimlər altında gizlənmiş cazibədar satanik əqidələr tərəfindən mənimsənilmişdir. Bir-birindən əqidəcə elə də kəskin fərqlənməyən sosializm, marksizm və kommunizm üzərində bərqərar olmuş proletariat ideyasının daşıyıcıları özləri etiraf edirlər ki, **"fəhlələrin vətəni olmur!"** Onların bu sözlərinin çox başı olsa da, hər halda mənəvi şudranın vətəni ola bilməz! Yalnız vətənpərvərin vətəni var! İdeyası olmayanın vətəni ola bilməz! Çünki vətən torpaq olmaqdan daha çox ideyadır. Bu səbəbdən vətənpərvər etnoslar məcbur olmasalar heç vaxt miqrasiya etmirlər. Vaxtaşırı ora-bura köçən qaraçılarla, yalnız bir yerdə qərar tutan baskların vətən sevgisi eyni ola bilərmi?! Lakin nəinki təbii amillərin, hətta antropogen faktorların təsiri nəticəsində öz "**Mən**"ini dəyişən etnoslar da mövcuddur. Belə xalqların əsas hissəsini, - uzaq şərqin bir neçə etnosu və nardaranlılar kimi elementar relikt etnik hissəciklər istisna olmaqla, - türk xalqları təşkil edir. Türklər bəlkə də yeganə etnosdur ki, hər hansı başqa etnosla qarışdıqda "**Mən**"ini itirir, mənəvi eroziya olur, əxlaqi deqradasiyaya uğrayır, bir sözlə məhv olur! Bütün başqa xalqlara **"qaynayıb-qarışma"** fayda gətirir, amma türklərə yox! Bəli, türklər məhz **"qaynayıb-qarışmanın"** aqibətidir ki, öz müsbət xüsusiyyətlərini itiriblər və itirməkdədirlər! Bu fəlakətin qarşısını almaq çox çətindir, amma mümkündür! Valday buzlaşmasmdan sanrakı holosen dövründən başlayaraq bic etnoslar planetimizin etnomateriyasına hakim olmağa çalışmış və bir əsrə yaxındır ki, büsbütün hakim olmuşlar! Geomaddə o dərəcədə tənəzzül edib ki, hal-hazırda bilmək olmur kim kimdir və əslində hara məxsusdur və*

*etnoareal hansı geolandşaft üzərində bərqərar olub? Əlbəttə, saf xalqların hansı geoekoloji mühitin məhsulu olduğunu müəyyən etmək çətin deyil, amma biz elə bir dövrdə yaşayırıq ki, adi bir süpürgəçi də özünü aristokrat hesab edir, yaxud küçə fahişəsi də başına hicab taxıb mömin cildinə girir! Xalis etnoslar bir-neçə on mın il yer üzündə rahat, firavan həyat tərzi sürərək mövcud olmuş, dünyamıza Kəbə, Misir ehramları, Beytül-Müqəddəs, Babil bağları və başqa neçə-neçə sənət inciləri bəxş etmişlər ki, bunların da əksəriyyəti tarixin qaranlıq zirzəməsində itib-batmışdır. Yaramaz assimiliyasiyanın ucbatındandır ki, bu gün türk xalqları öz köklərindən uzaq düşüblər. XIX əsrin axırlarında Ratsel bu barədə belə yazırdı: **"Krım tatarları, azərbaycanlı və osmanlılar öz nəsil adlarını tamam unudublar!"** Lakin təəssüf ki, Ratsel özü də özbək, türkman, skandinav, qırğız, habelə monqol və yaponları soyunu unudan etnos kimi qeyd etməyi unudur! Etnos ən azı iki dəfə doğur və ya doğulursa yəni əslindən, soyundan məhrum olur, reliktliyini itirir. Belə etnoslar adətən eroziyon (parçalanmış) relyef formalarına adaptasiya olurlar. Çünki hər hansı bir ərazinin relyefi parçalanıbsa, bunun nəticəsində həmin ərazidə məskunlaşan əhalinin xarakterində də parçalanma baş verir. Təbii ki, mən burda etnogenezə təsir edə biləcək yüksək intensivliyə malik eroziyanı nəzərdə tuturam. Əlbəttə, etnosun doğması, doğulması, həmçinin mamalıq etməsi onun xarakterində əsas əlamətlərin mühafizə edilməsinə səbəb olur, lakin xarakterin parçalanmasının qarşısını ala bilmir. Hər hansı bir xalqın xarakterinin eroziya olması, hələ onu itirmək demək deyil. Belə xalqlar (məsələn, ləzgilər) necə deyərlər **"gah nala döyürlər, gah mıxa"**, amma xarakterlərinin əsasını qoruyub saxlayırlar. Ləzgilər Zuvənd talışları kimi çox mərd olsalarda, bu mərdlik kollektiv və etnosdaxili xarakterlidir, bir sözlə qəhrəmanlıq deyil. Mərdliyin qəhrəmanlığa çevrilməsi üçün onun ən azı etnoslar arası xarakterə malik olması vacib şərtdir. Digər tərəfdən iqlim və geoekoloji şərait passionar effektin ya artmasına, ya da azalmasına səbəb və vasilə ola bilər. Dərin müşahidə və təcrübələr əsasında Monteskeye yazır: **"İsti iqlim adamları qocalar kimi ağciyər, soyuq iqlim adamları isə yeniyetmələr kimi qoçaq olurlar!"** Doğrudan da belədir, dağ-tundra və arktika iqliminə adaptasiya olan karaçaylılar,mərd-mərdanə vikinqlərin törəmələri olan fin, isveç və norveç xalqları da çox nadir hallarda etnik və qlobal zülmə yol verərlər. Hətta bu iqlimdə relyef*

*errozion olsa da, sərt təbii rejim, etnosu xarakterdən məhrum olmağa qoymur. İsti iqlimli*[32] *ərazilərdə isə qorxaqlıq, süstlük, həmçinin həyasızhq hökm sürür. Qeyd etmək lazımdır ki, etnik ağciyərlik və ya qorxaqlıq fərdi qorxaqlıqdan tamam fərqlənir. Ağciyər etnos nə qədər çox qorxursa bir o qədər təcavüzə meyilli olur. Məsələn, semit tayfaları, çinlilər, slavyan etnosları təkzib olunmaz faktdır ki, xidmət etmək təbiətinə malikdirlər. Əgər biz dərin araşdırma aparsaq cəsus şəbəkəsi və xəfiyyə idarələrində fəaliyyət göstərən, məmuniyyətlə əmr yerinə yetirənlərin əksəriyyətinin yəhudi, kürd, rus, çinli, fars, ingilis, erməni olduğunu görərik. Əlbəttə, mən peşəkar kölələri nəzərdə tuturam və bunlardan biri də təəssüflə qeyd etınəliyəm ki, bizik. Xalqımız əsas etibarı ilə türk genofonduna malik olsa da, parazit və virus elnoslarla (erməni, rus, fars və s.) qaynayıb-qanşmağımız bizi də deqradasiya etmişdir! Sözsuz ki, aramızda saf və xalis məhsullar var, lakin bunlar çox azdır və hələ üstəlik türk və ya müsəlman cildində olan* ***"svoy"*** *viruslar tərəfindən məhv edilirlər! Musbət passionarlar nə qədər çalışsalar da, xalqımızın əsasını təşkil edən mənəviyyatsız nüsxələrin, xüsusən onların başçılarının əməllərinin müqabilində onların əməllərinin səmərəsi və dəyəri heçə enir!*

*Antropogen təsirə çox az məruz qalmış, yaxud heç məruz qalmamış ərazilərdə(belə ərazilər hal-hazırda geolandşaftın çox-çox cüzi hissəsini təşkil edir) genofond istifadəyə tamam açıq olur. Amma antropogen təsirin güclü olduğu landşaftlarda bu prosesın əksi baş verir, genofond qapanır. Qütblərdə, qütbətrafı zonalarda, nival qurşaqda və çox isti yerlərdə təbiətin xoşbəxt anları hələ də mövcuddur. Çünki bu mühitlərdə təbiət təbiiliyindən tamam məhrum olmamışdır. Amma şübhə etmək olmaz ki, bu xoşbəxt anların da varlığına nə zamansa xeyirxahlıq, tərəqqi və ya yardım libası altında son qoyulacaq! Təbiətin parazitləri, xüsusilə ikiayaqlı parazitlər daha isti və daha soyuq ərazilərə kütləvi müdaxilə edə bilməsələr də, gec-tez varlığını mühitin təbiiliyinin gücünə qoruyub saxlayan o ərazilərə nəsib olan səadətin də ruhuna ya təzim edəcəklər, ya fatihə oxuyacaqlar, ya da xaç çəkəcəklər! Hal-hazırda zəif nüsxələr instinktiv olaraq dağ-meşə və dağ-çəmən landşaftlarını məhv etməyə çalışırlar! Çünki bu landşaftlar güclü nüsxələrin genfondunu*

[32] ***İsti iqlim dedikdə hər hansı bir ərazidə ən sərt qış ayında 10°C- dən aşağı olmayan tempratura malik təbii ərazi komplekslərini nəzərdə tuturam.***

*formalaşdıran yeganə təbii komplekslərdir. Əgər bu təbii-tarixi komplekslər məhv edilsə yer üzərində tətbiq edilməli olan kosmik proqramlara ehtiyac qalmaz və iblis öz proqramını çox rahat işə salar! Amma bütün işlər Allahın nəzarətində olduğu üçün insan şeytanların təbiətə qarşı belə bir soyqrım və terror törədə biləcəkləri böyük çətinliklə baş tuta bilər! Lakin etiraf edək ki, şeytanlar artıq arzularına çatmaq üzrədirlər! Güclü nüsxələr bütün qüvvələrini bu yaramazlara qarşı səfərbər etməsələr yer üzündəki təbiət yox olmaq təhlükəsilə üzləşə bilər. Nə yolla olur olsun özlərini cürbəcür maska altında təqdim edən zəifləri, xüsusən onların liderlərini məhv etmək bütün güclülərin üzərinə düşən bir nömrəli vəzifədir! Mədəniyyət, texnokratiya, xeyriyyəçilik, meşəbəyi, iş adamı, fövqaladə hallar nazirliyi, polis və başqa qondarma adlar altında təbiətə ziyan vuran bu fırıldaqçıları kütləvi qırmağın vaxtı çoxdan gəlib çatmışdır! Güclü nüsxələr həyat uğrunda mübarizədə çox zəruri və çox nadir hallarda riya, hiylə, yalan kimi ləyaqətsiz və ya şeytani əməllərə əl atırlar. Bu fahişəlik elementləri yalnız zəiflərin silahıdır. Bu silahlar hər zaman güclülərə qarşı istifadə olunur. Zəiflər bir-birilə çox tez dil tapırlar, çünki hər bir zəifin bir düşməni var ki, bu da güclü və ya filosofdur! Zəiflər deyir: «ya zəif ol, ya da məhv ol!» Güclü isə deyir: «ya güclü ol, ya da rədd ol!» Zəiflərin ümumi sosial instinkti də var. Bu instinktlə onlar fırladaraq güclü nüsxələri ilişdirirlər. Məsələn, hüquq bu instinktin ən bariz ifadəsidir. Hüquq zəiflərin bütün digər uydurmalarının mühafizəçisi rolunu oynayır. Hüquq zəiflərin atom bombasıdır! Zəiflər dəyərsiz və mənasız əşyaları qiymətləndirir və beləcə cinayət törədilməsinə yol açırlar. Qızıl, gümüş, titan, platin və başqa metallardan hazırlanmış bəzəkli əşyalara verilən dəyər və qiymət oğurluq, adam öldürmə, talan, quldurluq, təcavüz və başqa cinayətlərin yaranmasına səbəb olur. Öz başlarından qanunlar uyduran zəiflər də güclü nüsxələri bu uydurulmuş qanunlara zorla tabe etməyə çalışırlar. Halbuki özləri istədikləri vaxt bu qanunlara itaət və ya riaət etməyə bilirlər. Çünki axı iqtidar əllərindədir. Uydurduqları qanun və qaydalara hüquq adını qoyub bəşəriyyətə sırıyırlar! Lixtenberq bu uydurma barədə deyirdi:* ***«Ədalətli olmaq üçün çox şey bilmək lazım deyil, amma ədalətsizlik törətmək üçün hüquq elmlərini əməlli-başlı bilmək lazımdır!»*** *Ştirnersə belə deyirdi:* ***«Hüquq kabusun bizə sırıdığı sərsəm bir ideyadır!»*** *Bakuninin kəlməsi isə daha lakonikdir:* ***"Hüquq iqtidarın***

***fahişəsidir!”*** *Nəinki hüquq, zəiflərin qondardığı, uydurduğu hər bir şey hər yerdə iqtidarlara xidmət edib və hər zaman ya kabusun sırıdığı, ya da kabus olub! Cinayətkarlığı yaradanlar özləri bizi cinayətlə suçlayırlar! Polislər çalışır ki, çoxlu oğurluq, quldurluq, qətl və digər cinayətlər törədilsin, həkimlər çalışır ki, xəstələr çox olsun, mollalar da çalışır ki, ölənlərin sayı artsın, siyasətçilər də istəyir ki, insanlar manqurt və ya zombi olsunlar! Güclülərin birliyi tarixi xarekterlidir, zəiflərsə, başqa bir yerdə qeyd etdiyim kimi, yalnız indi ünsürü olub hətta, öz fərdi tarixlərindən də məhrumdurlar. Yalnız zəifbaşılar fərdi tarixlərini qura bilirlər. Zəifbaşı keçmişə nəzər salır, sərf etməyən bir şey duyduqda falsifikasiyaya uğratmağa cəhd edir. nəmrud, neron, müaviyə, mütəvəkkil, sultan suleyman, sezar borcia, fuşe, stalin, əbu ilo kimi tülkü xislətli yalançı dahilərin falsifikasiyaya uğratmaq istədikləri o qədər həqiqətlər vardı ki, bu həqiqətlərin gizli qalması onların yer üzündəki varlığının təminatçısı idi.*

*Təbiətin bir nömrəli parazitləri olan xəbis və zalım insanlar mülayim və subtropik mühitlərdə demək olar ki, hakimiyyəti tamam əllərinə alıblar. Bu mühitlərdə yaşayan etnoslar da tamam bunların nəzarəti altındadır, daha doğrusu zəifləşmiş və ya zalımlaşmışlar! Destruktiv etnoslar həyatlarının əsas hissəsini mülayim və subtropik qurşağda keçirirlər. Çünki parazitizmin inkişafı üçün ən əlverişli şərait burdadır. Bu etnoslar təbiətə olduqca böyük zülmlər etmiş və etməkdədirlər! Ümumiyyətlə insanlar instinktiv olaraq hər bir predmeti, şeyi özlərinə oxşatmağa, öz yollarına yönəltməyə çalışırlar. Insanlar bu axmaq fikri həyata keçirmək üçün dəridən qabığdan çıxırlar! Insanlar istəyir ki, bütün digər varlıqlar da onlar kimi* ***«xoşbaxt»*** *olsunlar! Insanlar təbiəti özünküləşdirmək siyasətini daha çox etnik və etatik halda həyata keçirirlər. Çünki etnos və dövlət zəiflərin özlərini ifadə etməsi və rəqiblərini çərlətmək üçün ilk bir yerə yığılma prosesidir. Etnos və dövlətlərin ən təhlükəliləri isə mədəniyyət maskası taxanlardır! Məsələn, ingilislər, fransızlar, çinlilər, ruslar istər etnik, istərsə də etatik halda buna ən tipik misal ola bilər. Bu xalqların həm bəşəriyyətə, həm də iki qat artıq təbiətə vurduğu ziyanlar saysız və hesabsızdır! Mədəniyyət maskası texnologiyaya meyl edən hər bir etnosun xarakterinə çöküb, lakin avropa və ya qərb etnosları mədəniyyət maskası taxmaqda baş mütəxəsisdirlər! Buna görə də qərb xalqlarının təcavüzü şərq xalqlarının təcavüzü kimi çox zaman açıq şəkildə olmur. Çingiz şərqdən qərbə doğru qlobal hücuma*

*keçəndə mədəni, qurucu və ya xilaskar maskası taxmadı. Onun buna ehtiyacı da yox idi! Lakin kral riçardın başçılıq etdiyi səlibçilərin qərbdən şərqə doğru uzanan qlobal təcavüzü üçün belə bir maskaya ehtiyac vardı. Monqollar açıq-aşkar, olduqları kimi görünməklə mübarizə aparırdılar, anqlosakslarsa bəzəkli tərəflərini göstərməklə! Amma qərb etnoslarının şərq etnoslarına nisbətən bir üstünlükləri var ki, qərblilər şərqlilər kimi köləliyə meyl etmirlər. Hər hansı bir qərbli üçün heç vaxt kölələik ilk addım ola bilməz, amma şərqli üçün ilk addım köləliyin özüdür! Təbiətə təsir edəndə də bu faktor özünü biruzə verir. Qərblilər yaşamlarını təmin edən, həyatlarını tənzimləyən nə varsa yığır, toplayır, mənimsəyir və yaşamaq uğrunda mübarizədə məhv etdikləri fərd və etnoslara qarşı daim azadlıq və xilaskar qiyafəsində olurlar. Bununla yanaşı öz azadlıqlarını heç bir zaman unutmurlar. Fransızlar afrikanı viran edəndə, ingilislər hinduları yer üzündən siləndə, anqloamerikalılar da irak və əfqanıstanda tuğyan edəndə azadlıqsevər və xilaskar qiyafəsində deyildilərmi?! Anqlosakslar etatik formada mübarizə, münaqişə və müharibə edəndə çox səliqəylə hərəkət edirlər və heç bir cinayət izi buraxmırlar. Şərqlilərsə əksinə kortəbii dağıdır, parçalayır, onlar üçün heç olmasa bu dünyada, bu həyatda faydalı ola biləcək şeyləri, hadisələri müəyyən etməyi bir an belə düşünmürlər. Bununla yanaşı köləlikdən aldıqları həzzi heç vaxt unutmurlar. Məsələn, Çingiz lideri olduğu monqol-türk ordusu ilə bütün şərq və Islam mədəniyyətini yerlə yeksan elədi və yüz illərlə dala atdı, stalinin lideri olduğu ruslar və maonun imamlıq etdiyi çinlilər isə demək olar ki, bütün asiyanı öz təsirləri altında saxladılar və köləlik dənizinin dalğaları arasında qərq olmaq üzrə olan asiya xalqlarını yalançı kommunizm xülyalarıyla bu dənizin dibinə batırdılar! Normal halda bu dənizin dibindən çıxmaq qeyri-mümkündür. Yalnız möcüzə şərq xalqlarını köləlik xəstəliyindən sağalda bilər. Şərqdə mili-mənəvi dəyərlər belə mütiliklə, kolələiklə yoğrulub! Məsələn, sadəcə şərqdə yaranmış idman növlərinə fikir verin. Bu idman növlərinin eləsi varmı ki, mütilik ifadəsi onun başlanğıcı olmasın?! Ən pisi də budur ki, şərqdə köləliyə həmişə hörmət donu geyindirilmişdir! Bu ənənə hələ də davam edir və böyük ehtimalla uzun əsrlər davam edəcək. Çünki zəiflər və zəiflik bütün şərq mühitini ehtiva edib. Şərqdə yalnız çarlar, krallar və bəzən də onların ailələri azad ola biliblər. Amma qərbdə azı bəzi insanlara, xalqlara həmişə azadlıq nəsib olub. Qərb dünyasında heç vaxt stalin,*

*mao tsezedun və əbu ilo kimilər doğula bilməz! Doğulsa da hakimiyyət başına gələ bilməz! Çünki qərb dünyası azadlığı heç nəyə dəyişməz! Indi artıq bütün qərb dünyası azad olmağa çalışır. Lakin onlar Islamsız buna nail ola bilməyəcəklər. Çünki Islam olmasa qərb dünyası xaosu, pozğunluğu azadlıq zənn edib bədbəxtlik bataqlığında çabalayaraq batacaq!*[33]

*Səhra, yarımsəhra, çöl və ovuntulu-qayalı geolandşaftlara adaptasiya olan xalqlar ömründə bir dəfə doğur. Belə xalqların yenidən doğması çox çətindir. Yəhudilər, ermənilər, kürdlər, farslar, çinlilər 5-6 min ildir ki, necə olublarsa elə də mövcuddurlar. Yəhudi və ermənilərdən başqa heç bir etnos yalnız konkret din amili üzərində bərqərar ola bilməmişdir. İudaizm və qriqorianlıq onlar üçün genlərdən üstündür. Ancaq tez-tez etnik və etatik özbaşınalıq edirlər və buna görə də Allah onları çox zaman cəzalandırıb və cəzalandıracaq! Bu etnosların içində də hal-hazırda əksər populyasiya və etnoslarda olduğu kimi salehlərin sayı çox azdır. Bu bir ovuc saleh və mömin yəhudi və ermənilər zalim və facir yəhudi və ermənilərin əlindən və dilindən nələr çəkmədilər!?! Bu xalqların cəzalandırılmasının bir səbəbi saleh və adil rəhbərlərinə xəyanət etmələri, digər səbəbi də onları himayə edən, təcavüzkarların zülmündən qoruyan etnoslara xayənət etmələri idi. Tarix bizə göstərir ki, uca Allah novuxodonossor, konstantin və hitler kimilərin əli ilə yəhudiləri etnik və kütləvi formada cəzalandırıb. İsgəndər, Baybars və Əmir Teymur da ermənilərə əbəs yerə müsəllət olmadılar! Lakin ermənilərdən fərqli olaraq sionist və qoyist*[34] *yəhudilərin satanik təbiəti kosmik dəlillərlə sabit və məlumdur. Məsələn, Əraf surəsinin 162- ci ayəsində oxuyuruq:* ***"Lakin israil oğullarından zalım olanlar onlara deyilən sözü dəyişdirib başqa şəklə saldılar. Etdikləri haqsızlığa görə Biz də onlara göydən əzab göndərdik!"*** *Eyni surənin 167- ci ayəsində oxuyuruq:* ***"O zaman Rəbbin onlara Qiyamət gününədək əzab verəcək şəxslər göndərəcəyini xəbər vermişdi. Həqiqətən Rəbbin tezliklə əzab verəndir. Sözsüz ki, o həm də bağışlayan və rəhm edəndir!"*** *Bu ayələr yəhudilərdən zalim və facir olanların qiyamətədək cəzalanmağa haqq etdiklərini göstərir.*

[33] ***Rəşad Həqiqət, Məxfi Həyat, 2006, 57-58***

[34] ***Yəni yəhudilik və yəhudi hər kəsdən, hətta hər şeydən üstünsür. Bütün digər xalqlar yəhudilərə xidmət etmək üçün yaradılıb! Bu idealogiya faşizm və nasizmdən daha şərlidir!***

*Həmçinin kim Allahın dinini təhrif etsə, yer üzündə fəsad çıxartsa, genosid və ekosid törətsə bu hökmdədir! İstər özünə türk desin, istər yəhudi, istər alman, istərsə də erməni! Allahın ən böyük məkr və hikmətlərindən biri də zalimləri və mufsidləri bir-birinə müsəllət etməsidir! Avropanı bolşeviklərdən və qövmiyyətçi yəhudilərdən xilas edən hitler özü zalim olsa da, buxtannassar(navuxodonossor) kimi Allahın zalim və riyakar yəhudilərə göndərdiyi cəza və bəlalardan yalnız biri idi. hitler uca Allahın 20-ci əsrdəki ən böyük qəzəbi idi! hitler bütün yersiz, yurdsuz və virus tayfaları, özəlliklə slavyan-monqol bicini və qoyları yer üzündən silmək istəyirdi. İstəyirdi ki, bəşəriyyət xoşbəxt olsun. Lakin düşünmədi ki, ümumi ekosid və genosid törətməklə bəşəriyyətə bədbəxtlikdən başqa bir şey gətirmədi! Etnokatarsisin yolu hitlerin düşündüyü və törətdiyi deyildi! Ona misiya verilmişdi, lakin o ekogenosidlərilə teokosmik yoldan ayrıldı, geosatanik yola meyl etdi və sonda özü kimilərin əli ilə məhv edildi. Amma bunu unutmaq olmaz ki, Allah onu yaratmasaydı, stalin kimilər bəşəriyyətə ondan betər zülmlər edəcəkdilər! Onun ekogenosidlərini nəzərə almasaq, xilaskar təmizləyici olması danılmazdır. Əfsus ki, hələ də qoy-yəhudi mafiyasının və sionistlərin, panslavyanların, həmçinin onların quyruq bulayanlarının təbliğat və təzyiqi nəticəsində XX-ci əsrin katarsisi olan bu böyük şəxsiyyəti bəşəriyyətə monstr və vampir kimi təqdim və təbliğ edirlər! Halbuki böyük İZQOY Hitler avropalıları kütləvi kommuna-slavyan-bolşevizm xəstəliyindən və kütləvi qoylaşma-yəhudiləşmədən(orjinal yəhudiliyə xələl gətirənlərdən) xilas etdi! O, hitler ki, dünya totalitarizminin mərkəzi olan moskvanı dağıdıb yerində böyük bir su anbarı tikəcəyinə söz vermişdi. Təəssüf ki, arzusuna çatmadı! Allah hitleri ona görə yaratdı ki, yer üzü həm ateist-kommunist sistemə dönməsin, həm də qoyluq və sionizm iddia edən yəhudiləri cəzalandırsın! Hitler öz axmaqlığı və zorbalığı ucbatından arzusuna çatmasa da, ikiayaqlı qoyun və ikiayaqlı tülkülər onu xüsusi olaraq "**antihumanist**", "**antidemokrat**", **"ultrarasist"** və **"monıstr"** adlandırsalar da, hətta o gördüyü işlərə görə peşmançılıq duymuş olsa belə, nəhəng bir insan, dahi Avropa imperatoru kimi tarixdə həmişə yaşayır və yaşayacaq! Bu gün bu böyük insanı cəllad, qaniçən və başqa duşüncəsizlikdən doğan ifadələrlə damğalayan bəsit və bayağı türklər bilsin ki, Hitlerin məğlubiyyəti almanlardan daha çox türk dünyasının məğlubiyyəti idi! Əgər Hitler qalib gəlsəydi, bu qələbənin ən böyük xeyri biz azəri*

*türklərinə - Azər övladlarına dəyəcək və böyük Azərbaycan dövləti yaranacaqdı! Hitler məğlub oldu, türk xalqları köləlik okeanının dalğaları arasında qərq oldu! hitlerin zalim və qəddar olmasına şübhə yoxdur, amma onun lenin, stalin, mao, atatürk, franko, pinoçet kimi zalimlərdən xeyirli və intellektual olmasına da şübhə edilməməlidir. Onun yeganə əsəri olan **"Mənim Mübarizəm"** lenin və stalin kimilərin bütün külliyyatından qiymətli və dəyərlidir. XX əsrin yarımməsihi unutdu ki, müharibənin, savaşın aqibəti, hiyləgərlikdən asılıdır və kim daha çox hiyləgərdirsə o da qalib gəlir! Amma etnos daxili analiz aparmaması, yaxud zəif aparması böyük və bağışlanmaz səhvlərlə nəticələndi. Haqsız yerə milyonlarla insan öldürdü! Ancaq bunları stalin, mao və buş kimi gizlətmədi, çünki onlardan fərqli olaraq mərd-mərdanə "İZQOY" idi! ! hitlerin ən böyük səhvi siyonist və qoy yəhudilərlə, sıravi və orjinal yəhudilər arasında fərqi görməməsi və ya görməzlikdən gəlməsi idi ki, nəticədə haqsız yerə milyonlarla məzlum yəhudi qətlə yetrildi. Qətlə yetirdikləri içində əməli saleh Allah dostu orjinal yəhudi alimləri vardı ki, təkcə bu bəs etdi ki, Allah hitlerdən üz döndərdi! Hitler həm də unutdu ki, qədim dövrdə deyil, XX əsrdə, hiyləgər və xəbislərin, bolşeviklərin, kapitalistlərin, siyonist və qoyist yəhudilərin tüğyan etdiyi bir dövrdə yaşayır! Bəlkə də Hitler bunu bilirdi. Amma mənə elə gəlir ki, bilsəydi belə bir fikir söyləməzdi: "**Təbiət güclülər və zəiflər arasında bir savaş, güclülərin zəiflər üzərindəki mütləq qələbəsidir. Əgər belə olmasaydı, təbiətdə davamlı bir qanşıqlıq olardı. Yaşayan hər bir canlı mübarizə etməyə məcburdur. Davamlı mübarizənin bir yaşayış qanunu olduğu bu dünyada mübarizə etmək istəməyən yaşamaq haqqına da sahib deyil!"** Təbii ki, güclülər və zəiflər arasında bu dünyada mübarizə gedir, amma çox vaxt zəiflər güclülərə qalib gəlir. Elə güclü Hitlerin taleyi buna bir daha sübutdur. Sözsüz ki, hitleri tanımağım panyəhudi və yəhudi qoy şovinistləri, həmçinin havadarlarını narahat edir. Çünki bu yaramazların haqq sözə həmişə **allergiyaları** olub. Tarixdə hitlerdən daha zalim və daha namussuz olan hökmdarlar var. Lakin yəhudiləri qırıb deyə hər zaman gündəmə gətrilir. Amma bizi qırsaydı,- necə ki, erməni və rus zalimləri başımıza min cür oyunlar açıblar, neçə-neçə nəsillərimizi məhv ediblər, - heç bu cür reaksiya verilməzdi, adiləşdirilər və unutdurulardı! Hitler yəhudiləri genosidə uğratmasaydı həm müharibədə qalib gələcəkdi, həm də bütün bəşəriyyət onun XİLASKAR olduğunu etiraf edəcəkdi.*

*Təəssüf ki, axmaq hitler öz qüvvəsini düzgün hesablamadı. Əraf 167-ci ayə hitlerdən sonra da HAQQı inkar edən zalim yəhudiləri cəzalandıracaq şəxslər gələcəyinə dəlildir! əl-İsra surəsində oxuyuruq:* ***"Biz İsrail oğullartna Tövratda: "Siz yer üzündə iki dəfə fitnə-fəsad törədəcək və çox dikbaşlıq edəcəksiniz!" - deyə bildirdik. Onlardan birincisinin vaxtı gələndə üstünüzə çox güclü qallarımızı göndərdik. Onlar evlərinizin arasına gəzib dolaşır, sizi təqib edirdilər. Bu vəd artıq yerinə yetirildi. Yaxşılıq da etsəniz özünüzə etıniş olursunuz, pislik də! İkinci fıtnə-fəsadınrztn vaxtı gəldikdə üzünüzü qara etmək, məscidinizə birinci dəfə girdikləri kimi girmək və ələ keçirtdiklərini məhv etmək üçün üstünüzə göndərdik!"*** *Bəzən zülm və fəsad o həddə çatır ki, Allah zalimlərə daha çox zalim olanları müsəllət edir. Yəhudilərin nə qədər Nəbi və əməli saleh mömin qətlə yetirdiklərini heç kim inkar edə bilməz! Yəhudilər bu günədək öz varlıqlarını məhz Azər etnoslarının sayəsində qoruya bilmişlər. Azər etnosları olmasaydı və öz əmiövladları saydıqları yəhudiləri başqa xalqların zülm və təcavüzündən qorumasaydılar, bu gün yəhudi deyilən bir ad da qalmayacaqdı! Amma bu universal yaxşılığın əvəzində yəhudilər neynədilər?! Böyük din tarixçisi Renan yazır:* ***"Sabakın başçılığı ilə mataylar təmiz qanlı İsrail oğullarının vadisinə basqın edəndə Azər döyüşçüləri Kedarın çağırışı ilə köməyə gəldilər. Təhlükə sovuşan kimi İuda və İsrail tayfaları Kedar və azər övladlarını münbit və sulu ərazilərdən çıxarmağa başladılar!"***[35]*Təkcə yəhudilər deyil, bütün parazit və xain etnoslar güclü etnosların gölgəsində fırlanmış, onların sayəsində yaşamış, onlar zəifləyib əldən düşən kimi də başqaları tərəfindən deyil, məhz bu xainlər tərəfindən məhv edilmişlər! Ruslar tatar türklərini, yəhudilər də azər türklərini bu cür namərd üsulla məhv etdilər. Yəhudiləri qoruyan Azər tayfalarının böyük lideri olan Kedarın, bizim dildəki şəkli ərəbcədəki kimi Heydərdir. Əski zamanlardan ta günümüzə qədər cəsur, qüvvətli və mərd döyüşçülərə bu cür isimlər verilmişdir. Rəsulullahın İmam Əliyə Heydər adını qoyması da həm bu ənənədən, həm də istisna etmək olmaz ki, Kedar tayfaları ilə qohumluqdan qaynaqlanmışdır. Amma əfsus ki, bu cür mübarək adlar şərəf, iman və ləyaqətdən məhrum kimsələrə də qoyulur və ya verilir.*

---

[35]***История Израилъского народа. Т-1, Сп, 204***

*Hər bir etnosun içində yaxşı nüsxələr var, lakin elə etnoslar var ki, yaxşı və ya pis nüsxələrinin sayı nisbətən çox olur. Necə deyərlər, **"meşə çaqqalsız olmaz!"** Lakin elə **"meşə"** var ki, orda **"çaqqal"** hədsiz dərəcədə çoxdur. Biz də **"çaqqalların"** çox olmaması üçün çalışırıq. Qərb etnoslarının yaxşı nüsxələri şərq etnoslarına nisbətən üstünlük təşkil edir ki, bunu etiraf etməmək ədalətsizlik olardı. Əgər skandinavların, almanların, fransızların çox hissəsi normaldırsa bizim kimi neçə-neçə başıbəlalı xalqlar var ki, çox az bir hissəsi (çox zaman bu göstərici də yoxa çıxır!) normal nüsxələrdən ibarətdir. Şübhəsiz ki, bu anormallığın mövcud olmasında diktatura və aftoritarizm ən böyük rol oynayır! Şərqdə (həmçinin Azərbaycanda) tikanlıq və kolluqlar içində azadlığ qoxusu gələn **"güllərə"** rast gəlmək olur. Lakin bir-neçə güllə yaz olmur! Şərqdə azadfikirli və ləyaqətli nüsxələri seçib-ayıra biləcək və qoruyacaq beynəlxalq təşkilat və ya qurumun və ya qurumların yaradılmasına çox böyük ehtiyac var. Bu təşkilatın aşağıda göstərəcəyimiz prinsipləri olarsa tezliklə fövqəlbəşəriyyət və ya superetnos yaranar:*

*1)Təşkilatın hər üzvü iman sahibi olmalıdır, yəni sözün həqiqi mənasında hənifı mömin! Bütü olan insanlara bu təşkilatda yer yoxdur!*

*2)Təşkilatın hər bir üzvü ən azı bir elmi mükəmməl bilməlidir, başqa bir-neçə elmi də orta səviyyədə!*

*3)Təşkilatın sədri məşvərət metodu ilə seçilməli, lakin bu şəxs ən azı 3 elmi mükəmməl bilməlidir.*

*4)Hər il sədr vəzifəsinə seçkilər keçirilməli və təşkilatın hər bir üzvü tərəfindən sədrin qarşısında müvafiq təkliflər qoyulmalıdır.*

*5)Hər bir xalqın nümayəndələri öz milli davranış qaydalarından imtina etməyə məcbur edilməməlidir. Onların hər biri öz dilində danışa, yazıb-yarada bilər.*

*6)Müxtəlif xalqların dahi nümayəndələri arasında anlaşılmazlıq yaranmasın deyə, yüksək səviyyəli poliqlotlar vasitəsilə danışıqlar və əsərlər tərcümə edilməlidir. Hər həftə qlobal və regional diskusiyalar aparılmalıdır.*

*7)Ümumi bir dil qəbul edilməli, bu dil ən sadə, hamı tərəfindən tez başa düşülən dil olmalıdır.*

*Belə prinsiplər üzərində qurulmuş beynalxalq təşkilat (təbii ki, qeyri-hökümət xarakterli) yəqin qiyamət gününə qədər yaşayar və yer üzündə heç bir xalqın, heç bir dövlətin və heç bir təşkilatın görə*

*bilməyəcəyi işi görər! Beləliklə, sırf müsbət passionarlardan ibarət etnos, daha dəqiq desək, superetnos gec-tez yaranmalıdır!* [36] *Məhəmməd əleyhissalam bu işdə ilk addımları atıb, lakin bu işi hökmən başa çatdırmaq lazımdır. Nəyin bahasına olursa olsun! Haqqı inkar və həqiqətə üsyan edən insanlarla, haqqa iman və haqq yolunda qeyrət edən insanların bir yerdə, bir məmləkətdə yaşadığı cəmiyyətdən yalnız anormallıq, tənəzzül və sonu çox böyük milli faciə ilə başa catacaq konfilikt gözləmək olar! Belə cəmiyyətdən həqiqi müsəlman çətinliklə çıxır, çox vaxt isə heç çıxmır! Həqiqi müsəlman kollektivin varlığı üçün lazımdır ki, möminlərin yaşadığı ayrıca ərazi olsun, həm də xüsusi təhsil sistemi, siyasi-iqtisadi birliyi yaradılsın! Bütün bu işlərə heç bir qeyri-mömin qətiyyən müdaxilə edə bilməsin! Hər hansı bir möminin istifadə edəcəyi (yaxud etdiyi) əşyalardan(qab, geyim və s.) yalnız möminlər istifadə edə bilsin! Zərurət olmadıqda heç buna da yol verilməsin! Hər hansı bir mömin (iqtisadi ehtiyac yaranarsa) yalnız mömin olan şəxsə müraciət etsin. Heç bir qeyri-möminlə dərindən münasibətə malik olmamalı, bu münasibətlər səthi olmalıdır. Məzhəblər arasında mövcud olan formal konfliktlərə ən azı ən böyük zalımlar məhv edilənədək son qoyulmalıdır! Əks halda müasir ikiayaqlı şeytanlara bata bilməyəcəyik! Konflikt yaradan söz, iş və ya düşüncə sahibi, kimliyindən aslı olmayaraq hökmən cəzalandırılmalıdır! Böyük ikiayaqlı şeytanlarla haqq-hesabı çürütdükdən sonra şəxsi mövqelər, məzhəblər arasındakı fərqlərdən doğan görüş və düşüncələr qəbul edilə bilər, amma mübaliğəsiz! Möminlərın quracağı dövlət bu prinsip üzərində qurulmalıdır: kimin elmi çoxdursa onun səlahiyyəti, vəzifəsi də bu elmə müvafiq olmalıdır. Nadanlar, cahıllər, zorbalar dövlət strukturlarından uzaqlaşdırılmalı, hətta sürgün edilməlidir! Təbii ki, bu dövlətin ilk və sonuncu, yeganə konstitusiyası Quran olmalıdır! Qurana zidd olan hər hansı söz, fikir və iş sahibi tezliklə törətdiyi cinayətə uyğun olaraq cəzalandırılmalıdır!*

*Qeyd etdiyım kimi hər bir etnos formalaşdığı landşafta müvafiq görkəm alır və funksional tam olur. Əgər formalaşma yarımçıq qalarsa, etnos hər hansı bir* ***"dirijor"****un barmağını tərpətməsi ilə istənilən* ***"xor mahnısını"*** *ifa etməyə hazır olan kütləyə çevrilir! Fikrimizi əyanı mısallarla sübut etmək üçün konkret faktlara*

[36] ***Rəşad Ramazanlı, Mühitşünaslıq, 3-cü fəsil***

*əsaslanaq və Qafqazın hüdudlanndan kənara çıxmayaq. Çünki qafqaz yer üzü coğrafı komplekslərin nüvəsinə bənzəyir. Çünki burada hər şey mövcud olmasa da, çox şey var. Qafqaz sözün həqiqi mənasında superkompleksdir. Qafqaz etnosların yeddi törəmə mərkəzlərindən bıridir. Bu regionda əmələ gəlmiş etnoslar əlahiddə xarakterik xüsusiyyətlərə malikdirlər ki, məhz bu xüsusiyyətlər çox zaman qafqazı xatırladan amıl kimi çıxış edir. Lakin hər bir qafqaz etnosu da xüsusi xarakterik xüsusiyyətlərə malikdir. Məsələn, gürcülər tənbəl, abxazlar mübariz, qarabağlılar eyş-işrət hərisi, abşeronlular sırtıqdır. Təbii kı, bu xislətlər göydən gəlməyıb, yerli təbii şəraitə uyğunlaşmanın nəticəsidir. Belə ki, məsələn, gürcülərin tənbəl olmasının əsas səbəbi kolxida ovalığındakı su ehtiyatlarının və rütubətin çoxluğudursa, abşeronluların da hədsiz dərəcədə sırtıq olmasında şirin suyun qıtlığı və arid iqlim şəraiti böyük rol oynayır. Qafqazın təsadüfi və endemik sakınlərı tez idarə olunandır, lakin relikt etnoslar həmişə və hər yerdə çox çətinliklə ram edilirlər. Bu, naxçıvanlıların timsalında daha aydın görünür. Əlbəttə, biz sözün əsl mənasinda naxçıvanlı olanları nəzərdə tuturuq, çöl kürdləri və başqa gəlmə xalqları yox. Quru-kontınental iqlim mənəvi dünyanı mühafizə edən əsas faktorlardandır. Bu iqlimə adaptasiya olanlar qanunverici ve qanuniliyə çox meyilli olurlar. Təsadüfi deyil ki, bu etnosdan Yusif Məmmədəliyev, Elçibəy, Hüseyn Cavid kimi qeyrətli, patriot şəxsiyyətlər çıxıb. Qafqaz xalqlarını idarə edən liderlərin əksəriyyəti rütubətsiz, alçaq və orta dağlığın meşə-çöl geolandşaftının məhsullarıdır. Müstəqillik qazandığımız dövrdən indiyə kimi mövcud olan siyasi liderlərin əksəriyyətinin genofond və ekofondunun bu geolandşaftın məhsulu olduğunu kim dana bilər? Təkcə bizdə hakimiyyəti təşkil edən subyektlərin böyük əksəriyyəti kiçik qafqazın meşə-çöl və quru-çöl landşaftlarının məhsulu deyilmi?! Əfsus ki, əlverişli xronoekoloji şəraitə malik olan bu sistemin mövcudluğunu yalnız yerlibazlıq amili ilə izah etmək olmur! Çünki yerlibazlığın özü də passionarlığın atributu olub xronoekosistemin təsiri ilə yaranır. Qumilyovun dediyi kimi* ***"passionarlıq hər bir kəsdə bu və ya digər dərəcədə var"****, lakin yerlibazlıqda hər bir kəsdə bu və ya digər dərəcədə var. Çünki yerlibazlıq passionarlığın ən əsas hissələrindən biridir. Lakin mülayim iqlim şəraitində, az rütubətli, alçaq və orta dağlığın meşə-çöl və qismən açıq şabalıdı torpaqlardan təşkil olunmuş çöl geolandşaftlarında formalaşan xalqlarda(məsələn, çöl*

*kürdlərində) isə qəhrəmalıqla yanaşı, tamahkarlıq, torpaq və hakimiyyət hərisliyi, soyğunçuluq, qəsbkarlıq və başqa mənfi xüsusiyyətlər də inkişaf edir. Çünki bu mühitlər etnosların bir-birinə qarışdığı ərazilərin əsas hissəsidir. Maraqlıdır ki, endemik etnoslar daha çox bu geomorfosistemlərə meyl edirlər. Əfsus ki, bu ərazilərin endemik sakinləri sırf virusogen xarakterlidir! Bu geolandşaftda formalaşan etnoslar əsasən destruktiv və virus olub büsbütün qafqaz antroposisteminin əsasnı təşkil edirlər. Bu baxımdan ruslaşmış ərəb dönməsi puşkinin Qafqaz xalqlarını "**zaraza**"**(virus)** adlandırmasına hardasa haqq qazandırmaq olar. Lakin böyük və kiçik qafqazın orta dağlığında, dağ-meşə, dağ-çəmən, dağ çayları və dağ gölləri təbii komplekslərinin mövcud olduğu ərazilərdə məskunlaşmış etnoslara, nə qədər az olsalar da,(dağ Avarları, Zuvəndlilər, İlisu camaatı, Karaçaylılar və b.) bircə dəfə nəzər salanda puşkinin özünü **zaraza** adlındırmaqdan başqa çarəmiz qalmır. Gərək o qədər xəbis, alçaq və namərd olasan ki, ruslardan azı min dəfə sağlam olan etnosları **zaraza** adlandıra biləsən! Bunu yalnız rus və fars bacarar! Antropogen faktorun əsas etibarı ilə visus olması geosistemin də əsasən virusa yoluxmasına səbəb olub, lakin hər bir sistem əsasına görə deyil, dəyər və mənasına görə qiymətləndirilməlidir! Bunu da yalnız dağlı bacarar! Qafqazın mülayim iqlimli meşə-çöl və quru-çöl komplekslərinin mövcud olduğu alçaq və orta dağlıqda məskunlaşmış etnoslarda mənfi və müsbət xüsusiyyətlərin nisbəti təxminən vahidə bərabər olduğu halda, dağ-meşə, dağ-çəmən, dağ-göl və dağ-çay komplekslərinin təbii müvazinəti mühafizə edilə bilən zonaların relikt əlahisində mövcud olan passionarlığın əsası müsbət enerjilidir. Məsələn, Şeyx Şamil, Baysunqur, Hacı Murad, İmam Mustafayev, Sadıq Xan, Şamil Bassayev kimi passionar şəxsiyyətlərin timsalında bu çox aydın görünür. Təbii ki, necə deyərlər "**hər yerin (həmçinin hər zamanın) pisi də var, yaxşısı da**", lakin elə yerlər, elə zamanlar var ki, ya pis, ya da yaxşılarla doludur. Ram edilməsi birbaşa qeyri-mümkün olan etnoslardan biri də dağlıq şirvanın əhalisidir. Burada da rütubət çox azdır, lakin relyefin alçaq və orta dağlıqdan ibarət olması müsbət enerjili passionarlığın az da olsa inkişaf etməsinə şərait yaratmışdır. Bu mühitdən Sabir, Seyid-Əzim, Alim kimi xalis məhsulların çıxması fikirimizin əsassız olmadığına sübutdur. Amma bu mühitə adaptasiya olmağa çalışan endenik etnoslar(məsələn, padarlar) nə sivil, nə də mədəni xarakterə malik ola bilməmişlər.*

*Şimali Azərbaycan müxtəlif ekoqrafik rayonlardan ibarətdir. Bu rayonlarda yaşayan hər bir etnosun da spesifik xarakterik xüsusiyyətləri var. Bu xüsusiyyətləri formalaşdıran ekoqrafik landşaftlardır. Bu səbəbdən hər bir geolandşaft üzərində formalaşan əhali təbiilik və antropogenləşmə dərəcəsinə müvafiq görkəm alır. Qafqaz regionunun iki hissəsi var ki, burada passionarlıq əsas etibarı ilə mənfi istiqamətdə inkişaf edir. Bu hissələrdən biri kolxida ovalığı, o biri də kür-araz ovalığıdır. Gürcü xalqının xarakterində tənbəlliyin böyük yer tutması məhz kolxida ovalığındakı bataqlıq komplekslərinin təsirindəndir. Təbii ki, bataqlıq kompleksləri əsasən su ehtiyatlannın bolluğu və bəzən də bunlardan səmərəsiz istifadə nəticəsində formalaşır! Ümumiyyətlə tənbəllik hissi idrakın əqli idrak üzərindəki nisbi qələbəsinin təzahürüdür ki, gürcülər bu xarakterlərilə etnoprosesdə xüsusi seçilirlər. Böyük coğrafiyaşünas Ratsel elə bunu sezə və seçə bildiyi üçün deyirdi: "**Xaraktercə tənbəl və hissiyatlı olan gürcü buna görə dönə-dönə avropalıların qabağında diz çökmüşdür!**" Bəli, gürcülər bir-iki əsr istisna olmaqla (xüsusilə XII-XIII əsrlər) demək olar ki, bütün zamanlar nəinki avropalıların, krım tatarları, çeçenlər, abxazlar, karaçaylılar, azər övladları və hətta **dığa** ermənilərin də qabağında diz çökmüş və baş əymişlər! Əlbəttə, bu sərt həqiqət bər hansı gürcü və gürcüsifət tərəfindən kin-kidurətlə qarşılana bilər və yəqın qarşılanacaq da. Kür-Araz ovalığı isə indi tam deqradasiya- eroziya olsa da, soyuq müharibə dövrünə qədər burada mövcud olan meşə, meşə-çəmən komponentləri (xüsusən, tuqay meşələri) passionarlığın tam dağıdıcı xarakterdə olmasının qarşısını almışdı. Kür-Araz ovalığının relikt sakinlərindən məşhur şəxslərin, məsələn, Cavad xan, Cahangir Kazımbəyli, Həsən bəy Zərdabi kimi böyük istedadlaırn çıxması məhz bu amillə izah edilməlidir. brejnev dövründən başlayaraq meşələrin beton bloklarla əvəzlənməsi kimi səfeh siyasət nəticəsində **sovet etnosları** daha çox fırıldaqçı, hiyləgər və xəbis məhsullar istehsal etməyə başladılar. Təbii ki, çox cüzi istisna var, lakin bu reliktliyin tam sıradan çıxmaması və əlaxüsus relikt geolandşaftlardan qalmış komponent hissəciklərinin təsirindəndir. Heç kim inkar edə bilməz ki, qarabağlı ya çalmalı, ya oxumalı, ya da oynamalıdır, amma eyni sözləri muğan düzünün əhalisinə şamil eləmək olmur. Belə ki, muğanlılar ararsında əsasən xəyanət və satqınlıq xarakterikdir. Məsələn, biləsuvar əhalisi əksəriyyətcə elə bil ki, anadan xəbərçi doğulurlar. Qarabağ isə indi*

*tam antropogen faktorun nəzarəti altında olsa da, XX əsrə qədər antropogen neqativ effekt çox yerdə, o cümlədən qarabağda da hakim deyildi. Buna görə də qarabağlılar öz genlərindən muğanlılara nisbətən çox istıfadə edirlər. Çünki, Mugan (ümumiyyətlə Kür-Araz ekoqrafik rayonu) əsasən şoran komplekslərdən ıbarətdir, həmçinin cənubdan bir qədər rütubətli mühitin təsiri bu ərazidəki duzların miqrasiyasına mane olur, yəni ərazidə toplanmış duzlar harada toplanırsa əsas etibarı ilə orada da qalır! Bunun da nəticəsində orada məskunlaşan əhali tədricən müsbət xüsusiyyətlərini itirir. Analoji hal, mil, şirvan, qarabağ və gəncə-qazax düzündə (qarayazı düzü də daxil olmaqla) də mövcuddur. Lakin şoran geolandşaftın təsirindən ən çox əziyyət çəkən və müsbət xüsusiyyətlərini itirən ucarlılardır. Bu səbəbdən ucar rayonunun əhalisi mənəvi baxımdan əksəriyyətcə çox dəyərsiz, keyfiyyətsiz insanlardır. Ölkəmizin ən keyfiyyətsiz və vətənimiz üçün potensial təhlükə mənbəyi olmuş, olan və olacaq insanlar şoran torpaqlarda məskunlaşan və ora adaptasiya olan insanlardır. Bu cür insanların hakimiyyətdə olması ölkənin bütün iqtisadi resurslarının talan və israf edilməsinə yol aça bilər. Necə ki, ziya məmmədovun nümunəsində biz bu israf və talanı müşahidə edirik. Əgər dərin araşdırma aparsaq istər vətənimizdə, istərsə də vətənimizdən kənarda müxtəlif peşələrlə məşğul olan soydaşlanmız arasında dələduzluq, oğurluq, fırıldaq, talan, başqa sözlə "**atmaqla**" gününü keçirənlərin çoxunun sabirabadlı, imişli, masallılı, cəlləbadlı, ağcəbədili və göyçaylı olduğunu görərik. Fahişəliklə məşğul olan qadınların da əksəriyyəti gəncə-qazax və muğan zonasından çıxır. Heç kim inkar edə bilməz ki, bu zonadakı qadınlar əksəriyyətcə digər zona qadınlarına nisbətən daha ehtirasılı olurlar. İqtisadi çətinlik ucbatından bu gün fahişəliklə məşğul olan qadınlar çoxdur. Halbuki heç bir ciddi ekonomik sıxıntı olmadığı zamanlarda da Şimali Azərbaycanın* ***"at oynadan"*** *fahişələri gəncə, qazax, səlyan və neftçaladan çıxırdı. Dünyada çox nadir fikir və ideya tapılar ki, yüz faiz doğru olsun! Hər hansı bir fikir və mülahizənin doğru olması üçün onun tamamı ilə düzgün olması vacib deyil, əsas etibarı ilə həqiqi olması kifayətdir! Ümumiyyətlə, akkumliyativ çöküntülərin toplandığı və karbonatlıq dərəcəsi çox olan torpaqlardan ibarət ərazilər sözün əsl mənasında tragedik ərazilərdir. Belə ərazilərdə formalaşan və ya bu ərazilərə adaptasiya olan etnoslardan şərəfli, namuslu adamlar az çıxır, çox vaxt isə heç çıxmır! Söhbət ondan gedir*

*ki, təbii şəraiti kifayət qədər mühafizə olunan və ya antropogen modifikasiyaya az məruz qalan ərazilərin sakinləri ilə antropogenləşmiş ərazilərin sakinləri arasında xaraktercə, davranışca təmizliklə çirkabın arasınakı fərqdən də böyük fərq vardır. Yenə də bir neçə misal çəkək. Çeçenistanın şimal bölgəsində məskunlaşmış əhali əsasən yolkəsən, necə deyərlər "**yetənə-yetən, yetməyənə də bir daş atan**" xislətinə malikdir. Elə bu axmaqların ucbatındandır ki, yırtıcı rus siyasətçiləri çeçen xalqını azadlıqdan məhrum etmək və genosidə məruz qoymaq üçün "**priçina**" tapdılar! Çeçenistanın cənub hissəsində məskunlaşıb adaptasiya olan tayfalar isə çox döyüşkən, cəsur və mərd xarakterə sahibdir. Cənubi çeçenistanın dağ ətəyi zonasında Bassayev kimi igid və qəhraman mücahidlər formalaşıbsa, şimal zonasından da kadırovlar kimi çeçen xalqını rus faşist və şovinistlərinə satan xainlər çıxıb və az da deyillər! Respublikamızda da dağlıq və qeyri-dağlıq ərazilərə məskunlaşıb adaptasiya olan xalqlar arasında bu cür xarakterik fərqlər var. Məsələn, lənkəran ekoqrafik rayonunun dağlıq və ovalıq hissələrindəki etnosları müqayisə etsək, açıq-aşkar görərik ki, ovalıq əhalisi əsas etibarı ilə sırtıq və fırıldaqçı, dağlıq əraziyə adaptasiya olan insanların çoxu isə ləyaqətli və şərəflidir. Lakin əfsus ki, son dövrlər genetik eroziya-deqradasiyanın miqyası qlobal xarakterə malik olduğundan namus və qeyrət kimi ulu və gözəl, əvəzsiz nemətlər sıradan tam çıxmaq üzrədir! İndi bütün dövrlərdən fərqli olaraq binamusluq və biqeyrətlik qətiyyətlə qəhrmanlığa bərabər tutulur! Bu isə ayrıca bir insandan tutmuş etnosa və ya insan mühitinə qədər bütün geoelementlərin ən azı əsasən ətraf mühitdən (geolandşaftdan) asılı olduğunu bir daha göstərir! Yalnız iman gətirməklə geolandşaftın təsirindən uzaq olmaq olar. İnsan iman gətirməzsə, o həqiqətən təbiətin, ətraf mühitin məhsulu kimi olur. İman gətirməyən insan ən azı adi bir heyvandan fərqlənmir. Bu elə başqa bir formada Quranda təsdiq olunur. Bu "**məhsullar**" təbiət və Allah üçün dəyərsiz, qiymətsizdir! Quranda bu barədə deyilir: "**Allah yanında məxluqatın**[37] **ən pisi kafir olanlardır ki, artıq iman gətirməzlər!**"[38] Mən ümüd edirəm ki, gələcək günlərin birində iman gətirənlərdən ibarət ümumdünya dövləti qurulacaq. Bu*

---

[37] ***Bu ayədəki "əd-dəvaaabbi" kəlməsi hərəkət edən, canlı, həşarat və ümumən məxluq mənasında işlənir ki, məncə məxluq daha geniş və daha uyğundur.***
[38] ***Qurani-Kərim, 8/55***

*dövləti quracaq ŞƏXS isə rəsul və nəbilərin sonuncu varisi, xələfidir! Haçansa ümumdünya dövləti qurulsa bu nəhəng dövlətin bütün siyasi sistemi yalnız bir xalqa - türklərə həvalə edilməlidir. Əlbəttə, mən əskilmişlərdən yox, əsl türklərdən danışıram! İqtisadiyyatın yuxarı sahələrilə anqlosaks etnoslar, elm ve təhsili möhkəmləndirməklə german tayfaları və yaponlar məşğul olmalıdır. Slavyanlara, çinlilərə, kürdlərə, talışlara, ermənilərə, gürcülərə yalnız hüquq mühafizə orqanlarında və iqtisadiyyatın aşağı sahələrində - kənd təssərrüfatında çalışmağa icazə verilə bilər! Əgər bu xalqlardan hər hansı birinə elm-təhsil sistemi, yaxud siyasi və iqtisadi strukturlardan hər hansı biri həvalə edilsə, qısa bir zamanda elm və təhsildən, həmçinin siyasi inistitut və iqtisadi resurslardan əsər-əlamət qalmayacaq! Bir şey unudulmamalıdır ki, acla tox bir deyil. Buna görə hakimiyyətdə əsli-kökü olan, necə deyərlər doymuş, görmüş ailədən - millətdən çıxan adamlar təmsil olunmalıdır! Əgər lümpen etnoslar digər etnosların üzərində hakim olsalar məhvedici qlobal fəlakət qaçınılmazdır. Məsələn, ruslar ağalıq hüququna malik olsalar, bütün xalqların nadir, çox qiymətli tarixi və sənət incilərini oğurlayıb ermitaja və başqa muzeylərinə daşıyacaqlar! Bu hələ ruslarrn ilk addmı olardı, sonra isə ağlasığmaz bir dəhşətlə üzləşərdik – kütləvi genosid, qeyrətsizlik, dəyyusluq! Çeçənlərin başına nə oyun açdıqlarına diqqət edin! O cür qəhrəman və igid çeçənləri qeyrətsiz və dəyyus bir kütləyə döndərilmədimi?! Əgər farslar digər etnosların üzərində hakimiyyətə malik olsaydılar, onda qorxaqlıq, cılızlıq və dil pəhləvanı olmaq dünyanı bürüyər, insanların əksəriyyəti yalnız riya və boşboğazlıqla problemləri çözməyə çalışardılar. Çinlilər isə möhtəşəm bir qul sistemi yaradar və kütləvi manqurtlaşmağa rəvac verərdilər! Yəhudilər, ermənilər və gürcülər hər şeydən əvvəl bütün başqa xalqların seçmə nüsxələrini məhv edərdilər! Heyvandarlığı böyük məharətlə bacaran kürdlər isə digər xalqları ən azı qoyun kimi mələməyə məcbur edər, otarar və çomaqlayardılar! Ərəblər də öz növbəsində elə böyük xalq bazarı yaradardılar ki, burada qeyrət, namus, mərdlik və başqa mənəvi sərvətlərin* ***"topdan satışı"*** *təşkil edilərdi! Tarix bizə bu xalqların hər birinin siyasi fəaliyyətini dəqiq və səhih göstərir. Hətta, indinin özündə belə bu xalqlardan bəzilərinin hakimiyyətdə olmasının törətdiyi fıtnə-fəsadlar gözümüzün qabağındadır. Əlbəttə bu xalqlardan bəziləri siyasi səhnədən çıxıblar, lakin çox güman ki, bu müvəqqətidir. Tiraniya təbiətli xalqlar məhv*

*olarlar, amma sosial təbiətlərini dəyişməzlər. Tiranik təbiətli xalqlarda hakimiyyət həmişə bir şəxsin əlində cəmləşir. Və həmin şəxs* ***"xalqın atası"*** *rolunu oynayıb hökmdarı olduğu xalqın nümayəndələrindən "****xor kollektivi****" hazırlayır, özü də "****dirijor****" olur! Təəssüf ki, xalqımızın təbiəti də hal-hazırda tiranikdir. Meşə və meşə-çəmən komplekslərindən məhrum olmuş ərazilər belə xalqlann genetik mərkəzidir. Bu xalqların tamam əksi olan etnoslardan iki ən məhşuru olan anqlosaks və germanlarla əlaqədar Monteskye belə yazır:* ***"Tasitin germanların əxlaqı haqqındakı parlaq əsərini oxumaq istəyən hər kəs ingilislərin öz siyasi idarəetmə üsulunu germanlardan mənimsədiyini görmüş olar. Bu gözəl sistem meşələrdə kəşf edilmişdir!"*** *Monteskyenin sözünə qüvvət olaraq deməliyəm ki, bütün gözəl, dəyərli, zərərsiz nə varsa meşələrdə kəşf edilmişdir. Çünki meşə və onun qanunları müstəqillik, müdriklik və azadlıq carçısıdır! Meşəsizlik isə köləlik deməkdir - proletariatın təbiətinə uyğundur. Təbii ki, dağlıq və düzənlik meşələri arasında da fərq var. Dağ meşə, dağ meşə-çəmən landşaftının pozitiv enerji və effektləri düzənlik meşələrinin pozitiv enerji ve effektlərindən daha çoxdur. Məlumdur ki, meşəli ərazilər bütün təbii göstəricilərə görə ən məhsuldar ərazilərdir. Meşə torpaqqoruyucu funksiyadan başqa etnosqoruyucu funksiyanı da icra edir, başqa sözlə təbii komponentlərin mühavizəsini təmin edir. Amma məxfi şovinizmə qapılmış Qumilyov kimi bəziləri nədənsə çölü və ya çöllüyü fövqəltəbii kompleks kimi təqdim etməyə çalışaraq iddia edirlər ki, çöllük etnosun formalaşmasında ən əlverişli geolandşaftdır. Dədə-babalarımız bizə tam aydın olmayan, amma aydınlaşdırılması mümkün olan səbəblər ucbatından çöllüklərdə, yarımsəhralıqlarda yaşayıblar və deməli çöl və yarımsəhra mühiti "****çox gözəl və çox məhsuldar****" mühit olmalıdır?! Əgər əcdadlarımız nival və ya qütb landşaftlarında, yaxud bataqlıqlaşmış ərazilərdə yaşasaydılar, onda Qumilyov yəqin ki, bu erazilləri də "****həyat üçün çox yararlı"*** *yer hesab edərdi. Axı, bizim əcdadlar mütləq əlvərişli və məhsuldar təbii şəraitdə yaşamalıydılar! Türk etnoslarının virus və ya parazitar olmadığını sübut etmək üçün virusogen və parazitar mühitləri az qala müqəddəs mühit hesab etmək lazım deyil, təbiət tarixinin dərinliyinə varmaq, ən qədim əcdadlarımızın meşəsizlik şəraitində yaşamadığını aydınlaşdırmaq və sübut etmək lazımdır. Bir də onu sübut etmək lazımdır ki, bizi vaxtilə qarışqa xislətli çin tayfaları birləşib öz doğma yurdlarımızdan*

*çıxartdılar, nəticədə çöldə (uyqurlar kimi), yarımsəhrada(monqollar kimi), hətta səhra (orta asiyadakı türkmənlər kimi) və qütb ətrafında (eskimoslar kimi) yaşamağa məhkum edildik. Eyni formalı hadisəni slavyanlar, farslar, parfıyalılar, alanlar, eftalitlər, gürcülər, tatlar və ermənilər də başımıza gətirib. Bizim doğma yurdlanmızda əvvəlcə yazıq-yazıq, mərhəmətimiz əhatəsində daxil və məskun oldular, sonra da mərdi-məzarlıq etdilər, güc və qudrət tapan kimi bizə xəyanət etdilər və öz yurdlarımızdan qovdular! Bütün bu faciələrdə biz də onlar qədər günahkarıq. Çünki özlərini türk hesab edənlərin də əksəriyyəti erməni, fars, kürd və ya rusdan heç nəylə fərqlənmir, elə onlara bənzəyir.*

*Ixtiyari mühitə adaptasiya olmaq üçün ömürün ən azı üçdə iki hissəsi həmən mühitdə yaşanmalıdır. Bu nəinki fərdə, habelə etnoslara, populyasiyalara və digər biosistemlərə də aiddir.* [39] *Passionarlıq, zəifləmə və masqalanma prosesi də məhz bu amillə bağlıdır. Keçmiş SSRI xalqlarının 70 ildəki həyat və fəaliyyətini öyrənməklə bu zəifliyə və masqalanma prosesinin təqlidinə daha yaxından bələd olmaq mümkündür. Bu etnosların varlığına diqqət etdikdə bir daha əmin oldum ki, iti zəncirləyəndə bəddəşmə, daha yırtıcı və daha dağıdıcı olmaq ehtimalı çoxalır. Keçmiş SSRI xalqları böyük şura imperiyasında hər biri müəyyən arealda zəncirlənmişdi. Bircə ruslar ciyə ilə bağlanmışdı.* [40] *Çünki imperiyanı quran etnos ruslar idi. Imperiyanın ömrünün birinci yarısı şura xalqlarını güclü nüsxələrdən tamam təmizləməyə həsr olundu. Imperiya ömrünün ikinci yarısında isə imperiyadan xaric xalqlara qarşı şura xalqlarına bayağı özünübəyənmə hissi hakim oldu. Nəhayət şura xalqları zəncirlərini qırıb qaçdılar, amma bu dəfə stalinciklər tərəfindən tələyə salındılar! Şura xalqlarına Allah tərəfindən bir möcüzə olaraq azadlıq bəxş edildisə də bu azadlıq yenə də itrildi! Çünki verilən azadlıq hər zaman itrilir və ya ən azı itrilə bilər! Amma alınan azadlıq heç vaxt itrilmir! Təkcə bizim xalqın başına gələnləri analiz etdikdə bir daha buna şahid oluruq. Bu xalqın min illərdən bəri formalaşmış xarakteri və bu xarekterə hakim olan mal-mülk, sərvət və qadın hərisliyi ona azadlıq uğrunda mübarizə aparmağa və nəhayət azad olmağa imkan vermədi! Düha Sabir əbəs yerə demirdi:*

[39] ***Rəşad Həqiqət, Məxfi Həqiqətlər, 79***
[40] ***Yenə orada, 76***

***"Sərvət sevər insanlarıq üç-beş yaşımızdan!***
***Fitnə göyərir torpağımızdan, daşımızdan!"***

*Sabirin bu sözünün həqiqət olduğuna şübhə edənlər təkcə bizim adam etnosunun rüşvətsevərliklə yoğrulmuş xarakterinə diqqət etsələr şübhələri bir andaca yox olub gedər. Adi bir həqiqətdir ki, bu məmləkətdə hazırlayanlar, öyrədənlər, vəzifə başında oturanlar, hətta dövlətin üzdəniraq rəhbərləri də əsasən sağıcı, onlardan asılı olanlarsa (tələbə, xəstə, fəhlə və s.) mal-qara funksiyasını fəxrlə icra edirlər! Biz ümid edirik ki, sağanlar sağdıqlarından yedikləri şapalaqlardan nə vaxtsa təngə gələcəklər. Arada görürük ki, sağıcıların* ***"ağappaq xələtləri"*** *sağılanların nəcislərilə bulaşıb. Amma çətin ki,* ***sağıcılar*** *bu xalis murdarlanmadan utanıb xəcalət çəksinlər! Çünki sağanlarda həya deyilən şey qalmayıb və bütün xalq bu çirkaba bulaşıb! Vəzifə sahibləri bundan sanki zövq alır! Hakimiyyət deyir:* ***«Təmiz və düz kimi gözə dəy, amma rüşvət al haa!»*** *Bütün qafqaz və orta asiya etnosları da bizim günümüzdədir. Hamısı bizim kimi zombi və manqurtlar yığınıdır! Lakin bizim etnik və etatik durumumuz onların çoxundan pisdir! Bizim etnosa xas olan elə bir xüsusiyyət var ki, bu xarakterik xüsusiyyətimizi dillə necə ifadə edim heç bilmirəm! Bu xüsusiyyətimiz xainlik, həsəd (paxıllıq) və riyakarlığın qarışığından əmələ gəlmiş unikal bir affektdir. Bizim bu unikal xarekterik xüsusiyyətimizi bir-çox etnoslar, o cümlədən almanlar da bilirdi. Belə ki, ikinci dünya müharibəsində bir qrup sovet parniki məhsulunu əsir edirlər. Əsirlərə cəza vermək barədə qərar çıxarılarkən, alman döyüşçülərinin başçısı əmr verir ki, əsir düşənlərin içərisində nə qədər xalqa məxsus adam varsa hamısı ayrı-ayrı bir yerə toplansın. Bu əsirlərin içində gürcü, erməni, rus, özbək və digər xalqlara məxsus adamlar olmaqla yanaşı, bizimkilər də varmış. Xülasə, şura parniki məhsullarını ayrı-ayrılıqda bir yerə toplayırlar və nəhayət alman generalı əmr edir ki, hər bir xalqa məxsus adamları ayrı-ayrılıqda quyulara salsınlar və bircə azərbaycan türklərinin salındığı quyunun ağzını açıq qoysunlar. Başçılarının heç bir əmrinə etiraz etməyən alman əsgərlərindən biri nədənsə dözməyib bunun səbəbini soruşduqda geniş dünyagörüşlü, təcrübəli general belə cavab verir:* ***«Onsuz da çıxa bilməyəcəklər! Bunlar elə tipdirlər ki, biri bir yerə çıxmaq istədikdə o birisi tez onun***

***ayağından tutub aşağı çəkir. Və bu səbəbdən həmişə karıxıb qalırlar!»***[41] *Şübhə etmirəm ki, belə bir xarekterik xüsusiyyəti olan etnos məhvə məhkumdur! Bizim bu cür xəbis və paxıllar yığını bir kütlə olmağımız gizlədiləsi, ört-basdır ediləsi bir şey deyil. Xalqını, dövlətini sevən adam xalqını da, dövlətini də tənqid etməyi də bacarmalıdır. Yalnız tərifləməyi və təriflənməyi sevənlər xalqda, dövlətdə və mühitdə heç bir yaxşı təsir buraxmırlar. Iki ayaqlı tülkü və çaqalların hakimiyyətdə olduğu cəmiyyətlərdə xalqın eyib və qüsurları ustalıqla gizlədilir, amma bunun xalqa nəinki faydası yoxdur, çox böyük zərəri var! Çünki bu gizlədilən eyiblər nə zamansa xalqa minnət qoymaq və sərki vermək üçündür ki, zülm üzərində qurulmuş rejim məşru donu geyinə bilsin! Əgər xalq zalım hökmdarın zülmünə dözürsə bu səbr deyil. Bu rəzalətə ən yumşaq halda manqurtluq kimi baxmaq olar! Zülm və şirkin liderləri gec, ya da tez gələcək tarixin bu günkü manqurtluq, bütpərəstlik və zorbalığını əfv etmədiyini hələ də dərk etmirlər! Biz elə bir ərazidə yaşayırıq ki, bura Asiya və Avropanın, köləlik və azadlığın qovuşduğu yerdir. Biz heç vaxt doyunca azadlıq şərbəti içə bilmədik. Amma nə yaxşı ki, ulu Yaradan bizə azadlığın dadına baxmaq üçün həmişə fürsət və imkan verib. Biz bu fürsət və imkandan lazımınca istifadə edə bilmişikmi?! Cavab birmənalıdır: yox! Gecə-gündüz* ***«babaklər, xətailər, koroğlular nəsliyik!»*** *deyib lovğalanmağımıza baxmayaraq, bizdə nə Babəkin əzmi qalıb, nə Xətainin düşüncəsi var, nə də Koroğlunun cəsarəti!*[42] *Biz bu primitiv üsulla yalnız keçmişi xatırlayıb özümüzə axmaq və xəyali təskinlik verməkdən savayı bir şeyə nail olmamışıq. Halbuki keçmiş ona görə xatırlanmalıdır ki, keçmiş səhvləri bir daha təkrar etməyək. Kim ki, tarixi unudur və ya dərk etmir, keşmiş günahları yenidən və yeniləşmiş şəkillə təkrar edir! Bu gün bizim cəmiyyət manqurt istehsal edən böyük bir siyasi fabrikin ağuşundadır. Manqurtların təşkil etdiyi xalqın nəinki torpağı, bütün sərvəti, təbii ehtiyatları, hətta qadın və uşaqları da zalımlar tərəfindən istismar edilir! Böyük güclər(bb, abş, rf, fr və b.) belə xalqların başına öz*

---

[41] ***Rəşad Həqiqət, Məxfi Həqiqətlər, 75***

[42] ***Halbuki fəxr etdiyimiz bu adamların da istər şəxsi həyatlarında, istərsə də sosial həyatda çox ciddi və böyük səhvləri olub. Fəxr etmək üçün ideal seçəndə çar rusiyası və sovet təbliğat maşınının uydurma təbliğ, təqdim və təlqinlərini araşdırmalı və millətə daha layiqli, nəsəbi, əqidəsi təmiz olan şəxsiyyətlər ideal seçilməlidir. Bu məsələni uzun uzadı analiz və təhlil etmək bu kitabın qayəsinə uyğun deyil!***

*adamlarını gətirib himayə etməklə dəyəri və qiyməti olan hər şeyi mənimsəyirlər. Bu baxımdan xalqımızın düşdüyü vəziyyət bədbəxt afrika xalqlarının və dəyyus neft şeyxlərinin müsəllət olduğu miskin ərəb xalqlarının vəziyyətindən heç nəylə fərqlənmir! Məsələn, afrika qitəsində çıxarılan təbii sərvətlərdən (neft, qaz, uran, mis, dəmir, xrom, tantal və s.) gələn saysız-hesabsız gəlirlərin 10%-i bu qitənin ac-yalavac xalqlarına verilsəydi bu qitədə nəinki acından heç kim ölməz, hətta ən azı orta səviyyədə yaşardılar. Eləcə də Azərbaycanda çıxarılan təbii sərvətlərdən(xüsusən neft və qazdan) gələn milyardların çoxu qərbin və rusiyanın acgöz şirkətlərinə, az qismi də onların içimizdəki əlaltılarının cibinə axır! Heç kim də səsini çıxara bilmir! Xalqın payına düşən bu gəlirlərin heç 1%-i də deyil! Bu oyunu ilk quran abş və rusiya kimi hegemon dövlətlər özlərindən çox kiçik və zəif dövlətlər üçün* ***inkişaf etməmiş*** *və ya az* ***inkişaf etmiş*** *deyə adlar uydurararaq, onları* ***"texniki və maddi yardım"*** *adı altında istədikləri kimi istismar etdilər və edirlər. Bu iki dövlətin başladığı siyasi oyunun nəticəsində süni şəkildə yeni ehtiyaclar meydana çıxdı. Həyat bütünlüklə, xüsusən də istifadə etdiyimiz hər şey həm bahalaşdırıldı, həm də sünîləşdirildi! Bunun da nəticəsində xəstəliklər, əxlaqsızlıq, konfiliktlər və yoxsulluq artdı! Acgöz və kriminal qlobal dövlət və təşkilatlar başımıza zorla gətirdikləri xainləri xalqdan gələn hər hansı bir təhlükədən sığortalamaq müqabilində neft-qaz işlərinə nəzarəti tamam öz əllərinə alıblar. Eyni zamanda hakimiyyət də xalqın mübariz ruhunu məhv etməklə qərbin, xüsusilə abş-ın, həmçinin bir nömrəli düşmənimiz rusiyanın qarşısında böyük xidmət göstərdi! Indi artıq hər bir sovuran əcnəbi kriminal şirkət yurdumuza rahat gəlir, rahatca mal və sərvətlərimizi talan edir, qadınlarımızı, qızlarımızı da çox rahat bir şəkildə fahişəlik bataqlığına sürükləyə bilirlər! Abşeronda qərbin hər hansı bir şirkətinə satılmamış torpaq sahəsi çətin tapılar. Öz* ***"mən"****ini satan kimsələr üçün torpaq satmaq nədir ki?! Qarabağı satmadılarmı?! Çox vaxt mənə deyirlər ki,* ***"sən alimsən! Alim siyasətə qarışmamalıdır!"*** *Mən bu cür insanlara sadəcə iki dahi ictimai-siyasi xadimin sözlərini xatırlamaqla cavab verəcəm. Antik Yunanıstanın siyasət zirvəsi hesab edilən Perikl deyirdi:* ***"Çox az adam siyasətçi ola bilər, amma siyasətçilərin əməllərinə qiymət verməyə hamının haqqı var!"*** *Bismarkın da bu sözləri məşhurdur:* ***"Nə edirsən et, hara gedirsən get, siyasət özü gəlib səni tapacaq!"*** *Tarix boyu aftoritar və totalitar dövlətlərdə*

*haqqı görən və deyən insanları* ***"siyasətə girişmək olmaz!", "terrorçuluq!", "separatizm!", "sabitlik pozulacaq!"*** *və digər totalitar və despotik şablonlarla qorxutmağa çalışmışlar. Bəzi dostlarımı da bu qorxaqların arasında görəndə qəlbimin başı göynəyir! Azər övladlarının bu günkü mühitində yalan danışmamaq, yaltaq və rüşvətxor olmamaq xəstəlik kimi qəbul edilir! Namuslu olmağın artıq heç bir dəyəri qalmayıb! Bütün bunlar neobolşevizmin imperativləridir! Bizsə acizik, gücsüzük! Axırımız çatıb, mənəvi ölüm artıq bizi yaxalayıb, fiziki ölüm də qapımızın ağzını kəsdirib, bizi də, övladlarımızı da məhv etməyə hazırdır! Bizsə həmişəki kimi hürkək-hürkək qımışır və dodaqaltı mızıldanırıq:* ***«axı biz nə edə bilərik, necə mane ola bilərik?! Bizdə o güc hardadı?!»*** *Insanlığımızı o dərəcədə itirmişik ki, bütün ülvi və uca dəyərləri, dədə-babalarımızın etdiyi və övladlaramızın da görə biləcəyi xeyirxah işləri bir qarın çörəyə qurban veririk! Ürəyimizcədir ki, təki köhnə nizam pozulmasın, vücudumuza xətər gəlməsin! Bizdə nə qətiyyət var, nə mənlik, nə də ürək! Ləyaqətli, namuslu, qeyrətli və şərəfli olmaq bizə yaddır və hətta səfehlikdir! Mərdliyimiz mürgüləyir, mənəvi sərvətlərimiz boğulur, maddi sərvətlərimizsə talan edilir! Öz ruhunu, mənliyini qorumağa təpəri çatmayan adam hərbi rütbə, elmi titul, komfort, lyüks həyat, vəzifə və var-dövlətlə öyünməsin, müəllim, tələbə, molla, jurnalist, polis, artist, həkim, xəfiyyə, biznesmen, idmançı, lotu, xüsusən akademik və ya xalq artisti, xalq şairi, əmakdar xadim, millət vəkili, yaxud general olmasıyla lovğalanmasın, qoy öz-özünə düşünsün və desin:* ***«mən qoyunam, zombi və qorxağam, təki qarnım tox, başım salamat olsun!»****! Qədim kitabların birində deyilir ki, özünə kömək etməyənə Allah kömək etmir. Sözsüz ki, Allah hər kəsin qabağına nəsə qoyur, onu götürmək və ya qəbul etmək bizim ixtiyarımızdadır! Biz mallıq eləsək, fürsəti əldən versək, onda "****onlar****" yox, biz özümüz günahkarıq! Gəlin balalarımızı düşünək! Qoy onlar quzu və ya çəpiş, yaxud xotuğ təbiətli olmasınlar, böyük inam və imanla, ləyaqət və şərəflə yaşasınlar! Gəlin övladlarımız qarşısında, vətənimiz qarşısında, xalqımız qarşısında və ən əsası böyük Allah qarşısında borcumuzu düşünək və yerinə yetirək! Qoy mühit təmizlənsin, pak olsun! Qoy hər kəs ən azı belə düşünsün və belə desin:* ***heç olmasa şərəfsizliyin, rüşvətxorluğun, xəbisliyin və binamusluğun yayılmasına mənim əlim olmasın!***

# *Fəsil II*
# *BİOSOFİYA və BİOFİZİKA*

## *$2.1.Həyat bir termin və anlayış kimi*

*Həyat düzgün başa düşülməyən, mahiyyətinə dəqiqliklə varıla bilinməyən anlayışlardan biri və bəlkə də birincisidır. Bizi bu linqvistik və substansional düzəlişi etməyə sövq edən şey elmi ictimaiyyət bir tərəfə, dahi alim və dərin ağıl sahiblərinin də bu nəhəng məzmunlu anlayışı məhdudlaşdırmaları, canlı həyatla, canlı maddə ilə həyat təbəqəsini, həyatı eyni tam, şey, proses, örtük hesab etmələridir. Yuxarıda mühit termini üzərində durarkən ifadə etdiyim ki, həyat sözü ərəb mənşəli söz olub, Allahın HƏYY ismindən törəmişdir. Bu kəlmənin teoloji və kosmik anlamından anlaşılan odur ki, hər hansı bir şey var olduqdan sonra spesifika, dəyər və funksiyaya da malik olursa həyat olur. Dəyəri və funksiyası olmayan şeyə* ***"həyatı vardır"*** *deyilməz. Həmçinin bilmək lazımdır ki, kainatda absurd və dəyərsiz, spesifik funksiyası olmayan bir şey də məlum deyil! Təəssüfləndirici haldır ki, həyatın mahiyyət və məzmununu, daşıdığı əsl anlamı məhdudlaşdıran, daraldan, canlı həyata müncər edən yalnız diletant və otabablar yığınından ibarət elmi ictimaiyyət deyil. Əslində bu səhvin təməli Lamark, Linney, Humbolt kimi dahi naturalistlər tərəfindən qoyulub. Hekkel, Darvin, Zyüs, Le-Rua, Teyyar-de-Şarden, Vernadski, Priqojin kimi böyük təbiətşünaslar da bu səhvi fərqinə varmadan yaşadıblar. Elmi ictimaiiyət də tədqiq yerinə təqlidə üstünlük verdikləri üçün, məsələni daha da qəlizləşdiriblər. Həyat kimi qlobal və hətta sonsuz mahiyyət və məzmuna malik müqəddəs bir anlayışın canlı həyat və ya canlı maddə ilə məhdudlaşdırılması və canlı təbəqənin həyat təbəqəsilə dərinliyinə varılmadan naşıcasına eyniləşdirilməsi, bizdə indiyədək həyat barədə deyilmiş tərif, təfsir və təvillərin əksəriyyətinin düzgün olmadığını göstərmək üçün elmi borc hicci əmələ gətirdi! Elm adamlarının əksəriyyəti tərəfindən qəbul edilən həyat canlı həyatdan başqa bir şey olmadığı üçün onların həyat haqqında fikirlərinə düzəliş verməyə təkcə canlı sözünü həyat kəlməsinin qarşısına əlavə etmək kifayət edərdi ki, hər şey də olmasa, çox şey qaydasına düşsün. Lakin bunu etmək ilk baxışdan çox asan görsənsə də, özlərini bioloq kimi*

*tanıtdırmış canlışünaslar həyatı canlı həyatla məhdudlaşdırmaq yolunda dəridən-qabıqdan çıxıblar və çıxırlar! Bu həqiqəti canlaşünaslara sosial formada qəbul etdirmək üçün ən azı on illərlə vaxt lazımdır. Bu qafillik və cəhalətin sahəsi nə qədər böyük olsa da biz elm və təfəkkürdən nəsibi olanlar üçün həyat və canlı həyat arasında ucu-bulağı görünməyən nəhəng bir ümmanın durduğunu göstərməyə çalışacağıq.*

*Aristoteldən ənənə olaraq qalmış terminbazlıq xəstəliyi son iki əsrdə daha da şiddətlənmiş, elmə saysız-hesabsız terminlər gətrilmişdir. Lakin bu terminlərin çoxu gerçəkliyə uyğun deyil və ya reallığa uyğun şəkildə mənalandırılmır! Bu terminlər üzərində dəqiq analiz aparmaq, gerçəkliyə uyğun gələnlərini saxlamaq və elmi kateqoriya kimi qəbul etmək, gerçəkliklə uzlaşmayanlarını isə bacardıqca uyğunlaşdırmaq, uyğunlaşmayanları da bolşevizm kralı leninin təbirilə "**bir sinif kimi**" arxivlərə göndərmək lazımdır! Termin və sözlərə verilən hər bir uydurulmuş məna hansısa bir həqiqəti gizlətməyə, yaxud məhv etməyə cəhdin bariz ifadəsidir! Əfsus ki, bu gün dünya elmi mühitində vestern metod ve terminologiya hakimdir. Bütün anlayışlar ya əski, ya da modern qərb terminləri ilə ifadə edilmədikdə heç bir ciddi effekt vermir. Əslində bu cür elmi-terminoloji üsulla elmi aftoritet qazanmaq çox asandır, lakin elmin gözəlliyi onun aydınlığındadır. Elə buna görə də biz bacardıqca bu cür metodlardan uzaqlaşmağa, milli məntiqə sığınmağa və fikirlərimizi aydın ifadə etməyə çalışırıq. Beynəlxalq termin və anlayışlar əslində məntiq və linqvistik müharibənin silalılarıdır. Belə ki, hansı dövlətin nüfuzu, ram etınə qabiliyyəti, işğal intensivliyi və zəbt etdiyi ərazi çoxdursa, linqvistiq savaşda da çox zaman o qalib gəlir. Məsələn, bu gün hamı ingilis dilinə niyə meyl edir?! Ona görə ki, anqlosaks irqi dünyada hegemon olan imperiya sahibidir. Elə bir dəyərli sahə çətin tapılar ki, anqlosaks funksionerləri ora hakim olmasın. Ən azından nüfuz edirlər! Bu səbəbdən ən böyük istedad sahibləri də çox zaman bu dili öyrənməyə məhkumdur! Vaxtı ilə assuriyalılar, yunanlar, romalılar, farslar, ərəblər və osmanlılar da imperiya sahibi olanda insanlar kürd, yunan, latın, fars, ərəb və türk dillərində danışmağa üstünlük verirdilər. Bu gün bu qədim imperiyalardan yalnız antik Yunanıstan və Romanın linqvistik üstünlüyü qalıb. Çünki anqlosaks imperiyası hər yönü ilə antik Yunanıstan və Romanın varisidir. Əfsus ki, bizim işlətdiyimiz, istifadə etdiyimiz termin və anlayışların da çoxu(biogenez,*

*enviromentologiya, psixobiogenez, biodinamika, heliosistem, ekosistem, lendodinamika və s.) linqvistik müharibənin qalibləri tərəfindən işlədilən silalılardandır. Digər tərəfdən bu qaliblər yer üzündə linqvistik aftoritarizm formalaşdırıblar. Reallıqla təzad təşkil edən yalnız elmi termin və anlayışlar deyil. Adi həyatımızda da işlətdiyimiz o qədər söz var ki, tamam kəllə-mayallaq mənalar veririk. Məsələn, petux rus sözüdür, xoruz deməkdir, amma küçə terminologiyasında və hətta ümumiyyətlə xalq arasında bu sözlə çox vaxt ləbbati və ya homoseksualistləri nəzərdə tuturlar. Yaxud, qatıq sözünü götürək. Məlumdur ki, qatıq qida kimi istifadə etdiyimiz süd məhsullarından biridir, amma avara tayfası kimisə qatıq adlandıranda onun hansısa yanlış bir işə girişdiyini ifadə etməyə çalışırlar. Eləcə də qatıqlamaq sözü hansısa alçaq və yanlış əməlin avara jarqonu ilə ifadə edilməsidir. Bu cür misallardan çox çəkmək olar. Dünən olmamış, bu gün ortaya çıxan o qədər söz var ki, sabah bu sözlərə cürbəcür mənalar müncər ediləcək. Heç şübhə etmirəm ki, yaxın gələcəkdə petux və qatıq kimi sözlər artıq ədəbi dilimizin elementlərinə çevriləcək. Baxmayaraq ki, bu gün bu cür sözlər küçə dilinin elementləridir. Hamımız qulağımızda* ***«sırğa»*** *etməliyik ki, işlətdiyimiz, ifadə etdiyimiz sözlər həqiqi məna və reallığa zidd olmamalıdır! Ifadə hər zaman, hər yerdə şeyləri, prosesləri düzgün inikas etməlidir! Bu* ***«sırğamız»*** *nazlı-qəmzəli xanımların vaxtaşırı çıxarıb-taxdığı ziynətlərdən olmamalıdı! Bu* ***«sırğa»*** *nəsə, dəyişməz və daimi olmalıdır! Yaxın gələcəkdə linqvistik ekologiya və ya ekolinqvistika bu müqəddəs işi yerinə yetirməkdə alimlərə çox böyük kömək edəcək. Məhz məntiq ekologiyasının üsul və prinsiplərinə dayanaraq deyirik ki, aftoritet və rütbə qarşısında asanlıqla baş əyən kütlənin iddia etdiyi kimi həyat(bio), həyat təbəqəsi və ya biosfera və ya biosistemin canlışünasların dar düşüncələri sayəsində canlı həyat, canlı mühit və canlı maddəylə məhdudlaşdırılmışdır! Halbuki həyat da maddə, mühit, enerji, kütlə, zaman, məkan və sürət kimi varlığın əzəli və əbədi atributlarından biridir. Harda həyat varsa orda mühit, enerji, sürət, zaman və digər ekzistensial parametrlər var. Həyat varlığın bir nömrəli atributudur. Canlı həyat isə nəinki varlığın, maddənin, heç həyatın da atributu deyil. Canlılarsız da həyat mövcuddur. Canlı maddə materiya və həyatın bir növü və parçasıdır. Təbii ki, həyatı da təşkil edən spesifik zərrələr var. Işıq enerjisinin əsasını fotonlar, elektrik enerjisinin əsasını elektronlar təşkil etdiyi kimi, həyatın*

*əsasını da bion adlandırmağımız daha uyğun və* daha *dəqiq* olan *zərrəciklər təşkil edir. Canlışünasların hüceyrə adını verdiyi maddə isə canlı həyatın əsasını təşkil edən psixobion adlandırılması* daha dəqiq *və daha uyğun olan zərrəcikdir. Lamarkın* ***"flyid"*** *adlandırdığı* vital *zərrəciklər də psixobiondur. Psixobion hüceyrədən daha kiçikdir.* Hər *bir hüceyrə* və ya psixobion biondur, amma hər bir bion *psixobion deyil. Özlərini bioloq adlandıran, əslində isə canlışünas və ya psixobioloqdan başqa bir şey olmayan elm adamlarının bunu anlamamaları bizi sıxıntıya salsa da,* hər halda bizi anlayanlar var və olacaq. *Həyatşünaslıq və ya biologiya bütün varlığın həyatı haqqında təlim, söz* və ya elmdir. Biologiya ontologiyanın *əsası olmasına* baxmayaraq, *canlı həyata müncər* edildiyi kimi, *həyatın fəlsəfəsi və ya biosofiya da heç bir elmi və* substansional *əsası olmadan Nitşe, Şopenhauer, Diltey kimi həyatın çox kiçik sahaləri* barədə düşünən *filosofların təlimlərinə müncər* edilir. Halbuki elə *bir filosof çətin tapılar ki, biosof olmasın. Necə ki,* naturasof, ekosof, antroposof *və teosof olmayan da filosof çətin tapılar. Beləliklə, canlı həyat həyatın özü deyil, onun ən* son hissəsi *və mərhələsidir.*

### $2.2. Həyatın mahiyyəti və mərhələləri

*Təbii ki,* həyat da *varlıq və ya mövcud olma prosesi kimi kosmik yaradıcılıq prosesinin bir başqa ismidir. Lakin həyat* sadəcə var olma deyil, bir dəyər kimi var olmaqdır. *Uca* Allah *həyatı mərhələ-mərhələ* yaratmaqla, məkan-zaman sisteminə məhkum etməklə sadəcə mütləq elm *və yaradıcılığının* bizim tərəfimizdən qismən də olsa dərk edilməsinə *şərait yaratmışdır. Yaradılış prosesi bir göz qrpımında, hətta daha az müddətə və ya* bircə kəlməylə *də* başlaya və tamamlana bilərdi. Lakin belə *bir nümunə yalnız istisna halda* göstərilə bilər. *Kosmik və ideal yaradıcılığın ümumi gedişində yalnız mərhələlilik variantı labuddür. Yaradılanın yaratma prosesini anlaması üçün tədricilik və mərhələlik Yaradan üçün ən əlverişli metoddur! Materiya və mühitin halları olduğu kimi, həyatın da yeddi halı var. Həyat indiyədək bir-çox mərhələlərdən keçib.* Əgər biz beynəlxalq termin və *anlayışları işə* salsaq onda *həyatın mənşəyini, yaranması prosesini* biogenez, onun hissələrinin genezisini *isə müvafiq olaraq psixogenez, ekogenez, fiziogenez, kosmogenez, psixobiogenez(bu da öz növbəsində*

*mikropsixobiogenez, fitogenez, zoogenez və antropogenezdən təşkil edilib) adlandıra bilərik. Bu ifadələrin bəzisi başqa cür mənalandırılırsa da biz orjinala sadiq qalmağa çalışırıq. Biogenez mərhələlərin yaranma və effekt ardıcıllığı aşağıdakı kimidir: 1)Psixogenez, 2)Ekogenez, 3)Xronegenez, 4)Kosmogenez, 5)Heliogenez, 6)Geogenez, 7)Psixobiogenez. Bunların da hər biri öz növbəsində müəyyən və ardıcıl mərhələli proseslərdən ibarətdir. Gəlin bu prosesləri izləməyə cəh edək:*

*1)Psixogenez ruhi fəaliyyət və ya ruhi hərəkətlərin mənşəyini bildirir. Yunan sözü olan* **psyche(psixo)** *bizim dilimizdəki ruh kəlməsinin sinonimi hesab edilsə də məna və mahiyyətcə natamam termindir. Ruh kəlməsi ərəb mənşəli söz olub hiss üzvlərinin vara bilmədiyi, ağılın da çox çətinliklə dərk etdiyi emanasiyon(axıcı) prosesləri ifadə etmək üçün işlədilir. Latınca* **spritus** *sözü də eynilə ruh anlamını verir. Ruh kəlməsinin ən dar mənası əsən və ya axan və ya hərəkət edən hava deməkdir. Ərəb dilində bu mənaya qarşılıq* **rih** *kəlməsi də işlənir ki, bu da bizim külək və ya rüzgar hesab etdiyimiz hava axınlarıdır. (Bu baxımdan rih ruhun ən minimal formasıdır.) Bu əlavə məna və anlamlar sadəcə bədəvi ərəblərdə heç olmasa primitiv də olsa ruh haqqında təsəvvür yaratmaq üçün ortaya çıxıb. Əslində ruhun bizim bildiyimiz hava axını olmadığı məlumdur. Lakin ruhun ən doğru mənası* **həyatın prinsipi, təməli** *anlamını verməsidir ki, biz də bu əsl anlama sadiq qalıb psixogenez anlayışı ilə həyatın ilk mərhələ və ya pilləsini ifadə etdik. Antik filosoflar da bu baxımdan ruh və canı sinonim kimi qəbul edirdilər. Lakin bu çox böyük xətadır, bu cür fikirlərin heç bir dəlili yoxdur. Ruh yalnız Allaha məxsusdur. Yaratdıqlarına ruhla can və ya kosmik enerji bəxş edir. Lakin onlara ruh yerləşdirir deyə bir şey yoxdur. Çoxlarının bu baxımdan ruh kimi başa düşdüyü iç dünyamızı Allah* **nəfs** *adlandırıb. Halbuki nəfsi öyrənməkdə heç bir sərhəd yoxdur, əksinə təşviq var. Allah bizi nəfsimizi və nəfsləri dərk etməyə, təfəkkür etməyə təşviq edir. Sadəcə nəfslər özləri özlərini anlamaqdan imtina edir, aşağı səviyyədə yaşamağa meyl edirlər. Ruha gəldikdə isə onun haqqında elmi sərhəd qoyulmuşdur. Lakin bu sərhəddi yalnız iman, elm, hikmət və salahın vəhdətini özündə ehtiva edən sənədlə keçmək olur. Quran bu barədə deyir:* ***"Sənə ruhdan sual verirlər. De ki, ruh Rəbbimin əmrindəndir. Sizə az elm verilmişdir!"(İsra, 85)*** *Bu ayəni təfsir və təvil edənlər, ümumən insana verilmiş az elmi ruh haqqında elmlə*

*xüsusiləşdirməkdə xəta etmişlər. Ayədə ümumiyyətlə insan elminin azlığına işarə edilir ki, ruh haqqında elm də bunlar arasındadır. Ruh Allahın nəfəsidir və kamil olaraq yalnız ona məlum və məxsusdur. Hətta, böyük filosoflar içində ruh haqqında nisbi kamil elmə sahib olanlar çox azdır. Bunların da çoxu kosmik elçilərdir, yəni Allahın rəsullarıdır. Ixtyiyari hadisə, proses və ya şey haqqında bilik, təcrübəmizdə məlum olan uyğun biliklərin sistemi və sintezindən başqa bir şey deyil. Ümumiyyətlə insan elmi bizim təcrübədə mövcud olan biliklərdən çox ola bilməz. Nə Platon, nə Aristotel, nə Dekart, nə Leybinits, nə Malnbraş, nə Spinoza, nə Yum, nə Hegel, nə Freyd, bir sözlə Qərbin dərin zəka sahiblərinin əksəriyyəti ruhun nə və necə olduğu barədə kamil elmə nail ola bilmədilər. Çünki onların subyekt anlayışı ən yaxşı halda əsas etibarı ilə həndəsi və fizioanatomik xarakter daşıyırdı. Diltey də bunu görə bilmişdi:* ***"Lokk, Yum və Kantın fəlsəfəsində yaradılan subyekt obrazının damarlarında insan qanından bircə damla da yoxdur. Onların görüşlərində ruh nəinki hiss və iradədən, hətta insanın daxili dünyasının tarixi mahiyyətindən də uzaqdır!"*** *Qərb filosofları arasında Svedenborq, Fexner, Husserl, Diltey və Yunq kimi ruhi həqiqətləri bilənlər çox azdır. Lakin bilənlərin də içində ruhla nəfs arasında ayırım qoyulmayıb. Şərqdə isə Kindi, Nazzam, Cahiz, Fərabi, Sührəvərdi kimi psixogenezin mahiyyətinə varan filosoflar çox olub. Filosof maskası taxmış şarlatanların uydurma və qondarma fəlsəfəsində ruh həm şüur və ya ağılla məhdudlaşdırılır, həm də materiya və ruh bir-birinə zidd və ya əks olan varlıq və anlayışlar kimi təqdim və təbliğ edilir. Halbuki ruh ən ideal materiya olub duyulan materiyadan fərqli, duyulmayan, ən çoxu əqlin böyük çətinliklə, yalnız xüsusi hallarda vara biləcəyi bioekosistemdir. Ruh elə bir prosesdir ki, onu öz-özlüyündə anlamaq o qədər də çətin deyil, amma onu sözlə ifadə və şərh vermək çox çətindir. Mühafizəkar görüntülü dinbazlar ruh və nəfs haqqında danışmağı heç bir nassa dayanmadan haram sayarlar. Halbuki Allah bu barədə nəinki danışmağı, hətta düşünməyə təşviq edib. Yuxarıdakı ayədən də gördüyümüz kimi Quranda ruhun Allahın əmrindən olması açıq-aydın söylənmişdir. Bu isə ruhun ideal və axıcı enerji olduğunu söyləməyə əsas verir. Allahın əmrinin və ya nazil etdiyinin məxluq və ya orqanizm olması da şübhə edilməyəcək bir xüsusdur. Ruh orqanizmin elə bir saf və ali növüdür ki, Böyük Demiurq onu psixon və ya spriton adlandırılması daha uyğun olan ən*

*kiçik zərrələrdən yaratmışdır. Yaratma xüsusiyyəti ruhun özünə də atributdur. Aronun dediyi kimi:* ***"Ruh sadəcə olaraq irrasional qüvvələrin əks olunması və ya ifadəsi deyil, yaradan bir qüvvədir!"***[43]*Nassla sabitdir ki, böyük Yaradan da yaratma prosesində RUHU vəsilə və vasitə etmişdir. Lakin bu Ruhla insanların öz nəfslərinə və bir-çox digər nəfslərə ruh demələri arasında çox böyük fərq vardır. Əslində Quran insanın içindəki* ***"mən"****dən bəhs edər və onu nəfs adlandırar. Heç bir ayədə çoxlarının qəbul etdiyi anlamda ruhdan bəhs edilməz, yalnız nəfsdən və ya nəfslərdən(ənfusihim) danışılar. Qeyd edək ki, həm nəfs, həm də Ruh fərqli şeylər olub hissə və zərrələrdən ibarətdir. Bildirdiyimiz kimi psixon və ya spritonlar varlığın prinsipləridir. Mən burda orqanizm deyəndə metaqalaktikadan tutmuş elementar zərrəciklərədək hər şeyi nəzərdə tuturam. Instinkt, şüur, təhtəşşüur, fövqəşşüur və daxili səs ixtyiyari orqanizmin ruhi-nəfsi arsenalını təşkil edir. Ruhi-nəfsi baza yalnız mikrokosmos olması yekdilliklə qəbul edilən insana aid deyil. Əgər mikrokosmos psixi arsenala maliksə, makrokosmos malik olmazmı? Elə bunu dərk etdiyi üçün AbdulQadir əl-Bağdadi əl-Əşari insanın böyük kainatın kişik modeli olduğunu söyləyərək deyir:* ***"İnsanın eşitməsi və görməsi günəş və ay kimidir!"***[44] *AbdulQadir dediyi bu sözü hardan götürüb, dərk edibmi, etməyibmi bilmirəm, amma insan orqanizminin qövni olaraq kosmik qanunlarla tənzimləndiyi bu gün danılmaz bir həqiqətə çevrilib. İnsan elminin problemi şey, hal və prosesləri məhdud qəlibə salmaq və parçalanmış vəziyyətdə anlamağa cəhd etməsi ilə bağlıdır. Rəsulullah əbəs yerə buyurmurdu:* ***"Elm bir bütöv nöqtə kimi idi. Cahillər onu parçaladılar!"*** *İnsanlar əksəriyyətcə o qədər şəhvət və sərvətə meyl edirlər ki, ağıl və təfəkkürləri daralır və bu səbəbdən prosesləri bütöv halda görə, anlaya bilmirlər, anlamaq və duymaq üçün parçalayırlar! Zənnimcə elm və hikmət aləmində ilk parçalanma RUH anlayışı ilə başlamışdır. Bunun tarixi dəqiq məlum deyil. Özlərinin alim olduğunu zənn edən antiekoloqların ünikal eqoizminə heyrət etməmək olmur. Halbuki psixi-ruhi komponentlər hər bir orqanizmin(məxluqun) həm növünə və həm də özünə görə spesifikdir. Sözsüz ki, metaqalaktik instinkt, qalaktik şüur və ya planetar təhtəşşüur həm yeni, həm də anlaşılması*

[43] ***Р.Арон. Избранное: Введение в философию истории, 459***
[44] ***Usulud-Din, Beyrut, 1928, 34-35***

*asan olmadığına görə çoxlarına qəribə görsənə biləcək anlayışlardır. Lakin qalaktikaların, ulduzların, bütövlükdə kainatın şüurlu və ya ağıllı, həmçinin iradəli olması kosmik dəlillə sabitdir. Quranda bu barədə deyilir:* ***"Sonra duman halında olan göyə yönəlib ona və yerə dedi: "İstəyərək və ya istəməyərək gəlin(tabe olun)!" Dedilər: "istəyərək gəldik(tabe olduq)!"(Fussilət, 11)*** *Bu ayə açıq-aydın yerin də, qalaktika və metaqalaktikaların da canlı, iradəli və şüurlu orqanizm olduğuna açıq dəlildir. Həmçinin Zilzal surəsi yer planetinin həm subyekt, həm canlı və həm də informasiya mərkəzi olduğunu açıq-aydın göstərir. Antik filosoflardan Demokrit, Levkipp, Parmenid, Ksenofond, sonrakı dövr filosoflarından da Buruno, Robine və bir-çox başqaları bütün maddi sistemlərin canlı və şüurlu olması görüşündə olmuşlar. Bizim ümmət və millətdən də bu görüşdə olanlar var. Bu görüş sahibləri hilozoistlər adlanır. Ruhi prosesləri şüurla məhdudlaşdıranların kosmik əsası olan bu nöqteyi-nəzəri qəbul etməyəcəyi mənə təəccüblü deyil. Teyyar de Şardenin bu sözləri çox maraqlıdır:* ***"Psixogenez açılaraq daha yüksək funksiya ilə əvvəlcə ruhun yaranmasına, sonra isə onun inkişafına - noogenezə gətirib çıxarır!"*** *Kosmoson nəhayətsizliyində yer mühiti nə qədər kiçik görünürsə, şüur da ruhi sistemin içində ən azından o qədər kiçikdir. Ruh da sözsüz ki, bir orqanizmdir, lakin o çox pak orqanizmdir, digər orqanizmlərə bənzəməyən orqanizmdir. Üsulçulardan Cahiz, ibn ul-Qasim, hədisçilərdən İshaq bin İbrahim, Buxari, Muslim və digər İslamçı alimlər də Ruhun orqanizm(məxluq) olduğunu açıq-aydın söyləmişlər.*[45] *Vegininger ruhu* ***"orqanizmin mərkəzi aparatı ilə əlaqədə olan bir şey"*** *adlandırmaqda qismən də olsa haqlı idi. Əslində ruh elə o mərkəzi aparatın özüdür. Ruh ən saf və ən təmiz materiyadır. Ruh - katarsis olmuş materiya! Canlı orqanizmlərə verilən can və ya ruh katarsis olunduqdan sonra verilir. Gələn ruh həmişə safdır, gedənlərsə... Ruh yaradılmış orqanizmlərin* ***bizim təcrübəyə aid olanların*** *ən sağlamı, ən mükəmməli və ən təmizidir. Bütün ruhlar ən böyük ruh olan Loqos və ya RUHil-QUDUSun nəzarəti altındadır. Ruhlar geosistemə daxil olduqda onların fiziki*

---

***[45] Ümumiyyətlə Allahın nazil etdiyi hər şeyin(iman, ruh, nur, nar, dəmir, əlimizdəki Quran, Tövrat, İncil və b.) məxluq olmasında bütün ağıl və iman sahibləri ittifaq edib. Bizim ümmətdən şirkləri xristianların şirkindən də betər olan əhməd bin hənbəl və şiələrindən başqa bu həqiqəti kimsə inkar etməmişdir.***

*orqanizmlərə təsir etmə intensivlikləri minimuma enir. Ruh insan orqanizminə təsir etdikdə şüur və ya ağıl, digər canlı orqanizmlərə təsir etdikdə isə instinkt adlandırılan proseslər meydana çıxır. Bizim beynimizdəki ağıl ruhun bədənə təsir etmə miqdarıdır. Ruh bədənə nə qədər çox və nə qədər intensiv təsir edərsə ağıl da bir o qədər geniş enerji sahəsinə malik olur. Kantın terminologiyasını işə salsaq onda ruh ən azından noumenal proses hesab edilə bilər. Ruhun bədəndə kontrol etdiyi məntəqələrin sayı artıqca ağıl sahəsi genişlənir. Kant bu barədə yazır:* ***"Ruhumuzun böyük xəritəsində sayı o qədər də çox olmayan məntəqələr işıqlandırılır. Bu hal varlığımız qarşısında bizdə təəccüb doğura bilər. Əgər ali qüvvə psixikamızı tam işıqlandırmış olsaydı, onda gözlərimiz qarşısında dünyanın yarısı açılar və canlanardı!"(Кант И. Сочинение. Том 3. М., 1968, 366)*** *Ruhun bədənə nəzarətini gücləndirməyin yeganə yolu inanclı saleh əməllərdən keçir. Geosistemdə ruhun saleh amələrlə kamilləşdirilməsi üçün yeganə məkan insan orqanizmidir. Lakin əfsus ki, insanların əksəriyyətinin axmaqlığı ucbatından ruhlar deqradasiya və eroziya olur. Ruhun tamamı ilə ağıl və ya şüuri enerjiyə çevrilməsi isə çox nadir hallarda və çox nadir məxluqlarda baş verir. Ruh* ***xalis materiya*** *kimi fiziki substansiyadan fərqlənmir. Ruh həm fiziki-mexanik, həm psixodinamik, həm də teodinamik prosesdir. Ruhun mexaniki birbaşa iç* ***"mən"****lə, yəni nəfslə bağlı olub benzinin maşındakı rolu ilə müqayisə edilə bilərdi. Çünki əksəriyyət tərəfindən yanlış olaraq ruh hesab edilən nəfslər arasında da, benzinlər arasında olduğu kimi keyfiyyət və kəmiyyət fərqləri var. Məsələn, A-93, A-95, A-98 və s. benzin növləri olduğu kimi, nəfslərin enerji keyfiyyəti və enerji miqdarı da bir-birindən fərqlidir. Filosofların ruhu da, nəfsi də kosmosda olan ən yüksək keyfiyyətli enerjidən yaradılmışdır. Elə ona görə də filosofun instinkti heyvani olmaqdan daha çox ilahidir. Digər insanlarda isə ruhi-nəfsi enerji standart paylanır. Elə buna görə də bu insanların çoxu kommunistlər kimi* ***"bərabərlik, birlik!"*** *deyib sayıqlayırlar! Insan bədəni elə bir çirkli materiyaldır ki, ruhi-nəfsi enerji burda daimi qərar tuta bilmir. Benzin qurtardıqda maşınlar dayandığı kimi, ruhi-nəfsi enerji də vakuuma yaxınlaşan kimi də insan ya ölür, ya da yatır. Insan yuxuda olarkən ruhi-nəfsi enerji döş məmələrinin arasında cəmlənir. Çünki eqopsixi enerjinin mərkəzi bu nöqtədə - sinədədir. Plutarx elə bu səbəbdən insanlara bunu tövsiyyə edirdi:* ***"Öz idarəniz sinənizdən başlasın. Bu idarənin təməlini də öz***

***ehtiraslarınız üzərində hakimiyyətiniz təşkil etsin!"*** *Plutarx bizə psixokrat olmağı tövsiyyə edirdi ki, belə olmaq üçün də, ilk öncə sinəyə nəzarət etmək lazımdır. Yoqa təmrinlərinin qaynağı da buna dayanır. Psixokrat olmaq şərəfi yalnız əsl filosoflara nəsib olur. Taha surəsində də bildirildiyi kimi, Allahın elçisi Musa əbəs yerə "**Rəbbim sinəmi genişləndir!**" deyə dua etmirdi. Çünki sinənin genişlənməsi psixi kütlənin artması deməkdir. Filosofluq və ya psixokratlıq da sinənin genişlənməsilə ən azı bilvasitə bağlıdır. Sinə ruhi-nəfsi enerjinin insan bədənində kamil paylanması üçün ən əlverişli nöqtədir. Əgər bu zaman yatan insanın həmin nöqtəsini yüngülvari zədələsələr o əbədiyyən yuxuda qala(ölə) bilər. Sinənin psixosentr olmasına dəlalət edən bir-çox nass var. Məsələn, İnşirah surəsinin ilk ayəsində buyrulur: **"Açmadıqmı sənin sinəni?!"** Adiyat surəsinin 10-cu ayəsində buyrulur: **"Sinədəkilər dərilib çıxarıldıqda!"** Nəfsi-ruhi krallıq insanın sinəsində gərar tutduğu kimi, Allah da kainatın sinəsində gərar tutmuşdur. Ruha itaət edən mikrokosm xoşbəxt olduğu kimi, Allaha itaət edən makrokosm da xoşbəxtdir. Eqopsixi və ekopsixi enerji bütün insanlara bərabər paylanır, lakin insanların əksəriyyəti libido deyilən aqressiv və cazibəli enerji sahəsinin təsirindən qurtula bilmədiklərindən ruhun bədənə təsir etmə miqdarı azalır və **"ruhun böyük xəritəsində sayı o qədər də çox olmayan məntəqələrin"** sayı minimuma enir. Ağıl və ya şüurun intensivliyi seksual intensivliyə tərs proporsionaldır. İnsanın bütün həyat və fəaliyyəti əqli enerjinin minimum və maksiumum aralığında baş verir. Allahın insana verdiyi ən böyük nemət və ən böyük ruzinin ağıl olduğuna yalnız ağılsız şübhə edər! Kant bunu dərk etdiyi üçün yazırdı: **"Bizim bütün biliklərimizin hissi fəaliyyətimizdən başlayır, sonra düşüncə sahəsinə keçir və ağılda qurtarır. Bizdə müşahidə materialını işləyib hazırlamaq və onu təfəkkürün ali mərtəbəsinə qaldırmaq üçün ağıldan yüksək heç nəyimiz yoxdur!"(И. Кант. Сочинения. 6 т. Т.3, 340, М., 1964)** Doğurdan da ağıl insanın ən böyük neməti, ruzisidir. Ondan sonra iman gəlir. Əslində iman etdiklərimiz də bu və ya digər dərəcədə, bu və ya digər formada əql etdiyimiz, yaxud əql etməyə cəhd etdiyimiz şeylərdir. Böyük müsəlman filosofu ibn Rüşd əbəs yerə demirdi: **"Həqiqətə inancdan kənar əql yolu ilə də çatmaq olar!"** ibn Rüşdün xələfi funksiyasının mükəmməl daşıyıcısı Pyer Abelyar da çox gözəl demişdi: **"Anladıqlarıma inanıram, inandıqlarımı da anlamağa çalışıram!"** Allahın özündən başqa inam sferasına daxil olan hər*

*şeyin kamil bir şəkildə dərki mümkündür, hətta Allahın özünü də qeyri-kamil formada olsa da dərk etmək olar. Fərabi elə buna işarə edərək yazırdı:* ***"Hisslərimiz yaradılmış bu dünyaya aiddir. Məxluqatdan və əmrdən(ruhdan) yüksəkdə olan isə həm hisslərdən, həm də ağıldan gizlidir. Amma onun məxfilikləri gec-tez açılır və aydınlaşır. Belə ki, Günəşin qarşısı tutulanda o aydın görünür və gözü qamaşdırmır."***[46] *Şübhə etmirəm ki, gələcəkdə bütün metafiziki elementlərdən fiziki elementlər kimi bəhs ediləcək və ruhun məxfilikləri ümumbəşəri elmə çevriləcək. Bunu Edmund Husserl də sezmişdi:* ***"Ruhun məxfilikləri təbiət elmlərinin metodları ilə açılmalıdır!"*** *Sonralar bu fikir Yunq tərəfindən təkmilləşdirildi və praktiki müstəviyə keçrildi. Amma istər fəlsəfə, istər elm, istərsə də din aləminə özlərini ya hiylə, ya da sarayın gücü ilə soxuşdurmağı bacarmış şablonçular bu həqiqətləri heç cür qəbul etmək istəmirlər. Burda Şen Buxayın aforizmi yerinə düşür:* ***"Ağıllı adam qanun yaradır, axmaq qanunla məhdudlaşır. Qabiliyyətli adam qaydaları dəyişir, qabiliyyəti olmayanlar isə qaydalara bağlanır!"*** *Böyük Eynişteynin də bu sözləri məşhurdur:* ***"Məntiqə zidd getmədən heç bir elmi nəticə əldə etmək olmaz!"*** *Qanunla məhdudlaşan, qaydalara kor-koranə bağlanan və yeniliyi həzm edə bilməyən şablonçular arasında möhtərəm və müdrik insanlara da təsadüf edirik ki, bu cür insanların qafilliyi daha çox üzücüdür! Ruhun elmini açmağa çalışan Husserl, Diltey və Yunq kimi alimlər nisbətən sivil zaman və məkanda yaşasalar da, yenə də təpkiylə qarşılaşdılar, dəlilik və sehrbazlıqla ittiham edildilər. Onlar orta əsrlərdə yaşasaydılar başlarına nə gələcəyini düşünəndə tüklərim biz-biz olur! Lakin unutmaq olmaz ki, ruhsuzlar həmişə ruhu olanlara qarşı mübarizə aparmışlar. Bəşər tarixində nə qədər qətl, işgəncə və həbs edilən ziyalı və düha alimlər var ki, saymaqla və başına gətirilənləri qələmə almaqla bitməz! Nazzam, Sührəvərdi, Miyanəci, Buruno, Servet, Evarist Qalua, Aleksandr Fridman, Nikola Tesla və yüzlərlə, bəlkə də minlərlə kosmosdan informasiya alan həqiqi alim ruhsuz və ya ruh düşməni zalimlər tərəfindən müxtəlif üsullarla qətlə yetrilmişdir. Bunların arasında bizə indi məlum olmayanlar məlum olanlardan qat-qat çoxdur. Çünki çoxu gizli çəkildə aradan götrülmüşdür. Elə bir-neçə il bundan qabaq da* ***"babanın"*** *sifarişilə Qafqazın ən böyük*

[46] ***Естеснвенно-научные трактаты, 269***

*RUHŞÜNASI Etibar Elkini iki oğlu ilə bir yerdə şahid etdilər!*[47]*Ruhlu olanlarla ruhsuzlar arasındakı bu mübarizə qiyamətədək sürəcək. Ruhun təbiət elmlərinin tədqiqat obyekti olmasını istəməyənlər ruhlarında problem olanlardan və ya ruhunu itirənlərdən başqası deyildir! Bu məxfilik sarih elmə çevriləndən sonra hər kəsi, hər şeyi orjinalında duymaq və dərk etmək mümkün olacaq! Öz ruhunu çirkləndirənlər də şüuri olmasa da, instinktiv olaraq bunu rədd edirlər. Əslində həqiqi elm ruhun məxfiliklərinin açıqlanmasından sonra başlayacaq. İndiki elmlər, hansı ki, insanlar lovğalana-lovğalana çar çəkirlər, - hələ elmə çevrilməmiş elmlərlə müqayisədə ən yaxşı halda propodevdikadan başqa bir şey deyil. Husserl elə bunu bildiyi üçün deyirdi:* ***"Mən demirəm ki, fəlsəfə mükəmməl elm deyil, sadəcə deyirəm ki, fəlsəfə hələ elm deyil, elm kimi hələ başlamayıb!"*** *Əslində məlumları elm hesab etmək bizim həqiqi elm qarşısında acizliyimizin nəticəsidir. Əsl elm məchullar haqqında, məchulları məlum etmək haqqında elmdir. Ateist də olsa Freyd düz deyir:* ***"Elm o vaxt başlayır ki, insanlar dünyanı dərk etmədiklərini dərk edir və bu səbəbdən dünyanı dərk etmək yollarını axtarmalı olurlar."(Тотем и табу. M., 1997, 112)*** *Dərk edilmiş, öyrənilmiş, mahiyyətinə varılmış şeylərin elmi effektinin günü-gündən azalması göz qabağındadır.*

*Allah nəfslərin sayını dəyişməz yaratmışdır. Ruh nəfsin enerji sahəsi olub əsasən superdiskret formaya malikdir. Geosistemdə hər saniyədə, dəgiqədə, saatda, gündə, ayda, fəsildə, ildə, əsrdə nə qədər canlı məhv olursa bir o qədər də əmələ gəlir. Bu aləmdə nə qədər psixosistem və ya psixobiosistem varsa onların ümumi çəkisi və sayı dəyişməzdir. Hal-hazyrda Yer üzündə insanlardan başqa digər canlıların sayı və çəkisi azalmaqdadır. Bu da insanların mədəniyyət və texnika adını verdikləri vandallıq və barbarlıqlarının nəticəsində vaqe olur. Lakin buna baxmayaraq insanlar artır və digər canlıların azalmasını öz artımları ilə konpensasiya edirlər. Bu yalnız fiziki-anatomik konpensasiyadır. Ruhi-nəfsi və ya mənəvi baxımdan bu konpensasiyanın heç bir dəyəri və təkamülü yoxdur. O psixofiziki enerji ki, heyvan və bitki orqanizmlərinə məxsusdur, bitki və*

---

[47] ***Biz bunu qeyd edirik ki, məlun siyasi qüvvələr bu faciələri tarixdən gizlətməsin və ya istədikləri kimi təqdim və təbliğ etməsinlər. Hər dövrdə haqqı bilənlər olub, lakın haqqı ifadə edənlər çox az olub. Onları arayıb, araşdırıb tapmaq vacibdir ki, həmin dövrdə baş verənlərin həqiqətini bilmək mümkün olsun. Bizdən sonrakı nəsillər bu qaydanı unutmasın!***

*heyvanların kütləvi məhvi o enerjinin başqa orqanizmlər axtarmağa vadar edir ki, son nəticədə insan orqanizmi bu zəif nəfslərin sığınacağı olur. Bunun da nəticəsində çox dəyərsiz, mənəviyyatca cılız, ikiüzlü, hiyləgər və xəbis insanlar peyda olur. Həm fitoorqanizmlərin, həm də zooorqanizmlərin ruhi enerjisi az olduğundan, onlara məxsus psixi enerji insan bədənində qərər tutaraq mənəvyyıat və əql dünyasını alt-üst edir! Yoqa Sutralardakı* **anemnezis** *adlanan proses elə bu məsələnin primitiv izahından başqa bir şey deyil. Aristotel və Leybinistin entelexiya adlandırdıgları poses də buna çox yaxındır. Mən bunu psixoekonomik proses və ya psixoekogenez adlandırmaqda tərəddüd etmirəm. Kainatda olduğu kimi yer üzündə də həm psixi, həm də fiziki kütlə sabitdir. Lakin ayrı-ayrı fərdlərin ruhi-nəfsi çəkisi fərqlidir. Ruhun spesifik kütləsini təyin etmək müşkül olsa da, onun əqli enerjiyə çevrilən formasında çəkilməsi eksperimentdə mümkün olmuşdur. (Lakin bu sınaq yalnız adi insanlar üzərində aparılıb.) Mübarək, isdedadlı və mənəviyyatca zəngin olan insanların geosistemdəki psixi çəkisi ən aşağı halda 5 qram olur. Adi adamların əqli çəkisi isə 3 qram və 5 qrama qədər aralıqda dəyişir. Amma burda əqlin pozitiv çəkisi və ya kütləsi nəzərdə tutulur. Belə ki, ruhi aləm də pozitiv və apozitiv və ya antipozitiv xüsusiyyətlərə malikdir. Mikroaləmdə zərrəcik - antizərrəcik qarşılığı olduğu kimi, psixi proseslər arasında da buna oxşar bir şey var. Allahın bəxş etdiyi böyük ruhi enerji bəzən metamorfoza ola bilir, yaxud tamam satanik enerjiyə çevrilə bilir. Amma bəzi tədqiqatçılar bu enerjini də ruhi enerji adlandırırlar ki, bu çox yanlışdır. Böyük məlunları da müqəddəslərin arasında zikr edən bu cahil tədqiqatçılar belə bir yanlış gyimətləndirmə aparmışlar ki, guya Yer üzünün ən böyük mufsidlərinin(nəmrud, ramses, navuhodonossor, avgust, neron, müavyyə, stalin, buş, neomüaviyə və b.)də ruhi çəkisi çoxdur. Amma əslində bu böyük məlunların daxilində qərar tutmuş enerji ruh və ya ruhi deyil, psixi enerjinin şərir tərəfindən çevrilmiş formasıdır - apozitiv və ya antipozitiv enerjidir. Bu cür insanların ruhi çəkisi törətdikləri günahların ucbatından azalır və azalmış pozitiv enerjinin boşalmış yerini satanik enerji zəbt edir. Mufsid və musrif insanların hamısının daxili dünyası beləcə Cibril və Mikəlin nəzarətindən çıxıb şəririn nəzarəti altına keçir. Bu super mənfi enerji zahiri xüsusiyyətlərinə görə ruhi-nəfsi enerjiyə çox bənzəyir. İrfan elmindən xəbərsiz ziyasız insanlar bu fərqi müəyyən*

*edə bilmirlər. Ümumiyyətlə iman və salah əhli olmayan kəslərdə RUH olmur və ya olsa da müvəqqəti passiv vəziyyətdə olur. Ruh və iman bir-birinin əasıdır və ya əsasındadır. İmanı olmayanın ruhu, ruhu olmayanın da imanı vakuumdur. Aktivləşməyən ruh orqanizmi tərk etməyə məcburdur. Ruh və iman saleh əməllərlə aktivləşir. Bünlar(ruh, iman və saleh əməllər) bütünlüklə vəhdətdədir və sistemli olaraq bir-birinə dəstək verirlər. Uca Allah buyurur:* ***"…Allah onların qəlbinə iman qoymuş və öz tərəfindən bir ruhla dəstəkləmişdir!.."(Mucadilə, 22)*** *Ayə açıq-aydın göstərir ki, bəndə iman və ruhu Allah qatından qəlbinə doğru götürür və ya gətirir. İman qəlbi tərk etdikdə ruh da tərk edir və nəfs yardımsız qalır. Bu halda kosmik dəstəkdən məhrum buraxılan məxluq satanic dənizin dalğaları arasında qərq olur. Amma bu eqopsixi inversiya həmişə olmur, yalnız iblisin kontrol dairəsi genişlənəndə ətraf mühitin ən günahkar məxluqlarının nəfsində(****"mən"****ində) biopsixi infersiya baş verir. Elə günahlar var ki, psixi enerjini minumuma endirdikdə insanın fiziki ömrü bitir. Məsələn, Rəsulullah demişdir:* ***"…zina insanın nurunu aparar, fəqirlik gətirər və ömrü qısaldar!"*** *Amma elə günahlar var ki, günahkarın ömrünü artırır. Bunun səbəbi mucrimin psixi modifikasiya olması – ruhunu iblisə satmasıdır! Quran belələri barədə deyir:* ***«Kafirlər onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar! Bizim onlara verdiyimiz möhlət ancaq günahlarını daha da artırmaları üçündür! Onları zəlil edici əzab gözləyir!»(Ali-Imran, 178)*** *Başqa bir ayədə isə belə deyir:* ***"Onlara dünyada bir müddət faydalanma var. Sonda isə dönüşləri bizədir. Biz də küfrlərinə görə onlara ən ağır əzab verəcəyik!"(Yunus, 70)*** *Peşəkar cadugərlər və çox hiyləgər tağut hökmdarlar bu kateqoriyaya aiddir. Təbiət və bəşəriyyət üçün təhlükə yaradan bu məxluqların pozitiv psixi kütləsi 3 qramdan çox olmur. Mufsid, mucrim və musriflər pozitiv psixi enerjidən yalnız həyatda qalmaq üçün istifadə edirlər. Hətta, bəzən mufsid və mucrimlərin psixi kütləsi 3 qramdan da aşağı düşür ki, bu da törədilən günahların həm psixogenetik, həm də ümumi fizioloji təsirindəndir. Yalnız saleh əməllərlə psixi kütləni artırmaq mümkündür. Ən dahi və saleh insanların ruhi-əqli çəkisi 10 qram ağırlığadək qalxa bilir. Məhəmməd salavatullah, Musa kəlamullah, Ibrahim xəlilullah, Isa ruhullah kimi böyük və əzmli Nəbilər 9 qramdan az olmayan ruhi çəkiyə malik olublar. Bu cür insanların sayı barmaqla sayıla biləcək qədər azdır. Böyük mufsidlərə də kosmosdan*

*9-10 qramlıq əqlə dəstək verən ruh göndərilir, amma axirətlərini dünyalarına satdıqlarından psixi enerjiləri öz razılıqları ilə iblis tərəfindən modifikasiya və inversiya edilir. Digər Nəbilərin isə biopsixi kütləsi 7 qramdan 9 qram ağırlığadəkdir. Insanlardan olan hər bir şeytanın da satanik əqli enerjisi bu qədər olur. Modifikasiya edilmiş əqli enerji hiylə adlanır. Imam Əli kimi bir qrup nübuvvət verilməmiş dühalar var ki, psixi kütləsi 7 qramdan aşağı deyil. Bu dühalar Yer üzünün ən prespektivli hüceyrələridir. Bu dühalar iblisi və əsgərlərini daim narahat edirlər. Bu insanların ən böyük düşmənlərini idarə edən antipisixi enerjinin miqdarı isə 6 qrama qədər olur. Pozitiv biopsixi kütləsi 4 qramdan aşağı olmayan insanların nəfslərinə("mən"lərinə) kosmosda həmişə yer var. Psixi enerjisi zəif və çirkli olan insanların nəfsləri isə heç vaxt göyə galxmır. Çünki bunlar çirklidir, xəbis, riyakar, xain, qəddar insanlara məxsusdur. Quranda bu barədə deyilir:* ***"Ayələrimizi yalanlayan və təkəbbür göstərənlərə göyün qapıları açılmaz!"(Əraf, 40)*** *Bu cür insanlar öldükdən sonra nəfsləri(özlükləri) Yer üzündə dolaşır və iblisin istifadə dövriyyəsinə daxil olur. Əgər biopsixi kütlə lazım olan miqdarda deyilsə psixoekosistem kosmik səsin(istər daxildən, istərsə də xaricdən) çağırışını eşitmir. Biofiziki kütlədən fərqli olaraq biopsixi kütlə nə qədər çox olarsa bir o qədər sürətli və sürəkli olar. Ruhi və ya mənəvi çəkisi çox olan insanlar Allahın nəzarətində olan insanlardır. Kimin psixi çəkisi lazımı miqdarda deyilsə onun aqibəti çox pis olacaq. Uca Allah buyurur:* ***"O zaman kimin tərəzisi ağır gələrsə onlar nicata çatacaqlar! Kimin də tərəzisi yüngül gələrsə həlak olub cəhənnəmlik olanlardır!"(Muminun, 102-103)*** *Qariə surəsində də eyni mənalı ayələr var. Bu ayələrdə keçən* ***məvazinuh*** *kəlməsi açıq-aydın psixi və mənəvi kütləni göstərir, elm və təfsirdən nəsibi olmayanların dediyi kimi məcaz deyil. Psixi kütləsi yüngül olanlar yenidən həyata qayıtdıqda heç vaxt normal insan şəkli ala bilməyəcəklər. Çünki onların ruhi-nəfsi enerjisi ən yaxşı halda müxtəlif heyvanların, xüsusilə sürünənlərin şəklini almağa kifayət edir. Psixi kütlənin miqdarı və intensivliyi, fiziki kütlənin intensivliyi və miqdarına tərs proporsionaldır. Psixi kütləsi az, amma fiziki kütləsi çox olan apozitiv və antipozitiv dahilər, məsələn, şeyx şeytanşükür paşazadə və şeyx müaviyə kimi hər gün 7-8 dəfə yemək yeyən leşləşmiş qarınqulu olurlar. Bunlar yalnız yemək üçün yaşayan yaramaz musriflərdir. Yaşamaq üçün yeyənlər isə yalnız biopsixi çəkilərini*

*artırmağa çalışarlar. Psixi kütləni artırmağın yalnız bir yolu var. Bu da inanclı saleh əməllər və ya səma qanunlarına(DAOya) kamil şəkidə itaət etməkdən ibarətdir! Bu qanunlar Kosmik kitablarda, özəlliklə Quranda açıq-aydın yazılmışdır. Bu qanunlara kamil şəkildə itaət yalnız endirilmiş orjinal formasına sadiqliklə mümkün ola bilər. Bu qanunlar təmrinlər, rituallar, bir sözlə ibadətlər kompleksidir. Ruh müxtəlif formada təzahür edə bilər. Bəzi alimlərə görə Yer üzündə ruhun təzahürünün ən yüksək forması cinlərdə olur. Lakin bu yanlış nəzərdir. Çünki cinlərin ruhunun olub olmadığı məsələsi belə mübahisəli və ixtilaflıdır. Kosmik kitabların(Tövrat, Incil, Quran) bildirdiyi kimi mələklər nurdan, cinlər isə tüstüsüz oddan xəlq edilib ki, ərəbcə buna* ***"nar"*** *deyilir. Lakin* **nar***ın müxtəlif formaları var. Lakin əsası şübhə yox ki, hidrogendir. Məlum olduğu kimi helium da bundan törəyir. Hidrogen və helium atomları geosistemdə çox zaman özlərini psixon kimi də göstərə bilirlər. Lakin ruhun zərrələri ilə nar zərrələri mahiyyətcə fərqli şeylərdir. Baxmayaraq ki, bəziləri ruh anlayışı altında qeyri-real bütün hal və prosesləri ifadə etməyə çalışırlar. Ruh bütün canlı orqanizmlərdə, hətta bizim cansız zənn etdiyimiz bir-çox şey və hallarda da təzahür edə bilir. Psixi maddənin kainatdakı ən yüksək forması isə mələklərin liderləri – arxangellər və ya muqarrabinlərdir. Psixi maddə fiziki maddənin prinsipi, atributu, təkanverici qüvvəsi, davamı, növü və dəyəridir. Psixini fizikinin antipodu kimi bilən və ya təqdim edənlər ən azı elm və hikmətdən nəsibi olmayanlardır! Psixi maddə zərrəcikləri uyğun məkan-zaman kontiniumunda fiziki maddəyə çevrilirlər, amma fiziki maddənin(yəni, şablon olaraq qəbul edilən variantda) psixiyə çevrilməsi müşkildir. Psixi maddənin minimal sürəti, fiziki maddənin maksimal sürətinə çox yaxındır.* $V_p \geq V_f$ *Psixi maddəni yaradan Teoekoenerji psixoekogenezə ən mükəmməl monitorrinq tətbiq edir. Sinonimi olmaq etibarı ilə psixogenezlə yanaşı psixodinamika ifadəsini də işlətmək olar. Belə ki,* ***"psixodinamika"*** *ruhi qüvvə və ya ruhi güc mənasını verir. Əslində psixogenez qədim, psixodinamika isə müasir (qismən də futuroloji) ruhi situasiyanı ifadə edir. Həyatın ən əsası olan ruh həyatın fəaliyyətini(bütün enerjisini) təşkil və təyin edir. Həyat qüvvəsi sayəsində formalaşan həyat fəaliyyəti həyat maddəsini tamamlayır. Psixogenez proseslər sonda ekogenezin yaranmasına gətirib çıxarır. Psixogenezlə ekogenez arasında zaman fasiləsi çox qısadır. Həyatın ilkin mərhələ və halı psixi maddə və psixogenezlə başlayıb. Çünki*

*Allahın yaratdığı ilk məxluq ruhdur. Ruhlar da saysız-hesabsız və müxtəlifdir. Ruh - canlı maddənin, xüsusilə insanın, ümumiyyətlə yer kürəsinin dəyəri olan dühalığın təzahüründə özünü göstərir. Uca Allah geoekosistemdəki istedad və düha sahiblərinə RUH il QUDUS və RUH il ƏMİN vasitəsi ilə vəhy və ya informasiya göndərir və həyatımıza, varlığımıza yön verir. (Məsələn, Əlinin aforizmlərini, yaxud da Kantın Proloqomenlərini oxusanız bu ruhun varlığını duyar, hətta dərk edə də bilərsiz.) Psixogenezin əsas hərəkət verici qüvvəsi psixodinamikadır. Məhz bu psixodinamik enerji həyatın sonrakı iki mərhələsini ekogenez və xronogenezi formalaşdırmışdır. Psixodinamika yalnız ekogenez və xronogenezi meydana çıxarmaqla qalmamış, ayrıca ekodinamika və xronodinamikaya da təkan vermişdir.*

*2)Ekogenez bizim anlayışımızda məkanın mənşəyi və əmələgəlməsi prosesini ifadə edir. Ekosistemin, yəni məkan sisteminin mütləq və nisbi forması var. Mütləq məkan metafiziki və teoloji substansiyaya malikdir. Nyuton deyir:* ***"Mütləq, həqiqi, riyazi məkan mahiyyət etibarı ilə xarici şeylərdən aslı olmayıb həmişə eyni və dəyişməz qalır!"*** [48] *Nyutonun mütləq məkan barədə söylədikləri əslində metafiziki və ya teoloji məkandır. Allah nisbi məkanın üstündə, mütləq məkanın üzərindədir. Quran bu barədə deyir:* ***"Odur göyləri və yeri altı günə yaradan. Sonra arşın üzərinə istiva(yerləşmə) etdi!"*** [49] *Ayədəki* ***"arş"*** *Allahın dərgahı və ya məkanıdır. Mən bunu teoekosistem adlandırmağı uyğun gördüm. Məkanın təbiət daxilindəki forması isə sırf fiziki məkan olub subyektivasiya prosesində təzahür yerindən və anından aslı olaraq Minkovski, Kleyn və ya ümumiyyətlə Riman məkanı kimi özünü biruzə verə bilər. Məkan mühitin substansiyasıdır. Kainatda müxtəlif ekosistemlər var ki, onları bir ekosistemdə təsvir etmək çox çətindir. Kosmosda ulduz məkanları və ya planetar ekosistemlər spesifik və mühüm əhəmiyyətə malikdir. Ulduz məkanları o qədər dəyərlidir ki, uca Allah Quranda buyurur:* ***"Ulduzların məkanlarına and olsun! Bilin ki, bu çox uca bir anddır!"*** [50] *Allahın ulduzların bərqərar olduğu məkan və ya ekosistemləri bu cür uca tutması, əlbəttə, üzərində düşünülməsi lazım*

---

[48] ***Математические начала натуральной философии, М-Л, 1936, 30***

[49] ***Hədid, 4***

[50] ***Vaqiə, 75-76***

*olan elmi həqiqətdir. Şübhə yox ki, ulduz ekosistemləri ümumi kosmik ekosistemin hissəcikləridir. Lakin hər bir ulduz da insanlar kimi spesifik xüsusiyyətlərə malikdir. Müxtəlif ekosistem müxtəlif məkanların olması deməkdir.(Ekosistem elə əsasən məkan deməkdir.) Müxtəlif məkanlar da müxtəlif xüsusi həndəsi-riyazi və ümumi fiziki xassələrin olması deməkdir. Və bütün bu proseslərin hamısı maddidir. Böyük riyaziyyatçı Lobaçevski bu həqiqəti ilk anlayan və açıqlayan insan hesab olunur. Onun bu təsbiti çox xoşuma gəlir:* ***"Məkan materiyadan ayrılıqda mövcud deyil. Təbiətdə bəzi qüvvələrin bir həndəsəyə, başqa qüvvələrin başqa bir həndəsəyə tabe olduğunu düşündükdə bizim ağlımızda heç bir təzad ola bilməz! Biz təbiətdə ancaq hərəkəti dərk edirik və bunsuz heç bir təəssürat ola bilməz. Buna görə hər bir anlayış, o cümlədən həndəsi anlayışlar hərəkətin xassələrindən alınaraq ağlımızda hasilə gəlirlər!"***[51] *Başqa tərəfdən məkan subyektivasiya(abstraksiya) prosesinin prinsipi kimi də çıxış edir. Bunu duyan, lakin tam anlaya bilməyən Kant belə yazır:* ***"Yalnız insanın zehni fəaliyyətində məkanın mahiyyətindən danışmaq olar. Subyektiv fəaliyyətdən uzaqlaşacağımız təqdirdə məkan təsəvvürləri heç bir məna kəsb etməyəcək!"*** [52] *Kant subyektivliyi absolyut çərçivəyə salmaqla yanılırdı. Kant və onun kimi düşünənlərin yanılmasını sırf riyazi baxımdan Lobaçevski göstərmişdir. Lobaçevskinin səhvi o idi ki, dərk etdiyi həqiqiqəti Kantın dərk etdiyi həqiqətin təkzibi kimi gözstərirdi. Halbuki Lobaçevskinin həqiqəti Kantın həqiqətinə sadəcə əlavədir, onun təkzibi deyil. Sırf qnosioloji baxımdan subyektiv idealizm deyilən görüşlər sisteminin yarımçıqlığını* ***"Empriomaterialzm"****də* ***"subyektdə obyekt"*** *və* ***"obyektdə subyekt"*** *anlayışlarını əsaslandırmaqla göstərməyə cəhd etmişdim. Belə ki, Kantın fikri* ***"subyektdə obyekt"****, lobaçevskinin fikri isə* ***"obyektdə subyektin(subyektiv abstraksiyanın) obyekti"****ndən başqa bir şey deyil. Ümumiyyətlə, elmi həqiqətləri bir-birinə qarşı qoymaq böyük xətadır. Həqiqətlər xalis elmi forma aldıqda ya biri digərinə əlavə olur, ya biri digərinin xüsusi, ya da ümumi forması kimi çıxış edir. Beləliklə fiziki mühitin əsası olan məkan minimum dinamiki prosesdir. Buna görə də ekogenezin əsasında ekodinamika durur. Ekodinamika bir növ indiki ekogenezdir, daha doğrusu*

---

[51] ***Лобачевский, Полн. Собр. соч. т. 2, М-Л, 1949, 159***
[52] ***Критика чистого разума, СП, 1915, 46***

*ekogenez iyerarxiyasının lideridir. Ekodinamika məkan qüvvəsidir, necə ki, psixodinamika ruhi güc və ya ruh qüvvəsidir. Ekodinamikanı ekoeffekt kompleksi kimi də təsəvvür etmək olar. Maks Plankın bu fikri tam yerinə düşür:* ***"zaman effektləri kimi məkan effektləri də nəticə etibarilə zərrədən zərrəyə ötürülən effektlərdən ibarətdir!"(Макс Планк, Принцип сохранения энергии, 235)*** *Lakin unutmaq olmaz ki, elm adamlarının beynindəki fiziki məkan mütləq məkan deyil. Ekogenez proseslərin müxtəlifliyi və yaxud rəngarəngliyi xronegenezi meydana çıxarır. Lakin ekogenez xronogenezin substansiyasından başqa bir şey deyil. Belə ki, ekogenezin forması olan xronogenez ekogenezin mühafizəçisi kimi çıxış edir. Bunların biri, o biri olmadan mövcud ola bilməz. Ekogenez və xronogenez hədsiz vəhdətdə olan həyat mərhələləridir.*

*3)Xronogenez - zamanın mənşəyi, əmələ gəlməsi ilə bağlı olan materiya fəaliyyətini bildirən anlayışdır. Xronogenezin də ekogenez kimi ilk pilləsi absolyut məkan-zaman sisteminin formalaşması ilə bağlıdır. Xronos yunan sözüdür, zaman deməkdir, antik qərb bütpərəstlərinə görə zaman Allahı, muvahhidlərə görə isə Allahın adlarından biridir. Atəşpərəstlikdəki Zarvan(Zurvan), müsəlmanlardakı Dəhr(Dəyhur) eynilə yunanların Xronosudur. Digər ümmət və qövmlərdə də Zamanın spesifik adları var. İslam Günəşi Məhəmməd salavatullah deyib:* ***«Dəhrə söyməyin, Dəhr Allahdır!»*** *İslam alimləri bu hədisin təfsir və təvilində barədə ixtilaf ediblər və etməkdədirlər. Bu alimlərin çoxu yalnız kəlami oyunlarla uğraşıb Allahın ən böyük kitabı olan kosmosu və ya təbiəti oxuya bilmədiklərindən bu cür nassları tam anlaya bilməmişlər. Əbu Ubeyd bin Sallam, ibn Hənbəl və digər bir çox hədis mütəxəsisi alimlər söyləyirlər ki, bu hədis müşriklərin zamanı söymələrinə qarşı deyilmişdir. Bu bir həqiqətdir, lakin hədis yalnız bununla bağlı deyil. Bəziləri(Zeynuddin əl-İraqi, Qaliley, Nyuton və b.) zamanı hərəkətin miqdarı hesab edir, bəzilərinə(Əbu Turxan, Eynişteyn və b.) görə bu tərif köhnəlmişdir, bəziləri də(Eruigena, ibn Teymiyə və b.) zamanı məxluq hesab edirlər. Zaman Allahın atributlarındandır. Hədisdəki Dəhr Allahın isimlərindən olub, əzəli və əbədinin vəhdəti olan qədim anlamını daşıyır. İslam alimlərindən Nuaym bin Hammad və əshabı da belə düşünmüşdür. Rasulullahdan* ***«Ey Dəhr, ey Deyhur, ey Dəyha!»*** *şəklində dualar etdiyi də rəvayət edilmişdir. Dəhr və ya Zaman keçmiş, indi və gələcəyin hamısını əhatə edən anlayışdır.*

*Allahın(s.t) əl-Əvvəl, əl-Axır kimi isimləri də zaman kəliməsi ilə səsləşir. Əslində Dəhr bu iki ismin hər ikisini də özündə ehtiva edir. Zaman əzəli və əbədinin vəhdəti olduğu kimi, əl-əvvəl və əl-Axırın da vəhdətidir. Muhit də məna, məzmun və mahiyyətcə zamanın özüdür. Çünki zaman hər yerdə var. Elə bir məkan, elə bir muhit yoxdur ki, zamansız təsəvvür olunsun. Zaman və ya Dəhr Allahın atributlarından biri kimi əbədi, əzəlidir. Amma absolyut və metafiziki sistem kimi. Zamanı məxluq və hətta daha da xüsusiləşdirib gecə və gündüz hesab etməsi ibn teymiyə kimilərin qafilliyidir. Əslində zaman məxluqat yaranmamışdan öncə də var idi. Allah məxluqatı yaratmamışdan öncə onların qədərini(ölçüsünü) təyin edəndə zaman mövcud idi. Çünki zaman Allahdan ayrılmazdır. Necə ki, rəhimli, mərhəmətli olmaq, hər şeyə qadir və qalib olmaq, hər şeyi görmək və başqa isim və sifətlər Allahdan ayrılmazdır. Allahı bunlarsız zikr etmək mümkün olmadığı kimi, zamansız da zikr etmək imkan xaricindədir. Allah qatında zaman yalnız* ***«indi»****lərdən ibarətdir. Orda nə keçmiş var, nə də gələcək. Keçmiş və kələcək zaman yalnız bizim yaşadığımız aşağı dünyaya xasdır. Sözü böyük zamanşünas alim Nyutona verək:* ***"Mütləq, həqiqi, riyazi zaman öz-özlüyündə və mahiyyəti etibarilə xarici şeylərdən aslı olmayıb bərabərsürətli axır və sürəklilik adlanır!"(Математические начала натуральной философии, М-Л, 1936, 30)*** *Nyutonun mütləq məkan barədə dediklərində olduğu kimi mütləq zaman barədəki fikirləri də əslində metafiziki və ya teoloji məkan olub fiziki məkandan fərqlənir. Bu böyük Xronoloqun ifadə etdiyi bərabərsürətli və sürəkli axın mənim* ***"indi"*** *kimi başa düşdüyüm Teoxronikadan başqa bir şey deyil. Qiyamət günü də bütün varlığa* ***«indi»*** *ilə hökm ediləcək. Cənnətdə və cəhənnəmdəki zamanlar da yalnız* ***«indi»****dən və ya* ***«indi»****lərdən ibarət olacaq. Bir şeyin əbədi olması həmin şeyin keçmiş və gələcəyinin olmamasına dəlalət edər. Əbədiyyətin əsas mənası budur. Vəhdəti-vücudçuların, mistiklərin, kəlamçıların da bəzisi primitiv formada olsa da bunu başa düşmüşlər. Zaman və ya Zərvan və ya Xronos və ya Dəhr qiyamətə qədər, qiyamət günü və ondan sonra da var olacaq. Nə qədər ki, Allahın rəhmi var, qəzəbi var, həyatı var, zaman da vardır. Çünki Zaman mütləq anlamda Həyat və Mühit kimi Allahın özüdür. Zaman Allahın kəliməsinə bənzər bir şeydir, amma kəlamullahdan daha mütləqdir. Bu o deməkdir ki, Allah(s.t) elmi, gücü, qüvvəsi, fəaliyyəti və nəhayət zamanı ilə hər şeyi ehtiva etmişdir. Zamanı mütləq formasında məxluq*

*və nisbi hesab etmək bütpərəstlik əlamətidir. Lakin zamanın Allah xaricindəki təzahür formaları məxluq və nisbidir. Zaman əslində qeyri-müəyyən varlıqdır. Zamanın bizə məlum olan və olmayan tərəfləri var. Qiyamət yaxınlaşdıqca məchullar məlumlara çevrilir. Məsələn, gecə və gündüz zamanın bizə məlum olan çox-çox kiçik tərəfidir. Başqa ulduzlarda, qalaktikalarda zaman necədir? Bizə hələlik məlum deyil. Sadəcə bunu bilirik ki, Teoekosistemdə bircə gün bizim üçün min ilə bərabərdir. Bununla bağlı ayə Eynşteynin nisbilik nəzəriyyəsindən 1300 il əvvəl nazil olub. Gecə, gündüz, günəş, ay, ulduzlar və digər səma cisimləri, Allah kitabında da buyurulduğu kimi, bizim aləmin vaxt ölçülərini təyin etmək üçün yaradılmışdır. Onların heç biri zamanın varlığına şərt deyildir. Sadəcə biz insanlar və dünyamızın başqa canlıları onların hərəkətləri ilə öz subyektiv zamanımızı formalaşdırmışıq. Zamanın nisbiliyi, müxtəlif məkanlardakı fərqli zamanların varlığı isə ümumi mütləq zaman məfhumunun anlam dəyərini nəinki azaltmır, hətta ona rəngarənglik verir. Bu məsələdə bizimlə müxalifət edən normal təfəkkür sahibi birisini tanımıram. Əlbəttə, yerin kürə şəklində olduğunu söyləyənlərin kafir olduğu görüşündə olan bu cür cahillər, təbii ki, zaman məfhumunun da həqiqi mənasını anlaya bilməzlər! Zamanı hərəkətin miqdarı demək bəsit mexaniki təsəvvür hesab edilsə də əsasən doğru tərifdir. Teosistemə məxsus zaman teosistem hərəkətinin miqdarı, başqa sistemlərə məxsus zamanlar da, o sistemlərin spesifik hərəkət miqdarıdır. Müxtəlif spesifik hərəkətlər, məkanlar olduğu kimi müxtəlif və spesifik zamanlar da var. Eynişteynin kəşfi bu həqiqətin bəşəriyyətə fiziki-riyazi modeldə təqdimatından başqa bir şey deyil. Eynişteynin bu sözləri məşhurdur:* ***"Əvvəllər belə hesab edirdilər ki, hər hansı bir səbəbdən şeylər məhv olsaydı, məkan və zaman qalardı. Amma nisbilik nəzəriyyəsinə görə şeylərlə birlikdə məkan və zamanda məhv olardı!"*** *Əslində Eynişteynin şeylərdən aslı hesab etdiyi məkan və zaman, Nyutonun nisbi məkan və nisbi zaman barədə söylədiklərinin mükəmməl işlənmiş, tədqiq edilmiş şəklindən başqa bir şey deyil. Bu baxımdan zaman bir növ tarix olsa da, təbiətşünaslıq elmlərində zaman daxilində nə baş verməsindən aslı olmayaraq zamanın özü tədqiq edilir. Zamanı öyrənən elmi zamanşünaslıq adlandırmaq daha doğru olar. Xronogenezin mahiyyəti, enerjı bazası həm bilvasitə, həm də bilavasitə xronodinamikadan asılı olaraq formalaşır. Xronodinarnik proseslərə zaman qüvvələrinin bırliyi kimi*

*də baxmaq olar. Psixogenez, xronogenez, ekogenez hərəkətlərinin vəhdəti kosmogenezi əmələ gətirir. Ekogenezin əsası ekodinamika olsa da, onun nəticəsi və mənası məkandır. Xronogenezin də əsası xronodinamika olsa da, mənası və nəticəsi zamandır. Beləliklə, xronogenez zamanın mənşəyi və əmələ gəlməsilə bağlı nə olubsa, nə varsa və bundan sonra da nə olacaqsa özündə ehtiva edən anlayışdır. Psixogenez, ekogenez və xronogenez vəhdətdə fəaliyyət göstərərək kainatın yaranmasına səbəb olmuşlar ki, biz bu möhtəşəm və əlahiddə prosesi kosmogenez adlandırmağı uyğun görürük.*

*4)Kosmogenez biogenezin 4-cü və ən şaxəli mərhələsdir. Kosmogenez kosmoqoniya ilə başlayır. Kosmoqoniya kosmogenezin əsasıdır. Bütün metaqalaktik, qalaktik proseslər və ulduzlar ailəsi kosmogenezin çox şaxəli inkişafının nəticəsidir. Kosmosun dərin təməlləri özündə hər cür informasiya daşıyır. Kosmos bir növ Qurana bənzəyir. Bu baxımdan təbiət də ayələr kimi eyni qaynaqdan gəlir. Həm təbiət, həm də Quran* **Loqosun** *təzahürüdür. Çünki kosmos ağıllı insanların oxuya biləcəyi kitabdır. Bu xüsus Quranda açıq bəyan edilib. Lakin bu da bəyan edilib ki, bu müqddəs kitabı ağlı başında, imanı da qəlbində olanlardan başqası oxuya bilmir. Quran deyir:* ***"Göylərdə və yerdə neçə-neçə dəlillər var ki, insanlar bu dəlillərdən üz çevirib gedirlər!"***[53] *Başqa bir ayə isə belədir:* ***"Allah göyləri və yeri haqq olaraq yaratdı. Şübhəsiz bunda iman edənlər üçün bir dəlil var!"*** *Bu ayələr həm də astrofizika, kosmologiya və kosmosofiya ilə məşğul olmağın ibadət olduğuna ən azı işarədir. Elə bunu dərk etdiyi üçün Keppler deyirdi:* ***"Allahın təbiət kitabına görə biz astronomlar uca Allahın din adamları olduğumuz üçün Onun şanını həmişə ucaltmalıyıq!"*** *Kosmogenezi dərk, kosmogenezə, kosmosa meyl heç şübhəsiz ki, insanı saflığa, imana, başqa sözlə Allaha çağırır. Kosmogenez kainatın mənşəyi ilə bağlı olan prosesləri ifadə edən ən uyğun anlayışdır. Kosmogenez də təbii olaraq biogenezin hər bir mərhələsinə uyğun olduğu kimi kosmodinamika (kosmik dinamika) və ya kainat qüvvələrinin qarşılıqlı təmas sistemini əmələ gətirir. Kainatda nə varsa, kənarlarındakı yoxluq və ya vakuumla birlikdə spesifik bir mühitdir. Metaqalaktik mühit, qalaktik mühit, ulduz mühiti, şüa mühiti, malekulyar mühit, atom mühiti və nəhayət elementar mühit, başqa tərəfdən canlı mühit, aero mühit və*

[53] ***Yusif, 105***

*başqa eksiztensial və natural komponentlər kosmik mühitin tərkibini müəyyən edirlər. Ontoloji olaraq bu komponentlərin hər birinin kosmogenezdə yaranma, yaşama və ölmə yeri və zamanı vardır. Biogenezin ilkin mərhələsi istisna olmaqla, hər bir mərhələsi özündən əvvəlkinin üzərində bərqərar olur. Belə ki, kosmogenez də psixogenez, ekogenez və xronogenezin bir-biri ilə qarşılıqlı əlaqələrinin nəticəsidir. Əgər materiyanın ruh, məkan və zaman kimi superqlobal və kosmik miqyasılı parametrlərindən hər hansı biri olmazdısa kainat* **doğula** *bilməzdi, yaxud da başqa cür xaos olardı. Kosmos da insan və digər məxluqat kimi yaradılıb. Ən ümumi mənada təbiət elə kosmos və ya kainatdır. Kosmos bir Yaradanın yaratmasına bağlı bir şəkildə mövcuddur. Əksinə düşünənlər boş-boşuna zehin oyunlarına qapılmış vaxt, fikir və kağız israf edənlərdən başqası deyil. Əvvəllər kosmosa mütləq mənada əzəli və əbədi sifəti verirdilər. İndi isə elmin ən son açıqlamalarına görə artıq kosmosun əzəliliyindən bəhs edənlər görünməməkdədir. Hətta kosmosun əbədiliyinə şübhə ilə yanaşan alimlər də az deyil və getdikcə sayları artmaqdadır. Kosmogenez daim fəaliyyətdədir və kosmosu genişləndirir. Albert Eynşteyn və Vilyam de Sitter ayrı-ayrılıqda apardıqları tətqiqatlarla ümumi nisbilik nəzəriyyəsini bütün kainata tətbiq etdilər. Bu teoriya kosmosun ya kiçilməsini, ya da böyüməsini söyləməyi tələb edirdi. Bu problemli vəzifənin öhtəsindən akademik Fridman gəldi. O, ümumi nisbilik nəzəriyyəsi üzərində hesablamalar apardı və genişlənən kosmos modelini ortaya qoydu. Ümumiyyətlə kainatın bütün mümkün halları böyük riyaziyyatçı və geofizik, bolşevizmin günahsız qurbanlarından olan superakademik Fridman tərəfindən Eynişteynin ümumi nisbilik nəzəriyyəsi əsasında mükəmməl bir şəkildə təsvir edilmişdir:*

*1)Əgər kainatda maddə və şüalanmanın orta sıxlığı müəyyən böhran qiymətinə bərabərdirsə, məkan Evkilid məkanıdır və kainat başlanğıc nöqtə halından qeyri-məhdud genişlənir.*

*2)Əgər kainatda maddə və şüalanmanın sıxlığı böhran qiymətindən kiçikdirsə, dünya məkanı Lobaçevski həndəsəsində təsvir olunan kimidir və kainat qeyri-məhdud genişlənir.*

*3)Əgər kainatda maddə və şüalanmanın sıxlığı böhran qiymətindən böyükdürsə, onda kainatda məkan Riman xarakterlidir və kainatın genişlənməsi müəyyən mərhələdən sonra sıxılma ilə əvəz olunur.*

*Akademik Fridman bununla isbat etdi ki, kainatın sıxılma və genişlənməsi, başqa sözlə pulsasiya etməsi məcburidir. Tədqiqatçı*

*astrofiziklərin çoxu Fridmanın təsvir etdiyi ikinci kosmik hal üzərində dayanırlar. Habbl maddənin əzəliliyi görüşünə əbədi zərbə vuran önəmli bir kəşf etdi. Bu kəşfə görə ulduz kütlələri, qalaktikalar, metaqalaktikalar məsafələr nisbətində çox yüksək sürətlə bir-birindən uzaqlaşırlar. Habbl həm də bizdən ən yüksək sürətlə uzaqlaşan qalaktikaların bizdən ən uzaq olanlar olduğunu da isbat etdi. Onun hesablamalarına görə bunlar bizdən işıq sürətinin üçdə ikisi qədər bir sürətlə uzaqlaşırlar. Bu isə kosmosun genişləndiyi mənasına gəlirdi. Lametri genişlənən kosmos teoriyasına əsaslanaraq qalaktika və ulduz komplekslərinin geriyə dönməsi halında bütün ulduz sistemlərinin bir nöqtədə birləşəcəyi barədə məşhur* ***Big Bang(Böyük Partlayış)*** *nəzəriyyəsini yaratdı. Halbuki bunu da Quran əvvəlcədən xəbər vermişdi:* ***"Kafirlər görmədilərmi göylər və yer birləşmiş haldaykən biz onları ayırdıq və hər canlı şeyi sudan var etdik?!"(Zariyat, 47)*** *Alimlərin əksəriyyəti tərəfindən sabit və səhih nəzəriyyə kimi qəbul edilən* ***Böyük Partlayış*** *varlıq prosesində yeganə partlayışdır ki, xaosdan qurtulmuş, vakuumdan kosmogenezə, həm də ahəngli və nizamlı bir kosmogenezə səbəb olmuşdur. Vaynberqin bu bənzərsiz başlanğıc haqqında obrazlı təsviri var ki, burda iqtibas etmək yerinə düşərdi:* ***"Əvvəlcə partlayış baş verdi. Bu partlayış yerdə bizə məlum olan partlayışlara əsla oxşamırdı. Belə ki, yerdə baş verən partlayışlar bir qayda olaraq müəyyən bir mərkəzdən yayılıb get-getə daha böyük sahələri əhatə edir. Halbuki Big Bang hər yerdə eyni vaxtda baş vermiş, bütün məkanı ehtiva etmiş və materiyanın hər bir hissəciyi digərindən uzaqlaşmağa çalışmışdır!"***[54] *Kainat genişlənirsə və təbiət hadisələri müəyyən bir yöndə irəliləyirsə, qaçınılmaz fəlsəfi nəticə hər şeyin bir başlanğıcının olduğudur. Bir zaman və bir yerdə kosmogenez başlamış, ulduzlar alovlanmış, qalaktikalar formalaşmış və böyük kosmos ortaya çıxmışdır. Başqa tərəfdən elmin iç və çöl sərhədlərindəki ip ucları da kosmogenez üçün müəyyən zaman olduğunu göstərməkdədir. Kainatın genişlənməsi gec-tez onun sıxılıb yenidən vakuuma çevriləcəyini ən azı istisna etmir. Digər tərəfdən kainatın halı bizim təcrübədəki məkan-zaman sisteminin nisbi və dəyişkən olduğunu göstərir. Kopernik, Qaliley, Kepler və Nyutonun beynindəki kainat anlayışı qapalı olub daha çox Tövrat və İncildə təsvir edilən kainata uyğun gəlir. Amma Eynişteyn, Fridman, Lametri*

[54] ***Первые три минуты, М., 1981***

*və Hablın beynindəki kainat anlayışı isə açıq olub daha çox Quranın təsvir etdiyi kainata uyğundur. Beləliklə kainatın açıq və dinamiki sistem olduğu elm aləmində hamılıqla qəbul edildi. Halbuki alimlərin böyük və qiymətli zəhmət bahasına reallaşdırdıqları bu məxfi həqiqəti Quran öncədən xəbər vermişdi:* ***"Kosmosu gücümüzlə biz qurduq və onu genişləndirməkdəyik!"***[55] *Kainatın yaşı məsələsi də mübahisəlidir. Ulduzların içindəki termonüvə çevrilmələrin maddəni enerjiyə çevirmə sürəti onların yaşını dəqiq hesablamağa yardım edir. Bu gün göy qübbəsində görülən ulduzların ortalama yaşı bu üsulla 5 milyard ildir. Kosmosun yaşı isə 20 milyard ildir.*[56] *Ulduzların ölçüsü, yaşı, tempraturu və onların* ***"mən"****ində baş verən termonüvə reaksiyalarının gedişinə təsir göstərən təzyiq qravitasiya sabiti($G=6,67\cdot10^{-11}$) ilə müəyyən olunur. Əgər bu sabitin qiyməti azacıq kiçik olsaydı ulduzlardakı tempuratur termodinamik və termonüvə proseslərinin yaranmasına imkan verməzdi. Əgər bu sabitin qiyməti azacıq böyük olsaydı, bu halda ulduzların kütləsi* ***"böhran kütləsini"*** *aşıb* ***"qara dəliyə"*** *çevrilər və ümumi maddi dövrandan kənara çıxardı. Beləcə kosmosun ən sonda mütləq vakuuma çevriləcəyini göstərən elmi nəticələr də kosmogenez və ya kosmoqoniyanın başlanğıcını təyin edir.*

*5)Kosmogenez proseslər içərisində əlahiddə struktura malik olan günəş sistemi kosmogenezin varlığının mənası, nəticəsidir. Heliogenez günəş və onun* ***övladlarının*** *yaranması və mənşəyi ilə əlaqələr olan nə varsa dilimizdə əhatə edir. Heliogenez kosmogenezin substansional elementi olsa da, təkamülçülərin iddia etdiyi kimi ən əsas substansiyası deyil. Heliogenez maksiumum bizim qalaktikanın nüvəsidir. Bu nüvənin nüvəsi, yəni heliosistemin nüvəsı, qalaktikamızın isə nüvəciyi yer kürəsidir. Biz qabaqcadan duyuruq ki, bizim bu fıkrimizı hardasa, Ptolomeyin* ***"geosentrizm"****inə bənzədəcəklər. Halbuki yerdə gedən prosesləri günəş sisteminin nüvəsi adlandırmağımız buna əsaslanır ki, nəinki Günəş ailəsində, bütün aləmdə, kosmik mühitin hər yerində tətbiq olunan qanunauyğunluqlar yerin, onun canlı maddəsinin mövcud olma*

[55] ***Zariyat, 47***

[56] ***Lakin bəzi alimlər kainatın yaşının milyard illərlə ölçülməsinin uydurma olduğu qənaətindədirlər. Bu görüşdəki alimlərin hesablamalarına görə kainatın yaşı 20-25 min il, yer kürəsininki isə maksiumum 18 min ildir. Şimali Azərbaycanın dəyərli fiziki Salman Rza bu görüş sahiblərinin başında gəlir.***

*dinamizminə müvafiq qurulmuşdur. Bu elə bir həqiqətdir ki, bunu nəinki ateistlər, heç iblis də dana bilməz. Beləliklə, heliosistem kainatın, geosistem də heliosistemin nüvəsidir. Heliogenezin nüvəsi və dəyəri isə təbii və müvafıq olaraq geogenezdir. Heliogenez kosmogenezin substansional elementi olsa da, bizim təcrübə və ya Kantın termini ilə apesteriori(təcrübədən alınmış bilik) baxımından məna və dəyəridir. Günəşin əhli-beyti, yer də daxil 12 planet, onların peykləri və digər göy cisimlərindən ibarətdir. Hələlik günəşin böyük övladları olan planetlərin 9-u müəyyən edilib. Quranın Yusif surəsində göstərilir ki, Yusif atası Yəquba deyir: "**Atacan, mən yuxuda on bir ulduz və günəşlə ayı gördüm. Gördüm ki, onlar mənə səcdə edirlər!"**[57] Müfəssirlər ittifaq edirlər ki, on bir ulduz Yusifın qardaşları, ay anası, günəş də Yəqub özüdür. Mən bu təfsirin həqiqiliyinə şübhə etmirəm, lakin heç bir kamil müsəlman dana və ya unuda bilməz ki, Quranın hər surə və hər ayəsinin yeddi mənası olduğuna görə Yusifin yuxusunun yozumunun da yeddi mənası var ki, təfsirlərdə keçən yalnız biridir. Düşünürəm ki, Yusifin yuxusunun əsas mənası o deməkdir ki, Günəş sistemində yerlə birlikdə 12 planet var. Baxmayaraq ki, bizə doqquzu məlumdur. Vaxt gələcək bu 3 naməlum planet kəşf ediləcək və bu hadisə qiyamətin daha yaxınlaşması əlamətlərindən olacaq. Halbuki günəş sistemindəki planetlərin sayı və özəllikləri barədə qərbdə yalnız uşaq nağılları hökm sürdüyü bir vaxtda Rəsulullah bu ulduzların adını söyləmişdi. Böyük hədis alimi Hakimin nəql etdiyinə görə Yusifə səcdə edilən ulduzlar barədə Rəsulullaha verilən suala O, belə cavab verir: **"hadsân, târik, zəbbal, qabis, vûdân, falıq, nush, kurûh, zü'l-kənfân, zü'İ-fərv və vəssab"**[58] Son kosmik xəbərçinin adlarını çəkdiyi bu ulduzların ən azı ikisi hələ də elmə məlum deyil. Sözsüz ki, adlar ərəbcədir və onların latınlaşdırılmış variantlarının bir-çoxu planet adıdır. Halbuki Rəsulullah günəş sisteminin planetlərinin adını deyəndə astroloq və astronomlar bunların hamısını bilmirdilər. Hətta, bu hədisi Nəbidən 4 əsr sonra nəql etməsinə baxmayaraq Hakim də etiraf edir ki, bu ulduzların bir-çoxu göyşünaslara məlum deyil. Ümumiyyətlə bir ailənin 12 üzvdən, bir ümmətin və ya qövmün 12 hissədən ibarət olması barədə nasslar var. Musa əleyhissəlamın qövmünün on iki yerə*

[57]***Yusif, 4***
[58] ***Hakim, 4\396***

ayrılması, İsa əleyhissalamın həvarilərinin sayının on iki olması, Məhəmməd salavatullahın da sələflərinin bu qədər olması ən azından ona işarə edir ki, ayədəki 11 ulduz Günəşin əhli-beytinə daxil olan planetlərdir. Çox qüvvətli bir ehtimalla bu ayədəki ulduzlara yer daxil deyil. Çünki Ayədə səcdə edilən Yusif yer planetidir. Məlumdur ki, bütün planetlər, günəş, ay, bir sözlə bütün kainat geosistemin həyatına uyğun qurulub. Planetlə ulduz arasında məna, keyfiyyət və mahiyyətcə fərq yoxdur, yalnız kəmiyyət fərqi var ki, bu da daha çox göyşünaslara aid məsələ olub mənim çıxartdığım nəticəyə heç bir xələl gətirə bilməz. Əfsus ki, Günəş ailəsinin 12 planetli olması nassla sabit olsa da, elmi mühiti əllərinə keçirmiş profan modernistlərə görə dini nassı elmi həqiqət kimi qəbul etmək olmaz. Halbuki bu bədbəxtlər özlərinin elm və hikmətdən nə qədər uzaq olduğunun fərqinə bir gün varacaqlar, amma gec olacaq! Beləliklə, Günəş ailəsinin 12 planetdən ibarət olması fikrinin kosmik bünövrəsi var. Günəşin hər bir övladının – hər bir planetin spesifik xüsusiyyətləri var. Bunların bəzisi çox istidir, bəzisi çox soyuq, bəziləri də qazlardan ibarətdir. Günəş də ağla və duyğuya gəlməyəcək dərəcədə çox isti olub davamlı yanan qazlardan ibarətdir. Lakin heliomateriyanın əsası hidrogendir. Günəşdə hər saniyədə milyonlarla atom bombasına bərabər partlayış gücündə olan partlayışlar baş verir. Bu partlayışlarda yer kürəsindən ən azı 40 dəfə böyük olan alovlar püskürür. Helioperiferiyada tempratur 6000 dərəcə, heliosentrin tempraturu isə 20 milyon dərəcədir. Əgər günəş olmasaydı hər zaman gecə olar, hər yer buzla örtülərdi. Ən əsası isə bizim dünya heç vaxt olmazdı. Heliosistemi incələdikdə son dərəcə həssas və dəqiq nizamla qarşılaşırıq. Bu nizam və dəqiqlik günəşdəki planetləri onun sistemindən çıxmağa qoymayan cazibə qüvvəsilə planetlərin mərkəzdən qaçma qüvvəsi arasında formalaşdırılıb. Günəş malik olduğu böyük cazibə qüvvəsi sayəsində bütün planetləri çəkir, planetlər də Günəş ətrafında fırlanmaqdan doğan mərkəzdən qaçma qüvvəsi sayəsində Günəşlə toqquşmaqdan, tam cəzb olunmaqdan qorunurlar. Kosmosun bir nömrəli qanunauyğunluğu fırlanma prosesidir. Fırlanma varsa, deməli ellipsoid, hiperboloid, paraboloid və s. standart olmayan kosmik və ya kosmoqrafik fiqurlar əmələ gəlir. Bu fiqurların ontoloji təzahürü landşaftın strukturunu müəyyən edir. Məsələn, geoid geolandşaftın strukturunu müəyyən şəklə salır. Təbii ki, uyğun məkan-zaman kontiniumunda. Kosmos spesifik bir okeandır və onda olan hər şey

*sözün əsl mənasında üzür. Göy və əhlinin hamısı fırlanma qanununa tabedir. İslam şəriətində kosmik fırlanma prosesinin geoloji model olaraq adı təvafdır. Digər dinlərdən kökündən fərqlənən və orjinal kosmik din olan İslamın əsas qanunlarında kosmik fırlanma açıq-aydın özünü göstərir. Məsələn, müsəlmanların həcc ziyarətinə nəzər salsaq görərik ki, bu hadisə hansısa bir mərkəzin ətrafında fırlanma prosesidir. Bütün kosmik sistemlər bu qanuna tabedir. Müsəlmanların müəyyən edilmiş vaxtlarda həcc ziyarətində olmaları, Kəbənin ətrafinda yeddi dəfə fırlanmaları, başqa sözlə fırlanma funksiyasını tətbiq etmələri, kosmik qanunauyğunluqların şahı olan fırlanmaya tabe olduqlarını göstərir. Kəbə geosistemin mərkəzidir. Kosmosun bir nömrəli qanunu və ya qanunauyğunluğu olan fırlanma hərəkəti bütün varlıqları, o cümlədən insanları da özündə ehtiva edir və Quranın da kosmosun linqvistik modeli olduğuna dəlildir. Kosmosdan baxanda bu mərkəz yerin digər hissələrindən kəskin fərqlənir. Kəbə dünyanın günəşidir. Planetlər Günəşi təvaf etdikləri kimi, müsəlmanlar da Kəbəni təvaf edirlər. Şübhəsiz ki, günəş də süd yolu qalaktikasının mərkəzində yerləşən Allah dərgahı ərşi təvaf edir. Digər kosmik cisimlərdə də müvafiq proseslər baş verir. Əgər planetlərin günəş ətrafında hərəkəti bir az yavaş olsaydı o zaman bu planetlər sürətlə Günəşə doğru çəkilər və udulardı. Əksinə, əgər planetlər bir az böyük sürətlə hərəkət etmiş olsaydılar, onda Günəşin cazibə qüvvəsi onları saxlamağa kifayət etməz və planetlər də heliosistemin xaricinə sovrulardılar. Şübhə edilməsi axmaqlıq və zəalalətdən başqa bir şey deyil ki, hədsiz dərəcədə həssas olan bu harmoniya qüsursuz bir şəkildə qurulmuşdur. Eyni zamanda bu harmoniya hər planet üçün də spesifikdir. Necə ki, heliogenez və ya heliosistem bizim qalaktikanın dəyəridir, geogenez və ya geosistem də günəş və ailəsinin dəyər və mənasıdır. Geosistem və geolandşaft məhz günəşin sayəsində atillikdən (passivlikdən) xilas olurlar. Təbii ki, geoloji tam və ya geokomrleks məhz günəşdən gələn enerjinin təsirilə formalaşır və müəyyən mənaya malik olur. Böyük bir psixoekosistem olan yerin üzündə fosil[59] yataqları da daxil bütün enerjinin qaynağı günəşdir və*

[59] ***Fosillər canlı maddənin tarixi olub uzun geoloji illər ərzində qədim canlıların qurluş və hissələrinin təbii şərtlər altında qorunaraq bu günədək gəlib çatmış izlərdir. Bir canlı öldükdən sonra sümükləri, dişləri, qabığı, dırnaqları kimi bərk hissələrinin olduğu kimi qorunması və ya bunların izlərinin qalması ilə fosillər meydana gəlir. Fosil əsasən canlının bir hissəsinin daşlaşmış forması kimi tanınır. Lakin fosil təkcə daşlaşma ilə meydana***

*ya günəşdədir. Ətraf mühit əsasən dörd ana ünsürdən od, hava, su və torpaqdan təşkil edilmişdir. Od təbəqəsinin əsasını maddənin plazma halında olan Günəş təşkil edir. Günəşdəki temperatur və işıq fotosintez prosesinin qaynağıdır. Ətraf mühitin bəlkədə birinci faktoru olan işıqın üç xüsusiyyəti var. Bunlar aydınlanma müddəti, işığın şiddəti və dalğa uzunluğudur. İşıqlanma müddəti və ya fotoperiodizm orqanizmlərin həyati ritmlərini təyin edir. Buna görə təbiət bir növ işığın nəzarətindədir. Ətraf mühitdə işığın qaynağı da günəşdir və ya günəşdədir. Amma unutmaq olmaz ki, yerin təki və ya geomateriya təkcə günəş enerjisindən və yerin daxili enerjisindən asılı deyil. Geosistemin, xüsusən də canlı maddənin varlığını yalnız gunəş enerjisinin varlığı ilə bağlamaq kökündən yanlış nöqteyi-nəzərdir. Belə bir sual oluna bilər ki,* ***"günəşin, ümumiyyətlə günəş sistemi planetlərinin varlığını təmin edən nədir?"*** *Lakonik cavab bu olacaq ki, qalaktika qanunları və qalaktik enerji bütün qalaktika komponentlərini tənzim və təmin edir. Qalaktika qanunlannın, bütövlükdə qalaktikaların varlığı isə metaqalaktik enerji ilə təmin olunur. Metaqalaktikalar da supermetaqalaktik enerjidən, bu da öz növbəsində vakuumdan(vakuum fiziki alamlə metafiziki aləm arasında trans funksiyasını yerinə yetirir.) və nəhayət* ***b****ütün bunlar Teoenerjidən, yəni Allahın fəaliyyətindən asılıdır. Ətraf mühitdəki kosmik prosesləri tənzimləyən Südyolu qalaktikasıdır. Bu nəhəng qalaktik sistemin içində Günəş kimi 260 milyarda yaxın ulduz var. İki ulduzlu planetlər, cırtdan ulduz sistemləri, süngər kimi büzülmüş planetlər və cırtdan günəşlər Südyolu qalaktikasının içindəki milyardlarla göycisimlərindəndir. Kosmosun nəhəng ənginliyində saatda 1 milyon km-ə yaxın sürətlə elmə hələki məlum olmayan istiqamətdə hərəkət edən qalaktikamızın səyahəti uzun kosmoloji illərdir ki, davam edir. Südyolu qalaktik sisteminin öz mərkəzi ətrafında dövr etmə sürəti isə kosmosda hərəkət sürətindən bir az aşağıdır. Mən tamamı ilə əminəm ki, bu qalaktikanın mərkəzi ya Ərşin özüdür, ya da ən azı beytul-məmur deyilən müqəddəs kosmik məkandır ki, helioekosistemi birbaşa kontrolda saxlayırlar. Quranda günəş barədə konkret və lakonik deyilir:* ***"Günəş də onun üçün qərar***

---

***gəlmir. Beləki buz kütləsinin içində donmuş mamontlar, kəhrabanın içindəki həşaratlar və kiçik sürünən növləri kimi canlıların heç pozulmadan zamanımıza qədər gəlmiş fosilləri mövcuddur.***

***verilmiş məntəqəyə doğru gedir. Bu, Əziz və Alim olanın təqdiridir!”***[60] *Günəş və ya heliosistem Südyolunun ətrafında 220 milyon ilə bir dövrə vura bilir. Günəş ətrafındakı planetlərlə birlikdə kosmogenez proseslər nəticəsində meydana çıxmışdır. Heliogenez kosmogenezin dəyəridir. Heliogenezin nəticəsi və ən böyük dəyəri də məhz geogenezdir.*

*6)Geogenez yer kürəsinin və onun canlı maddəsinin varlığını təyin və təmin edən şeylərin mənşəyilə bağlı olan prosesləri ehtiva edən anlayışdır. Geogenez bizə yaxın kosmosun nüvəciyidir. Nüvənin atomun daxilində dəyəri nədirsə, geogenez də kosmogenez və heliogenezdə həmin dəyərə malikdır. Vernadski bu barədə deyir:* ***"Yerin təki də canlı maddə kimi kosmik proseslərin ifadəsi və ya təzahürü nəticəsində əmələ gəlmiş nizamlı kosmik mexanizmin zəruri və qanunauyğun hissəsidir!"*** *Bizim dünya canlı maddənin hazırlanması üçün özündə hər cür ləvazimatı olan labaratoriyadır. Tempratur və hava canlı maddənin var oluş təminatçısıdır. Bu iki amil yer planetinin heliosistemdə ən ideal şəkildə düzənlənməsinə səbəb olmuşdur. Sözsüz və şübhəsiz ki, yer ilə Günəş arasındakı məsafə orbitləri, mailliklər, yaydıqları işıq, enerji, bir sözlə hər cür xüsusiyyətlərilə birlikdə TEOEKOSİSTEM tərəfindən yaradılıb. Təkcə Günəşlə yer arasındakı məsafənin canlı həyatın tənzimlənməsi üçün lazımi ölçüdə olması belə, çox möcüzəvi hadisə ikən, digər yüzlərlə, hətta minlərlə xüsusiyyətlərin də məhz lazimi ölçülərdə olması, şübhəsiz ki, insan ağlının hüdudlarını aşır. Bu qədər qeyri-adi sistemin təsadüflərin əsəri olması, şüursuz atomların əmələ gətirdiyi göy cisimlərinin təsadüfən məhz lazımı yerdə yerləşməsi, aralarında geoekosistem və canlı maddə üçün əlverişli müvazinətləri müəyyənləşdirmələri və buna uyğun sistemləşmələri, əlbəttə, yalnız axmaqların xəyalında mümkündür! Yer günəşə pluton və ya neptun qədər uzaq, yaxud merkuri və ya venera qədər yaxın olsaydı nə indiki geosenoz, nə də canlı maddə olmazdı. Kainatdakı tempratur məlum olduğu qədər ən isti ulduzlardakı milyard dərəcəlik tempraturlardan tutmuş mütləq sıfır olan -273 dərəcəyədək dəyişir. Bu qədər geniş aralıqda olan bir tempratur sistemində canlı həyata imkan yaradan tempratur çox dar bir intervalındadır. Amerika geoloqları Frank Press və Reymond Siver Yer səthinin tempraturundakı incə əyara*

[60] ***Yasin, 38***

*diqqət çəkirək deyirlər ki, yerdə canlı həyat çox məhdud tempratur intervalında mümkündür. Bu tempratur Günəş tempraturu ilə mütləq sıfır arasındakı mümkün tempratur ölçülərinin təqribən 1%-ni təşkil edir. Yerin tempraturu isə məhz bu dar intervaldadır.*[61] *Yerin aldığı enerji azacıq azalarsa yer səthi tamam donar və buz örtüyünə çevrilər. Əksinə artarsa canlı maddə odda qovrular! Geosistemin səthində ekvator və qütblər arasında təxminən 100 dərəcəlik tempratur fərqi qeyd edilmişdir. Bu tempratur aralığı dünya ilə günəş arasında məsafə və günəşdən gələn istiliklə bağlıdır. Əgər yer üzündə dağlar olmasaydı belə bir tempratur fərqi səbəbilə sürəti saatda 1000 km-ə çatan fırtınalar yerdəki bütün müvazinəti pozardı. Yer kürə şəklində olduğuna görə ekvatorla qütblər arasında qalan sahələr il ərzində çox fərqli miqdarda günəş enerjisi alırlar. Ekvator xəttindəki sahələr daha çox heloenerji alır, qütblərə getdikcə bu göstərici azalır. Bu səbəbdən ekvatordan qütblərə doğru hava kütlələrinin isinmə ölçüləri də fərqli olur. Əgər yer indi olduğu formada olmasaydı bu qədər fərqli iqlim qurşaqları və hər qurşağa xas canlılar mövcud olmazdı. Kainat sanki elə qurulmuşdur ki, bütün ontoloji və fiziki sabitlər dünya həyatının mövcudluğuna və fəaliyyətinə tam uyğunlaşdırılmışdır. Qısası, bu nizam ideal bir formada ideal bir güc tərəfindən kontrol edilir. Böyük və bənzərsiz Yaradan buyurur:* ***“O, yeddi göyü təbəqə-təbəqə yaratdı. Rəhmanın yaratmasında bir nizamsızlıq olmaz!”***[62]*Digər bir ayədə belə deyir:* ***“Göylərin və yerin yaradılışında, gecə və gündüzün bir-birinin ardınca gəlməsində xalis ağıl sahibləri(elm adamları) üçün açıq, ibrətli arqumentlər var!”***[63] *Yer kürəsi kainatın ən az inkişaf etmiş hissəsidir, lakin biogenezin geogenezdən əvvəlki beş mərhələsinin yaradılmasında məqsəd geogenezi, geosistemi ortaya çıxarmaq və inkişaf etdirməkdir. Geosistemin inkişafı isə əsasən canlı maddənin inkişafına istiqamətləndirilmişdir. Yer kürəsi kainatın hər cəhətdən ən zəif inkişaf etmiş hissəsi olsa da, hər halda biogenezin son halı və mərhələsi, qaymağı və mənası olan psixobiogenez və ya canlı maddənin meydana çıxdığı ekosistemdir. Beləliklə, geogenezin məna*

[61] ***F.Press, R.Siever, Earth, New York: W.H.Feeman, 1986, 4***
[62] ***Mülk, 3***
[63] ***Ali-İmran, 190***

*və nəticəsi canlı maddənin - "**psixobiosistemin**" formalaşmasına səbəb olan psixobiogenezdir.*

*7)Psixobiogenez və ya canlı maddə biogenezin son halı, mənası və dəyəridir. Uca Allahın böyük labaratoriyası olan nəhəng kainatın yaradılma prosesinin məqsədi antropogenezi meydana çıxarmaq idi. Canlı maddənin inkişafına yalnız virus və ya parazitar maddənin - texnogenezin, antropogen modifikasiyaların, bir sözlə totalitar maddənin məhv edilməsi nəticəsində nail olmaq olar. Əgər totalitar maddə antropogenezi zəbt edirsə antropogenez psixobiogenezin dəyəri olmaqdan məhrum olur. Canlı maddə həyatın son halı və ya növü olduğu kimi, insan maddəsi də canlı maddənin son halı və növüdür. Canlı maddənin əsasında durduğu canlı mühit bir-çox element və ya elementlər sistemindən təşkil edilmişdir. Psixobiogenez əvvəlki biogenez mərhələlərin arasında olan bütün biogenez proseslərin qarşılıqlı əlaqəsi nəticəsində əmələ gələn bütün şey və hadisələri özündə ehtiva edir. Canlı maddə materiyanın həm ən mürəkkəb, həm də ən sadə yeganə halı, növü və formasıdır. Bu yalnız canlı maddəyə məxsus xüsusiyyətdir. Canlı növlərin bir-birinə münasibəti, təbiilik dərəcəsi, virusogenezin fəaliyyətinə maneə ola bilmə səviyyəsi canlı maddənin inkişaf göstəricisi olub canlı enerjinin müsbət və ya mənfi, yaxud da neytral olduğunu təyin etməyə imkan verir. Böyük fiziosof Vernadski çox dəqiq ifadə edir ki, **"canlı növlərin inkişafı canlı maddənin inkişafıdır!"** Digər tərəfdən Vernadski canlı maddəni kosmik proseslərin əsəri hesab edir. Açıq-aydın teoloji anlayışlardan istifadə etməməsinin səbəbi, heç şübhəsiz ki, marksizm-leninizm-bolşevizm-antiteizm sistemli totalitarizmin senzura və təhdidi olmuşdur. Bu dövrdə həqiqi və dəyərli alimlər teoloji prosesləri **kosmik proses**, **kosmik xarakter**, **kosmik qüvvə** və digər oxşar anlayışlarla panteist sayağı ifadə edərək əqidələrini gizlədir və həyatlarını qorumuş olurdular. Vernadski də bu alimlərdən biridir. Özlərini dialektik materialist və ya neomarkisist kimi insanlara sırıyan tartan-partançılar, Eynişteyn və Vernadski kimi teoloji xarizmaları açıq-aydın bilinən alimlərin fikirlərindən həyasızcasına geninə-boluna sitatlar gətirib istifadə etsələr də, bu inanclı alimlər ateist və profan əqidəli təkamülçü və ya meymunçu şarlatanlardan çox uzaqdırlar. Canlı mühit və canlı maddə yer üzündə geofiziki və geokimyəvi baxımdan necə mükəmməldirsə, - hansı ki, bu mükəmməlliyi anlayış formasında normal beyində tam yerləşdirmək qeyri-mümkündür, -*

*Eynişteyn və Vernadski də təbiətşünaslar arasında elə mükəmməldirlər. Maraqlıdır ki, Dokuçayev coğrafi təbəqəni, Vavilov mədəni fitogenezi yeddi mərkəzi hissədən ibarət hesab etdiyi kimi, Vernadski də canlı həyat təbəqəsini yeddi hissəyə ayırır. Niyə məhz yeddi? Teoloji və kosmoloji xarizmanın təzahürüdür. Mədəni bitkiləri formalaşdıran ınsanlardır.(Əslində yalnız mədəni bitkilər deyil, bütün fitogenez, zoogenez, lendogenez, hidrogenez, antropogenez, aerogenez yeddi hissəlidir.) Və onlar bir-birindən hədsiz dərəcədə fərqlənən yeddi mədəni bitkı kompleksi təsbit edirlərsə, böyük ehtimalla onların özləri də yeddi müxtəlif struktut və kompleksdən ibarətdir. Bu həm də yeddi coğrafi regionun var olduğuna dəlalət edir. Bu təfsir və metodun kosmik əsası olduğu kimi, müəllifləri də kosmik enerji ilə mükafatlandırılmış teokratik nüsxələrdir. Vernadski canlı həyat təbəqəsini biosfer adlandırmaqla ənənəvi xətaya yol versə də hər halda çox böyük təbiətşünasdır. Vernadskinin başında gəldiyi alimlərin görüşünə görə canlı mühit 7 hissədən ibarətdir: 1)canlı maddə,(Vernadski bunu biotik adlandırır) 2)cansız maddə(Vernadski abiotik adlandırır), 3)passiv canlı maddə(lil, torpaq və s.), 4)passiv cansız maddə(qazlar, süxurlar və s.), 5)kosmik maddə, 6)seyrək atomlardan ibarət maddə, 7)radioaktiv maddə. Həyatın strukturu barədə indiyədək söylənilən fikirlər arasında həqiqətə ən uyğun olan görüş hələlik budur. Halbuki bu fikrin özündə belə həm linqvistik baxımdan, həm də mahiyyətcə çatışmayan və hədsiz qarışıq olan bir-çox məqamlar var. Məlumdur ki, təbiətşünasların demək olar ki, hamısı düşüncə və təfəkkür tənbəlliyinə mübtəla olub analiz və düzəliş etmədən əski fikir və ideyaları təqlid edib durduğundan bir-çox termin və anlayışlar kimi fəaliyyətdə olmayan maddə və mühitin də olduğunu iddia edib dururlar. Fəaliyyətdə olmayan şey, hadisə və ya maddənin mövcudluğu fikri həm ləfz(termin), həm də kateqoriya kimi elm aləminə soxudurulmuş ən böyük yalanlardan biridir. Bu da təbii ki, istər həyata. istərsə də varlığın hər hansı bir atrubutuna yanaşmada səhv nəticələrə gətirib çıxarır. Yer həyatı və ya canlı maddə isə həyatın son beşiyidir. Yerdəki həyatı geologiyanın bir sahəsi olan geobiologiya öyrənməlidir. Yerin ümumiyyətlə canlı olub olmaması isə mübahisəli məsələdir. Kosmik kitablara, xüsusilə də Qurana görə yer canlı, informasiyalı, sistemli məxluq, varlıq, şey və prosesdir. Zilzal surəsinin ilk dörd ayəsi bunun ən bariz dəlilidir:* ***"Yer zəlzələ ilə lərzəyə gəldikdə, yer içindəkiləri ixrac etdikdə, insan "buna nə olub"***

***dedikdə, o gün xəbərlərini söyləyəcək! Çünki Rəbbin onu danışdırar. O gün insanlar hissə-hissə xortlayıb çıxacaqlar əməllərinin qarşılığı üçün. Hər kim zərrə miqdarı xeyir işləsə onu görəcək. Kim də zərrə miqdarı şərr işləsə onu görəcək!"*** *Bu ayələr açıq-aydın yerin canlı və informasiyalı sistem olduğunu göstərir. Məlumdur ki, əgər yer öz orbiti ətrafında fırlanmağı bir an saxlasa, onun özərində olan bütün obyektlər yüksək sürətlə kosmasa ixrac olunar. Surənin ilk ayəsi buna ən azı işarə edir. Qiyamət günü yer özündə daşıdığı bütün informasiyaları üzə çıxaracaq. Surənin 4-cü ayəsindəki* ***əxbərahə*** *kəlməsi xəbər və informasiya anlamındadır. İnsanların xortlamaları da onlarla nassla sabitdir. O gün cin vurmuş məcnunlar kimi, sərxoş formada dirildiləcəyimiz başqa ayələrlə bildirilib. Bu surənin daha bir dəyəri ondadır ki, son iki ayəsində zərrə və miqdar kimi sırf fiziki parametrlər olan kəlmələr var. Bu da elementar zərrəciklərin varlığına və hətta kütləyə malik olmalarına, həmçinin insanın enerji mühitilə digər mikro və makro aləmin enerji mühiti arasında əlaqə və uyğunluq olduğuna açıq dəlil var. Psixobiogenezin nəticəsi və dəyəri insan maddəsinin - antropogenezin meydana çıxmasıdır. Şübhə yox ki, geogenez proseslər insanı doğmaq üçün təyin edilmişdir. Teyyar de Şarden bunu çox yumşaq şəkildə belə ifadə edir:* ***"Biz bu böyük prosesin ardıcıl mərhələlərini fasiləsiz izləmişik. Geotektonik və geokimyəvi pulsasiyaların təsirilə ilkin hüceyrələrdə maddiləşərək əsəb sisteminin yaranmasında davam edən bu proses geokimyəvi, geotetonik, geobioloji pulsasiyaların təzahürüdür. Geogenez və biogenez proseslər son nəticədə psixogenezə keçir. Məhz psixogenez proses insanın yaranmasına gətirib çıxarmışdır! Bizim insan olmağımıza məhz psixogenez səbəb olmuşdur!"*** *Teyyarın fikrinə həm qüvvət, həm də əlavə olaraq deyim ki, psixogenez təkcə insanın deyil, bütün həyatın, kainatın yaranmasma gətirib çrxarmışdır. Yerin mahiyyət, məna və məzmunu geogenez və psixobiogenezin nəticəsidir ki, bu da özünü birbaşa və açıq şəkildə antropogenez proseslərdə göstərir. Vernadski bunu dərk etdiyi üçün yazırdı:* ***"Biosfer bizim yaşadığımız mühitdir, bizi əhatə edən və dilimizdə ifadə etdiklərimizdir. Şəhər,(kənd) ya da hansısa evdə yaşamasından aslı olmayaraq insan, hər şeydən əvvəl, özünün nəfəsi və funksiyalarının təzahürü ilə bu mühitlə sıx bağlıdır. Hər bir canlı orqanizm və canlı maddə kimi insan da biosferin funksiyası olub, biosferin qurluşunun qanunauyğun nəticəsidir!"***

*Beləliklə, biogenez proseslər biodinamikanın sayəsində müəyyən iyerarxiyaya malik olur və biogenezi yaşadır. Həyatın gücü və ya qüvvəsi isə ruh, məkan, zaman, kosmos, günəş ailəsi, yer və nəhayət canlı maddənin malik olduğu enerji və qüvvələrin vəhdəti deməkdir. Biogenezi aşağıdakı sxemlə də göstərmək olar: **biodinamika↔[64] bioenerji↔psixodinamika↔psixoenerji↔ekodinamika↔ekoenerji↔xronodinamika↔xrononerji↔kosmodinamika↔kosmoenerji↔heliodinamika↔helioenerji↔geodinamika↔geoenerji↔psixobiodinamika və ya psixolendodinamika↔psixobioenerji, yaxud psixolendoenerji.***

### *$2.3.Canlı və cansız maddə arasındarkı fərq*

*Canlı maddənin əsasını, - mifik baxış və ya ibtidai elmi dillə desək, dörd ünsür(od, su, torpaq və hava)təşkil edir. Burdakı dördüncü ünsür od maddənin plazma halını göstərir. Geosistemin bir nömrəli təbiətşünas şairi Nizami Gəncəvi dörd ünsür barədə belə yazır:*

*Onlardan birinci işıqlı oddur,*
*Dünyanın ən yüksək tacı da odur.*
*İkinci küləkdir, hərəkətdədir.*
*Hərəkət etınəzsə, bilinməz nədir.*
*Üçüncü sudur ki, təravət verər.*
*Hər şeyə gözəllik, lətafət verər.*
*Dördüncü torpaqdır, tapdayır əyyam,*
*Tapdanan köksündən toz qalxır müdam.*
*Qatdı bir-birinə onları həyat.*
*Yaratdı bunlardan bitki, nəbatat.*
*Bitki də başqa cür artdı, cücərdi,*
*Cürbəcür heyvanlar vücuda gəldi.*
*Dörd tərkib birləşib ahəngdar olmuş.*

---

64 ↔ ***işarəsi dönər reaksiyalarda işlədilən işarənin bir bənzəridir. Bu işarəylə göstərmək istəyirik ki, biodinamik enerjidən doğulan proses, şey və elementlər yenidən biodinamik enerjiyə çevrilə bilər. Daha dəqiq desək biogenezin hər mərhələsi özündən əvvəlki mərhələyə qayıda bilər. Amma bu proses sistemli deyil, elementar halda baş verir. Digər tərəfdən təbiətdə bərabərlik, toplama və çıxma deyilən şey və ya proses mövcud deyil. Bu yalnız bizim zehnimizin anlama məhsuludur.***

*Dörd gövhər birləşib həyat var olmuş.*[65]

*Biogenezin varlığının nəticəsi və dəyəri olan canlı mühit və ya canlı materiya və ya canlı həyat materiyanrn atributu olan zamandan fərqlənən yeni bir zamana - canlı zamana və yaxud yalnız canlıya aid olan zamana malikdir. Canlıya aid olan zaman canlının tarixinin əsas meyarıdır. Cansız maddə bu baxımdan yalnız indiyə məxsusdur, çünki o canlı maddə ilə müqayisədə demək olar ki, dəyişikliyə ugramır. Canlı maddədə bir saniyadə baş verən dəyişkəlıyin intensivliyi cansız maddədə min illiklərlə baş verən dəyişmələrin intensivliyindən böyük ola bilir. Canlı maddənin zamana görə dəyişməsi, əsas etibarilə maddənin bərk, maye, qaz və cuzi də olsa plazma halının zamana görə dəyişməsinə müvafiqdir:*

*dCanlı Maddə\dt↔dB\dt↔dM\dt↔dQ\dt↔dP\dt*[66]

*Maddənin plazma halının canlı həyata təsiri az olsa da, onu təşkil edən, dayağı olan ən əsas faktordur. Maddə plazma halında canlı maddədə çox cüzi hissə və təsirə malik olsa da bunsuz canlı həyat və ya canlı maddə var ola bilməz! Mütləq zaman-məkan münasibətlərini nəzərə almasaq, canlı maddə Minkovskinin təbiri ilə desək dörd ölçülü məkan-zaman kontiniumunda, cansız maddə isə zamansız, üç ölçülü məkandan ibarət olub, bir-birini qarşılıqlı şərtləndirən mühitdə yerləşirlər. Canlıya məxsus zaman isə canlı maddənin axıcılığını*

---

[65]***Nizaminin bu sətirləri sözün əsl mənasında elmi kəşfdir. Canlı maddənin mahiyyətini tam açıqlamaq, nəinki poetik ideya ilə, hətta əsl elmi mülahizə ilə də çox cətindir. Amma Nizami poetik formada sırf elmi ideya izhar edərək həm elm tarixinin həlqəsi, həm də şer aləminin novatoru olduğunu ortaya qoyub. Amma paxıl vestern elm adamları(əgər bunlara alim demək mümkünsə!) və onların qarşısında az qala quyruq bulayan bizdən olub bizə oxşamayanlar Nizamini ən yaxşı halda bir şair kimi yada salarlar! Şair olmaqdan daha çox alim olan Nizami bu sətirlərdə açıq-aydın maddənin dörd halının canlı maddənin yaranmasındakı rolunu göstərməklə yanaşı, plazma halının psixobiogenezdə əsas faktor olduğunu, həmçinin fitogenez və zoogenezin varlığını ümumi formada olsa da ifadə edir. İslam alimləri arasında biogenezi və onun sistematik komponentlərini bu və ya başqa formada ifadə edən alimlər çox olub. Bunlar arasında Kindi, Cahiz, Fərabi, ibn Sina, Razi, Sührəvərdi və digərlərini göstərmək olar. Təəssüf ki, elmin hər sahəsində hegemonluq və oğurluq edən avropasentristlər bu faktları şərq, türk və xüsusən müsəlman qaynaqlı olması səbəbindən qəsdən görməzlikdən gəlmiş və elm tarixini təhrif etmişlər!***

[66]***Burada B-maddənin bərk, M-maye, Q-qaz, P-plazma halının, t-də zamanın simvolu kimi verilib.↔ işarəsinin yerinə=işarəsi də qoyula bilərdi, amma reallıq sistemli şəkildə nəzərə alındığı üçün ↔ işarəsi daha uyğun görülüb.***

*göstərir. Canlı maddə nə qədər axıcıdırsa, cansız maddə bir o qədər qeyri-axıcıdır. Şellinq bunu əsas etibarı ilə düzgün anlamışdı: "**Həyat cisimlərinin dəyərli əlamətidir! Canlı inkişaf etmiş orqanizmdir... Cansız maddə inkişaf etməmiş orqanizmdir; sanki donmuş həyatdır!"** Həqiqətən cansız maddə bir növ donmuş həyat, canlı maddə isə axıcı, özünəməxsus temperatur, keçmiş və tarixə malik olan həyatdır. Harda tarix var - orda həyat, harda həyat var - orda tarix var. Tarix təhrif edilirsə, həyat təhrif edilir, həyat məhdudlaşdırılırsa tarix məhdudlaşdırılır! **Yalnız yer kürəsinin və canlıların deyil, bütövlükdə təbiətin, kainatın, gercəkliyin, mühitin, materiyanın həyatı və tarixi vardır.** Cansız maddənin də tarixi var, amma bu tarix də bir növ "**donub**". Cansız maddə və ya apsixosistem biosistemin elə bir tipi, formasıdır ki, burda baş verən ən aktiv dəyişikliklər də apriori bilik kimi nəinki duyulmaz, hətta əql edilməzdir. Lakin aralarındakı fərqlərin müxtəlif və çox olmasına baxmayaraq eksiztensial sistem kimi canlı və cansız maddə arasında özül və ya substansional fərq yoxdur. Böyük Vernadski canlı cə cansız sistemlər arasındakı prinsipial bağlılığı belə ifadə edir: **“Canlı və cansız maddə arasında prinsipial fasiləsiz, arasıkəsilməz əlaqə var. Bu əlaqəni canlı maddədən cansız maddəyə və əksinə keçən atomların fasiləsiz biogen cərəyanı kimi ifadə etmək olardı. Atomların biogen cərəyanı yaradan canlı maddədir. Bu proses heç bir zaman ara verməyən tənəffüsdə, çoxalmada və digər biokimyəvi hadisələrdə özünü göstərir!”** Canlı maddə özülü etıbarı ilə cansız maddədir və ya cansız maddədən təşkil olunmuşdur. Canlı canla cansızın birləşməsinin nəticəsidir. Can barədə metafizik, mistik və psixoloqlar arasında görüş ayrılıqları olsa da, hər halda onun kosmik mənşəli bir hadisə və şey olmasında ixtilaf edilməmişdir. Cansız maddə anlayışı isə əslində qismən də olsa mücərrəd anlayışdır. Çünki mütləq anlamda cansız deyilən şey yoxdur. Şey və proseslər arasında yalnız nə dərəcədə canlı və ya cansız olub olmamaları arasında fərq var. Canlı və cansız sistemlərin eyni atomar qurluşa malik olmaları onların stuktur və özül baxımından fərqsiz və ya çox az fərqli olduqlarını göstərir. Cansız sistemlər əsasən statik və stabil, canlılar isə funksianol və dinamiki görüntü yaradırlar. Böyük fizik Heyzenberq **“Fizika və Fəlsəfə”** kitabında belə yazır: **«Atom fizikasının müəyyən sayda elementar özəklərdən - atom nüvəsindən və elektronlardan təşkil olunan tam strukturu xarici təsirlərin yaratdığı müəyyən pozuntulara məruz***

***qalsalar da, onlar zaman etibarilə əsla dəyişmirlər. Əlbəttə, onlar xarici effektlərə müəyyən intizamla cavab versələr belə pozulma halları böyük olmadığı təqdirdə xarici təsir aradan qaldırıldıqdan sonra onlar özlərinin başlanğıc halına qayıdırlar. Halbuki orqanizmlər heç də statik olmayan törəmələr deyil. Canlı orqanizmi alova bənzədən qədim məsəllərin birində deyilir ki, onların forması elədir ki, materiya sözün əsl mənasında lap axın kimi gəlib keçir!»***
*Doğrudan da canlı materiya od kimi hərarətli, hava və su kimi axıcı, torpaq kimi tarazlıqlıdır. Canlı maddənin əsas xarakterik xüsusiyyətləri Nizaminin də göstərdiyi kimi məşhur dörd elementin vəhdətindən ibarətdir. Burada vicdansızlıq olar deməyək ki, Quranın Fussilət surəsinin 9, 10, 11 və 12-ci ayələri kosmosun, materiyanın halları, hissələri, o cümlədən bizim dünyanın dörd təbəqə və halı, dörd gündə yaranması, dörd ölçülü məkan-zaman kontiniumunda var olması barədə məlumat verir. Bu ayələrdə təkcə canlı materiya deyil, bütün biogenez ifadə olunub. Biomateriyanı canlı maddə ilə eyniləşdirənlər başa düşməlidirlər ki, canlı maddə olmasa da həyat var, amma həyat olmasa nəinki canlılar, yer, günəş, qalaktika, bir sözlə kainat olmaz. Həyat materiya və mühitin vəhdətidir. Bu vəhdət əbədi və əzəli olduğu kimi, həyat da əbədi və əzəlidir. Canlı mühit isə mühit və həyatın nəticəsi və çox cüzi bir hissəsidir, həyatın özü və özülü deyildir. Qəşəng bir çiçək təsəvvür edin, o çiçək bitkinin kökündən, gövdəsindən, habelə yarpağından necə asılıdırsa, canlı maddə də kosmosdan, zamandan, məkandan, günəşdən və yerdən o cür asılıdır. O çiçək bitkinin varlığnın mənası və nəticəsi olduğu kimi, canlı maddə də həyatın mənası və nəticəsidir. Bir balaca soyuq olan kimi çiçək məhv olacaq, hətta gövdə və yarpaq da tələf ola bıiər, amma kök, toxum ən axırda məhv olur. Canlı maddə də bu və ya başqa səbəbdən məhv ola bilər, lakin onun varlığını təmin edən faktorlardan heç olmasa biri qalacaq. Hətta məkan, zaman, kaınat da məhv ola bilər, amma varlığın mənbəyi, başlanğıcı olan ruh qalır, məhv olmur. Cünki ruh həm də varlığın informasiyasıdır, materiyanm genidir, təbiətin mənbəyidir. Ruh hər bir orqanizmin(canlı, cansız, landşaft və s.) informasiya arsenalı olduğu kimi, hər bir ekosistemin də informasiya sistemidir. İnformasiya varlıq yaddaşı, materiya barədə olan hər cür və hər bir şüuri və qeyri-şüuri məlumatlar sistemidir. İnformasiyanın əbədi olmasında əsas rol oynayan qanun təbii seçmədir. Lakin bizim beynimizdəki təbii seçmə ilə özlərini*

*bioloq hesab edən canlışünasların beynindəki təbii seçmə arasında böyük fərq var. Canlışünaslar çox şeyi etdikləri kimi təbii seçməni də yalnız canlı sistemə müncər edirlər. Halbuki elektrondan tutmuş metaqalaktikayadək hər bir şey təbii seçmə qanununda iştirak edir. Bizim ətraf mühitdə bu qanunauyğunluq daha çox canlı maddənin fəaliyyətində özünü göstərir. Canlı maddə sözün əsl mənasında şiriflənmiş informasiyadır. Görkəmli təbiətşünas Tripler bu barədə deyir: **"Canlı maddənin təbii seçmə ilə qorunub saxlanılan kodlaşdırılmış informasiya olduğuna əminəm!"** Doğrudan da belədir, həyat təbii seçmə ilə mühafizə edılən, kodlaşdınlmış informasiyadır, lakin unutınamalıyıq ki, həyat bir növ informasiyadır, ruhdur, amma ruh və informasiya nə termin, nə anlayış, nə də obyektiv reallıq kimi həyatı ehtiva edə bilməz. Ruh və informasiya həyatın bir hissəsini təşkil edir və yalnız antropogenezdə özünün normal ifadəsini tapır. Təbii seçmə adlandırılan dinamik hərəkət təkcə canlı növlərin bir-birinə münasibətində deyil, bütün varlığın(ulduzların, qalaktikaların, metaqalaktikaların, atomların, elektronların, kvarkların və s.) bir-birilə əlaqə və münasibətlərində özünü göstərir. Əgər həyatın ən son ünsürü olan insanları və onlar arasındakı destruktiv münasibətləri istisna etsək, qalan canlı, cansız, neytral növ və orqanizmlər arasında müəyyən təbii norma və qanunlar nəzərə çarpır. Canlışünaslar bütövlükdə həyatşünaslıq iddiasında olsalar da onlar nəinki həyatın özünün, hətta canlının öz tərifini də alayarımçıq müəyyənləşdiriblər. Yapon elm adamı Masaru Emotonun apardığı təcrübələr elm aləmində çoxunluqla qəbul edilsə onda mütləq canlının tərifini yenidən vermək lazım olacaq. Emoto içərisində 70-dən çox kristal rəsmi olan **"Su kristalları"** kitabında yazır: **"Su cansız bir maddə deyil. Canlı və duyğuları qavrayan kristallardan təşkil edilib. Su öz ətraf mühitindən pozitiv və neqativ informasiyaları alır və uyğun reaksiya verir!"** Emoto əvvəlcə mikroskop üzərində apardığı araşdırmalarla donmuş su kristallarının xarici təsirlər qarşı çox fərqli şəkillərdə cavab verdiyini kəşf etdi. Bu araşdırmalara görə su kristalları xarici mühitdən gələn fərqli təsirlərə(musiqi, dua, söz və s.) fəqrli reaksiya verir. Emoto su kristallarının necə fərqli davrandığını, sehirləyici qurluşda olduğunu, saf dağ suyunun nizamlı və düzgün kristal qurluşuna malik olduğunu təsbit etdi. O, uşaqları suyla danışdıraraq su kristallarının verdiyi reaksiyanı analiz etdi. Emoto 13 ilə yaxın apardığı gərgin və dəqiq*

*çalışmalarda etdiyi on minlərcə təcrübə nəticəsində, suyun sadəcə yaxşı və pis xəbərləri, musiqi və sözləri deyil, hissləri və şüuru da qeyd etdiyi təsbit etdi. Onun çəkdiyi kristal fotoqraflarında suyun verdiyi mesaj çox açıq idi. Su nə qədər sevgi, duyğu və ahəng dolu söz və musiqi ilə qarşılaşırsa altıbucaq kristal qurluşu bir o qədər düzgün və gözəl olur. Məsələn, çəkilən fotoqrafların birində suyun yanında* ***"şeytan"*** *deyiləndə kristallar xaotik bir forma alırlar. Digər şəkildə isə suyun yanında gözəl sözlərlə dua edildikdə kristallar çox gözəl və mükəmməl estetik altıbucaq formasını alırlar. Emoto bu işləri ilə duyulmayan ruh aləminin də varlığına işarə etdi. Mən deyərdim ki, Emoto vaxtilə Brunonun söylədiyi hilozoist fikirləri praktikada sübut etmişdir. Halbuki Quran bütün bunları ümumi formada daha öncə bildirmişdi:* ***"Yeddi göy, yer və onlarda olanlar Allahı təsbih edir. Onu həmd ilə təsbih etməyən heç bir şey yoxdur. Fəqət siz onların təsbihini anlamazsınız!"***[67] *Müfəssirlər icma ilə ətraf mühitdə bizim duymadığımız, anlamadığımız təsbihlərin olduğunu ifadə edirlər. Şübhəsiz ki, bir şeyin Allahı zikr və ya təsbih etməsi üçün canlı olması vacibdir. Şeylərin bir qismini canlı qəbul ediriksə, bunun bütün varlığa şamil edilməsi nəticəsi çıxar. Ekosistemlərdəki kompleks və sistemli əlaqələri izah etməyə çalışan Lovelok və Marguli bütün geosistemin tək bir canlı orqanizm olduğunu irəli sürən* ***Gaia*** *hipotezini irəli sürdülər. Bu hipotezə görə dünya canlı bir planet olub onun xüsusiyyət və fəaliyyəti hissələrin toplanmasından çıxmır, bu hissələrin hər biri digərinə bağlıdır və hamısı qarşılıqlı əlaqədədir. Özlərini təbitşünas və bioloq sayanların elmi canlı maddənin forma müxtəlifliyi üzərində bərqərar olub onun substansiyasını qavramaqdan çox uzaqdır. Canlı maddə həm psixobiosistem, həm də psixoekosistemdir. Lakin psixobiosistem, başqa bir əsərimdə də dediyim və əsaslandırdığım kimi, canlı maddəni ifadə etməyə daha uyğun və daha layiq termin və anlayışdır. Psixobiosistem mikropsixobiosistem, fitosistem, zoosistem və antroposistemdən ibarətdir. Bunların da hər biri spesifik hissə və mərhələlərdən ibarətdir. Yalnız insanlar arasında həyat modifikasiya və inversiya olunur. Bu səbəbdən mənim bir filosof və ekosof kimi diqqətimi daha çox çəkən antroposistem və antropogenezdir. Digərləri isə xüsusi şəkildə daha çox canlışünasların tədqiqat sahəsinə daxildir.*

[67] ***İsra, 44***

## *$2.3.1.Antropogenez*

*Məlumdur ki, insanın yaşamaq üçün havaya, suya, qidaya, bir sözlə təbiətə ehtiyacı var. Təbiətin də spesifik həyatını davam etdirməsi üçün günəş işığı və tempraturuna, aerosferə*[68]*(hava təbəqəsinə), okean və dənizlərə, meşələrə, çaylara ehtiyacı var. Amma təbiətin insana ejtiyacı yoxdur. Təbiət funksianol və dinamiki sistemdir. Bu səbəbdən təbiətin tarixi də dinamiki bir tarixdir. Müasir tədqiqatlara görə kainatın tarixi 20 milyard il, dünyanın tarixi isə 5 milyard ildir. İnsan tarixi isə bu nəhəng təbiət tarixinin başının kiçik bir teli kimidir. Təbiətin uzun tarix yolunda insan tarixi çox kiçik bir yer tutsa da, son yüzilliklərdə insan aktivliyi geosistemdə çox böyük və çox geniş təsirə malik olmuşdur. İnsan bu qısa tarixi ərzində abadlıq və islahdan daha çox zülm, dağıdıcılıq və fəsadla məşğul olmuşdur! Bu kompleks krizisin günü-gündən geniş vüsət aldığına əmin olmaq üçün sivil hesab edilən müasir insan cəmiyyətlərinin fəaliyyətlərini yüngülvari analiz etmək də kifayət edərdi! Lakin bu problemin prinsip və substansiyasının müəyyənləşdirilib çözülməsi antropogenez tarixinin analiz və təhlilindən keçir. Antropogenez üç hissədən ibarətdir:* ***noogenez, virusogenez, texnogenez.*** *Noogenez antropogenezin dəyəri, mənası, gözəlliyi və bəlkə də məqsədidir, amma əsası deyil. Antropogenezin əsası virus(zəhər) maddədin yaranması prosesidir. Böyük həyacanla deməliyəm ki, virusogenez proses yalnız insaniyyətin əsası olmaqla kifayətlənmir, həm də canlı maddənin əsası olmaq üzrədir. Pleystosendən əvvəl yer üzündə demək olar ki, antropoetnoeffekt mövcud olmayıb, yaxud olubsa da çox azdan da az olub. Lakin, təxminən bir-neçə mlyon il bundan qabaq, Adəmin yer üzünə göndərilməsindən qısa müddət sonra insan od əldə etdi və bununla da yer üzü* ***"yavaş-yavaş yanmağa"*** *başladı! Adəmin yer üzünə gəlişinə qədər və ondan bir qədər sonra da planetimizin quru hissəsinin çoxu dağ-meşə, meşə-çəmən, dağ-gölləri və meşə-çöl təbii*

***

[68]***Elmi ədəbiyyatlarda hava təbəqəsinin atmosfer adlandırılması həm linqvistik, həm də substansial olaraq çox məhduddur. Atmos termini buxar anlamını verən kəlmə olub, realizasiya prosesində maksimum H və O elementlərini ehtiva edən termin və anlayışdır. Amma aero termini isə elə hava deməkdir. Hava da, təkcə bunu demək kifayətdir ki, yalnız H və O maddələrindən ibarət deyil.***

*landşaft komplekslərindən ibarət idi.*[69] *O vaxt yer üzündə səhra, yarımsəhra və quru çöl kompleksləri çox az idi. Elə ki, Allah Adəmi və arvadını iblislə birlikdə cənnətdən qovub yer üzünə göndərdi, məhz həmin gündən başlayaraq "***antropogen faktor***"un rüşeymləri yarandı. Bu tarixi-təbii anı indiyədək heç bir alım, tarixçi, filosof dəqiq göstərə bilməmişdir. İlk əsərim olan* ***"Empiriomaterializm"****də Adəmin yer üzünə 10 min il bundan qabaq göndərildiyini az qüvvətli bir ehtimalla söyləsəm də, bu hadisə nəinki 10 min, hətta 10 milyon il bundan qabaq da baş verə bilərdi ki, bunu praktiki təsdiqləmək asan olmasa da, inkar etmək də asan deyil. Kim deyə bilər ki, Adəm və ailəsi azot və karbonun üstünlük təşkil etdiyi hava ilə nəfəs ala bilməzdi? Hər halda Adəmin endirildiyi zamandakı geoekosistemin indikindən büsbütün fərqli olduğunu elmdən nəsibi olan heç kim inkar etmir! İstəyirsən teoloqlar kimi Adəm de, yaxud da profan elm adamları kimi homo sapiens de, hər halda şüurlu insanın ən qədim tarixindəki geoekoloji şəraitin indikindən büsbütün fərqləndiyini heç kim inkar etmir. Lakin buna baxmayaraq antropogenezin təməllərinin Pleystosendə qoyulduğunu zənn edirəm. Antropogenezin mənası olan noogenez bəşər aləminin olduqca kiçik, elementar hissəsini təşkil edən, ağıl sahiblərinin düşüncə, qavrayış və duyğularının, bir sözlə idraklarının kamil formada ifadə olunma prosesini göstərən sözdür. Vernadski deyir:* ***«Elmi fikrin və insan əməyinin təsirilə biosfer yeni hala – noosferə keçir!»*** *Şura imperiyasına təslim olan Vernadskidən qabaq da bu cür bəsit və bayağı fikirlərlə kağız korlayanlar olub. Məsələn, le kont iddia edirdi ki,* ***«bəşəriyyət psixozoy erasına qədəm basmaq ərəfəsindədir!»*** *şuxert isə ümumiyyətlə şüurlu insan tarixini* ***«psixozoy erası»*** *hesab edirdi. Teyyar de Şarden də* ***«zəka təbəqəsi»****,* ***«noosistem»*** *kimi anlayışlardan yola çıxaraq çoxlu utopik mülahizələr yürüdüb. Məsələn, o yazır:* ***"Noosfer elə bir qapalı sistemə çevrilmək***

[69] ***İlk əsərimdə bu hadisənin 10 min il bundan öncə baş verdiyini ehtimal etsəm də bu da doğru deyil. Kim deyə bilər ki, ulu babamız 3-4 milyard il bundan öncə yer üzündə ola və karbonla qidalana bilməzdi? Bəyəm karbon və ya azotla yalnız bitkilərin ulu əcdadları qidalana bilər, bizim əcdadlarımız yox? Bəs qədim tibetlilərin, mu etnosunun və atlantidalıların varlığını nə ilə izah edək? Təhrif edilmiş Tövrat və ya İncilləmi? Miflərlə bəzədilmiş Bahaqavat-Qita və Avestaylamı?! Əlimizdə yeganə güvənilən qaynaq Qurandır ki, orada da ümumi və işarələrlə məlumat verilir. Bu məsələni dəqiq bilmək üçün tarixin ekologiyası və genoqrafiya və ya genetik coğrafiya adlandırdığımız bir elm var ki, bizə hər bir individin, her bir xalqın kimliyini, keçmişini əhatəli formada göstərə bilər.***

***üzrədir ki, orada hər bir şey ayrılıqda görür, hiss edir, digərləri ilə birlikdə əzab çəkir!"***[70] *Əslində Teyyarın futuroloji konsepsiyasında çəkiləcək iztirab və əzab-əziyyətlər istisna edilmədiyinə görə onun fikirlərinin öz içində də ziddiyyətli məqamlar az deyil. Hətta, bəzi mülahizələrindən noosferin tarixə çevrildiyi nəticəsini çıxarmaq olar. Məsələn, O yazır:* ***"Yalnız bircə dəfə yer bir planet kimi var olduğu dövrdə həyat pərdəsi ilə örtülə bilmişdir. Bu baxımdan həyat bir dəfə, yalnız bir dəfə təfəkkür səviyyəsinə yüksələ bilib!"*** [71] *Noogenezin tamamlanması noosferin – noosistemin var olması deməkdir. Teyyer de Şarden bunu belə ifadə edir:* ***"Yer nəinki fikir zərrələrilə örtülmüş, həm də kosmik miqyasda funksianol olaraq vahid bir düşüncə örtüyünə bürünmüşdür!"*** *Teyyarın bu sözləri geoekosistemə psixofiziki və teoekoloji yanaşmadır. Le Rua isə Yer üzünü hava axınına bənzər formada əhatə edən düşüncə örtüyünü* ***psixosfera*** *adlandırırdı. Əslində Teyyarın* ***noosferi*** *ilə le Ruanın* ***psixosferi****, Hegelin* ***dünya ruhu*** *və antik Qərbin loqosundan başqa bir şey deyil. Əlbəttə, noogenez təbii-tarixi xarakterə malikdir, lakin heç də Le-Rua, Teyyar de Şarden, Vernadski və davamçılarının başa düşdüyü kimi bütün insanları ehtiva edən* ***"vahid düşüncə örtüyünün əmələ gəlməsi prosesi"*** *deyil. Öz* ***"mən"****inə nəzarət etməyi bacarmayan axmaq, meşşan, manqurt, cani və sərvət hərisi olanları(bəşəriyyətin əksəriyyətini) noosferin çərçivəsinə daxil etmək elm və alimlikdən uzaq düşüncədir. Vernadski özü də etiraf edir ki,* ***"bəşəriyyətin hazırkı həyat və fəaliyyəti noosferin yaranması və tamamlanmasına zidd istiqamətdədir!"*** *Canlışünas mütəfəkkir vernadskinin noosfer və ya kommunosfer utopik teoriyası Teyyar de Şardenin fikirlərinin təkrar və təqlidindən başqa bir şey deyildi. Vernadski sadəcə teyyar, le kont və şuxert tərəfindən deyilmiş fikirlərin teoloji tərəflərini minimuma endirib təkrarlamışdır. Halbuki insan reallığı bu fikirlərin tamam əksini göstərməkdədir. Futuroloji olaraq bəlkə də nə zamansa bəşəriyyətin noosfrer və ya noosistemə çevriləcəyini ehtimal etmək olardı, amma indiyə qədərki və indiki sosial-siyasi və sosial-iqtisadi proseslər fonunda qlobal miqyaslı noosfer anlayışının reallığından danışmaqla bolşevik və kommunistlərin ümumi və hərtərəfli bərabərlik anlayışından danışmaq*

---

[70] ***Феномен человека. М., 1987, 199***
[71] ***Феномен человека. М., 1987, 217***

*arasında heç bir fərq yoxdur! Vernadski ya bolşevizm qorxusundan, ya da tipik təbiətşünas sadəlövlüyü ilə noosistemin formalaşması yolunda əsas maneəni insanların ideya baxımından birlik və vəhdətini qəbul etməyən dövlətlərdə görürdü.* [72] *Halbuki insanlar arasında nəinki ideoloji, hətta ekonomik və fiziki bərabərlik və vəhdətdən danışmağın özü də ən azı bu günün şərtləri daxilində yalan və absurddur! Başqa tərəfdən dünyada elə bir dövlət yoxdur ki, əqli idrakın kontrolunda olsun. Dövlətlər istisnasız olaraq hissi idrak və affektlərlə idarə olunur. Teyyar de Şarden elə buna görə deyirdi:* ***"dövlət onun təşkil olunduğu üzvlərindən daha axmaqdır!"*** *Əfsus ki, çox az adam dərk edir ki, insan ən böyük və ən təhlükəli parazit və virusdur! Yalançı, zoba, şəhvət düşkünü, fırıldaq, bir sözlə binamus olan insan totalitar mühitin var olmasına bir nömrəli səbəbkardır! Bu cür insan tipi bütün zamanlarda bəşəriyyətin əsasını və zirvəsini təşkil edib və etməkdədir! Ucuz və ənənəvi şablonlarla insanları bir daha aldatmaq sadəcə totalitar mühitin ömrünü uzadır! İnsan sözün əsl mənasında alt-üst edicidir. İnsan sözün əsl mənasında* ***"modifikasiondur"****,* ***"inversiondur"****,* ***"virusiondur"!*** *İnsan təbii seçmə qanunlarının tətbiq edildiyi hüdudun sərhəddindədir. Daha dəqiq ifadəylə bu hüdudun qapısı və ya açarıdır. Eyni sözlər özlərinin alim olduğunu zənn edən zırramalar tərəfindən fantaziya, hallüsinasiya və illuziya hesab edilən, lakin realdan da real olan cin maddəsinə də aiddir. Yalnız bu iki maddə və ya varlıq növü arasında təbiətin qanunları inversiya ola bilir. Əsas etibarı ilə vəhşilik və axmaqlıqdan ibarət olan insan fəaliyyəti nəticəsində biosfer sözün həqiqi mənasında yeni hala keçir, amma bu yeni hal bəzi alimlərin iddia etdiyi noosfer və ya psixozoy, yaxud ağıl halı və ya əql təbəqəsi deyil, sözün praktiki mənasında dəlilik, vəhşilik və axmaqlıq təbəqəsidir! Psixozoy erası və ya noogenez əslində* ***"fövqəlbəşərlərin"*** *yaranması prosesidir. Onun təşkili supergenlər sayəsində olur. Supergenlər böyükdən böyük Allahln aləmlərə mərhəmətidir. Bu o deməkdir ki, ululardan ulu Allah yeri və zamanı gələndə supergenlərdən fövqəlbəşərlər yaradır, onlar da yerin inkişafına səbəb olur və müvəqqəti də olsa yerlə göylər - kosmos arasındakı*

---

[72] ***Lakin qeyd etmək vacibdir ki, heç vaxt marksist və kommunist olmayan Vernadskinin sovet dövründə, xüsusilə ölümündən sonra çap edilmiş əsərlərində ona qətiyyən aid olmayan, ruhən Vernadskiyə zərrəcədə olsun yaxınlığı olmayan fikirlər yer almış, yaxud bəzi fikirləri təhrif edilmiş formada verilmişdir.***

*tarazlığı bərpa edirlər. Supergenlərdən yaradılan dühalar eyni landşaftın məhsullarıdır. Çox vaxt onların nəsəbi də eyni olur. Məsələn, Kosmik Rəsul və Nəbilərin hamısı soy etibarı ilə eyni kökdəndir. Bu barədə Muhamməd salavatullah demişdir: "**Allah rəsul və nəbiləri eyni kökdən, eyni soydan yaratmışdır!"** Nəbinin bu hədisinin elmi təfsiri qalın bir kitab edər. Mən buna yüngülvari girişmək istərdim. Hər hansı bir etnosun içindən çıxmaq təkcə ideoloji deyil, genofond baxımından da həmin etnosa mənsub olmağı ifadə etməz. Çünki kosmik elçilər daha çox semit etnoslarına göndərilsə də əslində həm genetik, həm də antroposima baxımından semitlərdən çox fərqləniblər. İbrahim və onun nəslinin semit olmadığı bir-çox ədalətli din tarixçiləri tərəfindən də qəbul edilmişdir. Məsələn, Qrozni deyir ki, İbrahim övladlarını semit saymaq düzgün deyil. Onlar antropoloji qurluşlarına görə samilərə qətiyyən bənzəmirdilər. Düz burunlu bu adamlar Anadolunun yerli xalqlarıdırlar.*[73] *İbrahimin atasının türk etnoslarının Azər qolundan olmasını həm bir-çox tarixçilər qəbul edir, həm də Bibliya və Quranda buna açıq-aydın işarələr var. Bibliya miflərinə görə Azər İakovun cariyədən olan oğludur. Bibliya ən azı dolayı şəkildə Azər övladları ilə İbrahim övladlarının qan qohumluğunu göstərir. Bunların arasında ayrılıq əqidə və ideya ayrılığıdır, etnogenetik ayrılıq deyil. Əgər ideyanın etnosyaradan əsas faktor olduğu qəbul və etiraf edilsə, bu başqa məsələ. Amma problem ondadır ki, İbrahim övladları ilə Azər övladlarını ayrı etnoslar sayanlar bunu qəbul etmirlər. Halbuki bunları bir-birindən ayırmaq üçün ideya və ya əqidədən başqa heç bir amil yoxdur. Quran da təsdiq edir ki, İbrahim öz atasından bütpərəst olduğu üçün ayrılıb. Azər tayfalarının heç də hamısı müşrik deyildi. Onlardan monoteist olanlar İbrahimə qoşuldular. Əslində yəhudi tayfalarının İbrahim nəslinin orta xəttilə qan bağlılığı yoxdur. Yəhudilər sonralar Yəqub zamanında formalaşmış etnos olublar. Əslində İbrahim və nəslinin gen baxımından Azər-türk olması həm nass, həm də tarixi faktlarla sabitdir. Bir fövqəlbəşər və ya düha Ərəbistan yarımadasının çox isti səhra və ya yarımsəhra landşaftında doğula, yaşaya və fəaliyyətdə ola bilər, digər bir dahi insan da skandinaviyanın ən soyuq, donmuş mühitində doğula, yaşaya və fəaliyyətdə ola bilər. Noosistemin struktur elementləri olan dahilərin vəhdəti də, yaşayışı, yaradıcılığı və*

---

[73] ***Грозный Б. Хеттские народы и языки. Вестник Древней истории. 1938, №2(3), 19***

*nəhayət ölümü də təbii-tarixi xarakterlidir. Hər bir dahi sələflərindən enerji alır, xələflərinə enerji verir və bu proses də sürəkli və dinamikidir. Dühaların müxtəlif məkan-zaman kordinatlarında mövcud olmalarından aslı olmayaraq onlar arasında transsendental bağlar var. Bütün dühalar İbrahimin millətindən olub muvahhiddirlər. Həyatın mənası şübhə yox ki, düha və intellektdir, lakin o heç vaxt sadəlövh naturalistlərin iddia etdiyi kimi* ***yer üzünə hakim*** *olmayacaq. Olsa-olsa şəxsi maraqlar mühitinin istifadə dövriyyəsinə daxil olacaq. Necə ki, biz tarixin bəzi dövrlərində bunun şahidi olmuşuq. İnsan üçün sərvət və şəhvət sevimli və maraqlı olanda ağılın fəaliyyəti minimuma enir. Nəticədə* ***"kapital mühiti"*** *və* ***"seksual mühit"*** *bərqərar olur, mənəviyyatsız mühit yaranır, qeyrətsizlik tüğyan edir və binamusluq hər yanı bürüyür. Həyat da öz dəyərini, mənasını - dühaları itirir! Həyat bu faciənin baş yermәsini istiqamətlənməsə belə, virus maddə fürsəti əldən vermır.* ***Nə və kimlərdir virus maddə!?! Şərəfi, imanı, dəyəri olmayan hər kəs! Başqa sözlə bəşəriyyətin 99%-ni təşkil edən ikiayaqlı aspidlər!*** *Həyatın mühim hallarından biri olan etnogenezin insanlara aid olan hissəsinin əsasıdır virus maddə! Əgər Əli kimi antivirus dühalar olmasa canlı maddə müaviyə kimi viruslar tərəfindən qısa bir müddətə məhv edilər, həyat dəyərindən məhrum olar. Məhz xalis passionarlıq virus maddəyə müqavimət göstərir və etnosu tamam, standart şəkildə viruslaşmaqdan xilas edır. Dahilər öz xalqlarının məsihləridir. Onlar Allahın sadiq və saleh qulları olduğundan Allah onlara yalnız birbaşa deyil, dolayı yolla da yardım edir. Allahın dolayı yolla elçilərinə yardımı mühit vasitəsilə gerçəkləşir. Həyatın başlanğıcı olan ruh maddəsi məhz bu vaxt biogenez və etnogenezi informasiya ilə təmin edir. Ruh kifayət qədər effektli olmasa biogenez və onun təbəqə və mərhələləri sistemli şəkildə virusa yoluxar və sıradan çıxarlar! Əgər hər hansı populyasiya və ya etnos və ya kollektiv və ya ekoetnosistem əsas etibarilə zəhərlənib bütün müsbət keyfiyyətlərini itirirsə bu zaman və bu məkan dahi əmələ gəlmə prosesi(noogenez) dayanır və hemeostaza keçir! Nə yaxşı ki, insan geoloji özülü - litomatenyanı və relyefı sıradan çıxara bilmir. Nə yaxşı ki, geolandşaftı, geosistemi zənginləşdirən komponentlər müxtəlif neqativ hallara salınsa da, yeri yaradan komponentlərə insanlar girişə bilmir. Təkcə bir insanın bir gündə təbiətə vura bildiyi zərbə və zərəri bütün heyvanlar, bitkilər bir yerə yığışsa da vura bilməzlər! Ən təəccüblü və qəribəsi odur ki, belə*

*bir səfil, dünyanın ən ağıllı, ən şüurlu, ən əzəmətli(bu* ***"ən"****lərin sayını çox uzatmaq olar!) məxluqu hesab olunur! Antroposentrist və modernistlərin iddia etdiyi kimi şüur yalnız insana məxsus deyil. İnsandakı şüur sadəcə daha mükəmməl olub əql formasındadır. Normal halda hər bir adam potensial dühadır, lakin əfsus ki, cəhalət, zülm və cin maddəsinin təsirindən adamların əksəriyyəti normallıqdan çıxıb anormal olub! Bu da ağlın tamamı ilə simmetrik əksi olan hiylənin yaranmasına böyük şərait yaradır. Noogenez hemeostaza keçəndə, intellektin minimum modifikasiyası olan hiyləgərlik ağlı əvəz edir, müəyyən müddətdən sonra ağlın bünövrəsi tamam dağılır, intellektin inversiyası baş verir. Əgər pozitiv passionar effekt azalırsa, nəticədə ağıl məhv olur. Əksinə, bu halda passionar effekt çoxalarsa hiyləgərliyin bünövrəsinin dağılması və ya dağıdılması mümkündür. Bu zaman mövcud insan populyasiyasında təmizlənmə aparmağa meyl göstərilir, lakin passionar effektin yenidən azalması dözülməz vəziyyət yaradır. Beləliklə, antropegenezin mənası noogenez, əsası virusogenez və ya insan populyasiyası- antropoetnogenezdır. Lakin bunlardan əlavə antropogenezin nəticəsi də vardır ki, hal-hazırda yer üzü məhz bunun sayəsində virussistemə çevrilmək təhlükəsi qarşısındadır. Bu superqlobal təhlükəni yaradan və antropogenezin nəticəsi olan proses texnogenezdir. Yaspers elə bunu anladığı üçün yazırdı:* ***"Adi əmək alətlərindən maşına doğru sıçrayışın hansı nəticələr verəcəyini hələ Hegel duymuşdu. Hər şeydən əvvəl bu əhəmiyyətli tərəqqidir, əmək aləti elə bir sabit bir şeydir ki, mən ondan istifadə etsəm də özüm də predmetə çevrilirəm. Çünki bu halda insan özü qüvvə mənbəyi olur. Maşın isə, əksinə, müstəqil alətdir. Onun vasitə və yardımı ilə insan təbiəti aldadır, onu özünə işləməyə məcbur edir. Amma yalan yalançıdan qisas alır!"*** [74] *Texnogenezə biogenezin, texnikaya da həyatın son nöqtəsi kimi baxmaq olar. Hərçənd ki, biogenezin son nöqtəsi texnogenezdir. Texnogenezin öz son nöqtəsi və ya nəticəsi isə bütün canlı maddənin, coğrafi təbəqənın vəhşilik, həyasızlıq, acgözlük mühitinə çevrilməsi – antropogen modifikasiyaya uğramasıdır! Həiəlik bu proses tamamlanmayıb. Bu prosesin tamamlanması və ya nəticəsi canlı maddənin inversiyası olacaq! Çox da uzaqda olmayan bir gələcəkdə insan özünəməxsus* ***"əmək fəaliyyəti"*** *ilə yer üzündə yalnız lokal sahələrdə mövcudluğunu qoruyub saxlaya bilmiş xalis*

[74] ***К. Ясперс. Смысл и назначение истории. М., 1994, 126***

*təbii mühiti də korlayacaq! Əmək fəaliyyəti, əmək, bəsit və hiyləgər kommunistlərin iddia etdiyi kimi yalnız insanlara və ya konkret bir insana aid olan xüsusiyyət deyil, bütövlükdə canlının atributudur. Hər bir canlının spesifik əmək fəaliyyəti var. Təbiətşünaslar arasında bu həqiqəti qəbul edənlər çox azdır. Təkcə təbiətşünaslar deyil, digər elm sahələrinin nümayəndələri də mədəniyyət, əxlaq, din, dövlət və digər anlayış, söz, sistem və ideyaları etdikləri kimi, əməyi də yalnız insan və ya insaniliklə məhdudlaşdırır, xüsusiləşdirirlər. Halbuki insanı heyvan, bitki və digər canlılardan fərqləndirən heç bir xüsusi özəlliyi yoxdur, yalnız üstünlüyü ola bilər və müəyyən fəaliyyət sahələrində, xüsusilə din və mənəviyyatda biz bu üstünlüyü görürük. Dünyanın azadlıqsevər cildindəki ən böyük totalitar imperiyasının qurucularından olan franklin bencamin deyirdi: **"İnsan əmək alətləri hazırlayan heyvandır"** Tipik yəhudi kökənli olan bu fikir sonralar başqa bir yəhudi engels tərəfindən təkmilləşdirildi, **"Meymunun insana çevrilməsində əməyin rolu"** əsəriylə sistemli nəzəriyyəyə çevrildi. Yer həyatı ilə kosmik həyat arasında gözəgörünməyən tellər var. Bu tellər onları əlaqələndirir, məhz bu tellər vasitəsilə kosmos yerə, kosmosdakılar yerdəkilərə nəzarət edir. Adi adamlar, xüsusilə xəbislər heç vaxt bu telləri duymayıb, duymayacaqlar. Nitşe əbəs yerə demirdi: **"gözəgörünməz tellər bütün tellərdən möhkəm bağlayır!"** Bu telləri yaradan şübhəsiz ki, dühalardır. Həyatrn mənası, dəyəri, gözəlliyi olan dühalar! Düha - təbii əməyin nəticəsidir. Hal-hazırda geosistem texnosistemə çevrilmək üzrədir, amma sevindiricidir ki, virus maddənin geosistemi tamamı ilə texnosistemə çevirməyə gücü çatmır. Helbreytin "**texnostrukturu**" həm düzgün yapılmayıb, həm də cin maddəsinin insan maddəsinə neqativ fikirlər təlqin etınəsi, insanların böyük səhvlərindən istifadə edib onları **dao**dan uzaqlaşdırmaları gözlənilən hər müsbət nəticəni alt-üst edir! Axmaqlıq o dərəcəyə çatıb ki, öz **"mən"**inə nəinki hakim, hətta sadəcə nəzarətçı ola bilməyənlər, başqalarına, xüsusilə təbiətə hakim olmaq istəyirlər. Bu yerdə Hegelin məşhur sözləri yada düşür: **"İnsan özünün ağası olmayana qədər, təbiətin ağası ola bilməz!"** Erix Fromm insanın təbiət üzərində texnikanın vəsiləsilə mütləq hakim olmaq arzusunun gətirdiyi **"xoşbəxtlik"** haqqında belə deyir: **"İnsanın təbiət üzərində gücü artıqca, şəxsi həyatında və cəmiyyətdə özünü gücsüz hiss etməyə başlamışdır. Təbiətə hakim olmaq üçün yeni və daha yaxşı vasitələr yaratdıqca, bu vasitələrin qarmaqarışıq***

***toruna düşmüş və özünü görə bilməmişdir. Təbiətə ağa olduqca öz əllərilə qurduğu maşınların köləsi olmuşdur. Maddə barədə bütün elminə baxmayaraq, insan varlığın ən önəmli və təməl sualları qarşısında elimsizdir. İnsan nədir, necə yaşamalıdır?!"(Erdem və Mutluluk, 12)*** *Fromun* ***"insan nədir, necə yaşamalıdır?!"*** *sualının yeganə və müzakirəsiz cavabı budur:* ***"insan Allahın qulu və təbiətin əmanətçisidir. İnsan Allahın təbiət və Qurandakı hüquq və əxlaq normalarına könül xoşluğuyla itaət etməklə yaşamalıdır!"*** *Əfsus ki, bütün antiteist, ateist, modernist mütəfəkkirlər bu həqiqəti bilə-bilə, bəzən təkəbbürlərindən, bəzən cəhalətlərindən, bəzən də kapital maraqları naminə insanlardan gizlədirlər! İnsan heç də Teyyar de Şardenin dediyi kimi varlığın* **"təkamül oxu və zirvəsi"** *deyil, sadəcə materiyanın simmetriya oxu, əslində varlığın tənəzzül mərkəzidir. Lakin Təyyar bəy bunu deməkdə haqq sahibidir ki, insanı öyrənmək dünyanın mahiyyətinə varmağa cəhd etməkdir. Axı, insan varlığın tənəzzül mərkəzi olmaqla birlikdə, həm də informasiya mərkəzidir. Əfsus ki, insan bir informasiya kimi də totalitar xarakter və aftoritar funksiya daşıyıcısıdır. İnsan həyat üçün, mühit üçün, materiya üçün yeganə və bənzərsiz təhlükədir. Ən yaramaz və ən təhlükəli məxluq olan insanın yer mühitində necə peyda olmasını hər tərəfli araşdırmağa çalışmışam. Teyyar de Şardenin böyük köməyi oldu. Belə ki, o yazır:* ***"İnsan səssiz-səmirsiz daxil oldu. O, elə yavaş yeriyirdi ki, biz silinməz daş alətlərin izinə görə onun varlığını hiss etınəyə başladıqda o, artıq Xoş Ümidlər burnundan tumuş Pekinə qədər bütün kölnə dünyanı bürümüşdü. Sözsüz ki, o artıq danışır və qruplar halında yaşayırdı. O, artıq od əldə etınişdi!"*** *Təyyarın bu sözləri insanın həyata, mühitə hansı tərzdə daxil olmasına, dərin ekologiyanın həll etməli olduğu problemlərin necə ortaya çıxdığına aydınlıq gətirir. Od əldə etməklə ınsan* **"texnostrukturun"** *əsasnı qoya bilməsə də, sosial həyatda dönüş yarandı. Ateist və antiteistlər odu insanın öz kəşfi sayıb böyük* ***"intellekt"*** *nümayiş etdirsələrdə, hər halda odun da dəmir kimi kosmik mənşəli olmasını istisna etmirlər! Heç şübhə yoxdur ki, od ətraf təbiət vasitəsilə, - yarpaq və budaqların sürtünməsi, şimşək və ya ildırım və yaxud da kimyəvi birləşmələrlə, - insan üçün hazırlanmışdır. İnsan sadəcə təbiət vasitəsilə ona verilən bu hədiyyəni qəbul edib biopsixososial imitasiya ilə inkişaf etdirmişdır.* ***"Ataş o qədər maraqlı və faydalı bir şey idi ki, insanlar bir-çox dövrlərdə onu müqəddəs hesab etdilər. Hara getdilərsə onu***

***götürdülər və heç bir zaman öz arzuları ilə söndürmədilər!"***[75] *Mədəniyyətin kənd təsərrüfatı ilə başlaması bir paradiqmadır. Lakin od əldə etmək sənayenin prinsipi demək idi. Təbii ki, prinsip hələ struktur demək deyil. Sonralar texnostruktrun əsası əkinçiliyin kəşfi ilə qoyuldu. Vernadski bu barədə yazır:* ***"Əkinçiliyin kəşfi bəşəriyyətin gələcəyini həll etdi. Avtotrof yaşıl orqanizmlərin həyatını bu yolla dəyişən insan öz fəaliyyəti üçün planet tarixində çox əhəmiyyətli olan bir link yaratdı. Bu yolla o bütün canlı maddəyə yiyələnməyə çalışdı. Daha sonra o əqlinin tələb və məqsədinə uyğun şəkildə az da olsa canlı maddəni dəyişə bildi!"*** *İnsan, Teyyarın dediyi kimi, səssiz-səmirsiz daxil olub, Vernadskinin də dediyi kimi canlı maddəni kontrola alıb və dəyişib, buna şübhə ola bilməz, ancaq yer mühitini hay-küylə, qışqırıq, çığır-bağırla tərk edəcək, Allahın hüzurunda isə yenidən səslər kəsiləcək, bəşəriyyət haldan-hala salınaraq dəyişdiriləcək və O, kım nəyə layiqsə ona öz ədalət və imanına uyğun münasibət göstərəcək!*

---

[75]***Durant, Will, Medeniyyetin Temelleri, İstanbul, 1978, 33***

## *III Fəsil*
## *EKOPOLİTİKA, EKOKULTURA və EKOSOFİYA*

### *$3.1.Ekopolitika və ətraf mühitin ekopolitik substansiyası*

***Insan yer üzündəki xəstəliklərdən biridir!***
***Fridrix Nitşe***

*Ekopolitika termini dar mənada elə məşhur geopolitika terminınə sinonimdir, amma daha geniş anlayış olub bütün kosmik proseslərin politikasına şamil edilə bilər. Mən ekopolitika və ekosofiya terminlərini ilk dəfə 2000-ci ildə Empriomaterializm əsərimdə işlətmişəm. Amma ona qədər bilmirdim ki, ekosofiya anlayışını məndən qabaq Ness işlətmişdir. Ekopolitika anlayışını məndən əvvəl kiminsə işlətdiyini bilmirəm. Hər iki anlayışın ən azı yurdumuzdakı müəllifi mənəm. Ekoloji fəlsəfə və ekoloji siyasət haqqında bu məmləkətdə ilk ideya müəllifi olduğum üçün çox xoşbəxtəm. Baxmayaraq ki, plagiatorluq və fikir oğurluğu üzrə baş mütəxəsis olan bir-çoxları bunu həzm edə bilmirlər. Bu gün hamı qlobal problemlər və onların həlli yollarından danışır. Amma heç kim, heç bir alim bütün bu problemlərin əsl mənbəyinə toxunmur, yaxud toxunmaq istəmir. Ölüm qorxusu, vəzifəni itirmək qorxusu, var-dövlətin əldən çıxması və yaxınları itirmək qorxusu çox ağır və dözülməz hisslərdir ki, bunu başa düşmək olar! Lakin nə qədər ağır və dözülməz olsa da, yer üzündəki bütün böyük problemlərin kökü və substansiyası olan totalitarizmdən daha ağır və daha dözülməz ola bilməz! Dörd ölçülü dünyamızın bütün hadisələrinə, bütün elementlərinə sirayət edən qloballaşma və ya totalitarlaşma və buna da alternativ olaraq ekologiyalaşdırma prosesi bu gün bizə dünyanın dərk olunması istiqamətində yeni yollar açıb göstərir. Ekopolitika bizə səslənir ki, bu yollardan biri və bəlkə də ən birincisi siyasi, totalitar və ya parazitar mühitə qarşı mübarizə yoludur. Ekopolitikanın bir nömrəli vəzifəsi yer üzündəki qlobal problemlərin əsl səbəbkarları olan totalitar və aftoritar rejimlərə qarşı ən mükəmməl mübarizə üsul və metodunu işləyib hazırlamaqdır. Siyasi, totalitar və parazitar sistemlər arasında mahiyyət və keyfiyyətcə heç bir  fərq yoxdur. Kəmiyyət və formaca isə bu fərq olduqca cüzidir. XX–ci əsr insan vəhşiliyinin, hər cür pisliklərin açıqlıq və aşkarlıq qazandığı bir dövr oldu.* ***XX-ci əsr -***

***qorxunun, vəhşiliyin, əxlaqsızlığın əsiri olan ilk əsr!*** *Bu əsrdə insanların böyük əksəriyyəti Allahdan başqa hər şeydən qorxurdular! Görkəmli teoloq Tilliks də kütləvi şəkildə ürəklərdən Allah xofunun çəkilməsini bu əsrin spesifikası hesab etmişdi. Bu əsr arxada qalsa da, özü ilə bütün təbiilikləri, bütün mənəvi inciləri alıb apardı! Bu əsr parazitar maddənin formalaşmasının tamamlandığı dövr idi! Bu əsr ərlərin kütləvi şəkildə namərdləşməsi dövrü idi. Bu əsr köləlik və xaosun azadlıq üzərində tam nəzarəti bərpa etdiyi vahiməli zaman idi! Alber Kamyu demişdi:* ***"XVIII yüzillik riyyaziyyat əsri, XIX-ci yüzillik fizika əsri, XX-ci yüzillik isə qorxu əsridir. Deyəcəksiniz ki, qorxu elm deyil. Amma bu qorxuda elmin payı var!"*** *Fromm isə belə deyirdi:* ***"XIX yüzildə problem bu idi: "Allah öldü!" XX-ci yüzilin isə problemi budur: "insan öldü!"..."*** *Gözliyirdilər ki, XX əsr sarı qızıl əsr olacaq, amma qırmızı qan əsri oldu! Elə buna görə öz mühazirələrinin birində əsrinin böyük alimi Sikorski demişdi:* ***"Əsrimiz bütün dəyərlərdən büsbütün üz çevirdiyimizə şahiddir! Bu yüzillik 25 əsrlik yazılı tarix ərzindəki ən qanlı yüzillikdir! Bu baxımdan 5 min il ərzində insanın ruhən dəyişdiyini və müsbət istiqamətdə təkamül etdiyini söyləmək olmaz!"***[76] *Roma klubunun ikinci prezidenti olmuş A.Kinq öz xatirələrində XX-əsr haqqında yazırdı:* ***"Mən iki dünya müharibəsi gördüm, hələ də bəşəriyyətin başının üstündən Damokl qılıncı kimi asılmış soyuq müharibəyə şahid oldum. Mən italyan faşizminin, alman nasizminin və sovet kommunizminin yüksəlişi, tənəzzülü və süqutunu, üçüncü dünya ölkələrinin azadlığını və amerikan hegemonluğunun bərqərar olmasını gördüm. Eksiztenzializm, psixoanaliz, seksual inqilab, qadın emansipasiyası, feminizm, postmodernizm, Uca Rəbbin ölümü və tarixin sonundan həm zövq almış, həm də əzab çəkmişəm. Zənnimcə heç bir dövr insan ömrünə bu qədər müxtəlif hadisələri, istər şəxsi, istərsə də sosial həyatda baş verən bu qədər cahanşümul dəyişiklikləri sığdıra bilməz...Biz bəşər tarixinin ən qanlı əsrini yaşadıq!"*** *Parazitizm, xaos və terror hər zaman və hər yerdə olub, amma bu əsrə qədər onlar açıq-aşkar və qlobal miqyasda tüğyan etməmişdilər! XX-əsrə qədər on minlərlə lokal və regional miqyaslı müharibələr olmuşdu və yalnız bunların birində Atilla və Aetsi orduları arasında baş verən katalaun döyüşündə milyondan bir az*

---

[76] ***Сикорский И. Эволюция души, Квантовая Магия. Т.2, 2005, 3201***

*artıq insan tələfatı olmuşdu. Digər müharibələrdəki tələfatların heç birində milyondan artıq tələfat olmamışdı. Amma* ***"qızıl"*** *əsrdəki iki dünya müharibəsindəki insan tələfatı yüz milyonu keçdi! Yeni əsrə inversiya və modifikasiya edilmiş landşaftlarla qədəm qoyduğumuz kimi, xarakterik xüsusiyyətlər də tamam inversiya və modifikasiyaya məruz qalmışdır! Bunun da nəticəsində tarix qarşısında, həyat qarşısında, təbiət qarşısında insanın hər cür məsuliyyət hissi itmişdir! Insanın təbiətə təsiri nəticəsində artıq geoekoloji təbəqədə yeni bir hal, yeni bir maddə formalaşır. Bu maddə və ya hal, sözün əsl mənasında virus və ya parazitar və ya totalitar mahiyyətə malikdir! Mən bu maddəni totalitar maddə və ya parazitar hal adlandırmaqdan çəkinmirəm! Əgər kimsə təbii-ekoloji şəraiti (relyefi, torpaqları, su hövzələrini və s.) qorumaq barədə düşünürsə və həqiqətən onda belə bir istək varsa o totalitarizmlə mübarizə aparmağın həyati zəruriliyini anlamalıdır. Əgər biz hər hansı bir təbii ərazi kompleksinin eroziya və deqradasiya olmasını istəmiriksə, bilməliyik ki, ətraf mühit hər cür siyasi təsirdən, aqressiv antropogen effektdən, hər cür və hər bir* ***«humanist»*** *təsir və münasibətdən tamam uzaq olmalıdır. Bir sözlə, həm ekoloq olmaq üçün, həm də ekosistemləri qorumaq üçün* ***«öz təbiətinə sadiq ol!»*** *Şekspir kəlamına əsaslanmalıyıq. Digər tərəfdən əsl ekoloq olmaq üçün həm daxili müstəqillik olmalı, həm də şəxsi ekosistem siyasi mühitin neqativ təsirlərini mənimsəməməlidir!*[77]

*Böyük coğrafiyaşünas Ratsel dərk etdi ki, canlı orqanizmlər həm ayrı-ayrılıqda, həm də populyasiyalarla, qruplarla daha çox ərazi zəbt etməyə çalışır. Lakin orqanizmlər arasında ən çox ərazi zəbt etməyə çalışan və ətraf mühiti acgözlüklə mənimsəyib məhvə aparan yeganə canlı - ikiayaqlı böyük parazit insandır! Zooloji baxımdan yırtıcıların arealının genişlənməsi ot yeyənlərin arealının kiçilməsinə bais olduğu kimi totalitarizmin və ya antropoparazitar sistemin arealının genişlənməsi də təbii ekosistemlərin. Öəlliklə dühaların arealının kiçilməsinə və nəticədə də məhv olmasına gətirib çıxarır! Aşağıdakı riyazi düstur bunu konkret açıqlayır:*

$$E = kT \backslash t$$

[77] ***Rəşad Ramazanlı Mühitşünaslıq, 1-ci fəsil.***

*Biz burda ekoloji artımı, ekosistemlərin pozitiv genişlənmə dərəcəsini E ilə, təbiətin inkişaf tempini və insanın hökmü altında olmayan təbii kompleksləri T ilə, totalitar mühiti isə t ilə göstərmişik. k isə elə bir sabitdir ki, mən onun varlığını bilsəm də nəyə bərabər olduğunu hesablamamışam. Bunun üçün mənim lazımi texniki və praktiki imkanlarım, həmçinin dəstəyim yoxdur. Mən əminəm ki, şərti olaraq k ilə işarə etdiyim ekoloji sabit təbiətin e, i, f və p kimi sabitlərindən biridir. Yaxın gələcəkdə bu sabitin hesablanacağına heç bir şübhəm yoxdur. Insan təbiətə daxil olanda E maksiumum idi. Indi isə artıq minimuma yaxınlaşmaqdadır. Ərazi zəbt etmək, zəbt olunan əraziləri fürsət düşdükcə genişləndirmək insan xarakterinin tipik cizgisidir. Insanın təbii-tarixi fəaliyyəti elə bundan ibarətdir. Çox çətin ki, insanlar haçansa sosial formada torpaq, su, hava və od uğrunda, bir sözlə təbiəti və ya ətraf mühiti zəbt etmək uğrunda deyil, bilik və mənəviyyat uğrunda mübarizə aparmağa başlasınlar! Bunun yeganə çıxış yolu ağıl və elmin diktaturasını bərqərar etməkdədir. Əfsus ki, biz ətraf mühitdə, cəmiyyətdə yalnız cəhalətin, zülm və fəsadın diktaturasının şahidləriyik. Müasir insan tipi elmi mühit yaratmaqdan çox uzaqdır. Insandan gözlənilən elmi mühitin, intellektual sferanın genişləndirilməsi olsa da, o öz aqressiv fəaliyyətilə yalnız və yalnız totalitar və ya parizitar mühitin arealını genişləndirir.*[78] *İnsanın destruktiv, aqressiv və şarlatan təbiəti artıq qlobal miqyasda özünü biruzə verir. Şpenqler deyir ki,* ***«insan ən vəhşi heyvandır!»*** *Lakin Şpenqler bu sözlərilə heyvanları təhqir edir. Çünki insanların sosial formada heyvan səviyyəsinə yüksəlməsinə hələ çox qalıb. Insan – ən vəhşi və ən alçaq məxluq! Insanın ən vəhşi və ən səviyyəsiz varlıq olması həm tarixin, həm də xronoekologiyanın aksiomlarından biridir. Bəşəriyyətin ən böyük cinayətkarlarından olmasına baxmayaraq stalin bu aksiomu belə ifadə edirdi:* ***«Insan varsa problem də var, insan yoxdursa problem də yoxdur!»*** *Planetimizdə yaşayan canlılar içində insan yeganə canlıdır ki, kölə olur, kölə edir və etdirir. Digər tərəfdən insan görünən canlılar içində yalan danışan yeganə məxluqdur. Digər canlılarda isə bu xüsusiyyətlər yoxdur. Hətta, ən yırtıcı heyvan da öz şikarını yırtıb məhv etsə də onu aldatmır və ondan köləlik tələb etmir! Onun qurbanları da qaçmaqla, yaxud səs çıxarmaqla müqavimət göstərir və*

---

[78] ***Rəşad Ramazanlı Mühitşünaslıq, 1-ci fəsil.***

*tabe olmur! Insanın həyat və fəaliyyəti isə köləlik üzərində bərqərar olub! Insanda nə hepardın çəldliyi, nə aslanın gücü, nə də canavarın zəhmi var! Insan bu ləyaqətli yırtıcılardan fərqli olaraq nəyəsə, kiməsə arxalanan, kiminsə, nəyinsə dalında gizlənməyə meyl edən çox xəbis və hiyləgər yırtıcıdır! Onda yüksək inkişaf etmiş qeyri-adi əzələlər və fitri azadlıq enerjisi olmadığından yalan, hiylə və xəyanətə əl ataraq canlıların azad və təmiz aləminə bədbəxtlik gətirir! Öz qafalarından uydurduqları din və idealogiyalar insanları əzib, ağsaqqallar onları həyatın küncünə sıxıb, dövlət başçıları isə onlarla öz şəxsi mülkü kimi davranır! Insandan başqa heç bir məxluq bu rəzilliyə dözməz! Bu rəzillik və köləliyin nəticəsidir ki, totalitar mühit bütün yer üzündə tüğyan edir! Elə totalitar mühiti təşkil edən əsas komponentlər də kölə olmaq, kölə etmək və ya kölə etdirməkdən doğan yalan, xainlik, paxıllıq, zorakılıq, binamusluq, yaltaqlıq və digər mənfi xarakterik xüsusiyyətlərin geniş yayılmasıdır ki, bu da mənəvi xaos və ya ekopatiyanın özüdür! Mənəvi xaos və ya ekopatiya da totalitarizmin əsası və özülüdür. Bircə ekopat minlərlə psixopata bərabərdir. Hər hansı bir xalqın başına hiylə ilə keçib total mühit yaradanlar ilk növbədə süni yolla mənəvi xaos, yaxud ekopatiya formalaşdırırlar. Mənəvi xaos olmasa onlar ya hakimiyyəti ələ keçirə bilməz, ya da hakimiyyətdə uzun müddət qala bilməzlər! Oğru və quldur olmasa polisə eytiyac olmayacağı kimi, mənəvi və sosial xaos da olmasa* ***«millət atası»****,* ***«xilaskar»****,* ***«ümummillilider»****,* ***«xalqlar atası»*** *və digər sosial maskalar taxan və ya taxdırılan millət aldadan ikiayaqlı buqələmunlara da yer olmaz! Gec-tez şotqabığ Nitşenin çürümə adlandırdığı prosesin vaxtı gəlib çatacaq və özlərini bəşəri xilaskar və millət atası kimi təqdim edən şarlatanların da maskası cırılacaq! Italyanlardan böyük Leopardi Cakomonun* ***«Epistolario»****sundan görün nə tapdım:* ***«Mənim orqanizmim soyuğa(şərə) öyrəşməyib. Mən gözləyirəm və ümidvaram ki, Xeyirin səltənəti bərqərar olsun!»*** *Totalitar şəraitdən qurtulmağın yeganə yolu supermenlikdən keçir! Əlbəttə uca Allah bir göz qırpımında bizi supermen edə bilər, lakin bu klassik və orjinal prosesə bizi şahid tutmaq və bizə bu bənzərsiz neməti pillə-pillə daddırmaq üçün öz yaradıcılığında uzunmüddətli metodu seçib. Bəli, xilas yolu yalnız bu olacaq ki, insanların böyük əksəriyyətini məhv edib passionar nüsxələri qoruyaraq qütb, qütbətrafı, ekvatorial və subekvatorial mühitlərdə məskunlaşdıracaqlar. Yalnız bu yolla tullantısız, katarsis*

*olmuş bəşəriyyətin varlığına şərait yaratmaq mümkündür. Uca Allahın da bizi yaratmaqda yeganə məqsədi supermenlər cəmiyyətinə nail olmaqdır. Supermenlər cəmiyyəti bərqərar olduqdan sonra hər bir ekosid və genosid törədən cinayətgar dövlət, qurum, təşkilat, fərd və etnosların da varlığına bir dəfəlik son qoyulacaq! Supermen yalan və yalançılara yağıdır! Totalitarizmin də əsası rəngarəng yalanlar üzərində kök atmış siyasətdir və ya siyasətdədir. Hər bir sənətdə həm mahir və professionallar, həm də fırıldaqçı, taftoloq və plagiatlar var. Ustalar həmişə çox az olsa da həmişə olub. Siyasət aləmində də Isgəndər Zulqərneyn, Davud, Məhəmməd salavatullah, Əli kimi pak və dürüst siyasətçilər olub. Lakin anadan müdrik doğulan bu fövqəlcanlılar siyasət aləmini nəzarətdə saxlayan və əsasını təşkil edən kəzzab(yalançı) və dəccallardan(fırıldaqçılardan) fərqli olaraq sözün əsl mənasında SIYASƏTÇILƏRDIR! Yalan danışmaq, yalanı həqiqət kimi təlqin etmək, söhbəti fırlatmaq və riyakarlıq etmək, ən əsası xalqını aldatmaq bu cür pak insanların "***mən***"*inə yad bir şeydir. Digər tərəfdən siyasət bu şəxsiyyətlər üçün həyatda heç vaxt birinci olmayıb. Bu şəxsiyyətlər yalançı siyasətçilərdən fərqli olaraq ədalətdən məhrum olan idarə etməni siyasət hesab etməyiblər. Siyasət kəlməsini işlətdikləri təqdirdə də buna başqa anlam veriblər ki, bu da ikiüzlülük, yalançı, fırıldaq, hiyləgər kimi çox pis mənaya malikdir! Anadan müdrik doğulan əsl SIYASƏTÇILƏR ramses, neron, müaviyə, qarun ər-rəşid, sultan salım, lenin, stalin, mao, buş, əbu ilo, putin kimi yalançılardan fərqli olaraq heç bir sərkərdəlik, qəhrəmanlıq məharəti göstərmədikləri, qətiyyən bunu bacarmadıqları və layiq olmadıqları halda ən yüksək hərbi rütbələrə sahib çıxmayıblar! Anadan müdrik doğulan pak ALIMLƏR də diktatorların yanında quyruq bulayan konfusi, qadi şureyh, ibn arabi, ibn baz, mirzə ibrahimoviç, şeytanşükür kimi yalançılardan fərqli olaraq nəinki heç bir alimlik və müdriklik qabiliyyətləri, hətta adi alim sifəti belə olmadıqları halda ən yüksək elmi rütbələrə sahib çıxmayıblar! Allah insanlar arasında zəka və mənəviyatca böyük fərq qoyur, insanlar isə hərbi rütbə, elmi dərəcə, vəzifə və digər aldadıcı vasitələrlə bu fərqi yox etməyə çalışırlar. Əsl ALIM və SIYASƏTÇILƏR heç vaxt həyati və tarixi acgözlük etmirlər. Çünki böyük olmaq üçün Allahın onlara verdiyi kifayətdir. Hakimiyyət və elm üçün doğulan insanlarla, bunları zor və ya hiylə ilə ələ keçirən cılız və mənəviyyatsız insanlar arasında çox böyük fərq var! Birincilər adətən əsli-kökü olan ailələrdən çıxırlar,*

*ikincilər isə çox zaman ən səviyyəsiz ailələrin məhsulları olurlar! Aristokrat və köklü ailələrin məhsulları hara, meşşan və lümpen mühit və ailənin məhsulu olmaq hara. Allah yaratıqlarının hər birinə, hətta şeytanlara da nemət bəxş edir. Lakin şeytanlar Allahın verdiklərini Allahın özünə qarşı istifadə edirlər! Allah nəmrud, ramses, müaviyə, mütəvəkkil, sultan səlim, lenin, stalin, mao kimi şeytanlara da böyük istedad, xalqların həyatına təsir edə bilmək qabiliyyəti bəxş etmişdi! Lakin bu şeytanlar Allahın nemətlərini Allaha qarşı istifadə edib ona asi oldular, leninin məşhur təbirilə desək "**biz tamam başqa yolla gedəcəyik!**" dedilər və getdilər də! Bu da coğrafi maddənin çirklənməsinə, yer mühitinin təbiilik dərəcəsinin azalmasına, canlı maddənin köklü deqradasiya olmasına gətirib çıxardı! Siyasət sənətlər içində təbiətə və təbiiliyə zidd olan bir nömrəli sənətdir. Ən böyük siyasətçi də təbiət və təbiiliyin ən böyük düşmənidir. Təbiəti və təbiiliyi uca Allah yaratmışdır. Sosial-siyasi mühiti isə iki ayaqlı virus və parazitlər! Totalitar mühiti də ikiayaqlı virus və parazitlərin liderləri yaradır! O, iki ayaqlılar ki, balaca bir addımı böyük problemdir! Çox təəssüf ki, indiyədək heç bir alim və filosof insanın ikiayaqlı parazit və virus olduğu həqiqətini ideal qəlibə salmamışdır. Bu barədə düşünənlər, mühakimə yürüdənlər olub, amma keçmiş mütəfəkkirlərin heç birinin bu acı həqiqəti sistemli şəkildə dillə etiraf və iqrar etməyə cəsarət və gücləri çatmayıb. Görünür ki, insan olduqları duyğusu onlara qalib gəlib. Kim bilir, bu acı həqiqət vaxtında etiraf edilsəydi, bəlkə bu gün bu qədər böyük problemlərimiz olmazdı! Indi insan artıq keçmiş dövrlərlə müqayisədə çox həyasızlaşıb! Bu gün həddindən artıq təkəbbürlü, lovğa, harınlamış, əxlaq nə olduğunu bilməyən və hətta quduzlaşmış insanlara bu acı həqiqəti qəbul etdirmək qeyri mümkündür! Hətta, biz özümüz də bu acı və açıq həqiqətin varlığına sevinmirik. Çünki necə olsa biz də bədənimizin qurluşuna görə* ***iki ayaqlıyıq****. Parazit və virus olmamaqda Allah bizə yardım edir, lakin çoxları bu yardımdan imtina edir! Parazit və virus olmamaq üçün səma qanunlarına iman gətirib saleh əməl sahibi olmaq vacib və lazımdır! Insanların çox az qismi kosmik qanunlara tabe olub iblisin təlqin etdiyi yırtıcı funksiyasını icra etmir ki, bu cür insanlar da daim təhlükə və sıxıntıya məruz qalırlar! Kosmik qanunları instiktiv olaraq inkar edən əksəriyyət, kosmik qanunları anlayan və ya onlara iman edən azlığa həmişə əziyyət vermişlər. Kosmik qanunlara bağlılığın yolu möminlikdən keçir.*

*Hətta, mömin olmaq da kosmik qanunlara bağlılığa kifayət etmir. Çünki saleh əməl olmasa möminlik heç bir pozitiv effekt verə bilməz! Digər tərəfdən şərəf və ləyaqəti, mərdliyi olmayan kəslərin iman gətirməsi heç bir xeyirli təsir göstərmir. Çox qısa müddətə beləlləri sadəcə münafiqləşirlər. Həm iman, həm də saleh əməldən məhrum olanlar superparazit və superviruslardır! Lakin heç olmasa bunlardan biri - ya iman, ya da əməl varsa, bu hal sadəcə parazitar haldır! Iman gətirib saleh əməl etməyənlər də parazitdir, virusdur, saleh əməlləri olub iman gətirməyənlər də! Bu tip insanlar da hər bir mühitdə ən azı potensial təhlükə mənbəyidir, amma şərrlilik dərəcəsi bir az aşağıdır! Hər kəs bilir ki, bizi yaradan və bizə hakim olan hər hansı* ***«baba»,*** *prezident və ya şah deyil! Bizi yaradan, bizə ruzi verən, haqq yolu göstərən və daim haqq üzrə olmağı tövsiyyə edən yeganə, bənzərsiz, hər şeyi bilən pak və müqəddəs Allahdır! Belə isə onu qoyub qullarınamı baş əyməliyik?! Bizi manqurtluq və zombilik bataqlığına sürgüləyən aftoritarist şeytanlar da bizim kimi qullardır, hələ üstəlik canlıların ən pisidirlər! Adi bir qul və ya məxluqu bütə çevirmək bir günahdırsa, bu cür mufsidləri bütləşdirmək qat-qat böyük günahdır, imansızlıq, şərəfsizlik və ləyaqətsizliyin kulminasiya nöqtəsidir! Canlı büt bütlərin ən şərlisidir. Şüurlu büt də canlı bütlərin ən şərlisidir. Bu cür bütlərin zülmü və ya bütçülüyü qarşısında susmaqla qəlbimizdə Allaha sevgi və imanı dəfn etmiş oluruq! Bunu bizdən qabaq almanların böyük oğlu, şotqabığı ilə məşhur olan Nitşe də dərk etmişdi. O, bir-çox əsərində, xüsusən də* ***«Şən elm»****də* ***"Allahın ölməsi"*** *və ya insanlar tərəfindən öldürülməsini söyləyərkən, Allah ideyasının, Allah inancının insan qəlbindəki qətlini və onun yerinə uydurduğumuz bütləri yerləşdirdiyimizi nəzərdə tuturdu. Mən onun düşüncə tərzi və ideya aləminə mükəmməl şəkildə bələd olan filosof kimi qətiyyətlə deyə bilərəm ki, Nitşenin bu cür ifadələrini cımbızlayıb onu ateist və hətta, antiteist kimi qələmə vermək ən azı cəhalətdir. Beləlləri Nitşenin ruhuna bələd olmayan zırramalardır. Təkcə Nitşe deyil, ruhi imkanlarını səfərbər edə bilən hər kəs bu və ya digər şəkildə bütpərəstliyə qarşı çıxmışlar. Çünki insan Allahın ona şah damarından daha yaxın olduğunu anlamadıqca Allah onun üçün heç vaxt* ***HƏYY***[79] *ola bilməz! Müasir insan keçmiş bütpərəstlərin büt anlayışına təkəbbürlə lağ etsə də, öz bütpərəsliyinin daha intensiv və*

[79] ***Allahın gözəl adlarından biri olub həmişə yaşayan, əbədi həyat sahibi mənasını verir.***

*daha böyük olduğunun fərqinə varmamışdır! Qədim dövrlərin məbəd kahinləri, fironlar, kral və çarlar, hansı ki, Allahın yer üzündəki şərikləri hesab olunurdular, bu gün də mövcuddur. Lakin bir az müasir formada. Günümüzün bütpərəstliyi əsasən modern bütpərəstlikdir. Bu gün qədim dövrün məbəd kahinlərini roma papası, arxiyepiskoplar, hüccətülislam və şeyxulislamlar; fironları, kral və çarları isə prezidentlər, toplum və təşkilat rəhbəri olan baronlar və böyük biznesmenlər əvəz edir. Eynilə biz məhz bu cür insanlara əfəndi, ağa, cənab və başqa müqəddəs ifadələrin şamil edilib mədh olunduğuna şahid oluruq! Keçmişdə daşdan yonulmuş bütə səcdə necə adi hal almışdısa, bu gün hər hansı bir prezident, kral, baron və biznesmen qarşısında əyilmək də çox adi və hətta inkarı eyib sayılan hal almışdır. Şübhə yoxdur ki, bütpərəstliyin inkişafında qorxaqlığın əlahiddə rolu var. Müasir insan keçmiş insandan daha çox ölümdən qorxur. Halbuki ölümdən qaçmaq qeyri-mümkün və hətta axmaqlıqdır. Ən çox qorxulmağa layiq sadəcə ölmək yox, şərəfsiz və imansız ölməkdir! Filosof qardaşım Monten necə də gözəl deyir:* ***«Ölüm insanı hər bir borcdan azad edir. Amma bircə şərəfsiz ölmək günahını onun üzərindən götürə bilmir!»*** *Mən Montenin bu əbədi aforizminə* ***«imansız ölməyi»*** *də əlavə edərdim. Nə qədər ki, şərəfsiz və imansız ölmək qorxusu sosial xarakter daşımır, fiziki ölüm qorxusu bəşəriyyəti öz ağuşuna alıb aparacaq. Zülm qarşısında, canlı büt qarşısında, zorbalıq qarşısında susmaqla müasir insan yalnız bütpərəstliyin inkişafına təkan verir. Əslində biz bu günkü zülm qarşısında susmaqla sabahkı zülmün daha da şiddətli olmasına səbəb və vəsilə oluruq! Məsələn, dahi fitnəkar yeni müaviyə* ***«baba»****nın zülmünə dözdük, nəticədə atasından qat-qat zalım, əxlaqsız və yaramaz olan qumarbaz yeni yezid* ***"qaqa"*** *bizə müsəllət oldu və zülm etməkdə, ölkəni korrupsiya, məmur özbaşınalığı və monopoliya bataqlığına sürükləməkdə nəinki atasını, ətraf mühitdəki bütün diktatorları arxada qoydu! Əgər səbr maskası taxmış və ya taxdırılmış dözüm ənənəsinə son qoymasaq bizdən sonra dünyaya gələnlərə anadan kölə doğulmağı nəsib edəcəyik ki, bunun da nəticəsində yeni məysun* ***"bibi",*** *yaxud onun bir bənzəri bizə müsəllət olacaq! Zalım elə bir şeydir ki, vaxtında və yerində məhv edilməsə çox böyük və qarşısı alınmaz fitnə-fəsada(ekosid və genosidlərə) yol açır! Zalım və zülm totalitarizmin əsası, məzmunu və mahiyyətidir! Ağlı başında, vicdanı da qəlbində olan heç kim totalitar mühitin nə varlığını dana*

*bilər, nə də varlığına dözə bilər! Diletant və təkəbbürlü cahillərin özlərini alim və ya təbiətşünas kimi təqdim və təbliğ edib yorucu və məzmunsuz çıxışlarıyla, dəyərsiz, taftalogiya və plagiatlıqdan başqa bir şey olmayan kitab və məqalələrilə insanları aldatmaları onların da masqalanmış, eleqant geyimlər altında gizlənmiş ikiayaqlı parazitdən başqa bir şey olmadığını göstərir! Bu içi boş insanların varlığı və fəaliyyəti yalnız totalitarizm və modernizm çörəyinə yağ çəkməkdən ibarətdir! Doğma yurdumda nəinki elm sahəsində, bütün sahələrdə bu cür keyfiyyətsiz məxluqların monopoliyası hakimdir! Dünyanın əksər ölkələri, xüsusən postsovet məkanının xalqları elə bizim kimi bədbəxtlik və köləlik dənizinin dalğaları arasında əbədi qərq olublar! Əbədi köləlik kimi böyük bəlaya düçar olmaq istəməyən xalqlar, o cümlədən bizim xalq bir saatlıq azadlığı bir əsrlik köləlikdən üstün tutmalı və bu yolda qurban verməkdən çəkinməməlidir! Azadlığı yolunda vuruşan da, ölən də, öldürən də azaddır! Totalitarizm yolunda çalışan, vuruşan, ölən və öldürən də kölədir! Bu köləlik ənənəvi anlamda başa düşülən köləlikdən fərqlənir. Bu köləlik namusunu, mənəviyyatını, imanını itirmişlərin köləliyidir! Belələrinin nə yaşamağa haqqı var, nə də bizim onları yaşatmağa haqqımız var! Rəsulullah bu cür fitnə-fəsad törədənlərin ölümü barədə buyurur:* ***"Facir(zalım) bir qul gəbərdiyi zaman heyvanlar, bitkilər, ölkələr, bütün qullar rahatlıq taparlar!"(Müslim, Cənaiz, 61)*** *Heç şübhəsiz ki, zorba və mufsid bir insanın, yaxud ailənin digər insan və canlılar üzərindəki diktaturası bütün canlı növlərini, xüsusilə də miskin və məzlumları narahat edir! Deməli, nicat yolu belələrinin dünyadakı həyatının sona çatması ilə ən azı dolayı bağlıdır. Bir düşünün ki, sezar, neron, müaviyə, yezid, urban, lenin, stalin, hitler, mao tsezedun, əbu ilo və digər bu kimi qlobal cinayətkarlar vaxtında* ***"metroya"*** *yola salınsaydı dünyanın taleyi necə olardı?! Bu qədər sosial katastroflar, genosidlər, ekosidlər baş verərdimi?! Əsla yox! Totalitarizm vulkandır, sunamidir, zəlzələdir, qasırğadır, daşqındır, meteor yağışıdır, ən azı leysandır, uçqundur, sürüşmədir, fırtınadır və yaxud bedlend yaradan faktrordur! Biz totalitar sistemi təbii* ***«katastrof»****lara bənzətsək də əslində ən böyük və əsl katastrof totalitar mühit və onu yaradanlardır! Totalitar mühit yer üzünün ən qorxunc xəstəliyidir. Bu elə bir xəstəlikdir ki, hər hansı individin nəinki hiss və fikirlərinə nəzarət edir, hətta təbii davranışına da müdaxiləyə qadirdir. Belə vəziyyətdə nəinki təbiəti mühafizə sahəsində, incəsənətdə,*

*ədəbiyyatda, xüsusilə tənqid sahəsində totalitar rejimin istək və tələblərini yerinə yetirməli və bunlara uyğunlaşdırılmış həyat yaşamalı* olursan! *Totalitar mühit kişilərin və kişiliyin həm gizli, həm də aşkar düşmənidir. Totalitar və ya despotik mühit kişilərin qənimi, kişiliyin qayçısıdır. Bütün böyük zalımlar* onlara *müxalif* olan *həqiqət tərəfdarlarının kişilərini öldürüb qadınlarını istismar üçün saxlamaqla məşqul olmuşlar! Firon ramsesin yəhudilərin başına gətirdikləri məşhurdur. Təsadüfi deyil ki, diktatura şəraitində qadınların və qadınabənzər kişilərin qabağa verilməsi, hətta böyük vəzifələrə təyin edilib dövlət məmuru kreslolarında əyləşdirilmələri dəb xarakteri alır. Çox yerdə* orta *və kiçik vəzifəli işləri də qadın və* ***«kişilərə»*** *həvalə edirlər. Axı istənilən qadını və* ***«kişini»*** *gözəl bir hədiyyə ilə, yaxud komplimentlərlə ram etmək, aldatmaq, firlatmaq, sındırmaq və ya əymək* olar! *Amma əri, igidi, qəhrəmanı, bir sözlə əsl kişini öldürmək* olar, *amma sındırmaq və əymək* olmaz! *Çox əfsus ki, dəyəri təbii landşaftların, təbii komplekslərin, günəşin, ayın, ulduzların dəyərindən də böyük* olan *əsl kişilər yoxluğa məhkumdur! Təəssüf ki, hər bir sahadə olduğu kimi siyasət sahəsində də yalançılar çox və hakimdir! Elə buna görə də hər bir ekoloq ixtiyari siyasətçiyə ən azı* potensial *düşmən kimi baxmağa borcludur. Modern alimlərin əksəriyyəti səthi, lovğa və təkəbbürlü, lovğa, şöhrətpərəst və təkəbbürlü olmayanların da çoxu qorxaq, naşı və* nankordur! *Ən pisi odur ki, qlobal problemlərin əsasını qoyanların bir qismi də haqqı deməyən alimlərdir. Bu alimlər geosistemdəki ekosid və genosidlərə görə həm Allah, həm təbiət, həm də bəşəriyyət qarşısında cavab verməli olacaqlar. Kosmik qüvvələr elmi kəşflərə yer üzündəki bütün canlıların maraq və mənfəətlərini nəzərə alaraq şərait yaratdıqları halda, modern və harınlamış insan nəinki digər canlıların, hətta öz həmnövlərinin də çoxunun elmi-texniki nəaliyyətlərdən bəhrələnməsinə imkan vermir! Ən böyük və* universal qlobal problem olan *totalitarizmin ən böyük təzahürü özünü atom-nüvə müharibəsi təhlükəsində daha qabarıq göstərir.* Antropoetatik sistemlər *arasında* atom-*nüvə silahı əldə etmək və mükəmməlləşdirmək uğrunda amansız mübarizə gedir. Bu mübarizədə* qurban *gedən əsasən şudralardır. Elm və texnika adamlarının kəşfləri, nəaliyyətləri əsasən şudralara xidmət üçün hesablansa da, bunlardan yalnız diktatorlar, böyük baron və biznesmenlər və hərbi aristokratiya nümayəndələri lazım olduğu kimi istifadə edə bilirlər. Kasıb təbəqə, sıravi insanlar elmi-texniki*

*nəaliyyətləri ən yaxşı halda televiziyada görə bilir. Adamı elə yandıran da budur. Ən dəhşətlisi isə hakim siyasi liderlərin qabağında* ***«quyruq»*** *bulayan diletant və passeist intilligentlərin, vicdansız alimlərin hər sahədə olduğu kimi təbiətşünasılıq sahəsində də at oynatmalarıdır! Özlərini utanmadan ekoloq kimi təqdim edən təbiət və təbiilik düşmənlərinin bu riyakar halları qarşısında dözmək bizim üçün çox çətindir! Ey üzdəniraq səthi ekoloqlar! Siz torpağı, suyu, havanı və özünüzü çirkləndirən mənbələrin fəaliyyətinin tamam dayandırılmasına vaxt itirmədən nail olmaq əvəzinə gözləyirsiz ki, hər hansı bir ərazi neft, monokultura, meşələrin kütləvi qırılması və ya yandırılması, müharibələr, dahilərə sui-qəsd, fahişəlik və digər qlobal problemlər nəticəsində büsbütün erroziya və deqradasiyayaya uğrasın, sonra da siz simpozium və ya konferanslar təşkil etməklə canfəşanlıq reklam edərək məzmunsuz, taftaloji və plagiat leksiyalarınızla* ***"problemlərdən çıxış yollarını"*** *göstərəsiz?! Əsl təbiətşünas, əsl ekoloq meşələrin qorunması, təmiz hava, su və qida, tükənmək üzrə olan qaynaqların adil istifadəsi və xüsusilə də totalitarizmin birdəfəlik məhv edilməsi yolları barədə gecə-gündüz düşünüb ekopnevmatik və ya pnevmaekoloji dəyərləri kamil və praktiki şəkildə dərk etməlidir! Həqiqi alimlə yalançı alimin hal və sifətləri də bununla bilinir. Kommunizmin banisi marksı sevməsəmdə hər-halda onun bu sözlərilə razılaşmamaq olmaz:* ***“Praktikadan təcrid edilmiş heç bir fikrin dəyəri ola bilməz. Praktikadan təcrid edilmiş hər bir ideya absurddur!”*** *Həqiqi alim boşbağazlıq etməyi xoşlamır. O daim problemləri çözmək barədə düşünür və düşündüklərini də daim həyata keçirməyə və bununla ətraf mühitə fayda verməyə çalışır. Despot və totalitar mühit mane olmasa əsl alimlər millət, təbiət, ümmət və bütün kainat üçün çox iş görərdilər! Totalitar mühit təşkilatçıları, xüsusilə liderləri bu nüsxələri incitmək, sıxmaq, ictimaiyyətdən təcrid etmək və nəhayət aradan götürməklə ətraf mühit üzərində nəzarəti öz əllərində saxlamağa çalışırlar. Totalitar rejimə Imam Əli, Hicr bin Adiy, İmam Hüseyn, Əbu Hənifə, Zeynuddin bin Əli, Etibar Elkin kimi oğullar sərf edə bilməz! Sərf etmiş olsa belə bu uzun sürə bilməz! Çünki həqiqi hərbiçi, alim və siyasətçi qorxaq, plagiat və dəccal* ***"sərkərdə", "alim" və "siyasətçi"****lərdən fərqli olaraq tez və ya gec totalitar mühitin mahiyyətinə vara bilir! Bu cür nüsxələr sözün əsl mənasında ayılmış nüsxələrdir. Ayılmış nüsxə yatmış cəmiyyətdə daim səs-küy salır. Bu*

*səs bizim hər gün eşitdiyimiz səslərdən deyil, müqəddəs daxili səsdir, ayılmış nüsxələrin dəyəri və yeganə ümid yeridir. Əgər biz hamılıqla ayılmasaq böyük Sabirin böyük və məşhur ironiyasına layiqik:*

***Səs eləmə, yatanlar ayılar, qoy hələ yatsın!***
***Razı deyiləm, yatmışları kimsə oyatsın!***

*Sabirin bəhs etdiyi səs bolşeviksifət danabaşların təfsir etdiyi zurna-balaban səsi deyil, Sokratın bəhs etdiyi daxili səsdir!*

*Totalitarizmin zirvəsi olan diktatura etnosun kosmik xarakterini modifikasiya və hətta inversiya edərək çox böyük sösial və pnevmatik(mənəvi) problemlərə bais olur. Çünki hər hansı bir etnos üzərindəki hakimiyyət bir şəxs və ya bir ailə və ya bir klanın əlində və ya nəzarətində olmamalıdır. Əfsus ki, bizim cəmiyyətdə həm şəxs, həm ailə, həm də klan diktaturası hökm sürür. Şarl de Monteskyö çox dəqiq təsbit edib:* ***“Əgər qanunverici və icraedici hakimiyyət bir şəxsin, yaxud klanın əlində birləşsə, bu zaman azadlıq olmayacaq. Belə ki, bu hökmdarın, yaxud senatin müstəbid qanunlar yaradacağı və bunları müstəbidcəsinə tədbiq edəcəyi təhlükəsi yaranacaqdır!"*** *Jan Jak Russo isə aftoritar və despot hakimiyyəti belə vəsf edir:* ***“Əgər mən indiyə kimi rədd etdiklərimlə razılaşsaydım, despotizmin tərəfdarları bundan çox az şey qazanardılar. Kütləni özünə tabe etməklə normal cəmiyyəti idarə etmək arasına çox böyük fərq var. Əgər insanları növbəylə bir nəfər əsarətə alırsa, mən onların miqdarından asılı olmayaraq burada xalqı və onun başçısını deyil, yalnız ağanı və qulu görürəm! Bilmək istəyirsinizsə bu birlik deyil, insan yığnağıdır. Burada nə ümumi nemətlər var, nə də siyasi orqanizm. Bu cür insan hətta dünyanın yarısını əsarət altına almış olsa, vur-tut fiziki şəxs olacaq, onun digər insanların mənafeyindən ayrılmış mənafeyi vur-tut şəxsi mənafe olacaq. Əgər bu insan həlak olarsa o zaman onun dövləti də dağılacaqdır, necə ki, alovun yandırdığı taxta dağılıb külə çevrilir!"*** *Əgər etnik sistem etatik sistemdən razı qalırsa və yaxud etatik siyasətə adaptasiya olursa bu zaman etnos DAOdan kənara çıxır. Bu barədə uca Allah buyurur:* ***"Bu cəzanın səbəbi budur ki, bir etnos özlərində olan gözəl əxlaq və xüsusiyyətləri dəyişdirmədikcə, Allah da onlara verdiyi nemət və gözəllikləri dəyişdirməz!"(Ənfal, 53)*** *Dövlət və ya hakimiyyət diktaturasına dözən və ya bu zülmü haqq bilən hər bir xalq və ya*

*toplum müxtəlif kosmik bəlalara düçar olur. Yaradan buyurur:* ***"Başınıza gələn hər bir bəla öz əllərinizlə etdiklərinizə görədir! Buna baxmayaraq Allahın əfvi genişdir!"(Şura, 30)*** *Bəli, Allahın əfvi genişdir və əfv olunmaq üçün zülmə qarşı ən azı sözlə və ya bəddua ilə çıxmaq vacib və lazımdır! Totalitar mühitin ən böyük fitnəsi hər şeyin yaxşı olduğu və ya hər şeyin yaxşılığa doğru daha da inkişaf etdiyi, mövcud şəraitlə barışmaq və yaxud zülmə etiraz etməmək fikrini idrakına tam nəzarət edə bilməyən insanlara təlqin və təbliğ etməsidir. Bu yolda homer, konfusi, avqustin, iohan dəməşqi, qadı şureyh, əvzai, matrudi, qazali, dante, kondorse, kalvin, ouen, ət-təmimi, cövdət paşa, lenin, stalin, ibn baz və digər minlərlə yalançı alim və mütəfəkkir həqiqətlərlə qarışdırılmış yalanlarla totalitarizm* ***"dəyirmanına"*** *lazım olan qədər* ***"buğda"*** *tökmüş və tökməkdədirlər! Bu tip alimlər(əgər bunlara alim demək mümkünsə!) üçün istənilən əqidə vasitə ola bilər. Əfsus ki, bu tip şarlatanların ən çox vasitə etdiyi din olmuşdur. Biz deyəndə ki, insan təbiəti etibarı ilə ən azı neytraldır, hər halda yaxşı deyil, təkamülçü şarlatanlar bizə ağız büzür, özlərində bizə qarşı ikrah hissi yaradırlar! Əlbəttə, şarlatanın hər hansı bir narahatlığı yaxşı əlamətdir! Çünki bu haqqın batilə təzyiqindən doğur! Hər şeyin tərəqqi etdiyi fikrində olan şarlatanlara bizdən əvvəl də mübarizə aparıb haqq sözünü deyən alimlər olub. Böyük Hun filosofu Syun-Tszı eramızdan təxminən 800 il əvvəl bu həqiqəti belə izah edirdi:* ***«Öz təbiətinə görə insan bədxahdır. Onun xeyirxahlığı əməli fəaliyyəti nəticəsində yaranır. Insan qazanmaq, əldə etmək kimi instinktiv arzu ilə doğulur. O, bu arzu ilə yaşayıb ona əməl edirsə nəticədə talan etmək, soymaq meyilləri inkişaf edir və güzəştə getmək istəyi yoxa çıxır! Insan paxıllıq və bədxahlıq hisslərilə doğulur! Əgər bu cəhətlərdən ayrılmırsa nəticədə amansızlıq və xəyanət baş qaldırır, səmimiyyət və sədaqət yoxa çıxır!»*** *Syun-Tszı bu sözlərilə Ratseli, Nitşeni, Ritteri, Şpenqleri 2500 il qabaqlayaraq həm antropologiyanın, həm də siyasi coğrafiyanın ilk aksiomlarını yaratmışdır. Hələ vaxtı ilə Platon yazırdı ki,* ***"hər bir adamda hansısa qorxunc, qanunsuz və vəhşi bir arzu yaşamaqdadır!"*** *Bu elə həmən şeydir ki, Allahın sonuncu nəbisi Məhəmməd əleyhissalam onu insanın daxilindəki şeytan adlandırırdı. Insanın şeytanlaşması, öz şeytani arzularına tabe olması və bunun da nəticəsində yer üzündə müharibə və konfliktlər törətməsi, hələ üstəlik bütün bu iyrəncliklərə xeyirxahlıq və xilaskarlıq donu geyindirməsi*

*Syun Tszı və onun kimi düşünən hər bir alimin haqlı olduğunu göstərir. Bu fikir Quranın məntiq və fəlsəfəsinə də uyğundur. Uca Allah buyurur:* ***"Həqiqətən insan çox aqressiv(destruktiv) yaradılmışdır! Ona bir pislik üz verdikdə fəryad qoparar. Ona bir xeyir nəsib olduqda isə xəsis olar. İbadət edənlər istisnadır. O kəslər ki, daim ibadət edirlər!"(70/19-23)*** *Aqressiv və destruktiv* ***"mən"****dən qurtulmaq üçün yalnız bir yol var – böyük Yaradana itaət və ibadət etmək! Yəni saleh olmaq! Bunu mən yox, böyük Yaradan özü deyir. Təbiətə və içindəkilərə zülm və əzab verən yeganə məxluqdur zalım insan! Bu ad ona yaraşmasa da, hər halda bu adı ona veriblər və o belə adlanır. Faciəvi, dağıdıcı, eyni zamanda zəif və ağılsız bir fiqur olan insan! Insan – totalitarizmin obyekti və subyekti! Yer üzündə haqsızlığa qarşı mübarizələrin təməlləri üzərində qurulmuş elə bir ideya yoxdur ki, bu iyrənc və təhlükəli sistemə - totalitarizmə qarşı müharibə elən etməsin. Islam ideyası bütün bu ideyaların başında gəlməkdədir. Böyük insan, sonuncu Nəbi Məhəmməd salavatullah da total mühitə qarşı çıxan insanların ən böyük lideridir. Ondan* ***«cihadın ən üstünü hansıdır?»*** *deyə soruşduqda buyurmuşdu:* ***«Allah yanında ən üstün cihad zalım hökmdarın üzünə haqqı söyləmək və buna görə qətl edilməkdir!»*** *Rəsulullahın mübarək dilindən çıxan bu haqq çağırışa əməl edənlər varmı?! Bizim məmləkətdə bəlkə heç bir nəfər də tapılmaz! Bu da təbiətdən və təbiilikdən məhrum olmağın nəticəsidir. Əgər demokratlara görə zalım hökmdarlar tiran adlanırsa, Islama görə əsl canlı büt olan zalım dövlət başçıları tağut adlanır! Tağut və ya tiranlara və ya mufsidlərə qarşı mübarizə aparmaq qəlbində zərrəcik qədər vicdanı, insafı və imanı olan hər kəsin borcu və vəzifəsidir! Yer üzündə sosial azadlıq mövcud olmayana kimi qlobal problemlərin çözülməsindən danışmaq ya səfehlikdir, ya da bir daha bəşəriyyəti aldatmaqdır! Sosial azadlığa da yalnız o zaman nail olmaq olar ki, kosmik qanunlara sosial formada və dövlət səvyəsində könüldən itaət edilsin. Kosmik qanunlara itaət etməyən hər bir fərd, hər bir xalq və hər bir dövlət yoxluğa məhkumdur. Bu gün zülm və haqsızlıq bütün dünyaya sirayət etmişdir. Bəşəriyyət qlobal halda zülm və fəsad dənizinin dalğaları arasında qərq olmuşdur! Təbii və fitri olan nə varsa zalım hökmdarların siyasi oyunlarına qurban getmişdir! Məsələn, narkobaronların himayəsilə abşda hakimiyyətə gələn buşun verdiyi bir qərarla əfqanıstan və iraqın ekosistemi məhv olub getdi! Mufsid buş əfqan xalqını və*

*əfqanstan ekosistemini məhv etmək üçün çoxları üçün məchul subyekt, müsəlmanların Spartakı Usamə bin ladeni bəhanə etdiyi kimi, Iraq xalqının genfondunu məhv edib təbii sərvətlərini talamaq üçün də özü kimi mufsidbaşı səddamı bəhanə etdi! Iraqı işğal etməklə yalnız və yalnız neft və qaz ehtiyatlarının sayını artırmaq və bu təbii sərvətlərdən uzunmüddətli istifadəni təmin etmək məqsədi güdülürdüsə, əfqanıstanın işğalında tamam başqa məqsəd vardı! Dindar taliblər böyük zəhmət bahasına əfqanıstanda kriminal hakimiyyəti devirmişdilər. Bunun ən ağır nəticəsi narkotik ticarətinin liderlərinə dəyirdi. Çünki taliblər narkoplantasiyaları məhv edir və narkotik maddələrin dünyaya sərbəst yayılmasına imkan vermirdilər. Düzdür, arada özləri də narkotik qəbul edib uysalar da, narkomaqnat və narkobiznesmenləri ağır şəkildə cəzalandırırdılar. Bunu görən böyük narkobaronlar buş kimi bir məlunu abş-da hakimiyyətə gətirmək üçün hər cür vasitələrə əl atdılar və nəhayət arzularına çatdılar! buş da narkobaronların arzularını canla-başla yerinə yetirdi. Dəccal buş havadarları ilə bahəm abş dövləti və havadarlarının satanik xislətini anlayan və modernizmi qəbul etməyən müsəlmanları terrorist, bandit, cani və başqa vandal və barbar terminlərlə damğalamağa, bu yalan və böhtan daşıyan damğaları nəinki qərb dünyasına, büsbütün bəşəriyyətə həqiqət kimi təqdim, təlqin və təbliğ etməyə nail oldu! Xülasə, bircə siyasi istəyin gerçəkləşməsi kifayət etdi ki, əfqanistan və iraq ekosistemi məhv olsun! Görkəmli tarixçi Kreveldin sözlərilə desəm, **“bu proses bizi orta əsrlərə aparır. İmperatorun yerində abş prezidenti, roma papasının yerində isə bmt-nin baş katibi durur! Orta əsrlərdə olduğu kimi prezident hərbi qüvvəyə malikdir. Baş katib isə ictimai rəy üzərində hökmran olmağa cəhd edir!”** Orta əsrlərdə imperator və sultanlar öz zülm və təcavüzlərinə dini don geyindirmək üçün papa və şeyxlərdən necə istifadə edirdilərsə, istədikləri fətva və qərarları ala bilirdilərsə, bu gün xüsusi olaraq abş imperiyası da bmt-dən istədiyini ala bilir. Modern imperiya olan abş bmt-dən vyetnamda, kosovada, küveytdə, somalidə, iraqda, xüsusilə əfqanıstanda **“terrorçulara”** qarşı müharibə aparmağa **“icazə”** istəyir və heç bir zaman onun istəyi rədd edilmir, ən pis halda bir az yubadılır! Modern imperiya qloballaşma, qlobal təkamül adı altında min oyundan çıxır! Sorrel demişkən, **“dünya qloballaşmır, dünya amerkanlaşır!”** Bu söz o qədər böyük həqiqətdir ki, buna şahid olmaq üçün sadəcə ətraf*

*mühitdə təkcə yelbeyin qadınlarımızın davranışına, geyim tərzinə, abşın bar və kazino fahişələrini, pornoulduzlarını manqurtcasına necə təqlid etdiklərinə nəzər salmaq kifayət edər! Az qala bütün dünya amerikan paltarı geyir, amerikan video və filmlərinə baxır, qamburger yeyir, amerikan porno kanallarını seyr edir və s. Budur bizim cəhd etdiyimiz modernizm və ya amerkanizm! Vaxtı ilə Roma imperiyasının bəşəriyyətin və bütün dünyanın başına gətirdiklərini, bu gün abş imperiyası modernizm qəlibində davam etdirir. Əski zamanların roması digər etnos və dövlətlərin haqlarını barbar, qul, vandal damğaları ilə əllərindən necə alırdılarsa, bu gün yeni roma olan abş terrorist, bandit, separatçı, antidemokrat və digər damğalar vuraraq məzlum və zəif xalqlara təcavüz edir. Keçmişdə təkcə roma şəhərinin sərvəti bütün digər xalqların birlikdə malik olduğu sərvətdən qat-qat çox olduğu kimi, bu günkü kasıb xalqların da sadəcə normal amerikanlı kimi yaşaması üçün, dərin tədqiqatçıların hesablamalarına görə 4 yer planeti lazımdır. Ən az sərvətə malik abş milyarderi ən azı Afstraliya qitəsini saxlaya biləcək sosial-ekonomik qüdrətə malikdir. Dünyanın ekonomik mərkəzinə birbaşa abş nəzarət edir ki, bu heç kimdən gizli deyil. abş-ın köləsi olan bmt özü etiraf edir ki, abşın ailə-klan milyarderlərinin, başqa sözlə modern qarunların illik gəliri yer kürəsi əhalisinin illik gəlirinin yarısından çoxdur. Məlum olduğu kimi ətraf mühitdəki qlobal problemlərdən biri də sürətli əhali artımı ilə bağlıdır. Bu problemin dərin analizi göstərir ki, əgər əhali artımı mövcud sürətlə davam etsə XXI-ci əsrin ortalarında insan sayı təbii sərhəddi keçəçək. Bunun da nəticəsində həm əhalidə, xüsusi ilə qərb sivilizasiyası əhalisində, həm də sərmayədə qarşısı alınmaz xaotik bir azalma özünü göstərəcəkdir. Hər baxımdan sərhədli və tükənən dünyada yaşadığımız üçün sürətli artım əvvəl-axır bu sərhədlərin biri və yaxud da bir neçəsini keçməlidir. Siyasi iqtisadda bu problemdən çıxış yolu kimi* ***"sabit vəziyyət"*** *anlayışı irəli sürülür. Bu anlayış əhali artımı və azalması arasındakı təbii tarazlıq və balansı ifadə edir. Başqa dövlət və xalqları artmağa, varlanmağa və inkişaf etməyə qoymamaq birbaşa abş-ın marağındadır. Axı, qərbin, xüsusən də abş-ın harınlamış lyuks və modern həyat şəraitini cənubi amerika və afrikanın yoxsulları vasitəsilə banan, ananas və digər tropik meyvələrlə, bədəvi və savadsız ərəblər vasitəsilə də qaz və neftlə təmin etmək lazımdır! Braziliyalı və ya sudanlı varlanarsa, bədəvi ərəb maariflənərsə, iran nüvə silahı əldə edərsə qərbi, xüsusilə də abş-ı nə*

*gözləyər?! Braziliyalı və ya ekvadorlunun hər üç bananından ikisi mütləq amerikanlıya çatmalıdır! Afrikada saysız-hesabsız canlı resursların tələf olunması hesabına başa gələn platin, qızıl, tantal və digər metallardan hazırlanan zinət əşyaları amerika və avropa fahişələrinin məhrəm yerlərindən asılmalıdır! İran nüvə silahı əldə etsə qərbin artıq sahib olduğu nüvə silahları ilə təhdid edərək şərqə nəyisə zorla qəbul etdirə biləcəyi ən azı sual altında olar! Bu gün qlobal problemlərin ortaya çıxmasında ən əsas səbəb və faktorun Qərb mədəniyyətinin Renessans sonrası malik olduğu düşüncə çevrilişinin səbəb olduğunu Qərb alimlərinin də çoxu dərk edir. Qərbin məşhur siyasətşünası Hantinqton əbəs yerə demirdi:* ***"Qərb beynəlxalq qurumlardan, hərbi qüdrətindən və iqtisadi ehtiyatlarından istifadə edərək öz üstünlüyünü saxlamaq, maraqlarını qorumaq və iqtisadi və siyasi dəyərlərini yaymaqla dünyanı idarə etməyə çalışır!"*** *Frobenius necə də doğru söyləmişdir:* ***"Bütün xalqlar Qərb mədəniyyətinin zülm və istibdadı altında çabalayır!"*** *Toynbi də qərbin istibdadını dünyadakı xaosun əsas səbəbi hesab edirdi. Lukaçın bu sözləri məşhurdur:* ***"Bizi Qərb sivilizasiyasının boyunduruğundan kim xilas edəcək?!"*** *Qonşumuz olan rusiya imperiyası da necə deyərlər* ***"az aşın duzu"*** *deyil, amma abş-a çata bilməz! Çünki abş sindiromu qlobal miqyaslı yeganə dini, etnik, etik, ekonomik, ekoloji, politik, bir sözlə kompleks və sistemli sindiromdur! Birinci qərbin, ikinci də slavyan-monqol bici sindiromunun* ***"xoşbəxtlik"*** *yolundakı arzu və tələbləri bütün yer üzünü girinci-giriftar edib! Açıq-aydın görsənir ki, son üç əsrdə Yer üzündəki etnoaftoritarizmin iki səbəbkarı var: abş və rusiya!..Bəşəriyyətin bu aciz və xaotik vəziyyətini fürsət bilən abş istəyir amerkanlaşaq, rusiya da istəyir ki, ruslaşaq! Məşhur sadəlövh Nizaminin məşhur misralarına bir balaca əl gəzdirmək yetər ki, bugünkü reallıq tam ifadə edilsin:*

***Qüvvət zordadır, başqa cür heç kəs,***
***Heç kəsə üstünlük eyləyə bilməz!***

## $3.2.Ətraf mühit ekosofiya və ekoetika baxımından

XVI və XVII-ci əsrlərdə təbiət elmləri böyük sürətlə inkişaf edirdi. Elmlərin texniki tapıntılar yolu ilə sosial həyata bəxş etdiyi pozitiv nəaliyyətlər, XVIII-ci əsrdə Avropa cəmiyyətlərində tərəqqi ideya və inancının formalaşmasına geniş zəmin hazırladı. Artıq XIX-cü yüzillikdə texnologiyanın baş gicələndirici inkişafı insanların təbiəti sömürməsinə müthiş bir sürət verdi. İnsanın malik olduğu texnoloji qürur hissi durmadan intensivləşirdi. Elmi-texniki tərəqqinin verdiyi sərxoşluqla insan nəinki ətraf mühiti, hətta öz daxili mühitini də unutmuşdu. Nasrın sözlərilə, modern insan kim olduğunu unutduqda, təbii mühit üzərində hegemon olmaq, ətraf mühiti kontrol etmək adına etdikləri ətraf mühiti boğmağa çevrildi! Dünyanın bir-çox sirrinin çoxdan açılmasına baxmayaraq, dünya və içindəkilərin tükənən, azalan və bitəcək sərvətlərdən təşkil olunduğu sosial şəkildə XX-ci əsrdə dərk edilməyə başlandı. Halbuki bu əsrin başlanğıcında XX-ci əsrin elm və texnika, ağıl və məntiq, bolluq və sevinc dövrü olacağına inanırdılar. Üstəlik elm və texnikanın bütün problemlərimizi çözəcəyi, xəstələrimizə əlac, aclarımıza bol-bol yemək təmin edərək yer üzündə firavan bir sistem qurulacağı zənn edilirdi. XX-ci əsrin əvvəllərində dinlərin başqa aləmdə vəd etdiyi cənnətin bu aləmdə gerçəkləşəcəyini, bütün metafiziki və teoloji dünyagörüşlərinin öz dəyər və əhəmiyyətini itiricəyini söyləyənlər çox idi. Qərbin elm və fəlsəfəsini, sivilizasiyasını quran alim və filosofların əksəriyəti belə düşünürdü. Sənayeləşmə dövründən başlayaraq dinamiki aktivliklə böyüyən ətraf mühit problemləri XX-ci əsrin ortalarınadək yetərincə diqqət çəkmədi. Bu vaxta qədər modernləşməyi afişa və reklam edən rəsimlərdə bacalarından qara dumanlar çıxan fabriklər, uçan obyektlər, buxarlı tren və gəmilər təbliğ edilirdi. Nə cür zəhərlə gəlir gəlsin, ancaq texnokratiya və modernizm bərqərar olsun arzu və düşüncəsi ekoloji problemlər anlayışı ortaya çıxana qədər çox yerdə təbliğ edilirdi. XX-əsrin ortalarınadək havaya atılan zəhərli tullantılar sosial-ekonomik və qlobal inkişafın simvoluna çevrilmişdi. Yalnız XX-əsrin ikinci yarısında məlum oldu ki, yerin bizə yataq, mədən və qida kimi verdiyi hər şey gec-tez tükənən qaynaq və sərvətlərdir və üstəlik texnika da bu sərvət və qaynaqları daha tez tükətməyə səbəb və vəsilə olur. Elm və texnikanın zamanımızda çatdığı nöqtə və həyatımızda etdiyi yeniliklər inkar edilməzdir. Ancaq geosistemin mubtəla olduğu qlobal və ekoloji

*problemlər onu göstərir ki, elmi-texniki tərəqqi adıyla bizə sırınan profan ideyalar və profan praqmatizmin ziyanı faydasından çox olmuşdur. Ekoloji və qlobal problemlərin hər biri insandakı əql qıtlığı ilə birbaşa əlaqəlidir. Qlobal problemləri yalnız texnikanın fəaliyyətinə yükləmək sadəcə problemin əsl qaynağından diqqət yayındırmaq məqsədi güdür! İnsanın dinsizliyi, sərvət və hakimiyyət hərisliyi bütün problemlərimizin kökü və mahiyyətidir. Lakin bu açıq-aydın həqiqətlərin ən böyüklərindən olsa da, hələ ki, sosial formada etiraf edilməmişdir. Bu gün özlərini ekoloq hesab edən alimlərin çoxu bu həqiqəti gizlətməyə və ya masqalamağa çalışaraq, mövcud problemlərin səbəb və qaynağının texnikada olduğunu söyləməklə ustalıqla yalan təlqin və təbliğ edirlər. Halbuki insansız texnika adi bir passiv obyektdən başqa bir şey deyil. Texnika və elm nə vaxtan spontan fəaliyyət göstərməyə başlayıb ki, bu tip kommunist sayağı uydurmalarla bəşəriyyəti aldatmağa çalışırlar?! Təkcə Vernadskinin bu sözləri bu geydirmənin mahiyyətinə varmağa kafi ola bilər:* ***"Elm insansız mövcud ola bilməz. Zira elm insanın yaratdığıdır. İnsan ətraf mühitdə olan qanunauyğunluqları öz sözlərinə və zəkasına çevirir ki, biz bunu elm adlandırırıq!"*** *İnsanın insana və təbiətə qarşı etdiyi cinayətləri elm və texnikanın üzərinə yıxmaq cinayət məsuliyyətini cinayətkarın üzərindən götürüb cinayətin törədildiyi alət və ya vasitələrə yükləmək deməkdir. Bütün miqyaslardakı ekoloji cinayətlərin bir nömrəli səbəbi elm və texnikadan düzgün istifadə etməmək və onları öz orjinal teoloji mahiyyətindən uzaqlaşdırmaq cəhdindədir. Böyük fizik və ekosof Eynişteyn 1931-ci ildə keçirtdiyi bir konfransda belə demişdi:* ***"Əməyin təsərrüfünü təmin edən və həyatımızı bu qədər asanlaşdıran bu haruqəladə tətbiqi elm niyə həyatımıza bu qədər az sevinc gətirdi?! Çünki biz ondan düzgün istifadə etməyi öyrənmədik!"[80]*** *Elm və tətbiqi elm və ya texnika nə qədər ki, Allahın bəxşişi deyil, insanın öz əsəri hesab edilir, deməli bunlardan düzgün istifadə edilməsindən söhbət gedə bilməz! Texnika inkişaf üçün elmi, elm də insanı gözləməyə məcbur idi. İnsansız elm, elmsiz texnika, texnikasız və ya alətsiz də cinayət absurddur. Deməli, texnokratik cinayət üçün insanın varlığı vacib və zəruridir. Bu gün elm də, insan da texnikanın təbiətə ən azı apozitiv təsir vasitəsinə çevrilib. İnsan artıq Bekonun dediyi kimi təbiətin deyil, texnikanın*

[80] ***Müftüoğlu Ferruh, Alem Modellerimiz ve Sözde Bilimsel Modeller, İstanbul, 1986, 75***

*quludur. Ümumiyyətlə kölәlik elə bir xəstəlikdir ki, burda* ***“nə üçün?”*** *sualı yoxdur, ən yaxşı halda yalnız* ***“necə?”*** *sualı var. İstər hərbi, istər siyasi, istərsə də texnokratik kölәlikdə vəziyyət bu cürdür. Məsələn, elə bir polis və ya əsgər cətin tapılar ki, öz rəisinin və ya komandirinin* ***“get filankəsin papağını gətir!”*** *haqsız əmrinə* ***“axı, niyə?!”****sualını versin! Halbuki böyük əksəriyyəti nəinki bu sualı verməz, hətta papaqla bərabər başı da gətirirlər! Budur zombilik, manqurtluq və ya köləliyin faciəsi! Təbiəti və ya ətraf mühiti mühafizə sahəsində isə vəziyyət yalnız lokal və individual xarakterli deyil, daha anacaqlı və daha qlobaldır. Sözsüz ki, hər sahədə axmaqlaşmış insan min illərdir ki, sosial formada öz-özünə* ***“etdiklərimi niyə edirəm?”*** *sualını verməmiş, yəqin indidən belə də verməyəcəkdir. Bu sualı individual formada öz-özünə verənlər olub, indi də var, lakin bunların sayı da, təsiri də duyulmaz dərəcədə azdır və hələ üstəlik axmaq və yaramazlar tərəfindən həmişə sıxışdırılıblar. Əvvəllər insan texnikanın ağası, təbiətin qulluqçusu idi. İndi isə əksinə: Texnika ağa olub, təbiət isə cariyə! İndustrializmin təbiətin fəthi məqsədi daşıdığını modernistlərin özləri də inkar etmir, hətta bununla az qala fəxr edirlər! İndustrial və postindustrial sivilizasiya qurmaq adı altında həm təbiət, həm də bəşəriyyət israf edilmişdir! Təbiəti və təbiətdəkiləri kölə edib varlığı fəth edəcəyinə inanan müasir insan hökm etmə zehniyyətinin bir təzahürü olaraq elm və texnologiyanın verdiyi sərxoşluqla özünə* ***“challenger”(kainata və ya təbiətə meydan oxuyan)*** *adını vermişdir. Bu adı elm və texnika deyil, məhz insan özünə vermişdir. Allaha, teoekosistemə açıq-aşkar üsyan edən, hətta meydan oxumağı ən azı arzulayan müasir insanın təbiətə meydan oxuması təəccüblü deyil! Nasrın ətraf mühit problemlərini elmin böhranına bağlamasında hikmət, elm və həqiqət var. Dərin elm adamlarının ittifaqı ilə Renesans dövründən başlayaraq elm yalnız insanın ətraf mühitdə hakimiyyət qurması və bu hakimiyyətin sahəsini genişləndirməsi məqsədinə xidmət etmişdir. Popper necə də doğru deyir:* ***“Elmin tarixi bütün insan fikirlərinin tarixi kimi problemsiz xəyalların, dik başlığın və səhvlərin tarixidir! Bununla birlikdə elm insanın səhvlərinin sistemli və olduqca sıx şəkildə tənqid edildiyi bir-çox fəaliyyətindən biridir. Bu baxımdan elmdə biliyə səhvlərimizin göstərdiyi yolla çatdığımızı söyləmək olar. Buna görə də biz açıq və ağıllı inkişaf etməkdən danışırıq. Insana aid digər bir çox sahədə də dəyişdirməyə cəhdlər edilib, fəqət həyatda mümkün məqsədlərimizin***

***çox məhdud baxış bucağını qəbul edəriksə, çox nadir hallarda tərəqqi qeyd edildiyini söyləmək olar. Çox sahələrdə dəyişməni necə dəyərləndirəcəyimizi də bilmirik. Elmi sahədə isə yalnız bir inkişaf kriteriyasına sahibik!"***[81] *Tomas Kuna görə ideyalar tarixi məhsuldar səhvlər tarixi olub, bir-çoxları onu paradiqma hesab etməyə meyl etmişdir.*[82]*YUNESKO baş direktoru olmuş Frederiko Mayer bu halı belə təsbit edir:* ***"Modern elm sayəsində geri dönüşü mümkün olmayan nöqtəyə gəldik. Dəyən zərər sadəcə maddi olaraq qəbul edilməməlidir. Zira yox etdiklərimizin yerinə qoya biləcəyimiz bir şey olmadığı kimi, onlara bir dəyər vermək də mümkün deyil. Dünyaya verdiyimiz zərəri ödəyə biləcək kimsə yoxdur. Hər şeydən əvvəl bu təməl paradoksun mahiyyətinə varmalı və qəbul etməliyik ki, inkişaf və mədəniyyət medalın bir üzüdürsə, digər üzü qiyamət, geriyə dönməz məhv və xaosdur! Texnologiyanın azğın gücünü əxlaq və hikmətin yardımı ilə kontrol altında saxlamaq üçün konsensus qurmaq lazımdır. Lord Actonun məşhur "mütləq güc mütləq pozulmanı gətirir!" sözü texnologiyaya uyğunlaşdırılsa Rabelaisin elmlə əlaqəli düşüncəsini dilə gətirən "Ağılsız elm ruhun məhv olmasına səbəb olur!" aforizmi daim ağılda tutulmalıdır!"***[83] *Roger Garaudy görə elm müşahidə edilməsi mümkün olan hadisələrin, incələnə və ölçülə bilən bu hadisələr arasındakı əlaqələrin hamısıdır və elm burda durmalıdır.*[84] *Böyük fizik Maks Born isə belə deyirdi:* ***"Biz çalışmalıyıq ki, mücərrəd elmi təfəkkür tətbiq edilməsi lazım olmayan başqa sahələrə yayılmasın. İnsani və əxlaqi dəyərlər büsbütün elmi təfəkkürə əsaslana bilməz!"***[85] *Eynişteyn də bənzər görüşdədir:* ***"Elm insanlara əxlaq öyrədə bilməz! Əxlaq fəlsəfəsini ümumiyyətlə elmi əsasda qurmaq olmaz!"*** *Elmi əxlaq dəyərlərindən ayrı və hətta əxlaqa zidd hesab edən alimlər az deyil. Bəzi alimlərə görə elm dəyərlərdən tamam azad olduğu üçün rasional, bitərəf və obyektivdir. Dəyərlərin tədqiqi isə emosianallıq və subyektivizm tələb edir. Bu alimlərə görə alimlər öz kəşflərinin praktikada tətbiq edilməsi üçün məsuliyyət daşımırlar. Bu görüşdə olanlar deyirlər ki, elmi kəşflərin nəticələrini əvvəlcədən müəyyən etmək mümkün olmadığına*

---

[81]***Miller, David, Popper Selections, New Jersey, 1985, 172***
[82]***Т.Кун. Структура научных революций. М., 1975***
[83] ***Mayer, Frederiko, Geleceyin Ahlak Anlayışı, http://www.tema.org.tr.2001***
[84] ***Garaudy Roger, Entegrizm Kültürel İntihar, İstanbul, 1995, 16***
[85] ***Моя жизни и взгляды, М., 1973, 128***

*görə alimlərin öz səlahiyyətlərindən kənarda qalan işlərlə məşğul olmağa haqqı yoxdur.* [86] *Amma bu görüşdə olanlar totalitarizm, aftoritarizm və despotizm dəyərmanına buğda tökür və kütlələri etdikləri kimi alimləri də manqurtluğa səsləyirlər! Əslində orjinal elm birbaşa etik məzmun və mahiyyətə malikdir. Yalnız modernləşmiş və ya modern elm əxlaqi dəyərlərdən süni şəkildə təmizlənmişdir. Fayerabend deyir ki, elm müqəddəs bir şey olmadığı üçün var olması, heyranlıq oyandırması, nəticə verən bir təmələ sahib olması elmin bir mükəmməllik ölçüsü hesab edilməsi üçün kafi deyil!*[87] *Amma unutmaq olmaz ki, alimlərin əksəriyyəti elm dedikdə orjinal elmdən deyil, modern elmdən bəhs edirlər. Əslində elm müqəddəsdir, safdır, sadəcə elmin modern forması saflıq və müqəddəsliyini itirmişdir. Çünki elm yalnız müqəddəs dəyərlərə sadiq olan kəslərin əlində fayda və dəyərə çevrilir. Dinsiz, əxlaqsız və imansız kəslər üçün elm həmişə fitnə-fəsad törətmək üçün alət və vasitə olmuşdur. Vaxtı ilə böyük Füzuli həyacan təbilini belə çalırdı:* ***"Elm pis adamların əlində hiyləgərlik alətidir! Amandır, hiyləgərlərə elm öyrətmə! Mufsidlərə elm öyrətmək xalqı qırmaq üçün cəlladın əlinə iti qılınc vermək kimidir!"*** *Doğurdan da belədir, bu gün yaşadığımız və gələcəkdə də yaşayacağımız qlobal katastrofların hamısı elm və texnikanın yaramaz və fitnəkar insanların kontrolunda olmasındadır. Bu gün Qərb sivilizasiyasının nail və malik olduğu elmi-texniki vasitə və naliyyətlər, çox təəssüf ki, hər zaman və hər yerdə buşların, bleyerlərin, şaronların, başqa sözlə* ***modern fironların*** *kontrolunda olub! Bu isə qaçınılması qeyri-mümkün olan qlobal və hətta superqlobal problem və ya problemlər deməkdir. Dərin ekoloqların, o cümlədən Nessin və Peççeinin sərt ürək döyüntüləri dünya hegemonluğunun modern firon və imperatorların əlində olduğunu dərk etdiklərinə görə idi. Modern firon və imperatorlar profanlaşdırılmış antiteist və antitəbii xarakterli elə bir dünya qurublar ki, Peççeinin də dediyi kimi heç kim nə zamansa bircə düyməyə toxunmaqla geosistemin məhv edilməcəyinə zəmanət verə bilməz. Ekosofiya, ekoetika, ekopolitika və ekokultura məhz bu təhlükənin aradan qaldırılması yolunda ideoloji və fəlsəfi zərurət kimi meydana çıxdı. Ekoloji fəlsəfə və dərin ekologiya anlayışını elm aləminə daxil edən Norveç xalqının böyük oğlu, böyük mütəfəkkir,*

---

[86] ***И.Барбур. Этика в век технологии. М., 2001, 34***

[87] ***Feyerabend Paul, Bilim Kilisesi, Özgür Bir Toplumda Bilim, İstanbul, 1991, 20***

*filosof və ekosof Arne Nessdir. Ness ekopolitika, ekokultura, ekoetika terminlərini işlətməsə də onların da təməllərinin qoyulmasında xidməti var. Ness 1973-cü ildə ekosofiya anlayışını elm aləminə daxil edərkən belə dedi:* ***"Ekosofiya deyəndə mən ekoloji balans və ya harmoniyanın fəlsəfəsini başa düşürəm. Necə ki, hər bir sofiya özündə kosmik proseslərlə əlaqəli norma, qanun, postulat, prioritet və hipotezlər daşıyır. Ekosofiyanın maraqlarının müəyyənləşdirilməsində müxtəlif variantlar var və bunlar yalnız çirklənmə, əhali və resurs problemi və digər faktlarla bağlı deyil, priorotetlərin dəyərlərindən aslıdır!"***[88] *Özlərini ekoloq və təbiətşünas hesab edib qlobal problemlərin əsl səbəb və mənşəyi olan antropototalitarizm və antroposentrizm faktoruna qarşı kor və kar olanlar böyük Norveç mütəfəkkiri və ekosof olan Nessin dediyi kimi ekoloji dərinlikdən uzaq olan primitiv və səthi ekologiya(***shallow ecology***) ilə məşğuldurlar. Dərin ekologiya və ya ekoloji dərinlik, başqa sözlə* ***ekosofiya*** *belələrinin başı üçün deyil! Qlobal və ekoloji problemlər simpozium və konferanslarda həll edilmir. Boş vaxt itkisi, boşboğazlıq, özünü reklam etmək və digər bayağı üsullarla cəmiyyəti aldadan səthi ekologiya diletantları insanın təbiətin bir parçası olduğunu qəsdən gözardı edərək ekologiya və ətraf mühiti mühafizə adı altında antroposentrizm və antropototalitarizm və ya modernizm təlqin və təbliğ edirlər! Dərin ekologiya tərəfdarları səthi ekologiya tərəfdarlarından fərqli olaraq antroposentrizmdən ekosentrizmə dönməyi təklif, tələb və təbliğ edirlər. Antroposentrizm teoriyasının ən əsas və ən alçaq xüsusiyyəti yalnız insana dəyər verməsi və digər canlıların, hətta insan olmayan hər şeyin insanın dəyərləndirdiyi qədərincə dəyərli olduğu fikrini beyinlərə yeritməyə cəhd etməsidir. XX-ci əsrin əvvəllərinə qədər bu fikir beyinlərə büsbütün hakim idi. Dünyanın bizdən ayrı olaraq və bizimlə əlaqəsi olmadan mövcud olması düşünüldüyü üçün onu sümürməkdə, ona hakim olub kölələşdirməkdə insan özünü sərbəst hiss etmişdir.*[89]*Həm mədəni və ideoloji, həm də ekoloji böhranın mərkəzində duran antroposentrizm ideyalarını iki əsas ideya sistemində birləşirdirmək və lakonik olaraq belə ifadə etmək olar:*

---

[88] ***Drengson, A. and Y. Inoue, eds. (1995) The Deep Ecology Movement: An Introductory Anthology. Berkeley: North Atlantic Publishers.***
[89] ***Rajotte, Breuilly, Kriz Nedir, İstanbul, 21-22***

*1.**"İnsan hər şeyin mərkəzi və kainatın yeganə məqsədidir!"** Bütün varlıq sistemi nəticə etibarı ilə insanın yaradılması üçün sadəcə vasitə və vəsilə edilmişdir.*

*2.Əsas insanın dəyərləri, daha doğrusu dəyərli hesab etdikləridir. Kainat bu dəyərlərin davamı və inkişafı üçün mövcuddur. Bu baxımdan kosmosun spesifik dəyəri yoxdur.*

*Səthi ekologiya həvəskarları iddia edir ki, ekoloji və qlobal problemlərin səbəbkarı və mənbəyi ətraf mühitin(havanın, suyun, torpaqların və s.) çirklənməsi və bu çirklənməni törədən vasitələrdir. Dərin eklogiya tərəfdarları isə sübut edirlər ki, problemlərin əsl səbəbi və mənşəyi nə təbii cisim, nə də texniki vasitələr deyil, yalnız insanın destruksiyası, aqressivliyi və əqli çatışmazlığındadır. Dərin ekologiya və ekosofiyanın kateqorik müəllifi və banisi olan Norveç filosofu Arne Ness naturasentrizm və ekosentrizm təbliğ edən dərin ekologiya ilə antroposentrizmi qəbul edən səthi ekologiya arasındakı fərqlərə toxunaraq ekosofik prinsipləri belə ifadə edir:*

*1.Yer üzündə insanlarla yanaşı, digər canlılar da individual olaraq spesifik dəyərə malikdir. Bu dəyər insan xaricindəki dünyanın insanlar üçün daşıdığı dəyərdən ayrı və azaddır.*

*2.Bəsit və alt pillədə qəbul edilən bitki və heyvan növləri yalnız rasional və ali həyat formaları üçün bir mərhələ olmaqla qalmaz, öz-özlüklərində spesifik dəyərə sahibdirlər.*

*3.Həyati ehtiyacları xaricində insanların bu zənginlik və müxtəliflikləri azaltmağa heç bir və heç cür haqları yoxdur!*

*4.İnsan həyatının və mədəniyyətinin təkamülü üçün əhalinin çoxalmasına ehtiyac yoxdur.*

*5.Günümüzdəki insanların ətraf mühitə müdaxilələri hədsiz və hüdudsuz ölçülərdədir. Üstəlik bu hal getdikcə pis nəticələrə doğru sürətlə və böyüyərək irəlilləyir!*

*6.Günümüzdə uyğulanan və tətbiq edilən politikalar əsaslı şəkildə dəyişdirilməlidir. Çünki bu politikalar ekonomik, texnoloji və ideoloji sistemlərin təməllərini təsiri altında saxlayır. Əgər bu politikalar dəyişsə nəticələr də bu gündən önəmli ölçüdə fərqli olacaqdır.*

*7.İdealogiyalardakı dəyişmə əsasən getdikcə yüksələn həyat səviyyəsinin dəyərləndirilməsinə yönəlməlidir.*

*8.Dərin ekologiyanın bu əxlaqi qaydalarını paylaşan hər kəsin lazimi dəyişiklərin həyata keçrilməsi məsələsində real əxlaqi məsuliyyəti var.*[90]

*Anre Nessin yanaşması ilə səthi ekologiya müqayisə edilərsə ekologiyanın, xüsusilə də ekosofiya və ekopolitikanın bütün şey, hadisə, proses və sistemləri ehtiva edən elm olduğu görünər. Ekosofiya, ekopolitika, ekokultura və yaxud Nessin təbirilə* ***dərin ekologiya*** *baxımından problemlərin özləri antroposentrik xarakterlidir. Sözün əsl mənasında ekoloq, ekopolitik, ekosof olan akademik Nessin modern insanın destruktiv və aqressiv fəaliyyətinin eleqant geyimlər altında gizlənmiş həqiqətini dərk edərkən nə cür iztirablar yaşadığını anlamağa, özəlliklə duymağa çalışıram. O da, Toro kimi insan sivilizasiyasının təbiətə və təbiiliyə qarşı zorbalığına dözə bilməyərək guşənişinliyə çəkilmişdi. Günlər geçdikcə, ekoloji problemlərin miqyası genişləndikcə dərin ekologiyanın bu səkkiz ümdəsinin tərəfdarları artmaqdadır. Lakin buna baxmayaraq antropototalitarist və antroposentristlər də az deyildir!*

## *$3.3.Profan modern mədəniyyətin ətraf mühitə təsiri*

*Ortaçağ və Renesansın ardından* ***"modern zamanlar"*** *gəlir. Modern yeni və ya yaxın zamanla eyni anlama malikdir. İstər yaxşı, istər pis dəyərləndirilsin, gündəlik həyatda və mədəniyyətdə modaya uyğun gələn davranışlara* ***"modern"*** *deyilir.*[91] *Son üç əsrdə yeganə mədəniyyət və sivilizasiya kimi təlqin, təqdim və təbliğ edilən və bütün digər sivilizasiya və mədəniyyətləri yox etməyə, ən azından assimiliyasiya etməyə çalışan dikbaş və özündən razı Qərb sivilizasiyası ciddi, amma məchul bir dönüş nöqtəsinə qədəm basdı. Qərb sivilizasiyasının çatdığı bu böhran nöqtəsi Vallerştaynın sözləri ilə obrazlı olaraq daha kamil ifadə olunur:* ***"Mənə elə gəlir ki, biz qaranlıq bir meşədə dolaşır və dəqiq bilmirik ki, hansı tərəfə getmək lazımdır!"*** *Modern qərb sivilizasiyası yalnız özünü deyil, bütün geosistemi qaranlıq bir zülmətə qərq etmək üzrədir. İndustriallıq, modernizm, inkişaf, təkamül, elmi-texniki tərəqqi, mədəniyyət,*

---

[90] ***Keleş, Ruşen, Hamamcı, Can, Çevre Bilim, Ankara, 2002, 227-228***
[91] ***Jeannıre Abel, Modernite Nedir?, Ankara, 2000, 95***

*sivilizasiya və başqa bu qəbildən olan təmtəraqlı söz və anlayışlar çox gözəldir və doğrudur. Amma problem ondadır ki, bu zinətli söz və anlayışlarla təbiətə, bəşəriyyətə, ümumiyyətlə varlığa qarşı edilən cinayətlər qəsd edilir və ya bunlar ört-basdır edilir! Digər tərəfdən bu gözəl kəlmələrlə profan və ateist inancların pərdələndiyi də gün kimi aydındır. Mədəni inqilab adı verilən bu böyük fitnə hər sahədə rasionallaşma, profanlaşma və rasionallaşdırmaya, başqa sözlə modernləşmə və ya amerikanlaşmaya yönəlmişdir. Çox gülməli bir paradoks yaranıb. Uzaq planetlərdə kosmik gəminin gəzintisini nəinki seyr, hətta kontrol edə bilən modern insan maşınlardan, fabrik və zavodlardan çıxan zəhərli və çirkli dumanları nəinki kontrol etməkdə, hətta sadəcə seyr etməkdə də acizdir! Modern imperiyalistlər uzaq kosmik stansiyalarda koloniyalar qurmaq xəyalları qursalar da, yer üzündəki şəhərləri, meşələri, dağları, gölləri bərbad vəziyyətə salıblar. Budurmu modernizmin təkamül və inkişaf iddiasının nəticəsi?! Bu yerdə Xomeyninin* ***"Vilayəti fəqih"*** *kitabında modern texnofill və texnokratlar barədə yazdıqlarını iqtibas etməyi lazım bildim:* ***"Onlar Merkuriyə, kahkəşanlara getsələr belə yenə əxlaq, səadət və ruhi inkişafdan yoxsul olub sosial problemləri həll edə bilmirlər. Çünki bunun üçün etiqadi və əxlaqi yollar lazımdır. Maddi sərvət və qüdrət toplamaqla onları həll etmək olmaz. Bunun üçün mütləq iman lazımdır ki, bu da onlarda yoxdur!"*** *Qərb modernliyi siyasi və sosial müstəvidə ələ alınsa, XVI-cı əsrdən başlayaraq ardıcıl tragedik faktlarla qarşılaşarıq. Bunlardan bəzilərini Reformasiya və Renosansı izləyən dövrdə dünyanın addım-addım asketizm, sekulyarizm və ağlın kosmoloji iddialarının hegemonluğu altına girməsində və həyat sahəsinin müxtəlif hissələrə bölünməsində tapırıq. Bu dövrdə təbiət elmlərinin nüfuzuna bağlı iddialar önə çıxmış, spesifik xarakterə malik dövlət quruluşları* ***"sehrdən təmizlənmiş"*** *dünyada mərkəzləşmiş və bəşəriyyətin mükəmməlliyə doğru getdiyini iddia edən tərəqqi inancı yayılmağa başlamışdır.*[92] *Tərəqqi ideyasının rüşeymləri çox əski tarixə gedib çıxsa da, bu ideyanı Qərbdə ilk dəfə sistemli şəkildə işləyib modern qəlibdə ortaya atan turqot idi. Onun 1750-ci ildə dediyi bu sözlər məşhurdur:* ***"Bütün insan növü bir-birini qovan durğunluqlar və çalxantılar, yaxşılıqlar və dərdlər içində, ağır addımlarla da olsa,***

---

[92] ***Küçük Mehmet, Modernite Versus Postmodernite, Ankara, 2000, 21***

***dayanmadan daha böyük bir qüsursuzluğa doğru gedir!”*** *turqotun tərəqqi ideyası xristianlığın bəşəriyyət tarixinin tək və kəsilməz olduğu barədəki inancının sekulyarizə edilmiş forması idi. Turqotda profan yanaşma minumumdur. Tərəqqi ideyasının profan qəlibə salınması condorse ilə başladı. condorse tərəqqi ideyasını büsbütün teoloji elementlərdən təmizlədi və Allahı tarixin kənarına tulladı. O, tərəqqinin yalnız insan əsəri olduğunu önə sürərək sekulyarizmi bütləşdirdi. condorsenin insan nəslinin, bəşəri tarixin tərəqqisi barədə fikirlərində profan yanaşma maksimumdur. Onun fikir və mülahizələri iki əsas tərəqqi ideoloqu və primitiv texnofillər sen-simon və konta böyük təsir göstərmişdi. kontun əxlaq fəlsəfəsində, xüsusilə alturizm konsepsiyasında pozitiv cəhətlər olsa da, tərəqqibazlıq, ateizm və hər şeyin gələcəkdə əla olacağına təşviq və inamın neqativliyi və yalançılığı çox açıqdır. condorse, kont və sen-simon tərəqqibaz aftoritarizmdə və texnokratik despot təfəkkür tərzində lenin, skinner və stalindən heç nə ilə fərqlənmirlər. Kontdan sonra Spenser də bu profan tərəqqi çirkabına bulaşdı. 1852-ci ildə o,* ***“İnkişaf hipotezi”*** *adlı məqalə ilə çıxış etdi. O, Kont və Darvini birləşdirməyə çalışırdı. Spenserin tərəqqi ideyası sələflərindən daha mütləq idi. Parsons bunu belə ifadə edir*: ***Spenserin Allahı bəzən tərəqqi də adlandırdığı təkamül prosesidir. Spenser inanırdı ki, insan əsrlərin dərinliyindən, ibtidai insanın yarandığı zamandan başlayan xətti prosesin zirvəsinə doğru fasiləsiz və dönmədən yaxınlaşır. O, hətta inanırdı ki, ona müasir olan Qərbi Avropadakı industrial cəmiyyət artıq həmin yüksək nöqtəyə çatmaq üzrədir. O və tərəfdarları bu prosesi sonsuz hesab edirdilər.***[93] *Əgər sen-simon, kont, spenser tərəqqi ideyasının daha çox fəlsəfi və sosioloji tərəflərini işləyib hazırlamışdılarsa, marks və engels də ekonomik tərəflərini işləyib hazırladılar. Bu gün də bir-çox professional fəlsəfi, ekonomik, texnoloji və sosioloji ədəbiyyatlarda bəşəriyyətin daim indiki halından daha yaxşıya və daha mükəmmələ getdiyi iddia edilir. Bu qondarma iddiaya görə hər bir şey və proses əvvəlcə qaba və primitiv halda olub və getdikcə yavaş-yavaş inkişaf edərək tərəqqi etmişdir. Bu əqidə sahibləri mükəmməl olanın özündən daha aşağı səviyyəli olandan çıxdığına inanırlar. Real həyatda əqidələrinə uymayan şey və hadisələri də sürətli və ya tədrici tənəzzül anlayışını işə salaraq ört-basdır etməyə*

---

[93] ***Т.Рарсонс. О структуре социалъного действия. М., 2000, 44***

*çalışırlar. Təbii ki, heç bir sistemli və kompleks təhqiq və tədqiqə dayanmadan belə bir tərəqqi iddia etmək ən azı yalan və cəhalətdir. Tərəqqi ideyası modernizmin strukturunu təşkil edir. Bunlar əvvəlki zamanları və o zamanlarda yaşayanları ən yaxşı halda cəhalət zülmətinə bürünmüş qaranlıq və ibtidai sivilizasiya adı altında aşağılayarlar. Məsələn, haydegger deyir:* ***"Nə antik dövrdə, nə də orta əsrlərdə elm olmamışdır. Elm yeni dövrün məhsuludur!"*** *Bu sözlər yalnız elmin nə və necə olduğunu bilməyən və anlamayan qanmazın ağzından çıxa bilər. Profan və qondarma ekzistensializmin banisi heydeggerin ağ yalan və quru cəhalət olan bu sözlərini modern alimlər, xüsusilə texnofil, texnoloq və texnosoflar arasında paradiqma hesab edənlər az deyil. Bu yaramaz zırramaların xilafına təkcə bunu demək kifayətdir ki, bu gün özlərini modern və inkişaf etmiş sayanların cəhalət və zülmün bütün dünyanı bürüdüyünü iddia etdikləri əski zamanlarda 124 min Nəbi və Rəsul yaşamış və bu insanlar bütün bəşəriyyətin ən inkişaf etmiş, ən əxlaqlı, ən bilikli, bir sözlə ən mükəmməl şəxsləri hesab edilmişlər. Allahın xəbərçi və elçiləri tarixin hər bir dövründə ən çox hörmət edilən, sevilən və örnək götürülən şəxslər olmuşlar. Ola bilər bu gün modern texnoloq və texnosofun beynində əski insanın beynindəkindən çox informasiya olsun, amma bütün modern alim və mütəfəkkirlərin beyinlərini bir yerə yığsalar, condorse, sen-simon, kont, marks, engels, haydegger, sart, lenin kimi bütün ateist filosofların da beyinlərini onlara əlavə etsələr və bunlara düşünmək üçün ruh versələr, onlar yenə də əski zamanlarda yaşayan peyğəmbərlər bir tərəfə, təkcə Platonun və ya imam Əlinin təfəkkür edib düşündüyü kimi təfəkkür edə, düşünə bilməzlər. Bütün bəşəriyyətin elmi və informasiyası təkcə ilk insan Adəmin elmindən çox azdır. Halbuki Adəm bu gün və bundan sonra da məlum olan bütün elmlərə vaqif olub. Quran bu həqiqəti belə ifadə edir:* ***"Adəmə bütün şeylərin adlarını örətdi. Sonra mələklərə göstərib dedi ki, əgər sadiqsinizsə bunların adlarını mənə deyin! Dedilər ki, Sən paksan, bizim sənin öyrətdiyindən başqa elmimiz yoxdur. Alim və Hakim sənsən! Dedi: Ey Adəm söylə adların hamısını. Adları söylədikdən sonra dedi: Demədimmi sizə mən göylərin və yerin qeybini, gizlisini və açığını bilirəm?!"***[94] *Ayələrdən açıq-aydın görünür ki, ilk insan hətta mələklərdən də çox şey bilirmiş.*

[94] ***Bəqərə, 31-33***

*Teoloji baxışa görə insan elmi və əxlaqı getdikcə tənəzzülə uğrayır. Yalnız sağçı modernist və təkamülçülərin uydurma iddiasına görə bəşəriyyət və mənəviyyat getdikcə inkişafdadır. Təkamülçü-meymunçu ədəbiyyatlardakı tez-tez rast gəldiyimiz nağıllardan biri də* ***"meymunabənzər"*** *məxluqların insana çevrilməsi və əvvəllər* ***"ibtidai"*** *olan insanların* ***"təkamül prosesləri"*** *nəticəsində inkişaf edərək sosiallaşması iddiasıdır. Heç bir elmi dəlil olmasa da, yarıdik yeridiyi, qırıq-qırıq səslər çıxardığı, bütün bədənini tük basdığı fərz edilən, ailəsilə birlikdə gəzərkən, əllərindəki kobud alətlərlə ov ovlayarkən və ya tonqal ətrafında oturan halda təsvir edilən* ***"mağara adamları"****, ibtidai insan barədə fərziyyələrin, modern miflərin əsasında durur. Modern şamanlar bu miflərə elmi don geyindirib insanları aldadırlar. Meymunçu ideoloqlar bütün bunların yalan olduğunu bilə-bilə professional ədəbiyyatlara yerləşdirir, cəmiyyətə elmi həqiqətlər kimi təlqin və təbliğ etməkdən həya etmirlər! Nəinki etnosların, bütün aləmlərin ibtidaidən aliyə doğru təkamül keçirdiyini sübut edəcək bircə dəlilcik də olmadığı halda meymunçular öz nağıllarının* ***"elmiliyi"*** *üzərində həyasızlıqla israr və hətta ittifaq edib dururlar. Əgər texnokrat və texnofil evolyusionistlər desələr ki,* ***"biz teoloji dəlil qəbul etmirik, bizi teoekoloji dəlillərinlə bezdirmə!"*** *Onlara cavab bu olardı ki, antik hindu sivilizasiyası, xüsusən Mayya sivilizasiyası barədə aparılan tədqiqatlarda qədim insanın müasir insandan daha mənəviyyatlı olduğu barədə ortaya kifayət qədər təkzibedilməz sübutlar qoyulub. Onları burda bir-bir nəql etsəm, kitabın mövzusunu dəyişmiş olaram. Ümumiyyətlə ateist, profan və antiteist məxluqlara üzümü tutaraq deyirəm ki,* ***sizin qəbul etdiyiniz anlam və mənada təkamülçü modern iddiaların yalan olduğunu sübut etmək üçün nə yəhudi, nə nəsrani, nə müsəlman, nə buddist, nə də yapon olmağa ehtiyac yoxdur, sadəcə ağıllı və təmkinli tədqiqatçı olmaq kifayətdir!*** *Teoekoloji(dini-ilahi) faktor bu yalanların ortaya çıxmasında sadəcə katalizator rolunu oynayır. Əvvəlcə* ***katalizatoru*** *ortadan qaldırmaq lazımdır ki, təfəkkürün həqiqətlə reaksiyasının qarşısını almağa profan və modernist qəlblərdə ən azı ümid olsun?! Günümüzdə də bəzi səyyahların Amerika, Afrika və digər qitə və adalarda yaşayan* ***"tərəqqi etməmiş"*** *tayfa və qəbilələr barədəki etirafları, həmçinin solçu arxeoloqların apardıqları qazıntılar modern təkamülçü ideoloqlar və onların təqib və təqlidçilərinin necə özlərindən bədgüman axmaqlar olduğunu bir*

*daha göstərir. Tez-tez öz xatirələrini qeyd edən elmli və vicdanlı səyyahlar cəngəlliklərdəki insanların mədəniyyətsiz, yam-yam və vəhşi olduqları, hətta, aslanların, leopardların, hepardların hər addımda qarşısına çıxan hər canlıya hücum etdiyi və öldürdüyü barədə iddiaların ağ yalan olduğunu söyləyirlər. Halbuki istər sovet modernistləri, istərsə də abş-avropa modernistləri cəngəlliklərdə yaşayan qəbilə və tayfaların kannibal, yam-yam, vandal, başkəsən, qulaqkəsən olduqları barədə* **modern miflər** *uydururdular! Bu modern mifləri qondaranlar nəinki cəngəllik insanlarına, hətta orda yaşayan heyvanlara da iftira atmaqdan həya etməmişlər. Söhbət ondan gedir ki, nadirən vaqe olan hadisələri etnoxarakter kimi təqdim və təbliğ etmək ən azı alçaqlıqdır! Əgər modernist tərəqqi inancını daşıyanlar bizimlə eyni zamanda yaşayan və onların modernizmini qəbul etməyən təbii etnoslara, habelə onların ətraf mühitindəki digər canlılara bu cür iftira atıb damğalayırlarsa, onların daha əski sivilizasiyalar barədə iddiaları necə olar?! Halbuki darvinist-modernist şarlatanları ifşa edən kifayət qədər arxeoloji tapıntı da var. Təkcə mərkəzi amerikada eramızdan bir-neçə min il əvvəl yaşamış məşhur mayya sivilizasiyası barədə əldə edilən arxeoloji tapıntılar təkamül ideyasının satanikliyini ortaya qoyur. Məlum olmuşdur ki, bu gün ən yüksək texnoloji nəaliyyətlərlə əldə etdiyimiz elmi biliklər mayalılarda var imiş. Mu və Atlantida isə Mayya sivilizasiyasından daha mükəmməl olub. Real arxeoloji faktlar göstərir ki, əski sivilizasiyalar içində bizim modern sivilizasiyadan qat-qat üstün olanları varmış. Bu sivilizasiyaların elmin bütün sahələrindəki böyük nəaliyyətləri olub. Hətta, bizim zamanda da keçmiş xalqların səviyyəsinə çatmamış xalqlar var. Kosmik dəlillər də əvvəlki sivilizasiyaların indikilərdən daha üstün olduqlarını göstərir. Quranda bu barədə bir-neçə nass var. Məsələn, Quranda deyilir:* ***"Siz də sizdən öncəkilər kimisiz! Halbuki əvvəlkilər sizdən daha fəal, daha güclü idilər. Var-dövlətləri və övladları da daha çox idi..."***[95] *Ayə açıq-aydın əvvəlki etnos və sivilizasiyaların bizdən daha aşağı səviyyədə olduqlarını iddia edənlərin səviyyəsiz boşboğazlığına dəlildir. Sivilizasiya bəzən irəliləyir, bəzən geriləyir. Bəzən də həm yaxşı inkişaf etmiş, həm də zəif inkişaf etmiş sivilizasiyalar eyni dövrdə yaşamış və yaşayırlar. Əlbəttə, tarixən hər sahədə irəliləyiş olmuş, elm və texnologiyada*

[95] ***Tövbə, 69***

*böyük nəaliyyətlər əldə edilmişdir. Lakin bu dəyişiklikləri təkamülçülərin və materialistlərin iddia etdiyi kimi* ***"təkamül"*** *prosesi adlandırmaq ağıllı və elmi yanaşma deyil, sadəcə fürsətdir! Təkamül termininin özündə də problem yoxdur, sadəcə bu termin profan alimlər tərəfindən çox tez-tez istifadə olunduğu və anlamında da çox oynadıqları üçün inanc sahiblərini qıcıqlandırır və hürküdür. Mədəniyyət, texnologiya və elm sahəsində həmişə* ***irəliləyiş*** *olub, amma burda əsas məsələ odur ki, indiki insanla 40 min il bundan qabaqkı insanın nə fiziki, nə də psixi olaraq heç bir substansional fərqi olmamışdır. Həmçinin bu* ***irəliləyiş*** *yeninin ortaya çıxması kimi təkamül deyil, sadəcə itirilmiş, dağıdılmış və ya unudulmuş keçmişin bərpasından başqa bir şey deyil.* ***"XX-əsrdəki insanların beyni və zəkası daha çox inkişaf etdiyi üçün daha inkişaf etmiş sivilizasiya qurmuşlar"*** *fikri meymunist və ya təkamülist şarlatanların təlqin və təbliğ etdiyi uydurmalardandır! Amerika və Afrikanın məzlum qəbilə və tayfalarının yaşadığı yerlər dünyanın ən gözəl və ən dəyərli geoekoqrafik zona və vilayətləri idi. Qərb sivilizasiyasının modern dövlətlərinin zülm və təcavüzü nəticəsində XVII, XVIII, XIX və XX-ci əsrlərdə amerika və afrikanın yerli əhalisindən məhv edilən insanların sayı milyardı keçir. Şübhəsiz ki, bu cür qlobal cinayətlərə hansısa don geyindirmək zərurəti var idi və qətl etdikləri məzlum qəbilələri vandal, barbar, yam-yam kimi damğalamalı idilər. Modern imperiyalar bu gün taliblərə, koreyalılara və digər imperiya aftoritarizmindən xilas olmaq istəyən etnik və ideoloji düşmənlərinə sadəcə terrorist damğası vurmaqla və bəzən də makrolokal miqyaslı təcavüz etməklə kifayətlənirlər. Çünki mediya var, internet var və insanlar ən azı virtual dəlil tələb edə bilərlər. Necə ki, səddam hüseynin atom silahına malik olması yalanı üzə çıxdı. Amma keçmişdə hinduları ekosid və genosidə məruz qoyanda, afrika xalqlarını ən ağlasığmaz və ən vəhşi üsullarla qətlə yetirəndə sıravi insanların çoxunu inandıra bilirdilər ki,* ***"biz təpəgözlərnən, adamyeyənlərnən savaşırıq! Öldürdüklərimiz də insan cildindəki bədheybətlərdir!"*** *abş hökməti hətta, yaxın tariximizdə vyetnamda da* ***"vəhşi"***, ***"geridəqalmış"***, ***"mədəniyyətsiz"*** *kimi damğalardan istifadə etmişdi! rus hökuməti də eyni siyasi taktikanı Çeçenlərə tətbiq etməkdə məharət göstərdi, necə ki, bu damğaları ruslar qafqazda ilk dəfə xalqımızın mücahid övladlarına vurmuşdular! Batil əqidə sahibləri öz əqidələrindən dönmədikdə və ya dönmək istəmədikdə yalan danışmağa və iftira atmağa sanki məcbur*

*və məhkumdurlar! Çünki qəlblərini işğal etmiş batil əqidə onları buna məcbur edir: Ya batil əməl və əqidəndən dönəcəksən, ya da nə yolla olur-olsun onu qoruyacaq və işğalçı olacaqsan!*

*Profan ədəbiyyatlarda modernizmə keçidi müəyyən edən dörd inqilabdan bəhs edilir:* ***elmi, siyasi, mədəni, texniki və ya industrial inqilablar.*** *Reallıqda bu inqilabları mexaniki şəkildə bir-birindən ayırmaq düz deyil. Çünki bu inqilablar həm xüsusi, həm də ümumi olaraq dinamiki prosesdir. Əgər sözün linqvistik məna və mahiyyətini gözardı etmək düzgün olsaydı, bəlkə də bu inqilabları mexaniki surətdə bir-birindən ayırmağın yeri olardı, amma bu hər yöndən xronoekosistem reallığına mütabiq deyil. Elə bir elmi və ya siyasi inqilab tapmaq olmaz ki, orda bu və ya digər formada, bu və ya digər dərəcədə texniki və ya industrial elementlər olmamış olsun. Və elə bir industrial və ya texniki inqilab da yoxdur ki, elmi əsası olmasın. Ümumiyyətlə industrial hadisə olmayan heç bir inqilabdan söhbət gedə bilməz. Elm olmasa heç bir inqilab ola bilməz. Burda problem inqilabların, elmin və yaxud da industriallığın özündə, ya da terminologiyasında deyil, yalnız industriallığın məqsədində və yönəldiyi yoldadır ki, modernistlər harda ateizm ünsürü görürlərsə məhz orda tərəqqi görürlər! Modern alimlərin(istər marksist, istərsə də qərb modernistləri) barbarlıq, mədəniyyət, suvilizasiya və dini dövrlər adı altında bəşər tarixini mexaniki parçalamaları, həmçinin bəşər tarixinin quru şəkildə sosial-siyasi-ekonomik formasiyalara ayrırmaları da bundan qaynaqlanır. Halbuki bəşər tarixi də təbiət tarixi kimi ən azı dinamikidir. Berdyayev tarixi dövrləri mexaniki və ardıcılıqla ayırmağı rədd edərək yazır: Tarixi dövrləri yalnız zaman ardıcıllığı ilə qəbul etmək olmaz. Müxtəlif tarixi formasiya və ya dövrlər eyni zamanda da mövcud ola bilərlər. Bu insan ruhunun müxtəlif istiqamətlərinin nəticəsidir. Lakin bunlardan biri müəyyən tarixi mərhələdə daha güclü olur.[96] Bəli, məsələ Berdyayevin dediyi kimidir. Təəssüflər olsun ki, bu gün barbarlıq, ateizm və vandalizm formasiyası modernizm, tərəqqi və industria maskasında daha güclüdür! Bu gün elmin profanlaşdırılaraq modern dona salınması ucbatından ətraf mühit problemləri qlobal miqyasdadır. Profan dünyada texniki və industrial inqilab Allah və ya ən böyük MÜQƏDDƏS elan edilmişdir. Qərb sivilizasiyası profan aləmin başqa*

[96] ***Н.А.Бердяев. Смысл истории. М., 1990, 173***

*bir ismidir. Qərb modernizmi daşıdığı antiteist, antitəbii, terrorist, ateist və profan mahiyyət və məzmunu ilə, bais olduğu qlobal və ekoloji problemlərlə Qərbin spesifik mədəniyyətinin iç üzünü açıb göstərdi. Qərbin modern sivilizasiyası Nuhun qlobal tufanı kimi bütün dünyanı, ilk öncə də şərqi qərq etdi! Fransız islamşünası, marmon və mason masinyon əbəs yerə demirdi:* ***"Şərqlilərin əlində olan-qalan nələri vardısa hamısını dağıdıb məhv etdik. Fəlsəfələri, dinləri, ideologiyaları məhv oldu. Onlar artıq heç nəyə inanmırlar. Dərin bir boşluğa yuvarlanıblar. Başıpozuqluq və intihar üçün tam yetişiblər!"*** *Qərbin qondardığı sekulyarist modernizmin ətraf mühiti, bəşəriyyəti, bütövlükdə geoekosistemi hansı hala saldığı gözümüzün qabağındadır. Profan modernizmin bu fəaliyyəti təbiəti məhv etməsilə yanaşı milli, dini və əxlaqi qayda və dəyərləri də falsifikasiya və passivizə etməsində özünü göstərdi. Modernizm insan etiqadındakı müqəddəs dəyərləri sıradan çıxarması, insan həyatındakı dini boyanın absurd olduğunu təlqin etməsi, insandan başqa canlılara özlərinə görə deyil, insanın utilitar və gedonik arzularına görə dəyər verməsi və sənət, mədəniyyət və təkamül proseslərində yalnız qərb standartlarına tabe olmağın yeganə xilas yolu olduğu fikrini təbliğ etməsilə özünün profan və satanik içini çölə çıxartdı! Allahla döyüşmək fikrində olan modern insanın qondardığı texnologiyanın dağlara, dənizlərə, meşələrə və digər canlılara xoşbəxtlik gətirəcəyinə yalnız ağlında problem olan kəslər inanar! Texnolojiyada bizim bildiyimiz və bilə biləcəyimiz təhlükələrlə yanaşı, bilmədiyimiz və ən azı uzun müddət bizə məchul olacaq təhlükələri də var. Əxlaqi prinsiplərdən uzaq və hətta onlara kökündən zidd olan texnologiya insanı elə manqurtlaşdırmışdır ki, bu cür insan bu dünyadakı həyatından, öz* ***"mən"****i və onun ehtiyaclarından başqa heç nəyi düşünməz və düşünməyə də ehtiyac duymaz! Belə bir insan normal halda atom bombası düzəltmək və onu necə və harda partladacağı barədə düşünə bilər. Bu dünyadakı qlobal problemlər – çirklənmələr, cürbəcür iyrəncliklər, faciələr, müharibələr, zəhərlənmələr və digər ekosidlər barədə düşünmək texnologiyanın zombisi olan insanın idrakına yaddır! Belə bir insan ən yaxşı halda kosmosun ənginliklərində səyahətə çıxmaq planını çızmağı bacarar! Texnologiyanın gətirdiyi manqurtluq o dərəcədə güclü və dəhşətlidir ki, hətta ən böyük istedad sahiblərinə də sirayət edə bilir. Məsələn, Enriko Fermi atom bombası hazırlamağın yeni neqativ üsulunu işləyib*

*hazırlayanda, ondan soruşurlar ki, "****niyə belə edirsən, insanlığa faydası nədir!?****" O, da cavab verirsə ki, "****mənim üçün çox maraqlıdır!****", bu halda qlobal xoşbəxtliyi gözləmək əbəsdir. Əgər insanların ən ağıllılarının səviyyə və düşüncəsi belədirsə, digərlərinin hal və vəziyyəti necə olar?! Belə bir faciəli halda kosmosun çox kiçik, amma dəyərli hissəsində Le Rua, Teyyar de Şarden və Vernadski triadasının proqnozlaşdırdığı,(həm də arzuladığı) "****canlı təbəqənin zəka təbəqəsilə tamamlanması prosesi****" çox çətin ki, mümkün olsun! Əgər böyük şəxsiyyətlər təbiəti, bəşəriyyəti öz maraqlarına qurban verirlərsə, burda hansı zəka mühitindən, noogenezdən və ya normal həyatdan söhbət gedə bilər?! Texnologiya ilə bir yerdə insan və onun ətraf mühiti birdən-birə yeni bir dünyaya çevrildi. İnsanın əlində indi çox böyük bir güc var: texnika. Texnikanın da yalnız bir hədəfi vardır ki, bu da iş görmə, işə yarımadır. Haydegger deyir ki, biz o zaman texnikanın ən qəddar əsiri oluruq ki, texnikada çox maraqlı və bitərəf nəsə görürük. Lakin Haydeggerin bu təsbitində texnozombiliyin əsası gizlədilir. Haydegger əgər həqiqi filosof olsaydı, belə deməli idi: insan öz mənəvi dəyər və maraqlarını, maddi, xüsusilə ekonomik kapital maraqlarına qurban etdiyi üçün texnomanqurt və ya texnozombi olmuşdur. Şübhəsiz ki, Haydegger kimi Antiteistdən təbiəti müdafiə edəcəyini gözləmək axmaqlıq olardı. Hər bir Allahsız təbiətsizdir, hər bir təbiətsiz də Allahsızdır! Modern insanı robot da hesab etmək olardı, bir fərqlə ki, ətli-qanlı, piyli robotdur! Artıq yer üzündə elə bir dini və etik dəyər tapılmaz ki, modern insan tərəfindən ən azı deqradasiyaya məruz qalmasın. Texnoloji proseslərin böyük əksəriyyətinin antitəbii, antiəxlaqi, antidini xarakter və formada olmasına artıq heç bir şübhə yeri qalmamışdır. Qlobal sekulyarizm xəstəliyinə tutulmuş texnomanqurt insanların sosial-siyasi və sosial-iqtisadi fəaliyyəti dini-əxlaqi və dini-fəlsəfi dəyərləri yox etməyə yönəlmişdir. Başqa sözlə, tərkibində, qurluşunda, daxilində dinə aid nəsə olan və ya daşıyan hər şey məhvə məhkumdur! Qlobal sekulyarizm, qlobal modernizm və texnologiyanın qayə, məqsəd və fəaliyyəti bundan başqa bir şey deyil. Əvvəllər hətta dini inancları mükəmməl olan bəzi alim və mütəfəkkirlərin də sekulyarlaşma və modernləşmənin uydurulmuş dini xurafatları yox edib dini orjinal şəklində saxlayacağına inanmışdılar. Osmanlıda pantürkçülük və kamalizm, rusiyada bolşevizm və kommunizm, avropada da nasizm adı ilə ortaya çıxan qlobal modernizm və sekulyarizm nümunəsi yüz*

*milyonlarla insanın haqsız ölümünə səbəb olmaqla qlobal sekulyarlaşma və modernləşmənin dünyanı xilas edəcəyinə inanmağın ən yaxşı halda maymaqlıqdan başqa bir şey olmadığını göstərdi. Həm də göstərdi ki, modernizm və sekulyarizm yalnız dini xurafaları məhv etməklə kifayətlənmir, dinin orjinalını da yox etməyə cəhd edir! Çünki modernizm bütün dinlərə qarşı müharibə elan etmiş spesifik bir dindir. Nəticə etibarı ilə bu təbii-elmi din ağlı və sosial inkişafı önə çəkərək Allahı aradan qaldırır.* [97] *İdeya tarixini araşdırdıqda modernizm və sekulyarizmin təməllərinin Antik Yunanıstan və Romada qoyulduğunu görürük. Aristotelin dövlət ideyası Platondan fərqli olaraq sekulyar və profan ideyaya daha yaxındır. Lakin Aristotel göylərdən tamamı ilə əlini üzmüş ümidsiz bir modernist deyildi. Antik dövrün ən materialist alim və filosoflarının əqidəsi də istər prinsip, istərsə də nəticə baxımından teoloji elementlərdən tam təsfiyyə edilməmişdi. Antik filosofların teizmi həm mühakiməyə, həm də ağıla dayanırdı. Antik filosoflar arasında modernistlərin iddia etdiyi mütləq rasionalizm olmamışdır. Hətta, ən rasional filosof olan Aristotelin* ***Pandora qutusu*** *hissiliklə birləşmiş elmilikdən başqa bir şey deyil. Hardasa aftomen sekulyarizmini xatırladan modernlik fikri orta əsrlər Xiristianlığında doğuldu və sekulyar bir din formasına büründü.*[98]*Dinin elmi zəncirləyib zindana atdığını, kilsələrin, məscid və mədrəsələrin elm formasında cəhalət təbliğ etdiklərini iddia edən modernist* ***"alimlər"*** *özləri də gözəl bilirlər ki, modernizm* ***"elmi"(əslində elə iblisi)*** *zindandan azad etdikdən sonra hər şey, hətta sosial* ***"mən"*** *də kontroldan çıxdı və bu qlobal xaos geosistemi ortadan qaldıracaq nöqtəyə qədər gəldi. Aydınlanma dövrü kimi insanlığa sırınan o dövrdə teologiya və metafizikanın hegemonluğundan qurtulmağa və ya əks bir hegemonluq inşa etməyə çalışanlar özlərini büsbütün profan bir dünya içinə atdılar. Aydınlanma intellektual tarixin* ***"modern"*** *periodunun doğumu idi. Bəzi tarixçilər bu periodun 1789-cu il Fransız inqilabı ilə başladığını söyləyirlər.* [99] *Lakin bəşəriyyət tarixində qlobal mənəvi xaosun*

---

[97]***Best, Stephen, Kellner, Douglas, Postmodern Theory: Critical Interrogation, New York, 1991, 2***

[98] ***Calinescu, Matei, Five Faces Modernity: Modernism, Avant Grade, Decadence, Kitsch, Postmodernism, Durham, 1987, 13***

[99] ***Oden, Thomas C. Two Worlds: Notes on the Death of Modernityin America and Russia, Downers Grove, 1992, 32***

*rüşeymlərinin qoyulduğu əsr Qaliley əsri idi. O, dövrdəki böyük zəka sahibləri də elmin inkifaf intensivliyinin əxlaq və mənəviyyatın inkişaf intensivliyinə tərs proporsional olduğunu duyur və anlayırdılar. Qaliley hələ o vaxt əbəs yerə demirdi ki, elm adamları özlərini yalnız elm xatirinə bilik toplamaqla məhdudlaşdırarlarsa, elm şikəst qalacaq və yeni kəşflər yeni dərdlər gətirəcək. Zaman-zaman çox şey kəşf edilə bilər, ancaq bu inkişaf insandan uzaqlaşan bir inkişaf olacaqdır. Nəticədə aradakı məsafə qarşısı alınması mümkün olmayan bir hala çata bilər!*[100] *Müştərək, normal, min illik təcrübə divarını yıxmağa çalışmaq, qadağan edilmiş meyvəni yeməyə cəhd etmək deməkdir ki, bu da elmin orjinalının yox olmasına və insanın xəyali bir formada ilahiləşdirilməsilə ortaya çıxan dünyəvi xaosa yol açmışdır.*[101] *Bu gün özünü sekulyar dövlət sayan hər bir dövlətdə sakral ideya və əqidə daşıyıcıları əziyyət çəkir, əqidə və ideyalarının hansısa hissəsini sekulyarizm və modernizmə qurban verməyə məcbur və məhkum olurlar. Kök atdığı hər yerdə sekulyarlıq və modernizm çox tərəfli təsir gücünə malikdir. Bu satanik və antinatural sistemdən qorunmaq üçün çox geniş və güclü sakral birlik və teosistemə ehtiyac var. Bu müdafiə sistemində bütün İbrahimi din nümayəndələri, xüsusilə onların liderləri təmsil edilməlidir. İnsanın xəyal sferasını zəbt etmiş profan texnokratiya və modernizmin mahiyyətini ekopolitik Marşal Berman belə göstərir:* ***"Modern olmaq, bir tərəfdən macəra, güc, tərəqqi və dünyanı istədiyin kimi idarə edə bilmək imkanları vəd verən, amma başqa tərəfdən də sahib olduğumuz hər şeyi yox etməklə təhdid edən bir mühitdə olmağımızdan başqa bir şey deyil!"*** [102] *Bu günkü texnologiya, siyasət, elm və mədəniyyət bizi göylərə - Allaha götürə biləcək məzmun və mahiyyətdən tamamı ilə uzaqdır. Modern insan modernizmdən əl çəkib yenidən doğulmayınca nə özü xoğbəxt ola bilər, nə də digər canlı qohumlarına xoşbəxtlik gətirə bilər! Başqa sözlə, insanı yenidən tapmağımız lazımdır; onu Allaha yalnız bu yolla qovuşdurmağa ümid edə bilərik.*[103] ***Mədəniyyət modern çağa qədəm basan gündən göylərin açarını itirmişdir. Mədəniyyət antitəbii xarakter alırsa, dağıdıcılığa istiqamətlənirsə***

---

[100] ***Brecht, B.Life of Galileo, (Collected Plays), Vintage Books Random House, 1972, V/94***

[101] ***Schuon, Frıthjof, Varlık, Bilgi ve Din, Derleyen ve çev. Şahabeddin Yalçın, İstanbul,1997, 59***

[102] ***Urr Jonn, Mekanları Tüketmek, İstanbul, 1999, 224***

[103] ***Nef, John U. Sanayileşmenin Kültür Temelleri, çev. Erol Güngör, İstanbul, 1980, 207***

***onun sonu vakuumdur!*** *Modernizmin profan ideologiyası ilə zombiləşdirilən insan artıq postmodernizm xəyallarına qapılıb. Özünü supermodern və ya postmodern sayan bu günün insanı kütləvi şəkildə təkəbbür və asilik bataqlığında batmış, iblisin sevimlisinə çevrilmişdir. Bizi çox gözəl tanıyan Böyük Yaradan buyurur:* ***"Ey Adəm övladı! Məgər sizə "Şeytana tapmayın(inanmayın, qulluq etməyin), o sizin açıq düşməninizdir!"- demədimmi?! Və "Mənə ibadət edin(inanın, qulluq edin, qanunlarıma itaət edin), bu doğru yoldur!" buyurmadımmı?! Həqiqətən, şeytan içərinizdən çoxlarnı azdırdı! Məgər ağlınız kəsmirdi?!"(Yasin, 60-62)*** *Əgər insan özü öz "**ipini**" və ya "**zəncirini**" şeytanın və ya bütün "**əlinə**" verirsə, şeytanlıq edirsə, burda artıq Allah onun işinə qarışmır, o artıq teokontroldan çıxır. Kosmik kitablar təbiətdə, xüsusən də geosistemdə necə yaşamaq lazım olduğunu hər tərəfdən göstərir və böyük bir yol açaraq bu yolu hər tərəfdən işıqlandırır, lakin bütpərəstlər və ya şeytanqulu olanlar bu işıqlı yol ilə getməkdən imtina edirlər. İnsanın vəzifəsi iki yoldan birini seçməkdir: ya yaxşı olmaqdır, ya da pis, yalnız kosmik miqyasda neytral olmaq olar. Yer miqyasında isə neytrallıq duyulmaz dərəcədədir! Insan yeganə canlıdır ki, onun üçün hər hansı bir sahədə müəyyən edilmiş normalar yoxdur. Insan nəsə, nəyisə edirsə mütləq ya ifrata, ya da təfritə bulaşır! Səhər-axşam normalardan dəm vurub ağız dolusu danışsaq da, insan özünəməxsus ifrat və təfritilə canlılar arasında baş mütəxəsisdir. Ifrat, yaxud təfrit insan təbiətinin kökü və substansiyasıdır. Əksəriyyəti bayağı, xəbis, xain, riyakar, satqın, zorba, yaltaq bir sözlə cinayətkar və ya şeytan olan insanlar hər əsr, hər il, hər gün, hər saat, hətta hər dəqiqə, müxtəlif alət və ya texniki vasitələrlə bu dünyada sayı-hesabı bilinməyən elə faciə və cinayətlər törədirlər ki, bütün bunlardan yer kürəsində yaşayan hər bir şey, xüsusilə hər bir canlı ziyan çəkmiş və çəkməkdədir! Mübarək ayədə buyrulur:* ***"Sənə gələn hər yaxılıq Allahdandır. Sənə gələn hər pislik isə özündəndir!"(Nisa, 79)*** *İnsan fəaliyyət göstərərkən ya pozitiv, ya da ən azı apozitiv olur. İnsanı Allahdan uzaqlaşdıran, Allahı unutduran, yaxud unutdurmağa gətirib çıxaran, Allahın kosmik kitablarda bəyan etdiyi hüquqi, etik, sosial və hərbi normaları tərk və inkar etməyə səsləyən hər şey şeytan funksiyasının daşıyıcısıdır. Satanik funksiya etnos, yaxud cəmiyyətdə də ola bilər(ermənilər, yəhudilər və b.), fərddə də(məsələn, cadügərlər); cərəyan və ya firqədə də ola bilər,(ateizm, modernizm,*

*sosializm və s.) siyasi partiyada da(respublikaçılar, kommunistlər, yap və s.); dünyəvi hökmdarda da ola bilər(müaviyə, buş, putin, əbu ilo), dini liderdə də(əvzai, ibn arabi, ibn baz və s.). Eyni zamanda hər bir şeytan növü spesifik bir tağut və ya bütdür. Son zamanlar tez-tez işlədilən modernləşmə, qloballaşma kimi termin və ya anlayışlar da şeytanlaşmanın bir başqa adıdır. Teoloq, ekosof və teosoflar ittifaq edirlər ki, modern dünyada dinin görməli olduğu əksər iş və vəzifələri elm adı altında satanik cərəyanlar olan modernizm və sekulyarizm zorla mənimsəmişdir. Əgər inkivizitorlar insanın ruhunu xilas etmək adı altında bədənini yandırırdılarsa, modern inkivizitorlar da bədəni xilas etmək adı altında ruhu **"yandırırlar"**! [104] Böyük ekosof və ekopolitik Peççei **"İnsani keyfiyyətlər"** əsərində modern insanın modern texnikasının fəsadlarından danışarkən ürəyi yana-yana belə yazır: **"İnsan planetdəki həyatın az qala bütün formalarına düşmən kəsilən qəddar bir varlığa çevrilir. Mənfur əldahalar haqqında nağıllar uyduran insan, indi özü bu cür əjdahaya çevrilib!"** Dinsiz, imansız, əxlaqsız insanın şeytan və ya mənfur əjdaha olmasına kim şübhə edir?! Modern insanın fəaliyyətinə bircə dəfə diqqətlə nəzər salmaq kifayətdir ki, mələklərin insanın yaradılışı ilə bağlı Allaha **"yer üzündə fəsad törədəcək bir kəsmi yaradacaqsan?!"(Bəqərə, 30)** deyərək etiraz etməsini anlayasan! Şübhəsiz ki, mən bu sözlərlə mələklərə Allah qarşısında haqq verməkdən çox uzağam, lakin saf məxluqlar olan mələklərin insanı ən azı dahi insanlar qədər tanıdığını da etiraf etməliyik. Kosmik subyektlər olan mələklər insan ontologiyasına yaxşı bələd idilər, amma insan epistomologiyasından xəbərsiz idilər ki, elə buna görə Allah onlara, - elə həmin ayədə bildirildiyi kimi, - **"siz mənim bildiyimi bilmirsiz!"** demişdi.*

*Dini məktəblər modernizmi düşmən elan etmiş, onun əksər və əsas sahələrini müzakirə və mübahisəsiz rədd edir, modernizmi tənqid edən postmodernizmi də qəbul etmirlər! Çünki postmodernizm modernizmin neqativ və apozitiv effektlərinin təsirini heç olmasa minimuma endirmək üçün ortaya çıxsa da, hər halda modernizm qaynaqlıdır. Əgər modernizm həm prinsip, həm də nəticə etibarı ilə profan və ateist xarakterə malikdirsə, postmodernizm yalnız nəticə etibarı ilə ateist və profan olmaqla kifayətlənir. Postmodernizm dünyada özünə geniş yer tutmuş teoloji və dini hərakatlar qarşısında ehtiyatlı*

[104] ***İzzetbegoviç A.Doğu ve Batı arasında İslam.İstanbul, 1993, 71***

*davranmağa və bir növ özünü yandırmamağa çalışır. Halbuki postmodernizm liberal modernizmdən başqa bir şey deyil. Mühafizəkar məktəblərin modernizmin hər bir formasını, növünü və fəaliyyətini şübhə ilə qəbul edib rədd etmələrinin əsasında modernizmin* ***MÜQƏDDƏSİ(Allah, Din, Kitab, Rəsul, Nəbi, İmam və b.)*** *hakim aftoritet kimi qəbul etməyən əqlin nəticəsi olmasıdır. Modernizm nəticə etibarı ilə Müqəddəsdən təmizlənmiş bir dünya qurmağa yönəlmişdir ki, bu səbəblə* ***"antidini"*** *hərakatdır.* [105] *Premodernizmdən(modernizmədək) fərqli olaraq modernizm ümumiyyətlə fövqəttəbiiliyi rədd edir.*[106]*Elə bir din yoxdur ki, onda spesifik fövqəttəbiilik olmasın. Buna görə də modernizm bütün dinlərə düşmən və müxalifdir. Modernizm qərb sivilizasiyasının substansiya və əsası olmuşdur. Qərbin də əsasında abş durur. Təsadüfi deyil ki, bəzi elm və hikmət adamları amerkanizmlə modernizmi sinonim hesab edirlər. İnsanları sosial formada birliyə və mübarizəyə səsləyən ənənəvi dinlər, xüsusi ilə də İbrahimi dinlər modern imperiyanın məqsədlərini reallaşmasına ən böyük əngəl hesab edilir. İslam da bu əngəllərin ən nəhəngidir. Abş öz qondarma qlobalizmi ilə İslama qarşı düşmən mövqeyini gizlətmir. Bir-çox böyük İslam alimi, o cümlədən Seyyid Qutub, Xomeyni və bir-çox digərləri abş-ı şeytanın təcəssümü hesab etməkdə qətiyyən yanılmırdılar. Çünki abş mövcud olduğu gündən bu günə kimi hər zaman və hər yerdə antidini, xüsusi ilə də antiislami funksiya və ideya daşıyıcısı olmuşdur. Nəinki İslamın, bütün İbrahimi dinlərin imperativləri baxımından böyük dəccalın və ya antixristin gələcək çarlığı dövrünə qarşı bütün dindarlar barışmaz və amansız mübarizə aparmalıdırlar! Dini imperativ və prinsiplər modernizmin bütün imperativ və prinsiplərinin satanik substansiya və demonik təbiətini ifşa etdiyi üçün modernizm dini aradan qaldırmadan qloballaşa bilməz! Həmişə qloballaşan zülm, əxlaqsızlıq və haqsızlığa qarşı mübarizədə insanlar dinə pənah aparmışlar. Buna görə zülm, fühuş və fəsad daşıyıcısı olan ixtiyari sistem, dövlət, hakimiyyət, ailə, klan, ideya, bir sözlə hər şey dini qarşısında görməyə məhkumdur! İslam dininin timsalında bu çox aydın görünür. Böyük müsəlman mütəfəkkiri*

---

[105] ***Hocaoğlu Durmuş, "2000"li Yıllara Girerken İslam Düşüncəsinin Önündəki Problemlər və Çözüm Önerileri", İstanbul, 2001, 307***

[106] **Young, E. D. An Introduction to the Old Testament, Grand Rapids, 1949, 123**

*Xomeyni **"Vilayəti-Fəqih"** kitabında əbəs yerə demirdi: **"İslam haqq-ədalət uğrunda mübarizə aparanların, azadlıq və müstəqillik istəyənlərin dini olmaqla yanaşı, mübarizlərin və istismara qarşı muqavimət göstərən bir xalqın məktəbidir!"** Məhz bu faktoru anladığı üçün abş imperiyası dinlər arasında, xüsusi ilə İslam firqələri arasında süni konfiliktlər yaratmağı və bu konfliktlərin miqyasını genişləndirməyi, onları daxildən parçalamağı, hətta saxtalaşdırmağı da qarşısına məqsəd qoyub. Elə bir din yoxdur ki, onun spesifik ədalət anlayışı olmasın. Modernizmə görə isə ədalət uydurulmuş tabulardan biridir. Ədalət anlayışı bərqərar olan mentalitetdə milli və dini müqavimət də güclü olur. Modern imperiya da bu müqaviməti aradan qaldırmadan rahat və aldadıcı təbliğat apara bilməz. Bir-çox dinlərdə min illərdir ki, var və aktiv olan ənənəvi konservatizmə qarşı mübarizə abş-ın strateji planlarının əsas tərkib hissəsidir. abş-ın birbaşa maliyyə yardımı ilə yağışdan sonra artan göbələk kimi çoxalan missioner təşkilatları bu istiqamətdə böyük işlər görürlər. Bəzi sektalar açıq şəkildə ənənəvi dinlərə qarşı çıxış edərək iddia edirlər ki, guya ənənəvi dinlər insan haq və hüquqlarını məhdudlaşdırır. Şübhəsiz ki, bu cəfəng sözlər məntiqsiz və absurddur. Ənənəvi dinlər xalqın ruhudur, etik mədəniyyətidir, əxlaq qanunudur, mənəvi həyat normasıdır. Ənənəvi anlayışların əsasında təcrübə, ağıl və vəhy triadası durur. Vəhy ənənəvi anlayışın zirvəsidir. Modernizmin hər sahəsi bu zirvəyə qarşı mübarizə və mücadilə edir. Buna görə də teoloji məktəblər bütün dinlərin mərkəzində bir fitri ənənə(vəhy) durduğunu qəbul edib təbliğ etməklə modernizmə üsyan edirlər. Çünki modernizm təkcə monoteist və ya İbrahimi dinlərin həqiqətlərini deyil, politeist dinlərin həqiqətlərini də təkamül və inkişafa zidd və düşmən elan etmişdir! Amma etiraf etmək lazımdır ki, təbiəti və təbiiliyi müdafiə etməkdə monoteizm politeizmdən, muvahhid də bütpərəstdən daha aktivdir. Çoxilahlıq dünyanı ilahi varlıqlarla əhatə olunduğu üçün qəbul edir və bu səbəbdən ətraf aləmə bir hörmət əlaməti olaraq ziyan verməməyə çalışır. Bu çalışma çox vaxt müəyyən bütpərəstlik rituallarında özünü biruzə verir. Fəqət bütpərəstlik eyni zamanda dəyişməyə və hüdudlarının üzərinə yüksəlməyə olan ehtiyacının fərqində deyil: dünya mövcud halı ilə yaxşıdır və yaşaması üçün lazım olan hər şeyi təbiətində qoruyur.*[107] *Modern bütpərəstlər də antik*

[107] ***Breulliy Elizabeth Palmer, Hiristiyanlık ve Ekoloji, İstanbul, 1992, 90***

*bütpərəstlərdən kimi gah özlərindən ənənə, qanun və qaydalar uydurur, gah öz problemlərini bir-birinə, yaxud da təbiətə yükləməyə çalışır, gah da Allahın onları bütpərəst yaratdığını iddia edirlər. Lakin antik bütpərəstlik modern formasından fərqli olaraq təbiətə qarşı passiv idi. İnsan bütpərəstlik yolunu öz istəyi və əməli ilə seçir. Heç kim, heç nə bütpərəst yaradılmır. Əksinə bütpərəstlik orjinal yaradılış formasının falsifikasiyasıdır! Quranda deyilir:* ***"Müşriklər deyəcəklər ki, "əgər Allah müşrik olmağımızı istəməsəydi nə biz şirk edərdik, nə də atalarımız. Heç bir şeyi haram etməzdik!" Onlardan əvvəlkilər də əzabımız gələnədək belə bir yalana sarılmışdılar!"(Ənam, 148)*** *Təəssüf ki, əvvəlki büdpərəstlərin sarıldığı yalana və ya yalanlara günümüzün bütpərəstləri daha çox və daha möhkəm sarılıblar! Halbuki istər sosial hadisələr, istərsə də təbiət hadisələri nə determinist, nə də absolyut xarakterə malik deyil, sadəcə* ***contingence***[108] *xarakterə malikdir. Fiziodinamik proselər də ən azı nəticəsinə görə* ***contingence*** *xarakterlidir. Əcaba, təbiətdə hər şey dəyişdiyinə görə sabit bir şey yoxdurmu?! Şübhəsiz ki, var. Təbiət bir tam kimi dəyişməzdir. Lakin təbiəti təşkil edən hissə, element və ya atom və ya zərrələr hər bir xronon, hər bir ekon dəyişir. İnsan təbiətin ən dəyişkən və ən sürüşkən hissəsi, elementidir. İnsan yer üzündə ən sərbəst və ən müstəqil məxluqdur. Təbiətdə məcburilik kimi görsənənlər də sadəcə səthi yanaşmanın nəticəsidir.* ***Təbiət və təbiilər nə məcbur edir, nə də məcbur edilməyə layiqdir!*** *Allahın insana ən böyük əmanəti olan təbiət nəinki qorunmağa, hətta sevilməyə, əzizlənməyə layiqdir. İnsan təbiəti və ətraf mühiti çirkləndirmədən, zəhərləmədən(sözün hər mənasında) texnika istehsal edə bilərmi?! Əcaba, insan nə edirsə etsin, bunun nəticəsi təbiətə zərər və zərbə vurmağa gətirib çıxaracaqmı?! Çirklənmə qaynağı insandır, yoxsa təbiət?! Bu sualların paradiqma xarakterli suallar olması heç kimdə şübhə doğurmur. Zira insan texnoloji istehsal prosesində təbii qayda-qanunları nəzərə almaz, zehnində olan bir-çox aksiom xarakteri almış totalitar şablonlara əsaslanıb hərəkət edər. Texnoloji aktivlik insan və təbiət arasındakı münasibətlərin antoqonist şəkil almasına səbəb olub. Təbiətin də, insanın da qurluşu bir-çox həssas nizam və ölçünün bir yerdə olmasının nəticəsidir. Lakin buna baxmayaraq təbiət insansız*

[108] ***Baş verən hadisələrin məcburi xarakterə malik olmaması. Yəni baş verən bir hadisə baş verməyə də bilərdi və ya onun əvəzinə başqa bir hadisə vaqe olardı.***

*var ola bilir. Uzun kosmik və geoloji tarixdə təbiət insansız var olub və onun insansız tarixi insanlı tarixi ilə müqayisə edilsə, təbiətin insansız tarixi xoşbəxtlik tarixidir. Elə bunu dərk edən bəzi alimlər indi də insansız təbiət arzusuyla alışıb yanırlar. Məsələn, Çoran deyirdi:* ***"Yaxın vaxtlaracan insanın tezliklə məhv olacağına qəti əmin idim. İndi fikrim dəyişib: o məhv olmalıdır!"*** *Mən də bu düşüncəni haqlı sayıram, çünki insan tarixi fitnə-fəsad, israf, zülm, yalan və haqsızlıq tarixidir! Bu baxımdan insan və təbiətin münasibət və əlaqələri tarixi də zülm, israf, yalan və fəsaddan yan ötə bilməz! Yer üzündəki zülm, fəsad, yalan və israfa görə insandan başqa heç kim məsuliyyət daşımır! Əgər yer üzündə mələklər yaşamış olsaydı heç bir zülm, yalan və fəsaddan söhbət gedə bilməzdi. Çünki mələk təbiəti zülm, yalan, fəsad və israfa tamamı ilə zidd olan ekosistemdir. İnsan isə instinktiv olaraq bunlara meyl edir.* ***Əqidəsindən aslı olmayaraq əksər alimlər ittifaq edirlər ki, geosistemdə fitoorqanizmlər 450 milyon il, zooorqanizmlər isə 400 milyon ildir ki, mövcuddur. İnsanın daxil olduğu məməlilər sinfi 60 milyon ildir ki, var. İnsan özü də bir-neçə on min ildir ki, var.*** *Yüz milyon illərdir təbiətdə var olan başqa canlılar heç lokal miqyaslı ekoloji problemlər yaratmadıqları və yarada da bilmədikləri halda, insan bir əsrin içində bu qədər facielər törədir?! Nə oldu ki,* ***industrial insan*** *və ya* ***modern insan*** *meydana çıxmayanadək ekoloji və qlobal krizis yox idi, amma modern insan və industrial sivilizasiya meydana çıxan kimi qlobal krizis yarandı və qarşısıalınmaz hala gəldi?! Bəziləri deyir ki, elm texnikanın təməlidir, texnika da geriyə döndürülməsi qeyri mümkün olan problemlərə bais olur. Mən isə deyirəm ki, problem elm və ya texnikada deyil, onları profan və modern qəlibə salmaqda və salanlardadır. Profan ideyalarla yoğrulmuş elmi-texniki inkişafın ən yüksək nəticəsi də təbiətə və bəşəriyyətə ciddi zərbə və zərər vurmayacağına zəmanət verməkdə acizdir. Bunu hətta ən böyük profan ideoloqlar da etiraf ediblər. Məsələn, böyük ateist Rassel deyir ki, elmi texnikanın ən doğru nəticələri də tamamı ilə yararlı olmamışdır![109] Radikal ekoloqlar indistrual çirklənmə proseslərinin intensivliyini azaltmaq üçün bir sıra ideya və mülahizələr irəli sürürlər. Bunlardan biri də modernizmin insturmentalist təbiət anlayışının aqressiv və antitəbii mahiyyətinin ifşasından ibarətdir.*

---

[109]***Russel Bertran, Din ile Bilim, Ankara, 1972, 190***

*Şpenqler antitəbiətçilik, təbiəti kölələşdirmək ideyasının tarixini Faust adlandırdığı Qərb mədəniyyəti qədər əski sayır. Ona görə müasir insan tərəfindən minyatur bir dünya qurulacaq və bu da* ***"Allah və ya təbiət"(Deus si ve Natura)*** *üzərində qazanılmış parlaq bir zəfərə işarə sayılacaq. Yaratdığımız dünya sonsuz kainat kimi öz qüvvəsi ilə hərəkət edəcək və yalnız insanın barmağının işarəsinə tabe olacaq. Öz özünə bir dünya inşa etmək, yəni bir növ Allah olmaq bir Faust araşdırıcısının röyasıdır. Prometeyin göydən odu götürməsi kimi əldə edilmək istənən qənimət və mədəniyyətimizə qazandırılmaq istənən enerji bütün sirrləri ilə birlikdə kainatın özüdür. Çünki rasionalizm vasitəsilə* ***"texnikaya olan inanc"*** *materialist bir din olmuşdur: uca Allah kimi texnika da əbədi və ölməz olmuşdur.*[110] *Modern texnikanın ən amansız tərəfi onun totalitar aftokratiyasıdır. İnsan texnikanı kontrol etməz, texnika onu kontrol edər. Texnoloji kollektivdə insan azadlığı bir aldatmacadır. Bu günün texniki fenomenlərini dünənkindən ayıran təməl xüsusiyyət texnikanın antitəbiiliyidir. Çünki texnika təbii dünyanı yıxar, kənara atar, ya da basqı altına alar və aləmin özünü yeniləməsinə və ya onunla ortaq əlaqəyə girilməsinə belə yol verməz!*[111] *Absurd zorbalıq, daxili inamsızlıq, fəhm və emosiyaların distrofiyası – texnikanın təbiətə üstün gəlməsinin əlamətləri bunlardır. Texnikalaşmış dünya, bürokratiyanın öldürücü mühafizəkarlığı, şəxsiyyətsizlik, insanın antitəbii xarakter almasının göstəriciləridir.*[112] *haydegger deyir ki,* ***"Texnika sadəcə bir vasitə deyil. Texnika gizlədilmiş bir şeyin açılmasıdır!"*** *Yaspers isə bu cür düşünənlərə qarşı yazır:* ***"Tamamı ilə aydındır ki, texnikada yalnız sonsuz imkanlar deyil, həm də həddi-hüdudu bilinməyən təhlükələr mövcuddur!"***[113] *Problem ondadır ki, texniki vasitələr saleh insanların əlində deyil, zalim və facirlərin əlində və nəzarətindədir. Lakin unutmaq olmaz ki, texnologiya istər pis, istərsə də yaxşı mənada günümüzün geokulturasıdır. Şübhəsiz ki, texnologiya və texnosferanın spesifik ekoloji və qlobal fəsadları var. Əsasən insanın destruktiv və aqressiv duyğu və düşüncələrinin məhsulu olan modern texnika Dünay, Volqa, Missisipi kimi nəhəng çayları, Baykal, Ontorio, Balxaş*

---

[110] ***Spengler, Oswald, İnsan və Texnik, Ankara, 1973, 87***
[111] ***Manzur, S. Perviz, "Teknoloji Metafizikçisi", Derleyen ve çev. Taha Kılıç (İnsan ve Teknoloji İçinde), İstanbul, 1992, 145***
[112] ***П.С.Гуревич. Философия культуры. М., 2001, 172***
[113] ***К.Ясперс. Смысл и назначение истории. М., 1991, 139***

*kimi gölləri büsbütün zəhərləmək və tamamı ilə yararsız hala gətirmək gücünə malikdir! Amma əksinə qadir deyil! Texnika və texnologiya nəinki təbiətin, adi bir insanın da həyat və sağlamlığını qorumağa və müalicə etməyə zəmanət verə bilmir! Belə bir zəmanət üçün təfəkkür, əxlaq və mənəviyyatın olması vacib və lazımdır. Əxlaqi və mənəvi normativlərə riaət və itaət etməyən insanın yaratdığı ilə əxlaqı, mənəviyyatı, təbiətə sevgisi olan insanın yaratdığı arasında təbii ki, fərq olacaqdır. Profan düşüncə və ideyalar qlobal miqyaslı təsirə malik olmayanadək qlobal və ekoloji problemlər problemlər meydanında yox idi, amma profan əqidələr kütləvi yayılandan sonra ekoloji krizis yarandı! Texnosfera genişlənir, amma əvəzində əxlaq və mənəviyyat sferası, noosfera nəinki genişlənmir, hətta daralır və sıxılır. Bunun nəticəsində hələlik insanlığın gördüyü ən dəhşətli faciələr - iki dünya müharibəsi baş verdi! İkinci dünya müharibəsindən, xüsusilə Yaponiyaya atılan nüvə bombalarından sonra antropogen faktorun geosistemi məhv etməyə qadir bir qüvvə olması aydın və anlaşılan olduğu üçün ekoloji və qlobal problemlər anlayışı prioritet mövzuya çevrildi. Qarşıda bizi üçüncü və bəlkə də sonuncu dünya müharibəsi gözləyir. Çünki yerin bizim yaşadığımız və təsir etdiyimiz mühiti böyük insani güclər tərəfindən qlobal bir bazara çevrilmişdir. Bu naturakriminal güclər hər gün təbiəti və təbiilikləri alıb satmaq, destruktiv və aqressivcəsinə tükətməklə məşğuldurlar! Akademik adına layiq olan nadir elm adamlarından olan Vernadski hələ 1922-ci ildə elm və texnika adamlarına belə xəbərdarlıq edirdi:* ***“Bəşəriyyətin atom enerjisinə yiyələnəcəyi vaxt uzaq deyildir. Bu elə bir qüvvə mənbəyi olacaq ki. Insanlara istədiyi kimi həyat qurmaq imkanı verəcəkdir. İnsan bu qüvvədən istifadə etməyi, bəşəriyyətin məhvinə deyil, xeyirinə yönəltməyi bacaracaqmı?! Alimlər öz elmi kəşfləri üçün böyük məsuliyyət daşıyırlar!”*** *İkinci dünya müharibəsini qlobal bir vandalizm və genosidlə sona çatdıran texnokrat* ***“qəhrəmanlarına”*** *böyük alim Norbert Viner belə demişdi:* ***“Biz sizə gücün, qüdrətin hüdudsuz mənbəyini bəxş eləmişdik, sizin törətdiyiniz isə Bergen-Belzen və Xirosima oldu!”*** *Elə buna görə alimlərin çoxu ikinci dünya müharibəsindən sonra bəşəriyyətin xaos və stress dövrünə qədəm basdığını söyləmişlər. Albert Eynişteynin bu təsbiti məşhurdur:* ***“Mən bilmirəm üçüncü dünya müharibəsi necə olacaq! Amma bunu bilirəm ki, dördüncü dünya müharibəsindəki silahlar daş və kəsəkdən ibarət olacaq!”*** *Əlimizdəki silahların*

*gücünü anlaya bilsək Eynişteynin nə demək istədiyini anlamaq olar. Peççeinin həyacanı da elə bunu anlaması səbəbindəndir. Lakin bu gün elmi-texniki tərəqqi o qədər sürətlə irəliləyir ki, əmin bir şəkildə demək olar ki, geosistemi məhv etmək üçün artıq nüvə-atom silahına ehtiyac qalmamışdır. Elə sosiosof Giddensin təsbit etdiyi kimi:* ***"Nüvə münaqişəsinin mümkünlüyü sənaye əsasına dayanan müharibə formasında orta ölçülü vaxt prespektivində bəşəriyyət üçün yeganə qorxulu təhlükə deyil. Geniş miqyaslı qarşıdurma, hətta adi silahdan istifadə edilsə də, öz nəticəsinə görə dağıdıcı ola bilər. Elm və texnologiyanın birləşmə prosesinin davam etməsi nüvə silahı qədər dəhşətli ola biləcək silah növünü istənilən qədər çox istehsal edə bilər. Ekoloji katastrof prespektivi böyük müharibə riskinə nisbətən az ehtimal olunsa da, nəticə etibarı ilə eyni dərəcədə təhlükəlidir!"***[114] *Ümumiyyətlə, lokal və regional miqyaslı müharibə və münaqişələr insanlığı daha kiçik hissələrə parçalayaraq, kin və nifrət toxumlarını bəşəriyyətin ən dəyərli, ən qiymətli əkin sahələrinə səpə bilmişdir. Modern insan çox uzun məsafələrdən hədəfini çox asanlıqla vura bilən çox mükəmməl texnikaya malikdir. Bir anda böyük şəhərləri xəritədən silə biləcək, ölkələri məhv edəcək səviyyədə gücə maıik texnika – elmin industriallaşmasının nəticəsidir. Bu günkü elmi-texniki tərəqqi(əgər buna tərəqqi demək mümkünsə) bizə çoxda uzaqda olmayan bir gələcəkdə bəşəriyyəti büsbütün məhv edə biləcək qarşısı alınmaz qlobal bir fəlakətin(böyük ehtimalla müharibənin) gələcəyilə bağlı xəbərdarlıq siqnalları verir. İqtisadi sistemin bu günkü halı mədəniyyətin davamı üçün çox vahiməli bir təhlükədən xəbər verir. Bu təhlükə sadəcə içəridən deyil, kənardan da gəlməkdədir. İçəridən gələn təhlükə budur: bügünkü sosial nizam içində dəyərlər ciddi təhrifə məruz qalır. Kənardan gələ biləcək təhlükə isə böyük müharibələr, ya da dünya əhalisinin başqa formalarda parçalanmasıdır.*[115] *Günü-gündən materialist və utilitarist insanların sayı artır, idealogiyaların sayı-hesabı bilinmir, amma idealistlər isə azdır və hər gün azalır. İdeyası olmayan, yalnız fizioekonomik mənfəətini güdən insanların dəstəyilə texnosfer inkişaf edir, genişlənir, amma bu texnozombi insanlar arasında Afrikanın susuz çöllərində hər gün can verən və ölən qaradərili körpələrin*

---

[114] ***Новая постиндусериальная волна на Западе. Антология. с, 119***

[115] ***Sievers, Allen M.ihtilal Tekamül ve iktisadi Nizam, istanbul, 1969, 309***

*həyatını qurtarmağı düşünən varmı?! Modernizmdən ağız dolusu dəm vuran ideoloq və siyasətçilər öz mənfur və dəyərsiz arzularına çatmaq yolunda yüz miyonlarla insanı aclığa, səfalətə, cürbəcür xəstəliklərə, əxlaqsızlığa məhkum etdilər və etməkdə davam edirlər! Üstəlik vicdandan, ədalətdən, mərhəmət və ağıldan uzaq faciəli mənzərələri soyuqqanlıqla seyr edirlər! Modernistlər üçün artıq təbiət də, bəşəriyyət də üzərində təfəkkürə dalınacaq, baş sındırılacaq bir nəsnə deyil. Bunlar üçün ətraf mühit, dünya, hətta kosmosun - şərhi, analizi, araşdırma və incələnməsi lazım olan mətn və ya yazı kimi olması bitmişdir. Bunlara görə ətrafda olan, duyduqları, anladıqları hər şey şəxsi mülkləri olub, istədikləri kimi istifadə və istismar edə biləcəkləri nəsnələr yığınıdır. Texnologiyanın təbiətə böyük həmləsi nəticəsində qazanılmış lyüks həyat, komfort, böyük sərvət elə bir harınlığa səbəb olub ki, təfəkkür, ağıl və düşüncənin fəaliyyəti minimuma enib. Bu insanlar arasında çox təəssüf ki, böyük alim və filosoflara da təsadüf edilir. Amma mən alturizmi olmayan kimsələrin nəinki elm və hikmətinə, hətta insanlığına da şübhə edirəm. Artıq insanın etik dəyərləri arasında alturizm tarixə çevrilmək üzrədir. XX-əsrin sonlarından başlayaraq yalnız eqoizm və* ***"sileyi-rəhim"*** *donu geyinmiş yerlibazlıq və tayfabazlıq inkişaf etmişdir. Çox təəsüf ki, bizi yaxın gələcəkdə gözləyəcək təhlükələr barədə çox az adam düşünür. Bu azlığın da düşüncələri diqqətə alınmır. İnsanların böyük əksəriyyəti ətraf mühitində nələrin baş verdiyini düşünmədən, bilmədən, düşünmək və bilmək istəmədən həyat sürür. Ekosof və ekopolitiklər köklü yeniliklər olmadıqca, modern aktivliyin təbiət üzərində texnokontrol qurma vasitəsilə rifah və əmin-amanlığa nail olmaq cəhdlərinə son qoyulmadıqca, ekoloji və qlobal problemlərin nəinki həll edilməyəcəyinə, həllindən söhbət etməyin belə absurd olduğunda israrlıdırlar. Məsələn, ekosof Karrel deyir ki, texnologiya bizə var-dövlət, sağlamlıq, konfort, yaşamağın bütün asalıqlarını gətirdi, amma həyatımızın dəyərini heçə endirdi. Özümüzü dərk etmədən, öyrənmədən təbiətə hakim olduq. Buna görə maşınların inkişafına çox uyğun, fəqət fərdi, kollektiv və soyumuzla əlaqəli inkişafa yaramayan bir mühitlə əhatə olunduq. Modern insan maddəyə üstünlük verdi. Həyatın maddi yönü ilə könül və ruh yönünü bəlli bir nizam və ölçüdə tutmaq lazım olduğunu nəzərdən qaçırdı. Maşınların ruhsuz kütləsi içində yaşamaq üçün atalarımızın torpağını, bitkiləri, heyvanları tərk etdi. Günəş altında dalğalanan meşələrin*

*dalğınlığını, gecənin sükutunu, ağacların və suların ahəngdar gözəlliyini unutdu. Geometrik xətləri olan qatı ürəkli şəhərlərə qapandı. Fabriklərin monoton fəaliyyəti içində şəxsiyyətini itirdi. Həyatın bütün qanunlarını zorladı. Bizim reallıqdan ayrılmağımız o zaman başladı. Biz bu gün bədənimizin və ruhumuzun əsas ehtiyaclarına heç baxmadan irəli gedirik.*[116] *Böyük psixosof Yunq da Karrel kimi düşünür: Ağlımız təbiət üzərində hökm eləyən yeni dünya yaratdı və bu dünyanı maşınlarla doldurdu. Təbiətin fəthi ilə fəxr etsək də, əslində biz onun əsarətindəyik. İndi bəşər tarixinin elə bir mərhələsinə gəlib çatmışıq ki, bütün güclər ətraf mühitin öyrənilməsinə yönəlib. Amma insan varlığının mahiyyətinə yetərincə diqqət edilmir!* [117] *Bəzi tədqiqatçılar hesab edir ki, modernizmin fəsadları yalnız yeni və təkmilləşdirilmiş modernizmlə aradan qaldırıla bilər. Məsələn, Durmuş Xocaoğluna görə hər hansı bir modernizmi ancaq başqa bir modernizmlə geridə qoymaq olar. Bu baxımdan bir modernizmin geridə qoyulması üçün daha inkişaf etmiş başqa bir modernizmin yaradılması lazımdır. Hələ ki, yaşanılmaqda və hökmünü icra etməkdə olan Qərb modernizmi ancaq və yalnız özündən daha üstün, gerçək mənada modern olma vəsfini daşıyan bir qurluşla arxada qoyula bilər ki, bunu neomodernizm adlandırmaq olar. Ona görə neomodernizm budur: Neomodernizmdə insan azadlığı inkişaf etdirilərək irəli aparılmalı, ancaq bununla yanaşı qərb modernizmi tərəfindən məna və maddə arasında maddə lehinə pozulan balans çox mükəmməl formada yenidən qurulmalı və bunun olması üçün MÜQƏDDƏS olan funksiyanollaşdırılmalıdır.*[118] *Ənənəvi ideya və fikirlərlə baxış bucağı ilə modern ideya və fikirlərlə baxış bucağı arasında ən əsas fəqrlərdən biri budur ki, modernizm problemlərin çözümünü sürətlə dəyişən hadisə və düşüncələrin şəkillǝndirdiyi populyar paradiqmalar çərçivəsində axtardığı halda, ənənəvi məktəblər problemlərin qaynağı olan* ***əsl səbəbi*** *təsbit etməyə çalışırlar. Buna görə də ənənəvi məktəblərin əsas fikir və ideyaları mütləq radikallıq kimi qəbul edilir. Çünki problemlərin əsl qaynağının ifşa edilməsi modernizmin əsl məqsədinə ziddir. Ənənəvi və ya*

---

[116]***Carrel, Alexis,Hayat Hakkında Düşünceler,çev.Cahit Beğenç, İstanbul, 1988, 36***
[117] ***Юнг К.Г. Человек и его символы. М., 2001, 23***
[118] ***Hocaoğlu Durmuş, "2000"li Yıllara Girerken İslam Düşüncəsinin Önündəki Problemlər və Çözüm Önerilǝri", İstanbul, 2001, 308***

*teoekoloji böhran həm də mədəniyyət və din böhranıdır. Bu böhran təbiətin müqəddəsə aid olma vəsfini itirib adiləşməsilə başlamışdır. Müqəddəsə aid olma ilə müqəddəs arasında böyük fərq var. Müqəddəs olan Allah, müqəddəsə aid olan isə təbiətdir. Hər hansı bir şey və hadisə yalnız Allahla əlaqələndirildiyində hörmətə malik olur. Allahsız və ya profan cizgidə hörmətə malik olmaq ən yaxşı halda ehtimal edilə bilər ki, bu da çox nadir hallarda özünü doğruldur. Profan düşüncəyə malik toplum və şəxslərin böyük əksəriyyəti əxlaqsızlıqları ilə məşhurdur. Allaha aid olan təbiəti Allahdan ayırmaqla profan və modernist insan təbiəti də, özünü də təhlükəyə atmış oldu! Ənənəvi ideyalar insanı bu təhlükədən qurtarmaq istəyir, amma qurtara bilmir. Çünki ənənələrin özündə də ciddi və bağışlanması və ya keçilməsi mümkün olmayan xətalar var. Nəsr deyir ki, ənənəvi məktəblər modernizmi sadəcə qarşı çıxmaq üçün deyil, onu daha üst mənəvi ölçüdə assimilyasiya etmək üçün qarşısına almalıdır. Nəsr əlavə edir ki, ənənə sadəcə bizə miras qalmış mədəniyyət deyil, ilahi prinsiplər və onun din, sənət, elm və fəlsəfə kimi həyatın bütün təbəqələrində görülən inikasıdır.*[119]*Dəhşət və kədər doğurur ki, Allah və mələklər tərəfindən yaradılan və idarə olunan teoloji və nizamlı kainat anlayışından, öz-özünə yaranan və idarə olunan profan və xaotik kainat anlayışına keçid ateist və antiteist elm dəllalları tərəfindən bəşəriyyətə elmi-texniki tərəqqi və inqilab kimi sırınmış və sırınmaqdadır! Kopernikdən sonra qərb astranomları insanı kosmik okeanda hədəfsiz, qayəsiz yürüyən bir ulduzun ətrafında dönən kiçik bir göy cisminin üzərindəki ləkə kimi gördülər. Allah, mələklər, şeytanlar teleskoplarının o biri ucunda görünmədiyi üçün insanın bu soyuq və sonsuz kosmik maşın içində tamamı ilə tənha olduğuna hökm etdilər. İnsan sanki bir qəza və ya xəta əsəri idi. Müqəddəs hesab etdiklərinin əqli dəlillərini görmədiyi bir aləmdə özünü yabançı hiss edən qərbli adam həyatının son mənasını axtarmağı lüzumsuz sayıb kənara atdı. Bu gün də etdiyi kimi təbiətə fəth ediləcək, istifadə ediləcək və sonra öz maddi rifahının artması üçün mexaniki vasitələrlə işlədiləcək bir düşmən kimi baxdı.* [120] *Halbuki təbiətin insanoğluna düşmən olmadığı gündən daha aydındır. İnsana düşmən olmayan bir şeyin də şeytan olmasından söhbət gedə*

---

[119] ***Aslan Adnan, Dinler ve Hakikat, İstandul, 2006, 216***
[120] ***Meryem Cemile, Batı Materializmi Karşısında İslam, İstanbul, 1962, 41***

*bilməz! Modernizm profan ideya və fikirlərin daşıyıcısına çevrilən ideoloji funksiyalar kompleksi kimi Allahın ehtişamını anladan təbiəti adi kosmik mexanizm kimi təqdim və təbliğ etməyi bacardı. Adiləşdirilmiş bir dünya hökm edilməyə, istənilən şəkildə istifadə və istismar edilməyə layiq olan dünyadır. Əgər dünya kainatın mərkəzi deyilsə, dünyada yaşayan canlılardan sadəcə biri olan insan hansı səbəbə və hansı xüsusiyyətinə görə kosmosun mərkəzində durmalıdır?! İnsan təbiəti ilahi məhsul kimi görmədiyi üçün onunla heç bir məsuliyyət hissi duymadan davrana bilər və davranır da! Modern düşüncələrdə nəinki bu dünya, bütövlükdə kainat ən pis halda mexaniki olaraq düzənlənmiş, determinizm prinsiplərinə tabe olan və antropogen təsirə məhkum bir sistemdir. İndustrial sivilizasiya qurulandək təbiət əksəriyyətcə kosmik kitab hesab edilirdisə, indi artıq kosmik aftomatdan başqa bir şey görülmür! Aftomat da, məlum olduğu kimi, mexanika qanunlarına tabedir. XVII-XVIII-ci əsrlərdə yalnız bir elm inkişaf edirdi ki, bu da mexanika idi. O dövrdə mexanika proses və hadisələri açıqlaya biləcək yeganə elm hesab edilirdi. Mexanik baxışlar o dərəcədə qabarmışdı ki, heyvanlar ittifaqla maşın hesab edilir, insanın da maşın olub-olmamasında ixtilaf edilirdi. İnsanın maşın olduğunu iddia edənlərin başında duran fransız filosofu Lametrinin* ***"İnsan-maşın"*** *əsəri məşhurdur. Heyvanların mexanizm və maşın olması uydurmasının müəllifi isə Dekartdır. Dekart və tərəfdarları insandan başqa digər canlıların şüursuz, fikirsiz, hətta hissiz bir maşın və mexanizm olduğuna etiqad edirdilər. Kartezian dualizmi iki dünyanı bir-birindən ayırdı və bir-birinə qarşı qoydu. Düşünən və ya psixi dünya****(res cogitans)*** *ilə fiziki və ya yertutan dünya****(res extensa)*** *arasındakı fərqin qoyulma tarixi çox qədim olsa da, bu mütləq distinksiya Dekart tərəfindən sistemləşdirildi. Dekart üçün fiziki dünya, başqa sözlə ətraf mühit sadəcə bir maşından başqa bir şey deyildi. O hesab edirdi ki, ətraf aləmin heç bir məqsədi və ruhu yoxdur, təbiət mexanik qayda-qanunlara görə fəaliyyət göstərir və ətraf mühitdə olan hər şey hissələrinin düzlüşü və hərəkitənə baxılaraq açıqlana bilər. Təbiətin bu mexaniki təsviri Dekartı izləyən çağda elmdə hegemon paradiqmaya çevrildi. XX-ci əsr fizikasındakı köklü dəyişikliklərə qədər mexanizm təbiət hadisələri haqqında teoriyaların formullaşdırılmasında və elmin bütün sahələrində liderlik etdi. Dekart elmi düşüncənin ümumi binasını ucaltdı və qüsursuz bir maşın kimi*

*riyazi qayda-qanunlarla idarə edilən təbiət anlayışını formulə etdi. Orqanizmadan maşına doğru təbiət planında vaqe olan qəti dəyişmə insanların təbii mühit haqqındakı təsəvvürləri üzərində güclü təsir göstərdi.* [121] *Malnbraş Dekart tərəfdarlarının ən yumşaq və ən mərhəmətlisi hesab olunurdu. Bir gün Fontenel Malnbraşa qonaq gəlir. Malnbraş öz itinə ayağı ilə möhkəm vurur və buna görə üzülən Fontenelə soyuq bir davranışla* ***"bilmirsiz ki, bunlar hiss etməz!?"*** *cavabını verir.* [122] *Təsəvvür etmək lazımdır ki, əgər ən mərhəmətli panmexanist Malnbraş kimi meşşandırsa, gör digərləri nə gündədir! Bu dövrlər o dövrlər idi ki, insanlar əksəriyyətcə, kütləvi şəkildə və sosiosferanın hər təbəqəsində Allahın hər şeyin fövqündə və hər şeyi ehtiva edən bir varlıq olduğu və hər şeyin mərkəzində durduğu HƏQİQƏTİNİ tərk edib, Allaha adi bir meteor qədər də yer taninmayan spontan kainat yalanına keçməyə başladılar! Nikolay Berdyayevin sözləri ilə desək:* ***"Dinsiz-imansız meşşan sivilizasiya əski mübarək mədəniyyət üzərində zəfər çalırdı!"*** *Allahın və ilahi mühitin varlığı Buruno, Bekon, Dekart, Malnbraş, Spinoza, Leybinits, Paskal və o dövrdəki bütün mütəfəkkir və alimlərin elm fəlsəfəsinin təməlində dururdu. Amma onlardan sonra gəlib özlərini onların ardıcılı hesab edən modernist və profan əqidə sahibləri sələflərinin ideyalarını mənimsəyib bu ideyaları Allahdan, bütövlükdə teoekosistemdən təmizləməyə başladılar. Qlobal mənəvi aşınma deizm inancının təlqin və təbliği ilə başladı. Nyuton və tərəfdarları İsrailiyyatdan təsirlənərək Allahı 6 günlük yaradıcı kimi görürdülər. Bu inanca görə Allah yeddinci gündən etibarən dincəlməli idi. Nyuton əlbəttə, Allahı işsiz buraxmamışdı. O, hesab edirdi ki, enerji kainatda xaotik paylanır, qorunmur, Allah da hərdən bir işə qarışır, planet orbitlərinə təkan verirdi. Bu absurd görüş ən azı deizmə prinsip verirdi. Sonralar Volter və Russo kimi kamil deistlər Nyutonun düşüncəsindəki Allaha* ***"qabiliyyətsiz saatçı"*** *adını verdilər. Bu saatçı qurduğu saatı(kainatı) hərdən bir qurdalamağa məcbur idi.* [123] *Deizm dünyanın təməl səbəbi olaraq Allahı görür. Allah bir dəfə dünyanı yaratdıqdan, saatı bir dəfə qurduqdan sonra onunla olan bütün*

---

[121] ***Capra, Kainata Mensup Olmak, 60***
[122] ***Bertrand, Alexis, Ahlak Felsefesi, çev. Salih Zeki, 121***
[123] ***Suruş, Abdulkerim, Evrenin Yatışmaz Yapısı, İstanbul, 1995, 129***

*əlaqəsini qırmış və onu öz halına buraxmışdır.*[124]*Deizmə qarşı cıxan Leybinits təmirə ehtiyacı olan aləmin yaxşı aləm olmadığını söylədi. Leybinits göstərdi ki, eyni qüvvə və təsir dünyada hər zaman var olmaya davam edir. Leybinitsin Allahı dünyanın mütləq rasionallığının metodoloji qarantiyasıdır.* [125] *Lakin Leybinits və tərəfdarlarının cəhdinə baxmayaraq deizm artıq kök atmışdı. Çünki teizm adından çıxış edən Qazali, Dekart, Malnbaraş, eləcə də Leybinits və digər filosoflar ciddi idealoji səhvlər etmişdilər ki, bu səhvlər əvvəlcə deizmə, sonra da ateizmə inkişaf etmək üçün bəhanələr verdi. XVII-ci əsrə qədərki alim və filosofların böyük əksəriyyəti öz dinlərinin qanun-qaydalarına uyğun bir şəkildə teoekosistemə – ilahi mühitə iman gətirmişdilər. Böyük Qaliley demişdi:* ***"Şübhəsiz ki, təbiət Allahın imtina edilməsi qeyri-mümkün olan, mütləq oxunmalı fərqli kitabıdır!"*** *Oxşar görüş Kopernik, Keppler və Nuyutondan da nəql edilmişdir. Bekon demişdi:* ***"Kamil elm dinə, alayarımçıq elm isə dinsizliyə aparır!"*** *Oxşar sözlər Dekart, Leybinits, Paskal, Spinoza, Malnbraş və bir-çox digər alimlərdən də nəql edilib. Kant* ***"Saf ağlın tənqidi"****ndə deyir:* ***"Madam ki, əxlaq qaydası mənim üçün bir maksimumdur, - ağıl bunun belə olmasının vacib olduğunu deyir, - o halda Allaha və axirət həyatına inanmağım vacibdir. Əminəm ki, bu inancımı heç bir şey sarsıda bilməz. Əgər inancım sarsılardısa əxlaq qaydalarım da sıradan çıxardı. Mən öz gözümdə özümü alçaltmadan bu qaydaları inkar etmərəm!"***[126] *Edmund Husserl prinsiplərin prinsipi olan teoekosistem barədə deyir:* ***"Düşüncə məhsulu olan heç bir nəzəriyyə bizi prinsiplərin prinsipinə***[127] ***şəkk etməyə məcbur edə bilməz! İlk mənbədən gələn hər bir fikir idrakın qanuni mənbəyidir. İlk mənbənin özündən gələn fəhmdə bizə nə verilirsə hamısını olduğu kimi, təhrif etmədən qəbul etmək lazımdır!"*** [128] *Böyük Eynişteynin bu sözləri məşhurdur:* ***"İmansız alim ola bilməz! Eləcə də dinsiz elm cazibəli cəfəngiyyatdan başqa bir şey deyil!"*** *Eynişteyn 1952-ci ildə dostu Solovinə yazdığı məktubda yazırdı:* ***"Dünyanın***

---

[124] ***Korshunova, Lydia, Felsefe Nedir?, İstanbul, 2003, 46***
[125] ***Trusted, Jennifer, Fizik ve Metafizik, İstanbul, 1995, 144***
[126] ***Critique of Pure Reason, London, 1964, A 813/B 841***
[127] ***Sadə dillə desək Allah və ya ilahi mühiti nəzərdə tutur.***
[128] ***Э. Гуссерлъ. Идеи к чистой феноменологии и феноменологической философии. М., 1999, 60***

***təzahürünü möcüzə və ya əzili sirr kimi qəbul etməyimi əcaib görürsən?!... Əgər obyektiv dünyada apriori bir düzən olmasaydı insan hansı nəzəriyyəni qura bilərdi? Biliyimizin inkişafına paralel olaraq şahid olduğumuz möcüzə budur. Pozitivistlər və ateistlər dünyanı hər cür Allah anlayışından və möcüzədən qurtardıqlarını zənn edirlər. Onların ən zəif tərəfləri də budur. Halbuki biz bu möcüzəni qəbul etməklə kifayətlənməyə məcburuq!”*** [129] *Martin Buberin **“Nominalizm”** kitabındakı şəhadətinə görə isə Eynişteyn demişdir: **“Bizim bütün etdiklərimiz allahın daha öncə cızmış olduğu cizgiləri Onu təqib edərək cızmaqdan başqa bir şey deyil!”** Ümumiyyətlə fiziklər arasında çox nadir hallarda ateistlərə rast gəlmək olar. Eynişteyn kimi düşünmək fiziklər arasında çox yayılıb. Böyük alman fiziki Plank da Kvant nəzəriyyəsinin pozitivist ideya və metodlarla analiz və şərh edilməsinə qarşı çıxmış, Eynişteyn kimi o da aləmdə obyektiv qanunların varlığı fikrindən dini inanca gedən yolu təqib etmişdir. Plankın əqidəsinin əsası budur: **İlahi qanunlar aləmdə təcəlli edir. Bu qanunları biz zehnimizdə icad etmirik, sadəcə şərtlər bizi onları kəşf etməyə məcbur edir. Aləmdə çox ağıllı bir nizam var və bu çox güclü və qadir ağlın işidir. Din ilə elm arasında heç bir ziddiyyət və mübarizə yoxdur, əksinə onlar bir-birini dəstəkləyirlər.**[130] Məşhur alim Cins isə belə deyir: **Allah mükəmməl riyaziyyatçıdır. Aləmin mövcud halı bir yaratma prosesinə borcludur. Bu yaratma isə ancaq düşüncə və iradə sahibi bir varlığın əsəri ola bilər**.* [131] *Ateist və pozitivistlərin geninə-boluna istifadə etdikləri təkamül teoriyasının böyükləri belə onlar kimi düşünməmişdir. Məsələn, böyük darvinist və canlışünas alim Luis Morqan deyir: **“Allah kainatın bir ağlı olaraq aləmi bu günədək əldə edilməmiş varlıq səviyyələrini gerçəkləşdirmə istiqamətində aparmaqdadır!”**[132] Allah və axirət inancının həqiqətini dərk edən alim və filosofların görüşlərini bir-bir nəql etsəm cildlərlə kitab edər. Zənnimcə Allah və təbiət qarşısında azacıq da olsa dəyəri və ya dəyərli olanlar üçün bu fraqmentlər də kafidir. Adlarının hamısını saymaq mümkün olmayan elmi və həyati kəşflər edən dühaların hansı*

---

[129] ***A.Einsteyn, Letters a Maurice Solovine, Paris, 1956, 115***
[130] ***Feyerabend, P, Planck Max, E.Ph.***
[131] ***Sir James Jeans, The Mysterious Üniverse, London, 1937, 182***
[132] ***Emergent Evolution, New York, 1923, 34, 301***

*biri antiteist və ya ateist olub!?! Bir nəfər alim göstərə bilərsinizmi?! Qalileyin sözlərilə desək, **"kaniatı riyaziyyatın dili ilə yaradan"**, onu sarsılmaz sistemli qanunlar üzərində bərqərar edən Allah bizi özbaşına buraxmamış, kosmik və ya teoloji diplomatları vasitəsilə həyatımıza yön və dəyər verəcək hər şeyi bildirmişdir. Bizə nə verilibsə, nəyə nail olmuşuqsa TEOEKOSİSTEM[133] sayəsində olub. Bəşəri dəyəri olan ideyalardan elə birisi tapılmaz ki, TEOSİSTEMin varlığını danan hər hansısa bir zırramanın kəlləsində mövcud olsun?! Ən pisi də odur ki, Allahın diplomatlarının gətirdiklərindən geninə-boluna istifadə edən Allah düşmənləri həyasızcasına özlərini həqiqi elm adamlarının cərgəsinə aid etməklə də kifayətlənmir, hələ üstəlik Allah inancını qeyri-elmi, qədim əsatirlərdən qalmış cəfəng bir şey və ya hal hesab edib lovğalanırlar! Böyüklərin etiraflarına baxmayaraq alim olduqlarını zənn edən **"elm"** qırığı yaramaz küçüklərin yanında nəinki hansısa ayənin elmi mahiyyətini ortaya qoymaq, hətta sadəcə bir bəsmələ çəkmək, yaxud saqqallı və ya da hicablı olmaq kifayətdir ki, ən azından səviyyəsizlik, geridəqalmışlıq, qaragüruh, hətta vandallıq və barbarlıq, həmçinin elmdən və elmi mühitdən uzaqlaşmaqda ittiham olunasan! Əlbəttə, kosmik əsası olan hər hansı bir həqiqətin mahiyyətini anlamayan zırrama üçün nəinki böyük Quran, hətta elementar kosmik fakt belə mif, hoqqa, cinayət,*

---

***[133] Teoekosistem kateqoriyası mahiyyət və məzmununa görə ilahi mühit anlayışına çox yaxındır, amma ondan daha genişdir. Theo yunan sözü olub bizim dildəki Allahın sinonimidir. Eko da yunan dilindəki oykos sözünün ixtisar olunmuş şəklidir. Bu söz ev, məişət, vətən, məskən mənasını verməklə yanaşı, daha geniş mənada məkan mənasını verir. Sistem də o dərəcədə məşhur anlayışdır ki, onun haqqında əlavə şərhedici sözə ehtiyac görmürəm. Yunan sözü olan psyche(psixo) anlayışına gəlincə, bu söz bizim dilimizdəki ruh kəlməsinin sinonimidir. Ruh kəlməsi ərəb mənşəli söz olub hiss üzvlərinin vara bilmədiyi, ağılın da çox çətinliklə dərk etdiyi emanasiyon(axıcı) prosesləri ifadə etmək üçün işlədilir. Latınca spritus sözü də eynilə ruh anlamını verir. Ruh kəlməsinin ən dar mənası əsən və ya axan və ya hərəkət edən hava deməkdir. Ərəb dilində bu mənaya qarşılıq rih kəlməsi də işlənir ki, bu da bizim külək və ya rüzgar hesab etdiyimiz hava axınlarıdır. Bu əlavə məna və anlamlar sadəcə bədəvi ərəblərdə heç olmasa primitiv də olsa ruh haqqında təsəvvür yaratmaq üçün ortaya çıxıb. Əslində ruhun bizim bildiyimiz hava axını olmadığı məlumdur. Lakin ruhun ən doğru mənası həyatın prinsipi, təməli anlamını verməsidir ki, biz də bu əsl anlama sadiq qalıb psixoekosistem anlayışı ilə ruhla bədəni vəhdətdə ifadə etdik. Antik filosoflar da bu baxımdan ruh və canı sinonim kimi qəbul edirdilər, lakin onu canlıya müncər etmirdilər. Çünki can(ruh) başqa şeydir, canlı başqa şey. Beləliklə, teoekosistem deyəndə mən Allahın kosmosdakı xüsusi yerini, məkanını və ya evini, başqa sözlə metafizik kompleksi, psixoekosistem deyəndə isə biz təkcə antropogen amillə bağlı psixi hadisə və prosesləri deyil, ruhun hər bir orqanizmdəki həyat və fəaliyyətini nəzərdə tuturam.(Rəşad Həqiqət, Məxfi Həyat, 43)***

*cəfəngiyyat və divanəlik hesab oluna bilər! Böyüklərdən BÖYÜK Allah nazil etdiyi mübarək kitablarında dəfələrlə həqiqi alimin fel və sifətlərini açıqlayaraq onların kosmik mənşəli hər bir və hər cür ideya, fakt və həqiqəti tərəddüd etmədən qəbul edən saleh və sadiq bəndələr olduğunu söyləyir. Uca Allah Quranda buyurur:* ***"Əlbəttə, göylərin və yerin xəlq olunmasında, gecə və gündüzün ardıcıllığında ağıllı və müdrik olanlar üçün dəlil var! Onlar ayaqda da, oturanda da, uzananda da Allahı xatırlar və göylərin və yerin yaradılışı barədə təfəkkür edərlər!"(Ali-İmran, 190-191)*** *Həqiqət və ya nass qarşısında nəinki inkar, sadəcə tərəddüd kifayətdir ki, cəhalət və dinsizlik* ***"mən"****i işğal etsin! Təkzib etmək, inkarçılıq hal-hazırda elm dünyasını işğal etmiş antiteist, ateist və modernist məxluqların təlqin və təbliği nəticəsində elmin dəyər və gözəlliyi elan edilsə də, əslində təkzib və inkarın elmə vurduğu ziyan faydasından dəfələrlə çox olub. İmam Əli necə də gözəl deyir:* ***"Elm artdıqca inkar edilənlər də azalar!"*** [134] *Kor-koranə, dərinliyə varmadan inkar etmək elə bir xəstəlikdir ki, sonda inkarçılıq fanatizmi baş qaldırır. Nitşe bu fanatikləri belə göstərir:* ***"O, o vaxta qədər əsl fanatik olur ki, hələ inkar edir və buna görə qorxuludur. O, inkarı özünə doğma bilir, ona görə ki, o, oradan çıxıb, onun evi ordadır. O, gizlində bir də ora qayıtmaqdan qorxur. O, məhz inkar yolu ilə oraya qayıtmağı mümkünsüz etmək istəyir!"*** *Ateist və antiteist zırramaların xarakteri ən azı Nitşenin təsvir etdiyi fanatikin xarakterindən fərqsizdir. Bizim cəmiyyətdə elmi mühit və təhsil sisteminin vəziyyəti niyə bərbaddır?! Ona görə ki, uca Allah başda olmaqla bütün ilahi mühit və ya teoekosistem böyük ustalıqla inkar edilir. Elmi-ictimai mühitdə antiteist, ateist və modern* ***«alim»*** *sürüsünün hər şeyə tam nəzarət etməsi nəinki teoekosistem effektlərinə düzgün qiymət verilməməsilə, hətta onların kor-koranə inkar edilməsilə nəticələnir! Halbiki insanın nail olduğu elə bir elmi və mənəvi dəyər yoxdur ki, ilahi və ən azı kosmik mənşəli olmasın. Maddə, həyat, zaman, məkan və digər ontoloji anlayışların mahiyyətinə varmaq antiteist, ateist, kommunist, modernist və digər zir-zibil daşıyan fərd, toplum, məktəb, cərəyan və firqələrin boş başı və kirli qəlbi üçün deyil! Başı boş və paslanmış*

[134] ***Bu ümmətin bir nömrəli alimi olan Əli demək istəyir ki, elmin intensivliyi inkarın intensivliyinə tərs proporsiyonaldır, eyni zamanda inkarın intensivliyi də cəhalətin intensivliyinə düz proporsiyonaldır.***

*qəlb sahibi fərd və cəmlər dildə bir-çox həqiqəti etiaf edib elmi varisliyə sadiqlik nümayiş etdirsələr də, tətbiqatda cahillik, kin, qərəz, kor-koranə damğalama, həyasızcasına inkar və haqqa üsyan nümayiş etdirirlər. Hara gedirsən get, hara yozursan yoz, hara fırladırsan fırlat, lap istəyirsən göyə çıxıb özüvü as və ya at, nə istəyirsən et, elmin teoloji substansiya və metafizik prinsipini dana bilməzsən! Uca Allah inkarçılar barədə deyir:* ***"Əgər onlara göydən bir qapı açsaq və durmadan yuxarı dırmaşsalar, yenə də inanmazlar!"(Hicr, 14)*** *Etiraf etmək vacibdir ki, elmi və fəlsəfi mühitdə problem yaradan yalnız ateist və profan əqidə sahibləri deyil, qaragüruh və firqəçi dindarlar və xüsusən onların alim hesab etdiyi şəxslər də ən azı bunlar qədər problemdir. Filosof, alim, fəqih maskası taxmış, tiran, kral, prezident və ya sultan tərəfindən insanlara papa, şeyxulislam, nobel mükafatçısı, akademik, arxiyepiskop, hüccətulislam, professor, yepiskop, molla, dosent və başqa təmtəraqlı adlarla hiylə və ya zorla sırınan cəhalət və zəlalət lider və alimləri insanları varlığın həqiqətlərini öyrənməkdən məhz din və ya elm və həqiqətə ziddir bəhanəsilə uzaqlaşdırarlar! Belələri din maskasında hakimiyyətdə olan elmi nailiyyətlərə gah zındıqlıq, mulhidlik, gah da kahinlik, cadugərlik damğası vurublar, vurmağda da davam edirlər. Halbuki heç bir səmavi din beləlіrinin başı üçün deyil. Bu şarlatanlar elm maskasında hakimiyyətdə olanda da elmin əsl qaynağını gizlətməyə çalışmış, əsl elmə xurafat, fanatizm, radikal dindarlıq damğası vurmuş, son zamanlar hətta modernistlərlə birləşərək terrorist damğasını da mənimsəyərək iftira siyahılarına əlavə emişlər. Indiyə qədər iqtidar sahibi cahillərin ucbatından minlərlə elm və mənəviyyat adamı qətl və həbs edilib, ağlasığmaz işgəncələrə məruz qalıb! Çünki həqiqi alim daoya adaptasiya olan dühadır. Loqos və ya ruhul-əmin hər zaman dühalara ilham verir. Amma kütlə elementləri düha və dühalığı başa düşmədiyi üçün ona düşmən kəsilir. Imam Əli çox gözəl deyir:* ***«insan anlamadığına, bilmədiyinə düşməndir!»*** *Yalançı alimlər, xüsusilə din pərdəsinə bürünmüş iki ayqlı buqələmunlar kütlədən həmişə həqiqi dahilərə qarşı istifadə etmişlər. Nəsimi həqiqi alimlərə düşmən olan, həqiqəti danan yalançı* ***«alimlər»*** *barədə necə də gözəl deyir:*

*Həqqə münkirdir fəqih, inanma o şeytanə kim,*
*Yoxdur o cinxislətin zatında iqrar istəmə!*

*Haqqı, həqiqəti inkar edən **«fəqihlər»** həm xurafatçı dindarlar, həm də profan ideoloqlar arasında həmişə çoxluq təşkil ediblər. Xurafatçılar və profan ideoloqlar arasında gedən satanik mübarizənin qurbanları çox vaxt əsl alim və filosoflar olmuşdur. Bu ikiayaqlı şeytanlar Nəsimi kimi minlərlə dühanı məhv ediblər! Sokratı, Məhəmməd salavatullahı, Cəfər Sadiqi zəhərlədilər! Pifaqor, Ipatiya, Buruno və Serveti diri-diri, qovuraraq yandırdılar! Mani, Suhrəvərdi, Eynəlqüzat və Nəsimini qəssab kimi soyub doğradılar! Zeynuddin bin Əli və Luvazyeni qoyun kimi boğazladılar. Hələ bunlar nədir ki?! Nəbilər və saleh alimlərin əksəriyyəti **«fəqihlər»**in fətvalarıyla qətl ediliblər! Yəhya, Zəkəriyyə, imam Hüseyn, Əbu Hənifə, Evarist Qalua, Fridman, Etibar Elkin və yüzlərlə başqa alimlər ən alçaq və ən namərd üsullarla qətlə yetriliblər! Alçaq, xəbis və mufsidlər tarix boyu öz zülm və zəiflik ağaclarını məzlum və məsum dühaların qanlarıyla suvarıblar! Güclü nüsxələrin teoekosistemin məxfi sirlərinə bələd olması zəiflərin xoşuna gəlmir. Zəiflər(Allaha qarşı usyanşı və inkarçı mövqedə olan hər kəs!) elə hesab edirlər ki, kimin malı-dövləti, arvad-uşağı, pulu çoxdursa, yaxud iqtidar sahibidirsə vəhy və ilham da ona gəlməlidir! Zəiflərə elə gəlir ki, Allah və mələklər də **«daydaylıq»** edir, amma zalim və cahil insanlardan fərqli olaraq Allah layiq olmayanları heç vaxt seçmir, sevmir və vəzifələndirmir! Bu isə hər bir ekosistemin əsasını təşkil edən zəiflərin xislətindəki paxıllığı kulminasiya nöytəsinə qaldırır. Avropanın təfəkkür səmasında ulduz kimi yanıb sönən böyük alman filosofu Otto Veyninger bu acı və real həqiqəti **«Cins və Xarakter»** əsərində çox mükəmməl ifadə edir: **«Dahi, Dahilik! Insanların əksəriyyətində nə qədər narahatlığa, nə qədər həsədə, nə qədər ruhi xoşagəlməz hisslərə bais olur!»** Paxıl və cahillər nə qədər çox olsa da, nə qədər güclü olub hər bir ekosistemi kontrol etsələr də, ekosistemin əsası olsalar da, ekosistemin dəyəri, məzmunu və mənası yalnız və yalnız dühalar və dühalardadır. Dühanın ağlı çox olduğuna görə adi və bayağı adamların görmədiklərini görə bilir və şablon qəbul etmir. Bu isə teoekologiyanın üsul və metodudur. Bir gün gələcək ki, yer üzündə yalnız ruhuna hakim olan psixokrat insanlar yaşayacaq və yer üzünün əbədi sakin və hakimi olacaqlar. Uca Allahın da bizi yaratmaqda yeganə məqsədi psixokratlar cəmiyyətinə nail olmaqdır. Əlbəttə, Allah bir göz qırpımında bizi psixokrat edə bilər, lakin bu klassik və orjinal*

*prosesə bizi şahid tutmaq və bizə bu bənzərsiz neməti pillə-pillə daddırmaq üçün öz yaradıcılığında uzunmüddətli metodu seçib. Ümumiyyətlə yer mühitinin yaradılmasında məqsəd mükəmməl daxili mühitə malik insan yetişdirməkdir. Kamil və mükəmməl insan cəmiyyətinin gələcək varlığı planetar mühitin dəyəri və mənası olacaqdır. Nitşe əbəs yerə demirdi:* ***"Fövqəlinsan yerin mənasıdır. Qoy sizin iradəniz desin: Fövqəlinsan yerin mənası olsun!"***[135]

*Modern və profan təkamül əqidəsinin köklərini yəhudi və xristianlığın Məsih inancı ilə əlaqələndirən mötəbər elm adamları az deyil. Kosmik dinlər arasında Yəhudilik dünyəvi xarakteri ilə seçilir.* ***"Əyyub kitabı"*** *bu dünyada reallaşması vacib olan ədalətin röyasıdır. İsanın gəlməsindən əvvəl yəhudilər gələcəyini xəbər verdikləri Allah səltənətini xiristianlar(sonradan müsəlmanlar) kimi axirətdə deyil, bu dünyada gözləyirdilər. Yəhudi dini ədəbiyyatlarında Məsih qisas və intiqam alan və ədaləti bərqərar edən subyekt kimi tərif edilir. Yəhudilər həmişə zamanın sonunda meydana gələcək, yerin və göylərin yeni bir yer və göylərə dönəcəyi, dünyadakı iztirab və əzabların unudulacağı müqəddəs zamanı gözləmiş və gözləyirlər. Tövratda buyrulur:* ***"Rəbb dedi ki, inəklə ayı otlayacaq...Və aslan sığır kimi saman yeyəcək..."***[136] *Yəhudi esxatologiyasının əsası budur: Həqiqət və ədalət tərəfdarlarının bədbəxt olacaqları bir dünya absurddur. Bu baxımdan dünyadakı cənnət ideyası özlüyündə həm mahiyyətcə, həm də qaynaq olaraq yəhudi əqidəsinə birbaşa bağlıdır. Yəhudi ənənəsini miras almış əslən yəhudi olan pavel deyirdi:* ***"Bu zamanda yaradılış əsarətdədir, uşaq doğulan kimi inildəyir, çünki insanlıq Allaha asi olmuşdur. Bu səbəbdən bütün yaradılmışlar bizim cəzamıza şərikdirlər!"***[137] *İsanın dini falsifikasiya edən ilk şəxs kimi məlum və məşur olan pavel yeganə xilas yolunun Məsihin yenidən zühur etməsində və dünyadakı bütün proseslərin sürətlə buna doğru getdiyinə inanırdı. Məsih ideyası profan cizgidə itirilmiş cənnət, bəzən də yenidən qayıdacağımız cənnət sindiromu kimi qəbul edilir. Lakin bu ideyanın məzmunu qızıl əsrin yenidən qayıtması arzusudur. Başqa tərəfdən o daha çox utopik görsənir ki, buna görə o bənzəri daha əvvəl heç vaxt olmamış mükəmməl bir hal(yeni bir göy və yeni*

---

[135] ***Ничше. Сочинения. 2-х тт., Т.2, с.8, 1990***
[136] ***İşaya, 11:7, 9***
[137] ***Romalılara Məktub, 8***

*bir yer üzü) kimi təsəvvür edilir; Məsih sadəcə çox əski zamanları canlandırmayacaq, fəqət **"yeni bir zamanın"** qonağı olacaqdır.*[138] *Məsihin zühuru ilə mükəmməlləşəcək dünya fikri özündə aktual dünyanın pis bir dünya olduğu fikrini də əks etdirir. Keçmiş və gələcək tarix üçün yəhudi qəlibi bütün zamanlardakı məzlumlara çox güclü bir səslənişdir. Bu həmin qəlib idi ki, marks ona profan sosializm maskası taxdı. Yer üzündə mükəmməl bir sistem qurmağa yönəlmiş dini arzunun modern təkamül ideyasına inversiya və modifikasiya edilməsi Renessans zamanından başlasa da, Nasr çox doğru təsbit edib ki, ən radikal təkamülçü ideologiya hesab olunan marksizm Məsihlə əlaqəli müxtəlif fikirlərin təhrif edilməsindən düzüb-qoşulan saxta dini qeyrətlə utopiyanın birləşdirməsi nəticəsində dini esxatologiya təhrif edilərək və saptırılaraq maddi təkamül yolu ilə mükəmməl bir quruluş yaratma formasında dünyəvi bir anlayışa çevrildi.*[139] *Bu utopiya yer üzündə maddi təkamül yolu ilə insanın yaratdığı bir cənnət qurma idealıdır.*[140] *Əslində cənnəti bu dünyada təqlid etmək ideyasının müəllifi iblisdir. Cənnətdən əbədi olaraq qovulduğunu, bir daha ora qayıtmayacağını çox yaxşı dərk edir. Buna görə də azdırdığı insan və cinlərlə birlikdə bu dünyada cənnət prototipi yaratmaq istəyir. Allahın bu dünyada normal yaşamağımız və normal dönüşümüz üçün bizə qadağan etdiyi hər şeyi məşru görən modern pornokratik və seksokratik cəmiyyətlər, inistitutlar bunun bariz nümunəsidir. Yalnız cənnətdə halal olan şeylər iblis və əsgərləri tərəfindən bu dünyada da halal qəbul edilir! İndustriallaşma, sinifsiz cəmiyyət, modernizm və sosiokommunizmin yerüzünü cənnətə çevirəcəyi xəyallarının əbədi bir utopiya olmasına bu gün imanı qəlbində, ağlı da başında olan heç kim şübhə etmir. Yer üzü profan və ateist ideyalarla heç vaxt cənnətə çevrilə bilməz, əksinə cəhənnəmə çevrilər və çevrilir də!*

[138] ***Werblowsky, R.J. Zwi, "Yehudi Mesihçiliği", İstanbul, 2003, 53***
[139] ***Nasr, Bir Kutsal Bilim İhtiyacı, 205***
[140] ***Eaton, Gai Gelenek ve İnsan Toplumu, istanbul, 1995, 52***

## $3.4.Təbiətin teodini mənası və əsası

*Dərin təfəkkür tərzinə malik olmayan insanların da təhtəşşüurunda təbiətin insan həyatı üçün çox önəmli və zəruri olduğu duyğusu olub və var. **“Ana təbiət”**, **“ana yer”** deyimləri hər bir insanın instinktində yatan potensial aktiv duyğudur. Bir-çox xalqlar, məsələn, Kelt xristianları, Amerikanın aborigenləri, Sibir-Tunquz qəbilələri yerüzünün bütün həyatı doğan və bəsləyən böyük bir ana olduğuna etiqad etmişlər. Bunlar üçün təbiət müqəddəs idi. Bu inanca görə yerüzünü çirkləndirmək doğma ananın üzünə tüpürməkdən daha ağır günahdır. Bu əqidə sahibləri də əski primordial monoteist və poloteist qruplara bölünürdülər. Amerikanın yerli qızıldərili etnosları meşələrdə, dərələrdə, quşlarda, göy üzündə mənəvi aləmin simvollarını görürdülər. Onlar üçün təbiət ibadətgah hesab olunurdu. Rajottenin bildirdiyinə görə Kanadalı qızıldərili bir teoloq ətraf mühitdən **“ailəm”** deyə bəhs etmişdi.[141] Qızıldərili bir qəbilə başçısının abş prezidenti franklin piyerə yazdığı məktub sözün əsl mənasında mükəmməl bir ekoloji manifest kimi qəbul edilə bilər. XVIII-ci əsrin axırlarında abş imperiyasının başçısına göndərilmiş bu məktub ətraf mühit manifesti olsa da, həm də etnoqrafik və ekopolitik manifestdir. Bu məktub həm anqlosaks irqinin talançı, fırıldaqçı və acgöz olduğunu, həm qərb sivilizasiyasının modern insanının antinatural əqidəsini, həm də qızıldərililərin ən azı ekopolitik və ekokultura baxımından yüksək inkişaf etmiş bir sivilizasiya olduğunu açıq-aydın isbat edir. Məktubun həm din tarixi, həm də ekoloji tarix baxımından əhəmiyyətini nəzərə alıb ixtisarla nəql etməyi uyğun gördüm: **Vaşinqtondakı böyük rəhbər bizə torpaqlarımızı satın almaq istəməsi ilə bağlı xəbər yollamışdır. O, eyni zamanda bizə xoş niyyət dolu sözlər söyləyərək dostluq təklif edir. Bu dostyanə davranış olsa da, biz onun bu dostluğa ehtiyacı olmadığını çox yaxşı bilirik. Əgər razı olmasaq ağ adam öz tüfəngi ilə gəlib bizi torpaqlarımızdan zorla çıxaracaq. Göyüzü, torpaqlar necə satılar və ya satın alınar?! Bunu müəyyənləşdirmək bizə yabançıdır. İnsan havanın təzəliyinə, suyun şaqqırtısına sahib ola bilmirsə onu necə sata bilər?! Siz onu bizdən necə satın ala bilərsiz?! Bu dünyanın hər bir parçası bizim üçün müqəddəsdir. Xışıldayan hər yarpaq, vızıldayan hər həşərat,***

[141] ***Rajotte, F.Breuilly, E. Kriz Nedir, 23***

***meşələrdəki hər səs qəbilənin düşüncə və həyatında müqəddəs yer tutur. Təbiət özündə qızıldərili insanın xatirələrini daşıyır. Biz bu torpaqların bir parçasıyıq və onlar da bizdən bir parçadır. O gözəl qoxulu çiçəklər bizim bacılarımız, qartal və at da qardaşımızdır. Yüksək qayalar, yaşıl otlar və insanlar eyni ailədir. Vaşinqtondakı böyük rəhbər bizdən torpaqlarımızı istədiyi zaman bütün bunları da bərabərində istəmiş olur. Beləcə də bizdən çox şey istəyir! Biz ağ adamın bizim düşüncəmizi anlamadığını bilirik. Onun üçün fərqi yoxdur. Torpaq onun qardaşı deyil, düşmənidir, onu əldə etdikdən sonra atıb gedər, atalarının qəbirləri ilə bir daha maraqlanmaz. Onun üçün atalarının qəbirləri kimi, uşaqlarının haqqı da önəmli deyil. O anası olan torpağı və qardaşı olan göyüzünü satın alınan və talan edilən şey kimi istifadə edər. Onun aclığı dünyanı bürüyəcək və ətrafda çöldən başqa bir şey qalmayacaq. İnsanlar torpağa tüpürürlərsə özlərinə tüpürmüş olurlar. Zira biz bilirik ki, torpaq insana deyil, insan torpağa aiddir. Ağ adamın bir gün kəşf edəcəyi bir şeyi biz indidən bilirik. Allahımız da eyni Allahdır. Sizlər bizim torpaqlarımıza sahib olduğunuz kimi ona da sahib olacağınızı düşünürsüz, amma bunu bacarmazsınız! O, insanların Allahıdır, qızıldərililərin də, ağların da. Bu torpaqlar Onun üçün qiymətlidir. Onları yaralamaq, onun yaradıcısını xor görməkdir. Yataqlarınızı zəhərləməyə davam edin, bir gecə öz zibilləriniz içində boğulacaqsınız!***[142]*Bu məktub anqlosaks etnosunun vəhşi və terrorist təbiətindən xəbər verir. Britaniyalıların Amerikada törətdikləri cinayətlər, özəlliklə hindularla bizonlara etdikləri zülmlər bəşər tarixinin bəlkədə ən böyük ekosid və genosidlərindən birincisidir. Hindular əksəriyyətcə teorik olaraq politeist olsalar da, praktikada panteist idilər. Təbiət həm forma, həm də substansiya baxımından hinduların ibadətgah yeri idi. Əgər onlar təbiəti müqəddəs saymasaydılar qərb sivilizasiyası ilə mübarizədə öz sivilizasiyalarını qurban verməzdilər. Elə buna anladığı üçün Nasr yazır ki, ağ adama qarşı ümidsizcə apardığı savaş yalnız bir həyat sahəsi üçün deyil, eyni zamanda bu müqəddəs ibadətgah üçün müqəddəs savaş idi.*[143]*Hansı bucaqdan baxırıqsa baxaq, ənənə, xüsusilə din insan fəaliyyətinin hər sahəsinə sirayət etməklə sanki bir ruh kimidir. Funksiyasına görə*

---

142 ***Yıldız, K. Sipahioğlu, Ş. Yılmaz, M. Çevre Bilimi, Ankara, 2000, 7***

143 ***Nasr.S, İnsan ve Tabiat, 126***

*ənənə dinin metafizik və əxlaqi mahiyyətinin daşıyıcısıdır. Dinlərin təməlində yer alan müqəddəs mətnlər digər əski mətnlərlə eyni meyar və aspektlərə malik olduqda onların incələnməsinin vacibliyi nəticəsi çıxırdı: onların da tarixi və tarixi bağlarla bir yerdə mahiyyətləri vardı, izahları da təkamül edirdi.* [144] *Kosmik kitablar, xüsusən falsifikasiyadan mühafizə edilmiş Quran elmin bütün prinsip və metodunu müəyyənləşdirib bizə istiqamət vermişdir. Lakin Qurandan əvvəlki kosmik kitablar bu və ya digər dərəcədə təhrif olunduğundan onlardan az dəlil gətirdim. Quranda bu barədə deyilir:* ***"Zamanında Allah söz almışdı kitab verdiklərindən: "insanlara anladacaq və gizlətməyəcəksiz!(falsifikasiya etməyəcəksiz!)" Onlar az pul qarşılığında bunu(verdikləri sözü) peysərə atdılar! Nə pis alış-veriş!"*** [145] *Bəli, bizdən əvvəlki ümmətlər Tövratı, Zəburu, İncili və bilinməyən bir-çox kosmik kitabı kapital maraqlarına qurban edib falsifikasiya etmişlər. Şeytanlar(özəlliklə aldadan və fırladan insanlar) təkcə kosmik kitabları deyil, tarixin müxtəlif vaxtlarında müxtəlif dühalara göndərilən kosmik informasiyaları da təhrif etmişlər. Məsələn, Mendeleyevə kimyəvi elementlərin dövri sistemi yuxuda göstərildi və o bu neməti bizə olduğu kimi çatdırdı. Lakin lənətlənmiş alimlər bu cədvəlin orjinalını gizlətdilər və özlərinin düzüb-qoşduqlarını bəşəriyyətə təqdim etdilər. Mendeleyevin orjinal dövri sistemində ilk element nyutoniy adlanır. 1906-cı ildə Sank-Peterburqda çapdan çıxan* ***"Kimyanın əsasları"*** *kitabında Mendeleyev öz cədvəlində nyotoniy adını verdiyi ekon elementini sıfır qrupuna, sıfır sırasına daxil etmişdi. Atom çəkisini 0,4 hesab edirdi. Amma biz əlavə edək ki, bu mübarək elementin atom çəkisi 0 ətrafında fırlanır, 0,4 dən də az ola bilər. Çünki vakuumdan ilk doğulan element əsası bion selindən ibarət olan nyutoniydir. Bu ən ideal elementdir və biokatalizator funksiyasına malikdir. Digər elementlərin bir-birilə reaksiyalarında obyekt kimi deyil subyekt kimi iştirak edir. Nyutoniy mənim psixon və ya bion adlandırdığım ruhi zərrəciklərə uyğundur. Lakin psixon və bionlar bu elementin atomu olan ekonun tərkibini müəyyən edirlər. Əslində nyutoniy bir-çox təbiətşünasın qafasındakı efirin əsas maddi-psixi təşkilatçısıdır. Efir də MÜHİTƏ yaxın anlayış olub birbaşa RUHla bağlıdır, daha doğrusu ruhun bu dünyadakı ifadə*

---

[144] ***Jeannıre Abel, Modernite Nedir?, Ankara, 2000, 101***
[145] ***Ali İmran, 187***

*formasıdır. Amma Mendeley doğru olaraq bu anlayışı Lourensdən fərqli anlamda* ***"məxfi"*** *elementlə bağlı olaraq işlətmişdir. O müqəddəs və mübarək element işıqın bütün xüsusiyyətlərini(korpuskulyar, dalğavari və s.) özündə daşıyır. Hətta, daha çox xüsusiyyətləri var. Belə ki bu element bütün elementlərə çevrilə və ya stimul verə bilir. Şeytan alimlər isə öz rəhbərləri iblisin tapşırığını icra edərək Mendeleyevin cədvəlindən bu elementi çıxarıb yerinə iblisin bir nömrəli yaradılış maddəsi olan hidrogeni yazdılar. Halbuki hidrogen nyutoniy və ya biondan sonra gəlirdi. Mendeleyevə də kosmik qüvvələr tərəfindən bu belə göstərilmişdi. Məlun iblisin adəmə səcdə etməməsinin əsas səbəbi elə hidrogeni nyutoniy və ya biondan üstün tutması idi. Əsgərləri isə iblisən də qabağa gedib efirin və ya mühitin və ya həyatın təşkilatçısı olan nyutoniy və ya bionu heç olmasa ikinci yerə də yerləşdirmədilər, ümumiyyətlə cədvəldən sildilər. Unutmaq olmaz ki, teoekosistemdən geosistemə ötrülən informasiyaları satanik qüvvələr modifikasiya və falsifikasiyaya məruz qoya bilirlər. Bu yerdəki informasiya qəbul edicilərinin ya özlərinə zərbə vurmaqla, ya da onların ölümündən sonra baş verir. Rəsulullah əbəs yerə demirdi ki,* ***"mənə Quran nazil olanda şeytanlar gələn vəhylərə nəsə qatmaq üçün yığışardılar!"*** *Mən alimlərin ideya və kəşflərilə bağlı çox belə fakt sadalaya bilərəm. Amma zənn edirəm ki, falsifikasiyanın elmi mahiyyətini anlamağa bu qədər kafidir. Yəqindən də yəqinəm ki, Allahın göndərdikləri arasında falsifikasiya edilməmiş yeganə kitab Qurandır ki, bu barədə ağıl, ədalət və imandan nəsibi olanlar yanında heç bir ixtilaf yoxdur. Qərbin bədii təfəkkürünün zirvəsi sayılan Höte etiraf edərək demişdi:* ***"Biz öncə Qurandan üz döndərmişdik. Ancaq çox çəkmədi ki, bu kitab bizim diqqətimizi özünə cəlb etdi. Bizi o qədər heyrətə saldı ki, onun böyük elmi qanunları qarşısrnda diz çökdük!"*** *Biritaniyanın böyük filosofu Tomas Karleyl isə belə deyib:* ***"Əgər bu müqəddəs kitaba dəqiq nəzər salsaq görərik ki, aydın həqiqətlər və varlığın sirləri onun məzmununda elə yerləşir ki, onlardan Quranın haqq olması gözəl şəkildə aydın olur. Bu özü böyük bir üstünlükdür ki, ancaq Qurana məxsusdur. Bu üstünlük hec bir elmi, dini, iqtisadi və ya siyasi kitabda gözə carpmır!"*** *Ədalət naminə demək lazımdır ki, əski etnoslara göndərilmiş kosmik kitablar(Tövrat, İncil və b.) nə qədər falsifikasiya edilsə də, hər halda mason, marmon, faşist, kommunist, demokrat, modernist və digər geoloji din mənsublarının öz*

*qafalarından uydurduqları konistitutsiya və qanunlar məcəllələrindən daha yaxşı və daha üstündürlər. Lakin Quran bunların hamısından üstün olub itaət edilməyə daha layiqdir. Quran yeganə kitabdır ki, çobandan tutmuş krala qədər, canidən tutmuş hakimə qədər, gəncdən tutmuş qocaya qədər, bir sözlə hər kəsin beyninin tutumuna görə ona xitab edir. Quran və ya Allah kəlamı çox gözəl və dəyərli sistemdir, lakin insanların əksəriyyəti qanmaz olub baxan kor və eşidən karlar olduqlarına görə bu gözəlliyi, bu dəyəri qiymətləndirmirlər! Kosmik kitablar, özəlliklə QURAN diqqətləri sürəkli olaraq təbiətə(kosmosa, yerə) yönəltdiyi üçün dərin olanlar kainat və ya aləmlər üzərində düşünməyə, təfəkkür etməyə böyük önəm vermişlər. Allahın varlığını isbatlamada və Allaha iman etmədə kainat üzərində təfəkkür etmənin çox önəmli yeri var. Quranda deyilir:* ***"Göylərin və yerin yaradılışında, gecə və gündüzün bir-birinin ardınca gəlib getməsində saf ağıl sahibləri üçün açıq və ibrətli dəlillər var!"(Ali-İmran, 190)*** *Söz yox ki****, müsəlmanlar arasında elm atəşini bu və bənzəri kosmos ayələri yandırmışdır!*** *Yuxarıdakı ayə həm teoloji, həm astrofiziki, həm də teosofik dəlildir. Ayədən sarih bir şəkildə görünür ki, Allahın zatından savayı hər şey məxluqdur və hər bir məxluqun spesifik hikməti və ibrəti var. Ayədə göy cisimlərinin hərəkətlərinə canlıların möhtac olduğuna, onların geosistemə təsir etməklə insan elminə gizli qalmayan faydalarının çoxluğuna və böyüklüyünə işarə edilir. Məsələn, gecə insanların istirahətinə vəsilə olduğu kimi, bir-çox bitki və heyvan oqranizmlərini günəş istiliyinin şiddətli təsirindən qoruyur. Gündüz də canlıların sərbəst hərəkət etmələri və normal qidalanmaları üçün yaradılıb. Əgər davamlı gecə olsaydı, canlıların çoxu ruzisiz qalardı. Əgər davamlı gündüz olsaydı, onda bəşəriyyət sürəkli və davamlı yuxusuzluq və yorğunluq üzündən psixopat bir kütləyə çevrilərdi. Yer öz oxu və günəş ətrafında fırlanmasaydı gecə və gündüz olmazdı. Həmçinin indiki sürətindən daha sürətli fırlansaydı gecə və gündüz olmaz və yer üzündəki hər şey fəzaya uçardı. Yer indiki sürətindən daha az sürətlə fırlansaydı onda isti və soyuq canlı maddəni məhv edərdi. Yer günəş ətrafında fırlanmasaydı fəsillər olmazdı. Bu dünya sahib olduğu riyazi parametr və nizam səbəbilə unikal xarakterə malikdir. Quran bir orqanizimdir. Hər hansı bir orqanizmin orqanları, orqanların toxumaları, toxumaların hüceyrələri olduğu kimi, Quranın da surələri, surələrin ayələri, ayələrin də söz və hərfiəri var. Quranda hansı kəlmənin neçə*

*dəfə və harda keçməsi də təsadüfi deyil, elmi və fəlsəfi əsası var. Məsələn, 23 dəfə qadın, bir o qədər kişi adlarının çəkilməsi, heç şübhəsiz ki, insan orqanizmində 23 cüt xromosom olduğuna işarədir. Zənginlik sözünün kasıblıqdan iki dəfə, asanlıq sözünün çətinlik sözündən 3 dəfə çox işlədilməsi isə o deməkdir ki, Allah kasıblığın müqabilində görülən yaxşı işlərə görə 2 dəfə artıq zənginlik, sıxıntı və çətinliyin müqabilində isə 3 dəfə artıq asanlıq bəxş edir. Kosmik kitabda günəş, işıq və ya nur kəlmələrinin 33 dəfə işlənməsi də çox maraqlıdır. Belə ki, göydə bir nur olan ay, cıraq olan günəş və yer hər 19 ildən bir eyni düz xətt üstündə dururlar (ay yer ilə günəşin ortasında olmaq şərti ilə), lakin ay ili ilə günəş ili hər 33 ildən bir üst-üstə düşür, yəni bir növ hər şey təzədən başlayır. Bu zaman doğulan insanlar da adi insan olmurlar. İnsanın ən nurlu, ən kamil çağı məhz 33 yaşında olur. İsgəndər, İsa, Yəhya və başqa bir neçə böyük, şərəfli fövqəlinsanlar var ki, məhz 33 yaşlarında yüksək məqama çatıblar. Belə fövqəlşəxsiyyətlər çox vaxt məhz günəş ili ili ay ilinin üst-üstə düşdüyü zamanlarda doğulur və ya dünyalarını dəyişirlər.*

*Ətraf mühitlə əlaqə baxımından dinlər və ideologiyalar ümumi olaraq bir-neçə kateqoriyada ələ alına bilər. Bunlar arasında təbiətə hər cür və hər bir müdaxiləni kökündən rədd edən və təbiətin axarına və imperativlərinə adaptasiya olmağı vacib sayan* ***mayya və daoçular****; dünyanı bir bataqlıq, bir çirkinlik, iztirablar sistemi sayıb ondan nəyin bahasına olur olsun qaçmaq lazım olduğunu təbliğ və təlqin edən* ***buddizm və xristianlıq****; təbiəti məhkum, insanı da yeganə hakim sayan yəhudilik və onun elm donu geyinmiş törəmələri(kommunizm, humanizm, modernizm və s.) mövcuddur. İslam bütün dini baxışlar sisteminin arasında spesifik yer tutur. İslamda bu baxışların hər biri bu və ya digər dərəcədə, bu və ya digər yer və zamanda mövcuddur. Müsəlman bir şəxs məkan və zamanından, sosial, ekonomik, ekoloji və siyasi şəraitdən asılı olaraq təbiətə kölə də ola bilər(Əyyub), hakim də(Süleyman); təbiətdən qaça da bilər(Budda), onun içində əriyə də bilər(Lao-tszı); yaxud Muhamməd salavatullahın timsalında bütün bu xüsusiyyətlərin hər birini yerinə yetirə bilər. İslam insanın təbiəti dəyişdirmə və idarə etmə qabiliyyətini qəbul edir, lakin insanın təbiətin islah və emar edilməsinə həvəslə girişməsini lazım bilmir. İslam insandan öz təbii imkanlarından istifadə etməməyi tələb etməsə də, yalnız iman və təqva sahibi insanın qarşısında təbiətin məmur ola biləcəyini söyləyir. Təbiəti olduğu kimi buraxmaq, ondan istifadə*

*etməmək insan təbiətinə də, İslama da zidddir. Lakin təbiətdən necə gəldi istifadə və onu məhkum və kölə vəziyyətə salmaq da həm təbiətə, həm də İslama ziddir. Çünki bütün dinlərdə olduğu kimi İslamda da əməl-iman vəhdəti ideoloji atributdur və imansız əməlin, əməlsiz də imanın dəyəri, qiyməti vakuumdur. Quran həm etik, həm də sosial mahiyyəti olan bu prinsipi belə ifadə edir:* ***"Kim inanclı olaraq doğru işlər görərsə onun işləri boşa getməz!"(Ənbiya, 94)*** *Ayə göstərir ki, doğru olmaq, yəni yaxşı əməllər vacibdir, amma kafi deyil. Eyni zamanda inanc və ya iman da vacibdir, amma kafi deyil. İslam dinsiz, imansız, islamsız insanların təbiət və cəmiyyətə təsir və müdaxiləsini, istər təbiətin, istərsə də cəmiyyətin üzərindəki hər cür və hər bir avtoritet və hakimiyyətini müzakirəsiz yol verilməz hesab edir. İslam dininə görə yalnız iman gətirən və doğru və islah edici olanlar aftoritet və hakimiyyətə layiqdir. Allah onların barəsində buyurur:* ***«Onlar ki, yer üzündə hakimiyyət verdiyimiz zaman namaz qılarlar, zəkatı verirlər, yaxşını əmr edər, pisliklərdən çəkindirərlər…»(Həcc, 41)*** *Ekosid və genosid törədən ikiayaqlı şeytanlar barədə isə uca Allah buyurur:* ***"Iş başına keçən kimi yer üzündə fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar!"(Bəqərə, 205)*** *Hər şeyin Xaliqi və Sahibi, hər şeyi bilən bu ayədə yer üzündəki bütün canlıların(bitkilər, heyvanlar, insanlar və s.) genosid və ekosidindən bəhs edərək iqtidar sahibi olub öz şəxsi və nəfsi maraqları naminə hər şeyə, hər bir cinayətə hazır olan zorba və mufsidlərin hakimiyyətinin iç üzünü bizə qabaqcadan göstərir. İslam dinə görə zalım və zorbalar nə təbiətə, nə də insanlara liderlik etmək haqqına sahib deyillər. Bəzi saray firqələrində, xüsusilə ortodoksal firqə kimi tanınan sünnülükdə zalım və mufsidlərin hakimiyyəti məşru görülsə də, bu əqidə İslama və xüsusilə onun ana qaynağı Qurana kökündən ziddir. Zalım hökmdarlar tarix boyu yer üzündə fəsad törədərkən yalnız antroposistemi deyil, bütün canlıları məhv olmaq təhlükəsi qarşısında qoyublar! Uca Allah mufsidlər haqqında buyurur:* ***«Insanların eləsi vardır ki, onun dünya həyatı barədəki sözləri sənin xoşuna gələr. O, qəlbində olana da Allahı şahid göstərər. Halbuki o düşmənlərin ən qəddarıdır! Ayrılan kimi yer üzündə fəsad törətməyə, əkni və nəsli məhv etməyə çalışar! Halbuki Allah fitnə-fəsadı sevməz! Ona «Allahdan qorx!» - deyildiyi zaman qüruru onu günah törətməyə***

***vadar edər! Beləsinə cəhənnəm kifayətdir! Ora nə pis yerdir!»***[146] *Bu ayədə açıq-aydın əkinin məhv edilməsi ilə fitosid, nəslin məhv edilməsi də genosid nəzərdə tutulur ki, bunları bir yerdə ekosid adlandırıram. Kosmik əsası olan hər bir ideya və dinə görə heyvan, bitki və digər canlıları incitmək və onlara əziyyət vermək cinayətdir! Səhih bir hədislə sabitdir ki, Rəsulullah buyurur:* ***"Acından ölənədək bir pişiyi bağlı bir yerdə saxladığına görə bir qadın cəhənnəmə güşdü! Ona yemək verməməklə yanaşı, özünün yemək tapmasına da şərait yaratmadı!"*** [147] *Təsəvvür etmək vacibdir ki, bir pişiyə qarşı məsuliyyətsizlik və zülmün qarşılığı belə olan təqdirdə, saysız-hesabsız insan, heyvan, bitki və digər məxluqları məhv edən zalımların halı necə olar!?! Insan təbiətdə peyda olandan bu günə kimi nə qədər əkinlər məhv edilib, nə qədər nəsillər kəsilib?! Mufsidlər ümmətə, millətə, xalqımıza nə qədər zülmlər edib?! Ümmətin ən böyük genosid və ekosidi olan Kərbəla fəciəsinin bənzəri varmı!?! Həsən Bəsri əbəs yerə demirdi:* ***«Göylərin göz yaşı tökdüyü belə bir qətliam heç bir zaman görünməmişdi!»*** *Şafi isə demişdi:* ***«Kərbəla faciəsi bütün yer üzünü lərzəyə gətirdi!»*** *Doğurdan da belədir, genosid ve ekosid çoxları fərqinə vara bilməsə də, ana planet yeri narahat edən və hətta qəzəbləndirən ən böyük faktordur! XX-ci əsrin ən böyük genosid və ekosidlərindən biri də xalqımızın başına gəldi. Biz bunu XX-ci əsrin əvvəllərində Quba və Bakıda, əsrin axırlarında da Xocalıda yaşadıq! Biz hələ yalnız öz başımızaa gətrilmiş genosid və ekosidləri sadəcə bir-bir qeyd və şərh etsək cildlərlə kitab edər.*

*Teoloji baxımdan bəşəriyyət tarixi cənnətdən qovulma hekayəsi ilə başlayır, modernizm və ya profan elm müstəvisində isə bu, inkişaf və sıçrayış yolu ilə bir haldan daha mükəmməl olan başqa bir hala keçid tarixidir. Profan təkamül ideyasının səsi, insana sonda arzularına çatdıracaq vasitələr əldə etdiyini, beləcə dünyəvi bir cənnətin yaradıcısı olma imkanlarının önündə açıldığını, ən azından yetəcək qədər calışıb əqlindən istifadə etdikdə ətraf mühitdən istədiyi hər şeyi əldə edə biləcəyini vəsvəsə verir. Dinin səsi də həyatımızın dəyəri, şərəfi və həqiqətinin yalnız insanı Allaha bağlayan möhkəm ipdə(urvatul-vusqa)* [148] *olub insanın yeganə dostu, qoruyucusu və*

---

[146] ***Bəqərə, 204-206***

[147] ***Buxari, Ənbiya, 54; Muslim, Salam, 151-152; Nəsai, Kusuf, 14***

[148]***Bəqərə,256***

*qaynağının Allah olduğunu, Onun cənnətinin utopiya deyil, real cənnət olub, bu cənnəti axtarmaq və tapmaq üçün başqa yollara deyil, yalnız müqəddəs və yeganə yola – Allahın yoluna, TEOSENTRƏ doğru yönəlməyin vacibliyini söyləyir və göstərir. Allahın yoluna yönəlib onun cənnətinə nail olmağın tək yolu Allahın yaratdığı bütün canlılara qarşı məsuliyyət anlayışı ilə hərəkət etməkdən keçər. Lakin profan modernizm bu həqiqəti heç cür qəbul etmək istəmir. Çünki qlobal problemlərin qaynağı və səbəbi modernizmin özüdür. Bu həqiqəti ortaya qoyub paradiqma kimi qəbul etdirmək üçün modernizm səddi aşılmalıdır. Məhz bu səddi aşmaq istədiyi üçün ənənəvi məktəblər, xüsusilə teoloji məktəblər modernizm tərəfindən ən aetik və antietik üsullarla damğalanır və rədd edilir! Renesans dövründən başlayaraq dünyanı teoloji və ənənəvi duyğu və düşüncələrlə ehtiva edilmiş idrakla görən, təsvir edən, dərk edən konstruktiv insan, profan və satanik ideyaların təsirilə birdən-birə təbiəti hökmü altına alıb istədiyi kimi istismar və idarə etməyə, fırlatmağa cəhd edən destruktiv insana çevrildi! Priqojinin sözlərilə, beləcə dünyaya yad olan insan özünü bir anda onun ağası görməyə başladı. Görülmək istənən, insanın qarşısındakı ölü və passiv bir təbiət idi: bir aftomat kimi hərəkət edən, proqramlaşdırıldıqda, proqram qaydalarını olduğu kimi izləyən bir təbiət. Beləcə təbiətlə dialoq, insanı təbiətə yaxınlaşdıracağı yerdə uzaqlaşdırırdı. İnsan zəkasının zəfəri acı həqiqətə çevrilmişdi. Belə görünürdü ki, elm toxunduğu hər şeyi pozur!* [149] *Əski zamanlarda elm insana təbiət qanunlarını, təbii nizamı anlamaq və bunlara uyğun həyat qurmaqda yardım edirdi. Bu proses XVII-ci yüzillikdə kökündən dəyişməyə başladı. Bekondan başlayaraq elmin məqsədi təbiətə hakim olub ona nəzarət etməyə yönəldi. Bekonçu ruhun nəticəsidir ki, bü gün elm və texnika zorlayıcı, aqressiv və destruktiv bir şəkildə zərərli, təhlükəli, zəhərli, ətraf mühitlə daban-dabana zidd olan məqsəd və arzulara xidmət edir! Ən əski çağlardan bəri elm və hikmətin məqsədi müdriklik, təbiətin düzənini və onunla uyum içərisində yaşamağı öyrənmək idi. Elm o zamanlar* ***“Yaradanın ucalığı”***, ***“təbiətin gözəlliyi”***, ***“daonun içində axma”***, ***“nirvanaya qovuşma”*** *kimi qeyri antroposentrik ideya və prinsipləri nümunə götürürdü. Lakin*

---

[149] ***İlya Priqojine, İsabelle Stengers, Kaosdan Düzene İnsanın Tabiatla Yeni Diyaloğu, İstanbul, 1996, 38***

*Capranın da dediyi kimi Bekonçu ruh elmi araşdırmaların həm təbiətini, həm də məqsədini kökündən dəyişdi. Bekondan başlayaraq elmin məqsədi elmdən təbiətə hökm etmək və təcrübə məqsədi üçün istifadə etmək oldu.*[150] *Əgər modern və profan elmin təbiətşünaslıq və təbiət fəlsəfəsi(fiziosofiya) ilə bağlı qanadı kökünü Bekon ideyalarından götürürdüsə, etatik və siyasət qanadı Makiavelli ideyalarına dayanırdı. Makiavelli böyük cəsarətlə, açıq-aşkar elan edirdi ki, bəşəri varlığın qayəsi Allah deyil, mənfəətdir. Ümumiyyətlə Makiavellinin fəlsəfəsi panetatizmdir. Onun ideologiyasını həmyerlisi və xələfi məşhur faşist diktator Mussolinin sözlərilə ifadə etmək yerinə düşər:* ***"Hər şey dövlət üçün! Dövlətə qaşı heç nə! Dövlətdən kənar heç nə!"*** *Qatı dövlətçilik ideyası məzmununa görə satanik olub həm təbiəti, həm də insanları ən dəhşətli və ən sərt formada istismar edən metod və tətbiqata malikdir. Əli Şəriəti modern dövlətçilik ideyasını qədim animizm inancı ilə müqayisə edib yazır ki, əski zamanlar necə pis ruhun insan bədəninə girib ruhunda yerləşərək onu dəli etdiyinə inanırdılarsa, bu gün qatı dövlətçilik və monoton bürokratiyanın işləyiş tərzi də insanın praktiki fəaliyyəti içində özünə yer edərək ruhunu əlinə almaqdadır.*[151] *Panetatizm antihumanist xarakterdə olması ilə bərabər antinatural sistem olub antroposentrizmin zirvəsidir. Əgər Bekon insanın təbiət üzərindəki diktatura və bürokratiyasına üstünlük verirdisə, Makiavelli nə yolla olur olsun insan cəmiyyətində hakim olmaq və bu hakimiyyəti qorumaq və genişləndirmək yollarını göstərməyə çalışırdı. Onun* ***"Hökmdar"*** *əsəri çox məşhurdur. Bekon anatura və antinatura elementlərlə zəngin fikir, mülahizə və əqidəyə sahib olsa da, hər halda Makiavellidən fərqli olaraq ateist və panetatist deyildi. Onun bu sözləri məşhurdur:* ***"Alayarımçıq, natamam bilik insanı dinsizliyə, imansızlığa aparır, kamil bilik isə insanı dinə, imana qovuşdurur!"*** *Özünü Bekonun xələfi sayan profan və modern alim və ideoloqlar öz sələflərinin onlara verdiyi qiyməti kaş dərk edə biləydilər. Elə bu sözlər kifayət edir ki, modern elmin kamil elmin profanlaşdırılmış parçası olduğunu anlayasan. Bekondan sonra Dekart* ***"təbiətə hakim və malik olmaq!"*** *postulatını qurdu. Marlove isə daha da ifrata varıb deyirdi:* ***"İnsan***

---

[150] ***Capra, Fritlof, Batı Düşüncesinde Dönüm Noktast, çev. Mustafa Armağan, İstanbul, 1989, 45***
[151] ***Şeriati, Ali, Medeniyyet ve Modernizm, İstanbul, 1993, 19***

***dünyanı idarə etmək üçün ucalaraq Allahın yerinə keçəcək!”***[152] *Şübhə yox ki, bu gün həm elm, həm də texnologiya antiteoloji, antinatural və antiekoloji məqsədlər naminə elmdən istifadə etməkdə davam edir. Bekona, Bekonçu ruha xələf olan alimlər həmişə olub və az da deyillər! bell, bronovski, kan, eco bunlardan bəziləridir. Bekonun ideoloji xələfi bronovski deyir:* ***“Mən elmi, biliyimizin təbiətdə daha çox gizli gücə əmr edəcək formada təşkilatlanması kimi anlayıram!”***[153] *Dərin elm adamı nə öz kefi ilə söz deyər, nə də öz kefi ilə hərəkət edər! Dərin alim təbiəti yalnız eşitmək və görmək istədiyi şeyləri söyləməyə və göstərməyə zorlamaz! Bunları yalnız səthi elm adamları, başqa sözlə özlərindən bədgüman* ***“alimlər”*** *edərlər! Əslində özlərini xoşbəxt və alim zənn edən bu bədbəxt və cahillər təbiəti ovuclarının içinə almaq və ya küncə sıxışdırmaqla həm özlərini, həm bizi, həm də bütün canlıları təhlükəyə atırlar! Böyük Eynişteyn hesab edirdi ki, təbiət ona verilən sualların çoxuna yox cavab verir və çox nadir hallarda ondan ümidverici* ***“ola bilər”*** *cavabını eşitmək olur. Buna görə Eynişteyn təbiəti zorlamağın qəti əleyhinə idi. Kant da elmin təbiətlə dialoquna şübhə ilə yanaşır və onu təbiəti zorlama vasitəsi hesab edirdi. Bu günkü qlobal problemlər açıq-aydın göstərir ki, Kant yanılmırdı. Elm əslində təbiəti dərk etmək vasitəsi olmasına baxmayaraq, meşşan və səthi elm adamlarının fəaliyyəti ucbatından təbiətə qarşı istifadə edilən mənfur bir silaha çevrilib. Bu silahla təbiətə qarşı böyük bir savaşa start verilmişdir. Bu axmaq düşüncə modern insanı hakimiyyət və sərvət hərisliyinin ardınca sürünməyə vadar etmişdir. Sonunun facə və fəlakət gətirəcəyi açıq-aşkar bilinən bu mücadilə təbiətdən intiqam almaq kimi çox sapıq və pozğun bir əqidə və həvəsin təzahürüdür. Şumaxer çox yaxşı deyir:* ***“Biz təbiət ilə savaş halındayıq. Əgər bu savaşda qalib gəlsək, itirən yenə də biz olacayıq!”*** *Təbiətin məğlub edilməsi, insanın öz-özünü yox etməsidir. Barbarlıq və etibarsızlıq əsri olaraq da xarakterizə edilə biləcək modern çağ, terrorun texnikası ilə texnikanın terrorunu inkişaf etdirdi.*[154]*Bu cür ağıllı əqli nəticələrin kifayət qədər olmasına baxmayaraq insanın və insanlığın təbiətlə savaşı davam edir. Elm ilə təbiət, elm ilə Allah arasında yaradılan süni*

---

[152] ***Garaudy, Roger,“İslam ve Modernite", çev. Heyet, Uluslararası I. İslam Düşüncesi Sempozyumu, İstanbul, 1996.***
[153] ***Bronowski, Bilim ve İnsan Deger Yargıları, 1971, 16***
[154] ***Meriç, Cemil, Umrandan Uygarlığa, İstanbul, 1974, 114***

*ziddiyyətlərin tarixi rüşeymləri əski Yunan xurafatı Prometey əfsanəsinə qədər gedib çıxır. Bu yaramaz və acı xatirə insanlarla tanrılar arasında cərəyan edən qarşılıqlı, sürəkli boğuşma, amansız kin və qəzəblə dolu konflikt; insaf, mərhəmət, yaxşılıq və sevgi kimi duyğulara əsla yer verməyən və yenidən alovlanana qədər hərarəti heç azalmayan mücadiləni təsvir edir. Bu konfilikt muqəddəs od və bilik atəşi üzərində qurulub. İnsanlar kainatın bütün sirrlərini bilib Allah olmaq üçün bu müqəddəs atəşi, elmi tamam əllərinə keçirmək istərlər. Allahlar da bütün gücü təkbaşına əllərində tutmaq və insanın fövqündə müstəqil hakimiyyətə sahib olmaq üçün bütün şiddəti ilə insanlardan intiqam alır və onları cəzalandırırlar.*[155]***Yaradanla daim mübarizə və döyüş ruhu aşılayan üsyankar Prometey xurafatı hər zaman Qərb fəlsəfəsinin, Qərb mədəniyyətinin gizli bütü olub!*** *Bronovski kimilərin elmə baxışı elə bu əski yunan xurafatının modern formasıdır. Bir-çox əski inanclarda da spesifik xurafatlar var idi. Yalnız İslamın bütün din və idealogiyalardan fərqli olaraq spesifik bir mif və ya* ***"drama"****ı yoxdur. İslam dünyanın yaradılışı ilə bağlı bu və bu kimi əsassız və səfeh xurafatların hamısını rədd edir. Bundan başqa, İslam dünyaya göylərdən – Allahın səltənətindən oğurlanaraq əldə edilən bir krallıq gözü ilə də baxmaz.*[156]

*Bəşər tarixi boyunca insanların əmək fəaliyyətinin*[157] *fiziki-praktiki tərəflərinə qapılması və kapital hərisliyinin etnik və kütləvi hal almasına buddizm formalı mənəvi protestlə cavab verilmişdir ki, bu da dünya nemətlərindən, ətraf mühitdəki həzz və ləzzət yaradıcı hər şeydən imtina edilməsini tələb edirdi. Xristian rahiblər və hətta müsəlman sufilər də İslamın təməl əsaslarına uyğun olmayan bu yolu seçdilər. Quran isə insan əməyinin dəyərini belə qiymətləndirir:* ***"İnsan üçün yalnız öz çalışdığı var. Görüləcək onun əməyi şübhəsiz. Onun ən layiqli cəzası***[158]***veriləcəkdir!"(Nəcm, 39-40)*** *Təbiət və insan təbiəti öz-özlüyündə nə xeyirdir nə də şər. Şər də, xeyir də praktikanın məhsuludur! Bu şərin qarşısnı almaq, yaxud birdəfəlik kökünü kəsmək*

---

[155] ***Kutub, Muhammed, İslamda Egitim Metodu, İstanbul, 192***

[156] ***Faruki, İsmail, İslam, İstanbul, 1987, 104***

[157] ***Dar mənada əmək kapital faktorudur, amma geniş anlamıyla kapitalın yer üzündəki yerini və zamanını təyin edər.***

[158] ***Ayədə keçən cəza kəlməsi çoxlarının bilgisizlik üzündən zənn etdiyi kimi heç də yalnız mənfi, bəddua və ya qarğış mənasında işlənmir. Bu kəlmə ərəb mənşəlidir və orjinal mənası layiq olunan bir şeyin verilməsi deməkdir. Ərəblər Allah cəzanı versin(cəzəkallahu) deyərkən, həm xeyir, həm də bədduanı qəsd edirlər.***

*üçün nə xristinalıq, nə yəhudilik, nə də başqa təhrif olunmuş teosistem bircə addım da ata bilməz! Yəhudilik yəhudilərə, buddizim (hinduizim) hindlilərə, xaçpərstlik də bütün qərbə məxsusdur, amma İslam nə qərbə, nə şərqə, nə də özəl olaraq ərəblərə məxsus deyil. İslam bütün canlıların komleks sərvətidir. Lakin siz başqa dinlərdə ya slavyanofillik, ya anqlosaks xislətinin təzahürünü, ya hind xalqının sərgərdanlığını, ya da tipik yəhudi xarakterinin əks olunduğunu görərsiz! Çünki onlar falsifikasiya və etnoadaptasiyaya bulaşmışlar. Ərəbçiliyin isə İslama dəxli yoxdur! Çünki Quran təhrif olunmayıb! Əgər Quran falsifikasiyaya məruz qalsaydı, onda bunu iddia və ya zənn etməyə əsas olardı. İslamsız yer və ya İslamsız zaman ruhi tənəzzülə uğramış məkan-zaman sistemidir! Şübhə yoxdur ki, mən orjinal İslamı, Quranın diqtə etdiyi İslamı qəsd edirəm, qaraguruh məzhəb və firqələrin mənimsədiyi əməvi və ya abbasi "islamını" deyil! İslam Allaha və onun yaratdığı təbii qanunlara təslim və tabe olmağa çağıran dindir. İslam mühiti ilahi mühitin və ya Allahın yaxın ətrafının təbii-tarixi-siyasi-iqtisadi informasiya modelidir. İslamsız mühit xəstə mühitdir, qurumuş və ya yanmışdır! Normal təbii-xronoekoloji şərait olmadan canlı maddə inkişaf edə bilmədiyi kimi, İslam olmayan mühitdə də mənlik, qeyrət, namus, mərdlik, müdriklik, bir sözlə ruh mövcud olmur, yaxud olsa da passiv duruma düşür. Harda ruh var, orada İslam var; harada İslam var, orada ruh var. İslam və ya ruh olan yerdə də heç bir şovinızm, xüsusilə etnik və irqi konfliktlər mövcud ola bilməz. İslam canavardır, mənəviyyatsızlıq isə qoyun! Canavar qoyunu görən də, onu tamam yeməsə də, yırtıb öldürəcək. Eləcə də İslam alçaqları və alçaqlıqları tam məhv eləməsə də zərərsizləşdirir, ən azı bir müddət ədalət bərpa olur. Necə ki, Məhəmməd(s.ə.v) İslamı yer üzünə getirəndən Əlinin şəhid olması anına qədər, başqa sözlə müaviyyə hakimiyyəti "**qapazlayana**" qədər, vəhşi ərəbistanda ədalət öz işini görürdü. Bu dövr əsl İslamiyyət dövrü idi. Bu dövrdə rüşvət, biqeyrətlik, vətənə, ailəyə biganəlik, zinakarlıq normal adam üçün ağlasığmaz idi. İslam dünyası bir də heç zaman belə bir dövr görmədi. Bu dövrdən sonra müsəlman aləmində ən azı mahiyyətcə həmişə bütpərəstlik mövcud olmuşdur. Müsəlmanların ən böyük filosoflarından olan ibn Ruşd əl-Əndəlüsi Platonun dövlət əsərinə verdiyi şərhdə belə yazır: "**Platonun arzuladığı dövlət nümunəsi Raşidi Xilafət zamanı idi. müaviyə isə qurduğu səltənət sistemi ilə bu nəhəng və adil sistemi dağıtdı və***

***bununla da fitnə-fəsad qapılarını açmış oldu!"*** *İmam Əlidən sonra müaviyənin müsəlman camaat qarşısında* ***"xidməti"*** *nəticəsində bütpərəstlik maskirovka edilmiş hala keçdi. Forma Islam, substansiya bütpərəstlik oldu! Muhamməd və ali-Muhammədin qurduğu Raşidi Xilafət müaviyə tərəfindən devrildikdən sonra müsəlmanlara kütləvi şəkildə bazar xarakteri təbliğ edildi, hədislər uyduruldu, saray alimləri yetişdirildi, sifarişli fətvalar verildi və nəticədə bu ümmət də özlərindən əvvəlki azmış ümmətlərin yolunu təqib etməyə başladı. Müsəlmanlara bazar xarateri təlqin edən görüş sahibləri Rəsulullahın adından qondarılmış:* ***"Dünya üçün elə çalış ki, sanki heç vaxt ölməyəcəksən. Axirət üçün elə çalış ki, sanki sabah öləcəksən!"*** *hədisinə istinad edərək zəif iman sahibi və savadsız müsəlmanları aldatdılar. Bu qondarma hədisin əvvəl və son cümləsi tamam təzad təşkil edir. Son cümlə tamam Quran prinsiplərinə uyğun olsa da,ilk cümlə həm Qurana, həm də Rəsulullahın öz həyatına təməldən ziddir. Dünya üçün nəinki heç vaxt ölməyəcəksən kimi çalışmaq, hətta sadəcə dünyaya bağlanmaq belə onlarla ayədə qınanmış və rədd edilmişdir. Dünyada əbədi qalacaqsanmış kimi çalışmaq isə nəinki sadəcə rədd edilmiş, hətta lənətlənmiş əməllərdən sayılır. Məsələn, Quranda buyrulur:* ***"Vay halına insanların arxasınca ayıblayan və lağ edən, mal toplayıb bircə-bicə sayan və malı özünə əbədi sayan kimsələrə!"[159]*** *Bu ayənin gücləndirdiyi hədisdə isə Nəbi buyurur:* ***"Adəmoğlunun bir vadi dolusu qızılıolsa, bir vadisi də olmasını istər. Onun ağzını ancaq torpaq doyurur. Amma Allah tövbə edənin tövbəsini qəbul edər!"[160]*** *Müasir insan tipi əsl bazar xarakterli, daşdan da pul çıxaran, hər şeydə fayda və mənfəət güdən tipik acgöz tüccarları xatırladır. Müsəlman tüccarlar da bunların arasında xüsusi olaraq seçilir. Rəsulullah əbəs yerə buyurmurdu:* ***"Hər ümmətin bir fitnəsi var. Mənim ümmətimin fitnəsi də maldır!"[161]*** *İnsanlara bazar xarakteri aşılayan, utulitar və aktivist alim və mütəfəkkirlər hər zaman və hər ümmətdə olmuşdur! Bu günüdək mal hərisliyi üzərində bərqərar olmuş bazar xarakteri nəinki müsəlmanlar arasında, hətta bütün dünyada hər sahəni, hər kəsi çulğalamışdır. Ateist və sosialistlərin ən yaxşılarından olan Fromm çağdaş* ***"homo***

---

[159] ***Huməzə, 1-4***
[160] ***Buxari, əs-Sahih, Rikaq, 10, İstanbul, 1992***
[161] ***Tirmizi, Zühd, 26***

***ekonomikus"****u belə təsvir edir: "Bazar xarakterli adam hər şeyi, yalnız əşyaları deyil, şəxsiyyətin özünü, hətta onun fiziki enerjisini, vərdişlərini, fikirlərini, biliklərini, hisslərini, təbəssümünü də əmtəə kimi qəbul edir. Onun başlıca məqsədi - əlverişli şərait ələ düşən kimi gəlir əldə etməkdir!"*[162] *Frommun bu təsbiti ilə yalnız bazar xarakterli, məzmunsuz və mənasız **"mən"**lər razılaşmaya bilər. Modern bazar sindiromunun qlobal effektləri barədə qərbin ən nüfuzlu ekonomistləri arasında da vicdanının səsini boğmayıb həyacan təbili çalanlar olmuşdur. Bunlar arasında məşhur biznesmen soros da var. Onun bazar magiyası haqqında dedikləri okkultizm və mistikadan daha çox ekonomik tənqid hesab edilməlidir.*

*Insan təbiəti nə qədər vəhşi və dağıdıcı olsa da, öz-özlüyündə şər qüvvə mənbəyi deyil. Nə siyasət, nə texnika, nə də irq sarsıdıcı, katastrofik faktor deyil. Sadəcə bizim başıboşluğumuz - baxmayaraq ki, luvrumuz, yaxud Misir ehramlarımız var və bütün bunlarla lovgalanırıq, - ona gətirib çrxarır ki, biz ən azı əksəriyyətcə şər qüvvənin dayağı rolunu oynayırıq. Istər həndəsi baxımdan, istərsə də ümumi elmi baxımdan Protoqorun **«insan hər şeyin ölçüsüdür»** fikrinin dəqiqliyini söyləmək olar, amma nə bu və bənzəri fikirlər, nə də kosmik kitablar təbiətin, kainatın və təkamülün son sözünün insan olduğunu söyləməyə heç bir əsas vermir. Insanı **«təbiətin əşrəfi»**, **«ali varlıq»**, **«təkamülün son sözü və zirvəsi»** və başqa mübaliğəli uydurmalarla layiq olmadığı zirvəyə süni surətdə qaldırmağa cəhd edənlər də totalitar mühit təşkilatçısı olan yalançılardır! Hətta, bu yalançılar Allah və kosmik kitablar adından da yalan danışmaqdan çəkinməyərək iddia etmişlər ki, guya Allah endirdiyi kitablarında da insanı məxluqatın əşrəfi olduğunu söyləmişdir. Allah bizə bir neçə Kitab nazil etmişdir. Bu kitabların da ən mükəmməli və ən dəqiqi Qurandır. Həm ateist təkamülçülər, həm də ilahiyyatçı təkamülçülər insanın varlığın şedevri olmasında görüş birliyinə varmışlar. Ateistləri hardasa başa düşmək olar, amma Allah və onun dini adından insanları aldatmaq daha dəhşətlidir. İnsanın məxluqatın əşrəfi və Allahın şedevri olduğunu qondaranlar həm Quranda, həm də Tövrat və Incildə mələklərin Adəmə səcdə etməyə əmr edilməsilə bağlı ayələri, həmçinin digər bəzi ayələri insanın digər məxluqlardan üstün olduğu uydurmasının həqiqiliyinə dəlil gətirmişlər. Halbuki bunlar*

[162] ***Адольф Гитлер: клинический случай некрофилии. М., 1992, 27***

*hamısı ağ yalan və cahillikdir. Biz ayə fırladan və millət aldadan teodarvinist mülhidlərə Allahın yardımıyla qısa və konkret şəkildə rəddiyyə verəcəyik. Kosmik kitablarda, xüsusən də Quranda insanın sadəcə Allah tərəfindən hörmətli edildiyi və digər məxluqlara da Allahın yaratdığı olduğu üçün insana da hörmətlə yanaşmaq əmr edilib. Adəmə edilən səcdənin ibadət səcdəsi deyil, sadəcə hörmət səcdəsi olduğunda bütün normal düşünən insanlar və digər şüurlular ittifaq ediblər. Adəmə edilən səcdə Allahın yaratdığı hər bir şüur sahibinə edilib. Bu yaradılış salamından başqa bir şey deyil. Cəbrail, Mikail və başqa mələklər, hətta iblis də yaradılanda bu cür yaradılış salamıyla salamlanıblar. Bu hörmət səcdəsi yalnız Adəmə məxsus xüsusi bir şey deyil ki, insanpərəst buqələmunlar dəridən-qabığdan çıxırlar! Insanın yaradılış materialı maddənin ən aşağı növündən olduğu üçün mələklər və digərləri bu hadisəyə təəccüb və tərəddüdlə yanaşmışdılar. Uca Allah ən alçaq maddədən hörmətli bir məxluq yaratmaq fikrini insanı yaratmaqla gerçəkləşdirdi. Insan materialının aşağılığı hər kəsə məlum idi. Torpaq maddənin ən ibtidai halındakı materialdır. Cinlərin seyyidi olmuş iblisin maddəsi isə hal-hazırkı dövri sistemin ilk elementi olan hidrogendir. Elə bu səbəbdən iblis və şiələrinin etirazı baş qaldırdı. ibulikin ən böyük axmaqlığı Allahın yaradılış məqsədi barədə düşünməməsidir. iblis yaradılana baxıb Yaradana üsyan etdi! Əgər o Yaradana baxıb yaradılana hörmət etsəydi həm onun, həm də bizim taleyimiz başqa cür olardı! Axmaq iblis başa düşmədi ki, Allah Adəmə ona üfürdüyü ruha görə hörmət qoyub və hörmət tələb edib. Necə ki, ayədə buyurur: **“Mən ona ruhumdan üfürdüyüm zaman ona səcdə edin!”** Əgər Allah Adəmin fiziki materialına görə onu səcdə edilməyə layiq bilsəydi, öz ruhundan üfərməyin və ya ruhun üfrülmə zamanın gözlətdirməyin heç bir anlamı olmazdı. Əfsus ki, cəhalət və paxıllıq iblisi məğlub etdi. Hələ lənətlənməmiş iblis o zaman Cəbrail, Mikail, Israfil, Xarqail və Əzrailin başçılıq etdiyi mələklər ordusuna imamlıq edirdi. Hamısı böyük alim idilər. Amma Allah alimlərin alimi idi. Allahın insanın yaradılışına etiraz edən mələklərə **«siz mənim bildiyimi bilmirsiniz!»** deməsinin yeganə açıqlaması Onun ən alçaq materialdan da qiymətli bir şey yaratmağa qadir olduğunu ortaya qoymasıdır. Insanı yaratmasıyla uca Allah həm də onu sübut etdi ki, ən yüksək materialdan yaranan məxluq da dəyərsiz və üsyankar ola bilər. Necə ki, iblisin üsyanı bunu göstərdi. Lakin burdan yola çıxıb insanın*

*məxluqatın ən üstünü olduğu sonucuna varmaq artıq necə deyərlər "ağ" eləməkdir! Teodarvinçilərin bu sərsəm fikiri müdafiə üçün əsaslandıqları əsas dəlillərdən biri olan Isra surəsinin 70-ci ayəsində buyrulur:* ***«And olsun ki, adəm övladını kərəmli(hörmətli) qərar verdik. Onlara suda da, quruda da minik verib təmiz nemətlərlə ruziləndirdik. Məxluqatın bir-çoxundan fəzilətcə üstün etdik!»*** *Yalançıların insanın məxluqatın əşrəfi olmasını isbat üçün gətirdikləri ən böyük dəlil bu ayədir. Halbuki ayədə açıq-aşkar ən azı insanın məxluqatın hamısından üstün olmadığı göstərilir. Kərəmli və ya əşrəfli olmaq bütün məxluqlara onlar doğru yoldan çıxmadığı müddətcə bəxş edilən sifətdir. İnsan yalnız geosistem canlıları içində kərəmlidir. Kosmik kərəm və əşrəf sahibi olmaq üçün kosmik dinə təslim olmaq vacib və lazımdır. Bu sifətin yalnız insana aid olduğunu iddia edənlər ya cahildir, ya da yalançıdır! Halbuki uca Allah Quranda dəfələrlə* ***«insan ziyan içindədir!»***, ***«biz insanı zəif yaratdıq!»***, ***«insan nankordur!»*** *kimi təhdidlərilə insanın* ***«ali varlıq»***, ***"məxluqatın əşrəfi"***, ***«təkamülün son sözü və zirvəsi»*** *olduğunu iddia edənlərin yalan söylədiklərini göstərməkdədir. Digər tərəfdən, kərəmli və əşrəf sifəti başqa məxluqlara da verilir. Məsələn, Cəbrail haqqında onun Allah yanında kərəmli – hörmətli və əmin olması barədə açıq ayə var. Qurana görə Cəbrail kosmik kərəm sahibidir. Amma insan isə öz əməllərilə kərəmli də ola bilər, ona fitrətən bəxş edilmiş kərəmi ayaqları altına da ata bilər! Allahın yolunda olan və kosmik qanunları pozmayan hər kəs əşrəfdir, kəramətlidir. Insanların əksəriyyəti kosmik qanunlara zidd fəaliyyət göstərdiyindən hörmətli, kərəm sahibi və əşrəf olmaqdan çox uzaqdırlar! Uca Allah bu cür insanları* ***"hevandan da daha aşağıdadırlar!"*** *və* ***«canlıların ən şərlisi»*** *deyə vasf edir! Teodarvinçilərin insanın məxluqatın tam ixtiyar sahibi olmasına gətirdikləri dəlil isə bu ayədir:* ***"Görmədinizmi, Allah göylərdə və yerdə olanları sizin üzərinizə açıq və gizli nemətlərini yağdırmağa vəzifələndirmişdir?! İnsanlar arasında elmsiz və hidayət edən kitaba dayanmadan Allah haqqında mücadilə edənlər var!"(Loğman, 20)*** *Qurandan və İslamdan nəsibi olmayanlar həm ayəni düzgün anlamır, həm də düzgün tərcümə və təfsir etmirlər. Bu ayədəki* ***səxxara*** *kəlməsindən yola çıxıb kainatdakı hər şeyin insanın ixtiyarına verildiyini iddia etmək necə böyük cahillikdir! Ayədən açıq-aydın görünür ki, göylərdə ve yerdə olanların bizə Allahın əmrilə nemətlər*

*yağdırmasından söhbət gedir, məxluqatın bizim əmrimiz altına verilməsindən deyil!* ***Səxxara*** *kəlməsi geosistemin bizim əmrimizə deyil, istifadəmizə verildiyinə dəlildir. Əgər əşrəfistlərin iddiası doğru olsaydı onda ən azından özlərini məxluqatın əşrəfi hesab edənlər göyləri və yeri rahat idarə etməli, məxluqata hökm etməli deyildilərmi?! Halbuki cılız, xəbis və vəhşi olan modern insan heç özünü idarə edə, özünə doğru hökm edə bilmir! Əgər bu ayədə sözü gedən kəlməni* ***"göylərdə və yerdə olanların sizin ixtiyarınıza verdi"*** *kimi tərcümə edilsə belə yenə də bu insanın siyasi-ekonomik və siyasi-texnoloji üstünlüyünə deyil, yalnız əqli, mənəvi, elmi, bir sözlə ruhi üstünlüyünə dəlil olar. Bu ayə ilə bağlı yanlış yanaşma, Həcc surəsinin 65-ci və İbrahim surəsinin 32-ci ayəsində də təkrarlanmışdır. Məlum məsələdir ki, insan fiziki olaraq zahiri məxluqat və nemətlərlə təmas yarada bilsə də, batini nemət və məxluqata heç vaxt fiziki olaraq təsir edə bilməz. Hətta, açıq və aşkar olanları da idarə etməkdə insan acizliyi açıq-aydın görsənir. Bir ayəni düzgün başa düşmək üçün digər ayələrə və ayələrin nazil olduğu şəxsin verdiyi təfsirlərə nəzər salmaq, öyrənmək vacibdir! İslam adına deyilən və edilən bu cür yalan və təhriflər özü ilə zəncirvari olaraq başqa yaıan və falsifikasiyalar da doğurmuşdur ki, bu uydurmalardan biri də insanın yer üzündəki canlıların ağası olması mifidir. Halbuki İslam qnosiologiyası insanın Allahın yer üzündəki Xəlifəsi missiyasının daşıyıcısı olduğunu göstərsə də, xəlifəlik ağalıq deyil. Quranda Allah buyurur:* ***"Mən yer üzündə bir Xəlifə yaradacam!"(Bəqərə, 30)*** *İnsan bu Xəlifəlik sifətini çoxlarının zənn və iddia etdiyi kimi ağalıqla deyil, qulluq və dostluq sifətilə daşıyır. Digər tərəfdən xəlifəlik məsuliyyət və vəzifə borcu deməkdir. Quranda bəhs edilən Xəlifəlikdə məqsəd, dar və ixtisaslaşmış anlamda rəsullar, nəbilər, imamlar olmasına baxmayaraq, ən geniş mənada insanın özüdür. Mücərrəd, absurd və çətin anlaşılan bir-çox söz və görüşləri ilə məşhur olan, İslam alimlərinin əksəriyyəti tərəfindən təkfir edilmiş Muhyiddin ibn Ərəbi xəlifəliyin fəlsəfəsini çox mükəmməl izah edib yazırdı:* ***"İnsan olmaq Allaha xəlifə olmaq deməkdir. Allahın xəlifəsi olmaq vəlilik,*** *nəbilik,* ***risalət, imamlıq, əmirlik və idarəçiliyi ehtiva edən ümumi bir pillədir. Bütün bu pillələr kamil olanda insan da kamil olur. Bu xüsusiyyət Adəmdən tutmuş sonuncu dünyaya***

***gələcək hər bir insanda potensial olaraq mövcuddur!”*** [163] *Bəli, ortodoksal bidətçilərin çoxunun iddia etdiyi kimi xəlifəlik ağalıq deyil, ən kamil halda mənəvi sərvətdir. Başqa tərəfdən Allah Quranda canlılardan bəhs edərkən insan, heyvan, bitki ayırımı qoymamış və insanı xüsisiləşdirməmişdir. Quranda bu barədə deyilir:* ***“Allah yer üzünü canlılar üçün yaratdı!”(Rəhman, 10)*** *Bu ayə o deməkdir ki, insan və digər canlılar yer üzündə eyni hüquqa malikdir. Rəsulullah və əshabının həyatını incələdikdə təbiətin bütün ünsürlərini bütün yaradılmışların ortaq malı kimi qəbul etdiklərini görmək olar. Şübhəsiz ki, təbii qaynaqlardan istifadə etmək haqqına sahib olmağımız sadəcə təbiətdən faydalanmaq və həyatımızı təmin etmək haqqına sahib olmağımız mənasındadır. Geosistemin bizə əmanət edildiyi nassla sabitdir. Əmanət olunan şeyi korlamaq, qorumamaq, hətta məhv etmək xəyanət deyilmi?! İslam Hüququnda, - hər nə qədər müsəlmanlar əksəriyyətcə bu hüquqları gözardı etsələr də, - torpaq, su, hava, od, meşə, günəş işığı və digər bütün təbii elementlər sadəcə insanlara deyil, bütün canlıların ortaq istifadəsinə açıqdır.* [164] *Bu günədək içi boş kəllələrə hakim olan* ***“təbiətə hakim ol!”*** *satanik ideyasının,* ***“təbiətin gözətçisi, qulluqçusu və əmanətçisi ol!”*** *teoloji ideyasının yerini zorla zəbt etdiyini söyləyən alimlər çox az olmuşdur. Bütün varlığın həqiqi sahibinin Allah olduğu, insanın bu sifətə malik olmadığı bütün dinlərin təməl əsaslarında mövcuddur. Məsələn, yəhudi alimi Sammy Jakman belə yazır:* ***“Heç bir ölümlü həqiqi mənada bir şeyin hakimi ola bilməz. Hər şeyin sahibi ancaq əbədi Allahdır. Vacib əl-Vücudun hökmranlığına bu ayə nə gözəl şahidlik edər: “Yer daimi surətdə satılmayacaqdır, çünki yer mənimdir və siz mənim yanımda qərib və müsafirsiniz”(Levililər, 25:23) Bu mülkün yalnız Allaha aid olduğunun, yaradılmışlara isə ancaq bir lütf edildiyinin açıq bəyyinəsidir. Mülk Allahın bəxş etdiyi müqəddəs bir əmanət olduğu üşün Allahın arzusuna uyğun istifadə edilməlidir. Başqa sözlə heç kim nəinki təbiət, sadəcə öz şəxsi malı üzərində də mütləq haqqa sahib deyildir!”*** [165] *Quranda da* ***“mulk”*** *və* ***“milk”*** *məstərlərindən törəyən müxtəlif kəlmələrlə* ***“mülk və hakimiyyətin yalnız Allaha aid olduğuna”*** *xüsusi diqqət çəkilmişdir. Quranda daha*

[163] ***Suad el-Hakim. İbn ul-Arabi sözlügü, İstanbul, 2004, 366***
[164] ***Hafiz, B.A. Masri, İslam ve Ekoloji,19***
[165] ***Yahudilik və Ekoloji, 133-136***

*çox **"mulk"** məstərindən istifadə edilərək dünya və axirətin mülkünün sözün əsl mənasında yalnız Allaha aid olduğu vurğulanmışdır. Müsəlman, - əgər həqiqətən müsəlmandırsa, - nisbi mülk sahibi olub ondan təsərrüf edərkən mülkün həqiqi sahibinin kim olduğunu düşünməlidir. Bu borc və vacibatı müsəlman vəzifəsi kimi məhdudlaşdırmaq olmaz, yəhudi, xristian və digər dinlərin daşıyıcıları da heç olmasa öz dini qaynaq və prinsiplərinə sadiq olsalar, hər şey də olmasa, çox şey düzələr, problemlər həm say, həm intensivlik baxımından minimuma enər. Islam dini insanın məxluqatın ən üstünü və ixtiyar sahibi olması əqidəsindən uzaqdır. Hər şeyin Xaliqi və Sahibi, hər şeyi bilən buyurur: **"Göylərin və yerin yaradılışı insanın yaradılışından daha böyükdür. Nə var ki, insanların çoxu anlamır!"(Mumin, 57)** Digər ayələrdə buyurur: **"Sizi yaratmaq çətindir, yoxsa göyü?! Allah onu bina etdi. Ölçüsünü nizamlı və hündür etdi!"(Naziat, 27-28)** Bu ayələr açıq-aydın insanı məxluqatın və ya varlığın şedevri hesab edən qondarma və uydurma görüş sahiblərinin görüşlərinin batil və yalan, özlərinin də ən azı yalançı və cahil olduğunu göstərməkdədir. Tarix boyu elm və hikmət adamları arasında təbiət və insan arasında bir oxşarlıq olduğu görüşündə olan alimlər çox olmuşdur. Bir-çox filosoflar kosmosu iradəli və iradəsiz olmaqla da iki yerə bölürlər. İradəsiz kainat başqasının zoru ilə hərəkət edən şeylər kompleksidir. İradəli kainat isə öz arzu və iradəsi ilə hərəkət edən şeylər kompleksidir. İradəli kainat və ya azad kainat insanlar dünyasıdır. İradəsiz kainat isə insanlardan başqa bütün məxluqlardır. Bunlar içində bitkilər, daşlar, hətta mələklər də var. Hər bir iradəli və hür varlıq ağıllı varlıqdır, amma hər bir ağıllı varlıq hür deyil. Mələklər bu baxımdan azad deyillər.* [166] *Antroposentrist üləma tutuquşu kimi eyni fətvaları təkrarlasa da heç bir dəlil ortaya qoya bilmir, hətta açıq nasslarla təzad təşkil edən hökmlər verib sıravi insanları aldatmış və aldatmaqda da davam edirlər. Orta əsrlərdə insanoğlunun Allahın yaratdıqlarının ən üstünü olduğu və bütün digər yaradılmışların onun üçün yaradıldığı əqidəsi hakim idi. Təbii ki, kainat bir sistem olduğu üçün insanı ayrı təsvir etmək mümkün deyildi. Buna görə o dövrün filosofları hər bir nəticənin səbəbinə bənzəməsinin qaçınılmaz olduğu fikrində israr edirdilər. Hər şey Allahın əsəri olduğu üçün, bütün şeylər arasında bu*

---

[166] ***Atay Hüseyn, İslamda Olğun İnsan, Ankara, 1968, 155***

*və ya digər forma və dərəcədə bənzətmə labüd idi. Bundan yola çıxan filosoflar insanın mikrokosmos olub makrokosmos olan kainata bənzədiyi nəzəriyyəsini yaratdılar. Sonralar da bu nəzəriyyədən çox istifadə edildi. Mikrokosmos-makrokosmos analogiyasından günümüzdə də mötəbər elm və hikmət adamları tərəfindən istifadə edilir. Indiyədək gəlib getmiş mütəfəkkir və alimlərin demək olar ki, hamısı kainat və ya təbiətin və yaxud da göylərin makrokosmos(əl-Aləmul-Kəbir), insanın da mikrokosmos(əl-Aləmul-Səqir) olduğunda ittifaq etmişlər. Bir-çox böyük İslam mütəfəkkirləri də bu analogiyadan istifadə etmişlər. Mötəzilə alimlərinin böyük əksəriyyəti insanın mikrokosm olduğu görüşündəydilər. Əşari, matrudi və sələfi alimləri arasında da bu görüşü qəbul edənlər var. Lakin antroposentrist əqidədə olanlar insanın mikrokosmos olmasına da antiekoloji don geyindirməyə çalışdılar. Məsələn, böyük antroposentrist əşari alimi əbdülqadir bağdadi(v.429/1037) böyük kainatdakı hər şeyin kişik kainatın bənzəri olduğunu söyləyir. Lakin ona görə nəinki insan, hətta onun duyğuları da ulduzlardan fəzilətli və dəyərlidir. İnsanın eşitməsi və görməsi günəş və ay kimidir! İnsan sonda torpaq olur. İnsanda su cinsindən tər və rütubət var. Dünyanın hava təbəqəsinə bənzər şəkildə insanda qoxu və nəfəs var. İnsan təri yer üzündəki nəhirlərə bənzədiyindən onların dənizlərə axmasına bənzəyir. İnsanın sümükləri dağlara bənzəyir. Bədən üzvləri ağaclar kimidir. Zira hər ağacın yarpaq və meyvəsi olduğu kimi üzvlərin də enerji və effekti var. İnsan bədənindəki qıllar yer üzündəki bitkilər kimidir. İnsan diliylə bütün heyvanların səslərini çıxara, bütün heyvanların etdiklərini edə bilir.[167]Bağdadinin fikirlərini başqa sözlə, lakonik belə ifadə etmək olar: insan bütün digər canlıların malik olduğu bütün özəlliklərə sahibdir. Zira Allah insanı əhsəni-təqvim olaraq yaratmışdır. Çünki Quranda* ***"biz insanı gözəl qurluşda yaratdıq"(Tin, 4)*** *buyrulur. Lakin bu ayədə bəzilərinin yalnış və ya uydurmalarına haqq vermək məqsədi ilə tərcümə etdikləri kimi* ***ən gözəl*** *mənasını verən söz yoxdur. Mutasavvıflar da kainatı iki qismə ayıraraq ələ alırlar: İnsan kiçik kainat və ya kiçik aləmdir. Kiçik aləm olan insan böyük aləmin xülasəsidir. Kamil insanda ilahi sifətlər təcəlli edər. Məsələn, böyük mutasavvuf sayılan antroposentrist*

[167] ***ƏbdülQadir Bağdadi, Usulud-Din, Beyrut, 1928, 34-35***

*qazaliyə*[168] *görə də insan bədəni kosmik ünsürlərdən təşəkkül edilib. Yerin alt təbəqələrində torpaq, daş və digər komponentlər olduğu kimi, üst təbəqələrdə də su və hava kimi nisbətən yumşaq elementlər var. Eynilə insanın da struktur özülü sümüklərdən, sümük üzərindəki quruluşu da nisbətən yumşaq maddələrdən təşkil edilmişdir. Böyük kosmos(əl-Aləmul-Kəbir/makrokosmos) yer, günəş, ay və ulduzlara, kiçik kosmos(əl-Aləmul-Səqir/mikrokosmos) isə insana uyğun gəlir.*[169] *Kiçik aləmin böyük aləmdən nəinki böyük, hətta ona bərabər olmadığına mənliyində və ağlında problem olanlardan başqası şəkk etməz. Şübhə yoxdur ki, insan nəinki kainatın, yer üzünün çox kiçik bir parçacığıdır. İnsanı ürək, beyin, ağciyər, mədə kimi orqanlardan ayrı təsvir etmək mümkün olmadığı kimi, insanın da daxil olduğu təbiəti də meşələrsiz, çaylarsız, dənizlərsiz, bitki və heyvanlarsız təsvir və təsəvvür etmək də o dərəcədə qeyri-mümkün və absurddur. Bu baxımdan insana göstərilən teorik və praksioloji qayğı və hörmət, hər şeydən öncə təbiətə, büsbütün canlı maddəyə göstərilməlidir. Çünki yaşadığımız kosmos və ya təbiət həm insanın həyat və fəaliyyəti, həm də eyni Demiurqun(Yaradanın) əsəri olması və bizim kimi saysız-hesabsız canlı orqanizmə həyat imkanı verdiyi üçün çox dəyərlidir. İnsanın məxluqatın əşrəfi olması iddiasının heç bir kosmik əsası olmasa da, araşdırmalarımız bu uydurmanı ilk ortaya atanların yəhudilər içindən çıxdığını ortaya qoydu. Bunların dəlili Tövratdakı bu ayədir:* ***«Göylər Rəbbindir, fəqət yeri adəmoğullarına verdi!»(Məzmurlar, 115:16)*** *Yəhudilərin çoxu bu və bənzəri ayələrə dayanaraq insanın yer üzündəki canlıların ən üstünü olmasını iddia etmiş, sonralar bu fikirlər müsəlmanlara da təlqin və təbliğ edilmişdir. Lakin zorba və yalançılar qulluğunda durduqları aftoritar rejim və totalitar dövlətlərin yer üzündəki xaos və fəsadına bu cür mübarək ayələri alət etməkdən utanmırlarmı?! Bu batil inanc sahibi yalançılar ən azı dolayı formada insanın yer üzündə digər canlalarla istədiyi kimi davrana bilməsində ixtiyar sahibi olduğu fikrini ustalıqla təlqin*

---

[168] ***Lakin qeyd etməyim vacibdir ki, qazalinin istər bu temadakı, istər başqa bir-çox teosofik və ekosofik düşüncə və baxışları ondan öncə itizal məzhəbinə məxsus bir-çox böyük mütəfəkkir(Nazzam, Cahiz, Kindi, Biruni, ibn Rüşd, Qadı Əbdulcabbar və b.) tərəfindən söylənmişdi. Çoxluğu təşkil edən sünnülər təəssübləri üzündən, həmçinin sələflərinin vaxti ilə onlara zülm edib əksər əsərlərini məhv etmələrinə arxalanaraq o böyük alim və filosofların adlarını ya çəkməzlər, ya da çəkəndə məcburiyyət qarşısında elə-belə çəkərlər, çox vaxt da onların fikir və düşüncələrini təhrif edərək naql edərlər.***

[169] ***Qazali Əbu Həmid, Məaricul-Quds, Beyrut, 1975, 134***

*və təbliğ etmişlər. Tövratdakı ayədə əslində yer üzünün və canlı maddənin insana əmanət kimi qoruyub saxlamaq üçün verildiyinə dəlildir, dağıtmaq və istədiyi kimi istifadə etməyə heç cür dəlil olmaz. Elə insanın Xəlifəliyinin də mahiyyət və mənası budur. Allah "**Mən yer üzündə Xəlifə yaradacam**" buyurduqda da məqsəd və məna "**yer üzünü qoruyacaq, mühafizə edəcək və təmiz saxlayacaq məxluq yaradacam!**" deməkdir. Yoxsa **"yer üzündə istədiyi kimi ağalıq edəcək, istədiyini məhv edib, istədiyini düzəldəcək məxluq yaradacam!**" demək deyildir! Sadəcə iblisin alim əsgərləri totalitar təfsir və aftoritar təvillərilə bəşəriyyəti aldatmağa çalışmışlar. Bu təvilçi yalançılar Xilafətlə məlikliyi eyniləşdirmiş, elm və praktikanın hər sahəsində bizim üçün çox böyük problemlər yaratmışlar. Yəhudi və xristianların böyük əksəriyyəti insanın təbiətdə və ya təbiət üçün deyil, təbiətin insan üçün yaradıldığı və insanın təbiət üzərində tam ixtiyar sahibi olduğu əqidəsində olsalar da, onların da arasından az da olsa həqiqəti söyləyənlər olmuşdur. Məsələn, XX-ci əsrin böyük müfəssirlərindən biri orjinal yəhudi Abraham ben Ezra yuxarıdakı ayəni belə təfsir edir: **“Cahillər insanoğlunun yer üzündəki idarəsini Allahın göylərdəki iradəsilə müqayisə edirlər. Bu doğru müqayisə deyil, zira Allahın hökmü hər şeyi ehtiva edir. “yeri adəmoğullarına verdi” ifadəsinin mənası budur: insan yer üzündə Allahın xəlifəsidir və hər bir işini Allahın kəlimasinə(qanunlarına) uyğun görməlidir!”**[170] Lakin çoxluğu təşkil edən mulhid və yalançılar insanın yer üzündəki xaos və fəsadına bu cür mübarək ayələri alət etməkdə davam edirlər! Bu batil qoy yəhudi inancını müsəlmanlar arasında yayan çoxlu **«hüccətulislam»** və **«şeyxulislam»** da var. Məsələn, müsəlmanları bir-çox batil görüşlərilə saptıran qazali öz şedevrində belə yazır: **«Heyvanları insanlara fəda etmək zülm deyil! Naqisi kamilə qurban etmək baxımından bir ədalətdir!»(ihya, 8\181)** qazali təbiəti və təbiiləri kamil insana qurban etməyin caiz olduğunu söyləsəydi, bəlkə də ona hardasa haqq qazandırmaq olardı. Halbuki kamil insanların sayı olduqca azdır və hər keçən gün daha da azalırlar. Digər tərəfdən kamil insan heç vaxt heç bir canlının ona fəda olmasına razı olmaz! Amma qazali ixtiyari heyvanı ixtiyari insana qurban etməyi ədalət sayması az deyilmiş kimi, bu batil iddiasını İslam əqidəsi kimi izah və izhar edir, xüsusən də insana bəxş*

---

[170] ***Solomon Norman, Yehudilik ve Çevre, İnstanbul, 1992***

*edilən Xilafət anlayışına əsaslanır. Halbuki heyvanların qorunması və onlara zülm edilməsinin haram olması ilə bağlı kifayət qədər nass var. Xilafət istər ekoloji baxımdan, istər sosial və siyasi baxımdan əmanətdən başqa bir şey deyil. Əgər Xilafət qazali kimilərin başa düşdüyü kimi ağalıq və ya sultanlıq olsaydı, daha doğrusu əmanət olmasaydı, uca Allah belə buyurmazdı:* ***«Biz əmanəti göylərə, yerə, dağlara təklif etdik, fəqət onlar bunu götürməkdən qorxub çəkindilər. Amma çox zalım və çox cahil olan insan onu götürdü!»(Əhzab, 72)*** *Bu ayə insanın Xəlifəliyilə bağlı ayələrin mahiyyətini açıqlayan açıq bəyyinədir. Ayə bir daha insanın təbiətcə bədxah, cahil, zalım və yaramaz olduğunu göstərməkdədir. Bu həqiqəti danan və ya fırladanlar da ayənin hökmünə aiddirlər! Digər tərəfdən Quranda heyvanlardan yalnız təbii ehtiyaclara görə istifadəyə icazə verilib. Məsələn, Hud surəsi 6-cı və Nəhl surəsi 5-ci ayəyə görə heyvanların yunundan, südündən, ətindən istifadə etmək olar. Lakin hər hansı bir canlını nəfsin arzusuna uyğun olaraq qurban etməyin caiz olduğuna, nəinki caiz, hətta sadəcə işarə ola biləcək bircə ayə də yoxdur. Rəsulullah buyurur:* ***"Mərhəmətli olanlara Rahman mərhəmət edər. Yerdə olanlara mərhəmət edin ki, göydə olanlar da sizə mərhəmət etsin!"***[171] *Rəsulullahın səhabələrindən olan Usamə bin Zeyd heyvana işgəncə verdiyi üçün Nəbi ona demişdi:* ***"Ey Üsamə! Ciyəri olan hər bir heyvan haqqında diqqətli ol! Qiyamət günü Allaha şikayət edilərsən!"***[172] *Başqa bir səhih hədisə görə bir gün Rəsulullah üzü dağlanmış bir eşşək gördü, üzüldü və belə buyurdu:* ***«Allahın lənəti onu dağlayanların üzərinə olsun!»***[173] *Digər bir səhih hədisdə* ***Said bin Cubeyr belə rəvayət edir: Ibn Ömər Qureyşdən olan iki gənc oğlanın yanından keçdiyi zaman onlar bir quşu hədəf edərək ona ox atırdılar. Hər dəyməyən oxa görə quşun sahibinə nəsə verirdilər. Ibn Öməri görən kimi qaçıb getdilər. Ibn Ömər dedi: "Bunu kim edib?! Bunu edənə Allah lənət etsin!" Həqiqətən Nəbi içərisində ruh olan bir şeyi hədəf(oyun) üçün istifadə edəni lənətləmişdir!"*** *Buxari başda olmaqla bir-çox muhaddis icma edərək səhih isnadla Rəsulullahın belə buyurduğunu nəql edirlər:* ***"Orqanlarını kəsənə və heyvanlara əziyyət verənlərə***

---

[171] ***Tirmizi, Birr, 16***
[172] ***Nəsai, Dahaya, 42***
[173] ***Buxari, Zəbaih, 25***

***Allah lənət etsin!"** Nəbi heyvanlara əziyyət edənlərin də insanlara əziyyət edənlər kimi cəhənnəmlə cəzalandırılacağını açıqca söyləmişdir. Onun canlılara haqsız yerə əziyyət edənləri lənətləməsi birbaşa bu cür kəslərin ekosid və genosid tərədən mufsid və dinsizlər olduğunu göstərməkdədir. Əgər canlılara əziyyət verənlərin İslami hökmü budursa, bu cür haqsızlıqlara şəri don geyindirib heyvanları insanlara fəda etməyin ədalət olduğuna fətva verənlərin halı və hökmü daha ağır olar! Bu cür axmaq və absurd fikirlərin təsiri ucbatından insanlar həmişə ağılsız kimi baxdıqları heyvanları alçaltmaqla məşğul olublar. Amma istər İslam alimləri arasında, istərsə də digər din və ideologiya alimləri arasında bu fikirləri təkzib edənlər olmuşdur. İslam alimləri arasında heyvanları öz vəzifələrini əskiksiz icra etdikləri və günahkar olmadıqlarına görə cənnətlik olduqlarını söyləyənlər var. Məsələn, Nazzam heyvanların da kiçik körpələr kimi məsum hesab edib.[174] Hər nə qədər bu ümmətin Nazzam kimi ekosoflarının əsərləri daodan sapmış əşari və matrudilər tərəfindən məhv edilsə də, hər halda səthi alimlərin əsərlərində də dərin alimlərin fikir və ideyalarını tapmaq mümkündür. İslamdan öncəki dinlərdə də heyvanları qorumaq əmri yer alır. Məsələn, yəhidiliyə görə Musanın gətirdiyi **“On əmr”**dən biri belədir: **“Qonşunun evinə tamah salmayacaqsan, qonşunun arvadına, köləsinə, öküzünə, eşşəyinə, heç bir şeyinə göz tikməyəcəksən!”** Bu əmrdə insanların can və namuslarından sonra ən dəyərli şeyləri kimi heyvanları göstərilir. Tövratda heyvanlara şəvkət və mərhəmət edilməsinə yer verilir. Tövrat heyvanların çəkdiyi acıya qarşı insanın diqqətli olmasını əmr edir: **“Eşşəyi öküzlə birlikdə cüt sürməyəcəksən!”**[175] Başqa bir yerdə də **“Xarman döyən öküzün ağzını bağlamayacaqsan!”** əmri keçir. Ümumiyyətlə yəhudi ədəbiyyatlarında heyvanların əziyyət çəkməsinin qarşısını almaq üçün çox şeylər yazılmışdır. Talmud qladiator şoularını, əyləncə və lyuks geyimlər məqsədi ilə ova çıxmağı qadağan edir. Əhdi Ətiqə görə Nuhun gəmisindəki insanlar sahib olduqları heyvanlara qarşı mərhəmətli davrandıqlarına görə xilas olmuşlar. Həmçinin gəmidəkilərin heyvanları bəsləmək üçün yatmadıqları da ifadə edilir.[176] Qeyd etmək*

---

[174] ***Bağdadi, Abddulqahir b. Tahir, əl-Farq Beynə'l-Fıraq, Beyrut, 1977, 131***
[175] ***Tesniyye 22:10***
[176] ***Solomon, Yehudilik ve Çevre, 95***

*lazımdır ki, Əhdi Ətiqin bu əmrləri İslam dinində Nəbinin sünnəsi kimi sabit olmuşdur. Rəsulullahın bir-çox hədisləri var ki, yəhudilikdəki əmrlərlə eyni mahiyyət və məzmuna malikdir. Lakin təəssüflər olsun ki, istər yəhudilərin, istərsə də müsəlmanların böyük əksəriyyəti dildə müqəddəs və mübarək saydıqları dini nasslara layiqincə əməl etməmişlər! İslamdan əvvəlki dini ədəbiyyatlarda ətraf mühitin, canlı növlərinin individual və məişət daxili qorunmasına, qiymətləndirilməsinə dair çoxlu əmr və tövsiyyələr olsa da, bunlar sistemli və sinergetik xarakter daşımamışdır. İdeya və fikir tarixində ilk sistemli zooloji və zoosofik əsər mötəzilə filosof və alim Nazzamın tələbəsi Cahiz tərəfindən yazılmış **"Kitabul-Hayavan"(heyvanlar kitabı)** əsəridir. Bu kitab ən azı bu ümmətin tarixində ekosofiya və zoosofiya xarakterli ilk sistemli tədqiqat işidir. Dəmirinin də eyni adlı kitabı var. Əşari və matrudilər arasında da çox az da olsa zoosof və ekosof hesab edə biləcəyimiz nadir alimlər olmuşdur. İzzuddin bin Əbdissalam sünnü məktəbinin ilk ən babat, nisbətən insaflı alimidir. O, Nəbinin hədisləri əsasında heyvan haqlarını belə sıralayır:*

*1.Ehtiyac duyduqları qidaları fayda verməyəcək qədər yaşlansalar da onlardan əsirgəmək olmaz.*

*2.Gücləri çatmayacaq işləri(yükləri və s.) onlara yükləməmək.*

*3.Onları öz növlərindən və ya digər növlərdən dişləmək, vurmaq və yaralamaqla incidəcək və əziyyət edəcək hər hansı bir heyvanla bir yerdə saxlamamaq.*

*4.Ehtiyac üçün onları kəsən zaman canları tamam çıxına qədər dərilərini üzməmək, sümüklərini qırmamaq. Və balalarının gözü önündə kəsməmək.*

*5.Onlara rahatlıq gətirməsi üçün xüsusi yerə yerləşdirmək. Dincəlmə və yemək-içmək yerlərini təmiz saxlamaq.*

*6.Çoxalma zamanı erkək və dişiləri bir yerdə saxlamaq. Ev heyvanı olaraq istifadə etdiklərini zay etmələrinə imkan verməmək.*

*7.Onları yaralayacaq və ya ətlərinin yeyilməsini haram edəcək alətlərlə ovlamamaq.*[177]

*Quranda təbii-ekoloji şəraitlə əlaqədar məsələlərdə yol göstərən və ətraf mühitə necə təsir edəcəyimizi öyrədən 500-ə yaxın ayə var. Buna baxmayaraq əfsus ki, bu problemləri yalnız ekoloqların, ekonomistlərin və digər elm adamlarının çözə biləcəyini, İslamın*

[177] ***İzzuddin b. Əbdissəlam, Qavaidul-Əhkam fi Məsalihi'l-ənam, Beyrut, t.y,141***

*sadəcə pnevmatik(mənəvi) məsələlərdə yol göstərəcəyini düşünənlər də çoxdur. Halbuki bütün dinlər, xüsusən də İslam nəinki qlobal və sistemli, hətta lokal və elementar problemlərin həllində də maddi və mənəvi ayırımı qoymaz! Hər bir sistemli və prinsipli ideya və normativlər kompleksi kimi bu din də spesifik dinamiki sistemdir. Digər tərəfdən problemlər də öz-özlüyündə dinamiki xarakter daşıyır. Bu baxımdan dinamiki xarakterli problemin çözülməsinə birtərəfli yanaşma absurddur. Əvvala belə bir yanaşma mümkün deyil, ikincisi mümkün olsa belə heç bir elmi və praktiki nəticəyə malik olmaz. Kosmik bünövrəsi olan elə bir din yoxdur ki, bəşəriyyətin qlobal forma və mahiyyətli problemlərinə yanaşmada onları hər tərəfli, sistemli əhatə etməsin. Lakin zaman keçdikcə insanların teoekosistemdən gələn informasiyaları öz* ***"mən"****lərinə adaptasiya etməyə cəhdləri, hətta təhrifə əl atmaları İslamdan öncəki bütün dinlərin yarımçık görüntü almasına səbəb olmuşdur. Böyük Allah bu barədə buyurur:* ***"Əgər haqq onların həvalarına tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrardı!"(Muminun, 71)*** *Böyük Yaradan bu mübarək ayədə demək istəyir ki, əgər teoloji və kosmoloji qanunlar insanların istədiyi, arzuladığı və ya* ***"mən"****inə uymuş kimi olsaydı onda kainat və ya bütün məxluqat qısa bir zamana məhv olardı! Bu həm də onu göstərir ki, insan* ***"mən"****inin istədiyi, sevdiyi, arzuladığı şeylər çox nadir hallarda haqq və həqiqətdən ibarət olur. İnsanların əksəriyyəti ətraf mühiti öz* ***"mən"****lərinə adaptasiya etməyə meyillidir. İnsanın sosial-siyasi imperativi budur:* ***"Mən necəyəmsə sən də elə ol!"****, yaxud* ***"biz necəyiksə sən də elə ol!"*** *Dinlər, firqələr və ideologiyaların da ana qaynaqları bu səbəbdən təhrif edilib və edilir. Hətta, İslamın ana qaynağı sayılan Quranın falsifikasiyadan hər tərəfli qorunmasına baxmayaraq, zaman-zaman İslam dini mənsubları arasında da falsifikasiyaya meyl edənlər az olmamışdır. İslamdakı falsifikasiyanın da əsası hədislərin uydurulaması, açıq-aydın hökm daşıyan onlarla ayənin məzhəb və ya firqə maraqlarına qurban edilərək nəsx edilməsi, hədis və rəyin sözdə olmasa da, ən azından tətbiqatda Quran ayələrinə bərabər və hətta üstün tutulmasıdır ki, bu məsələnin uzun uzadı izah və şərh edilməsi üçün burası yeri deyil. Bəzi təbiətşünas və ekoloqlar hesab edirlər ki, İslam da yəhudi-xristian ənənəsinə sadiq qalan antroposentrist bir dindir və təbiətə hakim olmağa təşviq edir. Lakin bu görüşün tərəfdarları Quranın təbliğ etdiyi İslam dinindən daha çox, müsəlmanlar arasında*

*yayılmış və Quran baxımından heç bir əsas və dəyərə malik olmayan xurafatlara və falsifikasiya edilmiş fiqhi fətvalara isnad edirlər. Peççei və onun yaratdığı Roma kulubunun alim və filosofları da bütün dinləri, xüsusən İbrahimi dinləri təbiətə düşmən və təbiətmərkəzçilikdən uzaq elan edərkən də daha çox yəhudi-xristian antroposentrizminə və uydurma hədislərə dayanır və bunu dərin araşdırma aparmadan İslamın ana qaynağına da müncər edirlər. İslam bəlkə də yeganə ideya, yeganə dindir ki, onda mütləq mənada nə təbiətmərkəzçilik var, nə də insanmərkəzçilik. Bəzi nasslara dayanıb təbiəti insana aid etmək mümkün olduğu kimi, əksinə insanın təbiətə aid olduğunu göstərən nasslar da var. Amma nədənsə hər bir və hər cür din, ideologiya və dünyagörüşünə mənsub elm adamları, o cümlədən də bir çox müsəlman alimləri təbiətə münasibətlərində daha çox məhkum-hakim çərçivəsində qurulmuş qondarma yanaşmaya meyl etmişlər. Qərbdə insanı təbiətdən üstün və hər şeyin mərkəzində görən dini-fəlsəfi məktəblərin tarixi çox qədimdir. Filondan tutmuş xristianlığın ilk böyük alimləri olan Avqustin, Boetsi və digər böyük teoloqların demək olar ki, hamısı bu və ya digər formada antroposentrist olublar. Onlar arasında teoloji və teosofik ixtilaflar olsa da, mühitşünaslıq, ekosofoya, ekologiya və ekopolitika baxımından bütün qərbin din fəlsəfəsi tutuquşu kimi eyni kəlmələri təkrar edir: **“İnsan təbiətdən üstündür, hər şeyin mərkəzindədir və təbiət insana görə yaradılmışdır!”** Yəhudi və xüsusilə də xristian əqidəsində antroposentrist olmayan yeresdə(bidətçilikdə) ittiham edilmişdir. İslam alimi kimi tanınanların da çoxu bu vəziyyətdədir. İlk xristianlıq zamanında bəzi dini-fəlsəfi məktəblərdə naturasentrist baxışlar olduğu məlumdur, lakin onların hamısı ortodoks məktəblər tərəfindən məhv edildi! Qərb xristianlığının zirvəsi sayılan **“Avqustinin düşüncəsinə görə Allahın krallığında təbiətə yer yoxdur. Bu krallıq sadəcə əbədi ruhlara sahib olan mənəvi varlıqlara aiddir. Bu fikri təqib edən əsrlərdə Qərb dininin, fəlsəfəsinin və ədəbiyyatının hamısı insan şüurunun, insan düşüncə və fəaliyyətinin yaradılmış olan dünyanın mərkəzi olduğu fikrini dəstəkləmək üçün birləşdilər. Romantizm kimi təbiəti mədh edən hərəkatlar da, düşünən, şüurlu bir müşahidəçi ilə düşünməyən, şüursuz bir təbiətin arasındakı fərqin altını cızmış oldular. Təbiət sadəcə bir insan onu müşahidə etdiyində, onun üzərində düşünsüyündə və ona təsir etdiyində bir dəyərə sahib olurdu. Dini və***

***teoloji hərəkatlar təbiətdən heç bəhs etmədən fəaliyyət göstərərkən, Puritanlar və Kalvinistlər Təkvinin bizi "çoxalın və yer üzünə hökm edin!" deyə təşviq edən misrasını sonuna qədər istismar edərək kapitalizmin və zamanında texnologiya ilə bugünkü mədəniyyətimizin meydana çıxmasına səbəb olmuşlar!"***[178] *Bir-çox alim və mütəfəkkir(Rajotte, Breuilly və b.) hesab edir ki, bizə təbiəti fəth etmə, ona qalib gəlib üzərinə hakim olma və hətta bu axmaqlığı vəzifə və borc hesab etmə və özümüzü hər şeyin mərkəzində görmə fikrini təlqin və təbliğ edən Qərb xristianlığıdır. Kopernik xristianlığın Allah və din adına uydurduğu və ya qəbul edib ehkamlaşdırdığı bu yalanı ifşa edənə qədər elm aləmində də əksəriyyətcə hər şeyin(ulduzlar, günəş, ay, qalaktikalar və s.) insan ətrafında fırlandığı zənn edilirdi. Nəhayət, böyük Kopernik bu batil inancı sarsıtdı. Bu gün artıq bilirik ki, yer dördüncü sinif bir günəşin üçüncü sinif bir planetidir və digər planetlərlə birlikdə, ucsuz-bucaqsız bir qalaktikada çox kiçik bir sistem meydana gətirir. Və bu qalaktika da saysız qalaktikadan sadəcə bircəciyidir.*[179] *Əgər dünya kainatın mərkəzi deyilsə, o zaman insanın da ilk düşündüyü qədər önəmli olmaması ehtimalı vardı.*[180]

*Dərin ekoloqlardan olan Hafiz deyir ki, heyvanlar sadəcə insan ehtiyacı adı ilə öldürülmürlər. Heç ehtiyac olmadığı halda da, inci, mıncıq, zinət əşyaları və digər şeylər üçün öldürülürlər. Fil, gərgədan, balina, timsah kimi heyvanların qətl edilməsi bir-çox heyvan növünü yox olmaq təhlükəsilə üz-üzə qoymuşdur. Milyonlarla heyvan elmi təcrübə bəhanəsilə işgəncəyə məruz qalır və öldürülür. Halbuki bu təcrübələrin çoxu biznes üçün, məsələn kosmetik mallar üçün edilir. İstehsal ediləcək malların alternativləri də var. Guya ətlərinin keyfiyyətini artırmaq üçün heyvanları barbarcasına yetişdirir, ya da idman adını qoyaraq onları bir-biri ilə, ya da insanlarla savaşa zorlayırıq... Allahın yer üzündəki xəlifəsi olduğumuz həqiqəti unudulmuşdur! Onlarla sanki heç duyğuları yoxmuş kimi davranılır və çox vaxt da təhqir edilirlər, ya da pis müamiləyə məruz qalırlar. Halbuki Quran və hədis bizə onların da insan qurupları kimi qruplar təşkil etdiklərini xatırlatmaqdadır. Allah bizi necə sevirsə, onları da*

---

[178] ***Breuilly, Palmer, Hiristiyanlık ve Ekoloji, 76***

[179] ***Hafiz, B.A. Masri, İslam ve Ekoloji, İstanbul, 1992, 17***

[180] ***Rajotte, Breuilly, Kriz Nedir, 21***

*sevir, biz necə yaradılmışıqsa, onlar da yaradılmışdır. İnsanlar necə Allahın qüdrətinin simvoludursa onlar da elədir.* [181] *Heyvanlar insanların duyğularına cavab verirlər. İnsan tarixində heyvanların sədaqət və şəfqətlərinə dair saysız-hesabsız örnəklər var. İnsanları çöl fırtınasından qoruyan dəvələr, qar və buzlu bölgələrdə aclıq, yorğunluq və soyuğa baxmadan xizəkləri çəkərək insanlara xidmət edən itlərin hekayələri unudulmaz xatirələrlə doludur. Dostları olan insanları canavar sürülərinin hücumundan təkbaşına, qorxmadan qoruyan çoban itlərinin cəsarəti məşhurdur. Başqa tərəfdən heyvanlarda olan şəfqət və mərhəmət duyğusu bizdəkindən olduqca çox və hətta bizə nümunə ola biləcək səviyyədədir. Günümüzdə bir-çox insanın öz doğma uşaqlarını parklara, zibilliklərə və digər yerlərə atıb getdiklərinin şahidi oluruq. Heyvanlarda belə bir şeyi kim görüb və ya eşidib?! Heyvanların balalarını qorumaq üçün ən azından canlarını təhlükəyə atdıqları məlumdur. Təkcə heyvanlar deyil, bitkilər də antropogen faktorun təsirindən əziyyət çəkir! Bitki örtüyü olmasa insanın geosistemdəki varlığından söhbət gedə bilməz. Fitoorqanizmlərin təbiətimizin sağlamlığı və sağlıqı baxımından Allahın bir nömrəli nemətidir. Quranda buyrulur:* ***"Allah yeri heyvanlar üçün sərdi. Orda meyvələr və yumurcuqlu xurma ağacları bitir. Və xoş qoxulu və yarpaqlı bitkilər var. Bu halda Rəbbinizin nemətlərini niyə yalanlayırsız?!"(ər-Rahmən, 10-13)*** *Bu ayələr geoekosistemdə fito və zoo orqanizmlərin dəyər və qiymətini açıq-aydın ortaya qoyur və bunu inkar etməyin dinsizlik olduğuna işarə edir. Geosistemin bitkilərlə örtülməsini heyvanlar üçün təyin edilməsi, bitkilərin həm həyati, həm də estetik dəyəri, bütün bunların nemət hesab olunması və bunlara qarşı gəlməyin təhdid edilməsi ayələrdən aydın görünür. Müasir tədqiqatlar göstərir ki, insan yeriyən ağac növündən başqa bir şey deyil. Halbuki bunu Quran da təsdiq edir:* ***"Duymadınmı ki, Allah yeddi göyü təbəqə-təbəqə yaratmışdır? Ayı bunların içində bir nur, günəşi də çıraq etmişdir. Allah sizi yerdən bir bitki kimi yetişdirdi. Sonra sizi təkrar yenə ora qaytaracaq və sonra bir də yenə çıxaracaq!"*** [182] *Bu ayələr bir-çox elmi məsələyə toxunur, lakin bizi burda maraqlandıran insanın da bitkiyə bənzədilməsidir. Bəzi təfsir alimlərinin dediyi kimi bu sadəcə məcazi*

---

[181] ***Hafiz, B.A. Masri, İslam ve Ekoloji, İstanbul, 1992, 31***
[182] ***Nuh, 15-18***

*bənzətmə deyil, sırf elmi həqiqətdir. İnsan danışan və gəzən bitkidən başqa bir şey deyil. Ümumiyyətlə canlı maddənin əsasında fitosistem eksiztensial dəyərə malik olub böyük yer tutur. Bu dəyəri hər kəsdən yaxşı dərk edən Rəsulullahdan bitkilərin qorunması və çoxaldılması barədə çoxlu hədis gəlib. Bunlardan bir-neçəsini nəql etməyim yerinə düşərdi. Nəbi buyurur: **"Kim bir ağac əkər və bu ağac böyüyərsə, Allah buna görə o kəsə cənnətdə ağac əkər!"**[183] Digər hədisdə buyurur: **"Kim bir ağac əkər və meyvə verincəyədək onu qoruyar və onu böyüdərsə, meyvəsindən istifadə edilən qədər sədəqə olaraq ona savab yazılar!"**[184] Başqa bir hədisdə deyilir: **"Qiyamət qopmadan öncə əlində bir xurma fidanı olan varsa tələsik onu əksin!"**[185] Digər bir hədisdə isə Nəbi deyir: **"Kim ağac əkməkdə iştirak edərsə, Allah onun üçün ağacdan hasil olan ruzilər qədər savab yazar!"**[186] Rəsulullah demişdir: **"Heç bir müsəlman yoxdur ki, ağac əksin, yaxud əkin əksin, onun məhsulundan insan, qurd, quş yesin amma onun özünə isə bir şey çatmasın..."**[187] Mətnlərini verdiyim bu hədislər Rəsulullahın sözün əsl mənasında ekosof və ekokulturoloq olduğunu göstərməkdədir. Müxtəlif yollarla gələn rəvayətlərə görə Nəbi bir dəfəyə 500 xurma ağacı əkdirmişdir.[188] Hər bir müsəlman da bu böyük müdrik və mütəfəkkirdən nümunə götürməyə borcludur. Quranda fitoorqanizmlərin, xüsusən də ağacların od üçün enerji qaynağı olması açıq-a.kar ifadə edilib. Quranda buyrulur: **"Yaş ağacdan sizə od çıxarır O. Ondan istifadə edirsiz!"**[189] Başqa ayələrdə belə deyilir: **"Gördünüzmü yandırdığınız atəşin ağacını? Onun ağacını yaradan sizsiz, yoxsa biz?!"**[190] Bu qədər nassın müqabilində bitki və heyvanların haqqına girən müsəlmanlar öz müsəlmanlıqlarını təhlükəyə atmış olurlar. İnsanlar, xüsusən də müsəlmanlar bitki və heyvan qardaşlarının haqqını vermək üçün öncə onları mütləq sevməlidirlər! Bitki və heyvanlar insanlardan fəqli olaraq təbiətdə öz yerlərini çox yaxşı bilir və təbii hüququ heç vaxt pozmurlar. Xəyanət,*

---

[183] ***Ibn Hənbəl, Müsnəd, V\374***
[184] ***Ibn Hənbəl, Müsnəd, V\374***
[185] ***Buxari, Ədəbul-Mufrəd, Beyrut, 1966, 138***
[186] ***Ibn Hənbəl, Müsnəd, V\415***
[187] ***Müslim, Musaqat, 7***
[188] ***Ibn Hənbəl, Müsnəd, V\440***
[189] ***Yasin, 80***
[190] ***Vaqiə, 71-72***

*yalan, zorbalıq, riyakarlıq bitki və heyvan **"mən"**inə yad bir şeydir. Modern insanın canlıları qırmaması mümkün deyil. Canlı növlərinin yer üzündən silinməsi problemi qlobal miqyaslı olmasa da, qlobal mahiyyətli ekoloji və ya ətraf mühit problemidir. Hər hansı bir heyvanın növü tükəndiyi zaman zəncirvari olaraq digər növlər də məhv olmaq təhlükəsi ilə üz-üzə qalır. Özünü yəhudi, xristian və müsəlman hesab edənlər Nuhun gəmisi hekayəsindən mütləq ibrət almalıdırlar. Quranda bu hadisə barədə deyilir: **"Nəhayət əmrimiz gəldiyi və təndur qaynadığında dedik: hər şeydən cüt-cüt və ailəni, əleyhinə hökm edilənlərdən başqa, möminləri gəmiyə mindir! Onun yanında mömin az idi!"**[191] Ayədən göründüyü kimi Nuha canlı növlərinin qorunması əmr edilir. Bu ayədən canlı növləri qorumağın vacib olduğu nəticəsi çıxır. Əfsuslar olsun ki, modern insan Nuha edilən bu əmrin mahiyyətinə varmamış və vara da bilməmişdir. Maurice Messegue modern insanın Nuha verilmiş əmri unudub yer üzündəki canlı növlərinə qarşı ekosid və genosidə başladığından danışarkən belə deyir: **"Nuhun gəmisinə yenidən minməli və böyük tufandan qurtulan bütün canlıları sağlam bir limana götürüb yenidən bəsləyib çoxaltmalıyıq!"**[192] Messic demək istəyir ki, canlı ekosistemlər modern insanın texnogünahları ucbatından Nuhun tufanını yenidən yaşamaq üzrədir. Təbii ki, belə bir qlobal katastrofdan qurtulmaq üçün bir Nuha deyil, Nuhlara ehtiyac var!*

*Təbiətə düşmənçilik edən yalnız insanlardır. Təbiətdən istədiyin kimi istifadə et, onu sömür, istismar et, sonra da alçalt və məhv et – budur insan **"mən"**inin mahiyyəti! İnsan o qədər özündən razı və eqoistdir ki, öz fiziki və siyasi yüklərini bitki və heyvanlara yükləməyi az deyilimiş kimi, günahlarını da yükləməyə çalışır. Düzdür, insanın yer üzündə Xəlifə olması nassla sabitdir. Bəqərə surəsinin 30-cu ayəsi bunun təkzib edilməz dəlilidir. Lakin Xəlifə mufsid də ola bilməz! Əfsuslar olsun ki, Allahın Xəlifəsi olduğu iddia edilənlər çox zaman və çox yerdə mufsid və zalım olmuşdur! Kosmik kitab olan Quran həm də göstərir ki, Xilafət bütün insanlara deyil, seçilmiş saf insanlara, öz təbiətinə və təbiiliyə sadiq insanlara, çox az sayda olan iman və şərəf sahiblərinə məxsusdur. Çünki Adəm və Davud kimi şəxslərin xüsusi olaraq xəlifəlikləri vurğulanmışdır ki, bu da Xilafətdə salehlik və*

---

[191] ***Hud, 40***

[192] ***Messegue, Tabiat Haklıdır, İstanbul, 1978, 8***

*raşidliyin atribut olduğunu göstərməkdədir. Bu günün deyimiylə XİLAFƏT yalnız ekoloq və ekosof olan möminlərə məxsusdur. Çünki əsl mömin dili və əməllərilə nəinki digər möminlərə, ümimiyyətlə heç bir canlıya ziyan və zərər vurmayan kəsdir. Həyati-praktiki baxımdan EKOSOF və EKOLOQ olmayan MÖMİN, MÖMİN olmayan EKOSOF və EKOLOQ yoxdur. Müvəqqəti masqalanmış şəxs və halları nəzərə almasaq bu bir BİOEKOAKSİOMdur. Allahın yer üzündə gerçəkləşdirmək istədiyi XƏLİFƏLİK EKOMƏRKƏZÇİ, hətta BİOMƏRKƏZÇİ EKOPOLİTİKAdan başqa bir şey deyil. Başqa sözlə Xilafət elə EKOANARXİZMDİR![193] Şübhə yoxdur ki, Allahın verdiyi maddi və mənəvi fəzilətlərlə Onu yer üzündə təmsil etmə vəzifəsi insana həvalə edilib. Bu barədə Quranda deyilir: **"Verdikləri ilə sınamaq üçün sizi yer üzünün xəlifələri edən və kiminizi kiminizdən dərəcələrlə üstün tutan odur!"[194]** Lakin unutmaq olmaz ki, mufsid və zalim olan insanlar **XİLAFƏTDƏN** məhrumdurlar! Quranda geosistemin insana əmanət olaraq verildiyi və insandan başqa canlıların bu əmanəti qəbul etməkdən çəkindiyi ifadə edilir. İnsan bu əmanəti götürməklə özünü riskə atmışdır. Bu böyük riski göz önünə alan insan bunun altından necə çıxacaq?! Artıq aydınlaşdırdıq ki, Xəlifəlik hegemonluq və ağalıq deyil! O kəslər ki, insanın xəlifəliyini və ətraf mühitin ona istifadə üçün verilməsini göstərən nassları insanın ağalığına və digər canlılardan istədiyi kimi istifadə edə biləcəyinə dəlil hesab edir, bunlar ya həqiqətən Xəlifəliyin nə olduğunu bilmirlər, ya da Allahın əmanətinə xəyanət edən və ya xəyanət edənlərin xəyanətini ört-basdır etməyi məqsəd güdən kəslərdirlər! Yuxarıda zikr etdiyimiz ayə və hədislərlə Xilafətin sultanlıq deyil, yer və üzərindəkiləri ƏMANƏT olaraq qəbul etmək olduğunu isbat etdik. Əmanət məsuliyyət deməkdir. Insana əmanət edilməsi o deməkdir ki, onun bu əmanət qarşısında məsuliyyəti var. Əgər Xilafət sultanlıq olsaydı, bizi Yaradan birbaşa bizi sərbəst*

---

[193] ***Bu bəşəriyyətin praktiki olaraq Xilafətə və ya EKOANARXİZMƏ ehtiyacı var. Anarxizm çoxunluğun zənn etdiyi kimi xaos deyildir. Anarxizm basqının, zülmün, xaosun ta özü olan dövlətin və ya hakimiyyətin yoxluğunu və məhv olmasını istəyən, arzulayan və bu müqəddəs və mübarək arzu və istəkləri gerçəkləşdirməyə çalışan alim və filosofların ideya ve anlayışlar sistemidir. Ekoanarxist bəşəriyyət kosmopolit bəşəriyyətdir. Belə bir Ekosistemdə yalnız vicdan, iman və sevgi hakimiyyətdədir! Bunun nəticəsində EKOARİSTOKRATİYA formalaşacaq və geosistemi idarə edəcəkdir!***

[194] ***Ənam, 65***

*buraxar və ekosistemi bizə əmanət etdiyini söyləməzdi. Insana bütövlükdə bir əmanət verilsə də, bu əmanət də öz-özlüyündə çoxlu əmanətlərdən ibarətdir. Hər şeyin Xaliqi və Sahibi əmanətə xəyanət edən insanlara kosmik kitablarda kafir, muşrik, fasiq, zalım, musrif, mucrim, mufsid və başqa aşağılayıcı isimlər verir! Yer üzünün aridləşməsi, beton sistemə çevrilmək təhlükəsilə üzləşməsi, meşələrin, heyvanların, hətta insanların kütləvi məhvi, seksual xaos, aclıq və digər qlobal ekopatik problemlər özlərini ali, böyük, əşrəf hesab edən musrif, mucrim və mufsid hökmdar və iqtidarların bu faciələri gülə-gülə və ya ən azı laqeyidliklə seyr etməsi insanın nə qədər səviyyəsiz və alçaq məxluq olduğunu açıq-aşkar göstərmirmi?! Alçaq və rəzillər öz batil və yalançı fikirlərini sübut üçün insanlığın qaymağı Məhəmməd, Ibrahim, Isa, Budda, Əli kimi sözün əsl mənasında kamil insan olan bir ovuc super nüsxənin varlığını da dəlil gətirməyə çalışırlar. Halbuki belə bir "dəlil" uydurmaq iki yöndən absurddur! Birincisi, bir və ya bir-neçə güllə yaz olmur! Ikincisi və ən əsası isə elə bu cür kamil insanların yer üzündəki adil fəaliyyətinə hər cür xəbis üsullarla mane olan və sonda onların axrına çıxan insanlığın əsası - cahil, mufsid, mucrim və musrif insanlar deyilmiydi?! Insanlığın əsası hər zaman insanlığın mənasına, qaymağına düşmən olub.*

*Insan özünə qələbə çala bilməyəndə ətraf mühit onu məğlub edir. Ətraf mühit də çox vaxt və çox yerdə yaxşı olmur, xain, xəbis, riyakar, bir sözlə parazit insanlarla dolu olur. Ətraf mühitdən asılı olmağın faydası yalnız bu zaman və bu yerdə olar ki, ətraf mühit ən azı əsas etibarı ilə təbii landşaftlardan, antropomodifikasiyaya məruz qalmamış ekosistemlərdən - təbii mühitdən ibarət olsun. Belə mühit də indi artıq yoxdur! Ətraf mühit əsasən antropogen modifikasiyaya məruz qaldığı və insanlar da əksəriyyətcə parazit funksiyasının daşıyıcıları olduğundan təbii ekoloji sistemlər totalitar mühitin nəzarəti altına keçir! Insanın digər məxluqlara üstünlüyü ideyası isə ekosistemin məhvində katalizator rolunu oynayır! Yer üzündə sözün əsl mənasında insanlaşma, insanlaşdırma prosesi gedir ki, bu faciə səhralaşmadan, betonlaşmadan, yaxud nüvə fəlakətindən heç nəylə fərqlənmir! Çünki günahkar insan bu faciə və fəlakətlərin həm obyekti, həm də subyektidir! Tabiunun böyük imamlarından olan təfsir atası Mücahidin bu sözləri sabitdir:* ***"Heyvanlar şiddətli quraqlıq olduğu və yağış yağmadığı illərdə günahkar insanları lənətləyər və belə deyərlər: bunun səbəbi Adəmoğlunun günahlarının gətirdiyi***

***uğursuzluqdur!"(Əbu Nuaym, Hilyətul-Evliya, 3\286)*** *Mücahidin sözləri də ekoloji zəncir və ekoloji dinamikanın yalnız insan mufsidliyi ücbatından pataloji və inversion vəziyyətə düşdüyünü göstərməkdədir. Şübhəsiz ki, insandan başqa heç bir canlı mucrim, mufsid və musrif vasfına layiq görülməmişdir. Hər bir ekoloji və sosial sistemin faciəsi və fəsada uğraması diktatura və totalitar rejimlərin varlığıyla bağlıdır. Bütün böyük imperiyalar, diktatorlar həmişə təbiəti və təbiiləri modifikasiya və inversiya etməyə meyilli olublar. Totalitar rejimlərin TƏBIƏT və öz təbiətinə sadiq olanlar barədə əqidəsi həmişə belə olub: "****təbiəti dəyişmək, ram etmək və mənimsəmək bizim borcumuz və vəzifəmizdir!****" Bu söz sonralar danabaş miçurin tərəfindən dünyanın ən böyük zalım imperiyalarından sayılan sovet ittifaqının TƏBIƏTƏ qarşı ən əsas idealoji silahına çevrildi! Halbuki insan təbiətə qulluq etmək üçün yaradılıb. Bunu Bekon da dərk etmişdi. Onun sözləri yadınızdadırmı:* ***«Insan təbiətin qulu və şərhçisidir. Nə edirsə çaşa düşür ki, nəticəsi nədir. Bundan artıq o heç nə bilmir və bilə də bilməz!»*** *Lakin dərin elmi araşdırmalarımız onu göstərdi ki, Bekon bu sözlərində səmimi deyil. Belə ki, Bekonun bu sözləri də sabit və məşhurdur:* ***"Təbiət onu araşdıranlar tərəfindən sıxışdırılmalı və zorlanmalıdır! Təbiət kölə edilməyə məhkumdur! Təbiətin sirlərini bilmək üçün ona işgəncə edilməlidir!"*** *Bekon emprik elmi formulə edən ilk alim kimi tanınsa da, görkəmli alimlər arasında Merkant, Kapra və bir-çox başqaları ona qarşı çıxmışlar. Kapra Merkanta isnad edərək yazır ki, Bekon kral Ceymisin baş vəkili kimi həbsxana və cəlladxanalarda insanlara və xüsusən də qadınlara verilən işgəncələr üzərində təcrübələr aparmış və bu iyrənc vəhşiliklərdən manyakcasına həzz alan biri olmuşdur.*[195] *İnkar etmək olmaz ki, günümüzün modernist və profan düşüncələrinin təməlləri Bekonun eksperimentalizm və emprizmi üzərində qurulub. Bu cür axmaq təcrübə və mülahizələrin ucbatından təbiətlə insan arasında on min illiklərlə sürən sevgi və dostluq əaqələri kökündən zədələndi və təbiətin vəhşicəsinə istismar edilməsinə yol açdı! Erik From istismarçı davranışın necə dəhşətli sadizm təlqin və təbliğ etdiyini belə ifadə edir:* ***"Ehtiyac duyduğum hər şeyi başqasından zorla alıramsa, ona söz demək, ağalıq etmək və onu öz ağalığımın gücsüz bir obyekti halına gətirməyə***

[195] ***Capra, Yeni Bir Düşünce, İstanbul, 1992, 262***

***məcburam!"*** [196] *XVII-ci yüzillikdən başlayaraq insanın təbiətə totalitar və təcavüzkar münasibəti hakim əxlaqi və hüquqi normaya çevrilməyə başladı. İnsan və təbiət arasındakı sevgi və dostluq münasibətləri artıq tarixə çevrilib, biz onu indi tarixdə axtarmalıyıq! Bekonun bünövrəsini qoyduğu və sonralar marifçilər adıyla insanlara sırınan fransız antiteist, ateist və satanik ideoloqları tərəfindən inkişaf etdirilən marmon əqidəyə görə din insan təbiətinə və təbiətin özünə kökündən ziddir və insan idrakına hakim olduğu təqdirdə insanlığın inkişafına böyük əngəllər yaradır, insanları səfil və zəlil hallara salır! Məhz bu profan əqidənin qlobal effektləri ucbatından təbiətin insanlar tərəfindən hər cür istismar və istifadə edilə biləcəyi fikri ikinci dünya müharibəsinədək beyinlərə hakim idi. Bu gün də bu fikirdə olanlar var və az da deyillər! Halbuki Təbiət insana əmanət edilib. Bu barədə Quranda deyilir:* ***«Biz əmanəti dağlara təklif etdik. Onlar onu götürməkdən çəkindilər. Çox cahil və zorba olan insansa onu götürdü!»*** *Insan bu əmanəti götürdü, amma bu əmanətə xəyanət etdi! Daha pisi də bundadır ki, xəbis insan hələ də Allahın böyük əmanəti təbiəti qınamaqla, pak təbii proseslər olan vulkan, zəlzələ, qasırğa və digər gözəllikləri katastrof adlandırmaqla məşğuldur! Əslində bunlar təbiətin insanın törətdiyi zülm və fəsadlara əks reaksiyasıdır. Xainin cəzası budur! Qondarma və uydurma* ***"təbiət-təbiət"*** *təzadlarından söhbət açıb təbiəti qınamaq zahirən axmaxlıq, daxilən hiyləgərlikdir! Axı, təbiətin nəyini qınamaq olar! Ümumiyyətlə mövcud ədəbiyyatlardan* ***"vəhşi təbiət"*** *sözünü müzakirəsiz çıxarmaq lazımdır. Bir tərəfdən deyirlər ki, insandan başqa ağıllı məxluq yoxdur, başqa tərəfdən də ağılsız dediklərinə heç bir ağıllıya yükləmədiklərini yükləyirlər! Hər hansı təbii şey, proses və hadisəni katastrof adlandırmaq təbiətə və təbiiliyə yağı düşmən olan insanların uydurma və qondarmalarından başqa bir şey deyil. Katastrof insanın təbiətə təsiri, yaxud insanın təbiət üzərində hökmranlıq etməyə cəhdi nəticəsində yaranır. Ümumiyyətlə təbii proseslərə şər qüvvə donu geyindirmək ən azı dinsizlik və bütpərəstlik əlamətidir. Alfred Veber kimi bir-çox modern elm adamı iddia edir ki, dünya hər cür şərlə doludur. Quru və susuz çöllər, günəşin istisindən qovrulan səhralar, keçilməz bataqlıqlar, qasırğalar, zəlzələlər, vəhşi heyvanlar, xəstəliklər, yaşamaq mümkün olmayan donmuş ərazilər, vaxtsız*

[196] ***Erdem və Mutluluk, İstanbul, 1993, 135***

*ölümlər və digər mənfi hallar Allahın əşyanın iradəsinə heç qarışmadığını göstərir.*[197] *Halbuki təbii **"katasrof"**ların pis və şər olmasını heç kim isbat etməyib və edə də bilməz. Əksinə hardakı yaramaz və nankor insanların təbii fəlakət adlandırdığı hadisə və proseslər baş verir, **"fəlakət"**in baş verdiyi ekosistem və onda yaşayan hər şey ona layiqdir. Çünki insan təbiəti incitməklə, günahlar törətməklə hər kəsə xəyanət edir, lənət qazanır. Bunun da nəticəsində bildiyimiz katastroflar baş verir. Bu zırramalar heç oturub düşündülərmi ki, XX-ci əsrdən indiyə qədər baş verən təbii fəlakətlərin sayı və intensivliyi insanın neçə minilliklər tarixi ərzində baş verənlərdən qat-qat çox olub?! Bunun tək səbəbi odur ki, təbii katastrof deyilən proseslərin dinamika və intensivliyi insanların günahlarının intensivlik və dinamikasına düz proporsionaldır. Antropogen aqressiya və destruksiyanın yaratdığı enerji seli təbiəti ən çox incidən və ona ən çox əziyyət verən faktordur. Təbiətşünaslar arasında belə bir fikir də gəzir ki, ən böyük ekoloji problem dioksinlərdir. Ağ yalan! Dioksin elə insan özüdür! Lakin o şeyi ki, dioksin adlandırırlar, o maddə də SPID, XƏRÇƏNG, ZƏLZƏLƏ, TAUN, VULKAN və başqa bəlalar kimi TƏBIƏTin insanlardan, xüsusən də totalitarizmdən özünü qorumaq üçün hazırladığı vasitələrdir. Halbuki sözün əsl mənasında katastrof insandır və ya insandadır! Insanların katastrof hesab etdiyi böyük təbii proseslər, həmçinin spid, xərçəng, taun kimi xəstəliklər böyük Allahın böyük əsgəri təbiətin insanların şərrindən və ya totalitarizmdən qorunmaq üçün silahlarıdır. Bu silahlar vasitəsilə fitnə-fəsad törədən insanların sayı azaldılır və təbii balans xaosa çevrilmək təhlükəsindən qorunur. Bu fitnə-fəsadın mahiyyətini bizə açıqlayan Rəbbimiz buyurur:* **"Insanların öz əllərilə qazandığı günahların ucbatından quruda və suda fəsad çıxdı! Bəlkə haqq yola qayıdalar deyə Allah (quruda və suda) etdikləri günahların bəzisinin cəzasını verir!"(ər-Rum, 41)** *Görkəmli fəqih və müfəssir Qadı Beydavi fəsadı çox mükəmməl və universal təvil və təfsir edərək yazır:* ***"Torpağın şoranlaşması və yaramaz hala gəlməsi, kütləvi ölümlər, meşə yanğınlarının artması, azğınlığların baş alıb getməsi, hər cür zərərli maddələrin artması, bəhrə və bərəkətin və haqq-ədalətin ortadan***

[197] ***Weber, Alfred, Felsefe Tarihi, Istanbul, 1994, 90***

*qalxması!"*[198] *Ümumiyyətlə Quranda ondan artıq yerdə keçən fəsad kəlməsi salah(islah) kəlməsinin ziddi olub pozmaq, dağıtmaq, yıxmaq mənalarını verir. Bu kəlmənin Quranda hər keçdiyi yerdə təbiətlə birlikdə zikr edilməsi olduqca diqqət çəkicidir! Uca Allahın da bildirdiyi kimi insanın təbiətin haqqını tapdalayıb ayaqları altına atması bütün qlobal fəlakətlərin əsl səbəbidir. Böyük alim və mütəfəkkir Ceyms Vilyamın həyacan təbili əbəs deyildi:* ***"Allah hər şeyi əfv edər, insanlar da bəzi şeyləri əfv edər, fəqət təbiət heç bir şeyi əfv etməz!"*** *Dorudanda belədir, təbiət bağışlamır, hətta tövbə edilsə belə! Çünki təbiət insanı bağışlasa məhv olar!*

*Ətraf mühit əsasən antropogen modifikasiyaya məruz qaldığı və insanlar da əksəriyyətcə virus funksiyasının daşıyıcıları olduğundan təbii ekoloji sistemlər totalitar və aftoritar mühitin nəzarəti altına keçir! Insanın digər məxluqlara üstünlüyü ideyası isə ekosistemin məhvində katalizator rolunu oynayır! Yer üzündə sözün əsl mənasında insanlaşma, insanlaşdırma prosesi gedir ki, bu faciə səhralaşmadan, betonlaşmadan, yaxud nüvə fəlakətindən heç nəylə fərqlənmir! Çünki günahkar insan bu faciə və fəlakətlərin həm obyekti, həm də subyektidir! Tabiunun böyük imamlarından olan təfsir atası Mücahidin bu sözləri sabitdir:* ***"Heyvanlar şiddətli quraqlıq olduğu və yağış yağmadığı illərdə günahkar insanları lənətləyər və belə deyərlər: bunun səbəbi Adəmoğlunun günahlarının gətirdiyi uğursuzluqdur!"***[199] *Mücahidin sözləri də ekoloji zəncir və ekoloji dinamikanın yalnız insan mufsidliyi ücbatından pataloji və inversion vəziyyətə düşdüyünü göstərməkdədir. İnsanın tərətdiyi zülm və fəsadlar ucbatından canlı aləmə müxtəlif bəlalar gəlir ki, bunlardan digər canlılar daha çox ziyan çəkir. Uca Allah buyurur:* ***"Əgər Allah insanları etdikləri zülmlərə görə cəzalandırsaydı yer üzündə bir dənə də canlı qalmazdı. Fəqət onları təqdir edilmiş bir müddətədək buraxır. Əcəlləri gəldikdə nə bir saat yubana, nə də tələsə bilərlər!"(Nəhl, 61)*** *Ayə açıq-aydın yer üzərində yaşayan canlıların insanların günahları ucbatından əziyyət çəkdiyinə işarə edir. Bəli, əgər Allah günahlarımıza görə bizi cəzalandırmaq haqqından istifadə etsə, bütün insanlar ölümə layiq olar və bütün canlı maddə məhv olar. Amma Allah bizi bağışlayır! İnsan isə ən həyasız məxluqdur! Şübhəsiz*

[198] ***Ənvarut-Tənzil və Əsrarut-Təvil, 5\49***
[199] ***Əbu Nuaym, Hilyətul-Evliya, 3\286***

*ki, insandan başqa heç bir canlı mucrim, mufsid və musrif vasfına layiq görülməmişdir. Hər bir ekoloji və sosial sistemin faciəsi və fəsada uğraması diktatura və totalitar rejimlərin varlığıyla bağlıdır. Təbiət üzərində diktatura və totalitarizm etnosun kosmik xarakterini modifikasiya və hətta inversiya edərək çox böyük sösial və pnevmatik(mənəvi) problemin ortaya çıxmasına bais olur. Bu barədə uca Allah buyurur: "**Bu cəzanın səbəbi budur ki, bir etnos özlərində olan gözəl əxlaq və xüsusiyyətləri dəyişdirmədikcə, Allah da onlara verdiyi nemət və gözəllikləri dəyişdirməz!"(Ənfal, 53)** Başqa bir ayədə buyurur: "**Sənə gələn hər yaxşılıq Allahdandır. Sənə gələn hər pislik isə özündəndir!"(Nisa, 79)** İnsan faktoru vulkandır, sunamidir, zəlzələdir, qasırğadır, daşqındır, meteor yağışıdır, ən azı leysandır, uçqundur, sürüşmədir, fırtınadır və yaxud bedlend yaradan faktrordur! Biz insanın təbiət üzərindəki totalitarizmini təbii **«katastrof»**lara bənzətsək də əslində ən böyük və əsl katastrof totalitar mühitdir! Hər hansı təbii şey, proses və hadisəni katastrof adlandırmaq təbiətə və təbiiliyə yağı olan keyfiyyətsiz, dəyərsiz, yalançı insanların uydurma və qondarmalarından başqa bir şey deyil. Xəbis insan təbiətlə istədiyi kimi davranır, Allaha hər cür üsyan edir, amma layiqli cavabını alanda şüvənlik edib **"təbii katastrof"**, **"təbii fəlakətin törətdiyi faciə"** və digər sözlər uydararaq həm təbiətə, həm də Allaha böhtan atır! Katastrof insanın təbiətə təsiri, yaxud insanın təbiət üzərində hökmranlıq etməyə cəhdi nəticəsində yaranır. Əsl katastrof modernizm və texnosfera xəyallarına qapılmış insandır, yaxud insandadır! Halbuki insan təbiətə qulluq etmək üçün yaradılıb. Təbiətin ən pis hal və vəziyyəti insanın ən yaxşı hal və vəziyyətindən daha təbii və daha üstündür! Bizim ktastrof, xaos və problem zənn etdiyimiz bir-çox hadisə və proseslər var ki, biz bunların mahiyyətinə vara bilmədiyimiz üçün tələsik qiymət verir və yanlış nəticələr çıxarırıq. Halbuki bu aləmdə insan axmaqlığından başqa heç bir problem yoxdur! Səthi elm adamlarının xaos və katastrof hesab etdiyi bütün təbii proseslərin spesifik və hələlik məchul və dərk edilməz olan qanun və qanunauyğunluqlardan təşkil olunmasına dərin elm adamları heç bir şübhə etmir. Kant elə buna görə deyirdi: **"Təbiət, hətta, özünün xaos halında da düzgün və ahəngdar fəaliyyət göstərməyə qadirdir!"**[200] Kantdan yeddi əsr öncə Biruni təbiətdəki*

[200] ***Кант И. Сочинение в 6-ти томах, М., 1963, 1\543***

*harmoniyaya* ***"təbii iqtisadiyyat"*** *və ya* ***"təbiət iqtisadiyyatı"*** *adı vermişdi. Ona görə təbiətdə olanlar nə çoxdur, nə də az, həmçinin təbiətdə absurd da yoxdur. Biruni təbiətdəki tarazlıq və nizamı qəti şəkildə antropogen faktorla əlaqələndirmirdi. Antik və orta əsrlər mütəfəkkirlərinin demək olar ki, hamısı bu əqidə də olublar. Ta modernistlər peyda olana qədər. Elm və həyatın modernləşməsi və industriallaşması sayəsində insan təbiətə hökm etmək həvəsinə düşdü. Bunun da nəticəsində təbiət düşmən elan edildi, ideya və fikirlər də profan qəlibə salınmağa başladı! Halbuki təbiət və ya kosmos və onlarda olan hər bir şey məna və dəyərlə yoğrulmuşdur. Əslində onlar bizə səslənir, amma biz saf olmadığımıza görə bu səsi eşitmirik. Yunq bizim təbiətin səsinə qarşı kar olduğumuzu daha çox parapisixoloji aspektdən ifadə etsə də, hər halda haqlıdır. Diltey deyir ki,* ***"biz təbiəti izah edir, ruhu isə anlayırıq!"*** *Amma əslində biz təbiəti anlamalı və məhz bundan sonra ruhu izah etməyə çalışmalıyıq. Təbiəti anlamayan ruhun izharı fəlakətə səbəb olur! Təbiəti başa düşmək və duymaq üçün də ən azı təbii olmaq vacib və lazımdır! İlk dəfə Birihaspati tərəfindən deyilən və sonralar Empedokl tərəfindən təkrar edilmiş belə bir aforizm var:* ***"Oxşar olan yalnız oxşar olanla dərk edilir!"*** *Şopenhauer bu aforizmə bunları əlavə edir:* ***"Yalnız təbiət öz-özünü anlaya bilər, yalnız təbiət öz-özünü dərk edir və həmçinin ruh da yalnız ruhla qavranılır!"(Dünya İradə və Təsəvvür kimi, 3-cü kitab, $45)*** *Təbiət və təbii olanların hamısı Hegelin* ***mütləq ruh*** *hesab etdiyi varlığın simvollarıdır. Təbiət politeist hinduların etiqad etdiyi kimi bizim ağamız olmasa da, modernistlərin etiqad etdiyi kimi də qulumuz da deyil. Təbiət müsəlmanların(həqiqi möminlərin!) etiqad etdiyi kimi bizim qardaşımız və dostumuzdur, lakin insanların əksəriyyəti öz dostuna xəyanət edib, edir və böyük ehtimalla yenə də edəcəklər! Modern insanın varlığa, xüsusən də təbiətə etdiyi qlobal xəyanətinə baxmayaraq, Allah hələ ki, insan sivilizasiyasının məhvinə qərar vermir, səbr edır. Allah bizdən qlobal ağıl, qlobal mənəviyyat, qlobal mədəniyyət, qlobal etika gözlədiyi halda, biz ona qlobal şərəfsizlik və qlobal dinsizlik nümayiş etdirib kosmik ümidlərin çoxunu puç etmişik. Elə bunu qabaqcadan bildiyi üçün ADİL ALLAH Quranda daha bir möcüzə olaraq hal-hazırda planetar və ya qlobal problemlər adı altında məhşur olan hadisələrin mənbəyini universal formada göstərmişdir. Fikrimizin açıq bir həqiqət olduğunu sübut etmək üçün iki ayəni zikr edim:* ***"Başınıza gələn hər bir bəla öz əllərinizlə***

***etdiklərinizə görədir! Buna baxmayaraq Allahın əfvi genişdir!"(Şura, 30)*** *Və* ***"İnsanlann öz elləri ilə etdikləri pis əməllər ucbatından suda və quruda fəsad, pozuntu əmələ gələr ki, Allah onlara etdikləri bəzi günahların cəzasmı daddırsın və bəlkə onlar qayıtsınlar!"(Rum, 30/41)***

### *$3.4.1.Din və təbiət arasında estetik bağlar*

*Kosmik kitablar təbii ki, ən azı kosmik substansiya daşıyıcısıdır. Bu səbəbdən gözəllik anlayışının ilahiyyat baxımından dəyərləndirilib şərh edilməsi hər dini və mədəniyyətə görə fərqli və spesifikdir. Bu fərq və spesifika dinlərin malik olduğu müqəddəs mətnlərdə yer alan ifadələrdə də görünür. Əski Əhdin Təkvin bölümü* ***aləmin gözəl yaradıldığından*** *bəhs edir. Yeni Əhddə isə gözəllik üzərində çox durulmamışdır. Hətta, ilk xristianlar arasında gözəllik üzərində çox durmağı və gözəlliyə meyli yeres və ya satanik metod hesab edənlər olmuşdur. Hətta, Avqustin hesab edirdi ki, Yuhannə İncili(Jonn, 11, 15-17) kosmosa məhəbbəti qadağan edir. Avqustin gözəlliklə şəhvət arasında daimi əlaqə olduğunu düşünürdü.*[201] *Quranda isə Allahın yaradıcılığı və ya ilahi sənət bütün kosmik kitablardan fərqli olaraq daha elmi, daha estetik, daha lakonik və daha mükəmməl belə ifadə olunur:* ***"O, Allahdır yoxdan yaradan, forma verən, Onundur ən gözəl adlar. Göylərdə və yerdə olanlar təsbih edərlər Onu. Və O Əzizdir, Hakimdir!"***[202] *Yaradılışın gözəl yaradılması və bütün gözəlliklərin Ona nisbət edilməsi birbaşa Teokultura və teo estetikadan xəbər verir. Digər tərəfdən ən gözəl adların sahibi olmaq, ən gözəl anlayışların, ən gözəl şey, ən gözəl xüsusiyyət, ən gözəl cəhətlərin sahibi olmaq deməkdir. Kosmik kitablardakı simvolik dil də daha çox estetik formalarda ifadə olunur. Gözəllik anlayışından Quranda daha mükəmməl və daha çox bəhs edilir. Xüsusilə Quran təbiəti və insanı təsvir edən ayələri ilə diqqət çəkir. Xüsusilə Qurandakı ləfz, simvol və metafora dünyadakı heç bir kitabda gözə dəymir. Quranda keçən* ***cəmal, zinət, husn, tayyib*** *və digər bir-çox kəlmələrdən təbii və əxlaqi gözəllikləri başa salmaq üçün istifadə*

---

[201] ***Robinson, An Atheists Values, 59***
[202] ***Həşr, 24***

*edilmişdir.* ***Fərah, surur*** *və bənzəri kəlmələr isə estetik duyğunu birbaşa ifadə edir. Quranda səmanın bürclər və ulduzlarla bəzəndiyi, insanın gözəl yaradıldığı, heyvanların, qadınların, xüsusilə torpaq-bitki örtüyünün gözəl olduğu açıq-aydın vurğulanır. Bura hər aspekti ilə axirət və cənnət həyatının da gözəlliyini əlavə etsək son kosmik kitabın estetik termin və anlayışlarla zəngin olduğuna şübhəmiz olmaz. Quranda tez-tez işlədilən* ***"altlarından çaylar axan cənnətlər"****(5\85) ifadəsi buna tipik misal ola bilər. Ekoqrafik və estetik baxımdan cənnət sözün əsl mənasında təbii landşaftdır, əsasən meşə-çəmən, göl və çay təbii komplekslərindən təşkil olunmuşdur. Cəhənnəm isə səhra, yarımsəhra və quru-çöl landşaft komplekslərinə bənzəyir. Həmçinin landşaft bir növ məkan, bir növ zaman, bir növ də ruhdur, tam halda isə universal informasiyaya malik təbiətin surətidir. Başqa sözlə, landşaft maddə və həyatın təbii-tarixi portretidir. Bu isə landşaftın estetik ifadəsini də qaçılmaz edir. Şübhəm yoxdur ki, landşaft ekoqrafik və geoqrafik olmaqdan daha çox estetik anlayışdır. Bu məxfi həqiqəti Şopenhauer də dərk etmişdi. O, bu barədə belə yazır:* ***"Əsl landşaft rəngkarlığının yaratdığı təəssürat ümumən bu növə aiddir ki, onun daxilində ifadə olunan ideyalar iradənin obyektivasiyasının daha yüksək pilləsi kimi əhəmiyyətlidir. Landşaftda estetik həzzin obyektiv tərəfi daha güclü ifadə olunur və subyekti müvazinətə gətirir!"(Dünya İradə və Təsəvvür kimi, 3-cü kitab, $44)*** *Landşaft bir növ təbii mənzərə olduğu üçün rəngarənglik onun atributu və mənasıdır. Ağıl da rəngarənglik, çoxluq və müxtəlifliyə düz proporsiyonaldır. Landşaft barədə söz deyərkən onun estetik tərəfini gözardı etmək yalnız cəhalətlə izah edilə bilər. Eyni zamanda hər hansı bir anlayışın əslini, kökünü və ən ümumi anlamını gözardı etmək də ən azı cəhalətdir. Dinin bizə vəd etdiyi cənnət, yaxud dəhşətilə təhdid etdiyi cəhənnəm spesifik estetikaya, spesifik mühit, məkan və landşafta malikdir. Bu ən azı ekoqrafik və ya geoqrafik baxımdan real bir həqiqətdir. Ümumiyyətlə kosmik kitablarda qeyb və ya axirət həyatından nümunələr təsvir edildikdə bizim dünyada tanış olduğumuz hal və şeylərin formasına bənzər şəkil və ölçülərdə göstərilir. Məsələn, Quranda cənnətdəki nemətlər bu dünyadakı nemətlərə bənzər olaraq nümunə göstərilir. Allahın metafizik nemətləri fiziki nemətlərə oxşar olaraq nümunə göstərməsi təbiətin onun yanındakı dəyərinə işarə edir. Dini memarlıq və sənətdə daha çox təbiət motivlərinə üstünlük verilməsi, xalçaçılıq, rəssamlıq*

*sənətində çiçək, gül, meyvə, yarpaq şəkillərinə tez-tez və çox yer verilməsi də təsadüfi bir şey deyil. Çünki təbiətdə duyduğumuz hər bir gözəllik, hər bir dəyər Allahın varlığından, xüsusilə də Onun gözəlliyindən xəbər verir. Məxluqatı ehtiva edən bir varlığın olmaması absurddur. Quranda deyilir:* ***"Şərq də, Qərb də Allahındır. Hara dönsəniz orada Allahın vəchi(üzü) var!"*** [203] *Kəlamçılar, fəqihlər, hədisçilər, vəhdəti-vücudçu və mutasavvıflar ittifaq edirlər ki, mütləq gözəllik Allaha aiddir və yaradılmışlarda müşahidə edilən gözəlliklərin mənbəyi və qaynağı da Odur. İslam fəlsəfəsi qərb fəlsəfəsindən fərqli olaraq göylər, yer və onlarda olanları fərd olaraq deyil, sistemli şəkildə ələ almağa daha çox üstünlük verir. Kosmosdakı bütün şeylər simfonik bir ahənglə bir-biri ilə əlaqə və nizam içindədir. Qərb filosoflarının bir çoxu(Eruigena, Dekart, Spinoza, hətta Hegeli də bu cərgədə görmək olar) Allahı təbiətdəki nizamın təzahürü hesab ediblər. Lakin səmavi kitablar bizə göstərir ki, Allah bu filosofların da sadəcə bir zərrəsi olduğu təbiəti də öz ağuşuna alan bənzərsiz və fövqəltəbii, həmçinin Yaradan və kontrol edən təbiət olmaqla yanaşı, zənn və fərz edildiyindən də qat-qat artıq nizam qoymuşdur. Nizam modern Kosmosun atributudur. Buna bir nümunə kimi Quranda deyilir:* ***"Nə günəş aya çata bilər, nə də gecə gündüzü keçə bilər. Hər biri öz yoluyla üzərlər!"(Yasin, 40)*** *İslam mütəfəkkirləri təbiətin gözəlliklərini onu yaradanın gözəlliklərini həm dərk, həm də isbat etməyə vasitə sayırlar. Təbiət hər yönü ilə uca Yaradıcının gözəlliklərinin seyr edildiyi bir müqəddəs güzgü kimidir. Bu müqəddəs güzgüdə duyulan gözəlliyin dərinliyinə çox az insanlar vara bilir. Müsəlman estetiklərinin gözəllik anlayışı birbaşa Allahın gözəlliyi inancına dayanır. Çünki Quranla sabitdir ki, ən gözəl ad və sifətlər Allaha məxsusdur. Sufilər deyirlər ki, ətraf mühitdəki gözəlliklər Allahın gözəlliyinin təqlidi və parçasıdır. Aşiq olmuş sufi hər an sevdiyini anar və ətrafda ondan bir iz axtarar. Gördüyü hər şey onu xatırladar, ətrafındakı hər şeyi Onun təzahür etdiyi varlıqlar olaraq görər. Aşiq sufiyə görə bütün kainat əbədi və əzəli sevgilinin təcəlli güzgüsüdür. Çünki hər yerdə Allahın kamal və camal sifətlərinin təzahürü var. Zira mütləq vücud, eyni zamanda mütləq kamillik və mütləq gözəllikdir. Süleyman əleyhissalam da ətraf mühitdə olan gözəlliklərdə Allahın camal və kamal sifətlərinin təzahürünü duyurdu.*

[203] ***Bəqərə, 115***

*Onun bu əxlaqı Quranda belə göstərilir:* ***"Davuda Süleymanı nemət verdik, saleh bir qul və tövbəkar idi. Axşam çağı cins atları gətizdirib "Mən gözəl olan hər şeyi sevirəm, çünki Rəbbimi xatırladır mənə!" dedi!"*** *Bir-çox başqa ayələrdə də Davud və Süleymana quşların və digər canlıların dilini başa düşmək kimi ilahi vergi verildiyi də bildirilir. Nəml surəsinin 16, 17 və 18-ci ayələrində deyilir:* ***"Süleyman Davuda varis oldu və dedi: Ey insanlar, bizə quşların dili öyrədildi və hər şeydən verildi. Bu açıq bir lütfdür. Süleymanın cin, insan və quşlardan ordusu toplandı. Hamısına o başçı idi. Qarışqa vadisinə gəldikləri zaman bir qarışqa dedi ki, ey qarışqalar yuvalarınıza girin ki, Süleyman və ordusu sizi əzməsinlər!"*** *Bu ayələr quşların, həşəratların və digər canlıların antroposentristlərin iddia etdiyi kimi dilsiz, ağılsız olmadıqlarını, insanın onlarla təmas qura, dost ola biləcəyini, canlıların bir-birilə daim holistik təbiət kimi qarşılıqlı əlaqədə olduğunu açıq-aydın göstərməkdədir. Ümumiyyətlə Allaha sadiq olanlar, həmişə təbiətə də sadiq olublar, təbiəti başa düşüb və duyublar. Bütün Rəsullar, Nəbilər və onların yoluyla gedənlər təbii gözəllikləri yalnız psixi və teoloji gözəlliyə yaxınlaşmaq vasitə və vasiləsi kimi dəyərləndiriblər! Təbiətin ən azı müqəddəs bir tərəfi, sifəti olduğunu çoxları qəbul edir. Kosmos və ya təbiət bizim duymadığımız, anlamadığımız şəkildə bizimlə danışır. Kosmosun dərin qurluşu özündə kompleks informasiya daşıyır. Lakin bu informasiya fiziki olmaqdan daha çox estetik xarakter daşıyır. Bu baxımdan* **kosmik estetika** *adlı elm sahəsinin yaradılması zəruridir. Allahın rəhmət xəzinələrindən gələn və ya qaynaqlanan hər şey gözəldir. Göylər də, yer də. Quranda buyrulur:* ***"Allah Odur ki, yeri sizə qərargah, göyü də bina etdi, sizə forma verdi və formalarınızı da gözəl etdi. Sizi saf ruzilərlə nemətləndirdi!"(Mumin, 64)*** *Təbiəti gözəl görürük, çünki o bizim ehtiyac duyduğumuz şeylərdən təşkil edilib. Gözəllik bir tərəfdən cazibə, digər tərəfdən eşq və arzu, başqa bir tərəfdən də hərəkət xüsusiyyətinə sahibdir. Gözəlliyin cazibədarlığı var. Gözəlliyin var olduğu yerdə eşq və istək mövcuddur, çünki gözəlliyin özü və özülü sevgi, istək və arzulardan təşkil olunub. Arzu etdiyimiz, sevdiyimiz elə bir şey yoxdur ki, onu gözəl görməyək. İnsan instinktiv olaraq gözəl gördüyü şeylərə meyl edir, hətta onları təqib edir. Kimin üçünsə bu gözəlliklər fiziki və cinsi, başqası üçün sosial-siyasi, digərləri üçün də sırf mənəvi və psixi xarakter daşıya bilər. Mütəhərri deyir ki, gözəllik və iştah arasında da*

*bağlar var. Qidalarımız bizi öz gözəlliklərilə də cəzb edirlər. Qida maddələri çirkin olsaydı, yaxud bizə çirkin görsənsəydi onda biz iştahsız olar və lazım olduğu kimi qidalanmazdıq.*[204] *Bu isə nəticə etibarı ilə xəstə və zəif olmamıza yol açardı. Digər tərəfdən meyvə-tərəvəzə, şirniyyata və digər yeməklərə Yaradan tərəfindən qoyulan müxtəlif dadlar bizi fərqli yollarla qidalanmağa təşviq edir və iştahımızı balansda saxlayır ki, iyrənməyək, bezməyək. Əgər fərqli dad olmasaydı fərqli yeməkləri axtarmaz və onlardakı qidalardan istifadə etməzdik. Halbuki insan nə qədər sevirsə sevsin eyni dad verən yeməkləri sürəkli qəbul edə bilməz. İnsanda eyni daddan yorulma və başqa həzz və ləzzət axtarmağa meyl instinktiv nizam və dinamikanın təsirindəndir. İnsana verilən yeməklər də, əşyalar da sosial, ekonomik və ekoloji xüsusiyyətə malik olduğu kimi, estetik xüsusiyyətə də sahibdir. Bu baxımdan şeylər insanın duyğularına sanki xitab edir. Dünyamız sadəcə fiziki gözəlliklərlə harüqaladə deyil, özünün kainatdakı seyri ilə də heyranedici gözəlliyə sahibdir. Əşariyə görə məxluqatı ehtiva edən rəng təbəqəsi onların gözlərinə münasib gələn rənglərdən yaradılmışdır. Əgər bu rəng indi aləmi saran rəngdən olmasaydı gözlərə uyğun olmazdı.*[205] *Qazali mühiti estetik baxımdan belə incələyir: Gözəlliyi anlayan hər kəs gözəlliyi sevər. Gözəlliyin sevilməsi gözəlliyin özündəndir. Çünki bir şeydə gözəlliyi dərk etmək zövqün özüdür. Həzzə olan sevgi başqasına görə deyil, özünə görədir. Gözəl surətə olan sevgi şəhvətlə edilən təsəvvürdən qaynaqlanmır. Zira bu fərqli bir zövqdür. Gözəl olan sırf gözəl olduğu üçün də sevilir. Hətta gözəlliyi sezmək və fərqinə varmaq da bir zövqdür. Buna görə gözəllik sevilir. Yaşıllıqların, axarsuların yalnız yeyib-içmək üçün deyil, gözəl olduqları üçün sevildiklərini necə inkar etmək olar?! Aydınlıqlara, çiçəklərə, uçan rəngli quşlara, gözəl naxışlara baxmaq zövqə və kədərin azalmasına səbəb olur. Çünki zövq verən hər şey sevimlidir. Dərk edilən hüsnü-camalda insanın təbiətindən doğan bir zövq olduğunu heç kim dana bilməz. Allahın da gözəl olduğu sabit olursa onu sevməmək də mümkün deyil. Qazali gözəlliyin yalnız surət və şəkildə axtarılmamasına belə izah edir:* ***"Gözəllik yalnız gözün idrak etməsilə bağlı deyil. Məsələn, "bu yazı, bu səs, bu at gözəldir" deyirik. Hətta, "bu qab, bu paltar gözəldir" deyirik. Gözəllik yalnız***

---

[204] ***Murtaza, M. Ahlak Felsefesi, İstanbul, tarixsiz, 88***
[205] ***Əbul-Həsən Əşari "Risalə ilə Əhlis-sağr", Dəməşq, 1988, 153***

***surətdə axtarıldıqda səs, yazı və digər şeylərin heç bir anlamı qalmaz. Hər şeyin gözəlliyi özündə olması mümkün və kamalına uyğun olanların özündə olması deməkdir. Bir şey özündə olması mümkün olan bütün mükəmməllikləri topladığı zaman gözəlliyin zirvəsinə qalxmış olur. Əgər kamal qismən olarsa, şeyə nisbəttə gözəl olar. Hər bir şeyin gözəlliyi özünün layiq olduğu kamalındandır. Məsələn, atı gözəlləşdirən insanı gözəlləşdirməz. Digər obyektlərdə də hal və hökm belədir. Yazını gözəlləşdirən xüsusiyyətlər səsi gözəlləşdirməz. Hər şeyin spesifik xüsusiyyəti var. Gözəllik duyulmayan şeylərdə də var. Məsələn, "bu gözəl əxlaq, bu gözəl elm" deyildiyi kimi. Gözəl əxlaqdan elm, ağıl, iffət, şücaət, təqva, kərəm, mürüvvət və digər yaxşı hallar murad edilir ki, bunların heç biri beş hiss üzvü ilə duyulmaz!"***[206] *Qazali gözəlliyin qaynağı olaraq qoyduğu Yaradıcının varlığını sevgi və gözəllik dəlili ilə isbat etməyə cəhd edir ki, bu metod nassa uyğundur. Çünki* ***bir gün Rəsulullah buyurdu: "Qəlbində zərrəcə də olsa təkəbbür olan kimsə cənnətə girməyəcək!" Bir adam dedi: "Kişi paltarının və ayaqqabısının gözəl olmasını sevər!" Rəsulullah cavabən buyurdu: "Allah gözəldir, gözəlliyi sevər! Təkəbbür isə Haqqı danmaq və insanları aşağılamaqdır!"***[207] *Hər yerdə Allahı görmək təbiət və cəmiyyəti əhatə edib kontrol altında saxlayan teoekosistemin(ilahi mühitin) varlığına iman etmək deməkdir. Belə bir inanc yalnız xeyir gətirər. Ümumiyyətlə sufilərin Allahın məxluqatda təcəlli etməsi barədəki görüşlərinin həqiqəti, real fəlsəfəsi elə budur. Və yalnız bu açıqlama onları bütpərəstlik ittihamı qarşısında təmizə çıxara bilər. İbrahimi dinlərin hamısında insanın Allaha bənzər yaradıldığından bəhs edilir. Allaha bənzəməyin yeganə yolu heç şübhəsiz ki, təbiət qanunlarından, onlara itaət və sadiqlikdən keçir. Təbiət həm oxunmalı, həm də rəhbər olmalı bir kitabdır. İnsanın oxumalı, rəhbər tutmalı və ibrət almalı olduğu ən böyük kitab olan təbiətin vərəqləri hər gün yandırılır. Bu yanğında modern alimlərin rolu ən böyükdür. Çünki modernizm ideoloqları təbiəti özlərinə müxalif hesab etdikləri üçün təbiətdən nümunə götürməyə də lüzum görməzlər. Məsələn, modern ekonomist Con Sütuart Mill yazır:* ***"Təbiət nümunə götürməyimiz üçün uyğun bir model deyil. Əgər uyğun olsaydı,***

[206] ***Qazali Əbu Həmid, İhyau Ulumid-Din, XIII-cü cild, 1985, 4\299***
[207] ***Buxari, Zəkat, 8; Muslim, Zəkat, 65***

***təbiət öldürdüyü üçün biz də öldürməli, əzab verdiyi üçün biz də əzab verməli, söküb dağıtdığı üçün bizim də dağıtmağımız lazım olardı!"***[208] *Halbuki bu cür fikirlər sərsəm cəfəngiyyatdan başqa bir şey deyil. Təbiət haqsız yerə əzab verməz və öldürməz, yalnız özünü insandan qorumağa çalışar. Təbiət öyrənə bilənlər üçün çox peşəkar müəllimdir. Bəşər tarixi boyu insan təbiəti və təbiət elementlərini imitasiya etməyə meyilli olmuşdur. Qurana baxdığımızda ilk insanlardan olan Qabilin öldürdüyü qardaşını basdırmaq üçün bir qarğanı model aldığı ifadə edilir. Quranda bu hadisə belə adlandırılır:* ***"Allah qardaşının ölüsünü basdırmaq üçün ona yeri qazan bir qarğa göndərdi. "Mənə veyl olsun! Qardaşımım ölüsünü örtmək üçün bir qarğa qədər də olmadım!" dedi və etdiyinə peşman oldu!"*** [209] *İnsan malik olduğu dəyərlərin əksəriyyətinə təbiəti imitasiya edərək nail olmuşdur. Dahiyanə estetik sənət əsərlərindən tutmuş seksual pozalaradək, siyasi və hüquqi normalardan tutmuş texnoloji nəaliyyətlərədək hər bir dəyərli, insan həyatı üçün əhəmiyyətli nə varsa hamısı fizioimitasiya və ya naturaimitasiyanın nəticəsidir. Hətta, dini ritualları da bu siyahıya aid etmək olar. İnsan spesifik, amma təbiətə qarşı gələ bilən təbiətdir. İslam alimləri qərb alimlərindən fərqli olaraq insanın təbiətin modeli olduğunu və təbiətin də insana hər yönü ilə model ola biləcəyini ittifaqla qəbul etmişlər. Müxtəlif məktəb və məzhəblərə məxsus müsəlman alimləri bu məsələdə prinsipcə ixtilaf etmirlər. Məsələn, Əşari kainatın qurluşunun hər yöndən insana görə qurulduğunu, hətta insanın psixoloji tərəfi və estetik duyğusunun da hesablandığını söyləyir.*[210] *Lakin əşari unudur ki, təbiətin insana görə qurulması insanı imtahan etmək üçündür: insan özünü təbiətin qoruyucusu sayacaq, yoxsa təbiətin ağası olduğunu iddia edəcək?! Əşaridən fərqli olaraq bir-çox müslim filosof, o cümlədən Kindi insanın təbiəti mühafizə etməyə borclu olduğunu söyləyir. Ibn Sina isə hərəkət ilə bütün kosmosa yayılmış sevgi və gözəllikdən bəhs edir. İbn Sina təbiətdəki gözəlliyin səbəb və əsasını hər bir şeyin digərinə, bütövlükdə təbiətin də Allaha duyduğu sevgi və simpatiyada görür. İbn Sinanın təbiət və kosmos anlayışı Haken və Priqojinin ondan 9 əsr sonra qəbul etdiyi təbiət və*

---

[208] ***Mill, Jonn Stuart, On Nature, 1904, 18***
[209] ***Maidə, 31***
[210] ***Əbul-Həsən Əşari "Risalə ilə Əhlis-sağr", Dəməşq, 1988, 152***

*kosmos anlayışından daha sistemli və daha dinamikidir. O eşqi varlıqların var oluş səbəbi olaraq görür. İbn Sina hesab edir ki, canlı və cansız hər şey eşqlə yaranır, eşqlə doğulur. Hər bir şeydəki eşqin dərəcəsi fərqlidir. Geylani, Əşari və digər mütəfəkkirlər daha çox gözəllik təcəllisinin üzərində dururdularsa, ibn Sina daha çox eşqin substasion təcəllisi üzərində durur. Ona görə eşq varlığın, təcəlli də eşqin səbəbidir. Deməli təcəlli varlığın da səbəbidir. Bütün bunları ibn Sina Allahın varlığına da dəlil gətirir. Araşdırdığım qədərincə fəlsəfə tarixində eşqi ontoloji prinsip olaraq görən ilk filosof Əbu Əlidir. Ondan sonra da böyük şair filosof Nizamidir. Onun məşhur misralarını xatırlamaq yerinə düşər:*

***Eşqdir mehrabı uca göylərin***
***Eşqsiz ey dünya nədir dəyərin.***

*Cəlaləddin Rumi də oxşar görüşdədir. Onun da bu misraları məlumdur:*

***Göyüzü eşqlə dönür, suyla deyil,***
***Eşqlə yürüyürük biz, ayaqla deyil[211].***

*İstər ibn Sinanın, istərsə də ondan sonrakı müsəlman mütəfəkkirlərin eşq barədə söylədikləri çox sonralar bir-çox Qərb alimi tərəfindən, xüsusilə də Nyuton tərəfindən mənimsənildi, riyazi simvolika ilə ümumdünya cazibə qanunu adı ilə elm aləminə təqdim və təbliğ edildi. Halbuki İbn Sinanın eşq ideyası Nyutonun kəşfi kimi qəbul edilən qanunun estetik-fəlsəfi dillə ifadəsi idi. İbn Sina, Nizami və Mövlanada çatışmayan yalnız riyazi simvolikadır ki, bu da substansional baxımdan heç nədir(problem deyil). İstərsən cazibə de, istərsən eşq de, istərsən də seks de,(halbuki bu ifadələr də məzmun və mahiyyətcə bir-birinə yaxındır) hər halda ümumdünya cazibə (və yaxud, ümumdünya eşq) qanununu ilk dəfə qardaşım Əbu Əli kəşf edib. Eşq gözəlliklə birlikdə mühitin estetik substansiyasını təşkil edir. Eşq olmasa gözəllik, gözəllik də olmasa eşqin mənası və dəyəri olmaz. Kainat istər həm bir bötüv kimi, həm də hissələrilə bu dəyər və mənanı özündə daşıyır. Kosmosdakı hər bir ulduzun, bürcün, qalaktikanın spesifik gözəlliyi var. Yalnız yer sistemi deyil, bütövlükdə kainat*

[211]***Mevlana, Divanı-Kebir, V\219, 2541***

*müqəddəs sənətin şedevridir. Bu sənət fövqəlbəşər və fövqəttəbii sənətdir. Bu sənətin forma, simvol və substansiyası müqəddəs və fövqəlbəşər elmə dayanır. Mən şübhə etmirəm ki, göylərin və onlarda olanların gözəlliyi və dəyəri geosistemdəki dəyər və gözəlliklərdən daha üstün və daha gözəldir. Amma bəzi alimlər dünyanı da Allahın şedevrinə aid edirlər. Məsələn, Qazaliyə görə Allah bütün insanları ən ağıllısının ağlı və ən elmlisinin elmi ilə yaratsa, daşıya biləcəkləri bütün elmləri onlara yükləsə, onlara hesabsız hikmət versə, sonra bir o qədər də elm, hikmət və ağıl əlavə etsə, hadisələrin nəticələrini onlara bildirsə, mələkutun sirrlərini öyrətsə, varlıq aləminin hakimiyyətini onlara versə, yenə də Allahın mülk və hakimiyyətində ən kiçik əlavə və ya dəyişiklik edə bilməz, Allahın göylərdə və yerdə yaratdıqlarını ən mükəmməl üsullarla incələmiş olsaydılar belə yenə də qüsur tapa bilməzdilər.*[212] *Qəzali daha da ifrata vararaq deyir ki, bu aləm mümkün ola bilən aləmlərin ən yaxşısı, ən gözəli və ən mükəmməlidir.***(Leysə fil imkan əbdə min məkan)** [213] *Qazalinin yuxarıdakı mülahizələrindən fərqli olaraq bu fikri nəinki ağıl və məntiqə, hətta nasslara da ziddir. Allah Quranda açıq-aydın buyurur ki, axirət aləmi dünya həyatından hədsiz üstündür. Bu barədə yüzlərlə ayə var. Məşhur hədislərin birində Rəsulullah buyurur:* ***"dünya mömin üçün zindan kafir üçün cənnətdir!"*** *Qazali kafir cənnətini möminin cənnətindən hansı əqidə ilə üstün tutur?! Qəzalinin dünyanın mükəmməlliyi barədə görüşünü qərb fəlsəfəsinə daşıyan Leybinits oldu. Leybinitsin teodiseyası məhz Qəzalinin bu batil fikri üzərində qurulmuşdur:* **meilleur des mondes possibles.** *İstər müsəlman, istərsə də qərb alimləri arasında bu əsassız və uydurma fikrə qarşı çıxan mötəbər alimlər olmuşdur. əl-Bikai, ibn ul Munəyyir, Leopardi Cakomo, Şopenhauer və bir-çox başqa böyük elm və hikmət lideri qazali qaynaqlı bu* ***"ideyanı"*** *çox mükəmməl və gözəl bir şəkildə çürütmüşlər. əl-Bikai deyir:* ***"Günahlar(özəlliklə zülm və fəsad) insanları və insanlığı tənəzzülə uğratmaqdan başqa bir nəticə verməyəcəkdir!"*** *Böyük italyan filosofu Leopardi demişdi:* ***"Dünya həmişə xeyirxahlar üçün həbsxana, vicdansızlar üçün bayram olacaqdır!"*** *Şopenhauer bu* ***"ideyanı"*** *belə ifşa edirdi:* ***"Əgər həyatımızın məruz qaldığı dəhşətli əzab və sarsıntılar hər hansı***

---

[212] ***Qazali Əbu Həmid, İhyau Ulumid-Din, XIII-cü cild, İstanbul, 1985, 181***
[213] ***Qazali Əbu Həmid, İhyau Ulumid-Din, 4\321, Qahirə, 1967***

***birimizə əyani şəkildə göstərilsə, onda lərzə, həyacan bizi öz qoynuna almış olar. Ən möhkəm optimisti xəstəxanalar, lazaretlər və insanların cərrah işgəncələrinə məruz qaldıqları kameralar, həbsxanalar, məhbəslər, döyüş meydanları və insanların edam olunduğu yerləri boyunca gəzdirsələr, yoxsulluğun yabançı maraqdan gizləndiyi qaranlıq tərəflərini onun üçün açsalar və əlavə olaraq ona Uqolino aclıq qalasına baxmağa imkan versələr, onda o, son nəticədə yəqin başa düşər ki, meilleur des mondes possibles(mümkün olan dünyaların ən yaxşısı)nə olan şeydir!"(4-cü kitab, $59)*** *Böyük Şopenhauerin sözünə qüvvət, Vallerstayn necə də doğru deyir:* ***"Biz mükəmməl olmayan bir dünyada yaşayırıq. Bu dünya elə hər zaman belə olacaq, onda hər zaman zülmə, haqsızlığa yer tapılacaq!"*** [214] *İnsanları tərəqqi xülyaları ilə qandıran avantüristlərdən fərqli olaraq* ***"pessimist"*** *və* ***"mürtəce"*** *mütəfəkkirlər həqiqəti söyləyərək bu dünyanın ən azı mümkün ola biləcək dünyaların ən yaxşısı olmadığını isbat ediblər. Kamyu demişdir:* ***"Dünya irrasionallıqla doludur. Mən dünyanın unikal mənasını anlaya bilmirəm. İnsan dünyanın irrasionallığı ilə toqquşur. Bu toqquşmada insanın qabiliyyət və həvəsi ilə dünyanın irrasionalığı arasında absurd yaranır. Ağlıma dayanaraq mən deyə bilərəm ki, bu absurd dünyada deyil, insanda da deyil, onların bir yerdə olmağındadır!"*** [215] *Şopenhauer, Sartr və Kamyunun dünyanı mütləq mənada absurd görmələri mütləq mənada doğru deyil. Qazali və Leybinits ifrata vardığı kimi, bunlar da təfritə yol vermişlər. Allah absurd heç nə yaratmır, o ki, qaldı dünya bütövlükdə absurd ola?! Belə olardısa, içində məna olmayan dünya tamamı ilə pis olar və var olmamaq daha yaxşı olardı. Şopenhauer, Sartr və Kamyu kimilər ateist olmasaydılar dərk edərdilər ki, bu dünyanın yeganə mənası mənasızlığdan qurtulmaq və absurd olmamaqdadır. Əgər dünya absurd olsaydı dini qaynaqlarda da Şopenhauer fəlsəfəsində olduğu kimi intihar təbliğ və təlqin olunardı. Lakin bu həqiqətdir ki, geoekosistem qazali və leybinits kimilərin iddia etdiyi kimi Allahın şah əsəri deyil, sadəcə olaraq bizə olan rəhmətidir. Allahın şah əsərinin ən azından bu dünya olmadığını dərk etmək üçün möminlərin axirət həyatı barədəki ayələri oxumaq və anlamaq bəs edərdi.*

[214] ***Валлерстайн И. Конец знакомого мира: Социология XXI века. Москва, 2004.***
[215] ***А.Камю. Бунтующий человек. М., 1990, 38***

*Modern həyat, modern sivilizasiya genişləndikcə təbii gözəlliklər yerini süni gözəlliklərə verir. Antropogen modifikasiya və inversiyanın tipik forması olan şəhərləşmə, şəhərlərdə salınan süni göllər, bağçalar, göllər heç vaxt orjinal təbii gözəlliyi əvəz edə bilməz. Axmaq insan texnikanın gücü və köməyi ilə rəsim və simulyasiya vasitəsilə süni gözəllikləri ən azı təbii gözəlliklərə bərabər səviyyədə göstərməyə çalışır. Halbuki modern elm və texnika dahilərinin sələfi hesab edilən Bekonun bu sözləri sabitdir:* ***"Rəssamın çəkdiyi portret nə qədər gözəl görsənsə də, o heç vaxt reallıqdakı gözəlliyin tam obyektiv təsvirini verə bilməz. Bu halda rəssama yalnız onun fərdi və spesifik üslubu uğur gətirə bilər!"*** *Modernizmin bir nömrəli sələfinin etirafına baxmayaraq, modern xələflər öz sələflərinə də xəyanət etdilər! Hətta, süni gözəlliklərin təbii gözəlliklərdən daha estetik, daha mükəmməl və daha cazibədar olduğunu söyləyən alim qırıqlarına da rast gəlmək olur. Məsələn, sərsəm və destruktiv fikirlərilə məşhur olan* ***eko*** *yazır:* ***"Disneyland texnologiya, təbiətin bizə verdiyindən daha çox gerçək ola biləcəyini göstərir!"***[216] *Bu zırramanın iddiasından belə çıxır ki, uşağı ölmüş bir anaya oyuncaq bir uşaq alıb verirlər və bununla təsəlli tapmasını, üzülməməsini istəyirlər. Və həmçinin anaya deyirlər ki,* ***"görürsən bu uşaq ölən uşaqdan daha yaxşıdır, çünki nə yemək yeyir, nə altını isladır, nə də ağlayır!"*** *Volfanq Simit deyir ki,* ***"bu halda mədəniyyət təbiət adında bir fantaziyaya təslim olur!"*** [217] *Mən isə deyirəm: Təbiət orjinal və gerçəkdir, antropomodernkultura isə təbiət və təbiilikdən boşaldılmış pedantik fantaziya və illuziya bazarına oxşayır! Bu gün modern imperatriça və çariçaların və ya modern kleopatra və modern məysunların Allahın onlara verdiyi təbii gözəlliyi cürbəcür kosmetik üsullarla dəyişdirmələri – ağızlarını cırdırmaları, dərilərini dartdırmaları və qaraltmaları, ayaqlarının arasına ən bahalı zinət əşyaları taxdırmaları, başıpozuq və yelbeyin qadınların da kütləvi şəkildə bu aftoritet fahişələri imitasiya etmələri həm dini, həm də təbiii gözəllikləri deqradasiya etməyə yönəlmiş planın tərkib hissəsidir. Lüt soyunmaq, çılpaq və ya yarıçılpaq gəzmək, öz bədən əzalarını cəmiyyətdə nümayiş etdirmək, ehtiraslı görüntü yaratmaq, bir sözlə fahişəliyin hər bir və hər cür forması bu zırramalara görə*

---

[216] ***Eco, U. Travels in Hyper-Reality, Picador, London. 1986, 44***
[217] ***Wolfgang, Simith, Kainat ve Aşkınlık, İstanbul, 51***

*mədəniyyətdir. Amma dini və təbii dəyərlərə riayət və itaət etmək bunlara görə qeyri-mədənilik və geridəqalmışdıqdır. Bu yaramazlar ətrafda hicablı qadın və ya saqallı kişi görən kimi tez hay-küy salırlar ki, **"ibtidai sivilizasiyanın, yaxud orta əsrlərin qaılığıdır, modern təkamülə, modern mədəniyyətə ziddir! Qaragüruh vəhşilikdir!**"*

## *$3.4.2.İslam və irq*

***İnsanlar darağın dişləri kimi bərabərdir!***
***Muhamməd(s.a.v)***

*Coğrafiya və ya etnoqrafiyadan bir balaca başı çıxan adam irq məfhumunun nə demək olduğunu bilir. Lakin bizim məqsədimız irqin tərifini verməyə cəhddən ibarət deyil, sadəcə irqi prosesin mahiyyətinə varıb müxtəlif irqlərin dınə, xüsusilə İslama münasıbətini təhlil etməkdir. Həm də hər bir irqin insana nə cür davranmaq qaydası təlqin etdiyini göstərməkdir. Quranda geologiya, etnoqrafiya, irqşünaslıq və minaralogiyaya, həmçinin landşaftşünaslıq və torpaqşünasılığa dair görün necə klassik kəlam və ya ayələr var: **"Görmədinmi ki, Allah göydən su endirdi? Biz onunla müxtəlif rəngli meyvə-tərəvəz çıxardırıq. Və dağlarda da müxtəlif rəngli – bəyaz(ağ), qırmızı, tünd və qara yollar qurduq. İnsanların, canlıların və davarların da bu cür müxtəlif rəngləri var. Allahdan qulları içində yalnız üləmalar(alimlər) qorxar. Şübhə yox ki, Allah güclüdür bağışlayandır!"(35/27-28)** Suyun müxtəlif formalarda, xüsusən də yağıntı şəklində torpaq-bitki örtüyünün inkişafında əvəzsiz rol oynaması danılmazdır. Bu ayələrdə göstərilən **"dağlarda müxtəlif rəngli - ağ, qırmızı, tünd, qara yollar təyin etdik"** deməklə Ulu Fatir tektogenez proseslər nəticəsində əmələ gələn geolandşaft zonalarını, xüsusi ilə bir-birindən həm mahiyyətcə, həm də formaca(rənginə görə) fərqlənən müxtəlif torpaqları, kristalları və dağ süxurlarını nəzərdə tutur. Müxtəlif rəngli, növbənöv meyvə və tərəvəzlərin də varlığı aydın məsələdir. Təbii və şübhəsizdir ki, təbiətdə ağ, qırmızı, tünd və qara, habelə başqa rəngli dağ süxurları, müxtəlif kristallar və torpaq-bitki örtüyü, həmçinin heyvanlar və insanlar mövcuddur. Lakin Allah təkcə bunların varlığını bildirməklə kifayətiənmir, **"dağlarda müxtəlif***

***rəngli yolların"*** - tektonik proseslər nəticəsində formalaşmış geolandşaft qurşaqlarının hər birinin spesifik torpaq-bitki örtüyü, heyvanları, mineralları, kristalları, habelə insanları olduğunu xəbər verir. Uca Allah bəyaz və ya ağ rəngli dağ yolu dedikdə heç şübhəsiz ki, nival və subnival geolandşaft qurşaqlarına diqqət çəkir. Nival və subnival ərazilər də dağ-buz kompleksləri və ya dağ buzlaqlarından ibarətdir. Başqa sözlə, Allah bu ayədə donmuş, obrazlı desəm, ağ libasa bürünmüş əraziləri ağ və ya bəyaz rəngli yol və ya sahə kimi ifadə edir. Başqa tərəfdən her bir ərazinin landşaftına müvafiq görkəm alan heyvan və insanları olduğu üçün, buz kompleksləri üstünlük təşkil edən ərazilərə uyğunlaşmış ağ rəngli və ya ağımtıl heyvan və insanlar da var. Digər rənglər də müvafiq geolandşaft qurşaqlarına uyğun gəlir. Məsələn, Allah ayədə dağlardakı qırmızı rəngli yol deyəndə həm qırmızı və ya qırmızımtıl mineralar, kristallar, həm də ona bənzər torpaqları yaratdığını xəbər verir. Belə ki, ekvatorial və subekvatorial zonaların dağ-meşə-çəmən kompleksləri əsasən qırmızı və qırmızımtıl torpaqlar üzərindədir və bu ərazilərdə eyni rəngli kristal və minerallar da üstünlük təşkil edir. İnsan və heyvanlardan da təbii olaraq qırmızı rəngə malik olanları var. Lakin qırmızı rəngli insan irqinin kökü kəsilmişdir. Bəzi tədqiqatçılara görə Amerika və Afrikanın insan ayağı dəyməmiş ərazilərində qırmızı irqin nümayəndələri qalıb. Cəmiyyətdə qırmızı və ya qırmızımtıl insana çox nadir hallarda rast gəlmək olur. Qədim dünyanın bir çox xalqları, - qədim misirlilər, şumerlər, atlantidalılar, mu tayfaları qırmızı irqə malik insanlar idilər. Onların rəngi əsasən mis rənginə bənzəyirdi. Buna görə xalqşünaslar onları qırmızı irq adlandırıblar. Bu irqin son nümayəndələri abş imperiyası qurulanda kütləvi şəkildə, bizonlar kimi məhv edildi! Anqlosaks və anqloamerikanlar tərəfindən genosid və ekosidə məruz qalan qırmızı irq nümayəndələrindən sağ qalan çox az olmuşdur. Bu gün qızıldərili insanlar olduqca azdır və onları qırmızı kitaba salmaq vacibdir. Qızıdərili insanlar az olduğu üçün onları assimiliyasiyadan qorumaq lazımdır. İrq və etnosların bir-birinə qarışmasının faydasından daha çox ziyanı olmuşdur. Qobinonun haqlı olaraq təsvir etdiyi kimi irqlərin bir-birinə qarışması qlobal katastrofdur! Çoxları diletantcasına Qobinonun XXI əsrə qədər bəşər nəslinin məhv olacağı proqnozunun özünü doğrulanmadığını az qala car çəkirlər. Amma bu axmaqlar kor kimi görmürlər ki, bəşəriyyət *"**mən**"ən artıq ölüb!? Təbii ki, insanlar xilas yolunun İslamdan başqa*

*bir şey olmadığını dərk etməyincə elə belə də olacaq! İslam qlobal miqyasda qəbul edilməsə, irqlər, adət-ənənələr, mədəniyyətlər bir-birinə kortəbii şəkildə qarışacaq və məhv olacaqlar! Bir var müxtəlif irqlərin imanlı nümayəndələrinin bir-birinə qarışması, - bu bəşər nəslini tənəzzüldən qurtara bilər, - bir də var ayrı-ayrı irqlərin alçaq, şərəfsiz, keyfiyyətsiz nüsxələrinin bir-birinə qarışması ki, bu proses planeti tamam deqradasiya etmək üzrədir! İslamın inkişafında mane olan bir neçə amil var, lakin bütün bu maneələri məhz irqi proses təmin edir, tənzimləyir! İslamla cürbəcür metodlarla mübarizə aparan üç böyük din - yəhudilik, buddizim və xristianlıq da hər bir etnos və irqin, xüsusilə kompleks etnos və irqlərin malik olduğu iflasauğradıcı xislətlərin birbaşa və dolayı təsirlərini aradan götürməyə qadir deyil! Buna əmin olmaq üçün təkcə ABŞ əhalisinin çox az bir qismini təşkil edən müsəlmanlann davranışı ilə (istər qara, istərsə də ağ irqin nümayəndəsi olsun!) qeyri-müsəlman əhalinin davranışı arasına kəskin fərqlərə nəzər salmaq kifayət edərdi. Çox az bir qisim istisna olmaqla, elə bir qeyri-müsəlman (bura bizim də əksəriyyətimsizi təşkil edən formal müsəlmanlar daxildir!) qara irq və ya mulat, metis nümayəndəsi tapmaq olmaz ki, onun təbiətindəki qlobal etik anarxizm özünü biruzə verməsin! Belə fərdlər sözün həqiqi mənasında iblisin xidmətçiləridir! İslamdan başqa hər bir dini, xüsusi ilə xristianlığı qəbul etıniş zəncilərin, həmçinin mulat və metislərin böyük əksəriyyətinin lovğa, həyasız, özbaşına, əyyaş və əxlaqsız olduğu görünür. Müsəlman qaralar arasında(əlbəttə, biz sözdə müsəlman olanları deyil, ibadət edənləri nəzərdə tuturuq) belələri çox azdır. Açıq-aşkar görünür ki, qara irqin nümayəndəsi ağ və ya başqa bir irqin formalaşdığı əraziyə, yaxud ağ irqin nümayəndəsı sarı irqin və ya qara irqin formalaşdığı əraziyə gəlir və bu zaman torpaq, sərvət, arvad, hakimiyyət hərisliyi meydan sulayır! Konkret desək, miqrant zəncilər oğurluq, fahişəlik (dəyyusluq) və başqa etik normalara heç cür sığışmayan oyunlar çıxarırlar. Buna əmin olmaq üçün abşdakı miqrant zənci liderlərinin əməllərinə baxmaq bəs edər! abş-ın ən cazibədar fahişələri mulatlardır. Miqrant ağlar isə həm ruhi, həm də fiziki işğalla məşğuldurlar. Anqlosaksların amerika və asiya hindularının başına gətirdiyi terror, ekosid və genosidlər buna sübutdur. Sarı irqin daşıyıcaları da ustalıqla talan etmək və dağıtmaqda ağlardan geri qalmırlar. Abş kimi hər tərəfli azad məmləkətdə yalnız İslam qlobal-mənəvi hemostaz yarada bilər. Başqa*

*heç bir siyasi, iqtisadi, yaxud dini qurum, təşkilat, sistem bu işi görə bilməz. Mənəvi sabitlik olmayan yerdə, siyasi və ya iqtisadi sabitlik yaratmağın nuxulular demişkən "**nə faidəsi?!**"*

*Ətrafda olan hər şeyin bizə təsiri ola bilər, amma Allaha iman gətirən kəs öz qəlbində iman nuru ilə bu təsirləri neytrallaşdıra bilər. Təbii ki, bütün məxluqlar Allaha məxsusdur və əgər ona iman gətirilirsə, ondan başqa heç bir varlıq möminə bu və ya başqa formada təsir edə bilməz. Çünki həqiqi iman sahibi birbaşa teokontroldadır. Santayana kimi bəzi filosoflar inamı təkcə insana deyil, bütün canlılara aid edirlər. Geomorfosistem əsasən iblisin kontroluna verildiyi üçün Allaha düzgün və kamil iman etməyən kəslər iblis və ordusu tərəfindən əvvəlcə güclü zərbə alırlar. Tam zəiflədildikdən sonra manqurtlaşdırılırlar. Allaha iman gətirməyənlərə, - hansı ki, insanlann azı 99%- i belədir, - hər zaman, hər yerdə, hər bir şey təsir edir və edəcək. Beləlməri uzunqulaq, yaxud donuz kimidir. Onlara nəcis də təsir edə bilər! Duası, ibadəti olmayan kəslərin teoloji və kosmik mühitdə heç bir dəyəri yoxdur. Quranda bu barədə deyilir: **"De ki, əgər duanız yoxdursa Rəbbimin yanında nə dəyəriniz ola bilər?!..."**[218] Əsl müsəlman yalnız Allaha bağlanır, hər bir işində Onu düşünür və ona müraciət edir, yalnız Allah rizası üçün yaşayır, Allah nzası üçün davranır və Allah rizası üçün ölür! Lakin əfsus ki, bəziləri arvad (qadın) rizası üçün, bəziləri prezident və ya şah rizası üçün, bəziləri rəis və ya nazir rizası üçün, digərləri də digər bütləri üçün iş görürlər. Bəşəriyyətin azı 90%-i belədir və beləri büsbütün geolandşafla, ətraf mühitə tabedir! İmansız, şərəfsiz, ləyaqətsiz, namussuz, bir sözlə mənəviyyatsız adam tamamı ilə geolandşaftın təsiri altında olur. Belə adamlara günəşin, ayın, planetlərin, həmçinin canlı maddənin, xüsusi ilə də hidrogen mənşəli maddələrin təsiri labüddür. Bu təsirlərin hamısı birlikdə ətraf mühitdə və ya geolandşaftda əks olunur. Bu cür insanların orqanizmində hidrogen atomları çox olur. Yalnız iman faktoru ilə ətraf mühitin neqativ təsirlərini aradan qaldırmaq olar. Məsələn, məmləkətimizin ən duzlu, şoranlaşmanın çox intensiv getdiyi rayonlarından biri və birincisi olan Ucarda əhalinin mənəvi eroziyası geniş areala malik olsa da, orda dostum Yaşar kimi mömin qardaşların varlığı nə qədər az olsa da, ən azı mənə həm təsəlli verir,*

[218] ***Furqan, 77***

*həm də göstərir ki, lap Antraktida da və ya böyük səhranın düz mərkəzində olsan, əgər mömin oldunsa, deməli sənə nə soyuq, nə isti, nə gecə, nə gündüz, nə də duz kompleksləri psixi və pnevmatik təsir edə bilməz. Lakin mən təəssüf edirəm ki, mühitin, maddənin, landşaftın təsiri və nəzarəti allından uzaq olanlar, obrazlı desək, cəmi bircə ovucdur! İman elə prosesdir ki, ululardan ulu Allahdan başqa hər şey iman gətirən üçün fani və əslində əhəmiyyətsizdir. İman xarakter və* ***"mən"****in ərimə tempraturudur. Nə qədər xəbis, nə qədər alçaq və qəddar olursan ol, iman gətirsən bu xarakterik xüsusiyyətləri silə bilərsən. Saleh əməllərlə də təmizlənmiş* ***"mən"*** *doldurulmalıdır ki, yenidən əvvəlki halına qayıtmasın. İqbal deyir ki,* ***"din qətiyyət və səmimiyyətlə qəbul edildiyi və kamil şəkildə qavrandığı təqdirdə xarakter və mənəviyyatı tamam dəyişdirə biləcək həqiqətlər sistemidir!"***[219] *Bütün dinlər xarakter və mənəviyyatı dəyişə bilər, lakin yalnız bir Allaha ibadətə çağıran din, xarakter və mənəviyyatı pozitiv modifikasiya edə bilər. Çoxilahlı dinlər* ***"mən"****i eroziya və deqradasiya edir, insan qəlbindəki Allah inancını, Allah sevgisini ən azı çirkləndirir, çox vaxt da qətl edir! Şotqabığ Nitşenin* ***"Allah ölüb!"*** *ideyasını da ateizm qəlibində deyil, məhz bu baxımdan anlamaq lazımdır. İnsan qəlbində Allah sevgisi, Allah qorxusu minimuma düşüb, yaxud məhv olubsa, gec və ya tez boşalmış qəlbi müxtəlif və cazibədar bütlər işğal edir. Nə qədər ki, insanlar hamılıqla, bir nəfər kimi bütsüz yaşamağı öyrənməyib, öyrənmir və ya bacarmır qlobal xoşbəxtlik və ya noosfer bir utopiya olaraq qalacaq, bəşəriyyət axmaqlıq və azğınlıq bataqlığında çabalamaqda davam edəcək! Bir dəfəlik, müzakirə və mübahisəsiz başa düşmək lazımdır ki, bütlə mənəviyyat saflaşmır, əksinə korlanır və məhv olur! İqbalın da səhvi odur ki, o xarakter və mənliyin pozitiv modifikasiyasını və həqiqəti bütün dinlərə aid edir. Halbuki elə din var ki, ən dürüst və ən saf məxluqu da ən alçaq, ən kafir və ən şərəfsiz məxluqa çevirə bilər. Sapdırıcı dinlərdən biri olan qriqoryanlığın ermənilərə hansı xarakter və mənlik bəxş etdiyi gözümüzün qabağındadır! İmanlı və imansız fərd olduğu kimi ermənilər kimi demək olar ki, imansız etnoslar da var. Bunlar tamam ayrı-ayrı yolların yolçularıdır! Hər bir insan təbii olaraq özünəməxsus xarakterə malikdir. Bu xarakter insan müəyyən yaş həddinə çatanda bir növ donur. Lakin iman ən donmuş xarakteri*

[219] ***Muhammed İkbal, İslamda Dini Düşüncənin yeniden doğuşu. İstanbul, 1984, 18***

*də əridib yeni və təmiz formaya salmağa qadirdir! Imansız geolandşaftın kontrolundadır, amma iman gətirən və imanında doğru və sağlam olanlar nəinki geolandşaftı, bütün geosistemi kontrol edə bilərlər. Ən kədərləndirici budur ki, hər bir irq və xalqın əksəriyyətini təşkil edən şərəfsiz və imansızlar mənsub olduqları irq və etnosların ən alçaq xüsusiyyətlərini özlərində əks etdirirlər! Məsələn, imansız talış fırıldaq, bandit və oğru, imansız inquş və avar, yaxud da çeçen yolkəsən, başkəsən, qulaqkəsən, imansız fars qorxaq, cılız, satqın və riyakar, imansız kürd kobud, tərs və qaba, imansız ləzgi xəyanətkar və satqın, imansız osmanlı təkəbbürlü, pula və qadına kölə olan qadın düşkünü yaramazdır! Əgər insanlar bir vaxt olduqları kimi yeganə din və yeganə irqin nümayəndələri olsaydılar, bu zaman və bu yerdə aralarında yaranan kin-kidurət tez bir zamanda aradan qalxardı! Bir vaxt vardı hamımız bir ümmət idik, bir dildə danışar, bir milləti təmsil edərdik, lakin budur təxminən 10 min ildir ki, başıboşluqlarımız ucbatından parçalanmışıq! Quranda bir-neçə ayədə, o cümlədən Bəqərə surəsinin 21-ci ayəsində deyilir:* ***"İnsanlar tək bir ümmət idilər!"***[220] *Bız bir neçə dəfə qlobal sivilizasiya yaratdıq ki, Atlantida bunların ən kiçiyi idi. Yer üzünü az qaldıq ki, cənnətə çevirək, lakin bacarmadıq! Çünki biz bir şeyi, ən vacib, məhz unutmamalı olduğumuz şeyi unutduq - Yaradanımızı! Lakin O, buna baxmayaraq bizə min illərlə möhlət verdi, amma biz yenə də Ona asi olduq, hətta Allahlıq iddiasına düşdük və nəticədə məhv edildik! Budur, O, bizi yenidən yaradıb, yaradıb ki, biz öz əməllərimizə özümüz şahid olaq və bəlkə doğru yola meyl edək! Lakin biz yenə də bir vaxtlar getdiyimiz yollarla gedirik! Elə bil ki, bu yolların daimi yolçularıyıq! Yer üzündə etnik və irqi konfiliktlərin olmadığı İslam mühiti bərqərar etmək və bu mühitin əbədi sakininə çevrilmək üçün yalansız və bütsüz yaşamağı öyrənmək lazımdır. Belə olmaq çox çətindir, amma o dərəcədə çətin deyil ki, mümkün olmasın. Yer üzündə çox şey eləmək olar – bütpərəstlik də, muvahhidlik də; yaxşılıq da, pislik də! Birincisi çox cətin, ikincisi isə çox asan bir amal olduğundan, əksəriyyət o yolun yolçusu funksiyasının daşıyıcısıdır. Birincini Allah, ikincini iblis himayə edir, lakin əfsus ki, insanların əksəriyyəti Yaradanı qoyub düşmənimizin himayəsinə sığınır! Ağ dəri ilə qara dərini, düz saçlarla dalğalı saçları, papuasla türkü, buşmenlə anqlosaksı birləşdirə bilən*

[220] ***Bu cümlə Quranda bir-neçə yerdə təkrarlanır.***

*yeganə ideya, yeganə amil var. Bu, İslam dinidir. Daha dəqiq və daha xüsusi desək QURANDIR! Bütün insanlar bunu başa düşsəydilər, onda heç dərdimiz olmazdı! Lakin bizim tərəfimizdən buna əmin olmaq uşaq sadəlövlüyü olardı. İslam yeganə dindir ki, həqiqi olaraq hər bir insana onun Allah qarşısında məsuliyyyət hissinə, Allahdan nə qədər çox qorxmasrna, yənı imanının dərəcəsinə görə qiymət verir. Siz bütün başqa dinlərdə ya siyasi, ya iqsadi, ya irqi, ya da bunların hamısından təşkil olunmuş sistemli və kompleks ayrı seçkilik görərsiz. Amma İslam(endirilmiş formasında) tam təbii və sosial hüquqlar üzərində bərqərar olmuş bir dindır. Ancaq unutmayaq ki, İslam ürəklərdə özünə yer tapmayanda və ya ürəklərə tam oturmadıqda ən azı irqi və ya etnik müharibə baş verir. Bu zaman siyasi-iqtisadi münaqişələrin də yaranacığını nəzərə alsaq, problemin böyük olduğunu təsəvvür etmək çətin olmaz. Məhz İslam olmayan mühitdə ağ və qara, türk və fars, yəhudi və ərəb, kəndli və şəhərli kimi məsələlər öz qüvvəsində qalır və hər bir irq və kollektiv öz-özlüyündə böyük təhlükəyə çevrilir! İslam iman faktoru ilə təbiətcə lovğalığa meyilli ağ irqi, özbaşnalığı sevən qara irqi, çapıb-talamağı özünə peşə etmiş sarı irq nümayəndələrini bir yerə cəm etməyi asanlıqla bacarır. Allah hər şeyə, İslam da çox şeyə qadirdir! Tarixin təkrarlanmaması üçün iman gətirmək, saleh olmaq vacib və lazımdır! Özünü tanamaq üçün inanmalı, saleh olmalı və Allahın yer üzündəki xəlifəsi olduğunu dərk edib Ona xəyanət etməməlisən. Bəziləri irqi bərabərlik faktoruna görə İslamı kommunizmlə müqayisə edirlər, lakin bunlar tamam bir-birindən fərqli sistemlərdir. Əgər kommunizm qlobal bərabərlik ideyasıdırsa, İslam Aristotelin təbiri ilə desək,* ***"hamı üçün deyil, yalnız bərabərlər üçün bərabərlikdir!"*** *Bəli, İslam təsdiq edir ki, mömin möminin, şeytan da şeytanın qardaşıdır. Kommunistlər isə demokratlar kimi deyirlər ki, mömin də şeytanın qardaşı ola bilər. Əcaba, Aslan kaftarla qardaş ola bilərmi!? Kommunistlərin və digərlərinin irqi və ya milli bərabərlik ideyası İslamdan oğurlanıb və sıçan tələsinə qoyulmuş kiçik ət parçasını xatırladır! Kommunizm ideyaları zahirən cazibədar, mahiyyətcə isə qorxunc, yırtıcı fikirlər yığnağıdır! İslam ısə zahirən vahimə yaradan, lakin məzmunca çox incə, tez anlaşılan, sevgi və məhəbbətlə aşıb-daşan, "**mən**"i sağaldan, salamat edən ideya və fikirlər sistemidir. Kommunizm "**mən**"in necə deyərlər **atasını yandırır,** demokratiya isə **anasını ağladır!** Profan dünyagörüşün zirvələrindən olan kommunizm və sosializmin eleqant*

*geyimlər altında gizlənmiş vəhşi və iyrənc təbiəti 70 illik sovet-satanik imperiyasında büsbütün özünü biruzə verdi! Hələ bu rejim qurulmamışdan öncə onun satanik təbiəti və mahiyyəti barədə böyük zəka sahibləri bəşəriyyətə xəbərdarlıqlar etmişdilər. Bu dühalardan biri və bəlkə də birincisi olan böyük rus filosofu Berdyayev* ***"Bərabərsizlik fəlsəfəsi"****ndə belə yazırdı:* ***"Sosialist dövləti demokratik dövlət kimi sekulyar dövlət deyil, sakral dövlətdir. Belə bir dövlət prinsipcə nə din azadlığına yol verə bilər, nə də hər hansı bir azadlığı qəbul edə bilər. Bu dövlət sağ etiqadı – sosialist etiqadını qəbul edənləri qəbul edir. Bu rejim daha çox aftoritar teokratik dövlətə oxşayır. Sosialist dövləti sözün əsl mənasında satanakratiyadır! Sosializm məsih etiqadını təmsil edir. Proletariat məsih sinfidir. Proletariatın "xilaskar ideyalar"ının qoruyucusu isə hədsiz dərəcədə mərkəzləşmiş və diktatura xarakteri alan kommunist partiyasıdır. Xalqın heç bir iradəsi qəbul edilmir. Xalqı proletariatın "müqəddəs" iradəsinə zorla tabe etdikləri kimi, proletariatı da proletariat "ideya"sına tabe edirlər. Həqiqəti bilsələr də, həqiqətə çox az adam tabe olur!"*** *Berdyayev kommunist və sosialistlərin bərabərlik ideyasının uydurma, qeyri-səmimi və absurd olduğunu* ***"Bərabərsizlik fəlsəfəsi"****ndə hər tərəfli əsaslandırmışdır. Təəssüflər olsun ki, bu günün demokratiya iddiaçılarının da əksəriyyəti yaxın keçmişin kommunist və bolşeviklərinin yolunu gedirlər. Üzdə qardaşlıq və bərabərlik ifadəsi, arxalarında isə böyük LİNÇ durur! Bərabərlik fiziki və maddi olmaqdan daha çox, mənəvi, xarakterik və psixoloji anlayışdır. İnsan sivilizasiyasının faciəsi kommunist kütbeyinlərin arzuladığı və iddia etdiyi kimi iqtisadi və ya maddi bərabərsizliklə deyil, məhz mənəvi və psixi bərabərsizliklə başladı. Kommunistlər İslamdan oğurladıqları bərabərlik ideyasını həm təhrif etdilər, həm də insanları(hətta müsəlmanları da) qandırmaq üçün sosiallıq faktorunu ön plana çəkdilər. Bolşevizm tarixindən bunu da bilirik ki, onlar bəzən müsəlman cildinə də girirdilər. Qardaşlıq ideyası bütün əqidələrdə var, amma İslamdakı qardaşlıq ideyası elə bir nemət, elə bir ruzi, elə bir gözəllik və elə bir dəyərdir ki, bütün irqi və etnik konfliktlərə son qoyub bir millət olmağı tələb və təbliğ edir. Bu tələbi yerinə yetirməyən müsəlman ola bilməz. Nəbinin bir-birinə əbədi qan düşməni olan xalq, tayfa və şəxsləri necə qardaş etdiyi tarixdə məşhurdur. İslam baxımından İslamdan qeyri əqidələr haqlı olaraq cahiliyyə hesab edilir ki, kommunizm, faşizim, modernizm, bir*

*sözlə bütün bu tip firqəçi* **izmlər** *bura daxildir. Bəzi ideyaların bəzi görüşləri ilə bir-çox İslami-Qurani görüşlər arasında üst-üstə düşmələr mövcud olsa da, bu İslam, iman, elm və hikmət sahiblərini çaşdırmamalıdır! Nəbi elə insanları İslam ideyası və İbrahimin millәti ətrafında birləşdirmişdir ki, heç bir cahiliyyə ideoloqu, heç bir cahiliyyə ideyası hətta, bütün dünyanı təklif etsəydilər belə bunu bacarmazdı. Nəbi İslam ideyası ilə ən barbar etnoslardan olan ərəbləri islah edə bildi. Əlbəttə, ona kosmik dəstək vardı. O, cahiliyyə ərəbinin ən aşağılıq şudra təbəqəsindən hesab etdiyi Bilala azan vermək üçün ərəb dünyası üçün ən müqəddəs və ən uca olan Kəbənin üstünə qalxmağı əmr etdi. Cahiliyyə ərəbinin müqəddəs və ən üstün gördüyü Kəbə, ən aşağılıq gördüyü Bilalın ayaqlarının altında idi... Bu artıq irqi fitnənin kökünü kəsmək demək idi. Bu böyük ideoloji inqilab idi.*

# *Rəylərlərdən fraqmentlər*

*Rəşad Ramazanlının «**Mühitin fəlsəfəsi**»kitabına*
*RƏY*

*Təqdim olunan kitab sübut edir ki, müəllif isdedadlı, zəki və xüsusi qavrayış tutumuna malik gənc alimdir. O, coğrafiya fakultəsində oxusa da, fəlsəfəyə dərindən maraq göstərir, fəlsəfi təfəkkür və düşüncənin dərinliklərinə nüfuz edir, dünyanın ən böyük filosoflarının, o cümlədən Nizaminin, Kantın, Nitşenin, Yaspersin, Freydin, Uatheydin və başqalarının ideya dünyasına səyahət edir. Ən səciyyəli cəhət budur ki, Rəşad müstəqil və dəyərli fikir söyləmək qabiliyyətinə malikdir. O, çalışır ki, araşdırdığı hər bir məsələdə öz fikri, öz mövqeyi olsun. Sovet dövründə bu cür kitabları heç kim çap etməzdi. Hətta, Rəşad kimi düşünənlərin həyatı o zamanlar daim təhlükə altındaydı. Amma bu gün bu zülmlər tam aradan qaldırılmasa da, o dərəcədə deyildir. Bu gün fəlsəfə və bənzəri sahələrdə deyə biləcəyin 100 sözdən heç olmasa 10-nu deyə bilirsən, amma o vaxt birini demək belə ölümə doğru könüllü addım atmaq demək idi. O vaxt marksist və kommunist olmayana sovet aləmində yer yox idi! Rəşad kitabında olan bəzi lüzumsuz şərhlərdən imtina etsə çox yaxşı olar. Bu kitabda vahid məntiqi sistem və ardıcıllıq problemi olsa da, hər halda bədii-fəlsəfi, müasir elmi üslubla ifadə edilən dərin fikirlər adamı elə alıb aparır ki, bu xırda çatışmazlığa diqqət etmirsən. Müəllif bu kitabıyla açıq-aydın sübut edir ki, alimdir, mütəfəkkirdir, psixoloqdur və həm də şairdir. Bunu görmək istəməmək və ya qəbul etməmək də alim və filosoflara yaraşmaz. Əgər hər hansı bir insanın elm və fəlsəfədən azacıq da olsa nəsibi varsa, Rəşada, onun yaradıcılığına və xüsusən də dərin ideyalarına biganə qala bilməz və qalmamalıdır. Bu kitabın dəyəri ondadır ki, burda şablon, plagiat və taftalogiyadan söhbət gedə bilməz. Bu kitabın hər fəsli, hər sərlövhəsi orjinal, elmi və düşündürücüdür. Əsərdə işlədilən yeni termin, anlayış və ideyalar nəinki nəinki postsovet miqyasında, hətta bütün dünyada novatorluq sayıla bilər. Məsələn, teoekologiya, ekopolitika, kulturasofiya, teokultura, ekofizika və başqa bir-çox termin, anlayış və kateqoriyaları ilk dəfə bu kitabda görmək olar. Müəllif sadəcə termin işlətməklə kifayətlənmir, bu terminlərin elmi mənasını sistemli şəkildə açıqlayır. Kitabın metodologiyası sinergetikdir və burda hər bir elm sahəsinə(fəlsəfə, ekologiya, coğrafiya, fizika, etnoqrafiya və s.) dair ideyalara rast gəlmək olur. Müəlliflə etdiyimiz müzakirə və*

*münazirədən də bəlli olduğu kimi o özü də sinergetik xarakter və ideyaya malikdir. Müəllif ixtisasca coğrafiyaçı ekoloq olsa da o elmin bir çox sahələrini, o cümlədən fəlsəfə, riyaziyyat, fizika, biologiya(müəllifin ifadəsilə canlışünasılıq), hüquq, etnologiya və bir çox digər sahələri də mükəmməl bilir. 25 yaşında bir gəncin bu cür ensklopedik xarekter və biliyə malik olması hesab edirəm ki, Azərbaycan elmi-ictimaiyyəti üçün böyük tapıntıdır. Ümidvaram ki, cəmiyyətimizin görkəmli və dəyərli elm adamları bu dəyərli və qiymətli gəncin əsl qiymətini verəcəklər. Əminəm ki, müəllifin aşıb-daşan mənəvi və zehni potensialı ona mütləq çox böyük uğurlar gətirəcək. Hətta, bu qiymətli kitab təkmilləşdirilərək gələcəkdə Nobel mükafatı almaq üçün də təqdim edilə bilər. Lakin müəllif vahid məntiqi sistem və ardıcıllıq çərçivəsindən kənara çıxması və acılama xarakterli tənqidlərə çox meyl etməsi barədə ona tutduğumuz iradı unutmamalıdır. Mən bir ixtiyar alim və filosof kimi bu gənc alim və filosofa yeni-yeni yaradıcılıq uğurları arzulayıram.*

***Akademik Fuad Qasımzadə***

*Rəşad Ramazanlının **«Mühitin fəlsəfəsi»** əsərinə*
*Rəy*

*Həyatımda çox insanlar - alimlər və özlərini alim sayan cahillər, yazıçılar və maklaturaçılar, siyasətçilər və siyasətbazlar, bir sözlə insanların və dünyanın hər cür üzünü görmüşəm. Amma bu yaxınlarda tanış olduğum Rəşad HƏQIQƏT öz yaşına və başına, orjinal və radikal düşüncə tərzinə, inkarçılığına, zülmə və zalımlara qarşı üsyankar fikirlərinə və həmçinin təbiətinə görə bənzərsizdir. Orjinal ideyalar belə insanlarda olur, böyük kəşfləri də belə insanlar edir. Belə insanlar yaltaqlanmağı bacarmırlar! Belə insanlar zülm qarşısında, çirkinliklər qarşısında susmağı bacarmırlar! Belə insanları elə bu cür, olduğu kimi qəbul etməliyik.*

***«Mühitin fəlsəfəsi»** əsəri Rəşadın beşinci əsəridir. Onun birinci kitabı **«Empriomaterializm»**, ikinci kitabı **«Məxfi Həqiqətlər»**, üçüncüsü **"Mühitşünaslıq"**, dördüncüsü isə **"Məxfi Həyat"** adlanır. Birinci kitabında o, bizə məlum olan və olmayan varlıq sisteminin materiyadan başqa bir şey olmadığını isbat etmişdir. Ikinci kitabında həm mistik, həm də real həqiqətlərdən danışır. Üzərində qısaca durmağı lazım bildiyim əlinizdə tutduğunuz **«Mühitin fəlsəfəsi»** əsəri isə onun üçüncü kitabı olan **"Mühitşünaslıq"**ın yenidən işlənmə, genişləndirilmə və təkmilləşdirilməsinin nəticəsidir. Rəşad HƏQIQƏT spesifik bir məntiqlə göstərir ki, təbiətə mənfi təsir etmək baxımından insan canlıların ən təhlükəlisidir. Rəşad yazır ki, insanın yaratdığı şeylərin ən qorxuncu, ən pisi totalitarizmdir. Digər tərəfdən o, insanın yaradılmışların ən alisi olduğu fikrini rədd edir və bu ideyanın din və Allah adından uydurulduğunu söyləyir. Müəllif həmçinin mühit, landşaft, geosistem, ekosistem və bir-çox digər coğrafi-ekoloji fəlsəfiləşdirilmiş anlayışlara daha dəqiq tərif verməyə cəhd edir. Rəşad müasir ekofiziki problemləri də çözməyə çalışır. Maddə-sahə cütlüyünü materiya-mühit cütlüyü ilə əvəzləməyi təklif etməsi buna sübutdur. Müəllifin ən böyük özəlliklərindən biri də kitab boyu yeri və zamanı gəldikcə Allahın nazil etdiyi ən son və ən kamil kitaba - Qurana istinad etməyi unutmamasıdır. Yer üzündəki problem və konfiliktlərin yeganə həll yolunun İSLAM mühitinin bərqərar olmasıyla bağlı olduğunu söyləməklə müəllif ekoloji problemlərə teoloji yanaşmasını da ortaya qoyur. Digər tərəfdən Rəşad fəryad edərək bütün problemlərin kökünün zalım hökumət və hökmdarlara*

*bağlı olduğunu sübut etməklə də mücahidlik edir! Müəllifin bu əsərində kifayət qədər orjinal və maraqlı fikirlərlə yanaşı, subyektiv və mübahisəli fikirlər də var. Lakin bu kitab çox dəyərli və qiymətli əsərdir. Bu kitabın qiyməti onu 25 yaşlı müsəlman, türk və azərbaycanlı mütəfəkkirin gözəl bir dillə yazmasıdır. Bu kitabın qiyməti müəllifin elmin müxtəlif sahələrinə baş vurub uyğunlaşmayan elm sahələri arasında vəhdət axtarmasındadır. Indi dünya elmi fikri bu nəticəyə gəlib ki, elmlər bir kökdən yaranıblar və bir kökdə də birləşəcəklər. Bu elm sinergetika adlanır. Hesab edirəm ki, Rəşadın bu kitabı da sinergetik düşüncənin məhsuludur. Bu aləmdə elə bir ideya, elə bir dərin məzmunlu əsər çətin tapılar ki, müəllif onun haqqında ən azı normal səviyyədə məlumatlı olmasın. Buna görə də əminliklə deyə bilərik ki, sələfi-alimin insan haqqında, onu formalaşdıran mühit haqqında demək olar ki, hər şeyi müxtəlif linqvistik formalarda ifadə etsələr də, bu barədə sistem və nəzəriyyə yaratmayıblar. Həm də heç bir dövrdə mühitin, landşaftın insan xarakterini formalaşdırması barədə nəzəriyyə yaratmaq və bu nəzəriyyəni təhlil etmək üçün bu qədər ehtiyac yaranmayıb. Bizdən əvvəlki hər hansı bir dövrdə belə bir ehtiyac yaranmış olsaydı, Platon, Əli, Biruni, Kant kimi fövqəlcanlı üçün belə bir işi yerinə yetirmək çətin olmazdı. Lakin tarix, həyat və təbiət ola bilənlərə görə deyil, olmuşlara görə hökm edir. Və budur bu gün onlar yeni bir hökm çıxarırlar. Mən bütün gənclərimizə Rəşad çalışqanlığı, Rəşad istedadı arzu edirəm. Allah Rəşadın beyninə və yollarına işıq salsın. Allah ona totalitar mühit və bu iyrənc, dəyərsiz, absurd mühiti təşkil edən iyrənc, absurd və dəyərsiz məxluqlar üzərində əbədi qələbə nəsib etsin!*

***Rasim Osmanzadə***
***fəlsəfə elmləri doktoru, professor***

*Rəşad Ramazanlının «**Mühitin fəlsəfəsi**» əsərinə*
*Rəy*

*Gənc alim və filosof Rəşad Həqiqət gözümüz önündə oxuyub təhsilini başa vurmuş, tələbəlik illərindən spesifik təfəkkürə malik, çox vaxt da çətin başa düşülən gəncdir. Onun dünyaya, ətraf mühitə, insanlara spesifik yanaşma üsulu var. Onun bu yanaşması, bu yanaşmanın nəticəsində yaranan mülahizə və fikirləri çoxlarına xoş gəlməsə də onun müdrikliyinə və alimliyinə heç bir şübhə ola bilməz. Onun bənzərsiz yazılarını oxuyan vicdansız və xəbislər əsəbləşir, axmaq və zırramalar gülür, xeyirxah və doğrularsa göz yaşları içində sevinirlər. Sevinirik ona görə ki, doğma azəribaycanımızda belə insanlar var və bu cür nadir insanlar bizim içimizdən də çıxır. Amma kədərlənirik ona görə ki, belə insanları başa düşənlər çox azdır. Kədərlənirik həm də ona görə ki, Rəşad kimi acı həqiqət carçılarının taleyinə çox nadir hallarda xoşbəxtlik yazılır. Onun **“Mühitin Fəlsfəsi”** kitabında elm və təbiət fəlsəfəsinin əsas prinsip və anlyışları analiz və təhlil edilir, mühitin həm elmi, həm teoloji, həm də metafiziki mahiyyəti açıqlanır. Mən filosof və siyasətçi olmadığım üçün müəllifin siyasi və fəlsəfi fikirlərinə cavabdehliyi onun öz məsuliyyətinə buraxıram. Lakin etiraf etməliyəm ki, daim axtarışda olan Rəşad böyük HƏQIQƏT təxəllüsünə layiq olmaqla, kimi və nəyi tənqid edirsə yalnız həqiqəti deyir. Düzdür o bəzən ədəb və əxlaq normativlərini gözləmir, amma onun çəkdiyi əzab və əziyyətlər bu səhvi ona bağışlamağımız üçün kifayətdir. Əfsus ki, bəzi siyasi nüfuz və güc sahibləri Rəşadın həqiqətlərini ya anlamır, ya da anlamaq istəmirlər! Mən cəsarətlə deyə bilərəm ki, bu onların problemidir, Rəşadın deyil! Haqqı demək onun borcudur! Problemlərlə qaynayan ətraf mühit vicdanlı insanları narahat etməyə bilməz! Mən arzu edirəm ki, görkəmli alimlərimiz bu kitabı oxuyub müəllifinə layiq olduğu qiyməti versinlər. Bu gün bu arzu gerçəkləşməyəcəksə də, çox da uzaq olmayan gələcəkdə Rəşadın adının Fərabi, Nitşe və Freyd kimi müdriklərlə yanaşı çəkiləcəyinə şübhə etmirəm. Rəşada xoşbəxt gələcək və böyük yaradıcılıq uğurları arzulayıram.*

***Telman Xəlil***
***Coğrafiya elmləri doktoru, professor***

*Rəşad Həqiqətin **«Mühitin fəlsəfəsi»** əsərinə*
*RƏY*

*Mən Rəşadın yaradıcılığına yaxşı bələdəm. Əsərlərini yenidən nəşrə hazırlamasına çox sevindim. Onun tərbiyəsi, elmi və ən əsası filosofluğu azərbaycan elmi mühiti üçün sözün həqiqi mənasında nadir hadisədir. Onun kitabları nəinki sovet dövründə, hətta son 20 ildə yazılmış fəlsəfi-publisistik əsərlərin çoxundan daha faydalı, daha maraqlı və daha üstündür. Müəllifin bu kitabı onun çox sanballı tədqiqat işidir. Onun əvvəlki kitabları olan **«Empriomaterializm», «Məxfi həqiqətlər», «Ekosofiya», «Mühitşünasılıq»** əsərlərini oxuduqdan sonra və son kitabının əlyazmasıyla yaxından tanış olduğuma görə və xüsusilə fəlsəfə, ekologiya, ətraf mühit haqqındakı görüşlərini ilk öncə mənimlə müzakirə etdiyi üçün onun ideya dünyasına çox yaxşı bələdəm. Buna görə də onun bu kitabının sanballı fəlsəfi, ekoloji, coğpafi və etnoloji fikirlərlə zənginliyini nəzərə alaraq kitabın kütləvi nəşrini məsləhət bilirəm. Kitabda bir çox ekoloji, coğrafi fəlsəfiləşdirilmiş ideyalar bugünkü oxucu üçün faydalı olardı. Əsərdə coğrafiyaçı, bioloq, psixoloq və kimyaçılar üçün də faydalı fikirlər var. Amma bütün bunlarla yanaşı üzərində dərin tədqiqatların tələb olunduğu fikirlər də az deyil. Müəlliflə apardığımız müzakirələrdən sonra bildirdi ki, gələcəkdə bu fikirlər daha mükəmməl tədqiq və şərh olunacaq. Ümidvaram ki, Rəşad aydın fikirli və özünəməxsus təfəkkür tərzinə malik bir müəllif olduğu üçün onun bu kitabı da elm adamları və düşüncəli insanlar tərəfindən layiqincə və dərin maraqla qarşılanacaq. Allahdan bu gənc mütəfəkkirə əbədi uğurlar arzulayıram!*

***Hüseyn Xəlil***
***Coğrafiya elmləri doktoru, professor***

*Rəşad Həqiqətin **«Mühitin fəlsəfəsi»** əsərinə*
*RƏY*

*Bu kitabın məziyyətləri çoxdur, amma əsas məziyyəti müəllifin qlobal miqyasılı orjinal ideyalar ortaya qoyması və mövcud qlobal problemlərin əsas səbəbinin siyasətçi və hərbiçilərin törətdikləri fitnə-fəsadlarla bağlı olduğunu sübut etməsindədir. Demək olar ki, onun bütün yaradıcılığı haqsızlıq, zülm və fəsada qarşı üsyan üzərində kök atıb. Sanki o zalımlara qarşı çıxmaq üçün doğulub. Onun hər bir əsəri rəngarəng və qiymətli fikirlərlə zəngindir. Onun hər bir əsəri azərbaycan elm aləminin incisidir. Belə bir tələbəni yetişdirmək üçün hər hansı bir təhsil ocağına ən azı əsrdən çox vaxt lazımdır. Halbuki Rəşad nəinki coğrafiya fakultəsinə, nəinki BDU-ya, bütün Azərbaycan xalqına Allahın hədiyyəsidir. Onun məndə olan üç kitabını(**Empriomaterializm, Mühitşünaslıq, Məxfi Həyat**) oxuduqdan sonra bir daha əmin oldum ki, xalqımız nə qədər rəzillik və səfalət bataqlığına sürüklənsə də, millətimizin min illərdir ki, formalaşmış elmi və zehni potensialını bolşeviklər və onların bu günkü varisləri tam məhv edə bilməmişlər! Təkcə bu kitabın bircə bölməsi marksist-leninçilərmizin, neobolşeviklərin bütün tartan-partanlıqlarına dəyər! Təbii ki, mənim kimi əski bir marksistin belə bir həqiqəti etiraf etməsi çağdaş demokrat-bolşeviklərin xoşuna gəlməyəcək. Amma bütün ağrı-acılara, zülm və senzuraya baxmayaraq Allah həmişə Rəşad Həqiqət kimi insanlar yaradıb və yaratmaqdadır! Bizə düşən bu cür insanları dinləmək, anlamaq və yardımsız qoymamaqdır! Rəşada və onun yaradıcılığına qiymət vermək və bu verilən qiyməti yazılı ifadə etmək hal hazırda böyük cəsarət və hünər tələb edirsə də, yaxın gələcəkdə bu gün ona düşmən münasibət bəsləyənlərin də onunla fəxr edəcəyinə əminəm! Mən Ona Allahdan uzun və dərin yaradıcı həyat arzulayıram. Bir də arzu edirəm ki, böyük Allah onu daim xəbislərin şərindən qorusun!*

***Qudrət Ishaqlı***
***fizika-riyaziyyat elmləri doktoru, professor***
***Nyu-york elmlər akademiyasının həqiqi üzvü***

*MÜNDƏRİCAT*

*Giriş*...........................................................................................3
*IFəsil. MÜHİTİN GENEZİSİ, MAHİYYƏTİ və FORMASI*
*1.1.Mühit bir termin və anlayış kimi*..............................................13
*1.2.Mühitin metafizika və ekofizikası*.............................................21
*1.3.Landşaft mühitin formasıdır*.....................................................32
*1.3.1.Geolandşaft yerin formasıdır*.................................................40
*1.4.Etnosların formalaşmasında ətraf mühitin təsiri və rolu*.........53
*IIFəsil. BİOSOFİYA və BİOFİZİKA*
*2.1.Həyat bir termin və anlayış kimi*..............................................94
*2.2.Həyatın mahiyyəti və mərhələləri*.............................................97
*2.3.Canlı və Cansız maddə arasındakı fərq*..................................128
*2.3.1.Antropogenez*........................................................................134
*IIIFəsil.EKOPOLİTİKA, EKOKULTURA və EKOSOFİYA*
*3.1. Ekopolitika və ətraf mühitin ekopolitik subsantsiyası*...........144
*3.2.Ətraf mühit ekosofiya və ekoetika baxımından*......................162
*3.3.Profan modern mədəniyyətin ətraf mühitə təsiri*....................169
*3.4.Təbiətin dini mənası və əsası*..................................................203
*3.4.1.Təbiət və din arasında estetik bağlılıq*...............................243
*3.4.2.İslam və irq*...........................................................................254
*RƏYLƏRDƏN FRAQMENTLƏR*................................................263

***Mətbəə kitabın məzmunu və orfoqrafiyasına görə heç bir məsuliyyət daşımır.***

*Yığılmağa verilmişdir: 02.02.2007*
*Çapa imzalanmışdır: 07.07.2007*
*Kağız formatı: 60x84 1/32*
*Tiraj: 500 nüsxə. Həcmi 25 çap vərəqi*
*Sifariş:№77.*

***«Mütərcim»*** *Nəşriyyat-Poliqrafiya mərkəzi*
*Ünvan: H.Aslanov küç., 80.*
*Tel./faks: 94-85-65*

*Müəllifin email adresi:* ***rashad20132019@gmail.com*** ***və******rashad777@inbox.ru***